# NUR TƏFSİRİ

## ON İKİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحیم


نام کتاب:...................................................تفسیر نور (جلد-12)

مولف:...........................................................محسن قرائتی

مترجم:................................................................حاج آرزو

ناشر:......................................................................... فائز.

تاریخ چاپ:..............................................................1385

نوبت چاپ:...............................................................اول

تیراژ:.......................................................................2000

**Kitabın adı:.......................................Nur təfsiri (on ikinci cild)**

**Müəllif:..............................................................Möhsün Qəraəti**

**Tərcümə edən:.........................................................................H. Arzu**

**Nəşr edən:...........................................................................................Faiz**

**Çap tarixi:.........................................................................................2006**

**Çap növbəsi:........................................................................Birinci**

**Tiraj:..............................................................................................2000**

Əziz və diqqətli oxucu! Quran təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlardan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari tə`birini bəsit şəkildə tərcümə etmək zorunda qaldıq. Gələcəkdə bu ilahi işdə yardımçı olacağınızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alınacaq.

*Dua istəyi ilə tərcüməçi.*

**RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ**
**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *Ön söz*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

### *Həmkarlar*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

### *İmtiyazlar*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

Möhsün Qəraəti

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

Rəhman və Rəhim Allahın adı ilə

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1](Qeyd)

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2] (Qeyd)

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;
5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "Səqəleyn"dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

---

[1] "Maidə" 13.

[2] "Sad" 29.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin "bildirişlər" adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) "Səhifeye-səccadiyyə" kitabında Quranın xətm duasında buyurur: "Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil."

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

09 Rəbius-sani, 1414

Mehdi Hüseyni Ruhani

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

Möhsün Qəraəti

*Rəhman və Rəhim Allahın adı ilə*

# "CUMUƏ" SURƏSİ

***(62-Cİ SURƏ; 11 AYƏ)***

***İYİRİMİ SƏKKİZİNCİ CÜZ***

## *"CUMUƏ" SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 11 ayədən ibarətdir.

Surədə izlənilən əsas məqsəd müsəlmanları həftəlik cümə namazında yekdilliklə iştiraka təşviq etməkdir.

Surə Allaha təsbih, İslam peyğəmbərinin (s) besətinin bəyanı ilə başlayır. Növbəti ayələrdə müsəlmanlardan istənilir ki, Tövrata əməl etməyən yəhudilər kimi olmasınlar. Cümə namazına çağırışı eşitdikləri vaxt onlardan bütün işlərdən əl çəkmək, Allah zikrinə tələsmək tələb edilir. Bu tələblərə əməl etməyənlər məzəmmətə layiqdir.

Cümə axşamları və cümə namazının birinci rəkətində bu surəni oxumaq tövsiyə olunur.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿يُسَبِّحُ لِلَّهِ مَا فِي ٱلسَّمَاوَاتِ وَمَا فِي ٱلْأَرْضِ ٱلْمَلِكِ ٱلْقُدُّوسِ ٱلْعَزِيزِ ٱلْحَكِيمِ﴾**

**“Göylərdə və yerdə olanlar malik, müqəddəs, yenilməz və hikmət sahibi olan Allaha təsbih deyirlər.”**

### Nöqtələr

◘Ötən surə “Səbbih”, bu surə isə “yusəbbihun” təbiri ilə başlayır. Bu yolla bildirilir ki, təsbih yalnız həmişə olmuş, hazırda olan və həmişə olacaq Allaha məxsusdur.

◘Olsun ki, bu ayədə dörd ilahi sifət növbəti ayəyə müqəddimə üçün təkrarlanır. Bildirilir ki, Allah sizin pərəstişinizə möhtac olduğu üçün peyğəmbər göndərməyib. O pak və qüdrətli hakimdir, peyğəmbərləri hikmət əsasında göndərmişdir. Peyğəmbərin gəlişində məqsəd paklanma, özünü tərbiyə, təlim, dini elmlərə yiyələnmək və hikmət vasitəsi ilə zülmətlərdən nura çıxarmaqdır.

◘Allahın təsbihi, yəni pak sayılması bütün İslami əqidə və düşüncələrin kökündür: tövhid Allaha təsbih və Onu şəriksiz tanımağa əsaslanır[1](Qeyd); ədalət Allahın zülmdən pak sayılmasına əsaslanır[2](Qeyd); peyğəmbərlik və imamət də Allahın təsbihindən qaynaqlanır. Yəni Allah bəşəriyyəti rəhbərsiz qoymaq kimi sifətdən pakdır. Allahın vəhy

[1] “Tur”, 42
[2] “Qələm”, 29

və peyğəmbər göndərmədiyini iddia edənlər əslində onu düzgün tanımamışlar[1](Qeyd); məad (ölümdən sonrakı həyat) Allahın mənasız işlər görməməsi prinsipinə əsaslanır.[2] (Qeyd)

Bəli, əgər insan Allahı eyb və nöqsandan pak bilsə, Ona aşiq və bəndə olar. Nöqsansız varlıq qarşısında insanın öz günahlarına görə qorxması, ona təvəkkül etməsi, fərdi və ictimai rabitələrdə Onun razılığını nəzərə alması tam təbiidir.

### *Təsbihin (Allahın pak sayılmasının) əhəmiyyət və yeri*

◘Quranda səkkiz dəfə təvəkkül, iki dəfə səcdə, səkkiz dəfə istiğfar, beş dəfə ibadət, beş dəfə zikr, iki dəfə təkbir, on altı dəfə isə təsbih əmri bəyan olunmuşdur.

◘İmam Sadiq (ə) həzrət Peyğəmbərdən (s) rəvayət edir ki, o buyurmuşdur: "Əgər bir bəndə "Subhənallah" söyləsə, ərş altında nə varsa ona qoşular və bu təsbihi deyənə on qat artıq mükafat verilər. Bəndə "Əlhəmdulillah" söyləyəndə Allah dünya nemətlərini ona ruzi edir, Allahla görüşdən sonra isə həmin şəxs axirət nemətlərindən faydalanır."[3] (Qeyd)

◘Allaha təsbih bir növ Ona təşəkkürdür. Quranda buyurulur ki, qələbə əldə etdiyiniz vaxt Allaha təsbih söyləyin.[4] (Qeyd)

◘Allaha söylənilən təsbih məclislərdə deyilən və eşidilən sözlərin kəffarəsidir. Hədisdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) məclisdən qalxanda "Subhənəkəllahummə və bihəmdik" söyləyər və buyurarmış: "Bu sözlər məclisin kəffarəsidir."

◘Təsbih qurtuluş vasitəsidir. Qurani-kərim həzrət Yunis haqqında buyurur ki, əgər o təsbih deyən kəs olmasaydı həmişə balığın qarnında qalardı.[5] (Qeyd)

◘Başqa bir hədisdə buyurulur ki, insan "Subhənallah" söylədiyi vaxt bütün mələklər onu salamlayır.[6] (Qeyd)

◘Mübarək ramazan ayının sübhləri bütün cümlələri "Subhənallah" ifadəsi ilə başlayan dualar oxumaq tövsiyə edilir.

◘Hədisdə oxuyuruq: Bir şəxs imam Sadiqin (ə) görüşünə gəlib onu namaz halında gördü. İmam altımış dəfə "Subhənallah" zikrini təkrarladı. Başqa rəvayətdə bildirilir ki, imam Sadiq (ə) səcdə halında beş yüz dəfə "Subhanəllah" söyləyərmiş.[7] (Qeyd)

### *Mövcudların təsbihi*

İlahi dünya görüşündə pərəstiş və ibadət təkcə insana aid edilmir. Bildirilir ki, bütün mövcudlar Allaha pərəstiş halındadır.

◘Bir şəxs İslam peyğəmbərindən möcüzə istədi. Həzrət yerdən bir ovuc qum götürdü. Peyğəmbərin (s) istəyi və Allahın izni ilə ovucundakı qumların təsbihi ucaldı.[8] (Qeyd)

---

[1] "Ənam", 91
[2] "Ali-İmran", 191; "Muminun", 115
[3] "Təfsiri-əl mizan", c. 10, s. 30
[4] "Fəth", 1-3
[5] "Saffat", 143
[6] "Bihar", c. 93, s. 177
[7] "Vafi", c. 4, s. 157
[8] "Təfsiri-əl mizan", c. 13, s. 96

◘Əziz Peyğəmbər (s) buyurur: “Bir çox miniklər öz sahibindən üstündür. Çünki onların çoxu Allahı zikr edir.”[1] (Qeyd)

Peyğəmbər (s) heyvanların üzünə vurmağı qadağan etmişdi. Həzrət buyururdu ki, heyvanlar təsbih deyir.[2] (Qeyd)

◘Mövcudların təsbihi ilə bağlı bir neçə nöqtəni qeyd etmək yaxşı olar:

a) Qurani-kərimdə bildirilir ki, mövcudlar bilərəkdən, agahlıqla təsbih deyirlər.[3] (Qeyd)

b) Bir növ o biri növün təsbihini dərk edə bilməz.[4] (Qeyd)

Quşlar hər sübh Allaha təsbih deyir, həmin gün üçün Allahdan güc istəyirlər.[5] (Qeyd)

Şeyx Nizami bu barədə yazır:

*Xəbərin varmı ki ulduzlar niyə*
*Həvəsi düşmüşdür ayrı çevrəyə?*
*Məqsədləri nədir, gedirlər hara,*
*Kimdir yol göstərən bu səyyahlara?*

*Bu mehrabda məbudları kim ola?*
*Səbəb nədir hərə düşüb bir hala?*
*Hər biri pərgar tək dolanır heyran,*
*Zikrləri yalnız o bir yaradan.*

Hafiz Şirazi buyurur:

*Nəzər sahibləri nuruna heyran,*
*Görən olsa cilvən aydındır tamam.*

“Mənzumə” müəllifi Səbzvari deyir:

*Yenə də ağacdan ucalır haq səs,*
*Musa yoxdur deyə duyulmur nəfəs.*

Mövləvi deyir:

*Aləmdə zərrələr bir hal diliylə*
*Səninlə danışır gözü, əliylə.*
*Deyirlər görürük eşidirik biz,*
*Amma naməhrəmə çatmaz səsimiz.*

**Bildirişlər**

[1] “Təfsiri-əl mizan”
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Nur”, 41
[4] “İsra”, 44
[5] “Təfsiri-əl mizan”

1. İlahi dünya görüşünə əsasən bütün varlıq aləmi Allaha təsbih deyir.

2. Hal dili ilə təsbih hamıya aiddir. Göy və yer varlıqları, cansız aləm və nəbatat, heyvan və insan bu baxımdan fərqlənmir.

3. Sitayiş üçün meyar və dəlil olmalıdır. Təsbih həm hakimiyyət, həm müqəddəslik, həm yenilməzlik və həm də hikmət sahibi olan kəsə layiqdir.

4. Allahın hakimiyyəti müqəddəslik, qüdrət və hikmətlə müşayiət olunur.

5. Allahın hökuməti hikmətlə müşayiət olunur.

6. Allah yenilməzdir. (Necə ki, Onun peyğəmbəri, peyğəmbərə iman gətirənlər və Quran yenilməzdir.)[1] (Qeyd)

7. Yalnız hikmətlə müşayiət olunan qüdrət dəyərlidir. Allah həm qadirdir, həm də hikmət sahibi. Başqalarının qüdrəti isə adətən təkəbbür və zorakılıqla müşayiət olunur.

***Ayə 2:***

**﴿هُوَ ٱلَّذِي بَعَثَ فِي ٱلْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ يَتْلُواْ عَلَيْهِمْ ءَايَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ ٱلْكِتَابَ وَٱلْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ﴾**

**“Odur dərs görməmiş xalq arasında ilahi ayələri oxusun, onları tərbiyələndirsin, onlara səmavi kitab və hikmət öyrətsin deyə özlərindən peyğəmbər seçən. Həqiqətən, onlar bundan öncə aşkar azğınlıq içində idilər.”**

**Nöqtələr**

◘”Ummiy” sözü “umm” sözündəndir. Bu sözün Məkkə əhlinə aid edilməsinin səbəbi Məkkənin “ummul-ura” adlandırılmasıdır. Digər bir tərəfdən, oxuyub-yazmağı bacarmayanlara ərəb dilində “ummiy” deyilir. Onlar yenicə anadan doğulmuş kimidirlər.

◘İmam Sadiqdən (ə) nəql olunmuş sinifdə oxuyuruq: Məkkə əhlinin səmavi kitab və rəhbəri olmadığından Allah onları “ummiy” adlandırır. Əslində onların arasında yazmağı bacaranlar var idi.[2] (Qeyd)

◘”Yuzəkkihim” sözü “təzkiyə” məsdərindəndir. Onun kökü inkişaf, cücərmə mənasını bildirən “zəkat” sözüdür. Yəni Peyğəmbərə (s) çirkin əxlaqa son qoymaq, xalq arasında gözəl əxlaqı bərpa etmək tapşırılır. Bu gözəl əxlaq sayəsində kamala çatmaq olar.

◘Ayədə “hikmət” deyərkən Quran ayələrindən qaynaqlanan həqiqi maarif nəzərdə tutulur. İnsanda varlıq aləmi və həyata düzgün baxışla səadət zəminəsi yaranır. Allahı inkar edənlər deyirdilər ki, ömrümüz yalnız dünya həyatından ibarətdir.[3] (Qeyd)Amma Quran başqa bir həqiqəti açıqlayır. Buyurur ki, bu dünya həyatı oyun və əyləncədən başqa bir şey deyil, həqiqi həyat axirətdədir.[4] (Qeyd)

◘”Hikmət” kitabdan fərqli deyil və onun səciyyələrindən biridir.[5] (Qeyd)Allah kitab və hikməti yanaşı şəkildə Peyğəmbərə (s) nazil etmişdir.[6] (Qeyd)Demək, Peyğəmbər (s)

---

[1] “Munafiqun”, 8; “Fussilət”, 41
[2] “Təfsiri-nurus-səqleyn”
[3] “Casiyə”, 24
[4] “Ənkəbut”, 64; “Təfsiri-əl mizan”
[5] “Yasin”, 2
[6] “Nisa”, 113

üçün vəzifə olan kitab və hikmət təlimi başdan-başa hikmət olan Quranın təlimidir. Quran insanlara düzgün dünya görüşü öyrədir.[1] (Qeyd)

◘"Bəqərə" surəsinin 129-cu ayəsində bildirilir ki, həzrət İbrahim Allahdan deyilən səciyyələrə malik peyğəmbər göndərməsini istədi. Bu ayədə həmin duanın qəbul olduğunu görürük. Hədisdə nəql olunur ki, İslam peyğəmbəri (s) buyurmuşdur: "Mən atam İbrahimin qəbul olmuş duasıyam."

◘Ötə ayədə hikmət sahibi olan Allahdan danışıldı. Bu ayədə isə Peyğəmbərin (s) göndərilməsi Allahın hikmət nişanəsi, xalqa hikmət öyrədilməsi peyğəmbərliyin dəlillərindən biri kimi təqdim olundu.

◘Quranda 48 məqamda azğınlıqdan danışılır. Bu mövzuda söhbət açılarkən adətən yanaşı işlənmiş "zəlal" və "mubin" sözlərindən istifadə olunar. Bəzən də "zəlalun kəbir" və "zəlalun bəid" ifadələri ilə rastlaşırıq.[2] (Qeyd) Səthi bir baxışla müəyyənləşdirmək olur ki, əziz Peyğəmbər (s) insanlara haqq yolu necə göstərmişdir. O xalqı övladları öldürməkdən övlad sevgisinə, cəhalətdən elmə, başqalarının malını qarət etməkdən isar və fədakarlığa, sələmçilikdən halal qazanca, şirkdən tövhidə, təfriqədən vəhdətə, xurafatdan həqiqətə, zillətdən izzətə, bir sözlə, zəlalətdən hidayətə (azğınlıqdan doğru yola) yönəltmişdir. Cəfər ibn Əbu-Talib Həbəşə padşahı Nəccaşinin hüzurunda Peyğəmbəri (s) belə vəsf edir: "Biz öncə bütə pərəstiş edər, ölü heyvan əti yeyər, çirkin işlər görər, qohumlardan uzaq gəzər, qonşuların hüquqlarını pozar, zəiflərə rəhm etməzdik. Nəhayət, Allah-taala bizim üçün peyğəmbər göndərdi, və o bizi insani dəyərlərə yönəltdi.

◘Sual: İslam peyğəmbəri (s) təkcə dərs görməmiş Hicaz və ərəblər üçünmü seçilmişdir?

Cavab: Həzrət Məhəmməd (s) Məkkə əhli arasında zühur etdi və haqq yola dəvətə oradan başladı. Amma onun İran və Rum padşahlarına, müxtəlif qəbilə rəislərinə göndərdiyi məktublar cahanşümul missiyasından danışır.

## Bildirişlər

1. Peyğəmbərlərin seçilməsi ilahi işdir.
2. Peyğəmbərlərin seçilməsi ictimai həyatın bütün sahələrində oyanış və hərəkət səbəbidir.
3. Peyğəmbərin dərs görməmiş cəmiyyət arasından çıxması, eyni zamanda elm və hikmət bayrağı qaldırması ilahi möcüzədir.
4. İslam cəmiyyətinin rəhbəri xalqdan və xalq arasında olmalıdır.
5. Quran tilavəti paklıq üçün vasitə və müqəddimədir. Paklıq isə təlim-tərbiyədən öndə gəlir. Quranda buyurulur ki, Allahdan qorxun, Allah sizə həqiqətləri öyrətsin.[3] (Qeyd)
6. Paklanma və özünü tərbiyə Peyğəmbər (s) məktəbi və ilahi ayələr sayəsində mümkündür. Peyğəmbər buyuruqlarından kənar riyazət və guşənişinlik özü də bir növ azğınlıqdır.
7. Paklanma və təlim Peyğəmbər (s) proqramlarının ilk müddəalarıdır.

[1] "Təfsiri-əl mizan"
[2] "Mulk", 9; "İbrahim", 3
[3] "Bəqərə", 282

8. Peyğəmbər məktəbində ruhun tərbiyəsi və düşüncə təlimi bəsirət məsələsi ilə yanaşı bəyan olunur.

9. Pozğun cəmiyyətdə də tərbiyələndirmə işi görmək olar.

10. İlahi peyğəmbərlərin zəhmətini dəyərləndirmək üçün həmin dövr insanlarının mədəniyyət və əxlaqları ilə tanış olmaq lazımdır.

*Ayə 3:*

﴿وَءَاخَرِينَ مِنْهُمْ لَمَّا يَلْحَقُواْ بِهِمْ وَهُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ﴾

**“(Bu besət təkcə peyğəmbər dövrünə aid deyil) Hələ ki onlara qoşulmayanlara da (aiddir). Odur yenilməz və hikmət sahibi.”**

*Ayə 4:*

﴿ذَٰلِكَ فَضْلُ ٱللهِ يُؤْتِيهِ مَن يَشَآءُ وَٱللهُ ذُو ٱلْفَضْلِ ٱلْعَظِيمِ﴾

**“Bu besət (peyğəmbərin göndərilməsi) Allahın istədiyi kəsə (ləyaqəti əsasında) nəsib etdiyi ilahi lütfdür. Allah böyük lütf sahibdir.”**

**Nöqtələr**

◘Şiə və sünni təfsirlərində bildirilir ki, 3-cü ayə nazil olanda İslam peyğəmbərindən ayədəki “axərin” sözü haqqında soruşuldu. Həzrət (s) əlini Salmanın çiyninə qoyub buyurdu: “Əgər iman Sürəyyə ulduzunda olsa belə bu insanın nəslindən olanlar onun sorağınca gedəcək.”

**Bildirişlər**

1. İslam peyğəmbəri (s) təkcə müasirləri üçün yox, həm də özündən sonrakı nəsllər, irqlər və millətlər üçün göndərilmişdir.

2. İslamın gələcək nüfuzunun qarşısını heç bir qüdrət ala bilməyəcək.

3. Allahın qüdrət və hikməti peyğəmbərlərə arxadır.

4. Ötən peyğəmbərlərinin göndərilməsi dəlili olan hikmət İslam peyğəmbərinin (s) də besəti üçün dəlildir.

5. Peyğəmbərlik Allahın istədiyi şəxsə əta etdiyi fəzl və böyük məqam olsa da, Allah hikmət sahibi olduğundan yalnız əhlini bu məqama çatdırır.

*Ayə 5:*

﴿مَثَلُ ٱلَّذِينَ حُمِّلُواْ ٱلتَّوْرَاةَ ثُمَّ لَمْ يَحْمِلُوهَا كَمَثَلِ ٱلْحِمَارِ يَحْمِلُ أَسْفَاراً بِئْسَ مَثَلُ ٱلْقَوْمِ ٱلَّذِينَ كَذَّبُواْ بِآيَاتِ ٱللهِ وَٱللهُ لَا يَهْدِي ٱلْقَوْمَ ٱلظَّالِمِينَ﴾

**“Tövrata vəzifəli edilmiş amma bu haqqı ödəməyənlər kitab yüklü ulağ kimidirlər. (Apardıqlarından xəbərsizdirlər) Allahın ayələrini inkar edənlər üçün pis məsəl var. Allah sitəmkar qövmü hidayət etməz.”**

**Nöqtələr**

◘Ötən ayələrdə besətdən danışıldı. Hazırkı ayədə əllərindəki Tövrat vasitəsi ilə Peyğəmbəri (s) tanıyan, amma inadkarlıq göstərib onu qəbul etmək istəməyən yəhudilər nəzərdə tutulur.

◘"Əsfar" sözü kitab mənasını bildirən "sifr" sözünün cəm formasıdır. "Əsfar" dedikdə həqiqətlərin üzərindən pərdəni qaldıran mənası anlaşılır.[1] (Qeyd) Tövrat müxtəlif hissələrdən ibarətdir. Onun Quran surəsi kimi hər bir hissəsini "sifr" adlandırırlar. Məsələn, yaranış sifri.

◘Quran bu ayədə yəhudiləri məzəmmət etsə də bu məzəmmətlə müsəlmanları qəflətdən oyadır. Onların nəzərinə çatdırılır ki, məbadə Quranı eşidib ona əməl etməyəsiniz!

◘Qurani-kərim bir neçə məqamda yoldan çıxmış insanları dördayaqlıya bənzədir. Bu ayədə işarə olunmuş əməlsiz alimlər də bu qəbildəndir.[2] (Qeyd)

◘Sədi deyir:

*Nə qədər çox oxusan da unutma*
*Əməl yoxsa, bərabərsən nadana.*
*Əməlsizi alim saymağa dəyməz,*
*Kitab yüklü bir canlıdır o nakəs.*

*Başı boş olana fərqi nədir ki,*
*Çır-çırpıdır, yoxsa kitabdır yükü.*

◘Həzrət Əli (ə) buyurur: "Elminə əməl edən alim qurtuluş əhlidir. Elminə əməl etməyən isə həlak olanlardandır və peşimanlıq çəkəsidir. Onun pis qoxusu cəhənnəm əhlini narahat edər. Allaha doğru dəvət etdiyi xalq dəvəti qəbul edib behiştə daxil olan, amma özü cəhənnəmə gedən kəs cəhənnəmdə ən çox peşimançılıq çəkəsidir. Çünki o azğın nəfsə və uzun-uzadı arzulara uymuşdu."[3] (Qeyd)

◘İmam Sadiq (ə) buyurur: "Bildiyinə əməl etməyən alimin moizəsi qəlblərə yatmaz. Necə ki yağış daşdan sovuşub keçir."[4] (Qeyd)

◘İmam Səccad (ə) buyurur: "İncildə bildirilir ki, bildiyinə əməl etməyən alim yalnız küfr yükünü artırıb Allahdan uzaqlaşar."[5] (Qeyd)

◘Hazırkı ayədə çox sərt bir misal çəkilir. Əməlsiz alimlər ciddi məzəmmət olunur. Din öncüllərinin də bu mövzuda bənzətmələri çoxdur. Onlardan bəzilərini nəzərdən keçirək: "Əməlsiz alim şam kimidir; başqaları onun nurundan faydalanar, özü isə həlak olar"[6]; "əməlsiz alim xərclənməyən xəzinə kimdir"[7]; "pis alim suyun qarşısını kəsmiş daş kimidir; nə özü içir, nə də başqalarına imkan verir"[8]; "əməlsiz alim üfunətlə dolu nəcasət

---

[1] "Mufrədati-Rağib"
[2] "Əraf", 179
[3] "Kafi", c. 1, s. 44
[4] "Kafi", c. 1, s. 44
[5] "Kafi", c. 1, s. 45
[6] "Mizanul-hikmə", c. 9, s. 54
[7] Həmin mənbə
[8] Həmin mənbə

quyusu kimidir”[1]; “əməlsiz alim çölü bəzəkli, içindəki sümükləri çürümüş qəbir kimidir.”[2]

### *Yəhudilərin Quranda zikr olunmuş çirkin sifətlərindən*

Qurani-kərimdə yəhudilərin bir sıra çirkin sifətləri sadalanır: daş qəlblilik[3]; rifahpərəstlik[4]; yer üzündə fəsadçılıq[5]; Allaha qarşı iftira[6]; ilahi kitabın təhrifi[7]; vəhy ürəklərinə yatmayanda təkəbbür göstərmələri[8]; iman əhlinə münasibətdə böyük kin-küdurət[9]; peyğəmbərləri qətlə yetirmələri[10]; Allahın qəzəbinə gəlmələri[11]; onlardan bir qrupu həzrət İsa və həzrət Davudun nifrininə düçar olmuşlar.[12]

### Bildirişlər

1. Həqiqətlərin bəyanında təmsillərdən istifadə Quran üslubudur. (Quran əməlsiz alimləri ulağa bənzədir. Bu bənzətmə nə qədər ağır olsa da, həqiqətdir)

2. Azğın alimlərin ifşası Quran əmridir.

3. Tövrata əməl edilməməsi insanı heyvan həddinə endirirsə, daha üstün ilahi kitab olan Qurana əməl edilməməsi nə ilə nəticələnər?!

4. Səmavi kitabı yanında gəzdirmək yox, ona əməl etmək mühümdür.

5. İnsanın öz elm və biliyinə əməl etməməsi onun bu elmi əməli şəkildə təkzibinin bir növüdür.

6. Bildiyinə əməl etməmək bir növ zülmdür.

7. Məhrumiyyətlərimizin səbəbi öz əməllərimizdir.

***Ayə 6:***

﴿قُلْ يَآ أَيُّهَا ٱلَّذِينَ هَادُوٓاْ إِن زَعَمْتُمْ أَنَّكُمْ أَوْلِيَآءُ لِلَّهِ مِن دُونِ ٱلنَّاسِ فَتَمَنَّوُاْ ٱلْمَوْتَ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“De ki, ey yəhudilər, başqalarının yox, yalnız sizin Allah övliyası olduğunuzu güman edirsinizsə, əgər (düşünürsünüzsə ki) doğru deyirsiniz, onda ölüm arzulayın. (Bu yolla Allahın övliyaları üçün müəyyənləşmiş mükafata çatın.)”**

***Ayə 7:***

﴿وَلَا يَتَمَنَّوْنَهُ أَبَداً بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ وَٱللهُ عَلِيمٌ بِالظَّالِمِينَ﴾

---

[1] “Muhəccətul-bəyza”, c. 1, s. 130
[2] Həmin mənbə
[3] “Maidə”, 41
[4] “Bəqərə”, 61
[5] “Maidə”, 64
[6] “Maidə”, 64
[7] “Nisa”, 46
[8] “Bəqərə”, 87
[9] “Maidə”, 82
[10] “Maidə”, 70
[11] “Bəqərə”, 61
[12] “Maidə”, 78

**“Amma onlar bundan öncəki əməllərinə (səmavi kitabı təhrif etdiklərinə və peyğəmbəri təkziblərinə) görə heç vaxt ölüm arzulamazlar. Allah sitəmkarları yaxşı tanıyır.”**

## Nöqtələr

◘Bəzi Quran ayələrində bildirilir ki, yəhudilər özlərini başqalarından üstün sayırdılar. Hətta Allahın övladı olduqlarını iddia edirdilər.[1] Hansı ki sərvət toplayan insanlar dünyapərəstdirlər.[2] Ayədə yəhudilər bir növ mübarizəyə çağırılır. Bildirilir ki, əgər Allahın övliyasısınıza, ölümü həvəslə qarşılayın. Onlar iddia edirdilər ki, behiştə daxil olacaq iki qrupdan birincisi onlardır.[3] Əgər beləsə, nə üçün ölüm istəmirlər?![4]

◘Yəhudilərdən soruşulur ki, nə üçün ölümdən qorxursunuz? Əgər axirət səfərini dünya səfərinə bənzətsək, görərik ki, səfərə çıxan insanın bir neçə səbəbdən nigarançılığı ola bilər:

a) Birinci narahatçılıq yanacağın yetərincə olub-olmaması ilə bağlıdır. Axirət azuqəsi toplayan üçün nigarançılıq yoxdur.[5]

b) Bəziləri nəqliyat vasitəsini oğurladıqlarından qorxurlar. Amma halal yolla qazanan insan üçün axirət səfəri təhlükəsizdir.

v) Bəzən səfərə çıxan insan qanunsuz yük apardığı üçün qorxur. Axirət səfərinə çıxan insanın günah yükü yoxsa narahatçılığı da yoxdur.

q) Bəzən səfərə çıxan insan yüksək sürətdən qorxur. Həyatda ifrat və təfritə varmayanlar, orta həddi gözləyənlər nədən qorxmalıdır?![6]

d) Bəzən insan səfər yoldaşlarını tanımadığından narahat olur. Dünyada yaxşı insanlarla yoldaşlıq edən üçün axirət səfəri bu baxımdan qorxusuzdur.

j) Bəzən insan yolda tək olduğu üçün qorxur. Yaxşı insanlarla bir karvanda səfərə çıxan insan narahat deyil.

z) Bəzən insan qorxur ki, mənzilə çata bilməsin. Zərrəcə əməlinin hədərə getmədiyinə əmin olan axirət yolçusu bu baxımdan nigaran deyil.[7]

◘Əbuzərdən soruşdular ki, nə üçün ölümdən qorxuruq? Belə cavab verdi: “Siz dünyanızı abad etmiş, axirətinizi xaraba qoymusunuz. Abadlıqdan xaraba yerə getmək istəmirsiniz.”[8]

◘Həzrət Əli (ə) buyurur: “And olsun Allaha, mənim ölümə həvəsim korpənin anasının sinəsinə olan həvəsindən çoxdur.”[9] Əmirəl-möminin (ə) Kufə məscidinin mehrabında başından zərbə alarkən buyurdu: “And olsun Kəbənin Allahına, qurtuldum.”

◘İmam Hüseyn (ə) geniş bir xütbədə belə buyurur: “Ölüm Adəm övladı üçün gəlin boynundakı boyunbağı kimi gözəldir.”[10]

---

[1] “Maidə”, 18
[2] “Bəqərə”, 96
[3] “Bəqərə”, 111
[4] “Bəqərə”, 94
[5] “Bəqərə”, 197
[6] “Kəhf”, 28; “Furqan”, 67
[7] “Zilzal”, 6, 7
[8] “Muhəccətul-bəyza”, c. 8, s. 258
[9] “Nəhcül-bəlağə”, xütbə 5
[10] “Məktəli-Xarəzmi”, c. 2, s. 241

◘Ayədə yəhudilərə müraciət olunsa da ölümə hazırlıq bütün iman və ilahi vilayət əhlinin iddiası üçün ölçüdür.

### Bildirişlər

1. Allah-taala başqa din nümayəndələri və müxaliflərlə söhbət qaydalarını Peyğəmbərə (s) öyrədir.
2. Məntiq və vicdanla şübhə və boş fikirlərə cavab verin.
3. Mənəvi və dini işlərdə inhisarçılıq qadağandır.
4. İfratçılığın, puç təxəyyüllərin qarşısı alınmalıdır.
5. Ölümə hazırlıq iman iddiasının dəyərləndirmə meyarıdır. Dost dostla görüşə can atır. Əgər Allahla dostsunuzsa nə üçün onunla görüşdən qaçasınız?!
6. Elə dəlillər göstərin ki, düşmənin danışmağa sözü qalmasın.
7. Ölümdən qorxunun kökü insanın öz əməllərindədir.
8. Bir çoxları yalandan övliyalıq iddiası edir. Allah çirkin batinlərdən agahdır.

### *Ayə 8:*

**﴿قُلْ إِنَّ ٱلْمَوْتَ ٱلَّذِي تَفِرُّونَ مِنْهُ فَإِنَّهُ مُلَاقِيكُمْ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ ٱلْغَيْبِ وَٱلشَّهَادَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾**

**“(Ey peyğəmbər) De ki, həqiqətən, qaçdığınız ölümlə hökmən rastlaşacaqsınız. Sonda qeyb və aşkardan xəbərdar olan kəsin yanına dönəcəksiniz. O sizi gördüyünüz işlərdən xəbərdar eedəcək.”**

### Nöqtələr

◘İnsanlar ölümdən qaçmaq üçün min yol axtarıblar. Amma nə faydası? Bəziləri ölümdən qurtulmaq üçün cəbhədən qaçır. Amma Allah-taala buyurur ki, belə bir fərarilik ölümün qarşısını ala bilməz.[1] İnsanlar evlərini möhkəm tikirlər ki, ölüm onları yaxalamasın.[2] Bəli, dünyada ölümdən, axirətdə Allahın qəzəbindən qaçmaq olmaz.[3]

◘Qiyamətdə yenidən dirçəlişə iman insanın dünyada təqvalı olması üçün ən təsirli amildir.

### Bildirişlər

1. Allahın iradəsi insanın iradəsinin fövqündədir.
2. Ölümlə qiyamət arasında uzun ara var.
3. Allah aşkardan və qeybdən eyni həddə agahdır.
4. Günahkar öncə günahlarından xəbərdar edilməli, sonra cəzalandırılmalıdır.

### *Ayə 9:*

**﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا نُودِي لِلصَّلَاةِ مِن يَوْمِ ٱلْجُمُعَةِ فَاسْعَوْاْ إِلَى ذِكْرِ ٱللهِ وَذَرُواْ ٱلْبَيْعَ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾**

---

[1] “Əhzab”, 16
[2] “Nisa”, 78
[3] “Qiyamət”, 10

**“Ey iman gətirənlər! Cümə gününün namazı üçün nida çəkiləndə Allaha doğru tələsin, alış-verişi boşlayın. Əgər bilsəniz, bu sizin üçün daha yaxşıdır.”**

**Nöqtələr**

◘Əziz İslam peyğəmbəri (s) meracda müşahidə etdi ki, mələklər cümə qüslü verən, cümə namazına gedənlər üçün bağışlanma diləyir.[1]

**Cümə gününün dəyəri**

İslamda cümə günü digər günlərdən daha əhəmiyyətli sayılır. Bu barədə rəvayətlər çoxdur. Onlardan bəzilərini yada salaq:

- Əziz İslam peyğəmbəri (s) buyurur: “Cümə günü həftə günlərinin ağasıdır, Allah-taalanın yanında ən böyük mərtəbəyə malikdir.[2]

- Cümə günü məhrumlara və yoxsullara kömək günüdür. Hədisdə bildirilir ki, sədəqə və infaqlarınızı cümə günü verin.[3]

- Cümə günü müsəlmanların bayramıdır.[4]

- Cümə günü imam Mehdinin (ə. c.) zühur günü, qeyb dövrünün başa çatdığı gündür.[5]

-Cümə günü səmanın qapıları insanların əməlləri üçün açılar.[6]

-Əziz Peyğəmbər (s) buyurur: “Cümə günü Allah-taala yaxşı işləri artırar, pis işləri məhv edər. Möminlərin dərəcəsi artar, duaları qəbul olar, bəlalar uzaqlaşar, möminlərin duası qəbul olar.[7]

◘Hər kəs cümə günü ata-anasının qəbrini ziyarət etsə onun günahları bağışlanar, adı yaxşılarla yanaşı yazılar.[8]

◘Cümə günü cümə qüslünü tərk etməyin. Bu Peyğəmbər (s) sünnəsidir. Həmin gün ətirlənin, yaxşı libas geyin.[9]

◘Həzrət Peyğəmbər (s) buyurur: “Sizə kimlərin behişt əhli olduğunu deyimmi? O insanlar ki, möhkəm isti və soyuq onu cümə gününün əməllərindən ayırmır.”[10]

◘Cümə günü bacardıqca çox xeyir iş görün.[11]

◘Cümə günü təmizliklə məşğul olan, dırnağını tutan, saçlarını vurduran, dişlərini fırçalayan, cümə namazına gedən insanı 70 min mələk müşayiət edir və onun üçün bağışlanma diləyir.[12]

***Cümə namazının məqamı***

---

[1] “Mustədrəkul-vəsail”, c. 6, s. 91
[2] “Vəsailuş-şiə”, c. 5, s. 17
[3] “Vəsailuş-şiə”, c. 5, s. 67
[4] “Vəsailuş-şiə”, c. 5, s. 66
[5] “Kəmalud-din”, s. 164
[6] “Vəsailuş-şiə”, c. 5, s. 325
[7] “Vəsailuş-şiə”, c. 5, s. 63
[8] “Səlatul-cumuə”, s. 245
[9] “Kafi”, c. 3, s. 417
[10] “Kənzul-ummal”, hədis 21085
[11] “Vəsailuş-şiə”, c. 5, s. 78
[12] “Mustədrək”, c. 6, s. 46

İslam peyğəmbəri (s) Mədinəyə hicrətdən sonra ilk addımda cümə namazı təşkil etdi. Bu namaza dəvət "Ey iman gətirənlər" müraciəti ilə başlanır. İnsanlar "tələsin Allah zikrinə" nidası ilə cümə namazına rəğbətləndirilir. Bu namaza göstəriş alış-verişin boşlanması əmri ilə müşayiət olunur. Bu namaz rəvayətlərdə Həccə bərabər sayılmışdır.[1]

Bu namazın xütbəsindən sonra dua qəbul olur.[2] Cümə namazında imam əlində silah tutur. Bu namaza yüngül yanaşmaq nifaq nişanəsi sayılır. Cümə namazında imam insanları təqvaya dəvət etməlidir. Bu namazda insanlar dünyada baş verən hadisələrdən xəbərdar edilir. Bu namazı fərdi şəkildə qılmaq olmaz. Maddi məsuliyyətə cəlb olunanların da bu namazda iştirakına şərait yaratmaq nəzərdə tutulur.[3] Cümə namazında iştiraka görə səfəri təxirə salmaq məsləhət görülür. Həzrət Əli (ə) Ariz Həmədaniyə məktubunda buyurur: "Cümə günü səfərə çıxma, cümə namazında iştirak et. Yalnız Allah yolunda və zəruri səfər istisnadır."[4]

Tövsiyə olunur ki, insan bu namazda iştirak üçün öncədən özünü hazırlasın. Həzrət Əli (ə) insanlara onları cümə namazından saxlayacaq zəiflədici dərmanlardan istifadə etməyi qadağan etmişdir.[5] İmam Baqir (ə) İslam peyğəmbərinin (s) yaxınlarını belə vəsf edir: "Onlar cümə axşamları özlərini səhərki cümə namazına hazırlayırdılar."[6]

Bu namazda iştirak edən müsafirlər yerli əhalidən daha çox savab qazanır.[7] Cümə namazından bir gün qabaq cümə surəsini oxumaq tapşırılır. Rəvayətlərdə tövsiyə olunur ki, cümə axşamı şam namazında cümə surəsi oxunsun ki, cümə namazına hazırlıq yaransın.

◘Əziz Peyğəmbər (s) buyurur: "Mömin cümə namazına gedərkən Allah onun hər addımı müqabilində qiyamət qorxusunu azaldır."[8]

◘Cümə namazı insanın gün uzunu yol verdiyi günahların kəffarəsidir. Əlbəttə kəbirə günahlar nəzərdə tutulmur.[9]

◘Fəhlə tutmuş insan həmin fəhləni cümə namazından saxlasa, günah qazanır.[10]

◘İnsan üç cümə üzürsüz səbəbdən cümə namazına getməsə adı münafiqlər siyahisinə yazılır.[11] Digər bir rəvayətdə buyurulur ki, xəstəlik və ya digər üzürlü səbəb olmadan üç gün cümə namazında olmayan kəsin qəlbi möhürlənər.[12]

◘Rəvayətlərdə bildirilir ki, cümə namazında iştirak edə bilməyən şəxs sədəqə verməli, bir növ kəffarə ödəməlidir.[13]

◘İslam peyğəmbəri (s) buyurur: "Mənim həyatım zamanında və ya mənim ölümümdən sonra cümə namazını saymamazlıqdan tərk edən və buna görə tövbə

[1] "Təhzib", c. 3, s. 237
[2] "Vəsailuş-şiə", c. 5, s. 46
[3] "Vəsailuş-şiə", c. 5, s. 36
[4] "Nəhcül-bəlağə", namə 69
[5] "Biharul-ənvar", c. 89, s. 197
[6] "Vəsaliuş-şiə", c. 5, s. 46
[7] "Vəsailuş-şiə", c.5, s. 36
[8] "Mustədrəkul vəsail", c. 6, s. 42
[9] "Biharul-ənvar", c. 89, s. 256
[10] "Mustədrəkul-vəsail", c. 6, s. 7
[11] "Mustədrəkul-vəsail", c. 8, s. 407
[12] "Kənzul-ummal", hədis 21147
[13] "Kənzul-ummal", hədis 21139

qılmayan şəxsin əməlləri yazılmaz, işləri bərəkətsiz olar, Həcc və sədəqəsi qəbul dərəcəsinə çatmaz."[1]

◘Cümə namazının imamı xütbə oxuyan zaman namazda iştirak edənlər namaz qılmamalı, ədəblə oturub sakit dayanmalıdırlar.[2]

### *Cümə namazı imamının vəzifələri*

1. Namazın xütbələri uzun olmamalıdır. İslam peyğəmbəri (s) buyurur: "Sizdən sonra bir qövm gələr ki, xütbələri uzadar və namazı qısa qılar. Siz namazı uzadın, xütbələri qısaldın."[3]

2. Allah cümə namazı üçün iki xütbə müəyyənləşdirmişdir: bu xütbələrdən biri Allaha həmd-səna, digəri xalqın istəkləri, onlara təlim və dua mövzusundadır.[4]

3. Xütbə ayaq üstə oxunur.[5]

4. Xətib əlində silah tutur. Amma bu silah istifadə üçün deyil. İmamın əlində silah tutması həm qüdrət, həm də mərhəmətin nümayişidir. İslam peyğəmbəri (s) əlində kaman və ya əsa tutub xütbə oxuyardı.[6]

5. İmam minbərə qalxdığı vaxt üzü xalq oturub onları salamlayır.[7]

6. Cümə namazında "Cumuə" və "Munafiqun", surələri oxunur. Əziz Peyğəmbər (s) cümə namazında bu surələri oxuyardı. "Cumuə" surəsi möminləri müjdələyir, "Munafiqun" surəsi münafiqlərin ümidini qırıb onları məzəmmət edir.[8]

7. Cümə namazında iştirakçılar günün hadisələrindən xəbərdar edilir. İmam Riza (ə) buyurur: "Cümə namazı ümumi bir toplantıdır. Bu namazda imam iştirakçıları ibadətə həvəsləndirir, günahdan çəkindirir, ətrafda baş verən hadisələrdən xəbərdar edir, xeyir-ziyanlarını başa salır."[9]

8. Cümə namazının imamı insanları Allahın əmr və qadağalarından xəbərdar edir, islah yolunu göstərir.[10]

### Bildirişlər

1. İnsanların ibadətə çağırışı üçün zəmin yaradılmalıdır. (Surədə mövcudların təsbihi yada salındıqdan sonra insanlar cümə namazında iştiraka təşviq edilir)

2. İnsanları dəvət etmək üçün onlara ehtiram və yaxşı adla müraciət edin.

3. Cümə namazında iştirak iman göstəricisidir.

4. Namaz ilahi zikr səbəbidir.

5. Cümə namazında iştirak üçün tələsin.

6. Cümə namazında iştirakın qarşısını alan maneələri aradan qaldırın. (Alış-verişi boşlayın, əlinizdəki işi saxlayıb cümə namazına tələsin)

---

[1] "Mustədrəkul-vəsail", c. 6, s. 10
[2] "Biharul-ənvar", c. 89, s. 256; "Vəsailuş-şiə", c. 5, s. 39; "Kənzul-ummal", c. 7, s. 746
[3] "Kənzul-ummal", c. 7, s. 748
[4] "Vəsailuş-şiə", c. 5, s. 40
[5] "Biharul-ənvar", c. 89, s. 131
[6] "Vəsailuş-şiə", c. 5, s. 38
[7] "Vəsailuş-şiə", c. 5, s. 43
[8] "Kənzul-ummal", c. 8, s. 378
[9] "Biharul-ənvar", c. 89, s. 201
[10] "Vəsailuş-şiə", c. 5, s. 40

7. Allah alış-verişi tərk etmək göstərişi verib və bunun əvəzini ödəyir.
8. Bütün dövrlərdə yaxşı insanların seçilməsi həqiqi elm göstəricisidir.
9. Dini tərbiyədə həm təşviq, həm göstəriş, həm qadağa, həm də dəlillərə ehtiyac var.

***Ayə 10:***

**﴿فَإِذَا قُضِيَتِ ٱلصَّلَاةُ فَانتَشِرُواْ فِي ٱلْأَرْضِ وَابْتَغُواْ مِن فَضْلِ ٱللَّهِ وَاذْكُرُواْ ٱللَّهَ كَثِيراً لَّعَلَّكُمْ تُفْلِحُونَ﴾**

**“Namaz başa çatanda yer üzündə dağılın, Allahın fəzlindən diləyin. Allaha çox zikr edin. Olsun ki, nicat tapasınız.”**

**Nöqtələr**

◘Quran leksikonunda dünya malı Allahın fəzlindəndir. Bu səbəbdən də hazırkı ayədə “Allahın fəzlindən diləyin” buyurulur. Namaz başa çatdıqdan sona Allahın fəzli ardınca, ticarətinizi davam etdirməyə gedin. Digər bir ayədə dünya malı “xeyir” adlandırılır.[1]

◘İslam peyğəmbəri (s) buyurur: “İnsanlar Allahdan qafil vəziyyətdə işlərinə məşğul ikən iş yerində, bazarda Allahı ixlasla, səmimi qəlbdən yada salan insan üçün min savab qeydə alınar. Həmin şəxs qiyamət günü Allahın xüsusi mərhəmətindən faydalanar.”[2]

İnsan ibadətə ticarətdən daha şövqlü olmalıdır. Allahın zikri ilə bağlı “fəsəv”, ticarətlə bağlı “vəbtəhu” sözləri işlədilir. Hər iki söz təlaş və hərəkət mənasını bildirsə də, “fəsəv” sözünün başlanğıcındakı “fa” (ف) hərfi eşq və sürətə işarədir.

◘Allahın fəzli həm maddi, həm də mənəvi ola bilər. Hazırkı surənin 4-cü ayəsində Peyğəmbərin (s) göndərilməsi, bu ayədə isə ticarət ilahi fəzl sayılır.

**Bildirişlər**

1. İnsan ibadətə xatir iş və ticarətdən uzun müddət ayrılmamalıdır. (Ötən ayədə ticarəti tərk etmək, bu ayədə isə dərhal ticarətə qayıtmaq əmr olunur)
2. Allah-taala müsəlmanların hətta tam bir gün işdən ayrılmasını bəyənmir.
3. Qazanc, ilahi fəzl əldə etmək üçün hicrət, hərəkət və yer üzündə səfərə çıxmağa ehtiyac var.
4. İbadətə tələsin. Maddi işlərdə isə tələsmədən addım atın. Çünki ruziniz Allah tərəfindən müəyyənləşdirilmişdir.
5. Allahın fəzli böyükdür. Amma insan bu fəzli əldə etmək üçün addım atmalıdır.
6. İslamda qarınquluguq qadağandır.
7. Dünya ilahi fəzlin bir guşəsidir.
8. İnsan ilahi əmrləri yerinə yetirmək sahəsində nicat tapır.
9. Həm mənəvi, həm də maddi yönümdə hərəkət Allahın əmridir.
10. İlahi rəngsiz alış-veriş sadəcə bir müamilədir. Amma ibadətdən sonra alış-veriş ardınca getmək onu ilahi fəzlə çevirir.
11. Dünya üçün çalışan insan Allahı yaddan çıxarmamalıdır.
12. İslam ibadətdə həm keyfiyyət, həm də kəmiyyət tələb edir.

---

[1] “Bəqərə”, 180
[2] “Təfsiri-məcməul-bəyan”

13. Bazar kimi çaşdırıcı fəzalarda Allahı zikr etmək zəruridir.
14. İnsan bütün hallarda Allahı zikr etməlidir.
15. İnsan yaxşı seçim və əməllə qurtuluş yolunu tapa bilər.
16. Allah zikri davamlı olduqda fayda verir.

***Ayə 11:***

﴿وَإِذَا رَأَوْاْ تِجَارَةً أَوْ لَهْواً ٱنفَضُّوٓاْ إِلَيْهَا وَتَرَكُوكَ قَآئِمًا قُلْ مَا عِندَ ٱللَّهِ خَيْرٌ مِّنَ ٱللَّهْوِ
وَمِنَ ٱلتِّجَارَةِ وَٱللَّهُ خَيْرُ ٱلرَّازِقِينَ﴾

**“Alış-veriş və ya əyləncə görəndə səni ayaq üstə qoyub (ətrafından) dağılışdılar, oraya üz tutdular. Onlara de ki, Allahın yanında olan (fəzl və bərəkət) əyləncə və alış-verişdən üstündür. Allah ruzi verənlərin ən üstünüdür.”**

**Nöqtələr**

◘Təfsirlərdə bildirilir ki, İslam peyğəmbəri (s) cümə namazı xütbəsi oxuduğu vaxt Mədinəyə ticarət karvanı daxil oldu. Namaz qılanların bir çoxu Peyğəmbəri (s) tənha qoyub karvana doğru qaçdılar. Hazırkı ayə nazil oldu və cümə namazını qoyub qaçanlar məzəmmət edildi.

◘Ayədə xütbə və namazın tərk olunması yox, Peyğəmbərin (s) tənha buraxılması məzəmmət edilir. Bəli, səmavi rəhbərə etinasızlıq xütbə və namaza etinasızlıqdan daha ağırdır.

◘Surənin başlanğıcında İslam peyğəmbərinin (s) besətindən danışıldı, sonunda Peyğəmbəri (s) tənha qoyanlar məzəmmət edildi. Bütün bunlar möminlərə xəbərdarlıqdır.

**Bildirişlər**

1. Quran alış-verişdə hərislik və təqvasızlığı məzəmmət edir.
2. İnsan ya maddiyyat ya da nəfs istəkləri səbəbindən Allah zikrindən uzaq düşür.
3. Cümə namazının xətibi ayaq üstə xütbə oxumalıdır.
4. İlahi rəhbərin ətrafını seyrəldən istənilən bir iş məzəmmət edilir.
5. İnsanların meylləri bəzən yanlış olur.
6. Cümə namazının iki xütbəsi namazdan sayılır və onları dinləmək lazımdır.
7. Təbliğdə maddi məsələləri inkar etməyin, sadəcə mənəviyyatın üstünlüyünü bildirin.
8. Dəyərləndirmə meyarı ötəri ləzzət yox, xoşaqibətdir.
9. Ruzi qazanmaq bəhanəsi ilə ibadəti tərk etməyin. Öncə ibadət edin, sonra ticarətə başlayın. Ruzi Allahın əlindədir.
10. Ruzi qazanmağın yolu təkcə ticarət deyil. Əgər Allah istəsə sizə başqa yollarla ruzi verər.
11. Allah cümə namazına gələnlərin ruzisinə zamindir.

# “MUNAFİQUN” SURƏSİ

## *(63-CÜ SURƏ; 11 AYƏ)*

## *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

## *“MUNAFİQUN” SURƏSİNİN SİMASI*

Bu surə də “Cumuə” surəsi kimi 11 ayədən ibarətdir və Mədinədə nazil olmuşdur. Münafiqlər haqqında təkcə bu surədə danışılmır. Qurani-kərimin bir çox surələrində, xüsusi ilə Mədinə surələrində münafiqlərin ruhi səciyyələrindən və rəftarlarından söz açılır. Münafiqlər haqqında “Tövbə” surəsində daha ətraflı danışılır. “Tövbə” surəsinin yüzədək ayəsi münafiqlərin xüsusiyyətlərini bəyan edir.

“Munafiqun” surəsini cümə namazında oxumaq tövsiyə olunur. Olsun ki, bu yolla İslam ümməti münafiqlərin fitnəkarlığından xəbərdar edilir. “Cəvahirul-əhkam” kimi fiqh kitablarında bildirilir ki, imam cümə “Həmd” surəsindən sonra başqa bir surəni başlayarsa, nə qədər ki onun yarısını oxumayıb tilavəti dayandırıb “Munafiqun” surəsini oxuya bilər. Yalnız “Cumuə” və ya “Tövhid” surələrini başlayıbsa onları əvəz etmək lazım deyil.

**بِسْمِ ٱللَّهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿إِذَا جَاءَكَ ٱلْمُنَافِقُونَ قَالُواْ نَشْهَدُ إِنَّكَ لَرَسُولُ ٱللَّهِ وَٱللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَٱللَّهُ يَشْهَدُ إِنَّ ٱلْمُنَافِقِينَ لَكَاذِبُونَ﴾**

**“Münafiqlər sənin yanına gəldikləri vaxt deyərlər: “Şəhadət veririk ki, sən Allahın peyğəmbərisən.” Allah bilir ki, sən Onun peyğəmbərisən və Allah şəhadət verir ki, münafiqlər yalançıdır.”**

### Nöqtələr

◘“Nifaq” sözü gizlənmək və ya qaçmaq üçün nəzərdə tutulmuş yeraltı tunel mənasını bildirən “nəfəq” sözündəndir. Səhər siçovulu, kərtənkələ kimi canlılar da yuvalarından ikinci deşik qoyurlar. Münafiq də təhlükə zamanı aradan çıxmaq üçün ehtiyat yolu saxlayır.

◘İnsanlar dörd qrupa bölünür:

a) Qəlbən iman gətirib vəzifəsinə əməl edənlər həqiqi möminlər qrupundandır;

b) Qəlbən iman gətirib əməli göstərişləri yerinə yetirməyənlər günahkarlar qrupundandır.

v) Qəlbən iman gətirmədiyi halda zahirdə özünü iman gətirmiş kimi göstərənlər münafiqlərdir.

q) Başqa bir qrup nə iman gətirmişdir, nə də vəzifəsinə əməl edir. Bunlar kafirlərdir.[1]

◘Həzrət Əli (ə) buyurur ki, nifaq insanın daxilən yaşadığı həqarət hissindən qaynaqlanır.[2]

### *Quranda münafiqlərin səciyyələri haqqında*

Münafiqlər yalançıdırlar[3]; onlar konkret məqsəd izləmədiklərindən gündə bir qrupa qoşulur[4]; onlar məsələləri dərindən dərk etmir[5]; onlar cansız dirək kimidirlər[6]; namazda halsızdırlar[7]; sərt danışan, qaraqabaqdırlar[8]; Yalan andı özlərinə sipər edirlər; məsum rəhbərə qarşı çıxır, zəkat bölgüsünü ədalətli saymırlar[9]; gah havanın istiliyini, gah da soyuqluğunu bəhanə gətirib döyüş ruhiyyəsini zəiflədirlər[10]; Hətta məscidi fitnə mərkəzinə çevirirlər[11]; əhdlərinə vəfa qılmır, Allahın verdiyindən zəkat ayırmırlar[12]; “səfehlər kimi iman gətirək” deyib müsəlmanları təhqir edirlər; insanlar Peyğəmbərin (s) ətrafından dağılsın deyə iqtisadi mühasirə yaradırlar; Allaha və möminlərə qarşı hiyləyə əl atırlar[13]; infaqdan ikrah duyurlar[14]; pisliyə çağırır, yaxşılığa mane olurlar[15]; siratdan qaçır, ikrah duyurlar[16]; bir söz eşidəndə araşdırmadan şayiə yayırlar.[17]

Münafiqlərin təhlükəsi böyük olduğundan Qurani-kərimin müxtəlif surələrində onların xüsusiyyətləri açıqlanır. Mədinə surələri arasında demək olar ki, münafiqlərin yada salınmadığı surə yoxdur.[18]

◘Nifaq əməldə yalanıdır. Münafiq küfrü gizlədib, özünü imanlı göstərir. Əlbəttə ki, müəyyən nöqtələri, məsələn, yoxsulluğu və ya abidliyi gizlətmək pis deyil.

◘Münafiqlər iki qrupdur: onlardan bəziləri İslamın möhkəmləndiyini görüb iman gətirir, bəziləri isə öncə iman gətirib, sonradan dünyaya uyur, imanlarını əldən verirlər. Hər iki qrup zahirdə özünü imanlı göstərir. İslam ümməti bu qrupların hər ikisindən ağır zərbələr görmüşdür.

◘Həzrət Peyğəmbərin (s) dövründə münafiqlərdən çox danışılırdı. Həzrət (s) dünyasını dəyişəndən sonra münafiq mövzusu aradan qalxdı. Bunun müəyyən səbəbləri var. Sual yaranır ki, Peyğəmbərdən (s) sonra bütün münafiqlər möminmi oldu?! Münafiqlər təkcə Əlinin (ə) ətrafına yığışmış Salman, Əbuzər və Miqdad kimi azlıqdan

---

[1] “Tədsiri-isna Əşəri”
[2] “Ğurərul-hikəm”
[3] “Munafiqun”, 1
[4] “Nisa”, 143
[5] “Munafiqun”, 7
[6] “Munafiqun”, 4
[7] “Nisa”, 142
[8] “Əhzab”, 19
[9] “Tövbə”, 58
[10] “Tövbə”, 80
[11] “Tövbə”, 107
[12] “Tövbə”, 75, 76
[13] “Bəqərə”, 9
[14] “Tövbə”, 53
[15] “Tövbə”, 67
[16] “Tövbə”, 81
[17] “Nisa”, 83
[18] “Təfsiri fi zilalul-Quran”

ibarət idimi?! Bəlkə Peyğəmbər (s) dövründə münafiqlik  münafiqlik göstərənlər qüdrətə çatdığından bu mövzu gündəmdən çıxdı?!

◘Münafiqlər dünyada yalan danışdığı kimi axirətdə də yalandan and içər. Allah onları yalançı adlandırır.[1]

◘Həzrət Peyğəmbər (s) buyururdu ki, mən kafirlərdən qorxmuram, münafiqlərdən ehtiyatlanıram.[2] Həzrət (s) digər bir tərəfdən buyururdu: “Ümmətimin yoxsulluğundan yox, tədbirsizliyindən qorxuram.”[3] Bəli, əgər münafiqlər cahillərlə əl-ələ vesə, Siffeyn savaşı və Kərbəla vaqiəsi önə gələr.

### Bildirişlər

1. İlkin İslam dövründə əsas qərargaha yol tapmış münafiq ünsürlər vardı, hətta Peyğəmbər (s) onların fitnələrindən əziyyət çəkirdi.
2. Münafiqlər haqq sözdən batil yolda faydalanır.
3. Haqq şüarları və sözləri çaşqınlardan alıb ixtiyarınızda saxlayın.
4. Yaltaqlıq və yağlı dil münafiqlərin səciyyəsidir.
5. Münafiqlər danışanda and içir ki, qarşı tərəfi inandırsın.
6. Təkidə təkidlə cavab verin.
7. Hər iddianı həqiqət kimi qəbul etməyin.
8. Münafiqləri rüsvay edin.
9. İnsan inanmadığı sözü dilinə gətirirsə, bu söz düzdürsə də həmin şəxs yalançıdır.
10. Həqiqi iman dildə etiraf yox, qəlbin təsdiqidir.

### *Ayə 2, 3:*

﴿اتَّخَذُواْ أَيْمَانَهُمْ جُنَّةً فَصَدُّواْ عَن سَبِيلِ ٱللَّهِ إِنَّهُمْ سَآءَ مَا كَانُواْ يَعْمَلُونَ﴾﴿ذَٰلِكَ بِأَنَّهُمْ
ءَامَنُواْ ثُمَّ كَفَرُواْ فَطُبِعَ عَلَىٰ قُلُوبِهِمْ فَهُمْ لَا يَفْقَهُونَ﴾

**“Onlar andlarını özlərinə sipər edib (insanları) Allahın yolundan çıxarırlar. Həqiqətən, onların gördüyü işlər pisdir. Bunun (onların nifaqının) səbəbi onların öncə iman gətirib, sonra küfrə uğramalarıdır. Onların qəlbləri möhürlənib, bu səbəbdən anlamazlar.”**

### Nöqtələr

◘”Cunnə” dedikdə sipər mənası anlaşılır. Sipər insanı düşmənin zərbələrindən qoruyur. Ağlı pərdələnmiş (sipərə alınmış) insan “məcnun” adlanır. “Cinn” dedikdə gözə görünməyən varlıq nəzərdə tutulur. “Cənin” sözü bətndə görünməyən körpəyə işarədir. “Cənnət” dedikdə ağaclarının kölgəsindən yeri görünməyən bağ mənası ifadə olunur.

◘Quranda təkrar-təkrar münafiqlərin yalan andları yada salınır. Onlar sizi razı salmaq üçün and içir[4]; and içirlər ki, biz Zərar məscidini tikməklə sizə xeyirxahlıq etmək

[1] “Mücadələ”, 18
[2] “Nəhcül-bəlağə”, namə 27
[3] “Əvaliyul ləali”, c. 4, s. 39
[4] “Tövbə”, 62

istədik[1]; and içirlər ki, savaşda iştirak etməyə imkanları olmayıb, imkanları olsaydı iştirak edərdilər[2].

◘Başdan-başa Quranda münafiqlərdən danışlan zaman sərt ifadələr işlədilir: Allah onların qəlbini möhürləmişdir[3]; onlar dərinliyi görə bilmir[4]; onlar anlamır[5]; onlar yalan danışır[6]; onlar dərk etmir[7]; onlar fəsadçıdır[8]; onlar azğınlıq içindədir[9]; onlar hidayətdən uzaqdır[10]; Allah heç vaxt onları bağışlamaz[11].

◘Bəzən münafiqlərin yalan andları vasitəsi ilə, bəzən kafirlərin büdcələri sayəsində doğru yola səd çəkilir. Küfr edənlər öz pullarını insanları doğru yoldan ayırmaq üçün xərcləyirlər.

◘Münafiqlər bacardıqları yolla Allaha doğru hərəkətə mane olurlar. Onlar Zərar məscidi tikməklə müsəlmanların vəhdətini pozur, hava istidir deyə hərbi nizama zərbə vurur, Peyğəmbərə (s) yaxın olan insanlara yardıma qadağa qoymaqla müsəlmanları iqtisadi baxımdan zəiflədir, zövcələrin vasitəsi ilə imam Həsən (ə), imam Cavadı (ə) şəhadətə yetirirlər.

◘İslam cəmiyyətinin rəhbəri münafiqlərin fitnəkarlığına münasibətdə daha ehtiyatlı olmalıdır. Bu baxımdan bütün müsəlmanlar məsuliyyət daşısalar da hazırkı surədə Peyğəmbərə (s) xitab olunur.

### Bildirişlər

1. Müqəddəsliklərdən və dəyərlərdən sui-istifadə münafiqlərin xasiyyətidir.
2. Dindən dinin əleyhinə istifadə münafiqlərin ideoloji təlaşlarındandır.
3. Münafiqlər çalışırlar ki, başqalarını da doğru yoldan çıxarsınlar. (Münafiqlər insanları istənilən bir yolla azdırmağa çalışır)
4. Münafiqlərin əməlləri başdan-başa mənfur və çirkindir.
5. Nifaqın sonu küfrdür.
6. İnsan nifaqla öz qəlbini möhürləyir, həqiqətlərin dərki istedadını əldən verir.

***Ayə 4:***

﴿وَإِذَا رَأَيْتَهُمْ تُعْجِبُكَ أَجْسَامُهُمْ وَإِن يَقُولُوا۟ تَسْمَعْ لِقَوْلِهِمْ كَأَنَّهُمْ خُشُبٌ مُّسَنَّدَةٌ يَحْسَبُونَ كُلَّ صَيْحَةٍ عَلَيْهِمْ هُمُ ٱلْعَدُوُّ فَاحْذَرْهُمْ قَاتَلَهُمُ ٱللَّهُ أَنَّىٰ يُؤْفَكُونَ﴾

**“Əgər onları görsən, qiyafələri səni heyran qoyar, danışsalar sözlərini dinləyərsən. Onlar sanki dayaq vurulmuş ağaclardır. Onlar istənilən bir nidanın öz ziddlərinə olduğunu düşünürlər. Onlar düşməndirlər. Beləsə, onlardan uzaq ol. Allah onları öldürsün, necə də haqq yoldan azırlar.”**

---

[1] “Tövbə”, 107
[2] “Tövbə”, 42
[3] “Muhəmməd”, 16
[4] “Munafiqun”, 3
[5] “Tövbə”, 93
[6] “Munafiqun”, 1
[7] “Bəqərə”, 9
[8] “Bəqərə”, 12
[9] “Bəqərə”, 15
[10] “Bəqərə”, 16
[11] “Munafiqun”, 6

## Nöqtələr

◘”Tövbə” surəsində Allah-taala öz Peyğəmbərinə (s) buyurur: “Münafiqlərin var-dövlətləri və övladları səni heyrətə gətirməsin.” Bu ayədə isə münafiqlərin qiyafə və danışığı təəccüb səbəbi kimi göstərilir.

◘Hazırkı ayədə Peyğəmbərə (s) xitab olunsa da, bütün müsəlmanlar nəzərdə tutulur. Hər bir müsəlman müsəlmanların qiyafə və bəyanına aldanmamalıdır.

◘Həzrət Peyğəmbər (s) buyurur ki, mömin əyilə bilən budaq kimidir; hadisələr onu azca əysə də, yenidən düzəlir; kafirlər isə qiru ağac kimidir, onlar əyilə bilmədiyindən külək kökdən qoparanadək dayaqlanırlar.[1]

◘Həzrət Peyğəmbər (s) buyurur: “Möminin dörd düşməni var: ona həsəd aparan müsəlman, qəlbində kin-küdurət gəzdirən münafiq, onu azdıran şeytan, onunla savaşa qalxan kafir.”[2]

◘Döşəməyə, tavana, qapı-pəncərəyə işlədilən ağac faydalıdır. Amma ağacın divara söykənməsi onun istifadəsizliyini göstərir.

◘Münafiqlərin kəsilmiş ağac budağına oxşadılmasının müəyyən əsasları var: zərbə qarşısında davamsızlıq, cansızlıq və quruluq; öz ayağa üstə dura bilməməsi; eşitmə və düşünmə istedadından məhrumluğu.

◘Münafiqlər möminlərə münasibətdə kin saxlayır. Onlar daim qorxurlar ki, haqlarında ayə nazil olsun.[3]

◘Bəli, münafiqlər əsl düşmənlərdir. Çünki onlar cəmiyyətin daxilindədir və müsəlmanların sirlərindən xəbərdardırlar. Həm də dost libası geydiklərindən onları tanımaq çətindir. Münafiqlər gizli mübarizə apardıqlarından onlara qarşı cavab tədbiri görmək də çətindir. Münafiqlər müsəlmanlarla qohumluq əlaqələrinə malik olduqlarından onlarla rəftarda çətinlik yaranır. Nəhayət, münafiqlər qəfil zərbə vurur.

## Bildirişlər

1. Münafiqlər haradasa yox, öz aramızda, gözlərimiz önündədirlər.
2. Zahidanə qiyafə təqva göstəricisi deyil, qiyafəyə aldanmayın. Bəzən zahiri gözəllik hiylə olur.
3. Əgər ilahi xəbərdarlıqlar olmasa, gözəl və aldadıcı sözlər Peyğəmbərə (s) də təsir göstərər.
4. Münafiqlər zahirən aram, batində narahatdırlar. Onlar daim qorxu və iztirab içindədirlər.
5. Daxili düşməndən daha çox qorxun.
6. Düşməni tanıyın, onun əda və sözlərinə aldanmayın.
7. Münafiqlər Allaha qarşı çıxmışlar. Allah da öz növbəsində onları lənətləyir.
8. Münafiqlərin İslama qarşı çıxması düşüncəsizlikdir və təəccüb doğurur.

## *Ayə 5:*

[1] “Təfsiri-ruhul-bəyan”, c. 9, s. 533
[2] “Nəhcül-fəsahə”, s. 481
[3] “Tövbə”, 64

﴿وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ ٱللَّهِ لَوَّوْاْ رُءُوسَهُمْ وَرَأَيْتَهُمْ يَصُدُّونَ وَهُم
مُّسْتَكْبِرُونَ﴾

**“Əgər onlara “gəlin Allahın rəsulu sizin üçün bağışlanma diləsin” deyilsə, (inkar əlaməti olaraq) başlarını hərləyərlər. Onları təkəbbür üzündən (insanları doğru yoldan) uzaqlaşdıran görərsən.”**

***Ayə 6:***

﴿سَوَآءٌ عَلَيْهِمْ أَسْتَغْفَرْتَ لَهُمْ أَمْ لَمْ تَسْتَغْفِرْ لَهُمْ لَن يَغْفِرَ ٱللَّهُ لَهُمْ إِنَّ ٱللَّهَ لَا يَهْدِي
ٱلْقَوْمَ ٱلْفَاسِقِينَ﴾

**“Onlar üçün bağışlanma istəyib-istəməməyinin fərqi yoxdur. Allah heç vaxt onları bağışlamaz. Çünki Allah fasiq qövmü hidayət etməz.”**

**Nöqtələr**

◘”Təaləv” sözü yüksəkliyə qalxmaq mənasını bildirən “ülüv” sözündəndir.

◘İp toxumaq mənasını bildirən “ləyy” kökündən olan “ləvvəv” sözü burada haqdan boyun qaçırmaq mənasında işlənmişdir.

◘Ən böyük bədbəxtçilik odur ki, insan bilərəkdən həm özünü həm də başqalarını doğru yoldan uzaqlaşdıra.

◘”Tövbə” surəsinin 80-ci ayəsi də 6-cı ayənin oxşarıdır. Ayədə buyurulur ki, möminləri adlayan münafiqlər üçün yetmiş dəfə bağışlanma diləsən də Allah onları bağışlamaz.

**Bildirişlər**

1. Azğın insanlara müraciət edib, onları tövbəyə, doğru yola qayıdışa çağırırn.
2. İlahi övliyalara doğru çağırış təkamül səbəbidir.
3. Övliyaların günahkarlara duası qəbuldur.
4. Peyğəmbərə (s) təvəssül etmək olar.
5. Faydalı təklifdən boyun qaçırmaq təkəbbür göstəricisidir.
6. Haqlı dəvəti qəbul etməyən kəs haqqında Peyğəmbərin (s) də duası təsirsizdir.
7. Təkəbbür insanı sonsuz ilahi mərhəmətdən məhrum edir.
8. Həm doğru, həm də azğın yola yönəldən Allahdır. Amma Allah günah ardınca gedənləri azdırır.

***Ayə 7:***

﴿هُمُ ٱلَّذِينَ يَقُولُونَ لَا تُنفِقُواْ عَلَىٰ مَنْ عِندَ رَسُولِ ٱللَّهِ حَتَّىٰ يَنفَضُّواْ وَلِلَّهِ خَزَآئِنُ
ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضِ وَلَٰكِنَّ ٱلْمُنَافِقِينَ لَا يَفْقَهُونَ﴾

**“Onlar həmin kəslərdir ki, “peyğəmbərin ətrafında olanlara infaq etməyin, qoy dağılışsınlar” deyirlər. Hansı ki göylərin və yerin xəzinələri Allaha məxsusdur, amma münafiqlər anlamır.”**

**Nöqtələr**

◘”Xəzain” sözü “xəzinə” sözünün cəm formasıdır.

◘İqtisadi blokada, möminləri sıxıntıya salmaq düşmənlərin həmişəki qaydasıdır. Necə ki, münafiqlər Peyğəmbərə (s) yaxın insanlara yardıma qadağa qoyurdular. Vaxtı ilə Müaviyə də göstəriş vermişdir ki, Əlinin (ə) yaxınlarına beytül-mal verilməsin.[1] Bir gün Kərbəlada imamın yaxınlarına su verilmədiyi kimi bu gün dünyanın super gücləri azadlığa can atan ölkələri iqtisadi mühasirəyə alırlar.

### Bildirişlər

1. Düşmənin məktəb və rəhbərə qarşı tədbirlərindən biri onlara bağlı olanları dağıtmaqdır.
2. Maddiyatçılar elə düşünür ki, insanlar dünyaya xatir Peyğəmbərinin (s) toplaşır. Ona görə də, iqtisadi mühasirənin təsirli olacağını düşünürlər.
3. Möminlər sıxıntıya düşdükləri vaxt münafiq və müxaliflərin yardımına göz dikməməlidirlər. Onlar Allaha təvəkkül etməli və xəzinə sahibindən yardım gözləməlidirlər.
4. Möminlərə ümid verin və düşmənlərin fitnəkar sözlərini cavablandırın.
5. Münafiqlərin baxışları zahiri hesabatlara əsaslanır və səthidir.

***Ayə 8:***

﴿يَقُولُونَ لَئِن رَّجَعْنَآ إِلَى ٱلْمَدِينَةِ لَيُخْرِجَنَّ ٱلْأَعَزُّ مِنْهَا ٱلْأَذَلَّ وَلِلَّهِ ٱلْعِزَّةُ وَلِرَسُولِهِ
وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ ٱلْمُنَافِقِينَ لَا يَعْلَمُونَ﴾

**“Onlar deyirlər ki, əgər (döyüşdən) Mədinəyə qayıtsaq, ən qüvvəlilər ən çox zillətdə olanları xaric edəcəklər. Hansı ki qüvvət də iqtidar da Allaha, Onun peyğəmbərinə və möminlərə məxsusudur. Amma münafiqlər bilməz.”**

### Nöqtələr

◘Təfsirlərdə 5-8-ci ayələrin nazil olma şəni müfəssəl bəyan edilmişdir. Qısaca nəzər salaq: hicri 6-cı il baş vermiş Bəni-müstəliq savaşından sonra Mədinəyə qayıdarkən mühacirlərdən biri ənsardan olan başqa bir nəfərlə su üstündə dalaşdı. Onlardan hər biri o birinə qalib gəlmək üçün dostlarından kömək istədi. Münafiqlərin başçısı olan Abdullah ibn Ubəyy ənsardan olan şəxsə köməyə tələsib dedi: “Biz muhacirləri məskən və dolanışıq verdik, onlar isə bizə qarşı çıxırlar. Əgər Mədinəyə qayıtsaq, qüvvəlilər zəifləri şəhərdən xaric edəcək.” Zeyd ibn Ərqəm adlı gənc bu əhvalatı Peyğəmbərə (s) xəbər verdi. Həzrət Peyğəmbər Abdullah ibn Übəyi yanına çığırıb dediyi sözlər barədə soruşdu. Amma Abdullah dediyi sözləri inkar etdi. Ənsar etiraz etdi ki, nə üçün Peyğəmbər (s) bir gəncin sözü əsasında bizim başçımızı məzəmmət edir. Həzrət Peyğəmbər (s) dava-dalaşın qarşısını almaq üçün istirahət fikrindən daşınıb hərəkət əmri verdi. Mədinəyə qayıtdıqdan sonra Abdullah ibn Übəyin mömin oğlu onun qarşısını kəsib dedi: “Yoxsa özünü qüvvəli bilib Peyğəmbəri (s) Mədinədən çıxarmaq istəyirsən? Bu işə yol verməm.” Gənc oğul atasının qarşısını kəsib onu Mədinəyə buraxmadı. Bu məsələ barədə Peyğəmbərə (s) xəbər verdilər. Həzrət Abdullahın Mədinəyə daxil olmasına icazə verdi. Belə ki, özünü qüvvəli sayan insan zəlil vəziyyətdə şəhərə daxil oldu. Abdullah ömrünün sonunadək

---

[1] “Şərhi-Nəhcül-bəlağə”, c. 11, s. 44

xəcalətindən bayıra çıxmadı. Nə vaxt ona təklif olunurdusa ki, Peyğəmbərdən (s) üzür istəsin boyun qaçırırdı.

◘İmam Sadiq (ə) buyurur: “Allah cəmiyyətin idarəçiliyini müsəlmanlara tapşırsa da, onlara özlərini alçaltmaq icazəsi vermir.[1]

◘Hədisdə oxuyuruq: İmam Sadiqdən (ə) soruşdular ki, mömin özünü necə zəlil edə bilər? İmam buyurdu: “Mömininin gücü çatmayan və vəzifəsi olmayan işə baş qoşması onu zəlil edir.”[2]

◘”Və lillahil izzə” ifadəsində “Əllah” adının öncə gəlməsindən məlum olur ki, həqiqi izzət, qüvvət yalnız Allaha məxsusdur.

◘Allahın izzəti sonradan qazanılma yox, zatidir. Peyğəmbərin (s) izzəti isə Allahın ona xüsusi lütfüdür. Allah möminlərə sonda qələbə vəd etdiyindən onları da izzətli etmişdir.[3]

## Bildirişlər

1. Münafiqlər İslam hökumətini süquta uğratmağa çalışırlar.
2. Münafiqlər özlərini iqtidarlı, Peyğəmbər (s) və möminləri zəlil sayırlar.
3. Allah möminlər öz imanlarını qoruyacaqları təqdirdə onların qələbə çalacağını zamin durmuşdur.
4. İzzət yalnız Allah, Peyğəmbər (s) və möminlərə məxsusdur.
5. Düşmənin azğın sözlərini cavablandırın. ÖPzünü qüvvəli, Peyğəmbəri (s) zəlil sayanlara həqiqi izzətin kimə məxsus olduğunu deyin.
6. Münafiqlər həqiqəti dərk etməkdə acizdirlər. Onlar anlamırlar ki, Allah möminlərə yardım etmək istəsə iqtisadi blokadalar onun qarşısını ala bilməz. Həqiqəti izzətin iman əhlinə məxsus olduğunu dərk etmək münafiqlərin gücündə deyil.

### *Ayə 9:*

﴿يَا أَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُلْهِكُمْ أَمْوَالُكُمْ وَلَآ أَوْلَادُكُمْ عَن ذِكْرِ ٱللَّهِ وَمَن يَفْعَلْ ذَٰلِكَ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلْخَاسِرُونَ﴾

**“Ey iman gətirənlər, malınız və övladınız sizi Allah zikrindən yayındırmasın. Belə edənlər həmin ziyankarlardır.”**

## Nöqtələr

◘Münafiqlərlə bağlı söhbət bu ayəyədək başa çatmışdı. Amma dünyaya bağlılıq əsas nifaq amillərindən olduğu üçün bu ayədə Allah-taala möminləri mal və övlada əsarətdən çəkindirir.[4]

### *Allah zikrindən qəflət*

---

[1] “Kafi”, c. 5, s. 63
[2] “Təfsire-nurus-səqəleyn”
[3] “Təfsiri-ətyəbul-bəyan”
[4] “Təfsiri-nümunə”

İnsanı Allah zikrindən ayıran səbəblər çoxdur. Onları ən mühümləri bu ayədə yada salınmış mal və övladdır. Şərab və qumar da Allah zikrinə mane olan səbəblərdəndir.[1]

Alış-veriş, ticarət də insanı ilahi düşüncələrdən ayıra bilər. Bu səbəbdən də ticarət zamanı Allahı unutmayanlar mədh edilir.[2] Var-dövlət toplamaq həvəsi insanı Allah zikrindən ayıran səbəblərdəndir.[3] Uzun-uzadı arzular da insanın fikrini yayındırır.[4] Digər qəflət amili insanın rifaha meyl göstərməsidir.[5]

Qeyd etmək lazımdır ki, axirət üçün müqəddimə sayılmayan dünyaya bağlılıq təhlükəlidir. Belə ki, dünya həyatını bəzəyən insan qətiyyən axirət barədə düşünmür, yalnız dünyası üçün çalışır. Belə bir meyl insanı Allah zikrindən uzaqlaşdırır.[6]

Şübhəsiz ki, Allahdan qəflət insanı şeytana yaxınlaşdırır.[7] Nəticədə insan ağrılı əzaba düçar olur.[8]

◘İnsana xəbərdarlıqlarda məqsəd Allah zikrindən uzaqlığın təhlükəsini önə çəkməkdir. Mal və övlad ona görə yada salınır ki, bu iki amil əsas qəflət amillərindəndir.

◘Allahın zikri dedikdə onun istənilən bir şəkildə yada salınması nəzərdə tutulur. Amma ən üstün zikr namazdır. Bəli, mal və övlada əsarət insanı namazdan ayırır.

◘Olsun ki, mal və övlad öz zahiri cilvəsi ilə insanı yayındırır.[9]

◘Quran mal və övladı fitnə və sınaq amili sayır.[10] Başqa bir ayədə mal və övladın insanı Allaha yaxınlaşdırmadığı bildirlir.[11]

**Bildirişlər**

1. Moizələrinizin təsirli olması üçün qarşınızdakı möminlərin şəxsiyyətinə hörmət edin.
2. Allah zikrini mal və övladdan üstün tutmaq iman şərtidir.
3. İstər az, istər çox mal və övlad Allah zikrinə mane ola bilər.
4. Allah zikrindən qəflət əsil zərərdir. (Mal və övladı əldən vermək cüzi, Allahdan qəflətsə külli zərərdir)

***Ayə 10:***

﴿وَأَنفِقُوا۟ مِن مَّا رَزَقْنَاكُم مِّن قَبْلِ أَن يَأْتِيَ أَحَدَكُمُ ٱلْمَوْتُ فَيَقُولَ رَبِّ لَوْلَآ أَخَّرْتَنِي إِلَىٰٓ أَجَلٍ قَرِيبٍ فَأَصَّدَّقَ وَأَكُن مِّنَ ٱلصَّالِحِينَ﴾

**“Ölüm hər birinizin sorağına gəlməmiş sizə verdiyimiz ruzidən infaq edin. (Ölən vaxt) Deyəsiniz ki, pərvərdigara, sədəqə verib salehlərdən olmağım üçün nə üçün məni (ölümümü) bir qədər təxirə salmadın?!”**

[1] “Maidə”, 91
[2] “Nur”, 37
[3] “Təkasur”, 1
[4] “Hicr”, 3
[5] “Fürqan”, 18
[6] “Nəcm”, 29
[7] “Zuxruf”, 36
[8] “Cinn”, 17
[9] “Kəhf”, 36
[10] “Ənfal”, 28
[11] “Səba”, 37

***Ayə 11:***

**﴿وَلَن يُؤَخِّرَ ٱللَّهُ نَفۡساً إِذَا جَآءَ أَجَلُهَا وَٱللهُ خَبِيرٌ بِمَا تَعۡمَلُونَ﴾**

**“Allah əcəli çatan kəsin ölümünü heç vaxt təxirə salmaz. Allah gördüyünüz işlərdən agahdır.”**

**Nöqtələr**

◘7-ci ayədə münafiqlərlərin dilindən bildirildi ki, Peyğəmbəri (s) tək qoymaq üçün onun ətrafındakılara yardım göstərilməsin. Olsun ki, bu ayədə münafiqlərin uyğun planını alt-üst etmək üçün möminlərə bir-birinə kömək etmək əmri verilir.

◘İnsan ölüm və qiyamətə inansa asanlıqla infaq edər, sədəqə verər. Quran infaqa təşviq üçün dəfələrlə məad və qiyamət mövzusunu yada salır.[1]

◘İbn Abbas deyir: “Ölüm zamanı o insanlar möhlət istəyir ki, mallarının zəkatını verməyiblər, Həcc vacib olduğu halda onu yerinə yetirməyiblər.”[2]

◘Dünyaya qayıdış istəyi məqbul deyil. Nə ölüm astanasında, nə də qiyamətdə dünyaya qayıtmaq mümkünsüzdür.[3]

İmam Baqir (ə) “və lən yuəxxirəllahu nəfsən” ayəsi ilə bağlı buyurur: “Hər qədr gecəsi növbəti qədr gecəsinədək bütün işlər müəyyənləşdirilir. Bu təqdirlərin dəyişməsi və təxiri baş vermir.[4]

**Bildirişlər**

1. İnsanların doğru yola dəvəti üçün zəmin yaradın. (Ölümün çatacağını, fürsət qalmayacağını, təxir istəklərinin yerinə yetməyəcəyini yada salın)
2. Nəyimiz varsa, Allahdandır.
3. Hadisə baş verməmiş ona əlac etmək lazımdır. (Ölüm məqamı çatanda əməl üçün yol qalmır)
4. Ölüm xəbərsiz gəlir və təxirə salınmır.
5. Həyatı dövründə infaq etməyən varlı insan ölüm vaxtı çox təəssüflənir.
6. Məhrumlara infaq ləyaqət və salehlik nişanəsidir.

---

[1] “Bəqərə”, 254
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Muminun”, 100; Muminun”, 107
[4] “Təfsiri-nurus-səqəleyn”

# “TƏĞABUN” SURƏSİ

## *(64-CÜ SURƏ; 18 AYƏ)*

## *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

### *“TƏĞABUN” SURƏSİNİN SİMASI*

18 ayədən ibarət olan bu surə Mədinədə nazil olmuşdur. Surənin 9-cu ayəsində işlədilmiş “təğabun” sözü ilə bağlı surə belə adlandırılmışdır.

“Təğabun” sözü insanın hər hansı faydaya sahib çıxması mənasını bildirir. Qiyamətdə hər kəs çalışar ki, başqasını təqsirləndirib özünü xilas etsin.

Bu surənin ayələri nəzm baxımından “Hədid” surəsinin oxşarıdır və həmin surənin xülasəsi təəssüratı xülasəsi bağışlayır.

Surə tövhid, Allahın yeganəliyi məsələsinin bəyanı ilə başlayır. İnsanlara əməllərinə və qiyamət məsələsinə diqqətli olmaq tövsiyə edilir. Surənin sonunda Allah yolunda infaqın, dünya əsarətindən qurtuluşun zəruriliyi bəyan edilir.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

﴿يُسَبِّحُ لِلَّهِ مَا فِي ٱلسَّمَاوَاتِ وَمَا فِي ٱلْأَرْضِ لَهُ ٱلْمُلْكُ وَلَهُ ٱلْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Göylərdə və yerdə olanlar Allaha təsbih deyir. Hökm də, sitayiş də Ona məxsusdur. O hər şeyə qadirdir.”**

### Nöqtələr

◘Dünyadakı hakimlər öz iqtidarlarını qorumaq üçün hər yola əl atırlar. Amma Allah-taala kimsəyə zülm etmir, bütün varlıq aləmi onu paklığı ilə öyüb həmd söyləyir.

◘Həmd-səna istənilən bir nöqsandan pak olan kəsin haqqıdır. Öncə Allahın paklığı yada salınır, sonra Ona sitayişdən danışılır. Namazda da təsbih və həmd rüku və səcdələrdə yanaşı zikr olunur.

### Bildirişlər

1. Varlıq aləmindəki bütün mövcudların hansısa şəkildə şüuru var. Onlar həmin şüur əsasında Allaha təsbihə məşğuldurlar. (Təəssüf ki bəzi insanlar ibadət və təsbihi tərk etdiklərindən varlıq nizamında düyün olmuşlar)
2. Allahın hakimiyyəti mütləqdir, istənilən bir məhdudiyyətdən uzaqdır. (İlahi hakimiyyət məcazi yox həqiqidir, həvalə olunmuş və müvəqqəti deyil.)
3. Dünya həyatında hökm və qüdrət sahibi olanların əksəri məzəmmət edilir. Amma qüdrət və hökm sahibi olan Allaha həmd-səna oxunur.

4. Bütün kamilliklərin qaynağı Odur, bu səbəbdən də bütün sitayişlər Ona ünvanlanmalıdır.

5. Yer üzündəki əksər hakimlər problemləri aradan qaldırmağa, islahat aparmağa acizdirlər. Amma Allah-taala hər işə qadirdir.

6. Allah varlıq aləminin bütün nöqtələrində eyni dərəcədə iqtidarlıdır. (Bir çınqıl yaratmaqla dağ silsiləsi yaratmaq Allah üçün fərq etməz. Necə ki gözümüz üçün bir çınqıl və ya dağ görməyin fərqi yoxdur.

***Ayə 2:***

**﴿هُوَ ٱلَّذِي خَلَقَكُمْ فَمِنكُمْ كَافِرٌ وَمِنكُم مُّؤْمِنٌ وَٱللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾**

**“Sizi yaradan Odur. (Öz ixtiyarınızla) Bəziniz kafir, bəziniz mömin oldunuz. Allah əməllərinizi görəndir.”**

### Nöqtələr

◘Əgər insan asfalt üstə bir yığın topaq görsə, soruşar ki, bu torpağı kim töküb? Əgər həmin torpağın üstə hansısa şəkil çəkilərsə, dərhal sual yaranır ki, bu şəkili kim çəkib? Əgər torpaqdan hansısa fiqur düzəldilərsə, təbii ki, heykəltəraşın kimliyi maraq doğurar.

Allah-taala insanı yaratdı və bu yaranışdakı sənətkarlıq, zəriflik, məharətə görə özünə əhsən dedi. Qurani-kərimdə insanın gözəl biçimdə yaradıldığı qeyd edilir.[1] Bəli, hər bir yaranmış yaradandan danışır. Yaranmışın gözəlliyi yaradanın elm və hikmətini göstərir, Onun qüdrətini təsdiqləyir.

◘Ötən ayədə bütün mövcudların təsbihi qeyd edildi. Bu ayədə bəzi insanların küfr və nankorluğu yada salınır. Bu yolla bəyan edilir ki, Allah kafirlərin ibadətinə möhtac deyil və onların küfrü Allaha zərər yetirməz.

◘Ötən ayədə bütün mövcudların təsbihinə işarə olundu. Aydın oldu ki, yaranmışların şüuru var. Bu ayədə isə insanın başqa mövcudlardan üstünlüyü nəzərə çatdırılır. Çünki insan iradə və ixtiyar sahibidir. İnsan məhz ixtiyar sahibi olduğundan həm mövcudata qatılıb təsbih deyə bilər, həm də yolunu aza bilər. Olsun ki, burada insan daha çox diqqət mərkəzində olmasına baxmayaraq nankorluq etdiyinə görə məzəmmət edilir.

### Bildirişlər

1. İnsanın yaranışı Allahın qüdrət cilvəsidir.

2. İnsan seçim aparmaq ixtiyarı olan azad mövcuddur.

3. İnsanın əməli onun əqidəsini göstərir. (Allah-taala əməllərdən agah olduğunu öncə qeyd edir)

***Ayə 3:***

**﴿خَلَقَ ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضَ بِالْحَقِّ وَصَوَّرَكُمْ فَأَحْسَنَ صُوَرَكُمْ وَإِلَيْهِ ٱلْمَصِيرُ﴾**

**“Göylər və yer haqq olaraq yaradıldı. Sizə (bətnlərdə) surət verdi, çöhrənizi gözəl yaratdı. Qayıdış ona doğrudur.”**

### Nöqtələr

---

[1] “Tinn”, 4

◘Gözəl çöhrə dedikdə insanın zahiri gözəlliyi yox, ona haqqa doğru hərəkətdə edilən yardımlar nəzərdə tutulur.

◘İnsanın hər bir bədən üzvü ən münasib yerdə yaradılmışdır. Onların tərkib və düzümü onun cismini, xüsusi ilə çöhrəsini gözəlləşdirir. Kipriklərin, göz qapaqlarının, qaşların qoruyucu funksiyası var. Bu üzvlər eyni zamanda insana gözəllik verir. Dil, dişlərin keşikçisi olan dodaqlar yalnız yeyəndə və danışanda zəruri həddə hərəkət edir, qalan vaxtda bağlanır. Südəmər körpənin dodaqları qidalanmada xüsusi funksiya daşıyır. Məhəbbət hissi dodaqlar vasitəsi ilə öpüşlə izhar olunur.

◘Allah ən üstün varlığı dəyərsiz sudan yaratdı.[1] İnsan qaranlıq bir məkanda xəlq edildi."[2] Ona ən gözəl surət, ən gözəl forma verildi.

◘Allahın yaratdıqlarının insanın yaratdıqlarından fərqi:

1. İnsanın yaratdıqları məhdud, Allahın yaratdıqları qeyri məhduddur.[3]

2. İnsanın işi bəzən məqsədsiz olur, Allah isə yalnız məqsədlə yaradır.[4]

3. İnsan öz işində ya ifrata varır, ya təfritə. Amma Allah ölçülü xəlq edir.[5]

4. İnsan nələrisə yaratmağa acizdir. Amma Allah-taalanın yaranış qüdrəti acizdir.[6]

5. İnsan adətən ayaratdığına nəzarət edə bilmir. Amma Allah heç vaxt öz yaratdıqlarından xəbərsiz olmur.[7]

6. İnsan bəzən öz işində yorulur, süstləşir. Amma Allah dayanmadan yaranış prosesini davam etdirir.[8]

7. Allah cütlər (zövclər) vasitəsi ilə yaranışın davamını təmin edir.[9]

8. Allah bütün yaratdıqlarını təkamül yoluna yönəldir.[10]

9. Bütün yaranmışlar sonda Allaha doğru dönür.[11]

◘Allahın bütün işləri üstündür: O hər şeyi ən üstün şəkildə yaradır[12], kitabı ən üstün kitabdır[13], hekayətləri ən üstün hekayətdir[14], adları ən üstün addır[15], mükafatları ən üstün mükafatdır[16], vədləri ən üstün vəddir[17], hökmü ən üstün hökmdür[18].

Allah-taala bizə işlərin ən üstününü seçməyi tapşırır. Məsələn, ən gözəl şəkildə danışmaq[19], ən üstün işləri görmək[20], ən gözəl şəkildə rəftar edək[21], ən üstün üslubda

---

[1] "Mursəlat", 20
[2] "Ali-İmran", 6
[3] "Ənam", 101
[4] "Casiyə", 22; "Ənkəbut", 44; "Rum", 8
[5] "Qəmər", 49
[6] "Əhqaf", 33
[7] "Muminun", 17
[8] "Qaf", 38
[9] "Zariyat", 49
[10] "Taha", 50
[11] "Təğabun", 3
[12] "Muminun", 14
[13] "Zumər", 23
[14] "Yusuf", 3
[15] "Əraf", 180
[16] "Kəhf", 88
[17] "Hədid", 10
[18] "Maidə", 50
[19] "İsra", 53
[20] "Kəhf", 7
[21] "Fussilət", 34

mübahisə edib danışaq[1], ən üstün şəkildə təşəkkür edək[2], eşitdiklərimizdən ən üstününü seçib əməl edək[3], yetimin malına münasibətdə ən üstün şəkildə davranaq[4], ən üstün səmimiyyət və Allaha yaxınlıq məqsədi ilə əməllərimizə ilahi rəng verək[5].

**Bildirişlər**

1. Göylərin və yerin yaranışı proqramlı və məqsədlidir.
2. Allah bildirir ki, insanı özü formalaşdırmışdır.
3. İnsan başqa varlıqlarla müqayisədə daha gözəl və daha kamildir.
4. Varlıq aləmi ilahi məqsədlə hərəkətdədir.
5. Varlığın əvvəli də, sonu da Allahdır.
6. Həqiqi və məqsədli yaranışda insanın mükafat və ya cəza üçün Allaha doğru qayıdışı şərtdir.

***Ayə 4:***

﴿يَعْلَمُ مَا فِي ٱلسَّمَاوَاتِ وَٱلْأَرْضِ وَيَعْلَمُ مَا تُسِرُّونَ وَمَا تُعْلِنُونَ وَٱللَّهُ عَلِيمٌ بِذَاتِ ٱلصُّدُورِ﴾

**“O göylərdə və yerdə olanı, gizlətdiyinizi və aşkara çıxardığınızı bilir. Allah sinələrdə olandan yaxşı xəbərdardır.”**

**Nöqtələr**

◘Bu ayədə ilahi elm 3 dəfə xatırlanır: ilahi mövcudlara münasibətdə elm, insanın aşkar və gizli işlərinə münasibətdə elm, insanın düşüncə və niyyətlərinə münasibətdə elm. Allahın elmi həm daimi, həm də dərin bir elmdir.

◘Allahın bütün əməllərimizdən xəbərdar olduğuna və hər şeyi bilməsinə iman günahdan uzaqlıq və təqva üçün ən üstün vasitədir.

◘Ötən ayədə hamının Allaha doğru qayıdacağaı bildirildi. Bu ayədə isə öləndən sonra çürüyüb dağılmış insanın Allaha doğru necə qayıdacağı ilə bağlı suala cavab verilir. Bildirilir ki, Allah pərakəndə düşmüş bütün zərrələrdən xəbərdardır, cəsədin çürüyüb dağılması onun məhv olması deyil.

**Bildirişlər**

1. Allahın elmi üçün zaman və məkan, eləcə də bu kimi başqa məhdudiyyətlər yoxdur. Allah həm göylərdən, həm yerdən, həm aşkardan, həm də gizlidən xəbərdardır.
2. İnsan başına buraxılmayıb, Allahın nəzarəti altındadır.
3. Allah üçün aşkarla gizlinin fərqi yoxdur.
4. Allah insanın həm gizli, həm də aşkar işlərindən, eləcə də düşüncə və məqsədlərindən xəbərdardır.

---

[1] “Nəhl”, 125
[2] “Nisa”, 86
[3] “Zumər”, 18
[4] “İsra”, 34
[5] “Bəqərə”, 138

***Ayə 5:***

**﴿أَلَمْ يَأْتِكُمْ نَبَؤُاْ ٱلَّذِينَ كَفَرُواْ مِن قَبْلُ فَذَاقُواْ وَبَالَ أَمْرِهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾**

**“Bundan öncə küfr edənlərin xəbəri sizə çatmadımı? Onlar öz əməllərinin cəzasını (dünyada) daddılar, onlar üçün (axirətdə) ağrılı əzab var.”**

**Nöqtələr**

◘”Vəbal” dedikdə ağırlıq nəzərdə tutulur. Mədəyə ağırlıq edən qida “vəbil”, ağır yağış “vabəl” adlanır. İnsanın zərərinə olan istənilən bir ağır iş “vəbal” kimi təqdim edilir. Bu söz Quranda dörd ayədə işlədilmişdir.[1] Hər dörd halda dünya problemləri və çətinlikləri nəzərdə tutulmuşdur.

◘Allah təkcə qiyamətdə cəzalandırmır. Bəzən insan öz əməllərinə görə həm dünyada, həm də axirətdə əziyyət çəkir. Məsələn, Nuh qövmü suda qərq oldu, Hud qövmü iti küləklərlə məhv edildi, Saleh qövmü səmadan enən səs vasitəsi ilə həlak oldu, Lut qövmünün başına daş, fil əshabının başına qaynar çınqıllar yağdı. Bu qövmlər elə dünya həyatında öz əməllərinin cəzasını daddılar.

**Bildirişlər**

1. Peyğəmbər (s) dövrünün insanları keçmiş qövmlərin talehindən xəbərdar idilər.
2. Keçmiş qövmlərin tarixini öyrənmək İslamın tövsiyəsidir. Tarixdən ibrət götürməyən insan məzəmmətə layiqdir.
3. Tarixdən xəbərdarlıq dedikdə hər hansı xırdalıqlar yox, mühüm nöqtələr nəzərdə tutulur.
4. Allah həlim olsa da, insanların bəzi əməlləri dərhal cəzaya səbəb olur.
5. Bədbəxtçiliklərin səbəbi insanların öz rəftarıdır.
6. Dünya həyatındakı cəza axirət həyatındakı kamil cəza ilə müqayisədə cüzidir.

***Ayə 6:***

**﴿ذَٰلِكَ بِأَنَّهُۥ كَانَت تَّأْتِيهِمْ رُسُلُهُم بِٱلْبَيِّنَٰتِ فَقَالُوٓاْ أَبَشَرٌ يَهْدُونَنَا فَكَفَرُواْ وَتَوَلَّواْ وَّٱسْتَغْنَى ٱللَّهُ وَٱللَّهُ غَنِيٌّ حَمِيدٌ﴾**

**“Bunun (bu cəzanın) səbəbi o oldu ki, peyğəmbərləri aşkar dəlillərlə onların sorağına gəldiyi vaxt (qəbul etmək əvəzinə) dedilər: “(Özümüz kimi) Bir insanmı bizi hidayət etsin?” Bu səbəbdən küfr etdilər, arxa çevirdilər. Allah (Onların iman gətirməsindən ehtiyacsızdır. Allah ehtiyacsız və həmd olunasıdır.”**

**Nöqtələr**

◘Təbliğin müxtəlif növləri var və ən yaxşı növü əməllə təbliğdir. Allah peyğəmbərləri bəşər növündən seçdi ki, onlar başqaları kimi həyatın acı və şirinliklərini dadsınlar, əməldə bələdçi olsunlar. Dar düşüncəli bəzi insanlar isə peyğəmbərlərin bəşər növündən olmasını nöqsan sayır və deyirlər ki, özümüz kimi bir bəşər bizə yol göstərsin?!

---

[1] “Maidə”, 95; “Həşr”, 15; “Təlaq”, 9; “Təğabun”, 5

◘”İstəğna” sözü “ğəniy” kökündən olub ehtiyacsızlıq mənasını bildirir. Ehtiyacsızlıq yalnız Allahın şənindədir. İnsan isə başdan ayağa ehtiyac içindədir. Ən pis sifət isə ehtiyaclı olmaq yox, ehtiyaclı olmadığını düşünməkdir. Quranda bu sifət üç məqamda məzəmmət edilir.[1]

◘Cəmiyyətdə və möminlər arasında şəkk-şübhə yaratmaq təkəbbürlü kafirlərin qaydasıdır. Bu ayədə deyirlər ki, bizim kimi bəşər bizi hidayət etsin? Başqa bir məqamda isə Peyğəmbərin (s) Allah tərəfindən göndərilməsini şübhə altına alırlar.[2] Bəzən də Peyğəmbərin (s) yoxsulluğunu bəhanə gətirirlər.[3]

◘Kafirlərin heç bir dəlili yoxdur, onlar sadəcə təkəbbür göstərirlər. Peyğəmbər (s) haqqında deyirlər ki, bəşər növündən olan fərd cəmiyyəti hidayət edə bilməz.

Məadı şübhə altına alaraq bildirirlər ki, torpaqda çürüyüb yox olduqdan sonra yenidən necə diriləcəyik?[4]

◘Allah insanların iman və diqqətinə ehtiyaclı deyil. Başqa bir ayədə Allahın insanların imanına ehtiyaclı olmadığı önə çəkilir. Bəli, yer üzündəki bütün insanlar kafir olsalar da, bunun Allaha zərəri yoxdur.[5] İnsanların günəşə arxa çevirməsi günəşə yox, onların özlərinə zərərlidir. Ayələrdən birində buyurulur ki, küfrə üz tutan Allahın bütün varlıq aləmindən ehtiyacsız olduğunu bilsin.[6]

**Bildirişlər**

1. Keçmişlərin tarixini araşdırın.
2. Allah xəbərdarlıq etdikdən sonra qəzəbini nazil edir.
3. Allah bəşəriyyətin hidayəti üçün tarix boyu Peyğəmbərlər göndərmişdir.
4. Bütün peyğəmbərlərin aşkar dəlilləri, möcüzələri olmuşdur.
5. Kafirlər peyğəmbərlərin möcüzələrinə əhəmiyyət vermədən onlara münasibətdə şəkk-şübhə yaradırlar.
6. Kafirlərin nəzərincə peyğəmbərlərin insan nəslindən olması zəif nöqtədir.
7. Allah zatən ehtiyacsız, əməldə həmd olunası, sitayişə layiqdir.

***Ayə 7:***

﴿زَعَمَ ٱلَّذِينَ كَفَرُوٓاْ أَن لَّن يُبۡعَثُواْۚ قُلۡ بَلَىٰ وَرَبِّي لَتُبۡعَثُنَّ ثُمَّ لَتُنَبَّؤُنَّ بِمَا عَمِلۡتُمۡۚ وَذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٞ﴾

**“Kafirlər güman etdilər ki, heç vaxt dirilməyəcəklər. De ki, and olsun Rəbbimə, hamınız diriləcəksiniz. Sonra gördüyünüz işlər sizə xəbər veriləcək. Bu iş Allah üçün asandır.”**

**Nöqtələr**

[1] “Əbəsə”, 5, 6; “Ləyl”, 8, 9; “Ələq”, 6, 7
[2] “Əraf”, 75
[3] “Bəqərə”, 247
[4] “Səcdə”, 10
[5] “İbrahim”, 8
[6] “Ali-İmran”, 97

◘”Zəm” dedikdə heç bir əsası olmayan zənn-güman nəzərdə tutulur. Bu qəbil münasibət Quranda məzəmmət edilir. İmam Sadiq (ə) buyurur: “Zəm” Quran boyunca yalan mənasını bildirir.”[1]

◘Bu surənin 2-ci ayəsində Allahı inkar edənlər, 6-cı ayəsində nübüvvəti inkar edənlər, hazırkı ayəsində məadı inkar edənlər yada salındı.

◘Kafirlər tərəfindən məad inkar edildiyi bir vaxtda Quran dəfələrlə məadın baş verəcəyinə and içir.[2] Maraqlıdır ki, Quran kafirlərə onların öz sözləri ilə cavab verir. Məsələn, kafirlər haqdan danışanda cavab “həqiqətən, biz haqqıq” olur.

◘Ölülərin dirildilməsinin, onların öz əməllərindən xəbərdar olunmasının Allah üçün asanlığına dəlillər var. İlkin yaranışa qərar verən Allah üçün onu yenidən təkrarlamaq asandır.[3] Allah əvvəl necə yaratmışdısa, yenə də yaradar.[4]

## Bildirişlər

1. Kafirlərin heç bir dəlili olmasa da öz, təxəyyülləri əsasında danışır və gurultulu şüua deyirlər.
2. Təlim-tərbiyə prosesində qarşı tərəfin sözlərinə planlı şəkildə cavab verilməlidir.
3. Etiqadi məsələlərdə şəkk-şübhəni aradan qaldırmaq üçün Allahın adına and içmək olar.
4. Şübhələri təkidlə cavablandırın.
5. Mükafat və cəza qiyamətin dəlilləridir.
6. Kafirlərin inkar və təkəbbürlərinin kökü onların ölümdən sonrakı həyatı mümkünsüz saymasıdır. Bu səbəbdən də Quran buyurur ki, sizə çətin görünən işlər Allah üçün asandır.

## *Ayə 8:*

﴿فَآمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَالنُّورِ الَّذِي أَنزَلْنَا وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾

**“Allaha, Onun rəsuluna, nazil etdiyimiz nura (səmavi kitaba) iman gətirin və (bilin ki) Allah gördüyünüz işlərdən agahdır.”**

## Nöqtələr

◘Hazırkı ayədə nur dedikdə Qurani-kərim nəzərdə tutulur. “İbrahim” surəsinin başlanğıcında buyurulur ki, insanları zülmətlərdən çıxarıb, nura aparasan deyə sənə kitab göndərdik.

◘Ötən ayələrdə küfrdən, Allah və Onun rəsuluna, eləcə də məada etiqadsızlıqdan danışıldı. Bu qəbil münasibətlərə görə keçmiş ümmətlər əzaba düçar oldu. Bu ayədə buyurulur ki, siz keçmişdəkilərin yolunu getməyin, iman gətirin.

◘Rəvayətdə bildirilir: Nur dedikdə məsum imamlar nəzərdə tutulur. Çünki onlar Quranın təcəssümü, danışan ayələrdir. İmam Baqir (ə) buyurur: “İman əhlinin qəlbini nurlandıran onlardır.”[5]

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Səba”, 3; “Yunis”, 53
[3] “Rum”, 27
[4] “Əraf”, 29
[5] “Təfsiri-nurus-səqəleyn”

**Bildirişlər**

1. Əhatəli iman dəyərlidir. İnsan həm Allaha, həm peyğəmbərə, həm də səmavi kitaba inanmalıdır.

2. Allah nurdur.[1] Allah tərəfindən nazil edilən də nurdur.

3. İman əməllə müşayiət olunmalıdır.

***Ayə 9:***

**﴿يَوْمَ يَجْمَعُكُمْ لِيَوْمِ ٱلْجَمْعِ ذَٰلِكَ يَوْمُ ٱلتَّغَابُنِ وَمَن يُؤْمِن بِاللَّهِ وَيَعْمَلْ صَالِحًا يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَٰلِكَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ﴾**

**"(Yada sal) Bir gün Allah sizi toplanış gününə cəm edər. Həmin gün həsrət və peşimançılıq günüdür. Allah Ona iman gətirib saleh işlər görən kəsin pisliklərini örtər, onu altından çaylar axan behiştlərə daxil edər. Orada həmişəlik qalarlar. Budur böyük qurtuluş!"**

***Ayə 10:***

**﴿وَٱلَّذِينَ كَفَرُواْ وَكَذَّبُواْ بِآيَاتِنَآ أُوْلَئِكَ أَصْحَابُ ٱلنَّارِ خَالِدِينَ فِيهَا وَبِئْسَ ٱلْمَصِيرُ﴾**

**"Küfrə uğrayıb ayələrimizi inkar edənlər həmin cəhənnəm əhlidir. Həmişə orada qalarlar. Bu pis bir sonluqdur."**

**Nöqtələr**

◘"Təğabun" dedikdə məsuliyyətdən yayınma istəklərinin təcəssümü nəzərdə tutulur. Qiyamət günü kafirlər imansızlıqlarına, günahkarlar saleh iş görmədiklərinə, möminlər daha çox savaba çatmadıqlarına görə həsrət çəkər, bir növ məsuliyyəti başqalarının üzərinə yıxmağa çalışarlar. Quranda buyurulur ki, həmin gün şeytan "məni məzəmmət etməyin, təqsirkar özünüzsünüz" söyləyər. Günahkar razı olar ki, ailə-övladını, bütün yaxınlarını cəhənnəmə aparsınlar, təki o xilas olsun.

"Təğabun" dedikdə başqa bir məna da nəzərdə tutula bilər. Məsələn, azğın rəhbərlər öz ardıcıllarını təqsirləndirər, ardıcıllar da öz növbəsində rəhbərləri günahlandırar.[2]

◘"Yəvmul-cəm" qiyamətin adlarındandır. Bu söz başqa ayələrdə də işlədilmişdir.[3]

***"Məğbun" kimidir?***

Rəvayətlərdə "məğbun" şəxsin kimliyi belə açıqlanır: iki günü bərabər olan məğbundur[4]; təkəbbür və qürur dünyada yoxsulluq, axirətdə məğbunluq səbəbidir[5]; gecə namazından məhrum insan məğbundur[6]; qiyamətdə insanın hər günü üçün 24 xəzinə açılar. İnsan hansı saatını boş keçiribsə, boş xəzinə ilə rastlaşar. Bu hadisə insanda təəssüf

[1] "Nur", 35
[2] "Təfsiri-əl mizan"
[3] "Kəhf", 99
[4] "Biharul-ənvar", c. 81, s. 173
[5] "Biharul-ənvar", c. 72, s. 173
[6] "Biharul-ənvar", c. 83, s. 127

yaradar[1]; Allah yolunda cihadı tərk edən insan məğbundur[2]; qiyamətdə 2 zümrə üzbəüz dayanar: məğbunlar və nicat tapanlar.

◘Tərbiyə prosesində həm müjdə, həm də xəbərdarlığa ehtiyac var. 9-cu ayədə behişt müjdəsi, 10-cu ayədə əbədi cəhənnəm əzabı yada salınır.

**Bildirişlər**

1. Qiyamət insan üçün xatırlama günüdür.
2. Məğbunluqdan xilas yolu iman və saleh əməldir.
3. İman saleh əməldən ayrı deyil.
4. Saleh əməl pisliklərin kəffarəsidir.
5. Paklanmasaq behiştə getmərik. Öncə günahları yumaq, sonra behişt barədə düşünmək.
6. Behiştin çoxsaylı bağları və çayları əbədidir.
7. Ən böyük qurtuluş insanın iman və saleh əməllə behiştə daxil olmasıdır.

***Ayə 11:***

﴿مَآ أَصَابَ مِن مُّصِيبَةٍ إِلَّا بِإِذْنِ ٱللَّهِ وَمَن يُؤْمِن بِاللَّهِ يَهْدِ قَلْبَهُ وَٱللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Allahın izni olmadan kimsə üçün müsibət üz verməz. Allah ona iman gətirənin qəlbini (səbr və dözümlə) hidayət edər. Allah hər şeydən agahdır.”**

**Nöqtələr**

◘Mömin insan Allahın elm, hikmət, və mərhəmətinə inandığından şübhə etmir ki, səbəbsiz yerə kimsə cəzalandırılmır.[3] Qarşıya çıxan çətinlik ya əməllərin cəzasıdır, ya da təkamül səbəbi.[4]

◘”İzn” sözü Quranda həm Allahın təbii izni (məsələn otların cücərməsi), həm də şəriət baxımından izn mənasını bildirir. Məsələn, məzlumlara özünü müdafiə icazəsi verilir.[5] Hazırkı ayədə təkvini, təbii izn nəzərdə tutulmuşdur. Yəni bütün hadisələr Allahın elm və iradəsi ilə baş verir və Allah hansısa hadisədən xəbərsiz deyil. İstər xeyir, istər şərə çatmaq üçün vasitələr müəyyənləşdirilmişdir. İnsan hansı vasitədən istifadə edirsə, həmin vasitəyə uyğun məqsədə çatır.

◘Qəlbin hidayəti möminlər üçün aramlıq səbəbidir. Quranda bildirilir ki, müsibətlə rastlaşdıqları vaxt “Allah tərəfindən, Allaha doğruyuq” deyənlər həqiqətən hidayət olmuşlardır.[6]

◘İman daxili bir haldır. İnsanın qəlbi hidayət olsa danışıq və əməlləri də hidayət olar.

**Bildirişlər**

---

[1] “Biharul-ənvar”, c. 7, s. 262
[2] “Biharul-ənvar”, c. 33, s. 573
[3] “Şura”, 30
[4] “Ənam”, 42
[5] “Əraf”, 58; “Həcc”, 39
[6] “Bəqərə”, 156

1. Müsibətlər təsadüfi deyil, allahın izni ilə baş verir. Allah hadisələrə mane olmur.

2. İnsan müsibətlərə rastlaşdığı vaxt onun imanı Allahın rəhmət və hidayətini cəlb edir.

3. Allah-taala müsibətə düşmüş möminlərə çıxış yolu göstərir.

4. Allahın elm və iradəsinə inananlar hadisələr qarşısında səbirli olur, Allaha təvəkkül edirlər.

5. İnsan öz addım atmaqla ilahi lütflərə çatır.

6. Allah bizim addımlarımızın səmimi və ya riyakar olduğunu bilir.

7. Allahın izn və elmi ilə gerçəkləşən müsibətlərdə yalnız Onun özünə məlum olan bir sirr var.

8. İnsanın Allahın əhatəli elminə diqqəti müsibətlər qarşısında müqaviməti gücləndirir.

***Ayə 12:***

**﴿وَأَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ فَإِن تَوَلَّيْتُمْ فَإِنَّمَا عَلَىٰ رَسُولِنَا ٱلْبَلَاغُ ٱلْمُبِينُ﴾**

**“Allaha itaət edin, peyğəmbərə tabe olun. Üz çevirsəniz, (bilin ki) həqiqətən, peyğəmbərimizin vəzifəsi yalnız aşkar bəyan etməkdir.”**

***Ayə 13:***

**﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ وَعَلَى ٱللَّهِ فَلْيَتَوَكَّلِ ٱلْمُؤْمِنُونَ﴾**

**“Allah! Ondan savayı məbud yox! Möminlər yalnız Ona təvəkkül etsinlər.”**

## Nöqtələr

◘Hazırkı ayədə Allah və Peyğəmbərə (s) münasibətdə itaət əmri təkrarlanır. Yəni “itaət edin Allaha və Onun Rəsuluna (s)” yox, “itaət edin Allaha, tabe olun Peyğəmbərə (s)” əmri verilir. Bu iki ifadə arasında fərq var. Allaha itaət dedikdə sabit qanunlara tabeçilik, Peyğəmbərə (s) itaət dedikdə İslam hakiminə itaət nəzərdə tutulur.

◘Peyğəmbər (s) məsum olduğundan ona itaət qeyd-şərtsizdir. Məsum olmayan birinə itaət əslində günaha üz tutmaqdır.

◘”La ilahə illa huvə” dedikdə həm Allahdan savayı məbudun olmadığı, həm də Allahdan savayı kimsədə məbud ləyaqətinin olmadığı nəzərdə tutula bilər.

## Bildirişlər

1. Allaha itaət səmavi rəhbərə itaətlə müşayiət olunmalıdır.

2. İnsan azad yaradılmışdır. O həm tabe ola bilər, həm də boyun qaçıra bilər.

3. Təbliğatçı bütün insanlardan tabeçilik gözləməməlidir.

4. Bəziləri Peyğəmbərə (s) itaətdən boyun qaçırsalar da, Peyğəmbər (s) Allaha bağlıdır və Allah tərəfindən himayə olunur.

5. İlahi peyğəmbərlər xalqı doğru yola çəkməyə vəzifəli deyil. Onların işi yalnız vəhyi bəyan etməkdir.

6. İnsan öz vəzifəsinə əməl etsə, insanların itaətsizliyi onu həvəsdən salmamalıdır.

7. Dinin təbliği aşkar, şəffaf olmalıdır.

8. Yalnız həqiqi məbud itaətə layiqdir.

9. Bir olan Allaha təvəkkül təkallahlılığın şərtidir.

10. Allaha təvəkkül həqiqi iman nişanəsidir.
11. Bütün işlərdə Allaha təvəkkül etmək lazımdır.

***Ayə 14:***

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّ مِنۡ أَزۡوَٰجِكُمۡ وَأَوۡلَٰدِكُمۡ عَدُوّٗا لَّكُمۡ فَٱحۡذَرُوهُمۡۚ وَإِن تَعۡفُواْ وَتَصۡفَحُواْ وَتَغۡفِرُواْ فَإِنَّ ٱللَّهَ غَفُورٞ رَّحِيمٌ﴾

**“Ey iman gətirənlər! Zövcələrinizdən və övladlarınızdan bəziləri sizin düşməninizdir. Onlardan həzər qılın. Əgər əfv etsəniz? Göz yumsanız və bağışlasanız (bilin ki) Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

◘”Əfv” dedikdə təqsirin bağışlanması, “səfh” dedikdə təqsirə görə danlamamaq, “məğfirət” dedikdə təqsiri yaddan çıxarmaq nəzərdə tutulur. İnsan ətrafındakılara, ailə-övladına münasibətdə bu üç addımı ata bilər.

◘İmam Baqir (ə) buyurur: “Məkkə müsəlmanları hicrət qərarına gəldikləri vaxt onların ailə-övladlarından maneçilik törədənlər tapıldı. Onlar and verib, ərlərini hicrətdən çəkindirmək istəyirdilər.[1] Ayə nazil oldu və Peyğəmbər (s) əmrinə zidd olan bu istəklərin qəbul edilməməsi tapşırılıdı.

◘İnsana dini vəzifələrinin icrasında mane olan ailə-övlad axirət səadətini əngəlləyir. Bu səbəbdən də onlar düşmən sayılmışlar.

◘Qurani-kərimdə yalnız ailə-övlada münasibətdə əfv, səfh, məxrifət mərhələləri yanaşı zikr olunmuşdur.

◘Ayənin nazil olma şəninə əsasən dostu düşməndən seçmə meyarı onların xeyir və ya şərə təşviq etməsidir. Bir şəxs öz mənafeinə xatir başqa birini vəzifəsindən çəkindirirsə, onun düşmənidir.

◘Bəzi mühavcirlər ailə-övladlarına deyirdilər ki, əgər bu gün hicrət etməyib sonradan gəlsəniz sizi qəbul etməyəcəyik. Amma Quran onların bağışlanmasını tövsiyə edir.[2]

◘”Nur” surəsinin 22-ci ayəsində də oxşar məzmunla rastlaşırıq. Bildirilir ki, Allahın sizi bağışlamasını istəyirsinizsə özünüz də bağışlayın.

◘Əfv etmək, danlamamaq nə qədər mühüm olsa da, təqsiri görməməzliyə vurmaq daha üstündür. Məğfirət sözünün əfv və səhv sözlərindən sonra gəlməsi onun daha yuxarı mərtəbə olduğunu göstərir. Bundan əlavə Allah ayənin sonunda “ğəfur” sifəti ilə yada salınır. Hansı ki, o biri iki sifət də mövcuddur.[3] Quran ümmətə rəhbərliklə bağlı Peyğəmbərə (s) üç göstəriş verir: əfv etməkdən əlavə bütün büdrəmələri yaddan çıxarmaq, bundan da mühümü onlarla məsləhətləşib, şəxsiyyətlərini dəyərləndirmək.[4]

◘Həzrət Peyğəmbərdən (s) belə nəql olunur: “Elə bir dövr gələr ki, kişinin talehi arvadı və övladının əlində olar. Onlar yoxsulluğuna görə kişini məzəmmət edər, o da ailə-övladın istəklərini yerinə yetirmək üçün hər işə əl atıb həlak olar.”[5]

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Təfsiri-nümunə”
[3] “Nisa”, 59
[4] “Ali-İmran 159
[5] “Təfsiri-Məraği”

**Bildirişlər**

1. Ailə-övladın haqsız istəklərinə müqavimət göstərilməsi gerçək iman şərtidir. Bu müqavimət düşmənçiliklə qarşılansa belə zəruridir.

2. Haqq yola mane olmayan ailə-övladlar da var.

3. İnsan ehtiyatlı olmalı, azğın ailə-övlada aldanmamalıdır.

4. Ailə-övladın yersiz istəklərinə təslim olmayın, amma onlara münasibətdə əfv, güzəşt, bəxşiş yolunu tutun.

5. Son nöqtəyədək xətaları açıb-ağartmayaın. Bağışlayın, məzəmmət etməyin, pisliyi hətta özünüz də yadınızdan çıxarın.

6. Ailə həyatında vəzifə və istəklər arasında tarazlıq yaratmaq lazımdır. Ailə məhəbbətinə görə hicrət və cihad kimi vəzifələr tərk olunmamalı, eyni zamanda vəzifənin icrasına xatir ailəyə diqqətsizlik göstərilməməlidir.

7. Bilin ki, sizin əfv və bəxşişiniz Allahın əfv və bəxşişi ilə müşayiət olunasıdır.

8. Allahın bəxşişi Onun xüsusi rəhmət və lütfü ilə müşayiət olunur. Əgər siz başqalarını bağışlasanız, Allah da sizi bağışlayar və lütfündən bəhrələndirər.

***Ayə 15:***

﴿إِنَّمَآ أَمْوَالُكُمْ وَأَوْلَادُكُمْ فِتْنَةٌ وَٱللَّهُ عِندَهُۥٓ أَجْرٌ عَظِيمٌ﴾

**“Həqiqətən, sizin malınız və övladınız sınaq vasitəsidir. Böyük mükafat isə Allahın yanındadır. (Allah sınaqdan çıxanı mükafatlandırır)”**

**Nöqtələr**

◘”Ənfal” surəsinin 28-ci ayəsi də bu surənin oxşarıdır.

◘”Fitnə” dedikdə həm insan üçün sınaq olan problemlər, həm də düşmənin fitnə-fəsadı nəzərdə tutulur. Quranda düşmənin fitnə-fəsadlarının qarşısını almaq tapşırılır. Buyurulur ki, fəsaddan əl çəkənədək onlarla vuruşun.[1] Maraqlıdır ki, insan üçün sınaq vasitəsi olan mal və övlad həm də dünya zinətidir.[2]

◘Həzrət Əli (ə) buyurur: “Fitnələr qaçılmazdır və onlardan Allaha pənah aparmayın. Allaha pənah aparın ki fitnələr sizi azdırmasın.” Sonra həzrət hazırkı ayəni oxuyur.[3]

◘Əgər var-dövlətin sınaq vasitəsi və fitnə olduğunu bilsək onun azlığından narahat olmarıq. Hamı asan imtahan istəyir.

◘Var-dövlət sınaq vasitəsidir. Halal yolla qazanmaq, halal yolda sərf etmək, vacib haqları ödəmək, şükr etmək lazımdır.

◘Övlad sınaq vasitəsdir. Bu səbəbdən də insan həyat yoldaşı seçiminə, mehriyyənin ödənişinə, övladın qidalanmasına, onun təlim-tərbiyəsinə, izdivacına, peşə seçiminə, müxtəlif meyllərinə diqqətli olmalıdır. Bütün bu mərhələlər imtahandır. Əgər valideyn öz vəzifəsini düzgün yerinə yetirsə, bu sınaqdan uğurla çıxsa, övladın bütün xeyir işlərinə şərikdir.

◘Həyat yoldaşı və övlad insana düşmən olmaya da bilər. Amma onlar istisnasız olaraq sınaq vasitəsidirlər.

---

[1] “Bəqərə”, 193

[2] “Kəhf”, 46

[3] “Nəhcül-bəlağə”, hikmət 93

**Bildirişlər**

1. Var-dövlət və övlada bağlılıq insan üçün çaşdırıcı amildir. Bu səbəbdən də Allah xəbərdarlıq edir.

2. İlahi vəzifələrin icrası yolunda mal və övlada məhəbbətə göz yummaq böyük işdir. Buna görə də Allah-taala həmin əsarətdən çıxanlara böyük mükafat vəd edir.

3. Sınağa çəkən tərəf nə qədər böyük olarsa, sınaqdan çıxanlar üçün mükafat da bir o qədər dəyərli olar. Böyük Allah böyük mükafat verir.

4. Allahın böyük mükafatına diqqət insanın mal və övlad əsarətindən çıxması üçün təsirli amildir.

***Ayə 16:***

﴿فَٱتَّقُواْ ٱللَّهَ مَا ٱسْتَطَعْتُمْ وَٱسْمَعُواْ وَأَطِيعُواْ وَأَنفِقُواْ خَيْراً لِّأَنفُسِكُمْ وَمَن يُوقَ شُحَّ
نَفْسِهِ فَأُوْلَئِكَ هُمُ ٱلْمُفْلِحُونَ﴾

**“Bacardığınız qədər Allah qarşısında təqvalı olun, Onu eşidin, Ona itaət edin, infaq ayırın. Bu sizin üçün daha yaxşıdır. Nəfsinin şərindən amanda qalanlar həmin nicat tapanlardır.”**

**Nöqtələr**

◘”Yuq” dedikdə qorumaq, “şuxx” dedikdə nəfsə meyl mənaları anlaşılır.

◘Hədisdə nəql olunur ki, imam Sadiq (ə) daim “Pərvərdigara, məni nəfsimin pisliyindən qoru” deyə dua edərmiş. Ondan bu dua haqqında soruşulanda həzrət hazırkı ayəni oxuyur.[1]

İmam Sadiq (ə) buyurur ki, malının zəkatını ödəyən kəs nəfsinin xəsisliyindən xilas olmuşdur.[2]

◘Ali-İmran surəsinin 102-ci ayəsində oxuyuruq: “Allahdan haqqı qədər qorxun.” Bu ayədə isə insanın gücü çatan qədər Allahdan qorxması, təqvalı olması tapşırılır. Olsun ki, gücünüz çatan qədər dedikdə fərdi, ictimai, siyasi, iqtisadi sahələrdə təqvalı olmaq, haqqı çatan qədər dedikdə, təqvanın ali mərtəbəsi olan vər dərəcəsinə yiyələnmək nəzərdə tutulmuşdur.[3]

◘Ötən ayədə var-dövlət ilahi sınaq vasitəsi kimi tanıtdırıldı. Bu ayədə infaq və xəsislikdən uzaqlıq var-dövlətlə bağlı sınaqlardan qurtuluş vasitəsi kimi tanıtdırılır.

◘İnsan həm daxili düşməni olan nəfs istəkləri ilə mübarizədə, həm də xarici düşmənlərə qarşı müqavimətdə bütün gücünü işə salmalıdır.[4]

**Bildirişlər**

1. İlahi sınaqlardan müvəffəqiyyətlə çıxmaq üçün təqva təsirli vasitədir.

2. İslamda güc və imkandan yuxarı vəzifə yoxdur.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Təfsiri-məcməul-bəyan”

[3] “Təfsiri-əl mizan”

[4] “Ənfal”, 60

3. İlahi təqva dedikdə haqq sözü dinləmək, ona əməl etmək və yoxsullara əl tutmaq nəzərdə tutulur.

4. Əgər xeyir istəyirsinizsə, maneələri aradan qaldırın, Allah əmrini dinləyin və malınızdan yoxsullara verin.

5. İnsan təkcə cismini yox, həm də ruhunu pis əməl və sifətlərdən qorumalıdır.

6. Allah yolunda infaq qurtuluş vasitəsidir.

7. Var-dövlətə məhəbbət və xəsislik insanın nəfsinə hopmuşdur.

***Ayə 17, 18:***

**﴿إِن تُقْرِضُوا۟ ٱللَّهَ قَرْضًا حَسَنًا يُضَٰعِفْهُ لَكُمْ وَيَغْفِرْ لَكُمْ وَٱللَّهُ شَكُورٌ حَلِيمٌ﴾﴿عَٰلِمُ ٱلْغَيْبِ وَٱلشَّهَٰدَةِ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ﴾**

**“Əgər Allaha borc, yaxşı bir borc versəniz, onu sizin üçün artırar, sizi bağışlayar. Allah qədr bilən və həlimdir.”**

**Nöqtələr**

◘Qurani-kərimin müxtəlif ayələrində qərzül-həsənə, yəni Allah yolunda təmənnasız borc mövzüsuna toxunulur. Həmin mövzularla bağlı açıqlamalar da verilir. Təkrardan qaçmaq üçün deyilənlərlə kifayətlənirik.

◘Bütün varlıq aləmini yaratmış Allah öz verdiyi maldan yoxsullara pay ayrılmasını istəyir. Buyurur ki, başqalarına borc vermək Allaha borc verməkdir. Bu əməl müqabilində böyük mükafat vəd olunur. İnsan gözəl borc verməklə mənəvi baxımdan inkişaf edir, dünya əsarətindən çıxır. Məhrumlara yardım dünya məhəbbəti zindanından çıxıb Allaha doğru səfərlə nəticələnir. Bu yolla insanda səxavət və mərhəmət ruhu çiçəklənir. Əlbəttə ki, yalnız təmənnasız, dərhal, minnətsiz, ehtiramla, doğru yolda istifadə üçün verilən borc dəyərlidir. Borc elə bir miqdarda olmalıdır ki, problemin həlli üçün bəs etsin. Borc verən insan özünə qarşı ehtiram gözləməməli, özünü çəkməməlidir.

◘Qurani-kərimdə günahların bir neçə kəffarəsi qeyd olunur. Tövbə, namaz, cihad, eləcə də gözəl borc günahları yuya bilər.

**Bildirişlər**

1. Ya verdiyinizi bağışlayın, ya da gözəl borc verin.

2. Allahın məxluquna verilən borc Allaha verilmiş sayılır.

3. Nəfsi xəsislikdən qoruma yollarından biri də gözəl borcdur.

4. Borc alan şəxsi alçaltmayın. Çünki borc verərkən Allahla tərəf müqabili olmusunuz.

5. Gözəl borcun gözəl mükafatı var.

6. Borc verən, insanların problemlərini həll edən insan günahlarının bağışlanması üçün zəmin yaradır.

7. Xeyir işlərə təşviq üçün Allahın təyin etdiyi mükafatları və xeyir işin bərəkətlərini yada salın.

8. Allah-taala gözəl borc verənləri xoş sözlərlə yad edir, onlara təşəkkür bildirir. Borc alanlar da borc verənlərə təşəkkür etsinlər.

9. Allah-taala həlimdir. Əgər bizə gözəl borc verməsələr, biz də həlim və səbirli olaq.

10. Allah gizlindən də, aşkardan da eyni həddə xəbərdardır.
11. Güman etməyək ki, Allah bizim verdiyimiz borca ehtiyaclıdır.
12. Allahın bütün göstərişləri, təşviqləri və mükafatları hikmətamizidir.

# “TƏLAQ” SURƏSİ

### *(65-Cİ SURƏ; 12 AYƏ)*

### *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

### *“TƏLAQ” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 12 ayədən ibarətdir.

Surənin başlanğıc 7 ayəsi talaq, (boşanma) onun hökmlərini açıqlayır. Bu səbəbdən də surə “Təlaq” adlandırılmışdır. Surənin 2-ci hissəsində Allah əmrlərində boyun qaçıran ağır cəzaya düçar olanlar, eləcə də saleh əməl və Peyğəmbərə (s) iataət sahəsində Allahın xüsusi hidayət və nemətindən bəhrələnənlər haqqında danışılır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿يَآ أَيُّهَا ٱلنَّبِيُّ إِذَا طَلَّقْتُمُ ٱلنِّسَاءَ فَطَلِّقُوهُنَّ لِعِدَّتِهِنَّ وَأَحْصُواْ ٱلْعِدَّةَ وَٱتَّقُواْ ٱللَّهَ رَبَّكُمْ لاَ تُخْرِجُوهُنَّ مِن بُيُوتِهِنَّ وَلاَ يَخْرُجْنَ إِلاَّ أَن يَأْتِينَ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ وَتِلْكَ حُدُودُ ٱللَّهِ وَمَن يَتَعَدَّ حُدُودَ ٱللَّهِ فَقَدْ ظَلَمَ نَفْسَهُ لاَ تَدْرِي لَعَلَّ ٱللَّهَ يُحْدِثُ بَعْدَ ذَلِكَ أَمْراً﴾**

**“Ey peyğəmbər! Qadınlarnızı boşamaq istədiyiniz vaxt onları iddə zamanı (ayıbaşından pak olduqdan sonra) boşayın. İddə vaxtını hesablayın və Rəbbiniz olan Allahdan qorxun. (İddə dövründə) Nə siz onları evdən çıxarın, nə də onlar özləri çıxsınlar. Yalnız aşkar çirkin işə yol versələr (evdən çıxara bilərsiniz). Bu göstərişlər Allahın hədləridir və hər kəs Allahın hədlərini pozsa, özünə sitəm etmişdir. Sən bilmirsən, olsun ki, Allah bundan sonra yeni bir əmr versin.”**

#### Nöqtələr

◘”Əhsu” sözü saymaq mənasını bildirən “ihsa” sözündəndir. “Hisy” dedikdə çınqıl nəzərdə tutulur. Çünki qədim vaxtlar çınqıl daşlar vasitəsi ilə hesab aparılardı.[1]

◘”Bi fahişətin mubəyyənə” ifadəsi zina və ya ev əhlinə əziyyət mənasını bildirir. Bu qəbul çirkin işlərə yol verən zövcəni evdən çıxarmaq olar.[2]

◘Arvadını boşamaq qərarına gəlmiş kişi zövcəsi üç ayıbaşıdan paklanana qədər səbr etməlidir. Boşanmadan sonra qadın ərə gedə bilər. Bu zaman kəsiyi “iddə” adlanır. Qadın özü bu vaxtı hesablamalıdır. İddiə dövründə kişi qadının xərcini ödəməlidir. Həmin vaxt ərzində onu evdən çıxarmaq olmaz. Əlbəttə ki iddə dövründə qadın da kişinin icazəsi olmadan evi tərk edə bilməz.

---

[1] “Təfsiri-ruhul məani”

[2] “Təfsiri-nurus-səqəleyn”

◘Kişi iddə dövründə boşanma fikrindən daşınıb ailə həyatını bərpa edə bilər. Həmin vaxt yenidən əqd oxunmasına ehtiyac yoxdur. Olsun ki, iddə fəlsəfələrindən biri də ailənin dağılmasının qarşısını almaqdır. İddə qanunu tələsik boşanmağın qarşısını alır.

◘İslam əsassız boşanmanın qarşısını almaq üçün müəyyən məhdudiyyətlər qoyur. Məsələn, üç boşanmadan sonra qadın kişiyə haram olur və həmin qadınla təkrar evlənmək olmaz. Yalnız bir hal istisnadır. Qadın başqa bir kişidə ərdə olub boşandıqdan sonra əvvəlki əri ilə həyat qura bilər. İmam Rizadan (ə) bu hökmün fəlsəfəsi haqqında soruşulduqda buyurmuşdur: "Bu kökm verilib ki, insanlar boşanmanı yüngül və sadə düşünməsinlər."[1]

◘Quranda buyurulur ki, zövcələrinizlə yaxşı davranın, boşanma zamanı onlarla yaxşı rəftar edin. Əgər kişi boşamaq istədiyi qadınla pis davranarsa şəri hakim qadının müdafiəsinə qalxır.

## *Talaq mövzusuna bir baxış*

İslam dinində boşanmqa halalların ən pisi sayılmışdır.[2] Həzrət Peyğəmbər (s) buyurur: "Evlənin və boşanmayın. Boşanma ilə Allahın ərşi lərzəyə gəlir."[3] Əlbəttə ki, bəzən boşanma yeganə çıxış yolu və zərurət olur.

Boşanmanın necəliyi ilə bağlı bir neçə baxış var.

a) Boşanma qeyd-şərtsiz, azad ola bilər; əgər belə olsa həvəsbaz və əyyaş insanlar bundan istifadə edər və yalnız müvəqqəti ləzzət almaq üçün evlənər.

b) Boşanma qadağan edilə bilər; belə bir baxış kilsəyə məxsusdur. Boşanma qadağan edilsə bir-birinə uyğunlaşmayan kişi və qadın xoşlamadıqları birgə yaşayışa məcbur olub, gizlində başqaları ilə görüşər.

v) Boşanma ixtiyarı qadına verilə bilər; əgər belə olsa, boşanma göstəriciləri artar. Çünki qadınlar həssasdır, tez inciyir. Əgər boşanma qadının ixtiyarına verilsə onlar kiçik bir inciklik səbəbindən boşanma qərarına gələr.

q) Boşanma kişinin ixtiyarına verilə bilər; İslam müəyyən qanunlar çərçivəsində, İslam hakiminin nəzarəti altında bu baxışa üstünlük vermişdir. Əlbəttə ki, qadın boşanmaq üçün İslam hakiminə müraciət etsə, hakim onun istəyini araşdırır. Əgər qadının haqları ödənmirsə, hakim boşanma hökmü verir.

◘İslam dinində boşanmanın şərtləri və xüsusi qanunları var. Boşanma mühüm əxlaqi məsələdir. Düşmənlə savaşın şərtləri olduğu kimi boşanmanın da hökmləri var. Məsələn, savaşda düşmənlə mübarizə bəhanəsi altında içməli suyu zəhərləmək, ağacları qırmaq, uşaqları və qadınları incitmək olmaz.

## *İxtilaf və ayrılıq amilləri*

*1. Pis əxlaq*

Boşanmanın əsas amillərindən biri qadın və ya kişinin qarşı tərəflə pis rəftarıdır. Həzrət Əli (ə) buyurur: "Əxlaqı pis insanın ailəsi əziyyət çəkəsidir."[4]

*2. Həvəsbazlıq*

---

[1] "Uyunul-əxbar", c. 2, s. 85
[2] "Vəsailuş-şiə", c. 15, s. 266
[3] "Vəsailuş-şiə", c. 15, s. 268
[4] "Mizanul-hikmə", hədis 5103

İslamda qadın və kişilərə tövsiyə olunur ki, naməhrəmə ləzzət məqsədi ilə baxmaqdan çəkinsinlər. Cəmiyyətdə qadınların örtünməsi, diqqəti cəlb etməməsi dini vəzifələrdəndir. İmam Sadiq (ə) buyurur: "Olsun ki qısa bir baxış uzun müddətli həsrət və peşimançılıqla müşayiət olunsun."[1]

Rəvayətdə bildirilir ki, həzrət Davudun dövründə bir kişi bir qadına təcavüz etdi. Allah qadına ilham etdi ki, kişiyə belə desin: "Nə vaxt bir qadına təcavüz etsən başqa bir kişi də sənin arvadına təcavüz edəcək." Həmin kişi evə qayıtdıqda arvadını başqa bir kişi ilə gördü. Kişini tutub həzrət Davudun yanına gətirdi və şikayət etdi. Allah-taala həzrət Davuda vəhy etdi ki, həmin şəxsə öz əməli ilə qarşılaşdığını bildirsin.[2]

*3. Qadın və kişinin bir-birinin ehtiyaclarına diqqətsizliyi*

Həzrət Peyğəmbər (s) buyurur: "Ərin öz arvadının yanında əyləşməsi Allah üçün onun məsciddə etikafından əzizdir."[3]

İmam Sadiq (ə) buyurur: "Qadının özünə baxmaması, ailə həyatını şirinləşdirən gözəlliyə diqqətsizliyi yaxşı iş deyil."[4]

Həsən ibn Cəhm deyir: imam Kazimi (ə) saçlarını səliqəyə salan vəziyyətdə gördüm. İmam mənim təəccüblə baxdığımı gördü və buyurdu: kişinin səliqəsi qadının iffətini artırır. Ərləri zahirən səliqəsiz olan kişilərin zövcələri iffətsizlik edir... Siz zövcələrinizin səliqəsizliyini, özünə diqqətsizliyini bəyənmədiyiniz kimi, onlar da bunu bəyənmir."[5]

## *Təlaqdan öncə ixtilafların həlli*

*1. Ailə məhkəməsi*

İslamda tövsiyə olunur ki, ərlə arvad arasında ixtilaf yarananda hər iki tərəfdən canıyanan insanlar hakim seçilsin və həmin iki hakimin iştirakı ilə ixtilaflar araşdırılsın. Bu üsul tətbiq olunduqda bir çox ixtilaflar ilk addımda həll olunur, məsələ boşanma və məhkəməyə gedib çıxmır.[6]

*2. İki ədalətli şahidin iştirakı*

İslam hökmlərinə əsasən boşanmanın baş tutması üçün iki ədalətli şahidə ehtiyac var. Belə bir şərt çox vaxt boşanmanın qarşısını alır. Çünki adətən insanlar ailənin dağılmasında, boşanmada iştirak etmək istəmirlər. İkincisi, şahidlik üçün dəvət olunanlar barışığa çalışır.

*3. İddə müddəti*

Həqiqətən də iddə müddəti boşanmanı müəyyən müddət təxirə salır. İslamda kişilərə göstəriş verilir ki, boşadıqları qadını iddə müddəti başa çatanadək evlərində saxlasınlar, onların xərclərini ödəsinlər, onlarla xoş davransınlar. Təbii ki, bu müddət ərzində əsəblər sakitləşir, boşanmadan daşınmaq fikri yaranır. Boşanmaq qərarına gəlmiş çox insanlar iddə müddətində barışırlar.

İmam Baqir (ə) buyurur: "İddə müddətində olan qadın özünü bəzəsin, ətirlənsin, ərinin sevdiyi libasları geyinsin. Belə olduqda kişi daha düşüncəli addım atır və ailə həyatı yenidən bərpa olunur."[7]

---

[1] Şeyx Səduq, "Əmali", s. 238
[2] "Mən la yəhzərəhul fəqih", c. 4, s. 141
[3] "Mizanul-hikmə", hədis 7884
[4] "Məcmueye vərram", c. 2, s. 121
[5] "Kafi", c. 5, s.
[6] "Nisa", 35
[7] "Təfsiri-nurus-səqəleyn", c. 5, s. 352

## *İddənin fəlsəfəsi*

Şübhəsiz ki, bütün ilahi hökmlərin hikmət və fəlsəfəsi var. Hökmlərin fəlsəfəsindən xəbərdar olmayan insan da onlara əməl etdikdə faydalanır. İddə də bu qəbil hökmlərdəndir. İddə barədə azca düşündükdə onun faydaları aydınlaşır:

1. Ailənin hifzi; İslam izdivacı müqəddəs sayır. İddə müddəti müqəddəs ailə ocağını hifz edir.

2. Övladların əsil-nəcabəti; iddə müddəti saxlanarsa, nütfə qatışıqlığı yaranmaz, övladın kimə aid olduğu bilinər.

3. İddə ailə həyatına qayıdış üçün bir fürsətdir.

Kişinin boşanmaq fikrindən daşınıb əvvəlki arvadı ilə ailə həyatını davam etdirməsinin üstünlükləri var:

a) Yeni həyat yoldaşı ilə yaşayış üçün növbəti dəfə təcrübə toplamaq lazım gəlir. Amma əvvəlki həyat yoldaşı ilə yaşayış üçün kifayət qədər təcrübə var;

b) Yenidən ailə qurmağın yeni xərcləri var;

v) Kişinin boşanmaq fikrindən daşınıb ailə həyatını davam etdirməsi ailənin ictimai nüfuzunu hifz edir, boşanma nəticəsində yaranacaq kin-küdurətlərin, mənfi münasibətlərin qarşısı alınır.

q) Boşanma nəticəsində psixoloji zərbə alacaq övladlar böyük ruhi zərbədən xilas olur.

d) Ailə həyatına qayıdış insan mərəhəmət, səbr, isar ruhiyyəsini çiçəkləndirir.

## Bildirişlər

1. Bütün xalqa ünvanlanmış ilahi göstərişlərin Peyğəmbərə (s) müraciətlə bəıyan olunması həm Peyğəmbərə (s) ehtiram nişanəsidir, həm də həzrətin (s) həmin göstərişlərin icrasına nəzarətinin zəruriliyini göstərir.

2. Göstərişin mühümlüyünü bildirmək, ətrafdakıları da uyğun yönə təşviq etmək üçün toplumdakı birinci şəxsə müraciət edin.

3. İzdivac (evlənmə) əqdi üçün xüsusi vaxt təyin olunmayıb. Amma boşanma yalnız iddə başladıqdan sonra mümkündür. Yəni boşanma vaxtı qadın ayıbaşı halında olmamalı, son ayıbaşıdan sonra əri onunla yaxınlıq etməməlidir.

4. Boşanma kişinin ixtiyarındadır.

5. Ailə nizamını qorumaq üçün boşanmanı yubadacaq şərtlər qoyulmuşdur.

6. İlahi hökmlər üçün nəzərdə tutulmuş zaman bölgüsünə diqqətlə əməl edək.

7. Boşanma prosesində günaha yol vermək olmaz.

8. Boşanma zamanı, xüsusi ilə iddə vaxtı ər və arvad təqva şərtlərinə riayət etsin.

9. İlahi rübubiyyətə (müdiriyyətə) münasibətdə qorxu və təqvaya ehtiyac var.

10. Boşanmış qadının iddə müddəti qurtaranadək ərinin mənzilində yaşamaq haqqı var.

11. Boşanma zamanı qadın təhqir olunmamalıdır.

12. Minnət qoyulmasına və minnətli olmağa yol verməyin. Ərin minnət qoymaması üçün Allah-taala “qadın öz evində məskundur” buyurur.

13. Qadınlar boşanmanı son nöqtə bilməsinlər. Onlar əvvəlki mənzillərində qalaraq ailə həyatının bərpa olunacağına ümidvar olsunlar.

14. Barışıq yollarını bağlamaq, geriyə körpüləri uçurmaq insanın özünə zülmüdür.

15. Həyasını itirmiş, ehtiramı pozmuş günahkar təhqirə layiqdir.

16. Qanundan sui-istifadə qadağandır. (Qadın ər evində sükunət haqqından istifadə edib intiqam məqsədi ilə günaha yol verməməlidir)

17. Qadın yalnız günaha yol verdikdə evdən çıxarıla bilər. Qadına münasibətdə sui-zənn onu evdən çıxarmaq üçün bəs etmir.

18. Ər boşadığı qadını evində saxladığı üçün ona minnət qoymamalıdır. Çünki bu Allahın hökmüdür.

19. Boşanmış qadınlar ər evində qaldıqları üçün narahat olmamalıdırlar. Bu məhdudiyyət hikmət sahibi olan Allah tərəfindən təyin edilmişdir.

20. Allahın əmrlərinə biganəlik, ilahi hədlərin pozulması insanın özünə zülmüdür.

21. Biz öz məlumatlarımız əsasında qərara gəlirik. Amma gələcəkdən xəbərsiz olduğumuz üçün Allaha təvəkkül edib ümidimizi itirməməliyik.

22. İslamda ümidsizlik qadağandır. Müsəlman şəxs öz gələcəyinə ümidvar olmalıdır. (Boşanma zamanı narahatçılıq keçirən tərəflərə təsəlli vermək lazımdır)

23. Acı hadisələri öz xeyirimizə qəbul edək.

24. Təqva və ilahi hədlərə diqqətli olaq, gələcəyimizi Allaha tapşıraq.

25. Yalnız hazırkı vəziyyətdə ilahi lütfdən bəhrələndiyimizi düşünməyək. Ola bilsin ki, boşanmadan sonra insanın durumu daha da yaxşılaşa.

***Ayə 2:***

﴿فَإِذَا بَلَغْنَ أَجَلَهُنَّ فَأَمْسِكُوهُنَّ بِمَعْرُوفٍ أَوْ فَارِقُوهُنَّ بِمَعْرُوفٍ وَأَشْهِدُوا۟ ذَوَىْ عَدْلٍ
مِّنكُمْ وَأَقِيمُوا۟ ٱلشَّهَٰدَةَ لِلَّهِ ذَٰلِكُمْ يُوعَظُ بِهِۦ مَن كَانَ يُؤْمِنُ بِٱللَّهِ وَٱلْيَوْمِ ٱلْءَاخِرِ وَمَن يَتَّقِ ٱللَّهَ
يَجْعَل لَّهُۥ مَخْرَجًا﴾

**“İddə müddəti sona yaxınlaşdıqca onları ya (ailəni bərpa edib) xoşagələn şəkildə saxlayın, ya da (mehriyyələrini ödəyib) bəyənilmiş şəkildə ayrılın. (Boşanma vaxtı) öz aranızdan iki ədalətli şahid seçin. Şəhadəti Allah üçün yerinə yetirin. Allaha və qiyamət gününə inanan kəsə belə öyüd verilir. Kim Allahdan qorxsa, Allah onun üçün xilas yolu açır.”**

***Ayə 3:***

﴿وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ وَمَن يَتَوَكَّلْ عَلَى ٱللَّهِ فَهُوَ حَسْبُهُۥٓ إِنَّ ٱللَّهَ بَٰلِغُ أَمْرِهِۦ قَدْ
جَعَلَ ٱللَّهُ لِكُلِّ شَىْءٍ قَدْرًا﴾

**“Ona güman etmədiyi yerdən ruzi verər. Hər kəs Allaha təvəkkül etsə, onun üçün Allah bəs edər. Həqiqətən, Allah öz işini görür. Həqiqətən, Allah hər şey üçün ölçü müəyyənləşdirmişdir.”**

### Nöqtələr

◘”Bələğnə əcələhunnə” dedikdə iddə müddətinin başa çatması yox, onun axır dövrləri nəzərdə tutulur. Çünki iddə müddəti başa çatdıqdan sonra qadını saxlamaq haramdır.[1]

---

[1] “Təfsiri-əl mizan”

◘Quran-kərimdə "məruf" (yaxşılıq) sözü 38 dəfə işlədilmişdir. Bunun 15-i ailə həyatına aiddir. Bəli, ailədə ərlə arvadın münasibətləri xoş olmalıdır.

◘Boşanmaya iki ədalətli şəxsin şahidliyi faydalı şərtdir. Əgər iddə dövründə kişi dünyasını dəyişsə qadın irs tələb edə bilməz. Qadın iddə müddəti başa çatdıqdan sonra ərə getmək ixtiyarına malikdir. Ədalətli şahidlər hörmətlə qarşılandıqlarından təbii ki, barışığa çalışırlar.

◘Həzrət Peyğəmbər (s) buyurur: "Mən elə bir ayə tanıyıram ki, insanlar ona əməl etsələr bütün problemləri həll olar." Sonra həzrət (s) hazırkı ayəni oxumuşdur.[1]

◘Rəvayətdə oxuyuruq ki, 3-cü ayə nazil olan vaxt Peyğəmbərin (s) yaxınlarından bir qrupu işini yerə qoyub Allahdan ruzi gözləməyə başladılar. Peyğəmbər (s) onları məzəmmət edib buyurdu: "İşi boşlayan insanın duası qəbul olmaz."[2]

◘Quranda Allahın mehr-məhəbbətinin də, qəzəbinin də gözlənilməyən yerdən gəldiyi bildirilir.[3]

◘Təqva təkcə axirətdə təsirli deyil. İmam Sadiq (ə) buyurur ki, təqvalılar üçün dünya həyatında açılış var.[4]

## Bildirişlər

1. Dini hökmlər üçün təyin olunmuş vaxta diqqətli olmaq lazımdır. (İddənin həm başlanğıc, həm də son vaxtı bildirilir.)
2. Hər bir iş üçün öncədən proqram, vaxt təyin olunmalıdır.
3. Həm həyatın davamında, həm də boşanmada bəyənilmiş şəkildə rəftar etmək, hörməti gözləmək lazımdır.
4. Xoş rəftar həm barışıq, həm də boşanma gedişində həyat yoldaşının haqlarındandır.
5. Ailə həyatının davamı boşanmadan üstündür.
6. İstər ailə həyatı, istərsə də boşanma şəriətin müəyyənləşdirdiyi yolla, bəyənilmiş şəkildə olmalıdır.
7. Qadınların fiziki baxımdan zəifliyi, ictimai adət-ənənələr, onların haqlarının daha çox tapdanması ilə nəticələnmişdir. Bu səbəbdən də Qurani-kərimdə daha çox kişilərə tövsiyə olunur ki, qadınların haqlarını qorusunlar.
8. Boşanma qarşı tərəfə ehtiram göstərməklə, təhqirə yol vermədən həyata keçməlidir.
9. Boşanmanın həyata keçməsi üçün iki ədalətli şahidə ehtiyac var.
10. Tərəflərin haqlarını qorumaq üçün iki ədalətli şahid seçilməsi bu işə diqqətdən danışır.
11. Boşanma ədalətli insanların iştirakı ilə həyata keçməlidir.
12. Ədalətli fərdlər də xatırlatmaya ehtiyaclıdır.
13. Nə məhəbbət, nə də düşmənçilik mühakimənin nəticəsinə təsir göstərməməlidir.
14. İki ədalətli şəxsin şəhadəti haqların qorunması və ixlasla müşayiət olunmalıdır.
15. İnsanların haqqı dini haqlarla bir çəkidədir. Qurani-kərimdə həm namaz, həm din, həm şəhadət, həm də ölçüdə diqqətli olmaq tövsiyə edilir.[1]

[1] "Təfsiri-məcməul-bəyan"
[2] "Təfsiri-nurus-səqəleyn"
[3] "Təlaq", 3; "Həşr", 2
[4] "Təfsiri-nurus-səqəleyn"

16. Moizə dedikdə təkcə əxlaqi tövsiyələr yox, həm də fiqhi göstərişlər nəzərdə tutulur.

17. Nəsihətin qəbulu həqiqi iman nişanəsidir.

18. İnsan üçün ən üstün moizə və tərbiyə yolu dolaşıq ürfan yoluna üz tutmaq yox, dini hökmlərə yetərincə əməl etməkdir.

19. Problemlərin günah yolla həlli azğınlığa aparır. Təqva və Allah qorxusu insanı problemlərdən xilas edir.

20. Təqva bütün çətinliklərdən xilas yoludur.

21. Böhranları və fitnələri aradan qaldırmaq üçün iki yol var: təqva və Qurana sarılmaq.[2]

22. Boşanmaq qərarına gəlmiş ərlə arvad təqvalı olarsa Allahın xüsusi lütfündən bəhrələnər.

23. Günah yolla ehtiyaclarını təmin edənlər Allahın gözlənilməyən yolla yetirəcəyi ruzidən məhrum olur.

24. Allahın istəkləri insanın hesabatlarından asılı deyil.

25. Mənəvi nöqtələrin gözələnilməsi maddi həyatda təsirlidir. (Qeybi yardımlar insanın həyatında mühüm rol oynayır)

26. Təqvalı insan öz istəklərini yox, Allahın istəklərini əsas götürür. Allahın iradəsi qarşısında maneə olmadığından təqvalı insan çıxılmaz vəziyyətə düşmür.

27. Ruzinin bolluğu çox işləməkdən asılı deyil. İmam Sadiq (ə) hazırkı ayə ilə bağlı buyurur ki, Allah ona veriləni bərəkətli edər.[3]

28. Çətin vəziyyətdən çıxmaq üçün təqva və təvəkkül iki mühüm vasitədir.

29. Bu günkü həyatın təmini üçün təqvaya, gələcəyin təmini üçün təvəkkülə ehtiyac var.

30. Təqva təvəkküldən öndə gəlir.

31. Allahın lütfü olmayan yerdə bütün amillər yetərsizdir.

32. Bütün fərdlər və hökumətlər üçün məğlubiyyət, uğursuzluq ehtimalı var. Yalnız Allahın istək və iradəsi yenilməzdir.

33. Allaha təvəkkül Allahın sonsuz qüdrətinə əsaslanır.

34. Allahın qüdrət sahibi olması və bizim ona təvəkkülümüz bütün arzuların həyata keçməsi kimi qəbul olunmamalıdır. Çünkü həyatda qanunlar, hesab-kitab var.

***Ayə 4:***

﴿وَٱللَّٰٓـِٔي يَئِسْنَ مِنَ ٱلْمَحِيضِ مِن نِّسَآئِكُمْ إِنِ ٱرْتَبْتُمْ فَعِدَّتُهُنَّ ثَلَاثَةُ أَشْهُرٍ وَٱللَّٰٓـِٔي لَمْ يَحِضْنَ وَأُوْلَاتُ ٱلْأَحْمَالِ أَجَلُهُنَّ أَن يَضَعْنَ حَمْلَهُنَّ وَمَن يَتَّقِ ٱللَّهَ يَجْعَل لَّهُ مِنْ أَمْرِهِ يُسْرًا﴾

**“(Boşamaq istədiyiniz) Ayıbaşısı kəsilmiş zövcələrinizin (yaşa, xəstəliyə və ya hamiləliyə görə belə olduğuna şübhə etsəniz, bilin ki) onların iddə müddəti üç aydır. Ayıbaşı olmayan qadınların da hökmü belədir. Hamilə qadınların iddəsinin sonu hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxsa, Allah onun işində asanlıq yaradar.”**

**Nöqtələr**

---

[1] “Şura”, 13; “Bəqərə”, 43; “Ər-Rəhman”, 9; “Təlaq”, 2
[2] “Kafi”, c. 2, s. 598
[3] “Təfsiri-nurus-səqəleyn”

◘Ötən ayələrdəki talaq hökmlərinin ardınca bu ayədə buyurulur: İstənilən bir səbəbdən ayıbaşı olmayan qadınlar üçün iddə müddəti üç aydır; hamilə qadınlar hamiləlikdən azad olana qədər səbr etməlidirlər; yalnız bundan sonra başqa birinə ərə gedə bilərlər.

◘Quranda təqvalı insanlar haqqında buyurulur ki, onlar üçün nur qərar verilər, onlar haqqı batildən ayırar, onlar üçün xilas yolu açılar, onların işləri asanlaşdırılar.[1] Bəli, bu təbii bir ardıcıllıqdır: təqvalı insan üçün nur qərar verilər, bu nur sayəsində haqq batildən seçilər, haqq batildən seçildikdən sonra xilas yolu görünər və bir sıra çətinliklər asanlaşar.

**Bildirişlər**

1. Fərqli şəraitlər üçün fərqli ilahi hökmlər var. (Hamilə qadının öz hökmü var, sonsuz qadının öz hökmü)
2. Fitri din üçün, fitri, təbii və hər yerdə işlək dəyərlər var. İlahi hökmlərin meyarları təbii əsaslara malikdir. Günəşin tülu və qürubu, ayın mənzilləri buna misal ola bilər.
3. Övladın toxunulmazlığı var və hamilə qadın başqa birinə ərə gedə bilməz.
4. Ailə məsələlərində, xüsusi ilə boşanma şəraitində daha çox təqvaya ehtiyac var.
5. İnsanın həyatda qarşılaşdıqları bir çox problemlərin səbəbi təqvasızlıqdır. Əlbəttə ki təqvalı insanlar da imtahan məqsədi ilə çətinliyə düşə bilər.
6. Təqvalı insanlar üçün çətinliyə dözmək ağır olmur. Çünki təqva insanın tutumunu artırır.

***Ayə 5:***

﴿ذَٰلِكَ أَمْرُ ٱللَّهِ أَنزَلَهُۥٓ إِلَيْكُمْ وَمَن يَتَّقِ ٱللَّهَ يُكَفِّرْ عَنْهُ سَيِّـَٔاتِهِۦ وَيُعْظِمْ لَهُۥٓ أَجْرًا﴾

**“Bu, Allahın sizə doğru nazil etdiyi əmrdir. Kim Allahdan qorxsa, Allah onu pisliklərdən təmizlər, mükafatını böyüdər.”**

**Bildirişlər**

1. Ailə məsələlərində ilahi göstərişlərə ciddi yanaşaq.
2. Təqva Allahın qəzəbindən qurtuluş səbəbidir.
3. Günahkarlar təqva vasitəsi ilə keçmiş günahlarını yuya bilərlər.
4. Günahkarları bədbəxt saymayın. Onlar paklana da bilər.
5. Günahdan paklanmaq ilahi mükafat üçün müqəddimədir.
6. Təqva həm keçmiş günahları yuyur, həm də gələcəyi təmin edir.

***Ayə 6:***

﴿أَسْكِنُوهُنَّ مِنْ حَيْثُ سَكَنتُم مِّن وُجْدِكُمْ وَلَا تُضَآرُّوهُنَّ لِتُضَيِّقُوا۟ عَلَيْهِنَّ وَإِن كُنَّ أُو۟لَٰتِ حَمْلٍ فَأَنفِقُوا۟ عَلَيْهِنَّ حَتَّىٰ يَضَعْنَ حَمْلَهُنَّ فَإِنْ أَرْضَعْنَ لَكُمْ فَـَٔاتُوهُنَّ أُجُورَهُنَّ وَأْتَمِرُوا۟ بَيْنَكُم بِمَعْرُوفٍ وَإِن تَعَاسَرْتُمْ فَسَتُرْضِعُ لَهُۥٓ أُخْرَىٰ﴾

**“(İddə başa çatanadək) Zövcələrinizə öz məskənlərinizdə, gücünüz həddində yer verin. Onlara zərər toxundurmayın, sıxıntı yaratmayın. Hamilə olsalar,**

[1] “Hədid”, 28; “Ənfal”, 29; “Təlaq”, 2; “Təlaq”, 4

**hamiləlikdən azad olana qədər xərclərini ödəyin. Övladlarınıza süd versələr, muzdlarını verin. (Uşaqla bağlı) Öz aranızda yaxşı şəkildə məsləhətləşib razılığa gəlin. Razılaşa bilməsəniz, başqa bir qadın (övladınıza) süd versin.”**

## Nöqtələr

◘”Vətəmiru” sözü “itmar” sözündən olub razılaşma, qarşılıqlı anlaşma mənasını bildirir.

◘İddə dövründə qadına kişinin evində yer verilməsinin məqsədi barışıq ümidi ola bilər. Qadının evdən çıxarılması ona qarşı təhqirdir. Tədrici ayrılıqda qayıdış imkanı birdəfəyə ayrılıqdan daha böyükdür. Tədrici qayıdışda hislərdən daha çox, ağıl və düşüncə rol oynayır.

◘Hazırkı ayədə qadının haqlarının qorunmasına, onun hamiləliyinə, övladın qidalanmasına, dayə tutulmasına işarə olunur.

◘Ayədə qayıdış üçün zəmin olan beş göstəriş verilir. Bu göstərişlər mərhəmət və düşüncəyə əsaslanır.

## Bildirişlər

1. Ər  hətta boşanmadan sonra qadına məskən verməlidir.
2. Boşanmış qadın əri ilə bir məkanda yerləşdirilməlidir.
3. Kişi qənaət, intiqam, təhqir məqsədi ilə qadına qeyri-münasib yer verə bilməz.
4. Məskən seçimində qadının asayiş və aramlığı nəzərə alınmalıdır.
5. Məskən seçimində qadının istəyi yox, kişinin imkanları meyardır.
6. Kişi boşadığı qadınına heç bir zərər toxundura bilməz.
7. Kişinin ixtiyarı yoxdur ki, boşadığı qadını sıxıntıya salsın.
8. Hamilə qadın boşanarsa da, onun xərci ödənməlidir.
9. Boşanmış qadın övladına verdiyi süd müqabilində ərindən əvəz tələb edə bilər.
10. Qadın əvəz alsa belə onun südü dayənin südündən üstündür. Boşanmış qadın övlada süd verməkdən imtina da edə bilər.
11. Ərlə arvadın məsləhətləşməsi o qədər mühümdür ki, hətta boşandıqları vaxt bu iş tövsiyə olunur.
12. Bütün ailə məsələlərində ictimai rəy və ağıl meyar sayılır.
13. Nəticə alınmasa belə məsləhətləşmək lazımdır.
14. Bir araya gəlməyən ərlə arvad körpənin haqlarını tapdamamalıdır.
15. Ana südünün imtiyazları var. Yalnız çıxılmaz vəziyyətdə başqa yola əl atıla bilər.
16. Qadın süd haqqını elə bir səviyyəyə qaldırmamalıdır ki, kişi üçün çətinlik yaransın. Qadın həddən artıq haqq təyin edərsə, kişi dayə tuta bilər.
17. Ailədə qərar çıxarılarkən körpənin haqları nəzərə alınmalıdır: bətndəki körpənin haqqı ata tərəfindən ödənməlidir; anadan olduqdan sonra anası ona süd verməlidir; ata ananın verdiyi südün haqqını ödəməlidir.

***Ayə 7:***

**﴿لِيُنفِقْ ذُو سَعَةٍ مِّن سَعَتِهِ وَمَن قُدِرَ عَلَيْهِ رِزْقُهُ فَلْيُنفِقْ مِمَّآ ءَاتَاهُ ٱللَّهُ لَا يُكَلِّفُ ٱللَّهُ**
**نَفْسًا إِلَّا مَآ ءَاتَاهَا سَيَجْعَلُ ٱللَّهُ بَعْدَ عُسْرٍ يُسْرًا﴾**

**“İmkanlı şəxs imkanına uyğun verməlidir. Ruzisi az olan kəs Allahın ona verdiyindən infaq etməlidir. Allah insana yalnız verdiyi imkan həddində vəzifə təyin edir. Allah tezliklə çətinlikdən sonra asanlıq yaradar.”**

**Nöqtələr**

◘İnsanın gücü həddində zövcəsinin xərcini ödəməsi həm iddə dövrünə, həm boşanma vaxtı süd verilən dövrə, həm də başqa dövrlərə aiddir.

◘Quranda “usr” sözü 12 dəfə, “yusr” sözü 6 dəfə işlədilmişdir. Sanki hər çətinlik üçün üç açılış nəzərdə tutulur.

**Bildirişlər**

1. Dolanışıq ehtiyaclarının təminində meyar ər və ya arvadın baxışları yox, kişinin maddi imkanlarıdır.
2. Gələcək ehtiyaclardan qorxaraq bu gün sıxıntı yaratmayın.
3. Boşanma halında da alicənablığınızı saxlayın.
4. Qadının ehtiyaclarının ödənməsində kişinin onu sevib-sevməməsinin əhəmiyyəti yoxdur. Hətta boşanmış qadının xərclərini müəyyən müddət ödəmək vacibdir.
5. İnfaq edən şəxs ixtiyarında olanların Allaha məxsus olduğunu unutmamalıdır.
6. Hər kəs imkanı həddində infaq etsin.

*İçmək olmasa da dəryanın suyun,*
*Hər kəs yatırmalı öz susuzluğun.*

7. Yoxsullar özlərini varlılarla müqayisə edərkən Allahın onlar verdiyi nemətləri unutmamalıdırlar.
8. İnsan gücü həddində məsuldur. İslam dini reallığı nəzərə alır və gücdən artıq vəzifə təyin emir.
9. Çıxış yolu axtararkən tələsməyin.
10. Boşanma və ya yoxsulluq şəraitində gələcəyə ümidinizi itirməyin.

***Ayə 8:***

**﴿وَكَأَيِّن مِّن قَرْيَةٍ عَتَتْ عَنْ أَمْرِ رَبِّهَا وَرُسُلِهِ فَحَاسَبْنَاهَا حِسَابًا شَدِيدًا وَعَذَّبْنَاهَا عَذَابًا نُّكْرًا﴾**

**“Rəbbinin və Onun peyğəmbərinin əmrindən boyun qaçıran məntəqə nə çox! Biz onlarla çətin hesab apardıq, onları görünməmiş əzabla cəzalandırdıq.”**

***Ayə 9:***

**﴿فَذَاقَتْ وَبَالَ أَمْرِهَا وَكَانَ عَاقِبَةُ أَمْرِهَا خُسْرًا﴾**

**“Onlar öz əməllərinin acısını daddılar və işləri zərər-ziyanla başa çatdı.”**

**Nöqtələr**

◘"Qəryə" dedikdə insanların məskunlaşmaq üçün toplandığı məhəl nəzərdə tutulur. Qəryə şəhər də ola bilər, kənd də. "Ətət" sözü "utu" sözündən olub itaətsizlik mənasını bildirir. "Vəbal" dedikdə şiddət və ağırlıq mənası nəzərdə tutulur. Ayədə ağır əzaba işarə olunmuşdur.

◘Ötən ayələrdə hətta ayrılıq dövründə ailə-övladın hüquqlarından danışıldı. Hazırkı ayədə buyurulur ki, göstərişlərə ciddi yanaşın, Allahın və Onun peyğəmbərinin göstərişindən çıxmağın aqibəti pisdir. Tarixə nəzər salsaq, bu yönümdə cəzalandırılanlar çox olub.

**Bildirişlər**

1. Tarix və keçmişdəkilər gələcəkdəkilər üçün bir güzgüdür.
2. Allah və Onun peyğəmbərinin göstərişindən çıxanların ağır cəzalandırılması ilahi sünnədir.
3. Peyğəmbərlərin göstərişlərinə itaətsizlik Allaha itaətsizlikdir.
4. Dünya əzabı axirət əzabı ilə müqayisədə çox cüzidir. Əsil əzab qiyamətdədir.
5. Allah və Onun peyğəmbərinin göstərişinə itaətsizliyin sonu zərər-ziyandır.
6. Ötəri çətinliklərə vaxt sərf etməyək, işin sonunu düşünək.

***Ayə 10:***

﴿أَعَدَّ ٱللَّهُ لَهُمْ عَذَابًا شَدِيدًا فَاتَّقُواْ ٱللَّهَ يَآ أُوْلِي ٱلْأَلْبَابِ ٱلَّذِينَ ءَامَنُواْ قَدْ أَنزَلَ ٱللَّهُ إِلَيْكُمْ ذِكْرًا﴾

**"Allah onlar üçün ağır əzab hazırlamışdır. Ey iman gətirmiş düşüncə sahibləri! Allahdan qorxun. Həqiqətən, Allah sizin üçün xəbərdarlıq vasitəsi göndərmişdir."**

**Bildirişlər**

1. Allahın ağır hesabının ağır əzab kimi sonu var.
2. İnsanı ağır əzabdan və hesabdan qoruyan təqvadır.
3. Ağıl və iman təqva səbəbidir.
4. Ağıl və iman bir-birindən ayrı deyil.
5. İnsanları ilahi vəzifələrin icrasına təşviq etmək üçün onların üstünlüklərini dilə gətirin.
6. Yalnız imanlı düşüncə sahibləri Allahın peyğəmbərini qəbul edir, onun nəsihətlərindən faydalanırlar.
7. Peyğəmbərlərin və səmavi kitabların göndərilməsində məqsəd insanlara xəbərdarlıq, onların qəflət yuxusundan oyadılmasıdır.
8. Ağıl və vəhy qurtuluş vasitələridir. Onlardan biri xaricdən, digəri daxildən yol göstərir.

***Ayə 11:***

﴿رَّسُولًا يَتْلُواْ عَلَيْكُمْ ءَايَاتِ ٱللَّهِ مُبَيِّنَاتٍ لِّيُخْرِجَ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّالِحَاتِ مِنَ ٱلظُّلُمَاتِ إِلَى ٱلنُّورِ وَمَن يُؤْمِن بِاللَّهِ وَيَعْمَلْ صَالِحًا يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَارُ خَالِدِينَ فِيهَآ أَبَدًا قَدْ أَحْسَنَ ٱللَّهُ لَهُ رِزْقًا﴾

**“(Həmin xatırlatma vasitəsi) Allahın aydınladan ayələrini sizin üçün tilavət edən bir peyğəmbərdir. Belə ki, iman gətirib saleh işlər görənləri zülmətlərdən nura çıxarsın. Allaha iman gətirib, saleh işlər görən kəsləri Allah altından çaylar axan behiştlərə daxil edər. Orada əbədidirlər. Həqiqətən, Allah onlara gözəl ruzi vermişdir.”**

## Nöqtələr

◘Hidayət bir neçə amildən asılıdır: hidayət edən, hidayət olunan, hidayət vasitəsi, hidayətin məqsədi, hidayətin qəbulu müqabilində mükafat.

◘”Zikr” dedikdə həm Quran, həm də Peyğəmbər (s) nəzərdə tutulur.[1] İmam Baqir (ə) və imam Sadiq (ə) belə buyurmuşlar: “Bu ayədə zikr deyilərkən Allahın Rəsulu (s) nəzərdə tutulmuşdur.”[2]

◘İslam peyğəmbərinin (s) zövcəsi Ayişə onun haqqında belə deyir: “Peyğəmbərin karakteri bir parça Quran idi.”[3]

## Bildirişlər

1. İnsan elə bir məqama çata bilər ki, vücudu başdan-başa Allah zikri olur.
2. Məktəb təklikdə bəs etmir, rəhbərə də ehtiyac var.
3. İnsanların zülmətlərdən nura çıxarılması üçün ən yaxşı yol ilahi ayələrin bəyanı, qarşı tərəfə çatdırılmasıdır.
4. Dəvət aydın və şəffaf olmalıdır. “Mubin” sözü Quranda 100 dəfədən çox işlədilmişdir.[4]
5. Şirk və küfrün müxtəlif yolları var. Haqq yol isə birdir.
6. Peyğəmbərlərin məqsədi bəşəriyyətin qurtuluşudur.
7. İnsanların zülmətlərdən çıxarılması əslində Allahın işidir.[5] Amma bu iş peyğəmbərlər vasitəsi ilə həyata keçir.
8. Peyğəmbərlərin məqsədi insanları zülmətlərdən nura çıxarmaq olsa da, bu məqsəd yalnız möminlərə münasibətdə gerçəkləşir.[6]
9. İnsan hətta iman və saleh əməldən sonra zülmətdə qalır və bu istiqamətdə yardıma möhtacdır.
10. İman və əməl daim yanaşıdır.
11. Təşviq və xəbərdarlıq orta həddə olmalıdır.

***Ayə 12:***

﴿ٱللَّهُ ٱلَّذِي خَلَقَ سَبْعَ سَمَاوَاتٍ وَمِنَ ٱلْأَرْضِ مِثْلَهُنَّ يَتَنَزَّلُ ٱلْأَمْرُ بَيْنَهُنَّ لِتَعْلَمُوٓا۟ أَنَّ ٱللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ وَأَنَّ ٱللَّهَ قَدْ أَحَاطَ بِكُلِّ شَيْءٍ عِلْمًا﴾

---
[1] “Hicr”, 9
[2] “Təfsiri-Qummi”, c. 2, s. 375
[3] “Şərhe-nəhcül-bəlağə”, c. 6, s. 340
[4] “Maidə”, 92; “Hicr”, 1, “Nisa”, 91
[5] “Bəqərə”, 257
[6] “İbrahim”, 1

**“Allahdır yeddi göyü və onlar kimi yeri yaradan. İlahi əmrlər onlar arasında nazil olur ki, Allahın hər şeyə qadir olduğunu, elminin hər şeyi əhatə etdiyini biləsiniz.”**

## Nöqtələr

◘Yeddi qat göy dedikdə bir neçə məna anlaşıla bilər: yerə oxşayan yeddi planet; yerin soğan qabağını xatırladan qatları; yer üzündəki yeddi iqlim; qədim alimlər yer üzünü yeddi hissəyə, materikə bölürdülər.[1]

◘Bu ayədə göylərin və yerin yaranışı, onlarda baş verən hadisələrin idarəçiliyi haqqında danışılır, ilahi elm və mərifət, tövhidi təkamül insanın nəzərinə çatdırılır.

“Hud” surəsinin 7-ci ayəsində göylərin və yerin yaranış məqsədi olaraq insanın sınağa çəkilməsi qeyd olunur. Həmin surənin 119-cu ayəsində bəşəriyyətin yaranış amili kimi Allahın mərhəməti yada salınır. “Zariyat” surəsinin 56-cı ayəsində qeyd olunur ki, insan Allaha ibadət məqsədi ilə yaradılmışdır. Bütün bu ayələrdən belə bir nəticəyə gəlmək olar ki, varlıq aləminin və insanın yaranış məqsədi elm, əməl, ibadət və ilahi mərhəmətdən faydalanmadır.

## Bildirişlər

1. Əmin olun ki, Allah öz vədlərinə əməl edir. Çünki o misilsiz qüdrət sahibidir, varlıq aləmini yaratmışdır.
2. Varlıq aləmində bir növ tarazlıq var.
3. Həm varlığın yaranışı, həm də ona müdiriyyət Allahın əlindədir.
4. Allahın əmrləri bəzən təşrii (şəriət yolu ilə), bəzən təkvini (təbiət yolu ilə) gerçəkləşir.[2]
5. Varlıq aləmi dərs otağı kimidir.
6. Bəşəriyyətin kamilliyi və təkamülü bütün yaranışın mehvəridir.
7. İnsanın varlığa müdiriyyət məsələsindən xəbərdarlığı önəmlidir.
8. Yaradan kəs öz yaratdığına hakim ola bilər.
9. Allah bütün varlıq aləmindən kamil və dəqiq şəkildə xəbərdardır.

[1] “Təfsiri-əl mizan”
[2] “Təlaq”, 8

# “TƏHRİM” SURƏSİ

### *(66-CI SURƏ; 12 AYƏ)*

### *İYİRMİ SƏKKİZİNCİ CÜZ*

### *“TƏHRİM” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 12 ayədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. Həmin ayədə Allah insana halal edilənlərin haram sayılmasını (“təhrim”) məzəmmət edir. Halalların halal sayılmasının fərdi və ictimai səbəbləri var.

Surənin ilk ayəsində bəzi Peyğəmbər (ə) zövcələrinin xoşagəlməz rəftarı məzəmmət olunur. Növbəti ayədə möminlərə müraciət olunur, onlara ailə-övladlarına münasibətdə diqqətli olmaq tapşırılır. Bildirilir ki, əks təqdirdə onları cəhənnəm gözləyir. Daha sonra müsbət və mənfi qadın nümunələri açıqlanır. Həzrət Nuh və Lutun zövcələri mənfi, Fironun zövcəsi və xanım Məryəm müsbət nümunə kimi təqdim edilir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿يَا أَيُّهَا ٱلنَّبِيُّ لِمَ تُحَرِّمُ مَآ أَحَلَّ ٱللَّهُ لَكَ تَبْتَغِي مَرْضَاتَ أَزْوَاجِكَ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ﴾﴿قَدْ فَرَضَ ٱللَّهُ لَكُمْ تَحِلَّةَ أَيْمَانِكُمْ وَٱللَّهُ مَوْلَاكُمْ وَهُوَ ٱلْعَلِيمُ ٱلْحَكِيمُ﴾**

**“Ey peyğəmbər! Nə üçün Allahın sənə halal etdiyini zövcələrinin razılığını qazanmaq üçün özünə haram edirsən?! Allah bağışlayan və mehribandır. Həqiqətən, Allah sizin üçün haqlarınızdan (kəffarə ödəməklə) qurtuluş yolu müəyyənləşdirmişdir. Allah sizin haminizdir, elm və hikmət sahibidir.”**

#### Nöqtələr

◘Bu ayənin nazil olma şəni ilə bağlı müxtəlif fikirlər bildirilmişdir. Bir şey aydındır ki, bəzən Peyğəmbərin (s) zövcələri bir-birinə həsəd aparırdılar və Peyğəmbər (s) ümumi razılığa xatir öz haqqından keçirdi. Peyğəmbərin (s) uyğun rəftarı öz-özlüyündə şəxsi bir iş idi. Amma Peyğəmbər (s) cəmiyyət üçün nümunə olduğundan başqaları onun hərəkətini qanun kimi qəbul edə bilərdi. Bu səbəbdən də Allah-taala Peyğəmbəri (s) uyğun rəftardan çəkindirir və xalqın nəzərinə çatdırılır ki, Peyğəmbərin uyğun rəftarları örnək deyil, şəxsi bir işdir.

◘Qurani-kərimin Allah tərəfindən nazil olma dəlillərindən biri də ilahi kitabda müəyyən məqamlarda Peyğəmbərə (s) xəbərdarlıq olunmasıdır. Məlum məsələdir ki, müəllif özünü məzəmmət etməz. Uyğun məzəmmətlər göstərir ki, səmavi kitab təhrif olunmamışdır. Bu ayənin oxşarı ilə “Tövbə” surəsində rastlaşırıq. Uyğun surənin 23-cü ayəsində bəzi rahatlıq axtaranlara Peyğəmbər (s) tərəfindən cəbhəni tərk etmək icazəsinin verilməsi qeyd edilir.

¤"Əhəm və mühüm" prinsipini, yəni məsələlərin əhəmiyyət baxımından dərəcələrə bölünməsini unutmayaq. And içmək əhəmiyyətli bir işdir. Amma dini hökmlərin hifzi daha mühümdür. Əgər bir şəxs and içərək halal bir işi özünə haram etmişsə, kəffaə ödəməklə düşdüyü vəziyyətdən çıxa bilər. Kəffarə miqdarı "Maidə" surəsinin 89-cu ayəsində bəyan olunmuşdur.

¤Peyğəmbərin (s) and içərək hansısa işləri özünə qadağan etməsi şəxsi xarakter daşıyır. Bu vəziyyətdən çıxış yolu göstərilir.

**Bildirişlər**

1. Peyğəmbərlər Allah tərəfindən tərbiyə olunur.
2. Peyğəmbərin haqqı yoxdur ki, heç bir səbəbsiz Allahın halalını özünə haram etsin.
3. Allahın razılığı başqalarının razılığından mühümdür.
4. Qadının istəkləri ilahi hökmlər və ailə haqlarını ötüb keçirsə ona əməl olunmamalıdır.
5. İnsan üçün problem yaradan işlərdən biri istənilən bir qiymətə ətrafdakıları razı salmaq istəyidir.
6. Böyüklərin məzəmməti mərhəmətlə müşayiət olunmalıdır.
7. Allah həm keçmiş nöqsanları bağışlayır, həm də gələcəyə yol açır.
8. Məzəmmət və tənqid zamanı çıxış yolu da göstərilməlidir.
9. İslamda çıxılmaz vəziyyət yoxdur. (Heç bir hökm, hətta and insanı çıxılmaz vəziyyətə salmır)
10. Biz bəndəyik və mövlamıza tabe olmalıyıq. Onun halalını halal, haramını haram saymalıyıq. Hətta andı pozmaq bahasına ilahi göstərişlərə əməl olunmalıdır.
11. Allahın göstərişləri elm və hikmətə əsaslanır. Allah problemləri həll edir, düyünləri açır.

***Ayə 3:***

**﴿وَإِذْ أَسَرَّ ٱلنَّبِيُّ إِلَى بَعْضِ أَزْوَاجِهِ حَدِيثًا فَلَمَّا نَبَّأَتْ بِهِ وَأَظْهَرَهُ ٱللَّهُ عَلَيْهِ عَرَّفَ بَعْضَهُ وَأَعْرَضَ عَن بَعْضٍ فَلَمَّا نَبَّأَهَا بِهِ قَالَتْ مَنْ أَنبَأَكَ هَذَا قَالَ نَبَّأَنِيَ ٱلْعَلِيمُ ٱلْخَبِيرُ﴾**

**"Bir vaxt peyğəmbər zövcələrindən birinə gizli söz dedi. Həmin qadın bu sirri (başqasına) xəbər verdiyindən Allah bu işi peyğəmbərə bildirdi. Peyğəmbər (bu bildirişdən) nələrisə deyib, nələrisə saxladı. Qadına xəbər verəndə o dedi: "Sənə bunu kim xəbər verdi?" Peyğəmbər buyurdu: "Bilən və agah Allah xəbər verdi."**

**Bildirişlər**

1. Qadın sirr saxlayan olmalıdır ki, əri ona öz sözünü deyə bilsin.
2. Kişi hər sözü ailə üzvlərinə deməyə borclu deyil.
3. Xətaya yol verənlərin adını açıqlamayın. Onları alçaltmayın.
4. Peyğəmbərin (s) zövcələri məsum deyildilər. Bu səbəbdən də onun sirrini saxlamırdılar.
5. Peyğəmbərin (s) də ailə problemləri olmuşdur.
6. Allah Peyğəmbərə (s) xüsusi lütf etmiş, Peyğəmbərə (s) xəyanət edənlərin xəyanətini aşkarlamışdır.
7. İslam cəmiyyətinin rəhbəri ailə daxilindəki məsələlərdən də xəbərdar olmalıdır.

8. Allah peyğəmbərlərini qeyb yolu ilə xəbərdar edir.
9. İnsanların xətalarını başqalarına yox, onların özünə deyin.
10. İdarəçilikdə bəzən göz yummaq, qəlbigenişlik lazım olur.
11. İnsanın hər xətasını onun üzünə vurmayın.
12. Başqalarının sirrini açan kəs öz sirlərinin də faş olacağını düşünməlidir.
13. Peyğəmbərlərin elm qaynağı Allahın elmidir.
14. Məlumat mənbəsi elm və agahlıq sahibi olmalıdır. Yalnız elm və agahlığa əsaslanan xəbər mötəbərdir.
15. Allahın müəyyən xəyanətləri ifşa etməsi onun daim və hər yerdə iştirakını göstərir. Allahın hər şeydən xəbərdarlığı insanı günahdan çəkindirə.

***Ayə 4:***

**﴿إِن تَتُوبَآ إِلَى ٱللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ ٱللَّهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ ٱلْمُؤْمِنِينَ وَٱلْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ﴾**

**“Əgər siz iki nəfər (sirri açan və onu eşidən) Allah qarşısında tövbə etsəniz (öz xeyrinizədir). Çünki qəlbləriniz azmışdır. Peyğəmbər qarşısında əl-ələ versəniz də (faydası yoxdur). Çünki Allah onun hamisidir. Cəbrəil, saleh möminlər, onlardan əlavə bütün mələklər onu himayə edir.”**

**Nöqtələr**

◘”Səğət” sözü “səğv” sözündən olub yoldan çıxmağa meyl mənasını bildirir. “Əsğa” dedikdə meyllə dinləmək mənası anlaşılır.

◘Şiə və sünni təfsirçilərinin yekdil rəyinə əsasən, bu iki qadın Həfsə və Ayişədir. Birinci Peyğəmbərin (s) sirrini açmış, ikincisi isə dinləmişdir.

◘”Salihul, muminin” təbirinin Əli ibn Əbu-Talibə (ə) işarə olması 52-dən çox şiə və sünnü hədislərində təsdiqlənir. Uyğun rəvayətlərə əsasən, Əli ibn Əbu-Talib (ə) Cəbrail və digər mələklər arasındadır. Peyğəmbər (s) Əlini (ə) bu məqamla müjdələmişdir.[1]

**Bildirişlər**

1. Bir xəta iş səbəbindən bütün görülən işləri şübhə altına almaq olmaz. (Hamı yox, həmin iki nəfər tövbə etməlidir)
2. Peşiman olanlar üçün tövbə yolu var. Əlbəttə ki, bütün günahlara görə tövbə qılınmalıdır.
3. Sirri dinləmək də qadağandır. Allah həm danışana, həm də dinləyənə tövbə qılmağı əmr edir.
4. Allah həm Peyğəmbərin (s), həm də başqalarının mövlasıdır.
5. Üstünlərin üstünlüyünü qoruyun. Cəbrail özü mələk olsa da, adı ayrıca qeyd edilir.
6. Bəzən kiçik bir hadisə və ya qığılcım böyük əhəmiyyət kəsb edir. Allah bir sirrin açılmasını ciddi fitnə kimi qeyd edir.
7. İnsanın həyat yoldaşı və ya yol yoldaşı olması onun həm fikirliyini göstərmir.
8. Tövbə dedikdə təkcə dildə peşimançılıq yox, qəlbdə inqilab nəzərdə tutulur.

---
[1] “Təfsiri-kənzul-dəqaiq”

9. Əməldə azmaqdan da pisi ruh və qəlbin azmasıdır. Şübhəsiz, öncə düşüncə və qəlb çaşır, sonra insan günah addım atır.

10. Heç bir səbəb olmadan sirri açanlar tövbə etməsələr müqəssirdirlər.

11. Peyğəmbər və əqidə məktəbinə qarşı fitnələr müqabilində səfərbər olmaq lazımdır.

12. Həqiqət heç vaxt tənha deyil.

13. Salehlik insanı Allaha yaxın mələklərə qovuşdurur.

14. Mələklər çətin məqamlarda peyğəmbərin yardımçısıdırlar.

15. İlahi yardımlar əhatəli, aşkar və qeybidir.

### *Ayə 5:*

﴿عَسَى رَبُّهُ إِن طَلَّقَكُنَّ أَن يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِّنكُنَّ مُسْلِمَاتٍ مُّؤْمِنَاتٍ قَانِتَاتٍ تَآئِبَاتٍ
عَابِدَاتٍ سَآئِحَاتٍ ثَيِّبَاتٍ وَأَبْكَارًا﴾

**“Əgər peyğəmbər sizi (öz zövcələrini) boşasa, Rəbbinin ona daha yaxşı zövcələr yetirəcəyinə ümid var. Təslim olmuş, mömin, itaətkar, tövbəkar, abid, oruc tutan, dul və ya bakirə qadınlar!”**

### Nöqtələr

◘”Qanitan” dedikdə mütiliklə itaət edənlər mənası anlaşılır. “Saihat” sözü isə hicrət əhli, oruc tutanlar mənasını bildirir.

◘Peyğəmbərin (s) bir neçə zövcəsi olsa da, həzrət (s) ona əziyyət verən zövcələrini boşamırdı. Bu ayədə talaqdan danışılması Peyğəmbərin (s) heç kəsə və heç nəyə bağlı olmamasına işarədir. Peyğəmbərin (s) ətrafındakılara bildirilir ki, Peyğəmbər (s) kimsəyə ehtiyaclı deyil və onun üçün daha layiqliləri tapılar.

◘Bu ayədə Quranın fəsahəti, bəlağəti və ecazı özünü göstərir. İman, təvazö, tövbə, ibadət və oruc kimi səciyyələr bir şəxsin simasında bəyan olunur. Amma dul və bakirə sifətləri arasında “vav” bağlayıcısı işlədilir, bu yolla həmin sifətlərin ayrı-ayrı fərdlərə aid olduğu təsdiqlənir.[1]

◘Peyğəmbərin (s) zövcəsi ona münasib olmalıdır. Peyğəmbər zövcəsinin xüsusiyyətləri sadalanarkən qiyafə və var-dövlətdən yox, iman və ibadətdən danışılır. Çünki bu sifətlər İlahi rəhbərə daha münasibdir.

◘Bakirə ilə yanaşı dul sifətinin qeyd olunması Peyğəmbərin (s) cinsi meyllərə əsir olmadığına işarədir.

### Bildirişlər

1. İnsan həyat yoldaşına ehtiyaclıdır. O boşanmadan sonra yenidən ailə qura bilər.

2. Ərə qarşı çıxmaq, üzür istəməmək və peşiman olmamaq qadının boşanması ilə nəticələnə bilər.

3. Qadınların azğınlığı qarşısında ən güclü vasitə onları boşamaqla hədələməkdir.

4. Peyğəmbərin zövcələri öz dövrlərin ən üstün qadınları olmamışlar.

5. Yanlış düşüncələrə qarşı çıxıb saxta qürurları sındırın.

6. Qadının həqiqi dəyəri onun kamilliyindədir.

---

[1] “Təfsiri-kəşşaf”

7. Əqidə əməldən öndə gəlir. Öncə iman sonra ibadət.
8. Qadının iman və ibadəti onun bakirə və ya dul olmasından daha mühümdür.
9. Yenidən evlənərkən dul qadınlara bakirələrə münasibətdə üstünlük verilir.

**_Ayə 6:_**

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ قُوٓاْ أَنفُسَكُمۡ وَأَهۡلِيكُمۡ نَارٗا وَقُودُهَا ٱلنَّاسُ وَٱلۡحِجَارَةُ عَلَيۡهَا مَلَٰٓئِكَةٌ غِلَاظٞ شِدَادٞ لَّا يَعۡصُونَ ٱللَّهَ مَآ أَمَرَهُمۡ وَيَفۡعَلُونَ مَا يُؤۡمَرُونَ﴾

**“Ey iman gətirənlər! Özünüzü və ailənizi çır-çırpısı (günahkar) insanlar və daşlar olan oddan qoruyun. Elə bir od ki, ona sərt xasiyyətli mələklər nəzarətçidir. Onlar Allahın əmrinə qarşı çıxmır, əmr olunanı yerinə yetirirlər.”**

**Nöqtələr**

◘”Vəqud” dedikdə alovlanan maddə nəzərdə tutulur. Neft, daş kömür buna misal ola bilər. Bu səbəbdən də bəzi təfsirçilər “əl hicarə” sözünün daş kömürə işarə olduğunu bildirirlər. Hədisdə oxuyuruq ki, alovlanan daş kibrit və kükürddür.[1]

◘Rəvayətlərdə bildirilir ki, bir gənc bu ayəni eşidib səcdəyə düşdü. Peyğəmbər (s) onu behiştlə müjdələdi və buyurdu: “Behişt mənim məqamımdan çəkinən və əzab vədlərimdən qorxanlara məxsusdur.”[2]

◘Rəvayətdə bildirilir ki, yaxın insanları cəhənnəm odundan qorumaq üçün onları yaxşılığa çağırmaq, pislikdən çəkindirmək lazımdır. Əgər qəbul etsələr oddan qurtularlar, qəbul etməsələr vəzifəmizə əməl etmiş oluruq.[3]

◘Rəvayətdə ailəsinə xəbərdarlıq edən, onları namaza, oruca, zəkata, yoxsullara, yetimlərə, qonşulara diqqətli olmağa çağıran insana rəhmət istənilir.[4]

◘Olsun ki, “vəquduhənnas” dedikdə əməllərin qiyamətdə təcəssümü nəzərdə tutulmuşdur. Bəli, insanın dünyadakı çirkin əməlləri həmin gün üzə çıxasıdır.

***İnsanın ailə qarşısında məsuliyyəti***

Quranın müxtəlif ayələrində insanın ailə qarşısındakı məsuliyyətlərinə işarə olunur: insana ailəsini oddan qurtarmaq tövsiyə edilir[5]; ailəni namaza çağırmaq tapşırılır[6]; yaxınlara xəbərdarlıq etmək əmr edilir[7]; övladı namaz və əmr be mərufa dəvət etmək tövsiyə edilir[8]; Peyğəmbərə (s) öz qadın və qızlarına və mömin qadınlara xəbərdar etməsi tapşırılır[9]; qiyamətdə üzüqara insanlar ailələri ilə birlikdə ziyankar sayılır[10]; ilahi

---

[1] “Bihar”, c. 17, s. 364
[2] “İbrahim”, 14
[3] “Təfsiri-nurus-səqəleyn”
[4] “Təfsiri-Mərağі”
[5] “Təhrim”, 6
[6] “Taha”, 132;
[7] “Şuəra”, 214
[8] “Loğman”, 17
[9] “Əhzab”, 59
[10] “Zumər”, 15

insanların ailələrinin talehi ilə bağlı narahat olduqları bildirilir[1]; Peyğəmbərin (s) daim öz ailəsini namaza çağırdığı qeyd edilir[2].

Rəvayətlərdə də bu mövzuya lazımınca diqqət yetirilmişdir. Əli-ibn Əbu-Talib (ə) buyurur: “Özünüzə və ailənizə xeyir öyrədin, onları ədəbləndirin.”[3]

Həzrət Peyğəmbər (s) buyurur: “Hamınız əlinizin altında olanlar üçün məsuliyyət daşıyırsınız. Kişi ailənin, zövcəsinin və övladlarının məsuludur. Həzrət (s) buyurur: “Övladınız 7 yaşına çatanda onlara namaz göstərişi verin. 9 yaşları olanda hətta tənbeh həddinədək ciddi olun. 10 yaşında övladlarınızın yatağını ayırın.”[4]

◘”Muddəssir” surəsində 19 cəhənnəm mələyi olduğu bildirilir.[5] Olsun ki, ayədəki “rivazun şidad” ifadəsi həmin 19 mələyə aiddir.

◘Olsun ki, Allahın əmrləri dedikdə cəhənnəm əhlinin tutulması, bağlanması, oda atılması nəzərdə tutulur. Başqa ayələrdə də oxşar təbirlər var.[6]

Mələklər arasında da dərəcələr var. Ayədə üstün mələklərin özlərindən aşağı mələklərə əmri və onların nə üçün-niyəsiz itaəti nəzərdə tutula bilər.[7]

◘Həm özünüzü qoruyun, həm də Allahın sizi qorumasını diləyin.[8]

### Bildirişlər

1. İmanlı olmaq bəs etmir. İmanı təhlükələrdən qorumaq lazımdır.
2. İslahatda ilk addım insanın özünü və yaxınlarını islah etməsidir. Yalnız bundan sonra cəmiyyətin islahına başlamaq olar. Bu ayədə insanın özünün və yaxınlarının islahı əvvəldə, kafirlər və münafiqlərlə cihad vasitəsi ilə cəmiyyətin islahı sonda gəlir.
3. Təqva və islahatda məad və cəhənnəmə imanın mühüm rolu var.
4. Övladların dini tərbiyəsi ailədə müdirin öhdəsinədir.
5. İnsanın nəfsi azğındır. Onun nəzarətə ehtiyacı var.
6. İnsanı hamıdan əvvəl özü qorumalıdır.
7. Zəncirləri ayağımızdan açmamış başqalarını azad edə bilmərik. Ailə və cəmiyyətin tərbiyəsində müvəffəqiyyət üçün əsas şərt insanın özünü tərbiyə etməsidir.
8. Ailə və yaxınları boşlamağın cəzası cəhənnəmə çır-çırpı olmaqdır.
9. Qəlbi daş olanlar həmin gün daşlar cərgəsində dayanar.[9]
10. Müdiriyyətdə hər işə məsuliyyət daşıyan kəs həmin işə münasib olmalıdır. Cəhənnəmin məsulu sərt xasiyyətli olmasa ya özü əziyyət çəkər, ya da tapşırığı düzgün yerinə yetirməz.
11. Cəhənnəm əhlini cəzalandıran mələklər səhlənkarlığa yol vermir.
12. Mələklər həm keçmiş, həm də gələcək əmrləri mütiliklə yerinə yetirir.

***Ayə 7:***

﴿يَآ أَيُّهَا ٱلَّذِينَ كَفَرُواْ لَا تَعۡتَذِرُواْ ٱلۡيَوۡمَ إِنَّمَا تُجۡزَوۡنَ مَا كُنتُمۡ تَعۡمَلُونَ﴾

---

1 “Tur”, 26
2 “Məryəm”, 55
3 “Təfsiri-Mərağı”
4 “Bihar”, c. 85, s. 134
5 “Muddəssir”, 30
6 “Haqqə”, 30, 31; “Duxan”, 47, 48
7 “Saffat”, 164
8 “Bəqərə”, 201
9 “Bəqərə”, 74

**“(Qiyamətdə kafirlərə xitab olunar) Ey küfr edənlər! Bu gün üzr istəməyin. Sizə verilən cəza yalnız öz əməllərinizə görədir.”**

## Nöqtələr

◘Quranda yalnız bir ayə “ey küfr edənlər” müraciəti ilə başlayır. Bu müraciət də qiyamətə aiddir.

◘Qiyamətin müxtəlif dayancaqları var. Dayanacaqlardan birində üzürxahlığa icazə verilmir.[1] Başqa bir dayanacaqda üzürxahlıq qəbul olunmur.[2] Hətta danışmağa icazə verilməyən dayanacaq var.[3]

### *Qiyamətdə üzürxahlıq nümunələri*

Bəzən yalandan and içərlər ki, and olsun Allaha, biz müşrik deyilik.[4] Bəli, ya yalana vərdiş verdiklərindən, ya da bağışlanacaqlarına ümidli olduqlarından and içərlər. Amma istənilən bir sürətdə onların üzürxahlığı və peşimançılığı qəbul olunmaz. Bəziləri də başqalarını günahlandıraraq deyər ki, özümüzdən əvvəlkilər bizi azdırdılar.[5] Öz böyüklərini təqsirləndirənlər də olar.[6] Özlərini diqqətsizliyə görə danlayanlar da var. Onlar deyərlər ki, peyğəmbərlərin çağırışını dinləyib düşünsəydik, bədbəxt olmazdıq. Bəziləri də keçmiş günahlarını yumaq üçün dünyaya qayıtmaq istəyər.[7]

## Bildirişlər

1. Küfr qiyamət günü bağışlanası deyil. Həmin gün kafirin tövbəsi qəbul olunmaz. Bəli, məntiq, moizə, möcüzə, qarşısında inadkarlıq və itaətsizlik bütün üzürxahlıq qapılarını insanın üzünə bağlayır.

2. Qiyamət cəzaları yalnız insanın öz əməllərindən qaynaqlanır.

### *Ayə 8:*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا عَسَى رَبُّكُمْ أَنْ يُكَفِّرَ عَنْكُمْ
سَيِّئَاتِكُمْ وَيُدْخِلَكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ يَوْمَ لَا يُخْزِي اللَّهُ النَّبِيَّ وَالَّذِينَ آمَنُوا
مَعَهُ نُورُهُمْ يَسْعَى بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِمْ يَقُولُونَ رَبَّنَا أَتْمِمْ لَنَا نُورَنَا وَاغْفِرْ لَنَا إِنَّكَ عَلَى
كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Ey iman gətirənlər! Allah dərgahına tövbə qılın, xalisanə bir tövbə! Ümid var ki, Rəbbiniz sizin pis işlərinizi örtsün, sizi altından çaylar axan behiştlərə daxil etsin. Elə bir gün ki, Allah peyğəmbər və ona iman gətirənləri xar etməz, onların nuru qarşılarından və sağ tərəflərindən saçılanda deyərlər: “Pərvərdigara, bizim nurumuzu kamala çatdır, bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən.”**

---

[1] “Mursəlat”, 6
[2] “Rum”, 57
[3] “Yasin”, 65
[4] “Ənam”, 23
[5] “Əraf”, 36
[6] “Əhzab”, 67
[7] “Muminun”, 99

## Nöqtələr

◘”Nəsuh” sözü xalislik və sədaqət mənasını bildirən “nush” sözündəndir. Bu söz bəzən möhkəm mənasını da bildirir. Təfsirlərdə nəsuh tövbənin peşimançılıq, istiğfar, günahın tərki, gələcəkdə tərk etmək qərarı, qəbul olunmamaq qorxusu, günahı görüb xəcalət çəkmək, göz yaşı, az danışmaq, az yemək, az yatmaq, xalqın haqqını ödəmək kimi halları qeyd olunur.

◘Məaz ibn Cəbəl həzrət Peyğəmbərdən (s) nəsuh tövbə haqqında soruşdu. Həzrət (s) buyurdu: “Nəsuh tövbə odur ki, insan bir daha günaha üz tutmasın. Necə ki süd yenidən döşə qayıtmır!” Başqa bir hədisdə oxuyuruq: “Nəsuh tövbə odur ki, batin də zahir kimi, hətta daha üstün olsun.”[1]

◘Əgər qürrələnib tövbəmizin qəbul olunacağına arxayınlaşsaq yenidən günahın təkrarı üçün yol açmış olarıq. Çünki ümid edərkən tam arxayınlaşmaq olmaz. Ayədə buyurulur ki, tövbə edin, bəlkə qurtulasınız.[2]

◘Ötən ayələrdə oddan, bu ayədə isə nurdan danışılır. Ötən ayələrdə günahın qarşısının alınmasından, bu ayədə günaha çarə qılmaqdan danışılır. Bildirilir ki, əgər özünüzü qoruya bilməyib günaha batsanız tövbə yolu açıqdır, ümidinizi üzməməsiniz.

◘Peyğəmbər (s) və möminlər dünya və axirətdə əzizdirlər. Dünyada izzət Allah, Peyğəmbər (s) və möminlərə məxsusdur.[3] Qiyamət elə bir gündür ki, Allah Peyğəmbər (s) və onun ardıcıllarını xar etməz.

◘Dünyada malı və canı ilə Allah yolunda vuruşanlar, kafirlərə münasibətdə sərt, möminlərə münasibətdə mərhəmətli olanlar qiyamətdə Peyğəmbərin (s) yoldaşlarıdır.[4]

◘Allaha dua edib nə isə istəməyin həmişə rolu var. Möminlər dünyada doğru yol, axirətdə kamil nur arzulayırlar.

◘Bağışlanma istəyi həm dünya, həm də axirətə aiddir.[5]

## Bildirişlər

1. Ötən ayələrdə göstəriş verildi ki, özünüzü cəhənnəm odundan hifz edin. Bu ayədə çıxış yolu kimi tövbə göstərilir.
2. Bəzən mömindən elə bir günah baş verir ki, tövbəyə ehtiyac olur.
3. Tövbə günahların ətrafdakılara açıqlanması yox, Allah dərgahına üz tutmaqdır.
4. Möminin vəzifələrindən biri də günaha görə tövbə qılmaqdır.
5. Tövbə dil hərəkəti yox, sədaqətlə doğru yola qayıdışdır.
6. Hər tövbənin dəyəri yoxdur.
7. Tövbə üçün xüsusi zaman və məkan yoxdur.
8. Tövbəyə təşviq üçün insanlar Allahın mərhəmətinə ümidvar olunmalıdır.
9. Tövbənin qəbulu Allahın rübubiyyət şənlərindəndir.
10. Behiştdə çirkinliyə yer yoxdur. Əvvəlcə paklanmaq, sonra behiştə daxil olmaq lazımdır.

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Nur”, 31
[3] “Munafiqun”, 8
[4] “Tövbə”, 88; “Fəth”, 29
[5] “Ali-İmran”, 193

11. Tövbənin iki nəticəsi var: keçmiş günahların yuyulması və gələcəyin təmini.

12. Peyğəmbərə iman gətirmək bəs etmir. Ona ardıcıllıq lazımdır.

13. Dünyadakı saleh əməl qiyamətdə nur şəklində zahir olur.

14. Dünyada nur sorağında olanlar axirətdə ona qərq olur.[1]

15. Qiyamətdə də təkamül var. Möminlər həmin gün öz nurlarını kamilləşdirmək barədə düşünürlər.

16. Həqiqi möminlər çirkinlikdən qurtulmaq, yaxşılıqla zinətlənmək istəyirlər.

17. Duanın qəbuluna ümid Allahın mütləq qüdrətindən qaynaqlanır.

***Ayə 9:***

**﴿يَآ أَيُّهَا ٱلنَّبِيُّ جَاهِدِ ٱلْكُفَّارَ وَٱلْمُنَافِقِينَ وَٱغْلُظْ عَلَيْهِمْ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ ٱلْمَصِيرُ﴾**

**"Ey peyğəmbər! Kafirlər və münafiqlərlə vuruş. Onlarla sərt ol. Onların yeri cəhənnəmdir. Qayıdış üçün pis yerdir."**

**Nöqtələr**

◘Kafirlər və münafiqlər hər ikisi cəhənnəmdə olsalar da, münafiqlər daha çox təhlükə törətdiklərindən onların cəhənnəmdəki yeri kafirlərdən pisdir.[2]

◘Kafirlər və münafiqlərlə cihad Allahın əmridir. Amma necə cihad aparmağı Peyğəmbər (s) və onun həqiqi canişinləri bildirir. Əgər Peyğəmbər (s) öz dövründə münafiqlərlə vuruşa qalxmadısa, Əli ibn Əbu-Talib (ə) münafiqlərin hücumlarına cavab verdi.

**Bildirişlər**

1. Savaş və cihad ilahi rəhbərin nəzarəti altında olmalıdır.

2. Dinin mahiyyəti qəlbən inanmaqdan ibarətdir. Bu səbəbdən də yalandan din iddiasında olan münafiqlər kafirlərlə bir cərgədə dayanır.

3. İslam kompleks bir dindir. Onda mərhəmət də, sərtlik də var.

4. İnsan küfr və nifaq sayəsində o qədər alçalır ki, aləmlərə rəhbər olan Peyğəmbər (s) də onlarla sərt davranır.

5. Möminlərin kafirlər və münafiqlər tərəfindən öldürülməsi yalnız qiyamət əzabı ilə cəzalandırıla bilər.

***Ayə 10:***

**﴿ضَرَبَ ٱللَّهُ مَثَلًا لِّلَّذِينَ كَفَرُواْ ٱمْرَأَةَ نُوحٍ وَٱمْرَأَةَ لُوطٍ كَانَتَا تَحْتَ عَبْدَيْنِ مِنْ عِبَادِنَا صَالِحَيْنِ فَخَانَتَاهُمَا فَلَمْ يُغْنِيَا عَنْهُمَا مِنَ ٱللَّهِ شَيْئًا وَقِيلَ ٱدْخُلَا ٱلنَّارَ مَعَ ٱلدَّاخِلِينَ﴾**

**"Allah kafirlər üçün Nuh və Lutun zövcələrini misal çəkir. İki saleh şəxsin zövcələri olan bu iki qadın bizim bəndələrimizdən idilər. Amma həmin iki şəxsə xəyanət etdilər. Allah (Onun cəzası) qarşısında o iki qadın üçün peyğəmbərlərin əlindən bir iş gəlmədi. Onlara deyildi ki, daxil olun oda daxil olanlarla!"**

**Nöqtələr**

---

[1] "Əraf", 157

[2] "Nisa", 140; "Nisa", 145

◘Bu ayədə iki qadın küfrün ən üstün nümunəsi olaraq tanıtdırılır. Hər iki qadın peyğəmbər ailəsindəndir, peyğəmbər zövcəsi olmuşdur. Amma onlar Allah düşmənləri əl-ələ vermiş, onlarla həmfikir olmuşlar. Sonrakı ayələrdə isə iki qadın ən üstün qadın kimi tanıtdırılır. Onlardan biri müşrik və zalım Fironun zövcəsi, digəri həzrət Məryəmdir.

◘Surənin başlanğıcında iki peyğəmbərinin azğınlığından danışıldı. Buyuruldu ki, peyğəmbərə qarşı qurğu qursanız, bilin ki, Allah, mələklər və möminlər onun hamisidir. Surənin axırlarında həzrət Nuh və Lutun cəhənnəm əhli olan iki zövcəsi yada salınır. Onlar xəyanətlərinə görə cəhənnəmə daxil edilər. Həzrət Nuh və Lut peyğəmbər olsalar da, Allahın qəzəbi qarşısında zövcələrini müdafiə edə bilmirlər.

◘Peyğəmbərin zövcəsi olmaq qurtuluş səbəbi deyil. İnsan peyğəmbərin övladı da olsa onu xoşbəxt və ya bədbəxt edən əməlləridir. Quranın başqa ayələrində də Lutun zövcəsinin bədbəxtliyi yada salınır.[1]

Ən üstün tərbiyə üsulu dolayısı ilə tərbiyədir. Əbu Ləhəb, Nuhun oğlu da kafir idilər. Amma Allah peyğəmbər zövcələrini misal çəkir. Bu qadınlar peyğəmbərin sirrini açmaqda suçlanırlar. Bununla növbəti peyğəmbərin zövcələrinə xəbərdarlıq edilir. Onlar düşünməməlidirlər ki, peyğəmbərə bağlılıq qurtuluş açarıdır.

◘Ailənin cəhənnəm odundan qorunması dedikdə tam müvəffəqiyyət nəzərdə tutulmur. Çünki bəzi ailələr itaətsizlik göstərir.

◘Hədisdə bildirilir ki, həzrət Nuh və Lutun zövcələri cinsi baxımdan yollarını azmamışdılar.[2] Onların xəyanəti dedikdə peyğəmbərlə müxalifləri və müxaliflərlə həmkarlıqları nəzərdə tutulur.

**Bildirişlər**

1. Qadın tarix boyu fəsad və ya sülh nümunəsi ola bilər.
2. Ədəbsizlərdən ədəb öyrənmək mümkündür.
3. Qadın əqidə və əməl baxımından azaddır. Ailə bağlılığı, iqtisadi və ya ictimai bağlılıq onu məcbur etmir.
4. Bəndəlik və səlahiyyət peyğəmbərliyə çatmaq rəmzi idi.
5. Küfr və nifaq hətta peyğəmbər ailəsinə nüfuz edir.
6. Bəndəlik və ibadət saleh əməllə müşayiət olunduqda dəyərli sayılır.
7. Dini ailə nizamında hamilik və müdiriyyət kişinin öhdəsinədir.
8. Yolunu azmış yaxınlar səmavi rəhbərin paklıq və ədalətinə kölgə salmır.
9. Məktəbə xəyanət insanı bir vəziyyətə salır ki, peyğəmbərlərin də şəfaəti təsirsiz olur.
10. Allahın qəhr-qəzəbinə heç bir amil mane ola bilməz.
11. Xəyanət cəhənnəmə aparır.

***Ayə 11:***

**﴿وَضَرَبَ ٱللَّهُ مَثَلًا لِّلَّذِينَ ءَامَنُواْ ٱمْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ٱبْنِ لِي عِندَكَ بَيْتًا فِي ٱلْجَنَّةِ وَنَجِّنِي مِن فِرْعَوْنَ وَعَمَلِهِ وَنَجِّنِي مِنَ ٱلْقَوْمِ ٱلظَّالِمِينَ﴾**

---

[1] "Əraf", 83; "Hicr", 60; "Şuəra", 171; "Nəml", 57; "Ənkəbut", 32, 33; "Saffat", 135

[2] "Biharul-ənvar", c. 11, s. 307

**“Allah iman gətirənlər üçün Fironun zövcəsini misal çəkir. Bir vaxt o dedi: “Ey Rəbbim! Mənim üçün behiştdə öz yanında ev qərar ver, məni Firon və onun əməllərindən xilas et, mənə sitəmkar qövmün əlindən qurtuluş nəsib et.”**

## Nöqtələr

◘Ötən ayələrdə iki azğın qadın nümunəsi tanıtdırıldı. 11 və 12-ci ayələrdə iki mömin qadın nümunəsi təqdim olunur.

◘Fironun zövcəsi Asiya Musanın möcüzəsini gördüyü vaxt ona iman gətirdi. Firon onu cəzalandıraraq əl-ayağını yerə mıxladı və onu yandırıcı günəşin altında saxladı. Asiya ömrünün son dəqiqələrində Allahdan Onun öz yanında ev istədi.[1]

◘İnsanın nümunə olması üçün onun peyğəmbərliyi və ya məsumluğu, keçmişdə təkallahçı olması zəruri deyil. Fironun zövcəsi nə məsum idi, nə də müvəhhid. O Musanın möcüzəsini görüb iman gətirmişdi.

◘Nümunə seçilmə baxımından qadınla kişi arasında fərq yoxdur. Quran öz Peyğəmbərinə (s) göstəriş verir ki, İbrahimin xatirəsini yaşatsın.[2] Eləcə də Məryəmi yada salmaq tapşırılır.[3] Bu ayədə isə Fironun zövcəsi haqqında danışılır.

### *Fironun zövcəsinin xarakteri*

1. Bu qadını mühit və cəmiyyət öz təsiri altına sala bilməmişdir. O məntiqi əsaslarla azğın rejimjə qarşı dayanmışdı.
2. O bər-bəzəyə aldanmamışdı, dünya zinətlərinə arxa çevirmişdi, saray həyatı və rifaha boyun əyməmişdi.
3. Bu qadın hamının səsi boğulan bir vaxt səsini çıxardı.
4. O səbirli idi, işgəncələrə dözürdü. Asiya şəhid oldu amma əqidə məktəbindən əl çəkmədi.
5. Asiya öz dövrünün məsum rəhbərini himayə etdi.
6. O çalışqan idi, behişt və Allaha yaxınlıq məqamından aşağısını istəmirdi.
7. Fironun hədələrinə boyun əymədi.
8. Allahın razılığını xalqın razılığından üstün tutdu.
9. Ağıl və vəhy məntiqini ailə bağlılığından önəmli saydı.
10. O pisliklə mübarizəyə qalxıb Musanı körpə vaxtı ölümdən xilas etdi.[4]

◘Fironun zövcəsi sübuta yetirdi ki, tarix boyu səslənmiş şüarların sonu yanlışdır və onları dəyişmək lazımdır. Məsəl çəkilirdi ki, bədnamlıq istəməsən, xalqın rəngin götür sən. Amma Asiya “nə xalqın rəngin götürəcəyəm, nə də rüsvay olacağam. Deyirdilər ki, tək əldən səs çıxmaz. Asiya sübut etdi ki, bir nəfər də qiyam qaldıra bilər deyirdilər ki, qadın zəif məxluqdur. Asiya sübut etdi ki, qadın da yol seçimində azaddır. Misal çəkilirdi ki, yumruqla qılıncın qabağını almaq olmaz. Asiya sübut etdi ki, haqq əbədidir, yumruq polad qarşısında dayana bilməsə də xalqın düşüncəsinə təsirlidir. Deyirdilər ki, bir çiçəklə bahar olmaz. Asiya sübuta yetirdi ki, Allah istəsə bir çiçəklə də bahar olar.

[1] “Təfsiri-məcməül-bəyan”
[2] “Məryəm”, 41
[3] “Məryəm”, 16
[4] “Qəsəs”, 9

Deyirlər ki, kimin duzunu yesən ona qulsan. Fironun zövcəsi Fironun duz çörəyini dadsa da, onun əqidəsinə tabe olmadı.

### *Quranda zikr olunan ailə nümunələri*

1. Eyni yolu tutmuş müsəlman ər və arvad. (Həzrət Əli (ə) və xanım Fatimə (s.ə.))[1]
2. Pislikdə əl-ələ vermiş ərlə arvad. (Əbu-Ləhəb və zövcəsi)
3. Elə bir ailə ki, ər doğru yoldadır, qadın azğın. (Lut və Nuhun zövcələri)[2]
4. Elə bir ailə ki, kişi pisdir, qadın yaxşı. (Fironun zövcəsi)

### Bildirişlər

1. Qadın kişilərə nümunə ola bilər.
2. Nümunələrin müqayisəsi tərbiyə üsullarındandır.
3. Mühit və cəmiyyətin sıxıntısı, iqtisadi asılılıq, qadın cinsindən olmaq, kimsəsiz qalmaq qorxusu dinə arxa çevirmək üçün dəlil deyil.
4. Xəbərdarlığı başa çatdırmaq, höccəti tamamlamaq üçün bir nümunə yetər.
5. İlk sözü heç nə yox, insanın iradəsi deyir.
6. Tağutla mübarizə duaya zidd deyil.
7. Tağutdan qurtuluş üçün mənəvi arxa lazımdır.
8. Behiştdən də mühümü Allahla yaxınlıqdır.
9. İman zülmə nifrətə sövq edir. Fironun zövcəsi imanına xatir Fironun rəftarlarına nifrət edirdi.
10. Qadın əqidə məsələlərində mühitə tabe olmamalı, düzgün mövqe seçməlidir.
11. Ailə rabitələrinin sərhəddi var. Azğınlıq və küfr nöqtəsində yolu dəyişmək lazım gəlir.
12. Küfrə nifrət iman şərtidir.
13. Başqalarına nifrət zamanı meyar ağıl və şəriət olmalıdır.

### *Ayə 12:*

﴿وَمَرْيَمَ ٱبْنَتَ عِمْرَانَ ٱلَّتِي أَحْصَنَتْ فَرْجَهَا فَنَفَخْنَا فِيهِ مِن رُّوحِنَا وَصَدَّقَتْ بِكَلِمَاتِ رَبِّهَا وَكُتُبِهِ وَكَانَتْ مِنَ ٱلْقَانِتِينَ﴾

**“(Allah) İmranın qızı Məryəm üçün (də misal çəkdi). Elə bir qadın ki, özünü (günahdan) qorudu. Biz ona öz ruhumuzdan üfürdük (İsaya hamilə oldu). Rəbbinin sözlərini, səmavi kitabı təsdiqlədi, itaətdə öncüllərdən idi.”**

### Nöqtələr

◘”Əhsənət” sözü qala mənası bildirən “həsn” sözündəndir. Bu söz qadınla bağlı işlədildikdə iffət, paklıq mənasını bildirir.

◘Ayədə xanım Məryəmin dörd kamillik sifəti yada salınır: paklıq, ruhun üfürülməsi, peyğəmbərlərin və səmavi kitabların təsdiqi, Allah qarşısında tam itaət.

---

[1] “İnsan”, 8
[2] “Təhrim”, 10

◘Şiə və sünnü təfsirlərində bildirilir ki, qadınlar arasında dörd qadın kamildir. Fironun zövcəsi Asiya, İmranın qızı Asiya, Peyğəmbərin (s) zövcəsi Xədicə, Peyğəmbərin qızı Fatimə (s).[1]

◘Qurani-kərimdə yalnız bir qadın adı çəkilmişdir və o həzrət Məryəmdir. Quranın 12 surəsində onun adı 34 dəfə zikr olunur. Quranın bir surəsi "Məryəm" adlandırılmışdır.

◘Təqdim olunan nümunə müxtəlif olmalı, fərqli şərait və mühitləri təcəssüm etdirməlidir. Yalnız bu halda onu hər adam istənilən bir şərait və zamanda istifadə edə bilir.

◘Allah-taala pak insanların müdafiəsinə qalxır. Həzrət Məryəmə böhtan atıldığı vaxt Allah iki yerdə onun paklığını təsdiqləyir.[2]

## Bildirişlər

1. Qurani-kərim xanım Məryəmi kişilər və qadınlar üçün paklıq nümunəsi tanıtdırır.
2. Qadının dəyəri onun paklığındadır.
3. İnsan öncə addım atmalı, sonra ilahi lütfdən bəhrələnməlidir.
4. Pak övlad pak bətndən doğulur.
5. İlahi göstərişlərin ən üstün təsdiqi onlara əməl etməkdir.
6. İnsan həqiqəti təsdiq etməli, bununla yanaşı xüzu və xüşulu olmalıdır.

---

[1] "Təfsiri-məcməül-bəyan"

[2] "Nisa", 156; "Ənbiya", 91; "Təhrim", 12

# “MULK” SURƏSİ

## *(67-Cİ SURƏ; 30 AYƏ)*

## *İYİRMİ DOQQUZUNCU CÜZ*

## *“MULK” SURƏSİNİN SİMASI*

“Mulk” surəsi 29-cu cuzün başlanğıc surəsidir. Məkkə surələrindən olan bu surə 30 ayədən ibarətdir. Onun digər bir adı “Təbarəkdir”. Həm “Mulk”, həm də “Təbarək” sözləri surənin 1-ci ayəsindən götürülmüşdür. “Mulk” dedikdə hakimiyyət, “Təbarək” dedikdə bərəkətli mənaları başa düşülür.

Surənin məzmunu prinsipcə 3 hissədən ibarətdir:

1. Yaranış qaynağı, Allahın sifətləri, varlıq aləminin heyrətamiz nizamı, varlıq aləminin yaranışı, insan və onun tanışlıq vastələri haqqında ayələr;
2. Məad, cəhənnəm əzabı, cəhənnəm əhlinin qiyamətdə söhbəti haqqında ayələr;
3. Kafirlərin və zalımların dünya və axirət əzabı ilə hədələnməsi.

Bu surə Quranın ən fəzilətli surələrindədir. Rəvayətlərdə bu surənin qiraəti ilə bağlı həzrət Peyğəmbər (s) və məsum imamların dilindən bəyanatlar nəql olunur. Həzrət Peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə oxuyuruq: “Təbarək” surəsini oxuyan kəs qədr gecəsini oyaq qalmış kimidir.” Digər bir rəvayətdə buyurulur: “Təbarək surəsinin bütün möminlərin qəlbində həkk olunmasını istərdim.”[1]

**بِسْمِ ٱللَّهِ الرَّحْمَنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿تَبَارَكَ ٱلَّذِي بِيَدِهِ ٱلْمُلْكُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾﴿ٱلَّذِي خَلَقَ ٱلْمَوْتَ وَٱلْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا وَهُوَ ٱلْعَزِيزُ ٱلْغَفُورُ﴾**

**“Hakimiyyət əlində olan Allah xeyir və bərəkət qaynağıdır. O hər şeyə qadirdir. O kəs ki, sizlərdən hansı birinizin yaxşı əməl edəcəyi bilinsin deyə imtahan üçün ölüm və həyatı yaratdı. Odur qüvvət sahibi və bağışlayan.”**

### Nöqtələr

◘”Fürqan” surəsi də “təbarək” sözü ilə başlamışdır.

◘”Təbarək” sözü davamlı xeyir mənasını bildirən “bərəkət” məsdərindən yaranmışdır. Su toplanan istənilən bir məhəl “birkə” adlanır.

◘İnsanın yaranışında məqsəd nədir? Quran insanın yaranış məqsədini açıqlayarkən dörd məqsəd bəyan edir:

a) İbadət; Quranda bildirilir ki, cinlə insan yalnız ibadətdən ötrü yaradılmışdır[2];

b) İlahi sınaq sayəsində savab yolun günah yoldan seçilməsi və təkamül;

---

[1] “Təfsiri-məcməül-bəyan”

[2] “Zariyat”, 56

v) Yer üzündə abadlıq; Quranda buyurulur ki, Allah sizi torpaqdan yaratdı, sizə abadlıqlarda yer verdi[1];

q) İnsanlara mərhəmət; Qurani-kərim yaranışın digər bir məqsədi kimi Allahın insanlara mərhəmətini göstərir. Buyurulur ki, Allahın xüsusi mərhəməti ilə hidayət olmaq üçün yaradıldınız.[2]

◘Gözəl, yaxşı işin hansı şərtləri var? Yaxşı iş dedikdə təkəbbürdən, riyakarlıqdan, hiyləgərlikdən uzaq, zaman, məkan, zərurət, davam, vasitə, həmkar, sabitqədəmlik, möhkəmlik nəzm, perespektiv, orta hədd, diqqət, surət, ölçü, proqram baxımından üstün iş nəzərdə tutulur.

◘Allah həm dünyada, həm də axirətdə hakimidir.[3]

◘Allah yeganə hakimdir,[4] Onun hökuməti pak və müqəddəsdir.[5]

◘Allahın bərəkət cilvələri həm yaranışda, həm də şəriətdə özünü göstərir.[6]

◘İmam Sadiq (ə) hazırkı ayə ilə bağlı buyurur: "Nəzərdə tutulan kəmiyyətcə çox əməl yox, ən üstün əməl, Allah qorxusu, saf niyyətlə görülən işlərdir."[7]

## Bildirişlər

1. Quranda bu səmavi kitab və Peyğəmbər (s) haqqında "təbarək" sözü işlədilir. Amma bütün bu bərəkətlərin qaynağı qüdrət sahibi olan Allahdır.
2. Bütün qüdrətlər və hökumətlər müvəqqətidir. Yalnız Allahın hakimiyyəti əbədidir.
3. Dünyadakı hökumətlər məhdud, müvəqqətidir. Bu səbəbdən də onların əhatəli bərəkəti yoxdur.
4. Ölüm və həyatın müəyyənləşməsi Allahın mütləq hakimiyyət cilvəsidir.
5. Dünyadakı hakimlərin gücü çatmayan işi çoxdur. Amma Allah hər şeyə hakimdir və hər işə qadirdir.
6. Ölüm yox olmaq deyil. Ölən insan bir dünyadan o birinə köçür.
7. Ölüm səbr, həyat şükr üçün bir sınaqdır.
8. Heç nə əbəs yaradılmamışdır, bütün yaranışlar məqsədlidir. Allah insanı seçimli təkamül üçün xəlq etmişdir.
9. İnsanın dəyəri acılı-şirinli hadisələr gedişində üzə çıxır.
10. İlahi sınaq Allahın elmini artırmır. Allah-taala hər şeydən öncədən xəbərdardır. Sınaqda məqsəd insanın kimiliyini üzə çıxarmaqdır. Məsələn, müəllim şagirdin birindən xəbərdar olsa da, onun biliyini dəyərləndirmək üçün imtahan keçirilir.
11. Keyfiyyət yox, kəmiyyət əməl meyarıdır.
12. İlahi sınaq həmişəlik və hamı üçündür.
13. İşin yaxşılığı bizi qane etməməlidir və ən yaxşı əməl üçün çalışmalıyıq.
14. Yalnız Allahın hökumət və qüdrəti yenilməzdir.
15. Allahın izzət və qüdrəti Onun rüfət və rəhməti ilə müşayiət olunur.
16. İlahi sınaqlarda uğursuzluqdan üzülməyin, Allah bağışlayandır.

---

[1] "Hud", 61
[2] "Hud", 119
[3] "Fürqan", 56
[4] "Fürqan", 2
[5] "Cumuə", 2
[6] "Fürqan", 1
[7] "Kafi", c. 2, s. 16

*Ayə 3, 4:*

﴿ٱلَّذِي خَلَقَ سَبْعَ سَمَاوَاتٍ طِبَاقًا مَّا تَرَى فِي خَلْقِ ٱلرَّحْمَنِ مِن تَفَاوُتٍ فَارْجِعِ ٱلْبَصَرَ هَلْ تَرَى مِن فُطُورٍ﴾﴿ثُمَّ ٱرْجِعِ ٱلْبَصَرَ كَرَّتَيْنِ يَنقَلِبْ إِلَيْكَ ٱلْبَصَرُ خَاسِأً وَهُوَ حَسِيرٌ﴾

**"Yeddi səmanı təbəqə-təbəqə yaradan Odur. Rəhman Allahın yaratdığında heç bir nöqsan görməzsən. Bir də gözünü aç. Bir çat görürsən? Yenə ardba ard gözünü dolandır. Göz yorulmuş və gücsüz halda sənə doğru qayıdar (bir nöqsan tapa bilməz)."**

*Ayə 5:*

﴿وَلَقَدْ زَيَّنَّا ٱلسَّمَآءَ ٱلدُّنْيَا بِمَصَابِيحَ وَجَعَلْنَاهَا رُجُومًا لِّلشَّيَاطِينِ وَأَعْتَدْنَا لَهُمْ عَذَابَ ٱلسَّعِيرِ﴾

**"Həqiqətən, biz dünya səmasını çıraqlarla zinətləndirdik. Onu şeytanları qovmaq üçün vasitə seçdik. Onlar üçün bol əzab hazırladıq."**

## Nöqtələr

◘"Tibaq" sözü ya "tabəq" məsdərindəndir, ya "təbəq" sözünün cəm formasıdır. Birinci halda uyğun söz göy qatlarının bir-birinə uyğunluğunu bildirir. İkinci halda yeddi qat səmanın bir-birinin üzərində qərar verildiyi nəzərdə tutulur.

◘"Təfavut" dedikdə uyğunsuzluğun yaranması "futur" dedikdə uzununa çat yaranması başa düşülür. "Xasiən" sözü yorğun və nakam, "həsir" sözü zəif mənasını bildirir.

◘Dayaz düşüncəli insanlar həyatdakı problemlərdən ikrah duyur. Bəli, körpə turşu və ya isti oddan imtina edir. Amma onun valideyni turşunu da mürəbbə həddində sevir. Düşüncə sahibləri rastlaşdıqları acı hadisələri də özləri üçün faydalı bilirlər.

◘"Misbah" sözü "sübh" sözündən olub gecəni də gündüz kimi işıqlandıran vasitə, məsələn çıraq mənasını ifadə edir.

◘Ayələrdə ulduzlarla bağlı üç ardıcıl təbir işlədilmişdir: Misbah, zinət, şeytanların daşlanması.

◘"Saffat" surəsinin 7-ci və 8-ci ayələrində oxuduq ki, şeytanlar səmanın xəbərlərini dinləmək üçün oraya nüfuz etməyə çalışırlar. Amma hər dəfə hədəfə alınır və qovulurlar. Şeytanları hədəfə alan ulduzlar səmanı hifz edirlər.

## Bildirişlər

1. Varlıq aləminin nizamı Allahın mərhəmətinə əsaslanır.
2. Mövcud nizam gözəldir və onda heç bir nöqsan yoxdur.
3. İnsanın varlıq aləminin əzəmətinə və yaradanın qüdrətinə imanının güclənməsi üçün dərin düşüncə və diqqətə ehtiyacı var.
4. Mərifət əldə etmək üçün bir dəfə baxmaq, nəzər salmaq bəs etmir.
5. Öz işini möhkəm və hikmət əsasında yerinə yetirmiş Allahı bədələrinin diqqəti narahat etmir. Əksinə, Allah-taala bəndələrini diqqətə çağırır.

6. Allah yaratmaqdan yorulmur.[1] Amma bizim gözlərimiz yaranmışlara baxmaqdan yorulur.

7. Bəşəriyyətin fitri istəklərindən biri də zinətdir. Ulduzlar həm də bir zinət olaraq nemət sayılır.

8. Allahın yaratdıqları möhkəm və davamlı olmaqla yanaşı xüsusi bir gözəlliyə malikdir.[2] Memarlıqda da möhkəmliklə yanaşı gözəllik bir şərtdir.

9. İlahi yaranmışların müxtəlif yaranış məqsədi var.

10. Düşmən qarşısında seyirçi möve tutmaq olmaz. Onlarla hücum üslubunda rəftar edilməlidir.

11. Şeytanların səmalarda da tamahı var.

12. Şeytanlar zərbədən qorxur.

*Ayə 6, 7, 8:*

﴿وَلِلَّذِينَ كَفَرُواْ بِرَبِّهِمْ عَذَابُ جَهَنَّمَ وَبِئْسَ ٱلْمَصِيرُ﴾﴿إِذَآ أُلْقُواْ فِيهَا سَمِعُواْ لَهَا شَهِيقًا
وَهِيَ تَفُورُ﴾﴿تَكَادُ تَمَيَّزُ مِنَ ٱلْغَيْظِ كُلَّمَآ أُلْقِيَ فِيهَا فَوْجٌ سَأَلَهُمْ خَزَنَتُهَآ أَلَمْ يَأْتِكُمْ نَذِيرٌ﴾

**“Rəblərinə kafir olan kəslər üçün cəhənnəm əzabı var və bu pis bir qayıdış yeridir. Coşub daşan cəhənnəmə atıldıqları vaxt onun pis hənirtisini eşidərlər. O az qalır qəzəbindən parça parça olsun. Nə vaxt bir dəstəni ona atırlarsa, cəhənnəm keşikçisi onlardan soruşur: “Sorağınızca xəbərdarlıq edən biri gəlməmişdi?”**

**Nöqtələr**

◘”Ulqu” sözü “ilqa” sözündən olub məcburi şəkildə atmaq mənasını bildirir.

◘Ən çirkin, ən xoşagəlməz səsə “şəhiq” deyirlər. “Təfur” dedikdə cəhənnəmin böyük şölələrinin qalxıb yatması nəzərdə tutulur.

◘Nəzərdə tutulan pis səs həm cəhənnəmdən, həm də cəhənnəm əhlindən ucala bilər.[3]

**Bildirişlər**

1. Bəzən qəzəb partlayış həddinə çatır.
2. Cəhənnəm əhli odun içinə atılar.
3. Cəhənnəm əzabı təhqir, pis və qınaqlı suallarla müşayiət olunar.
4. Yalnız xəbərdarlıq başa çatdıqdan sonra Allahın əzabı nazil olur.

*Ayə 9, 10, 11:*

﴿قَالُواْ بَلَىٰ قَدْ جَآءَنَا نَذِيرٌ فَكَذَّبْنَا وَقُلْنَا مَا نَزَّلَ ٱللَّهُ مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلَّا فِي ضَلَٰلٍ
كَبِيرٍ﴾﴿وَقَالُواْ لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ مَا كُنَّا فِي أَصْحَٰبِ ٱلسَّعِيرِ﴾﴿فَٱعْتَرَفُواْ بِذَنۢبِهِمْ فَسُحْقًا
لِّأَصْحَٰبِ ٱلسَّعِيرِ﴾

**“Deyərlər: nə üçün gəlməmişdi?! Xəbərdarlıq edən biri sorağımızca gəldi, amma biz təkzib etdik və dedik: Allah heç nə nazil etməyib, siz böyük bir azğınlıq**

---

[1] “Qaf”, 38
[2] “Nəbə”, 12
[3] “Hud”, 106

**içindəsiniz. Deyərlər ki, əgər haqqı eşitmiş və ya düşünmüş olsaydıq, od əhlinə qatılmazdıq. Bəli, öz günahlarını etiraf edərlər. Lənət olsun od əhlinə!”**

### Nöqtələr

◘Bu üç ayədə kafirlərin qiyamətdəki üç etirafı yada salınır: peyğəmbərlərin gəlişinin etirafı və onların təkzib edilməsi; haqq sözün dinlənilməməsi və düşünülməməsi; günahların etirafı.

◘”Fussilət” surəsinin 26-cı ayəsində oxuduq ki, Quranı dinləmək istəməyənlər qiyamət günü “ey kaş dinləyəydik” deyərlər.

### Bildirişlər

1. Allahın insanı yaratmaqda məqsədi onu kamilləşdirməkdir. Məhz bu məqsədlə səmavi rəhbərlər göndərilir. Səmavi rəhbərlərsiz uyğun məqsəd həyata keçə bilməz.
2. Dini bilərəkdən inkar etməyin sonu cəhənnəmdir.
3. Azğın şəxs öz işinə don geyindirər. Kafirlər hətta Allahın nazil etdiklərini danar.
4. Təkzibin kökü düşüncəsizlikdir. İslam təlimləri düşüncəyə uyğundur. Yaxşı düşünsək mömin olarıq.
5. Həqiqi düşüncə insanı vadar edir ki, o haqqı dinləsin, qəbul edib tabe olsun. Yalnız bu yolla ilahi qəzəbdən qurtulmaq olar.
6. İnadkarlıq ruhiyyəsi bir həddə çatır ki, azğınlar Allahın peyğəmbərlərini azğın adlandırır.
7. Dünyada günahların etirafı insan üçün faydalı ola bilər. Axirətdə etiraf isə səmərəsizdir.
8. Qiyamətdə kafirlərə həm fiziki, həm də ruhi əzab verilər.

***Ayə 12, 13, 14:***

**﴿إِنَّ ٱلَّذِينَ يَخْشَوْنَ رَبَّهُم بِٱلْغَيْبِ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ كَبِيرٌ﴾﴿وَأَسِرُّواْ قَوْلَكُمْ أَوِ ٱجْهَرُواْ بِهِۦٓ إِنَّهُۥ عَلِيمٌۢ بِذَاتِ ٱلصُّدُورِ﴾﴿أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَهُوَ ٱللَّطِيفُ ٱلْخَبِيرُ﴾**

**“Həqiqətən, batinlərində Rəbblərindən qorxanlar üçün bağışlanma və böyük mükafat var. Sözünüzü gizlədin və ya aşkara çıxarın (fərqi yoxdur). Həqiqətən, o (Allah) sinələrdə olandan agahdır. Yaratmış bir kəs (yaratdığından agah deyilmi). Hansı ki, (Allah) lətif və agahdır.”**

### Nöqtələr

◘”Nurus-səqələyndə” imam Rizadan (ə) nəql olunmuş rəvayətdə bildirilir ki, lətif dedikdə zərif yox, ilahi elmin hər şeyə nüfuzu nəzərdə tutulur.

### Bildirişlər

1. Tərbiyə prosesində həm pislər məzəmmət olunmalı, həm də yaxşılar təşviq edilməlidir. Bu yolla müqayisə aparmaq mümkün olur. (Ötən ayələrdə cəhənnəm əhlinə əzabdan danışıldı, bu ayədə behişt əhli yada salınır)
2. Allah qorxusu davamlı olduqda səmərə verir.

3. Günahlardan paklanmaq ilahi lütflərə çatmaq üçün zəmindir.

4. Həqiqi təqva və Allah qorxusu odur ki, insan öz batinində də Allahdan çəkinsin. Əks təqdirdə təqva zahiridir və nümayiş xarakteri daşıyır.

5. Allah batinlərdən xəbərdardır. Riya və nifaqı bir kənara qoymaq lazımdır.

6. Allahın elmi nüfuzludur və günahı gizlətmək mümkünsüzdür. Allah bütün niyyətlərdən, qəlblərdəki sirlərdən agahdır.

7. Allah yaradan olduğundan yaratdıqlarından tam xəbərdardır.

8. İnsanı nifaq və gizli günahdan saxlayan ən üstün amil onun Allahın elminə iman gətirməsidir.

***Ayə 15:***

**﴿هُوَ ٱلَّذِي جَعَلَ لَكُمُ ٱلْأَرْضَ ذَلُولًا فَٱمْشُوا۟ فِي مَنَاكِبِهَا وَكُلُوا۟ مِن رِّزْقِهِۦ وَإِلَيْهِ ٱلنُّشُورُ﴾**

**“Odur yeri sizin üçün ram edən. Onun çiyinlərində dolanın. Allahın ruzisindən yeyin. Qayıdış yalnız Ona doğrudur.”**

**Nöqtələr**

◘”Mənkəb” dedikdə çiyin nəzərdə tutulur. Yükü götürmək üçün ən münasib bədən üzvü çiyindir. Yerin çiyini dedikdə onun ruzi yükünü götürmüş əsas hissələri nəzərdə tutulur.

◘Yer insana ram edilmişdir. O bir neçə növ hərəkət etsə də, aramdır. Əgər yer üzündə daim zəlzələ və vulkanlar baş versəydi, günəşlə yer arasındakı məsafə yaxın və ya uzaq olsaydı, yerlə bağlı dəqiq hesablar gözlənilməsəydi, o, insana ram olmazdı.

**Bildirişlər**

1. Allah yer üzünü insana ram edib ki, insan çalışıb fəaliyyət göstərə bilsin.

2. Ruzi Allahın əlindədir. Amma insan bu ruzini əldə etmək üçün addım atmalıdır.

3. Varlıq aləmi təkamülə doğru hərəkətdədir: təbiət insan üçündür, insan çalışmalıdır, ruzi üçün səy göstərilməlidir, dünya axirət üçündür.

4. Dünya ləzzətləri axirəti unutdurmamalıdır.

***Ayə 16, 17:***

**﴿ءَأَمِنتُم مَّن فِي ٱلسَّمَآءِ أَن يَخْسِفَ بِكُمُ ٱلْأَرْضَ فَإِذَا هِيَ تَمُورُ﴾﴿أَمْ أَمِنتُم مَّن فِي ٱلسَّمَآءِ أَن يُرْسِلَ عَلَيْكُمْ حَاصِبًا فَسَتَعْلَمُونَ كَيْفَ نَذِيرِ﴾**

**“Özünüzü səmada olandan, sizi yerə batırmayacağından, yerin qəfil titrəməyəcəyindən arxayınsınızmı?” Səmada olanın sizin üzərinizə daş yağdıran qara yel əsdirməyəcəyindən arxayınsınızmı?! Tezliklə biləcəksiniz ki, mənim qorxutmağım nədir!”**

**Nöqtələr**

◘Bu iki ayə “Ənam” surəsinin 65-ci ayəsini xatırladır. Həmin ayədə buyurulur ki, Allah göydən və yerdən əzab nazil etməyə qadirdir.

◘”Hasib” dedikdə daş yağdıran iti külək nəzərdə tutulur.

◘”Qəsəs” surəsinin sonunda Qarunun yerə batırıldığı qeyd olunur. “Qəmər” surəsinin 34-cü ayəsində isə Lut qövmünün başına daş yağdırılması yada salınır.

◘Allahın ter üzünü aram etməsi onun mütləq hakimiyyətindən danışır.[1]

◘Varlıq aləminin dağılmasını mümkün saymaq insanın yersiz qürurunu sındırır, ona dünyanın etibarsızlığını anladır. Bu mövzuda Mövlanənin gözəl bir şeri var:

*Yerdə və göylərdə olan zərrələr*
*Sınaq üçün Haqdan enən nizələr.*
*Gör nə hala saldı külək Ad elin,*
*Qırmadımı su neçə qövmün belin?!*

*Firon leşkərini yaladı dərya,*
*Zalım Qarun batırıldı torpağa.*
*Qaynar daşlar dağıtdı Fil əshabın,*
*Çibin verdi nəs Nəmrudun cavabın.*

*Davudun atdığı bir daş parası*
*Bölünüb paylandı qoşun arası.*
*Cansız düşündüyün sular ağaclar*
*Peyğəmbər sözünü ucada saxlar.*

*Məsnəvi də elə ola qırx dəvə*
*Aciz qala belində onu çəkə.*

**Bildirişlər**

1. Allahın qəhr-qəzəbi təkcə qiyamətə aid deyil.
2. Kimsə özünü Allahın qəzəbindən amanda bilməsin. Allahın qəzəbi istənilən anda nazil ola bilər.
3. Səmalar Allahın hökm və tədbir mərkəzidir.
4. Səmalar Allahın müti məmurlarının mərkəzidir.
5. Təbiətə hakim nizam Allahın iradəsindən asılıdır. Allah bu nizamı istənilən anda dəyişə bilər.
6. İnsana ayağının altından da, başının üstündən də əzab gələ bilər. Onun həm yerə batması, həm daşqalaq edilməsi mümkündür.
7. Allah hər işə qadirdir. O həm yağış, həm də daş yağdıra bilər.
8. Allahın xəbərdarlıqlarına ciddi yanaşaq.

***Ayə 18, 19:***

**﴿وَلَقَدْ كَذَّبَ ٱلَّذِينَ مِن قَبْلِهِمْ فَكَيْفَ كَانَ نَكِيرِ﴾﴿أَوَلَمْ يَرَوْاْ إِلَى ٱلطَّيْرِ فَوْقَهُمْ صَآفَّاتٍ وَيَقْبِضْنَ مَا يُمْسِكُهُنَّ إِلَّا ٱلرَّحْمَنُ إِنَّهُ بِكُلِّ شَيْءٍ بَصِيرٌ﴾**

**“Həqiqətən, onlardan öncəkilər peyğəmbərləri təkzib etdilər. Bax gör əzabım necə oldu! Onların üzərində qanadlarını açmış və yığmış quşları görmürsənmi?**

---

[1] “Mulk”, 1

**Rəhman Allahdan savayı kimsə onları saxlaya bilməz. Həqiqətən, o hər şeyi görəndir.”**

### Nöqtələr

◘Quşların dəstə-dəstə uzun yollar ötüb keçməsi, köç üçün vaxt bölgüsü, dincəlmək üçün enişi və uçuşu Allahın əzəmət və qüdrətindən danışır.

◘”Saffat” sözü quşların qanadlarını açaraq uçduğunu bildirir. “Yəqdisnə” sözü isə quşların qanadlarını yığması kimi hərəkətə işarədir.

### Bildirişlər

1. Allahın xəbərdarlıqlarına ciddi yanaşaq. (Keçmişdəkilər Allahın qəzəbinə gəldilər. Qarun yerə batırıldı, Lut qövmünün başına daş yağdırıldı. Bu tarixdən ibrət götürməliyik)
2. Allah-taala öz peyğəmbərinə insanların təkzibi müqabilində təsəlli verir.
3. Keçmiş tarix gələcəkdəkilər üçün çıraqdır.
4. Peyğəmbərlərin təkzibi ilahi qəhr-qəzəb rəmzidir.
5. Maddi imkanlarınız sizi qürrələndirməsin. (Quşlar qanad çalmaqla pərvaz etsələr də, onları havada saxlayan Allahın qüdrətidir.)
6. Heç nəyi Allaha şərik qoşmayın.
7. İlahi nemətlər Allahın mərhəmətindən qaynaqlanır.
8. Varlıq nizamı Allahın nəzarəti altında idarə olunur.

***Ayə 20, 21:***

﴿أَمَّنْ هَذَا ٱلَّذِي هُوَ جُندٌ لَّكُمْ يَنصُرُكُم مِّن دُونِ ٱلرَّحْمَنِ إِنِ ٱلْكَافِرُونَ إِلَّا فِي غُرُورٍ﴾﴿أَمَّنْ هَذَا ٱلَّذِي يَرْزُقُكُمْ إِنْ أَمْسَكَ رِزْقَهُ بَل لَّجُّواْ فِي عُتُوٍّ وَنُفُورٍ﴾

**“Axı kimdir sizin qoşununuz ki, sizə Rəhman Allahın (qəzəbi) qarşısında yardım edələr?! Kafirlər yalnız aldanmışlardır. Kimdir o şəxs ki, Allah ruzisini kəsən zaman sizə ruzi versin?! Onlar azğınlıq və (həqiqətdən) qaçmaqla inadkarlıq göstərirlər.”**

### Nöqtələr

◘Ötən ayələrdə yerdə və göydə ilahi qüdrətdən danışıldı. Allah yerə kafirləri udmaq əmri verə bilər. Quşları havada saxlayan Allahdır. Bu ayədə isə bəşəriyyətin gücsüzlüyünə işarə olunur. Axı insan hansı qoşununa, hansı himayəyə güvənib Allah qarşısında inadkarlıq göstərir?! Belə görünür ki, müşriklər bütləri özləri üçün arxa sayırmışlar.

◘”Ğərur” dedikdə aldadan, “ğurur” dedikdə aldanış mənası başa düşülür.

◘Müxtəlif qürur vasitələri var. Qürur amili şeytandır. Uzun-uzadı arzular, insanı yuxuya verən vədlər qürur səbəbidir.[1]

◘Bu iki ayədə insanın bədbəxtlik amillərinə işarə olunur: qürur, inadkarlıq, azğınlıq, haqdan yayınmaq. “Utuvv” dedikdə təkəbbür və həddi aşmaq, “nufur” dedikdə nifrəti izhar etmək, haqdan qaçmaq mənaları nəzərdə tutulur.

---

[1] “Loğman”, 33

◘İnadkarlıq azğınlıq və tüğyan zəminidir. Azğınlıq isə haqqa qarşı nifrət və ondan uzaqlaşmaq istəyinə səbəb olur.

◘Ruzi verən yalnız Allahdır. Dünyada da, bərzəxdə də, axirətdə də ruzi onun əlindədir.[1]

**Bildirişlər**

1. Lovğa insana onun zəifliklərini xatırlatmaq lazımdır.
2. Qürur vasitələrindən biri də qoşuna, döyüşçülərə malik olmaqdır.
3. Kafirlər puç güclərinə arxalanmaqla qürrələnir, eyni zamanda aldanırdılar.
4. Allah ruzi verməyə borclu deyil. O öz ruzisini kəsə də bilər.
5. İlahi nemətlərə diqqət yollarından biri də nemətlərin geri alınmasını mümkün saymaqdır. “Mulk” surəsinin 33-cü ayəsində oxuyuruq ki, əgər sular yerin təkinə çəkilsəydi onu əldə etmək olmazdı.

***Ayə 22, 23, 24:***

**﴿أَفَمَن يَمْشِي مُكِبًّا عَلَى وَجْهِهِ أَهْدَى أَمَّن يَمْشِي سَوِيًّا عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾﴿قُلْ هُوَ ٱلَّذِي أَنشَأَكُمْ وَجَعَلَ لَكُمُ ٱلسَّمْعَ وَٱلْأَبْصَارَ وَٱلْأَفْئِدَةَ قَلِيلًا مَّا تَشْكُرُونَ﴾﴿قُلْ هُوَ ٱلَّذِي ذَرَأَكُمْ فِي ٱلْأَرْضِ وَإِلَيْهِ تُحْشَرُونَ﴾**

**“Kim doğru yoldadır, üzü üstə sürünən yoxsa ayaq üstə doğru yolu gedən? De ki, Odur sizi yaradan, sizə qulaq, göz, qəlb verən. Amma siz azca da olsa şükr etmirsiniz. De ki, Odur sizi yerdə yaradan və ona doğru gətirilərsiniz.”**

**Nöqtələr**

◘”Mukibb” dedikdə üzü üstə yıxılmış şəxs, “inşa” dedikdə yaradıcılıqla ərsəyə gətirmək, “zərə” dedikdə yaratmaq, nəsil artırmaq mənaları başa düşülür.

◘Bu ayədə kafirlər üzü üstə sürünənlərə oxşadılır. Onlar yıxılıb duraraq yol getmək istəyənlərdir. Möminlər isə düz qamətlə hərəkət edənlərə bənzədilir.

◘”Səm” məsdərdir, həm tək, həm də cəm mənalara şamil edilir. “Əbsar” və “əfidə” sözlərindən fərqli olaraq onu cəm formada işlətməyə lüzum yoxdur.

◘Üzü üstə yerə yıxılanın görmək imkanı yoxdur. O çətinliklə hərəkət edir və qarşıdakı maneələri görmür. Onun üz-gözü yaralanmışdır, zəlil olmuş bir vəziyyətdədir. Hamı gedir, axırda o tənha qalır. Ayaq üstə hərəkət edən isə sürətlə yeriyə bilir, qarşıdakı maneələri görüb araşdırır. Bu səbəbdən də mənzilə sağ-salamat çatır.

◘İmam Baqir (ə) buyurur: “Qəlb dörd cür olur. Müşriklərin qəlbi dağınıq qəlbdir.” Sonra imam hazırkı ayəni oxuyur.[2]

◘İnsan Allahı tanımaq üçün öncə özünü tanımalıdır. Həzrət Əli (ə) buyurur: “Qulaq sümüklə eşidir, göz bəbəklə görür.”

◘Allah qarşısında şükrümüz az olsa da Allah verdiyi nemətləri geri almır. Rəcəb ayının duasında oxuyuruq: “Ey az əməl və şükr müqabilində çox əta edən Allah!”

**Bildirişlər**

---

[1] “Rum”, 40; “Ali-İmran”, 169; “Ğafir”, 40
[2] “Kafi”, c. 2, s. 423

1. İnadkar, haqdan qaçan fərdlər bir növ məsx olmuşdur və yerimək əvəzinə sürünür.

2. İslamın yolu düz və hamardır, eyni zamanda sonu aydındır. İslam ümməti bu yolla getsə qaməti düz, başı uca olar.

3. İnsanın yaranış prosesi çox mühüm mövzudur. Belə ki, Peyğəmbərə (s) yaranışla bağlı açıqlamalar vermək əmr olunur.

4. Allah haradansa nümunə götürməmiş, yaradıcılıqla xəlq etmişdir.

5. Allah insana müxtəlif hiss üzvləri vermiş, onun ətrafı tanıması üçün şərait yaratmışdır. Bu yolla ona edilən xəbərdarlıq başa çatdırılır. (Adi insanlar yalnız eşidib görməklə ibrət götürür, üstün insanlar isə qəlb vasitəsi ilə dərk edir.)

6. Allaha təkcə dillə şükr olunmur. Əsil şükr nemətlərdən düzgün istifadə edilməsidir.

7. Sizi öncə yer üzündə və torpaqdan yaratmış Allah yenidən dirildə bilər.

8. Allah-taala dünya həyatında insanları yer üzünə yayır, qiyamətdə onları bir yerə toplayır.

### *Ayə 25, 26:*

﴿وَيَقُولُونَ مَتَى هَذَا ٱلْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾﴿قُلْ إِنَّمَا ٱلْعِلْمُ عِندَ ٱللَّهِ وَإِنَّمَآ أَنَا نَذِيرٌ مُّبِينٌ﴾

**"(Kafirlər istehza ilə) Deyirlər: "Əgər doğru deyirsinizsə, qiyamət vədi nə vaxtadır?" Onlara de ki, (qiyamət haqqında) elm yalnız Allaha məxsusdur, mən sadəcə aşkar qorxudanam."**

### Nöqtələr

◘Quranda "məta hazəl vəd" cümləsi müxaliflərin dilindən 6 dəfə işlədilmişdir. Peyğəmbər (s) onlara cavab verir ki, bu barədə elm yalnız Allaha məxsusdur.

◘Qeyb elmi iki növdür: Allahın öz seçilmiş bəndələrinə əta etdiyi qeyb elmi və yalnız özünə məxsus olan qeyb elmi.[1] Təkcə Allaha məxsus olan qeyb elmindən peyğəmbərlər də xəbərsizdir. Qiyamətin vaxtı yalnız Allaha məlum olan biliklərdəndir. Duada oxuyuruq ki, yalnız özün üçün saxladığın elmin haqqına and veririk...

◘Qiyamətin vaxtının və xırdalıqlarının bilinməməsi onu inkar etmək üçün dəlil deyil. Qapının zəngi çalınanda kimin düyməni basdığını görmürsünüz. Amma bu o demək deyil ki qapı arxasında kimsə yoxdur.

### Bildirişlər

1. Kafirlər bəhanə axtarırlar. (Onlar qiyamətin vaxtını soruşmaqla aradan çıxırlar)

2. Düşmənlər yersiz suallar, təhqir və istehzalarla əqidə məktəbi və səmavi məktəbi alçaltmaq istəyirlər. Bu səbəbdən də Peyğəmbəri (s) yalançı adlandırırlar.

3. Heç bir dəyəri olmayan biliklər də var. Əgər insanlar qiyamət vaxtını bilsəydilər həmin dövrə yaxın olanlar qorxuya düşər, uzaq olanlar qəflətdə qalardılar)

4. Peyğəmbərin vəzifəsi qeybdən xəbər vermək yox, insanları doğru yola çağırmaqdır.

---

[1] "Hud", 49

5. Peyğəmbərlərin buyuruqları aydın və sadədir.

6. Qürurlu və inadkar insanlara xəbərdarlıq etmək lazımdır. Belələrini müjdə və təşviqlə oyatmaq çətindir.

***Ayə 27:***

﴿فَلَمَّا رَأَوْهُ زُلْفَةً سِيئَتْ وُجُوهُ ٱلَّذِينَ كَفَرُواْ وَقِيلَ هَذَا ٱلَّذِي كُنتُم بِهِ تَدَّعُونَ﴾

**“Onu (vəd olunmuş qiyaməti) yaxın gördüklərindən küfr edənlərin çöhrəsi çirkin və tutqun olacaq. Onlara deyilər ki, budur (dünyada məsxərəyə) qoyub istədikləriniz.”**

**Nöqtələr**

◘”Zulfə” dedikdə yaxın mənası anlaşılır. Həcdə məşərul-həram adlı yer “Muzdəlifə” adlanır. Çünki bu yer Məkkəyə yaxındır.

◘”Təddəun” dedikdə ciddi və tələsik istək nəzərdə tutulur. “Zariyat” surəsinin 14-cü ayəsində buyurulur ki, yada sal onlara odla işgəncə veriləcək gün; dadın işgəncələrinizi. Budur tələsik istədikləriniz...

◘Qurani-kərim çox saylı ayələrdə qiyamət günü xeyir əməl sahibləri və günahkarların çöhrəsini təsvir edir. Xeyir əməl sahibləri haqqında buyurulur ki, qiyamət günü onların üzü işıqlı və şaddır[1]; Onların çöhrəsi təravətlidir[2]; onların çöhrələrində sevinc və görünür[3]. Azğınlar və günahkarlar haqqında isə bildirilir ki, həmin gün onların sifətləri bulaşıq, tutqun, qaralmışdır[4]; onların çöhrələri zəlil vəziyyətdədir[5]; od şölələri onların üzünü bürüyər, sifətləri tutqun olar, dodaqları yandığından dişləri görükər[6]; qiyamət günü onlar kor, kar, lal olar[7]; həmin gün çöhrələri əyilmiş vəziyyətdə olar[8]; həmin gün üzü üstə oda çəkilərlər[9].

**Bildirişlər**

1. Dünyada küfr axirətdə üzüqaralıq səbəbidir.
2. Qiyamətdə fiziki əzabla yanaşı ruhi əzab, təhqir var.

***Ayə28:***

﴿قُلْ أَرَءَيْتُمْ إِنْ أَهْلَكَنِيَ ٱللَّهُ وَمَن مَّعِيَ أَوْ رَحِمَنَا فَمَن يُجِيرُ ٱلْكَافِرِينَ مِنْ عَذَابٍ أَلِيمٍ﴾

**“(Ey peyğəmbər) De ki, Allah məni və mənimlə olanları məhv etsə, ya mərhəmət göstərsə, kafirləri ağrılı əzabdan kim qoruyar?!”**

**Nöqtələr**

---

1 “Əbəsə”, 37, 38
2 “Ğaşiə”, 8
3 “Mutəffifin”, 24
4 “Əbəsə”, 40
5 “Ğaşiə”, 2
6 “Muminun”, 104
7 “İsra”, 97
8 “Qiyamət”, 24;
9 “Qəmər”, 48

◘Rəvayətdə oxuyuruq ki, Məkkə kafirləri Peyğəmbər (s) və müsəlmanlara ölüm arzulayırdılar. Ayədə buyurulur ki, müsəlmanlar dünyadan getsələr də, sizə sığınacaq verəsi kəs yoxdur. "Tur" surəsinin 30-cu ayəsində bildirilir ki, onlar Peyğəmbəri (s) təhqir edir, ona ölüm arzulayırdılar. "Fəth" surəsinin 12-ci ayəsində isə kafirlərin Peyğəmbə (s) və möminlərin cəbhədən qayıtmamasını gözləməsi qeyd olunur.

◘Belə bir lətifə söyləyirlər ki, dəcəl bir uşaq müəllimi üçün Allahdan ölüm istəyirdi. Atası ona dedi: "Əgər dərsdən canını qurtarmaq istəyirsənsə, müəllimə yox, mənə ölüm istəməlisən. Çünki müəllim ölsə, mən səni başqa bir müəllimin yanına aparacağam.

## Bildirişlər

1. Kafirlərlə danışıq qaydasını səmavi kitabdan öyrənək.
2. Peyğəmbər (s) vəhy əmanətçisi idi.
3. Təbliğdə bəzən həqiqətləri fərziyyə kimi demək lazım gəlir.
4. Kafirlər Peyğəmbərə (s) qarşı kinli olduqları kimi onun ətrafındakılar da kin-küdurətlə yanaşırdılar.
5. Mömin insan ümid və qorxu arasında yaşamalıdır.
6. Allahın kafirlərə qəhr-qəzəbinin qarşısını kimsə ala bilməz. (Bəzi kafirlər əzaba düşməyəcəklərini iddia edirdilər. Amma Quran onlara əzab vəd edir)[1]
7. Allah övliyalarına dərd-bəla arzulayanlar ağrılı əzaba düçar olar.

***Ayə 29, 30:***

﴿قُلْ هُوَ ٱلرَّحْمَنُ ءَامَنَّا بِهِ وَعَلَيْهِ تَوَكَّلْنَا فَسَتَعْلَمُونَ مَنْ هُوَ فِي ضَلَالٍ مُّبِينٍ﴾﴿قُلْ أَرَءَيْتُمْ إِنْ أَصْبَحَ مَآؤُكُمْ غَوْرًا فَمَن يَأْتِيكُم بِمَآءٍ مَّعِينٍ﴾

**"De ki, O Rəhman Allahdır. Biz Ona iman gətirib təvəkkül etmişik. Biləcəksiniz ki, aşkar azğınlıqda olan kimdir. De ki, mənə deyin, sizin sularınız yerin təkinə hopsa, kimdir onu sizin üçün axıdıb dada gətirən?!"**

## Nöqtələr

◘Yerin nüfuz edilə biləsi və nüfuzedilməz hissələri var. Əgər hər yerə nüfuz etmək mümkün olsaydı su toplanmazdı. Əksinə, bütün yer nüfuzedilməz olsaydı torpaq bataqlığa dönərdi.

◘"Ğəvr" dedikdə dərinliyə enmək mənası anlaşılır. "Məin" sözü asan və axıcı mənasını bildirir.

◘Son ayə öncəki ayəni təfsir edir. 29-cu ayədə "söylə ki, O Rəhman Allahdır" buyurulur. 30-cu ayədə rəhmət nümunəsi olaraq axan suya işarə olunur. Öncəki ayədə buyurulur ki, Allaha təvəkkül etmişik. Növbəti ayədə buyurulur ki, Ona təvəkkülün səbəbi bütün işlərə qadir olamsıdır.

◘İmam Baqir (ə) ayə ilə bağlı buyurur: "Əgər imamınız qeybə çəkilsə, kim onu zühur etdirə bilər, göylərin və yerin xəbərlərindən, halal-haramdan agah olarsınız?!"[2]

---

[1] "Şuəra", 138
[2] "Təfsiri-nurus-səqəleyn"

## Bildirişlər

1. Azğınlar qarşısında mövqeyini bildirmək Peyğəmbərin (s) vəzifəsidir.
2. Kafirlər qarşısında iman və təvəkkül kimi qurtuluş vasitələriniz var.
3. Təvəkkül imanın səmərəsi və şərtidir.
4. Bütlərə yox, mərhəmət qaynağına inanmaq dəyərdir.
5. Allaha təvəkkül etməklə kafirlər öz arzularını gora aparacaqlar.
6. İşin əvvəli yox, sonu mühümdür.
7. Öncə etiqadınızı möhkəmləndirin, sonra düşməni hədələyin.
8. Rəhbərin qətiyyələ danışması ətrafındakıları gücləndirir, biganələri bədbinləşdirir.
9. Biganəlik və qəflətin təhlükəsini ehtimal etmək yetər.
10. Varlıq aləminin qanunlarını dəyişmək Allahın əlindədir.

# “QƏLƏM” SURƏSİ

***(68-Cİ SURƏ; 52 AYƏ)***

***İYİRMİ DOQQUZUNCU CÜZ***

***“QƏLƏM” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 52 ayədən ibarətdir. Onun adı ilk ayəsindən götürülmüşdür.

Surədə İslam peyğəmbərinin (s) əxlaqi sifətlərindən, İslam düşmənlərinin çirkin əxlaqından, behişt əhlinin sifətlərindən, qiyamət və qiyamət əzabından danışlır. Surədə müşriklər hədələnir, İslam peyğəmbəri (s) səbrə dəvət olunur.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4:***

**﴿ن وَٱلْقَلَمِ وَمَا يَسْطُرُونَ﴾﴿مَآ أَنتَ بِنِعْمَةِ رَبِّكَ بِمَجْنُونٍ﴾﴿وَإِنَّ لَكَ لَأَجْرًا غَيْرَ مَمْنُونٍ﴾﴿وَإِنَّكَ لَعَلى خُلُقٍ عَظِيمٍ﴾**

**“Nun; Qələmə və yazdıqlarına and olsun; sən Rəbbinin nemətinə (lütfünə) xatir divanə deyilsən; həqiqətən, sənin üçün sonsuz mükafat var; şübhəsiz, sən böyük əxlaq sahibisən.”**

### Nöqtələr

◘”Məmnun” sözü parça mənası bildirən “mənn” sözündən olarsa, sonsuz mükafat mənasını bildirər. Əgər “minnət” sözündən olarsa, minnətsiz ilahi lütf mənasında anlaşılar. Zahirən, birinci məna nəzərdə tutulmuşdur. Çünki Allah tərəfindən nemətin üzə vurulması eyb sayılmır. Belə bir minnət Allahı şükr və itaət səbəbidir.[1]

◘Qələm dildən, qılıncdan, qızıl-gümüşdən, şan-şöhrətdən, ailə-övladdan daha böyük rola malikdir. Çünki qələm əsirlərin təcrübəsini daşıyır, mədəniyyəti inkişaf etdirir. Qələmlə insanı yuxuya vermək və ya oyatmaq olar. Bir millət qələm vasitəsi ilə həm izzətə çata bilər, həm də zillətə düşər. Qələm lal bir fəryaddır. Qələm rəsmi bir sənətdir. Qələm tarixin daşıyıcısıdır.

Qələmə and içilməsi mədəniyyət göstəricisidir. Qələmə istinad dəlillərə istinaddır. Qələmlə rabitə elmlə rabitədir. Səslər arasında üç səsin imtiyazı var: alimin qələminin səsi, mücahidlərin ayaq səsi, cəhrə (ip hazırlayan) çarx səsi. Bəli, elmi tərəqqisi, gücü və çiçəklənən iqtisadiyyatı olan millət şərəflidir. Əgər uyğun səsləri bu günkü dillə ifadə etmək istəsək belə deyə bilərik: Çapxananın səsi, raketlərin səsi və fabrikin səsi. Başqa sözlə, elmi, hərbi və iqtisadi qüdrət!

---

[1] “Təfsiri-rahnoma”

◘Qələmlər və yazılar elmi bilikləri hifz edir. Hədisdə biliklərin yazıya alınması tapşırılır.[1]

◘Ömür boyu bircə sətir olsun yazı yazmamış kəs ibrət olsun deyə qələm və yazıya and içir.[2] Hafiz deyir:

*Ol nigar məktəbə getməz, qələm də almaz ələ,*
*Baxıban yüz fəqihə öyrədər min bir məsələ.*

◘Düşüncəli və ləyaqətli insanların divanə adlandırılmasına təəccüblənməyin. Quran buyurur ki, hansı peyğəmbər gəldisə, onu sehirbaz, divanə çağırdılar.[3]

◘İlahi mükafatları kiçik şey saymayın.[4]

### *İslamda əxlaq*

Peyğəmbərin (s) səciyyələri arasında Quran onun əxlaqını qeyd edir. Peyğəmbər (s) böyük əxlaq sahibi sayılır. "Mizanul-hikmə" mənbəsindən bu mövzuda bəzi rəvayətləri təqdim edirik:

Həzrət Əli (ə) buyurur: "Bir çox böyük insanlar pis əxlaqları səbəbindən zəlil oldular. Bir çox zəlil şəxslər isə gözəl əxlaqlarına görə əziz oldular." İmam Hüseyn buyurur: "Gözəl əxlaq bütün xeyir əməllərin başıdır. Həzrət Peyğəmbər (s) buyurur: "Gözəl əxlaq budur ki, Əgər kama çatdın razı qalasan, məhrum oldun özündən çıxmayasan." Həzrət Əli (ə) buyurur: "İnsan gözəl əxlaq sayəsində namaz qılıb oruc tutanlar dərəcəsinə çatar." İmam Sadiq (ə) buyurur: Gözəl əxlaq ondur: yəqinlik, qənaət, səbr, şükr, helm, xoş xasiyyət, səxavət, qeyrət, şücaət, ali cənablıq. Əmirəl-möminin (ə) buyurur: "Gözəl xasiyyətlərdən biri budur ki, kim səninlə əlaqəni kəssə, onunla əlaqə saxlayasan. Kim səni məhrum etsə, ona əta edəsən. Kim sənə sitəm qılsa, onu bağışlayasan." İmam Sadiq (ə) buyurur: "Gözəl əxlaq günahları yuyar. Necə ki, günəş mikrobları öldürür"; "Xoş əxlaq əlaqələri möhkəmləndirir." Həzrət Peyğəmbər (s) buyurur: "İmanlı insanda xəsisliklə pis əxlaq olmaz." Peyğəmbərə (s) dedilər ki, filan qadın ibadət etsə də xasiyyəti pisdir, qonşularını dili ilə incidir. Həzrət (s) buyurdu: "O cəhənnəm əhlidir. Rəvayətdə bildirilir ki, həzrət Peyğəmbər (s) Səd ibn Məazı dəfn edəndə Məaz ailədəki pis xasiyyətinə görə qəbir sıxıntısına düçar oldu.

### *"Böyük əxlaq"*

"Xulq" dedikdə insanın xarakterinə hopmuş xüsusiyyətlər nəzərdə tutulur. Ötəri rəftarlar "xülq" sayılmır. "Xulqin əzim" ifadəsi ilə bağlı müxtəlif təfsirlər verilmişdir:

a) Ayişə deyir: "Peyğəmbərdə (s) "Muminun" surəsinin ilk 10 ayəsindəki xasiyyətlər vardı. Bundan yuxarı tərif yoxdur."

b) "Xulqin əzim" dedikdə İslami əxlaqla zinətlənmək nəzərdə tutulur.

v) Nəzərdə tutulan haqqa səbr etmək, ağıl əsasında tədbir tökməkdir.

[1] "Biharul-ənvar", c. 2, s. 52
[2] "Ənkəbut", 48
[3] "Zariyat", 52
[4] "Hud", 11; "Ali-İmran", 173; "Yasin", 11; "Fussilət", 8; "Qələm", 4; "Nisa", 10

q) Lüğət kitablarından bəzilərində “xulq” sözü din və ayin kimi mənalandırılır. İmam Baqirdən (ə) belə bir hədis nəql olunur: “Böyük əxlaq dedikdə İslam ainləri nəzərdə tutulur.”[1]

d) Nəzərdə tutulan müxaliflərlə ağayana rəftar etməkdir. Allah-taala Peyğəmbərə (s) belə bir əmr vermişdi.[2]

j) Nəzərdə gözəl xasiyyətlər tutulmuşdur. Həzrətin (s) belə buyurduğu nəql olunur: “Rəbbim məni necə də gözəl tərbiyə etdi.”[3]

z) Ayişə Peyğəmbərin (s) əxlaqı haqqında deyir: “Peyğəmbərin (s) əxlaqı Quranın təcəssümü idi.”[4]

◘Mərhum Əllamə Təbatəbai “Əl-mizan” təfsirinin 27 səhifəsini Peyğəmbərin (s) əxlaqına, ədəbinə sərf etmişdir. Uyğun mənbədə sadalanan səciyyələrdən bəzilərini yada salaq: Peyğəmbər (s) öz ayaqqabısını yamayardı; öz libasını tikərdi; qoyun sağardı; xidmətçilərlə bir süfrədə əyləşərdi; yerdə oturardı; ulağa minərdi; özü bazarlıq edərdi; yoxsullarla görüşəndə əl tutardı və əlini birinci çəkməzdi; rastlaşdığı adamla yaşından asılı olmayaraq salamlaşardı; təklif olunanı rədd etməzdi. Hətta bir çürümüş xurma da olsaydı! Az xərcləyər, xoş davranardı; üzündə daim təbəssüm vardı, amma qəh-qəhə çəkməzdi; qaşqabaqlı yox, məhzun olardı; daim təvazökar idi; israfa yol vermədən səxavət göstərərdi; qəlbi yuxa, mehriban idi; kimsənin əlində olana höz dikməzdi; evdən çıxanda güzgüyə baxar, saçlarını qaydaya salardı; güzgü tapmayanda suya baxardı; kimsənin hüzurunda ayaqlarını uzatmazdı; iki iş arasından çətinini seçərdi, ona zülm edildikdə intiqam almazdı; Allah düşmənlərinin təcavüzünə qəzəblənərdi; heç vaxt dirsəklənib xörək yeməzdi; kimsənin istəyinə rədd cavabı verməzdi; namazını tam və yüngül qılar, xütbələrini uzatmazdı; insanlar onu xoş qoxusundan tanıyardılar; qonağı olanda yeməyə birinci başlar, ən axırda süfrədən çəkilərdi; süfrədə yalnız öz qabağından yeyərdi; suyu üç dəfə nəfəsini dərib içərdi; yalnız sağ əli ilə verər, alar, xörək yeyərdi; üç dəfə dua edər, danışanda sözünü təkrarlamazdı. Bir şəxsin evinə daxil olmaq üçün üç dəfə icazə istəyərdi; danışığı aydın idi, hamı onu başa düşürdü; baxışını dinləyicilər arasında bölürdü; insanlarla danışanda üzündə təbəssüm olurdu.

## Bildirişlər

1. Allah qızıl-gümüşə, qüdrətə, şəmşirə yox, qələm və yazıya and içir.
2. Təkamül vasitəsi olan istənilən bir qələm və yazı dəyərlidir və onlara and içilə bilər.
3. Bəyan əvəzinə qələmə and içilməsi təhsilə təşviqdir və tədqiqatçının məqamını göstərir. (Savadsızlıqla mübarizə, yazıb oxumağa rəğbətləndirmək İslamın əsas proqramlarındandır.)
4. Peyğəmbər (s) Allahın lütfü sayəsində məsum olmuşdur.
5. İnsanı böhtan sıxıntısında dözümlü edən Allahın lütf və mükafatlarına diqqətdir.
6. Əgər insanların əlindən gözümüzü çəksək, davamlı ilahi mükafatlar əldə edərik.
7. Əbədi mükafat böyük əxlaq sahiblərinə məxsusdur.
8. Böyük əxlaqa sahib olmaq doğru yola çıxmaq kimidir.[1]

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Əraf”, 199
[3] “Təfsiri-məcməül bəyan”
[4] Əllamə Təbatəbai, “Sunənun-nəbiyy”, s. 56

9. Peyğəmbərin (s) kamillikləri onun zati səciyyələridir, Peyğəmbər (s) bu səciyyələrə hakimdir.

10. Təhqir olunan, böhtan atılan dini şəxsiyyətlərin müdafiəsi zəruridir.

***Ayə 5, 6, 7:***

﴿فَسَتُبْصِرُ وَيُبْصِرُونَ﴾﴿بِأَيِّكُمُ ٱلْمَفْتُونُ﴾﴿إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ﴾

**“Tezliklə görərsən, onlar da görər; sizlərdən kimlərin divanə olduğunu; Həqiqətən, sənin Rəbbin özü yolundan çıxanı tanıyır. Doğru yola hidayət olanları da yaxşı tanıyır.”**

**Nöqtələr**

◘Rəvayətlərdə bildirilir ki, qüreyşilər Peyğəmbərin (s) Əlini (ə) başqalarından üstün tutduğunu görüb dedilər: “Məhəmməd (s) ona məftun olmuşdur.” Hazırkı ayələr nazil oldu.[2]

◘”Qəmər” surəsində də oxşar ayələrlə rastlaşırıq. Bu surədə bildirilir ki, sabah kimin yalançı və azğın olduğunu biləcəklər.[3] Bu ayələrdə Peyğəmbər (s) kafirlər üzərində qələbə ilə müjdələnir.

**Bildirişlər**

1. Allah öz peyğəmbərinə düşmənlər qarşısında təsəlli verir.
2. Zaman ötür, həqiqətlər aydınlaşır.
3. Bilərəkdən Peyğəmbərin (s) aydın dəlillərini inkar edən kafirlər divanə ləqəbinə daha çox layiqdir. (Agahlıqla iman isə düşüncə göstəricisidir.)
4. Başqalarını azğınlıqda suçlamaq və özünü doğru yolda bilmək faydasıdır. Həqiqi azğın və həqiqi mömini Allah daha yaxşı tanıyır.

***Ayə 8, 9, 10, 11, 12, 13, 14, 15, 16:***

﴿فَلَا تُطِعِ ٱلْمُكَذِّبِينَ﴾﴿وَدُّواْ لَوْ تُدْهِنُ فَيُدْهِنُونَ﴾﴿وَلَا تُطِعْ كُلَّ حَلَّافٍ مَّهِينٍ﴾﴿هَمَّازٍ مَّشَّآءٍ بِنَمِيمٍ﴾﴿مَنَّاعٍ لِّلْخَيْرِ مُعْتَدٍ أَثِيمٍ﴾﴿عُتُلٍّ بَعْدَ ذَٰلِكَ زَنِيمٍ﴾﴿أَن كَانَ ذَا مَالٍ وَبَنِينَ﴾﴿إِذَا تُتْلَىٰ عَلَيْهِ آيَاتُنَا قَالَ أَسَاطِيرُ ٱلْأَوَّلِينَ﴾﴿سَنَسِمُهُ عَلَى ٱلْخُرْطُومِ﴾

**“Təkzib edənlərə tabe olma; onlar istəyirlər ki, sən sazişə gələsən, onlar da səninlə saziş etsinlər; çox and içən hər alçağa itaət etmə; eyb axtarana, söz aparmaq üçün vurnuxana; xeyir işlərin qarşısını almaq üçün çalışana, həddi aşana, günaha batana; amansıza, dəlilsizə, əsli bilinməyənə (onlara ayələrimiz oxunduqda deyilənləri əfsanə sayarlar); tezliklə onun burnuna zillət damğası vurarıq.”**

---

[1] “Yasin”, 3, 4
[2] “Təfsiri-məcməül bəyan”
[3] “Qəmər”, 26

## Nöqtələr

◘”Tudhin” sözü yağ mənası bildirən “duhn” sözündəndir. Burada var-dövlətin, sazişin təslim çiliyin pisliyinə işarə olunur.

◘”Həmmaz” sözü eyb axtaran mənasını bildirən “həməz” sözündəndir, “əyyab” sözü ilə sinonimdir.

◘”Məşşain binəmim” dedikdə söz gəzdirmək üçün çalışmaq mənası başa düşülür. “Mənnain lil xəyr” dedikdə xəsislik başa düşülür. Quranda malla bağlı xeyir sözü işlədilir.

◘”Zənim” dedikdə əsli-nəsli bilinməyən şəxs nəzərdə tutulur. Zinadan doğulanlar belə adlandırılır. İmam Sadiq (ə) buyurur: “Utull” böyük küfr, “zənim” küfrə həris şəxs mənasını bildirir.”[1]

◘Quranda Peyğəmbər (s) dəfələrlə azğınlara itaətdən çəkindirilir.[2]

◘İnsanların xilası naminə düşmənin bütün sifətlərini tanıtdırın. Hazırkı ayələrdə düşmənin 10-a yaxın xüsusiyyəti bəyan olunmuşdur. Əgər qarşı tərəflərdə bu sifətlərdən biri varsa, ondan çəkinmək lazımdır. Bütün bu sifətlərə malik fərdlər haqqında isə danışmağa dəyməz.

◘Xalqın qəbul və iatət etdiyi rəhbər nikbin olmalı, xalqa ümid verməli, vəhdəti qorumalı, təqvalı olmalı, təfriqə yaradan istənilən bir səbəbdən, eyb axtarmaqdan, söz gəzdirməkdən, xəsislikdən, təcavüzdən, amansızlıqdan uzaq olmalıdır. Hazırkı ayədə bu sifətlərə malik insanlara itaət qadağan edilir.

◘Quran ayələri dəfələrlə müxtəlif böhtanlara məruz qalmışdır. İlahi ayələri keçmişlərin əfsanəsi, pərişan yuxular, yalan, adi bir söz adlandırmışlar.[3] İddia edənlər olub ki, Quranın mətnini Peyğəmbərə (s) kimlərsə öyrədir.[4]

◘Rəvayətdə nəql olunur ki, Allah-taala həzrət Şüeybə buyurdu: “Mən 100 minlik bir cəmiyyəti qəzəbimə düçar edirəm. Hansı ki, onların 40 mini pis, 60 mini yaxşı adamlardır. Bunun səbəbi yaxşıların öz dini qeyrətlərini itirməsi, günahkarlarla barışmasıdır.”[5]

İnsanın zəif olduğu üçün sazişə getməsi bəyənilmir. Amma qüdrətə malik olan vaxt güzəştə getməyin eybi yoxdur. Məsələn, ata yenicə ayaq açmış övladını nəzərə alıb aram yeriyir.

◘”Həmmaz”, “mənna”, “mötəd”, “əsim” sifətləri kafirlərə məxsusdur. Uyğun sifətlərə malik müsəlmanların kafirlərə yaxınlaşması təbiidir.

## Bildirişlər

1. İlahi nemətlərə şükr olaraq azğınlıqdan uzaq dayanın.
2. Gözəl əxlaq azğınlıqdan uzaqlığı tələb edir. (Bəli, gözəl əxlaq dedikdə azğınlarla saziş nəzərdə tutulmur.)
3. Peyğəmbərlər də ilahi xəbərdarlığa ehtiyaclıdır.

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Kəhf”, 26; “Fürqan”, 52; “Əhzab”, 1, 48; “Qələm”, 8, 10; “İnsan”, 24; “Maidə”, 48, 49; “Ənam”, 150; “Əraf”, 142; “Sad”, 26; “Şura”, 15; “Casiyə”, 18
[3] “Ənbiya”, 5; “Əhqaf”, 8; “Ənfal”, 31; “Nəhl”, 103
[4] “Fürqan”, 4
[5] “Təfsiri-ətyəbul-bəyan”

4. Müxaliflərin andına etibar yoxdur. Onlar nə qədər and içsələr də etibarsızdırlar.

5. İslam cəmiyyətində əsil-nəsilsiz, eyb axtaran, xəsis, azğın, günahkar, qaraqabaq xarakterli insanlara ictimai-siyasi öncüllük, müdiriyyət verilməməlidir.

6. Düşmənin planlarından qəflətdə qalmayın. Düşmənlər çalışırlar ki, sizi sazişə çəksinlər.

7. Düşmənə üstünlük verməyin. Onlar sizə imtiyaz verib sazişə həvəsləndirsələr də, boyun əyməyin.

8. Geriyə addım düşmənin istəyidir. (Dini prinsiplərə münasibətdə geriyə addım qadağandır.)

9. Düşmənlə saziş ona itaət deməkdir. Düşmənə itaət etməmək dedikdə sazişə getməmək nəzərdə tutulur.

10. Düşmən andlardan, müqəddəsliklərdən sui-istifadə edir.

11. Çox and içmək alçaqlıq nişanəsidir.

12. Daxilən alçaqlıq, zahirən imkanlı olmaq olmaq fitnəyə aparan iki amildir.

13. Kafirlərin dövlətli və güclü olması saziş üçün səbəb sayılmır.

14. Peyğəmbər müxaliflərinin ön sırasında varlı, dərd-qəmi olmayanlar dayanır.

15. Allah təkəbbürlüləri elə cəzalandırır ki, bədənlərində izlər qalır.

16. Təhqir edənin cəzası təhqirdir.

***Ayə 17, 18, 19, 20, 21, 22:***

**﴿إِنَّا بَلَوْنَاهُمْ كَمَا بَلَوْنَآ أَصْحَابَ ٱلْجَنَّةِ إِذْ أَقْسَمُواْ لَيَصْرِمُنَّهَا مُصْبِحِينَ﴾﴿وَلَا يَسْتَثْنُونَ﴾﴿فَطَافَ عَلَيْهَا طَآئِفٌ مِّن رَّبِّكَ وَهُمْ نَآئِمُونَ﴾﴿فَأَصْبَحَتْ كَالصَّرِيمِ﴾﴿فَتَنَادَوْاْ مُصْبِحِينَ﴾﴿أَنِ ٱغْدُواْ عَلَى حَرْثِكُمْ إِن كُنتُمْ صَارِمِينَ﴾**

**"Həqiqətən, bağ sahiblərini sınağa çəkdiyimiz kimi bu insanları da sınarıq. Onlar and içdilər ki, sübh vaxtı bağın meyvələrini dərsinlər; (yoxsullar üçün) bir şey istisna etmədilər; yuxuda olduqları vaxt Rəbbin tərəfindən bağın başına bir bəla dolandı; sübh açılanda viran qalmışdı; sübh erkən bir-birlərini səslədilər; əgər yığmaq məqsədiniz varsa, bağa doğru hərəkət edin."**

**Nöqtələr**

◘"Taif" dedikdə bağı dolaşan bəla nəzərdə tutulur. Bu bəla bağı yandırıb külə döndərdi. "Sərm" sözü meyvəni dərmək mənasını bildirir. "Sərim" dedikdə Allahın qəzəbi ilə bütün ağacların məhvi başa düşülür.

◘"Tənadəv" sözü fərdlərin bir məhəldə məşvərət üçün toplanışa çağırışı mənasını bildirir.

◘Bəzən fərdlər Allahın qəzəbinə gəlir. Necə ki, Firon və onun qoşunu suda qərq oldu.[1] Bəzən qəzəb var-dövlətə tuşlanır. Hazırkı ayələrdə bildirildi ki, bağ sahibləri salamat qalsalar da, bağ yandı. Bəzən isə həm cana, həm də mala qəzəb nazil olur. Necə ki, Qarunun həm özü, həm evi, həm də var-dövləti torpağa gömüldü.[2]

◘Bu surədə xəsislik iki yerdə tənqid olunur.

◘Əcdadların yaxşı ənənələrini yaşatmaq lazımdır. Amma hazırkı əhvalatda varislər ata-babalarının yolundan çıxıb yoxsullara əl tutmamaq qərarına gəldilər.

---

[1] "Yunus", 73

[2] "Qəsəs", 81

◘Günah insanı məhrumiyyətə düçar edir. İmam Baqir (ə) buyurur ki, günaha yol verən insan həmin miqdarda ruzidən məhrum olur.[1] Rəvayətdə bildirilir ki, bəzən insan günahlarına xatir gecə namazından məhrum olur.[2]

◘Var-dövlət nə qədər ki, insanın diqqətini yayındırmır, yaxşıdır. Allah-taala diqqəti yayındırdığına görə Zərar məscidinin dağıdılmasını, Samirinin qızıl buzovunun yandırılmasını əmr etdi.[3]

### *Yanmış bağ əhvalatı*

Bağının meyvələrindən hər il yoxsullara infaq edən kişi dünyasını dəyişdi. Onun varisləri qərara gəldilər ki, yoxsullara bir şey verməsinlər. Yalnız bir varis bu fikrə müxalif çıxdı. Amma əksər qardaşlar xəsislik göstərib öz qərarlarını həyata keçirmək istədilər. Onlar qərara gəldilər ki, sübh tezdən yoxsullar xəbər tutmamış bağa gedib meyvələri yığsınlar. Onlar bağa getdilər, amma orada bir yığın kül gördülər. Onlardan biri dedi ki, yolu səhv salmışıq, bu bizim bağımız deyil. Başqa biri dedi: “Biz atamızın düzgün yolundan çıxmışıq, yoxsulları məhrum etmək qərarına gəlmişik. Ona görə də öz əlimiz boşda qalıb.” İlk gündən bu xəsis qərara qarşı çıxan qardaş dedi: “Sizə demədimmi ki, bu səhv qərardır?” Onlar Allahın qəzəbinə gəldilər və peşiman olub bir-birlərini danladılar.

### Bildirişlər

1. Allahın sünnələridən biri də sınaqdır.
2. Quran müxtəlif nümunələr göstərməklə bizi Allahın sınaqları ilə tanış edir.
3. Yoxulların məhrumluğuna xidmət edən planlar sonda puça çıxır.
4. Bəzən and dəyərsiz olur.
5. Allahın qəzəbi təkcə axirətə aid deyil. Bəzən insanlar dünyadaca dərhal cəzalandırılır.
6. Tənbeh və cəza Allahın rübubiyyət şənindəndir və tərbiyəvi əhəmiyyəti var.
7. Kimsə Allahı qabaqlaya bilməz. (Onlar sübh dursalar da, bağı yanmış gördülər)
8. Günah və cəza bir-birinə münasib olmalıdır. Yoxsulları məhrum edənlər özləri məhrumiyyətə düçar oldular.
9. İnsanın planları və tədbirləri Allahın tədbirləri müqabilində təsirsizdir. (Varislər bir plan qurdular, Allah başqa tədbir tökdü.)
10. Allah-taala yoxsulların hamisidir. Yoxsullar varislərin çıxardığı qərardan xəbərsiz olsalar da, Allah onların himayəsinə qalxaraq xəsisləri tənbeh etdi və bağı yandırdı.
11. İnsanın xeyirə çatması onun hesabatlarından asılı deyil. Hazırkı əhvalatda xəsislər plan cızdılar amma başqa bir nəticə ilə üzləşdilər.
12. Pis niyyət əməli addıma çevrilərsə, cəzaya səbəb olar.
13. Yoxsullara fayda verməyən sərvət əvvəlcədən olmasa yaxşıdır.
14. Hərislik və xəsislik var-dövlətin artmasına, xeyir əldə edilməsinə kömək göstərmir.

---

[1] “Təfsiri-nurus-səqələyn”
[2] “Təfsiri Mərağİ”
[3] “Taha”, 97

***Ayə 23, 24, 25, 26, 27, 28, 29, 30, 31, 32, 33:***

﴿فَانطَلَقُواْ وَهُمْ يَتَخَافَتُونَ﴾﴿أَن لَّا يَدْخُلَنَّهَا ٱلْيَوْمَ عَلَيْكُم مِّسْكِينٌ﴾﴿وَغَدَوْاْ عَلَى حَرْدٍ
قَادِرِينَ﴾﴿فَلَمَّا رَأَوْهَا قَالُواْ إِنَّا لَضَآلُّونَ﴾﴿بَلْ نَحْنُ مَحْرُومُونَ﴾﴿قَالَ أَوْسَطُهُمْ أَلَمْ أَقُل لَّكُمْ
لَوْلَا تُسَبِّحُونَ﴾﴿قَالُواْ سُبْحَانَ رَبِّنَآ إِنَّا كُنَّا ظَالِمِينَ﴾﴿فَأَقْبَلَ بَعْضُهُمْ عَلَى بَعْضٍ
يَتَلَاوَمُونَ﴾﴿قَالُواْ يَا وَيْلَنَآ إِنَّا كُنَّا طَاغِينَ﴾﴿عَسَى رَبُّنَا أَن يُبْدِلَنَا خَيْرًا مِّنْهَآ إِنَّآ إِلَى رَبِّنَا
رَاغِبُونَ﴾﴿كَذَلِكَ ٱلْعَذَابُ وَلَعَذَابُ ٱلْآخِرَةِ أَكْبَرُ لَوْ كَانُواْ يَعْلَمُونَ﴾

**“Bir-birləri ilə astadan danışa-danışa yola düşdülər; (deyirdilər) məbada, bu gün yanınıza bir miskin gələ; həmin sübh bağa üz tutdular. Özlərini (məhsulu yığmağa) qadir bilirdilər; onu (yanmış) görəndə dedilər: “Biz yolu azmışıq”; biz məhrum olmuşuq; onların ən ağıllısı dedi: “Sizə demədimmi ki, nə üçün Allaha təsbih demirsiniz?! Dedilər: “Rəbbimiz pak və müqəddəsdir, şübhəsiz, biz sitəmkarıq; bir-birlərini danlamağa başladılar; dedilər: “Vay halımıza ki, həddimizi aşmışıq. Ümid var ki, Rəbbimiz bizə bundan da yaxşısını versin; həqiqətən, Rəbbimizə rəğbətimiz var və ümidvarıq; belə olur əzab. Əgər bilsələr, axirət əzabı daha böyükdür.”**

## Nöqtələr

◘”Hərd” sözü xəsislik, yaxşılığın qarşısını almaq mənasını bildirir. Bağ sahibləri yoxsulları məhrum etmək məqsədi ilə addım atdılar.

◘Hərislik və paxıllıq insanın qəlbini daşlaşdırır. Belə ki, insan sonda miskin və yoxsula rəhm etmir.

◘Mötədil, ifrat və təfritdən uzaq insan “əvsət” adlanır.[1]

◘Miskinə əl tutmaq müstəhəb yox, vacibdir. Allah müstəhəb bir işi tərk etdiyinə görə kimsəni cəzalandırmır. Bu ayədə miskinlərə yardımdan imtaina etdiyi üçün bağ sahiblərinin bağı yandı. Cəhənnəm əhli də məhrumlara etinasızlığı cəhənnəmə düşmələrinin səbəbi bilir.[2]

◘Fəqirlərə yardım dedikdə təkcə mömin fəqirlər nəzərdə tutulmur. Bu əhvalatda yoxsulların imanından danışılmır. Əsas mövzu paxıllıq və hərislik, yoxsulluq və aclıqdır.

◘Bəzən hər hansı düşüncə tərzi və ya mədəniyyəti dəyişmək üçün günahkar fərd və ya qrup rüsvay edilməli, başqalarına ibrət olmalıdır. Allah sirləri pərdələyən olsa da, bu hadisədə pərdələri yırtır ki, əhvalat hamıya ibrət olsun.

◘Allaha müraciətdə “Rəbbəna” xitabı daha çox işlədilir. Hazırkı ayələrdə uyğun müraciət forması bir neçə dəfə təkrarlanır.

◘Allahın qəzəbi enəndə hər şeyi yandırır. Varislərdən biri o birilərlə razılaşmasa da, onun da payı yandı.

◘Dünyəvi əzabın növləri var: nemətdən məhrumluq, zalımların hakimiyyəti, ilahi yardımdan məhrumluq, əmin-amanlığın olmaması...

Axirət əzabı isə “şədid”, “əlim”, “əzim”, “kəbir” ola bilər.

## Bildirişlər

---

[1] “Mufradate-Rağib”

[2] “Muddəssir”, 42, 44

1. Allah-taala məxfi və fitnəkar danışıqları puça çıxarır.

2. Pis məqsədlə yanaşı təhlükə də böyüyür. (Onlar “bir yoxsul da bağa daxil olmasın” söylədilər. Allah da bütün bağı yandırdı.)

3. Bəzən hərislik və xəsislik o qədər güclü olur ki, insan bir yoxsula da əl tutmaq istəmir.

4. Hərislik ruhiyyəsi, məxvi qərar, qüdrətli addımlar Allahın iradəsi qarşısında təsirsizdir.

5. Acı hadisələrin faydalarından biri insanın özünə gəlməsidir.

6. Ətrafdakıları bir şeydən məhrum etdikdə özümüz bir neçə şeydən məhrum oluruq. (Bağ xadimləri yoxsulları meyvədən məhrum etdi, Allah onları öz mükafatından, yoxsulların duasından, Ataların ruhunun razılığından, ictimai mövqedən məhrum etdi.)

7. Azlıqda da qalsaq haqq sözü deyək.

8. Etidal (ədalət, orta hədd) və düşüncə insanı yoxsullara əl tutmağa çağırır, hərislik və xəsisliyin qarşısını alır.

9. Təbliğdə bütün fürsətlərdən istifadə edək. Dünən haqq sözü dinləmək istəməyənlər. Bu gün sakitcə qulaq asır.

10. Acı hadisələrin təhlilində öz bacaraqsızlığımızı etiraf edək, Allahı pak və müqəddəs sayaq.

11. Dünən yerinə yetirmədiyiniz işləri bu gün yerinə yetirin.

12. İnsanı ilahi lütflərdən məhrum edən onun özünə zülmüdür.

13. Əgər birlik təqva əsasında olmasa, sonda təfriqəyə çevrilər. (Öncə yoxsulları məhrum etmək qərarına gəlmiş həmfikir qardaşlar sonradan bir-birini danlayır, günahı bir-birlərinin boyununa atır.)

14. Başqalarının haqqının ödənməməsi insanın özünə zülmü, başqalarına qarşı qiyamıdır.

15. Allah qarşısında öz zəiflik və pisliyimizi imkan həddində çox etiraf edək. (Həzrət Əli (ə) “Kumeyl” duasında bu nöqtələrə işarə edir)

16. Dünya malı əlinizdən çıxanda Allahın lütf və mərhəmətinə ümid bəsləyin. Allah əvvəlkində də üstününü sizə yetirər.

17. Sizin təminatınızda və əldən çıxanların əvəzinin ödənməsində Allah imkan sahibidir. Günahkarlar ümidlərini üzməsinlər, Allaha doğru qayıdış yollara açıq ikən özlərini məhv olmuş saymasınlar.

18. Allaha doğru qayıdış heç vaxt gec deyil. (Bağ sahibləri bağı yanmış görüb qəflət yuxusundan oyandılar, tövbə qılıb Allaha doğru qayıtdılar.)

19. Yoxsulun qəlbini sınıdırmağın dünyəvi və üxrəvi cəzası var.

20. Qiyamət cəzasına iman xəsisliyə, azğınlığa və zülmə mane olur.

***Ayə 34, 35, 36, 37, 38, 39, 40, 41:***

**﴿إِنَّ لِلْمُتَّقِينَ عِندَ رَبِّهِمْ جَنَّاتِ ٱلنَّعِيمِ﴾﴿أَفَنَجْعَلُ ٱلْمُسْلِمِينَ كَٱلْمُجْرِمِينَ﴾﴿مَا لَكُمْ كَيْفَ تَحْكُمُونَ﴾﴿أَمْ لَكُمْ كِتَابٌ فِيهِ تَدْرُسُونَ﴾﴿إِنَّ لَكُمْ فِيهِ لَمَا تَخَيَّرُونَ﴾﴿أَمْ لَكُمْ أَيْمَانٌ عَلَيْنَا بَالِغَةٌ إِلَىٰ يَوْمِ ٱلْقِيَامَةِ إِنَّ لَكُمْ لَمَا تَحْكُمُونَ﴾﴿سَلْهُمْ أَيُّهُم بِذَٰلِكَ زَعِيمٌ﴾﴿أَمْ لَهُمْ شُرَكَآءُ فَلْيَأْتُواْ بِشُرَكَآئِهِمْ إِن كَانُواْ صَادِقِينَ﴾**

**“Həqiqətən, qorxanlar üçün Rəbləri yanında nemət dolu bağlar var; biz müsəlmanları günahkarlarla eyni tutarıqmı?! Sizə nə olub, necə mühakimə**

**aparırsınız? Yoxsa sizin üçün nə isə yazılıb, ondan oxuyursunuz?! Yoxsa seçdiyiniz sizin olacaq?! Yoxsa öhdəmizə götürmüşük ki, qiyamət gününədək istədiyiniz sizin olsun?! Onardan soruş gör, Hansı biri bu iddiaya zamindir? Yoxsa onların (qiyamətdə dadlarına çatacaq şərikləri var?! Əgər doğru deyirlərsə şəriklərini göstərsinlər!"**

**Nöqtələr**

◘Bir qrup insan qiyaməti inkar edirdi və düşünürdü ki, qiyamət olarsa belə onlar rifahda yaşayarlar.[1] Bu ayədə uyğun yanlış təfəkkürə cavab verilir.

**Bildirişlər**

1. Tərbiyə prosesində həm xəbərdarlıq, həm də təşviq olmalıdır.
2. Behişt bağları nemətlə doludur. Dünya bağlarında isə həm nemət var, həm də əziyyət.
3. Mükafat və cəza ədalətə əsaslanır.
4. Ədaləti bütün sağlam vicdanlar və fitrətlər qəbul edir.
5. İnsan ya səmavi kitaba, ya ağlına, ya da əhd-peymana istinad edə bilər.
6. Səmavi kitablar insanların azğın istəklərinə tabe deyil. (Heç bir səmavi kitabda vəd olunmur ki, insanın istədiyi ona veriləcək.)
7. Allah heç vaxt buyurmayıb ki, həqiqət sizin hökm etdiyinizdir.

***Ayə 42, 43:***

﴿يَوْمَ يُكْشَفُ عَن سَاقٍ وَيُدْعَوْنَ إِلَى ٱلسُّجُودِ فَلَا يَسْتَطِيعُونَ﴾﴿خَاشِعَةً أَبْصَارُهُمْ تَرْهَقُهُمْ ذِلَّةٌ وَقَدْ كَانُوا۟ يُدْعَوْنَ إِلَى ٱلسُّجُودِ وَهُمْ سَالِمُونَ﴾

**"İşləri çətinə düşən gün, səcdəyə dəvət olunanda buna qadir olmazlar. (Qorxudan) Gözləri yerə dikilər, vücudlarını zillət bürüyər. Onlar, (dünya həyatında) sağlam olduqları vaxt səcdəyə çağırılırdılar. (Amma həmin vaxt səcdə etmədilər, bu günsə acizdirlər)"**

**Nöqtələr**

◘Ayədə işləri çətinə düşən gün dedikdə "bıçağın sümüyə dirənməsi, həddi nəzərdə tutulur.

◘İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə bildirlir ki, hemin gün ağızları möhürlənər, qorxu bütün vücudları bürüyər, gözlər heyrətdən bərələr, canlar boğaza yığılar[2]

◘"Fürqan", surəsinin 60-cı ayəsində bildirilir ki, onlara Rəhmana səcdə edin deyildikdə Rəhmanın kimliyini soruşarlar.

◘Dünyada səcdəyə dəvət dedikdə ya azan nəzərdə tutulur, ya da ibadətə çağıran ayələr. Olsun ki, namazla bağlı göstərişlərə işarə olunur. Bu göstəriş Allah qarşısında səcdə, təvazö, kiçikliyin izharını nəzərdə tutur. Olsun ki, səcdə ibadətin zirvəsidir.

[1] "Fussilət", 50
[2] "Təfsiri-nurus-səqəleyn"

### Bildirişlər

1. Qiyamət çətinliklərin zühur günüdür.

2. Qiyamət dünya həyatının təcəssümüdür. Dünyada səcdədən qaçanlar qiyamətdə səcdə qılmağa güc tapmaz.

3. Ələ düşmüş fürsətlərdən və münasib sağlamlıqdan istifadə edə bilməyənlər bu imkanlara malik olmayacaqları günü gözləsinlər!

4. Günahkarda başını qaldırıb baxmağa üz yoxdur.

5. Qiyamətin zilləti əhatəlidir.

6. Allah qarşısında könüllü şəkildə özünü kiçiltməyən qiyamət günü məcbur olub bu işi görər.

***Ayə 44, 45:***

**﴿فَذَرْنِي وَمَن يُكَذِّبُ بِهَذَا ٱلْحَدِيثِ سَنَسْتَدْرِجُهُم مِّنْ حَيْثُ لَا يَعْلَمُونَ﴾﴿وَأُمْلِي لَهُمْ إِنَّ كَيْدِي مَتِينٌ﴾**

**“Bu hədisi (Quranı) təkzib edən kəsi Mənimlə tək burax. Biz onları bilmədikləri yolla tədricən (əzaba doğru) apararıq. Onlara möhlət verirəm. Həqiqətən, mənim tədbirim dəyişməzdir.”**

### Nöqtələr

◘”İstidrac” dedikdə tədricən yaxınlaşmaq mənası nəzərdə tutulur. Burada Allahın insanları onları hiss etmədikləri şəkildə süquta yaxınlaşdırması nəzərdə tutulur.

◘Quranda günahkarlara möhlət verilməsindən danışan ayələr çoxdur. Ayələrdə xəbərdarlıq olunur ki, günahkarlar onları sevdiyimizi və ya unutduğumuzu düşünməsinlər.

◘İmam Sadiq (ə) buyurur: “Günahkarın rifah və nemət içində yaşaması onun tədricən əzaba sürüklənməsini göstərir.”[1]

### Bildirişlər

1. Haqqı təkzib edənlər Allaha qarşı çıxmışlar.

2. Allah öz peyğəmbərinə təsəlli verir.

3. Quranın təkzibi müqabilində böyük cəza nəzərdə tutulur. Allah buyurur ki, onları mənə tapşır.

4. Quranda təravətli sözlər çoxdur. (Yeni söz əvəzinə hədis kəlməsindən istifadə olunur.

5. Mühakimə yürütməyə tələsməyin, rifah xoşbəxtlik göstəricisi olmaya da bilər. (Heyvanlar çəmənlikdə otarılır, kökəldilir. Amma sonda qəssəbxanaya göndərilir.)

6. Ən böyük təhlükə odur ki, insan qəflətdə qalıb özünə çarə qılmaq barədə düşünməyə.

7. Allah cəzanı yubadar, amma yaddan çıxarmaz.

8. Allahın möhlətləri kafirlərin məhvinə xidmət edir.

---

[1] “Təfsiri-məcməül-bəyan”

9. İnsanın planları alt-üst olur, Allahın tədbirləri isə dəyişməzdir.

***Ayə 46, 47, 48, 49, 50:***

**﴿أَمْ تَسْأَلُهُمْ أَجْرًا فَهُم مِّن مَّغْرَمٍ مُّثْقَلُونَ﴾﴿أَمْ عِندَهُمُ ٱلْغَيْبُ فَهُمْ يَكْتُبُونَ﴾﴿فَاصْبِرْ لِحُكْمِ رَبِّكَ وَلَا تَكُن كَصَاحِبِ ٱلْحُوتِ إِذْ نَادَىٰ وَهُوَ مَكْظُومٌ﴾﴿لَّوْلَآ أَن تَدَارَكَهُۥ نِعْمَةٌ مِّن رَّبِّهِۦ لَنُبِذَ بِالْعَرَآءِ وَهُوَ مَذْمُومٌ﴾﴿فَاجْتَبَاهُ رَبُّهُۥ فَجَعَلَهُۥ مِنَ ٱلصَّالِحِينَ﴾**

**“(Risalətin müqabilində) Muzdmu istəyirsən ki, onlara bunu ödəmək ağır gəlsin?! Yoxsa qeybin sirləri onlara məlumdur, bunu yazırlar?! Rəbbinin əmri üçün səbr et, qüssə dolu qəlblə nida çəkən balıq sahibi (Yunus) kimi olma; əgər Rəbbinin mərhəməti ona çatmasaydı, şübhəsiz, otsuz səhraya düşərdi; bir halda ki, məzəmmətə layiq idi; Allah onu seçdi və ləyaqət verdiklərindən etdi.”**

## Nöqtələr

◘”Məğrəm” sözü nöqsansız insana toxunan zərər mənasını bildirən “ğəramət” sözündəndir.

◘”Musqəlun” sözü “siql” sözündən olub maddi və mənəvi ya ağırlıq mənasını bildirir.

◘Qəlbi qəm-qüssə ilə dolu insana “məkzum” deyirlər.

◘Hazırkı surənin 46, 47-ci ayələri “Tur” surəsinin 40, 41-ci ayələrinə bənzəyir.

◘Allah Quranda öz peyğəmbərini 20 dəfədən çox səbr dəvət edir. Bəli, xalqın tərbiyəsi üçün səbr və müqavimətə ehtiyac var.

◘”Şuəra” surəsində “mən sizdən muzd istəmirəm” cümləsi bütün peyğəmbərlərin şüarı kimi təqdim olunur.[1]

◘Kafirlər 45-ci ayədə “Allah əzabı dəyişməzdir” cümləsi ilə hədələnir. Bəli, Allahın günahkarlara münasibətdə proqramı var. Buna görə də Peyğəmbərə (s) səbr etmək, tələsməmək tövsiyə olunur.

◘Sual: Həzrət Yunusa verilmiş ilahi nemət nə idi?

Cavab: Balığın qarnında salamat qalması Yunusa verilmiş maddi nemət idi. Ona əta olunmuş mənəvi nemət isə tövbəsinin qəbulu oldu. Çünki insan yalnız ilahi tövfiq sayəsində tövbə qılır.

◘Sual: Həzrət Yunusa lütf olunduğu halda nə üçün otsuz biyabana atıldı?[2]

Cavab: Xəstəlik üçün nəzərdə tutulmuş dərmanla birlikdə biyabana atılmaq da lütfdür. Məzəmmətlə atılmaq isə qəzəbdir.

## Bildirişlər

1. Peyğəmbərlər insanlardan əvəz istəməmişlər.
2. İnsanların maddiyata əsir olmuş din alimindən qaçması təbiidir.
3. Allahın əmrlərini yerinə yetirmək məqsədi ilə səbr və müqavimət bəyənilir. Düşüncəsizlik və inadkarlıqdan doğan yubanma pisdir.
4. Cəmiyyətin rəhbəri heç bir şəraitdə xalqı tənha buraxmamalıdır.
5. Dua və minacat ilahi nemətlər üçün zəmindir.

[1] “Şuəra”, 109, 127, 149, 164, 180
[2] “Saffat”, 145, 146

6. Tövbə tövfiqi (yardımı) ilahi nemətdir.

7. Quru səhralarda tənha buraxılmaq səbirsizliyin cəzasıdır.

8. Fəryad və nalə insanın daxilindən yüksəlməlidir.

9. Allah qarşısında tövbə və onunla söhbət ilahi nemətlərə aparan bir yoldur.

10. İnsanları bir səhvinə görə atmayaq. Onların zəifliklərini aradan qaldırıb iş tapşıraq.

11. Peyğəmbər seçimi yalnız Allahın əlindədir.

***Ayə 51, 52:***

**﴿وَإِن يَكَادُ ٱلَّذِينَ كَفَرُواْ لَيُزْلِقُونَكَ بِأَبْصَارِهِمْ لَمَّا سَمِعُواْ ٱلذِّكْرَ وَيَقُولُونَ إِنَّهُ لَمَجْنُونٌ﴾﴿وَمَا هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ﴾**

**"Az qalmışdı kafirlər Quranı eşidəndə səni gözləri ilə sancalar. Deyirlər ki, o divanədir. Hansı ki, Quran yalnız aləmlər üçün bir öyüddür."**

**Nöqtələr**

◘Bu surənin başlanğıcında Allah Rəsulunun (s) divanəlikdə itdiham edilməsinə işarə olundu. Surənin hazırkı son ayəsində uyğun məsələ bir daha vurğulanır.

◘"Liyuzliqunəkə" sözü sürüşüb yıxılmaq mənasını bildirən "zəlq" kökündəndir və ayədə həlakətə bir işarədir.

◘51-ci ayədə kafirlərin Quran ayələrini dinləyərkən möhkəm qəzəblənməsinə işarə olunur. Gözlə sancmaq dedikdə ya göz dəymə, ya da "gözlə yemək" mənasını nəzərdə tutulur.

◘Kin-küdurət insanı ziddiyyətli hərəkətlərə vadar edir. Kafirlər bir tərəfdən Quranın əzəmətini etiraf edib, paxıllıqdan Peyğəmbəri (s) öldürmək istəyir, digər bir tərəfdən onu divanə sayırdılar. Düşmən əli ilə vuruşur, dili ilə böhtan atır, Gözü ilə sancır.

◘Surənin başlanğıcında qələm və yazıdan danışıldı, sonunda Quranın aləmlərə öyüd olduğu bildirildi. Olsun ki, bu ifadələrlə mədəniyyətin aləmlər üçün oyanış vasitəsi olduğu bildirilir.

***Gözdəymə***

Həzrət Peyğəmbər (s) buyurur ki, gözdəymə haqdır və o qədər təsirlidir ki, dəvəni, inəyi təndirə salır.[1]

Təkcə düşmənin gözü dəymir, bəzən dost da bir məsələyə heyran qalır ki, onun göz öz təsirini göstərir. Hədisdə tövsiyə edilir ki, dostunuzda olan bir şey sizi təəccübləndirdikdə gözdəymənin qarşısını almaq üçün Allahı zikr edin. Bəli, bir çoxları gözdəymənin təsirindən həyatlarını əldən vermişlər.[2]

Əlbəttə ki, gözdəymənin həqiqət olduğuna inam bizi ətrafdakılara münasibətdə sui-zənnə vadar etməməlidir. Öz səhlənkarlığımızdan qarşılaşdığımız çətinliyə görə ətrafdakıları məzəmmət etməməliyik. Rəvayətdə bildirilir ki, sədəqə, dua, "Nas" və "Fələq" surələrinin oxunması gözdəymənin təsirini aradan qaldırır.

---

[1] "Biharul-ənvar", c. 63, s. 17

[2] "Biharul-ənvar", c. 95, s. 127

**Bildirişlər**

1. Düşmən çox kinlidir, oyaq olmalıyıq.
2. Quran düşmənin hiylələri üzərindən pərdəni qaldırır.
3. Düşmənin hücumları İslam rəhbərinə yönəlmişdir.
4. Gözdəymə həqiqətən də var.
5. İlahi övliyaları böhtanlardan müdafiə etmək lazımdır.
6. Quran qəfləti aradan qaldırır.
7. Quran bütün millətlər üçün, cəhanşümul və əbədi bir kitabdır, onun hökmləri üçün zaman və məkan məhdudiyyəti yoxdur.

# “HAQQƏ” SURƏSİ

***(69-CU SURƏ; 52 AYƏ)***

***İYİRMİ DOQQUZUNCU CÜZ***

***“HAQQƏ” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 52 aydədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür və sabit, haqq iş mənasını bildirir.

Qiyamət və onun xüsusiyyətləri surənin əsas mövzusunu təşkil edir. Surədə qiyamətin “əl haqqə”, “əl qariə”, “əl vaqiə” kimi üç adı qeyd olunur.

Surədə keçmiş qövmlərin aqibətindən, Quran və Peyğəmbərin (s) əzəmətindən, behişt və cəhənnəmin xüsusiyyətlərindən, cəhənnəm əhli və behişt əhlinin halından danışılır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿ٱلْحَآقَّةُ﴾﴿مَا ٱلْحَآقَّةُ﴾﴿وَمَآ أَدْرَاكَ مَا ٱلْحَآقَّةُ﴾﴿كَذَّبَتْ ثَمُودُ وَعَادٌ بِالْقَارِعَةِ﴾﴿فَأَمَّا ثَمُودُ فَأُهْلِكُواْ بِالطَّاغِيَةِ﴾**

**“Həmin haqq olan iş! Nədir haqq olan o iş? Sən nə bilirsən ki, nədir həmin haqq olan iş?! Səmud və Ad qövmü həmin sarsıdıcı hadisəni təkzib etdilər; Səmud qövmü asiliyinə görə məhv edildi.”**

### Nöqtələr

◘”Haqqə” sözü “haqq” sözündən olub sabit və haqq iş mənasını bildirir. Qiyamətin adlarından biri də haqqədir.Çünki qiyamət hadisəsi həqiqi və sabit bir işdir.

◘”Əl qariə” sözü “qər” sözündən olub, vurmaq, dağıtmaq mənasını bildirir. Yəni dünya qiyamət astanasında sarsıdıcı hadisə ilə üzbəüz qalasıdır.

◘Səmud qövmünün üç vasitə ilə məhv edildiyi bildirilir: zəlzələ[1]; dəhşətli səs[2]; ildırım[3].

Olsun ki, hər üç əzab eyni vaxtda baş vermişdir. Yəni həm ildırım, həm zəlzələ, həm də dəhşətli səs olmuş və hər əzab bir qrupu məhv etmişdir.

◘Mühüm məsələlərin dinlənilməsi üçün diqqəti cəlb etmək, maraq yaratmaq lazımdır. “Əl haqqə” sözünün təkrarı, yaranmışların şərəflisi olan Peyğəmbərə (s) müraciət diqqət yaratmaq üçündür.

### Bildirişlər

---

[1] “Ərad”, 78

[2] “Qəmər”, 31;

[3] “Fussilət”, 13

1. Qiyamət günü çox böyük və dəhşətli bir gündür.
2. Qiyamət yalnız vəhy yolu ilə tanına bilər.
3. Qiyaməti təkzib edənlər dünyada da Allahın əzabına düçar olar.
4. Qiyamət sarsıdıcı və dəhşətli bir hadisədir.
5. Bəzi qövmlər təkcə axirətdə yox, elə bu dünyada da cəzalandırılır.
6. Təkzib tüğyanın müqəddiməsidir, tüğyan məhvə səbəb olur.
7. Xasiyyətlər və rəftarlar xeyir və şərə çatmaqda meyardır.

*Ayə 6, 7, 8:*

﴿وَأَمَّا عَادٌ فَأُهْلِكُواْ بِرِيحٍ صَرْصَرٍ عَاتِيَةٍ﴾﴿سَخَّرَهَا عَلَيْهِمْ سَبْعَ لَيَالٍ وَثَمَانِيَةَ أَيَّامٍ
حُسُومًا فَتَرَى ٱلْقَوْمَ فِيهَا صَرْعَى كَأَنَّهُمْ أَعْجَازُ نَخْلٍ خَاوِيَةٍ﴾﴿فَهَلْ تَرَى لَهُم مِّن بَاقِيَةٍ﴾

**“Amma Ad qövmü soyuq, yandırıcı və sarsıdıcı küləklə məhv edildi. Allah yeddi gecə, səkkiz gün ardıcıl onların üzərinə əsdirdi. (Əgər orada olsaydın) Görərdin ki, həmin günlər o qövm içi boş xurma tənəkləri kimi məhv olmuşlar. Onlardan bir əsər-əlamət görürsənmi?!”**

**Nöqtələr**

◘”Sər sər” dedikdə soyuq və sərt külək, “atiyə” dedikdə azğın mənası nəzərdə tutulur.

◘”Həsum” sözü “hasim” sözünün cəm forması olub tam məhvədək bir əməlin təkrarlanması mənasını bildirir.

◘”Xaviyə” dedikdə həm içiboşluq, həm yerə yıxılmış mənaları nəzərdə tutulur.

◘”Sərə” sözü “səri” sözünün cəm forması olub yerə sərilmiş şey mənasını bildirir. “Əcaz” dedikdə ağac gövdələri mənası anlaşılır.

◘”Qəmər” surəsinin 20-ci ayəsində bildirilir ki, həlak olmuş Ad qövmü kökündən çıxmış xurma ağacının gövdəsinə bənzəyirdi.

**Bildirişlər**

1. Allah istənilən cür cəzalandıra bilər. Səmud qövmü ildırımla, Ad qövmü soyuq küləklə məhv edildi.
2. Varlıq aləmindəki hadisələrin təsiri Allahdan asılıdır. Külək bəzən gəmiləri hərəkətə gətirib xeyir verir, bəzən fəlakət vasitəsi olur.
3. Allahın əzabları bəzən birdəfəyə, bəzən tədricən nazil olur.
4. Cüssə və güc fəlakətə mane ola bilmir. İnsan xurma ağacı boyda olsa belə Allahın qəzəbi qarşısında acizdir.
5. Cəzalar fərqlidir. Bəzi cəzalar tamamilə məhv edir, bəziləri cismi hədəfə alır.

*Ayə 9, 10, 11, 12:*

﴿وَجَآءَ فِرْعَوْنُ وَمَن قَبْلَهُ وَالْمُؤْتَفِكَاتُ بِالْخَاطِئَةِ﴾﴿فَعَصَوْاْ رَسُولَ رَبِّهِمْ فَأَخَذَهُمْ أَخْذَةً
رَّابِيَةً﴾﴿إِنَّا لَمَّا طَغَى ٱلْمَاءُ حَمَلْنَاكُمْ فِي ٱلْجَارِيَةِ﴾﴿لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَآ أُذُنٌ وَاعِيَةٌ﴾

**“Firon və ondan öncəkilər, alt-üst olmuş məntəqələr xətaya yol vermişdilər. Onlar Rəblərinin elçisinə itaətsizlik göstərdilər, Allah da onları artan və ağır əzabla**

**yaxaladı. Həqiqətən, (Nuh dövründə) su coşduğundan sizi həmin rahat gəmiyə süvar etdik. Belə ki, onu sizin üçün ibrət vasitəsi qərar verək, eşidən qulaq onu yadda saxlasın.”**

**Nöqtələr**

◘”Mutəfikat” sözü “itifak” sözünün cəm forması olan “mötəfəkə” sözündəndir və alt-üst olmaq mənasını bildirir. Burada Lut qövmünün məntəqəsi nəzərdə tutulmuşdur. “Rabiyə” dedikdə artmaq mənası başa düşülür. “Əzabun rabiyə”, yəni aır və artan əzab.

◘”Təiyyəha” sözü hifz etmək, anlamaq, qəbul etmək mənalarını bildirir.

◘Zəməxşəri, Fəxr Razi, Mərağİ, Qurtubi kimi sünni təfsirçiləri, Şeyx Təbərsi, Əbül Fütuh, Razi, Əllamə Təbatəbai kimi şiə təfsirçiləri “Uzunun vaiyə” təbirinin Əli ibn Əbu-Talibə (ə) işarə olduğunu təsdiqləyən rəvayətlər nəql edirlər. “Uzun” sözünün tək halda işlənməsi göstərir ki, yalnız bir qulaq bütün həqiqətləri hifz etmişdir.

**Bildirişlər**

1. Lut qövmü bir neçə məntəqədə yaşayırdı. Onların hamısı həlak oldu.
2. Peyğəmbərə (s) itaət vacibdir və onunla müxalifət məhvə aparır.
3. Peyğəmbərə (s) itaətsizliyin dünya cəzası da var.
4. Allah höccəti tamamlayır, xəbərdarlığı başa çatdırır. O öncə peyğəmbər göndərir. Xalq itaətsizlik etdikdə əzabını nazil edir.
5. Allahın qəzəbi ağırdır.
6. Allah qəhr-qəzəbi və əzabı içində kimlərəsə lütf göstərir.
7. Ərəbistan əhli Nuh nəslinin qalıqlarıdır.
8. Acı hadisələrdən ibrət götürmək lazımdır.
9. Eşidilənləri, hadisələri yadda saxlamaq bir dəyərdir.
10. İnsanın düşüncə ilə dinləyib yadda saxladığı sözlər dəyərlidir.

***Ayə 13, 14, 15, 16, 17, 18:***

﴿فَإِذَا نُفِخَ فِي ٱلصُّورِ نَفۡخَةٞ وَٰحِدَةٞ﴾﴿وَحُمِلَتِ ٱلۡأَرۡضُ وَٱلۡجِبَالُ فَدُكَّتَا دَكَّةٗ وَٰحِدَةٗ﴾﴿فَيَوۡمَئِذٖ وَقَعَتِ ٱلۡوَاقِعَةُ﴾﴿وَٱنشَقَّتِ ٱلسَّمَآءُ فَهِيَ يَوۡمَئِذٖ وَاهِيَةٞ﴾﴿وَٱلۡمَلَكُ عَلَىٰٓ أَرۡجَآئِهَاۚ وَيَحۡمِلُ عَرۡشَ رَبِّكَ فَوۡقَهُمۡ يَوۡمَئِذٖ ثَمَٰنِيَةٞ﴾﴿يَوۡمَئِذٖ تُعۡرَضُونَ لَا تَخۡفَىٰ مِنكُمۡ خَافِيَةٞ﴾

**“Surun bircə dəfə üfürüləcəyi; yer və dağların qaldırılıb bir-birinə vurulacağı; bəli, həmin gün böyük hadisə baş verər; göy parçalanar və həmin gün süst olar; mələklər onun ətrafındadır, həmin gün Rəbbinin ərşini səkkiz nəfər başı üzərində aparar; həmin gün (hesab üçün) təqdim olunarsınız; heç bir gizli işiniz məxfi qalmaz.”**

**Nöqtələr**

◘”Dəkk” dedikdə parçalamaq, viran qoymaq mənası nəzərdə tutulur. Hamar və yumşaq torpaq da “dəkk” adlanır. “Vahiyə” sözü süst, “ərca” sözü ətraf mənasını bildirir.

◘Bu ayələrdə “yəvmə izin” sözünün təkrarlanması qiyamət gününün əhəmiyyətini göstərir.

◘İmam Sadiq (ə) buyurur: “Ərşi daşıyan səkkiz nəfərdən bəziləri peyğəmbər, bəziləri imamlardır: Nuh, İbrahim, Musa, İsa, Məhəmməd (s), Əli (ə), Həsən (ə), Hüseyn (ə). Ərş dedikdə ilahi elm nəzərdə nəzərdə tutulur demək, qiyamətdə mələklərdən də üstün Allah övliyaları var və onlar insanların əməllərindən xəbərdardır.”[1]

◘Əli ibn Əbu-Talib (ə) buyurur: “Allahın ərşi taxt yox, məhdud, yaranmış, idarə olunan bir mövcuddur. Mələklər Allahın verdiyi qüdrətlə onu daşıyırlar.”[2]

### Bildirişlər

1. Surun üfürüləcəyi labüd işlərdəndir.
2. Varlıq nizamı ildırım səsi ilə dağılar.
3. Qiyamət günü yer öz orbitindən çıxar, dağılar, yerindən qopub bir-birinə çırpılar.
4. Dağların parçalanması şiddət və sürətlə baş verər.
5. Ən mühüm hadisə qiyamət hadisəsidir və başqa hadisələr onunla müqayisədə heç nədir.
6. Möhkəm səmalar sonda süstləşər.
7. Qiyamətdə varlıq nizamı pozulsa da, digər bir nizam hakim olar. Bu nizam mələklərin hüzuru ilə bərpa olar.
8. İnsan şəxsiyyətinin bütün gizli nöqtələri qiyamət günü açılar. İnsanın kimiliyi üzə çıxar. Onun yaxşı və pis əməlləri, düşüncə və məqsədləri, nöqsan və kamillikləri açıqlanar.

***Ayə 19, 20, 21, 22, 23, 24:***

**﴿فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَيَقُولُ هَاؤُمُ ٱقْرَءُوا۟ كِتَابِيَهْ﴾﴿إِنِّي ظَنَنتُ أَنِّي مُلَاقٍ حِسَابِيَهْ﴾﴿فَهُوَ فِي عِيشَةٍ رَّاضِيَةٍ﴾﴿فِي جَنَّةٍ عَالِيَةٍ﴾﴿قُطُوفُهَا دَانِيَةٌ﴾﴿كُلُوا۟ وَٱشْرَبُوا۟ هَنِيٓـًٔا بِمَآ أَسْلَفْتُمْ فِي ٱلْأَيَّامِ ٱلْخَالِيَةِ﴾**

**“Əməl naməsi sağ əlinə verilən hər kəs (şadlıqla) deyər: “Gəlin mənim kitabımı oxuyun. Mən bilirdim ki, hesabımla üzləşəcəyəm.” O xoş güzaran keçirər, meyvələrinə əl çatan behiştdə olar. Keçmişdə gördüyünüz işlərə xatir yeyin, için, nuş olsun!”**

### Nöqtələr

◘”Aum” sözü əmr mənası bildirən isimdir. “Haum”, yəni “gəlin”. “Utufuha” dedikdə dərilmiş və ya dərilməyə hazır meyvələr nəzərdə tutulur.

◘”Zənn” sözü dünyada tərəddüdlü inam mənası bildirir. Bu söz axirətlə bağlı işlədildikdə əminlik mənasını ifadə edir. “Əsləftum” dedikdə elə bir şeyin təqdimi nəzərdə tutulur ki, ondan üstününün qaytarılacağına ümid edilir.

◘Qiyamətdə hər bir insanın əməl naməsi var. Doğru yolda olanların əməl naməsi sağ əlinə verilər. Olsun ki, “Vaqeə” surəsində “Yəmin” əshabı dedikdə həmin qrup nəzərdə tutulmuşdur.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Təfsiri-nurus-səqəleyn”

◘”Fi cənnətin aliyə” ifadəsindəki “əlvv” sözü məkan yox, məqam yaxınlığını bildirir.

◘Qiyamətdə həm maddi, həm də mənəvi nemətlər var. İnsanın razılığı ruhi nemətdir. Behişt isə maddi nemətlərdən sayılır.

◘”Həniən” sözü Allah tərəfindən nemətlərin artırılması və şirinləşdirilməsini göstərir. Bu söz Quranda dörd dəfə işlədilmişdir, onlardan üçü behişt nemətlərinə aiddir.

**Bildirişlər**

1. Qiyamətdə hər bir şəxsin əməl naməsi onun qarşısına qoyular.
2. Allah qiyamətdə insanları yazılı sənədlər əsasında mühakimə edib cəzalandırar, və ya mükafatlandırar.
3. Qiyamət hadisəsinə münasibətdə nəinki əminlik, hətta ehtimal insanı cilovlaya bilər.
4. Qiyamət dünyada əkilənlərin biçin dövrüdür.
5. Kamilliklərin izharı fitri bir işdir və qiyamətədək davam edər.
6. Hesab-kitaba iman insanı haram ləzzətlərə göz yummağa vadar edirsə, bütün bunların əvəzi behiştdə verilir.
7. Meyvə ən gözəl yeməkdir.

***Ayə 25, 26, 27, 28, 29, 30, 31, 32, 33, 34:***

**﴿وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِشِمَالِهِ فَيَقُولُ يَا لَيْتَنِي لَمْ أُوتَ كِتَابِيهْ﴾﴿وَلَمْ أَدْرِ مَا حِسَابِيهْ﴾﴿يَا لَيْتَهَا كَانَتِ ٱلْقَاضِيَةَ﴾﴿مَآ أَغْنَى عَنِّي مَالِيهْ﴾﴿هَلَكَ عَنِّي سُلْطَانِيهْ﴾﴿خُذُوهُ فَغُلُّوهُ﴾﴿ثُمَّ ٱلْجَحِيمَ صَلُّوهُ﴾﴿ثُمَّ فِي سِلْسِلَةٍ ذَرْعُهَا سَبْعُونَ ذِرَاعًا فَاسْلُكُوهُ﴾﴿إِنَّهُ كَانَ لَا يُؤْمِنُ بِاللَّهِ ٱلْعَظِيمِ﴾﴿وَلَا يَحُضُّ عَلَى طَعَامِ ٱلْمِسْكِينِ﴾**

**“Amma əməl naməsi sol əlinə verilmiş kəs deyər: “Ey kaş, naməm mənə verilməyəydi və bilməyəydim hesabım nədir. Ey kaş, ölümlə işim bitəydi (bir daha dirilməyəydim). Onlarım ehtiyacımı ödəmədi. Gücüm əldən çıxdı. (Deyilər) Onu tutun, buxovlayın. Sonra onu şölələnən oda daxil edin. Sonra yetmiş zira uzunluqda zəncirlə bağlayın. Həqiqətən, o böyük Allaha iman gətirməz, ehtiyaclılara təam verilməsinə rəğbətləndirməz.”**

**Nöqtələr**

◘”Zira” dirsəkdən barmağın ucunadək olan məsafədir. Qədimdə ziradan ölçü vasitəsi kimi istifadə olunurdu. “Yetmiş” dedikdə ya həqiqətən də say nəzərdə tutulur, ya da zəncirin uzunluğuna işarə olunur.

◘”Səhmə” sözündən olan “səhim” sözü şölələnən od mənasını bildirir.

◘İmam Sadiq (ə) buyurur: “Cəhənnəm əhlinin bağlandığı zəncirin bir halqası dünyaya gətirilsə, dünya istidən yanıb kül olar.[1]

---

[1] “Təfsiri-nurus-səqleyn”

◘Bu ayədə küfr və xəsislik behiştdən məhrumların sifəti kimi yanaşı zikr olunur.

◘Tutmaq, bağlamaq, çəkmək, cəhənnəmə atmaq cəhənnəm əhlinin zillətinin ağırlığını göstərir.

## Bildirişlər

1. Yaxşı və pis insanların aqibətinin müqayisəsi Quranın bəyan üsullarındandır.
2. Tərbiyə və hidayət prosesində həm xəbərdarlıq, həm də müjdəyə ehtiyac var.
3. Gələcəkdən xəbərdarlıq bəzən bu günkü qərarların düzgün çıxarılmasına təsir göstərir.
4. Dünyada qaçdığımız ölüm qiyamətdə sorağımıza gələr.
5. Axirətdə günahkarların ümid bacası bağlanar. Əməl naməsini görənədək ümid edənlər onu görəndən sonra yalnız həsrət çəkər.
6. Var-dövlət və gücün qiyamətdə faydası yoxdur.
7. Dünyada var-dövlət toplamaq qiyamətdə peşimançılıq səbəbidir.
8. Dünyada hər günaha uzanan əlin cəzası qiyamətdə buxov və zəncirdir.
9. Bəzilərinin imanı, bəzilərinin iman gətirmək məqsədi yoxdur. Onlar inadkarlıq göstərdiyindən cəzaları daha ağırdır.
10. Qəlbində Allaha mərifət nuru, əməlində xalqa xidmət olmayan yansa yaxşıdır.
11. Aclara diqqət Allaha imanla yanaşı zikr olunur.
12. Əgər özümüzün ətrafdaklılara yardım etmək gücümüz yoxsa, heç olmaya başqalarını bu işə təşviq edək.
13. Kömək göstəriləcək fəqirin mömin olması şərt deyil.

***Ayə 35, 36, 37, 38, 39, 40, 41, 42, 43:***

﴿فَلَيْسَ لَهُ ٱلْيَوْمَ هَاهُنَا حَمِيمٌ﴾﴿وَلَا طَعَامٌ إِلَّا مِنْ غِسْلِينٍ﴾﴿لَا يَأْكُلُهُ إِلَّا ٱلْخَاطِؤُونَ﴾﴿فَلَآ
أُقْسِمُ بِمَا تُبْصِرُونَ﴾﴿وَمَا لَا تُبْصِرُونَ﴾﴿إِنَّهُ لَقَوْلُ رَسُولٍ كَرِيمٍ﴾﴿وَمَا هُوَ بِقَوْلِ شَاعِرٍ قَلِيلًا
مَا تُؤْمِنُونَ﴾﴿وَلَا بِقَوْلِ كَاهِنٍ قَلِيلًا مَا تَذَكَّرُونَ﴾﴿تَنزِيلٌ مِّن رَّبِّ ٱلْعَالَمِينَ﴾

**“Belə ki, bu gün burada səmimi bir dostu yoxdur; irindən başqa qidası da yox; onu yalnız xətakarlar yeyər; and olsun gördüyünüzə; və görmədiyinizə; həqiqətən, o (Quran) əziz peyğəmbərin kəlamıdır; bir şair sözü deyil; nə az inanırsınız; kahin sözü də deyil; nə az düşünürsünüz; (həqiqətən, Quran) aləmlərin Rəbbi tərəfindən göndəriləndir.”**

## Nöqtələr

◘”Ğislin” dedikdə cəhənnəm əhlinin bədənindən ayrılan irin və çirk nəzərdə tutulur.

◘”Rəsulin kərim” ifadəsi Cəbrəil yox, İslam peyğəmbərinə işarədir. Çünki sonrakı cümlələrdə həmin  şəxsin kahin və şair olmadığı bildirilir. Şairlik və kahinlikdə suçlanan isə Peyğəmbər (s) idi.

◘Müşriklər Quranı şer kitabı sayır, Peyğəmbəri (s) şair adlandırırdılar. Hansı ki, Peyğəmbərdən (s) bir dənə də şer nəql olunmamışdır.[1]

---

[1] “Təfsiri-əl mizan”

◘Qiyamətdə cəzalar günahlara münasib olar. Dünyada miskinə can yandırmayan axirətdə canıyanan yoldaşsız qalar. Dünyada yoxsula təam verməyən qiyamətdə pis qida ilə qidalandırılar.

◘Görünən və görünməyənlərə and bu surədəki ən böyük anddır. Görünənlər dedikdə ətrafda müşahidə olunanlar, görünməyənlər dedikdə qeyb aləmi, okeanların dibi, gözə görünməyən hər şey nəzərdə tutulur.

◘Quran tədricən nazil olmuşdur. “Tənzil” sözü tədrici göndərişi bildirir. Əlbəttə ki, bütün Quran qədr gecəsində Peyğəmbərin (s) qəlbinə nazil oldu. Sonradan 23 il ərzində tədricən göndərildi. Necə ki banka bir dəfəyə qoyulmuş pul tədricən götürülür.

◘Peyğəmbər (s) mütləq kəramət sahibi idi. “Rəsulin kərim” dedikdə onun ailə-övlad, dost-düşmən, qonşu, yoxsullara münasibətdə, çətinlik və asanlıqda kəraməti nəzərdə tutulur.

◘”Ğaşiə” surəsinin 6-cı ayəsində bildirilir ki, cəhənnəm əhlinin təamı yalnız ”zəri”dir. Bu qida “Duxan” surəsinə əsasən “əssim”, “ğislin”dir.[1] Zəkkum və zəri eynidir, ğislin onların içkisidir. Yəni cəhənnəmdə bir növ qida, bir növ içki var. Olsun ki, cəhənnəmdə hər dəstəyə bir növ təam verilir. Kimi zəri, kimi zəkkum, kimi ğislinlə qidalanır.

**Bildirişlər**

1. Cəhənnəm əhli nə fiziki, nə də mənəvi baxımdan rahatdır.
2. Böyük Allaha iman gətirilməməsi, aclara diqqətsizlik bağışlanmayan günahlardır.
3. Allahın nəzərində bütün varlıq aləmi dəyərlidir. Çünki O bütün varlığa and içir.
4. Maddiyata bağlanıb qalmayaq, gözə görünməyən şeylər çoxdur.
5. Müdiriyyətdə sağlam qüvvələri müdafiə edin, onlara yönəlmiş şübhələrə cavab verin.
6. Allah xəbərdarlığı başa çatdırır. Vəhy Allah tərəfindən, peyğəmbər vasitəsi ilə göndərilir.
7. Təbliğatçı bütün dinləyicilərin iman gətirəcəyini gözləməməlidir.
8. İman təklikdə bəs etmir, zikr də lazımdır. İmanlı insanın da qəflətdə qalması mümkündür.
9. Əksəriyyət qəqbul etmir deyə haqq sözə göz yummayın.

***Ayə 44, 45, 46, 47, 48, 49, 50, 51, 52:***

**﴿وَلَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ ٱلْأَقَاوِيلِ﴾﴿لَأَخَذْنَا مِنْهُ بِالْيَمِينِ﴾﴿ثُمَّ لَقَطَعْنَا مِنْهُ ٱلْوَتِينَ﴾﴿فَمَا مِنكُم مِّنْ أَحَدٍ عَنْهُ حَاجِزِينَ﴾﴿وَإِنَّهُ لَتَذْكِرَةٌ لِّلْمُتَّقِينَ﴾﴿وَإِنَّا لَنَعْلَمُ أَنَّ مِنكُم مُّكَذِّبِينَ﴾﴿وَإِنَّهُ لَحَسْرَةٌ عَلَى ٱلْكَافِرِينَ﴾﴿وَإِنَّهُ لَحَقُّ ٱلْيَقِينِ﴾﴿فَسَبِّحْ بِاسْمِ رَبِّكَ ٱلْعَظِيمِ﴾**

**“Əgər peyğəmbər uydurulmuş sözləri bizə aid etsəydi, hökmən, onu qəzəblə yaxalayardıq. Sonra qəlb damarını kəsərdik. Heç biriniz ona sipər ola bilməzdiniz. Həqiqətən, bu Quran təqva əhli üçün zikr vasitəsidir; biz bilirik ki, sizdən bəziləriniz Quranı təkzib edənlərsiz; şübhəsiz, (bu təkzib qiyamətdə) kafirlər üçün peşimançılıq olacaq; həqiqətən, o (qiyamət) haqq və yəqindir; beləsə böyük Rəbbinin adı ilə təsbih söylə.”**

[1] “Duxan”, 44

## Nöqtələr

◘”Təqəvvəl” dedikdə bir sözü onu deməyən şəxsə aid etmək nəzərdə tutulur.

◘Qanı ürəyə çatdıran damar “vətin” adlanır. Bu damar kəsilsə insan dərhal ölər.

◘Quran kafirlər üçün dünya və axirətdə həsrətdir. Dünyada həsrət çəkərlər ki, nə üçün onun kimisini yarada bilmirlər. Axirətdə həsrət çəkərlər ki, nə üçün ona iman gətirməmişlər.

◘Yaxalamaqla bağlı “yəmin” sözünün işlənməsi gücə işarədir. Çünki sağ əl daha güclü olur.

◘Allah kiminsə qarşısında xəcalətli deyil. O öz peyğəmbəri ilə belə danışırsa, başqaları öz işini bilməlidir.

◘Hazırkı ayələrdə Quranın bəzi səciyyələri sadalnır.

◘Peyğəmbər (s) heç vaxy deyilməmiş sözü Allaha aid etmir.

◘Allah Peyğəmbərini (s) ən üstün şəkildə müdafiə edir, həm də onu hədələyərək Allah tərəfindən olmayan sözü Allaha aid etməsini mümkünsüz sayır.

## Bildirişlər

1. Allah vəhyi hifz edir. Kimsədə vəhyi dəyişmək gücü yoxdur.
2. Peyğəmbər özü də başqaları kimi vəhyi hifz etməlidir.
3. Bütün insanlar, hətta peyğəmbərlər Allahın qanunları qarşısında eyni dərəcədə cavabdehdirlər.
4. Quran nəinki şair və kahin sözü deyil, hətta Peyğəmbərin (s) də onda şərikliyi yoxdur.
5. Allahın qanun və buyuruğunda dəyişiklik qadağandır.
6. Qətiyyətli rəftar başqalarını təcavüz fikrindən daşındırır.
7. Quranın təhlükəsizliyi tam təmin olunmuşdur.
8. Haqqın müdafiəsi şəxsin müdafiəsindən mühümdür. Vəhyi qorumaq üçün hətta insanların canı alına bilər.
9. Quranın toxunulmazlığının təmini üçün qətiyyətlə danışmaq lazımdır.
10. Böyük günahların böyük cəzası olur.
11. Daha çox dəyəri olan şeylər daha ciddi qorunmalıdır.
12. Allah Onun vəhyinə əl uzadanları məhv edir.
13. Kimsədə Allahın qəzəbinə dözüm yoxdur.
14. Quran təqvalı insanlara güclü təsir göstərir.
15. Öyüdün qəbulu üçün təqva ruhiyyəsi lazımdır.
16. Təqvalılarla yanaşı təkzibçilər də var.
17. Təbliğatçı bütün xalqın boyun əyməsini ummamalıdır.
18. Təkzibçilər Allahın nəzarəti altında olduqlarını unutmasınlar.
19. Təkzibçilərin hücumları qarşısında Allaha sığınıb yolunu davam et!
20. Allaha təsbih insanın tərbiyəsi üçündür.

# “MƏARİC” SURƏSİ

## *(70-Cİ SURƏ; 44 AYƏ)*

## *İYİRMİ DOQQUZUNCU CÜZ*

## *“MƏARİC” SURƏSİNİN SİMASI*

Bu surə 44 ayədən ibarətdir və Məkkə surələrindən sayılır. Amma onun ilk ayələri Mədinədə nazil olmuşdur.

Surənin adı onun 3-cü ayəsindən götürülmüşdür. “Məaric” dedikdə mələklərin qalxdığı məhəl nəzərdə tutulur.

Digər Məkkə surələrində olduğu kimi “Məaric” surəsində də ayələrin əsas mövzusu məad, müşriklərin və müxaliflərin qorxudulmasıdır. Kafirlərin qiyamət halı, behişt və cəhənnəm əhlinin sifətləri bu surədə açıqlanan mövzulardandır.

Surənin ilk ayələri Əli-ibn Əbu-Talibin (ə) vilayətini inkar edənlərdən birinin dünya əzabı haqqındadır.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4:***

﴿سَأَلَ سَآئِلٌ بِعَذَابٍ وَاقِعٍ﴾﴿لِّلْكَافِرِينَ لَيْسَ لَهُ دَافِعٌ﴾﴿مِّنَ ٱللَّهِ ذِي ٱلْمَعَارِجِ﴾﴿تَعْرُجُ ٱلْمَلاَئِكَةُ وَٱلرُّوحُ إِلَيْهِ فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ﴾

**“Bir sail baş verəcək əzab istədi; bu kafirlər üçündür; onun qarşısını alacaq kəs yoxdur; cəza yüksək dərəcə sahibi olan Allah tərəfindəndir; mələklər və ruh əlli min illik bir gündə Ona doğru qalxarlar.”**

### Nöqtələr

◘”Məaric” sözü yüksəliş məhəlli mənasını bildirən “mərəc” sözünün cəm formasıdır. “Məaric” dedikdə mələklərin enib qalxdığı səmalar nəzərdə tutulur.

◘Mərhum Əllamə Əmini “Əl Ğədir” kitabında hicri 3-cü əsrdən 4-cü əsrədək yaşamış 30 böyük təfsirçi və hədisçinin adını çəkib onların ayə ilə bağlı təfsirini nəql edir: “Səələs sailun” ayəsinin aid olduğu şəxs Peyğəmbərə (s) dedi: “Ğədir günü Əmirəlmöminini (ə) xilafətə özün təyin etdin, yoxsa Allah?! Bizə Həcc, oruc, zəkatı əmr etdin, biz də qəbul etdik. Bununla razılaşmadın və nəhayət öz əmin oğlunu bizə hakim təyin etdin!” Sonra həmin şəxs Əli ibn Əbu-Talibin (ə) canişinliyinin haqq olacağı təqdirdə səmadan başınıa daş yağmasını istədi. Bir daş enib onu məhv etdi və bu ayə nazil oldu.[1]

### Bildirişlər

---

[1] “Ənfal”, 32

1. Bəzi fərdi və kiçik hadisələrin xatırladılması insanların ibrəti üçün təsirlidir. Bu hadisələr yadda saxlanılmalıdır. (Sail Allahın qəzəbinə gələnlərdən biri idi. Amma bu əhvalat Quranda bəyan olunur və tarixin yaddaşına yazılır.)

2. Yersiz və qərəzli bir istək hadisə törədə bilər.

3. Nə qədər ki, Allahın əzabı nazil olmayıb tövbə yolu açıqdır. İnsan sədəqə ilə əzabdan qurtara bilər. Əzab nazil olduqdan sonra qurtuluş yolu qalmır.

***Ayə 5, 6, 7, 8, 9:***

**﴿فَاصْبِرْ صَبْرًا جَمِيلًا﴾﴿إِنَّهُمْ يَرَوْنَهُ بَعِيدًا﴾﴿وَنَرَاهُ قَرِيبًا﴾﴿يَوْمَ تَكُونُ ٱلسَّمَاءُ كَالْمُهْلِ﴾﴿وَتَكُونُ ٱلْجِبَالُ كَالْعِهْنِ﴾**

**"Yaxşı bir səbrlə səbr et; həqiqətən, onlar həmin günü uzaq görürlər; biz onu yaxın görürük; elə bir gün ki, səma ərimiş dəmirə oxşar; dağlar didilmiş yun şəklinə düşər."**

**Nöqtələr**

◘Bəəzn müsəlmanların və müxaliflərin Peyğəmbərə (s) ünvanlanmış acı sözləri, xüsusi həzrət Əlinin (ə) imaməti ilə bağlı hücumlar o qədər güclənmişdi ki, Allah Öz Peyğəmbərini (s) səbrə çağırırdı.

◘Kafirlər məadı, ölümdən sonrakı həyatı uydurma sayır, özlərindən uzaq görürlər. Hansı ki, Allah-taala qiyaməti qəti və yaxın bilir.

◘Allah-taala Öz Peyğəmbərini (s) Quranda 20 dəfə səbrə çağırır. Həm də gözəl bir səbrə! Elə bir səbr ki, şikayət və gileylə müşayiət olunmur. Ayədə səbrli olmaq Peyğəmbərə (s) əmr edilsə də, bu əmr bütün ümmətə aiddir.

◘Qiyamətin bərpa olması üçün bu gün mövcud olan nizam dağılmalıdır. Quran bu nizamın pozulacağı ilə bağlı müxtəlif təbirlər işlədir.[1]

**Bildirişlər**

1. Hətta Peyğəmbər (s) səbr və dözüm çağırışına ehtiyaclıdır.

2. Qiyaməti yaxın bilən insan çətinliklərə səbr edir, dözüm göstərir.

3. Səmada gördüyümüz nizamın sonu var, bir gün bu nizam dağılasıdır.

***Ayə 10, 11, 12, 13, 14, 15, 16, 17, 18:***

**﴿وَلَا يَسْأَلُ حَمِيمٌ حَمِيمًا﴾﴿يُبَصَّرُونَهُمْ يَوَدُّ ٱلْمُجْرِمُ لَوْ يَفْتَدِي مِنْ عَذَابِ يَوْمِئِذٍ بِبَنِيهِ﴾﴿وَصَاحِبَتِهِ وَأَخِيهِ﴾﴿وَفَصِيلَتِهِ ٱلَّتِي تُؤْوِيهِ﴾﴿وَمَن فِي ٱلْأَرْضِ جَمِيعًا ثُمَّ يُنجِيهِ﴾﴿كَلَّآ إِنَّهَا لَظَى﴾﴿نَزَّاعَةً لِّلشَّوَى﴾﴿تَدْعُواْ مَنْ أَدْبَرَ وَتَوَلَّى﴾﴿وَجَمَعَ فَأَوْعَى﴾**

**"Heç bir dost dostunun əhvalını soruşmaz; onlar bir-birlərinə göstərilərlər. Həmin gün günahkar şəxs əzabdan qurtarmaq üçün övladlarını fidyə verməyə razı olar; eləcə də zövcəsini və qardaşını; həmişə ona sığınacaq vermiş yaxınlarını, qəbiləsini; bütün yer əhlini qurban verər ki, xilas olsun; belə deyil, həqiqətən, o**

---

[1] "Ənbiya", 104; müəllifin "Məad" kitabı

**şölələnən oddur; bədənin dərisini çəkib ayırar; (bu od haqqa) arxa çevirən hər kəsi çağırar; (var-dövlət) yığıb saxlayanı!”**

## Nöqtələr

◘”Yəvtədi” dedikdə qurtuluş üçün əvəz vermək, fidyə nəzərdə tutulur. “Fəsilə” sözü insanın ayrıldığı qohum-əqrəba mənasını bildirir. “Tövihi” sözü “məva” sözündən olub sığınacaq vermək mənasını bildirir. Odun xüsusi şöləsi “ləzza” adlanır. “Əva” sözü qab mənasını bildirən “vəa” sözündəndir və burada bir şeyin qaba yığılmasını bildirir. İnsan bədəninin ətraf dərisi “şəva” adlanır.

◘Günahkar qiyamətdə üç şey arzulayır: torpağa dönəydim[1]; əməllərimdən qurtulaydım[2]; fidyə verib qurtulaydım.

◘Günahkar canını qurtarmaq üçün qurban verərkən kimisə seçmir. O hər şeyi qurban verməyə razıdır. Qiyamət günü ailə-övlad məhəbbəti, dostluq-qardaşlıq hissləri yaddan çıxır. Amma bunun nə faydası!

◘Hazırkı ayələrə əsasən cəhənnəmə düşməyin dörd səbəbi var: insan aşkarda haqqa arxa çevirir, qəlbində haqqa nifrət bəsləyir, var-dövlət toplamaqla məşğul olur, kimsəyə kömək əli uzatmır.

## Bildirişlər

1. Dünyadakı rabitələr axirətdə kara gəlmir, onlara əsir olmayın.
2. Qiyamətdə həm ruhi, həm də fiziki əzab var. İnsana yaxınlarının və dostlarının göstərilməsi böyük ruhi əzabdır.
3. Günahkar qiyamət günü hər şeyi qurban vermək bahasına qurtulmaq istəyir.
4. Ehtiyatlı olaq və ailə-övlada, ətrafdakıların məhəbbətinə görə cəhənnəmə düşməyək. Çünki qiyamət günü kimsə köməyə gəlmir, dərdə dəymir.
5. İnsanın özünə məhəbbəti onun ən böyük meylidir.
6. Cəhənnəm odu şüurludur, günahkarı tanıyır.

***Ayə 19, 20, 21, 22, 23:***

﴿إِنَّ ٱلْإِنسَانَ خُلِقَ هَلُوعًا﴾﴿إِذَا مَسَّهُ ٱلشَّرُّ جَزُوعًا﴾﴿وَإِذَا مَسَّهُ ٱلْخَيْرُ مَنُوعًا﴾﴿إِلَّا ٱلْمُصَلِّينَ﴾﴿ٱلَّذِينَ هُمْ عَلَى صَلَاتِهِمْ دَآئِمُونَ﴾

**“Həqiqətən, insan həris, tamahkar yaradılmışdır; ona pislik üz verəndə nalə çəkir; bir xeyir yetişəndə xəsislik göstərir; yalnız namaz qılanlar istisnadır; o kəslər ki, namazlarında sabitdirlər.”**

## Nöqtələr

◘”Həlua” dedikdə səbirsiz və həris insan nəzərdə tutulur.

◘Allah-taala bəzi ayələrdə insanı ən üstün yaranmış, bəzi ayələrdə Özünü ən üstün yaradan, bəzi ayələrdə isə insanı həris və tamahkar kimi tanıtdırır.[3]

---

[1] “Nisa”, 42
[2] “Ali-İmran” 30
[3] “Tin”, 4; “Muminun”, 14

Sual: İnsanın üstün məxluq olması və xəsisliyi bir-birinə zidd deyilmi?

Cavab: İnsan ziddiyyətlər girdabındadır və bu təkamül nişanəsidir. Nəfs insanı pisliyə çağırır, ağıl onu pislikdən çəkindirir.[1] İnsanın təkamülü bu iki yol arasında düzgün seçim aparıb tərbiyələnməkdir.

◘Rəvayətlərə əsasən ən üstün əməl davamlı əməldir.[2]

◘Hərisliklə bağlı bir sıra rəvayətlər nəql olunmuşdur.[3] Bu rəvayətlərdə bildirirlir ki, hərislik ruzini artırmır, hərisliyi çox olan daha çox aldanır, çox insanları hərisliyi məhv edir, həris heç vaxt möhtaclıqdan qurtulmur, həris insan öz ali-cənablığını əldən verir, hərislik əzab-əziyyətə səbəb olur, həris insan var-dövlət naminə həyatını əldən verir, həris insan əsirdir, hərislik yoxsulluq göstəricisidir, hərislik ilahi müqəddərata inamı puça çıxarır, hərislik insana bir çox nöqsanlar gətirir, həris insanın rahatlığı olmur.

## Bildirişlər

1. Hərisliyin iki nişanəsi var: çətinlik zamanı ah-nalə və kama çatan zaman xəsislik.
2. Bir çox müşküllərin kökü hərislik və xəsislikdədir.
3. İnsanın tutumu böyük deyil. O çətinliyə düşdükdə nalə çəkir, bolluq gördükdə xəsislik göstərir.
4. Davamlı namaz pis əxlaqdan qurtuluş yoludur.
5. Maddiyatçı xarakter insanı hərislik və xəsisliyə yönəldir. Namaz və Allah zikri insanı cilovlayır.
6. Namazdan uzaq düşən insan iztirab içindədir.
7. Namazın təsiri onun davamlı olmasındadır.

***Ayə 24, 25, 26, 27, 28, 29, 30, 31:***

**﴿وَٱلَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَّعْلُومٌ﴾﴿لِّلسَّآئِلِ وَٱلْمَحْرُومِ﴾﴿وَٱلَّذِينَ يُصَدِّقُونَ بِيَوْمِ ٱلدِّينِ﴾﴿وَٱلَّذِينَ هُم مِّنْ عَذَابِ رَبِّهِم مُّشْفِقُونَ﴾﴿إِنَّ عَذَابَ رَبِّهِمْ غَيْرُ مَأْمُونٍ﴾﴿وَٱلَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ﴾﴿إِلَّا عَلَى أَزْوَاجِهِمْ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ﴾﴿فَمَنِ ٱبْتَغَى وَرَآءَ ذَلِكَ فَأُوْلَئِكَ هُمُ ٱلْعَادُونَ﴾**

**“O kəslər ki, mallarında məlum bir haq var; sail və məhrum fərdlər üçün; onlar ki, cəza gününə inanırlar; onlar ki, Rəblərinin əzabından qorxurlar; çünki Rəblərinin əzabından amanda deyillər; onlar ki ayıb yerlərini hifz edərlər; yalnız zövcələri və kənizləri istisnadır, bu işdə qınanmazlar; o kəslər ki, bundan artıq istəyir həmin həddi aşanlardır.”**

## Nöqtələr

◘Təfsirçilər bildirirlər ki, xüms və zəkat əmrlərindən öncə nazil olmuşdur.

◘İmam Sadiq (ə) “həqqun məlum” ifadəsi haqqında buyurur: “Bu haqq vacib zəkatdan ayrı bir haqdır. Sərvətli insan Allahın ona verdiyi var-dövlətin bir hissəsini yaxınlarına əta etməklə onları çətinlikdən qurtarır.[4]

---

[1] “Yusuf”, 53; “Naziat”, 40

[2] “Təfsiri-nurus-səqəleyn”

[3] “Ğurərul-hikəm”

[4] “Təfsiri-nurus-səqəleyn”

İmam Baqir (ə) hazırkı ayə ilə bağlı verilən suala belə cavab verir: “Həqqun məlum” zəkat deyil.”[1]

◘”Nəhcül-bəlağədə” oxuyuruq: “Allah yoxsulların gücünü varlıların malında qoymuşdur. Elə bir yoxsul yoxdur ki, varlı onun haqqından bəhrələnməsin. Allah onları sorğuya çəkəcək.”[2]

◘”Lissailiq vəl məhrum” ifadəsindən aydın olur ki, cəmiyyətdəki bəzi möhtaclar əl açır, bəziləri isə öz ehtiyacını gizlədir. Ona görə də varlılar ikinci zümrəni axtarmalı, onların haqqını ödəməlidir.

◘Yersiz adət-ənənələrə qarşı mübarizə lazımdır. Allahın halallarını haram, haramlarını halal göstərmək olmaz. Bəzi adət-ənənələrə əsasən gənclərin tez ailə qurması yaxşı hal deyil. Hansı ki, Quran izdivacdan çəkinib qeyri-şəri yolla şəhvətini söndürənləri qınayır.

◘İnsanın özündən məni xaric etməsi (istimna) böyük günahlardandır. İmam Sadiq (ə) bu barədə verilən sualın cavabında buyurur: “İstimna böyük günahdır, Allah onu qadağan etmişdir. İmamdan bu işin hansı ayədə qadağan olunduğunu soruşurlar. İmam “Məaric” surəsinin 31-ci ayəsini oxuyur.[3]

◘Həzrət Əli (ə) övladlarına buyurur: “Allahdan elə qorx ki, bütün yaxşılıqlara malik olsan onların qəbul edilməyəcəyini düşün; o qədər ümidvar ol ki, bütün insanların pis əməllərinə sahib olsan onların bağışlanacağını güman et.”[4]

◘Qiyamətə iman və əzab qorxusu namaz və infaqa diqqət üçün zəmindir.

## Bildirişlər

1. Hərislik xəsisliyə, namaz infaqa sövq edir.
2. Namazla məhrumlara yardım arasında qırılmaz bağlılıq var.
3. İnfaq hərislik və xəsislik ruhiyyəsini cilovlayır.
4. Həqiqi mömin və namazqılan öz var-dövlətinin bir hissəsini başqalarının haqqı bilir.
5. Yoxsulların varlıların malında payı var, onlara şərikdirlər.
6. Yoxsullara əl tutarkən təkcə zahirə baxmayın. Bəziləri başını dik tutub əl açmır.
7. Fərdin xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyindən ayrı deyil.
8. Yardım üçün iman yox, möhtaclıq şərtdir.
9. Əsil dindarlıq odur ki, insan həm ictimai, həm etiqadi məsələlərə diqqət yetirsin.
10. İslam fitri bir dindir. Həm nəfsani meyllər düzgün yolla təmin olunmalıdır, həm də günahın qarşısı alınmalıdır.
11. İslam cinsi istəklərin nəzərə alınmamasına müxalifdir.
12. İnsan üçün həmişə təhlükə var: azğınlıq təhlükəsi, bədbəxtlik təhlükəsi, qəfil ölüm təhlükəsi, əməllərin qəbul olunmaması təhlükəsi, əməllərin puça çıxması təhlükəsi...
13. Qanuni izdivacda zaman və məkanaa, yaşa görə qınamaq olmaz.
14. Cinsi ehtirasın haram yolla söndürülməsi bir növ təcavüzdür.

---

[1] “Biharul-ənvar”, c. 92, s. 95
[2] “Nəhcül-bəlağə”, hikmət 328
[3] “Biharul-ənvar”, c. 101, s. 101
[4] “Təfsiri-nümunə”

***Ayə 32, 33, 34, 35:***

**﴿وَٱلَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ﴾﴿وَٱلَّذِينَ هُم بِشَهَادَاتِهِمْ قَآئِمُونَ﴾﴿وَٱلَّذِينَ هُمْ عَلَى صَلَاتِهِمْ يُحَافِظُونَ﴾﴿أُوْلَئِكَ فِي جَنَّاتٍ مُّكْرَمُونَ﴾**

**"Onlar ki əmanətlərə və öz əhdlərinə vəfa qılırlar; onlar ki şəhadətlərinin arxasında dayanırlar; onlar ki, namazlarını hifz edirlər; beləlәri behiştlərdə əziz tutular."**

## Nöqtələr

◘"Məaric" surəsinin 22-35-ci ayələrində İslam ümmətinin və ideal cəmiyyətin siması təsvir olunur. Bu cəmiyyət namaz vasitəsi ilə Allahla daimi və kamil rabitə saxlayır. Onlar məhrumların ehtiyaclarına diqqətlidirlər, öz mallarının bir hissəsini onlara verirlər. Bu cəmiyyət məada inandığından, hesab günündən qorxduğundan öz düşüncə, danışıq və rəftarlarına diqqətlidirlər, əmanət və əhdlərə xəyanət etməzlər. Onlar xalqın haqlarının müdafiəsinə qalxar, şəhadət verdikdə onu danmazlar. Cinsi ehtiraslarının təminində halal yol axtarar, ailə qurar, pak nəsil yetirərlər.

◘Əmanət dedikdə məsuliyyətlər, insanların sirri kimi mənəvi əmanətlər də nəzərdə tutulur.

◘Əhd-peymanı yerinə yetirmək lazımdır. Xalq, Xaliq, dini rəhbərlər, ailə-övlad qarşısındakı məsuliyyətlər yerinə yetirilməlidir.

◘Olsun ki, davamlı namaz dedikdə[1] namazın tərk olunmaması nəzərdə tutulur. Namazın intizarını çəkmək deyərkən vaxtından qabaq dəstəmaz almaq, məsciddə cəmiyyətlə namaz qılmaq, namazın düzgünlük və qəbul şərtlərini yerinə yetirmək nəzərdə tutula bilər.[2]

◘Peyğəmbərdən (s) nəql olunmuş rəvayətlərdə əmanətə xəyanət, əhdi yerinə yetirməmək, yalan danışmaq nifaq nişanələrindən sayılır.[3]

## Bildirişlər

1. İman nişanələri təkcə namaz və infaqdan ibarət deyil. Əhdə vəfa, ictimai məsuliyyətlərin yerinə yetirilməsi iman şərtlərindəndir.
2. Məlumatlı və agah insanların susması günahdır, həqiqətə şahidlik isə iman nişanəsidir.
3. Bütün kamilliklərin başlanğıcı və sonu namaza diqqətdir.
4. Behişt əhli maddi və mənəvi baxımdan təmin olunmuşdur.

***Ayə 36, 37, 38, 39:***

**﴿فَمَالِ ٱلَّذِينَ كَفَرُواْ قِبَلَكَ مُهْطِعِينَ﴾﴿عَنِ ٱلْيَمِينِ وَعَنِ ٱلشِّمَالِ عِزِينَ﴾﴿أَيَطْمَعُ كُلُّ ٱمْرِئٍ مِّنْهُمْ أَن يُدْخَلَ جَنَّةَ نَعِيمٍ﴾﴿كَلَّآ إِنَّا خَلَقْنَاهُم مِّمَّا يَعْلَمُونَ﴾**

**"Kafirlərə nə olub ki, sənə doğru tələsirlər; sağdan-soldan, dəstə-dəstə; onların hər biri nemət dolu behiştə tamah salmışmı? Belə deyil, həqiqətən, biz onları bildikləri şeydən yaratdıq."**

---

[1] "Məaric", 23
[2] "Təfsiri-kəbiri-Fəxr Razi"
[3] "Səfinətul-bihar", c. 2, s. 131

## Nöqtələr

◘”Muhtiin” dedikdə boyun qaçırmaq, heyrətlə baxmaq və ya bir şeyin ardınca sürətlə getmək nəzərdə tutulur.

◘Həzrət Əli (ə) buyurur: “Həzrət Peyğəmbər (s) münafiqlərlə daim keçinir, onları sağında-solunda əyləşdirirdi. Nəhayət Allah izn verdi ki, onları rədd etsin.” Həzrət hazırkı ayəyə istinad etdi.[1] Çünki küfr tanımamaq yox, təslim olmamaqdır. Şeytan Allahı tanıdığı halda Allaha təslim olmadı.[2] Hər halda elm imandan fərqlənir. Münafiqlər Peyğəmbəri (s) tanıyırdılar, amma ona təslim olmurdular. Bu səbəbdən də kafir adlandırılırdılar.

◘”Qibəl” dedikdə üzbəüz, “əzin” dedikdə pərakəndə qruplar mənası nəzərdə tutulur.

◘Ömər Səd aşura günü sübh çağı imam Hüseynin (ə) qətli ilə bağlı qoşununa belə müraciət etdi: “Ey Allah qoşunu, atlarınıza süvar olun, müjdəniz behişt olsun.”[3]

◘Kafirlər istehza ilə deyirdilər: “Əgər Peyğəmbərin (s) behişt haqqında dedikləri doğrudursa, biz də behişt əhliyik, hətta onlardan da tez gedəcəyik.

## Bildirişlər

1. Quranda elə bir cazibə vardı ki, hətta müxaliflər onu dinləmək üçün Peyğəmbərin (s) ətrafına yığışardılar.
2. Peyğəmbər (s) o qədər qəlbigeniş idi ki, müxaliflər də ondan qaçmırdı.
3. Hər topluma, hər istiqbala aldanmayın.
4. Düşmənlər məlumat əldə etmək, möminlərin qərarlarından xəbər tutmaq üçün onların ətrafına toplana bilər.
5. Kafirlər Peyğəmbərdən (s) üz döndərmişdilər. Amma münafiqlər Peyğəmbərə (s) daha çox yaxınlaşırdılar.
6. Münafiq öz hərəkətləri ilə öyünür, behiştə tamah salır.
7. Münafiqlər iman və əməl olmadan behişt umurlar.
8. Düşmənlər və onların yersiz istəklərinə qətiyyətlə cavab verin.
9. İnsan dəyərsiz bir sudan yaradıldığını bildiyi halda qürrələnir, öz küfr və nifaqı ilə behişt umur.
10. Nədən yaradıldığını bilənlər Allahın yenidən yaratmağa qadir olduğuna inanmalıdırlar.

***Ayə 40, 41, 42, 43, 44:***

**﴿فَلَا أُقْسِمُ بِرَبِّ ٱلْمَشَارِقِ وَٱلْمَغَارِبِ إِنَّا لَقَادِرُونَ﴾﴿عَلَىٰٓ أَن نُّبَدِّلَ خَيْرًا مِّنْهُمْ وَمَا نَحْنُ بِمَسْبُوقِينَ﴾﴿فَذَرْهُمْ يَخُوضُواْ وَيَلْعَبُواْ حَتَّىٰ يُلَاقُواْ يَوْمَهُمُ ٱلَّذِي يُوعَدُونَ﴾﴿يَوْمَ يَخْرُجُونَ مِنَ ٱلْأَجْدَاثِ سِرَاعًا كَأَنَّهُمْ إِلَىٰ نُصُبٍ يُوفِضُونَ﴾﴿خَاشِعَةً أَبْصَارُهُمْ تَرْهَقُهُمْ ذِلَّةٌ ذَٰلِكَ ٱلْيَوْمُ ٱلَّذِي كَانُواْ يُوعَدُونَ﴾**

**“Şərqlərin və qərblərin Rəbbinə and olsun ki, biz qadirik; belə ki, onların yerinə onlardan üstününü gətirək. Biz qətiyyən məğlub və zəif deyilik; onları öz**

---
[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Əraf”, 14
[3] “Təfsiri-ətyəbül-bəyan”

**ixtiyarlarında qoy, vəd verilmiş günədək pis danışıb əylənsinlər; bir gün ki qəbirlərdən tələsik qalxarlar. Sanki sancılmış nişanlara doğru qaçırlar; gözləri yerə dikilmişdir, zillət onları bürümüşdür. Budur onlara vəd olunmuş gün!”**

## Nöqtələr

◘Şərqlər və qərblər dedikdə günəşin tülu və qürub nöqtələri nəzərdə tutulur. Ayrı-ayrı günlərdə günəş ayrı-ayrı nöqtələrdən tülu edib batır.[1]

◘”Xəyrən minhum” dedikdə imanda üstünlük nəzərdə tutulur. Yəni Allah münafiqləri aradan götürüb, onların yerinə imanlı insanları gətirməyə qadirdir. Həmin iman əhli haqqa tabe olar, inkara yol verməz.

◘Şərq və qərb təbirləri Quranda üç şəkildə işlədilir: tək şəkildə, cüt şəkildə, və cəm şəkildə.[2] Ümumi şəkildə nəzər saldıqda bir tərəf şərq, o biri tərəf qərbdir. Yay və qışda orbitlər dəyişdiyindən günəş iki nöqtədən tülu edir, iki nöqtədə batır. Daha dəqiq baxdıqda günəş hər gün ayrı-ayrı nöqtələrdən tülu edib, ayrı-ayrı nöqtələrdə batır. Belə olduqda 365 şərq, 365 qərb olur. Həzrət Əlidən (ə) nəql olunmuş hədis də bu mənanı təsdiqləyir.[3]

◘41-ci ayədə olduğu kimi Allah-taala başqa ayələrdə də kafirlər, müşriklər və münafiqləri hər şeyə qadir olmasıyla hədələyir.[4]

◘Hazırkı surənin 42 ayəsi “Zuxruf” surəsinin 83-cü ayəsinə bənzəyir.

◘İnsanlar qəbirlərdən sürətlə çıxar.[5]

◘”Nusub”, dedikdə yola sancılmış nişanlar nəzərdə tutulur. Bəzi təfsirçilər “Maidə” surəsinin 3-cü ayəsinə əsasən bu sözün bütlərə işarə olduğunu bildirir. Amma bu məna münasib görünmür.[6]

◘”Qələm” surəsinin 44-cü ayəsində bildirilir ki, təkzib edənləri öz ixtiyarlarına burax, onları qəzəbimizlə yaxalayaq. Əlbəttə ki, böyük tədbir sahibi olan Allah onlara möhlət verir.

◘Peyğəmbərə (s) qarşı müxalifət insanı dünya və axirətdə zəlil edir.[7]

◘Dünya həyatında gözləri ilə Peyğəmbəri (s) sancmaq istəyənlər axirətdə başı aşağı və xəcalətli olar.[8]

## Bildirişlər

1. Allahın şərq və qərbə and içməsi insanları bu barədə düşünməyə vadar etməlidir.
2. Şərq və qərb Allahın müdiriyyəti altındadır.
3. Varlıq nizamı qanunlar və hökmlərə tabedir. Tülu və qürubları hər gün üçün dəqiq hesablamaq olar.
4. Həm yaranış, həm də yaranışın əvəz olunması Allahın əlindədir.
5. Heç vaxt özünüzü üstün bilməyin, Allah sizdən üstününü yaradar.

---

[1] “Təfsiri-əl mizan”
[2] “Bəqərə”, 115; “Ər-Rəhman”, 17
[3] “Təfsiri-nurus-səqəleyn”
[4] “Fatir”, 16; “Muhəmməd”, 38
[5] “Qəmər”, 7; “Yasin”, 51
[6] “Təfsiri-əl mizan”
[7] “Mücadələ”, 20
[8] “Qələm”, 51

6. Nə qədər ki sözün təsirinə ümid var, təbliğ olmalıdır. Ümid üzüldükdən sonra müxaliflər öz ixtiyarına buraxılır.

7. Din və dini rəhbərlərə münasibətdə təhqiramiz sözlər insanı günah bataqlığına çəkir, onun başını qatır.

8. Nə qədər ki dəvətin qəbul ediləcəyinə ümid var, bu iş dayandırılmamalıdır. Amma qarşı tərəf hər şeyi oyun sayıb, tutduğu yoldan əl çəkmədikdə başına buraxılmalıdır.

9. İnadkarların öz başına buraxılması möhlət məqsədi daşıyır.

10. Məad cismanidir.

11. Toplum sürəti qiyamətdə kafirlərin qorxu və iztirab içində olduğunu göstərir.

12. Rüsvayçılıq və zillət qiyamətdə kafirləri başdan ayağa bürüyər.

13. Peyğəmbərlər insanlara qiyamət günü ilə bağlı daim xəbərdarlıq etmişlər.

# “NUH” SURƏSİ

### *(71-Cİ SURƏ; 28 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“NUH” SURƏSİNİN SİMASI*

28 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur. Surənin adı onun ilk ayəsindən götürülmüşdür.

Surədə həzrət Nuhun insanları ardıcıl şəkildə tövhidə dəvətindən bəhs edilir. İnadkar müşriklər hədələnir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3:***

**﴿إِنَّآ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ أَنْ أَنذِرْ قَوْمَكَ مِن قَبْلِ أَن يَأْتِيَهُمْ عَذَابٌ أَلِيمٌ﴾﴿قَالَ يَا قَوْمِ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ﴾﴿أَنِ ٱعْبُدُواْ ٱللَّهَ وَاتَّقُوهُ وَأَطِيعُونِ﴾**

**“Həqiqətən, biz Nuhu qövmünə doğru göndərdik (və dedik) ağrılı əzab onların sorağına gəlməmiş öz qövmünü qorxut; (Nuh) dedi: “Ey mənim qövmüm! Həqiqətən, mən sizin üçün aşkar bir qorxudanam; Allaha pərəstiş edin, ondan qorxunuz olsun, mənə tabe olun.”**

### Nöqtələr

◘Həzrət Nuhun əhvalatı “Əraf”, “Hud”, “Muminun”, “Şuəra”, “Qəmər”, “Nuh” surələrində ətraflı şəkildə bəyan olunmuşdur. Bu əhvalat “Hud” surəsinin 25-49 ayələrində daha dəqiq təsvir olunur.

◘Nuh qövmü Nuhu azğınlıqda suçladı.[1] Onu daim məsxərəyə qoyur, divanəlikdə itdiham edirdilər.[2] Amma həzrət Buh yenə də onların hidayətindən əl çəkmirdi.

◘Peyğəmbərlərin ən böyük missiyası tövhidə, səmavi rəhbərə itaətə və təqvaya dəvət olmuşdur.

◘Təbliğ tədrici, addım-addım olmalıdır. Həzrət Nuh öncə qövmünə xəbərdarlıq etdi, sonra onları lənətlədi.[3]

◘Həzrət Nuhun Quranda bəyan olunmuş xüsusiyyətləri

-Allah Nuhu xüsusi bir salamla salamlayır.[4] Allah İbrahimi, Musanı, Harunu, İlyası, saleh bəndələrini salamlayarkən heç vaxt “fil aləmin” sözü işlədilməmişdir.

-Yalnız Nuhun peyğəmbərlik müddəti (950 il) Quranda zikr olunmuşdur.

-Nuh yeganə peyğəmbərdir ki, ailə-övladları, qövmü ona müxalif oldu.

---

[1] “Əraf”, 60

[2] “Ənbiya”, 36; “Qəmər”, 9

[3] “Nuh”, 26

[4] “Saffat”, 79

-Nuh ən çox yaşamış peyğəmbərdir. O Allahın əmri ilə gəmi düzəltdi, heyvanlar onun gəmisi vasitəsi ilə nicat tapdı, bəşər nəsli davam etdi. Buna görə də Nuh bəşəriyyətin ikinci atası adlandırılır.

-Nuh cahanşümul kitabı və şəriəti olan ilk peyğəmbərdir.[1]

-Nuhun nifrini ilə Allah yer üzünü suya qərq etdi.

-Hətta 950 ildən sonra Nuhun tərəfdarları 10 nəfərə çatmadı.

**Bildirişlər**

1. Tarixi yada salarkən tərbiyəvi nöqtələrlə kifayətlənmək lazımdır. Məkan və zamanla bağlı xırdalıqların nəqli rol oynamır.
2. Qafil insanlara müjdə yox, xəbərdarlıq təsir edir.
3. Xəbərdarlıqdan öncə cəzalandırmaq düzgün deyil.
4. Dinlə bağlı xəbərdarlıqlar şəffaf və mərhəmətli olmalıdır.
5. Peyğəmbərlərə itaət Allah və məada imanın səmərəsidir. Öncə tövhid və təqva, sonra peyğəmbərə itaət.

***Ayə 4:***

**﴿يَغْفِرْ لَكُم مِّن ذُنُوبِكُمْ وَيُؤَخِّرْكُمْ إِلَى أَجَلٍ مُّسَمًّى إِنَّ أَجَلَ ٱللَّهِ إِذَا جَآءَ لَا يُؤَخَّرُ لَوْ كُنتُمْ تَعْلَمُونَ﴾**

**“(Əgər belə etsəniz) Allah günahlarınızın bir hissəsini bağışlayar, ömrünüzü təyin olunmuş vaxtadək uzadar (qəzəbdən doğan ölümdən uzaq olarsınız). Amma Allah tərəfindən müəyyən olunmuş ölüm çatdığı vaxt təxirə düşməz. Əgər bilsəydiniz!”**

**Nöqtələr**

◘İnsan üçün iki növ əcəl var: ibadətlə təxirə düşən və günahla tezləşdirilən əcəl; “əcəli-müsəmmə” adlanan dəyişməz əcəl.

◘İmam Sadiq (ə) buyurur: “Bir çox insanların ömrünün səbəbi ehsan, bir çox ölümlərin səbəbi günahlardır. Az adamların ömrü və ölümü təbii olur.”[2]

**Bildirişlər**

1. Keçmiş günahlar iman gətirməklə bağışlanır.
2. Allah yalnız öz haqqını bağışlayır. Xalqın haqqı isə qaytarılmalıdır.
3. İman və saleh əməl ömrü uzadır, bəlaları uzaqlaşdırır.
4. Həyat eşqi təbii bir istəkdir. Həyat yaxşılıqların mükafatıdır.
5. Ömrün dəyişməz bir sonu da var.
6. Ölümün gəlişindən qorxub iman gətirin. İnsan iman və saleh əməlin ömrün uzunluğuna təsirindən xəbərsizdir.

***Ayə 5, 6, 7, 8, 9:***

---

[1] “Kənzul-ummal”

[2] “Biharul-ənvar”, c. 5, s. 140

﴿قَالَ رَبِّ إِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا﴾﴿فَلَمْ يَزِدْهُمْ دُعَآءِىٓ إِلَّا فِرَارًا﴾﴿وَإِنِّي كُلَّمَا
دَعَوْتُهُمْ لِتَغْفِرَ لَهُمْ جَعَلُوٓاْ أَصَٰبِعَهُمْ فِيٓ ءَاذَانِهِمْ وَٱسْتَغْشَوْاْ ثِيَابَهُمْ وَأَصَرُّواْ وَٱسْتَكْبَرُواْ
ٱسْتِكْبَارًا﴾﴿ثُمَّ إِنِّي دَعَوْتُهُمْ جِهَارًا﴾﴿ثُمَّ إِنِّيٓ أَعْلَنتُ لَهُمْ وَأَسْرَرْتُ لَهُمْ إِسْرَارًا﴾

**“(Nuh) Dedi: “Pərvərdigara, həqiqətən, mən öz qövmümü gecə-gündüz dəvət etdim; amma mənim dəvətim yalnız onları daha çox qaçırdı; əlbəttə, nə vaxt onları bağışlayasan deyə dəvət etdim, barmaqlarını qulaqlarına qoydular, libaslarını başlarına çəkdilər. (Asiliklərində) İsrarlı oldular, çox təkəbbür göstərdilər; mən onları uca bir səslə dəvət etdim; sonra bəzən aşkar, bəzən gizli (onlarla) danışdım.”**

### Nöqtələr

◘Nuh qövmü onunla pis davranırdı. Bəzən övladlarının əlindən tutub onun yanına gedir və deyirdilər: “Atalarımız bizə tapşırdığı kimi, biz də sizə tapşırırıq ki, bu kişinin sözlərinə qulaq asmayın.”

◘Nuh dövrünün kafirləri ilə İslam peyğəmbəri (s) dövrünün kafirləri arasında oxşarlıqlar var: haqdan qaçmaq[1]; onların bağışlanmaya dəvəti[2]; təkəbbür[3]; vəhyi dinləməmək.[4]

### Bildirişlər

1. Allah insanın batinindən xəbərdar olsa da, dua və minacat zəruridir.
2. Allah dərgahına ah-nalə peyğəmbərlərin qaydasıdır.
3. İnsanlar ardıcıl şəkildə dəvət edilməlidir.
4. Əgər qəbul üçün zəmin olmasa peyğəmbərlərin də gecə-gündüz dəvəti səmərə verməz.
5. İnsanlar yol seçimində azaddırlar. Onlar peyğəmbəri qəbul da edə bilər, inkar da.
6. Həzrət Nuhun dəvətləri həmişə etirazla qarşılandı.
7. İnadkarlıq elə bir həddə çatır ki, inadkar şəxs nə öz işindən əl çəkir, nə də baxıb dinləyir.
8. Təbliğdə zaman və məkan, insanların ruhiyyəsi nəzərə alınmalıdır. Bəzən məxvi və xüsusi söhbətə ehtiyac olur.
9. Peyğəmbər öz missiyasını yerinə yetirərkən səhlənkarlıq göstərməmişdir.

***Ayə 10, 11, 12:***

﴿فَقُلْتُ ٱسْتَغْفِرُواْ رَبَّكُمْ إِنَّهُۥ كَانَ غَفَّارًا﴾﴿يُرْسِلِ ٱلسَّمَآءَ عَلَيْكُم مِّدْرَارًا﴾﴿وَيُمْدِدْكُم
بِأَمْوَٰلٍ وَبَنِينَ وَيَجْعَل لَّكُمْ جَنَّٰتٍ وَيَجْعَل لَّكُمْ أَنْهَٰرًا﴾

**“Dedim ki, Rəbbinizdən bağışlanma diləyin. O çox bağışlayandır; O sizə səmadan yağış göndərir; sizə malınız və övladlarınızla yardım göstərir; sizin üçün (həmin yağış suyundan) bağlar yaradır, çaylar axıdır.”**

---

[1] “Əhzab”, 13
[2] “Munafiqun”, 5
[3] “Mudəssir”, 23
[4] “Fussilət”, 26

### Nöqtələr

◘”Midra” sözü “dərr” sözündən olub bol yağış yağması mənasını bildirir.

◘Quranın çoxsaylı ayələrində imansızlıq və günahın qıtlıq və yoxsulluqla, iman və saleh əməlin rifah və əmin-amanlıqla əlaqəsi qeyd olunur. Ayələrdən birində buyurulur ki, əgər insanlar təqvalı və imanlı olsalar, göyün bərəkətini onlara endirərik.[1] Başqa bir ayədə oxuyuruq ki, quru və suda müşküllər insanların əməllərindən qaynaqlanır.[2]

◘Peyğəmbərlərin məqsədi bəşəriyyəti Allahın qəzəbindən qurtarmaqdır. Surənin başlanğıcından hazırkı ayəsinədək üç dəfə istiğfar, tövbə mövzusu xatırlanır.

### Bildirişlər

1. İnsan tövbə qılmalı, Allah bağışlamalıdır.
2. Əfv və bəxşiş Allahın sünnələrindəndir.
3. Xeyirə çağırış üçün mənəvi və maddi təşviqə ehtiyac var.
4. Günahların bağışlanması növbəti ilahi lütflər üçün zəmindir.
5. Yağış Allahın ən mühüm nemətlərindəndir.
6. İmanın təsirlərindən biri sağlam həyatdır.
7. Var-dövlət, övladlar, bağlar və çaylar Allahın nemət və mükafatlarındandır.

***Ayə 13, 14, 15, 16, 17, 18, 19, 20:***

﴿مَّا لَكُمْ لَا تَرْجُونَ لِلَّهِ وَقَارًا﴾﴿وَقَدْ خَلَقَكُمْ أَطْوَارًا﴾﴿أَلَمْ تَرَوْا۟ كَيْفَ خَلَقَ ٱللَّهُ سَبْعَ سَمَاوَاتٍ طِبَاقًا﴾﴿وَجَعَلَ ٱلْقَمَرَ فِيهِنَّ نُورًا وَجَعَلَ ٱلشَّمْسَ سِرَاجًا﴾﴿وَٱللَّهُ أَنبَتَكُم مِّنَ ٱلْأَرْضِ نَبَاتًا﴾﴿ثُمَّ يُعِيدُكُمْ فِيهَا وَيُخْرِجُكُمْ إِخْرَاجًا﴾﴿وَٱللَّهُ جَعَلَ لَكُمُ الْأَرْضَ بِسَاطًا﴾﴿لِتَسْلُكُوا۟ مِنْهَا سُبُلًا فِجَاجًا﴾

**“Sizə nə olub ki, Allahın əzəmərindən qorxmursunuz? Hansı ki Allah sizi müxtəlif mərhələlərlə yaratmışdır; Allahın 7 səmanı üst-üstə necə yaratdığını görmürsünüzmü?! Onlar arasında ayı nur, günəşi çıraq qərar vermişdir; Allah sizi ot kimi yerdən cücərtdi; sonra sizi həmin torpağa qaytarıb, yenidən çıxarar; Allah yeri sizin üçün geniş yataq qərar vermişdir; belə ki, onun geniş yollarında dolanasınız.”**

### Nöqtələr

◘”Vəqar” sözü sübut, əzəmətə səbəb olan şey mənasını bildirir. “Ətvar” dedikdə hal, mərhələ və ya sinif mənası nəzərdə tutulur.

◘”Bəst” sözündən olan “bisat” sözü geniş, “fəcc” sözündən olan “ficac” sözü geniş yol mənasını bildirir.

◘”Rəca” sözü ümidsizlik sözünün antonimidir. Bu sözün inkar şəkli qorxu mənasını bildirir. Buyurulur ki, sizə nə olub Allahın əzəmətindən qorxmursunuz?! İmam Baqirdən (ə) nəql olunan hədis uyğun mənanı təsdiqləyir.[3]

---

[1] “Əraf”, 96
[2] “Rum”, 41
[3] “Təfsiri-nurus-səqəleyn”

Bəziləri “rəca” sözünün etiqad mənasını bildirdiyini söyləyirlər. Çünki bir şeyə ümidvar olan insan ona inanır. Uyğun halda ayə belə mənalandırılır: sizə nə olub ki, Allahın əzəmətinə inanmırsınız?!”[1]

◘”Tibaq” ya münafiq, ya da təbəqə-təbəqə yerləşmə mənasını bildirir.

◘İnsan bitkilər sayağı təbii ünsürlərdən təşkil olunub, tədricən inkişaf edir, quruyur, səmərəli və ya səmərəsiz olur, torpaqdan qidalanır, tərbiyəçiyə (bağbana) ehtiyaclıdır.

**Bildirişlər**

1. Sual şəklində xəbərdarlıq tərbiyə üsullarındandır.
2. Yaranış mərhələlərinə diqqət insana Allahın əzəmətini xatırladır.
3. Həzrət Nuh həzrət İsa və Musadan min illər qabaq olmuşdur. O insanları varlıq aləmi barədə düşünməyə çağırmışdır.
4. Təbiətlə tanışlıq Allahla tanışlıq üçün bir yoldur.
5. Bütün varlıq aləmi tövhid məktəbidir.
6. Allahın bütün işləri məqsədlidir.
7. Günəş və ayın insan həyatında roluna diqqət allahşünaslığa aparan bir yoldur.
8. Bəşəriyyət yer üzündə səyahətə, geniş yollara ehtiyaclıdır.

***Ayə 21, 22, 23:***

﴿قَالَ نُوحٌ رَّبِّ إِنَّهُمْ عَصَوْنِي وَٱتَّبَعُواْ مَن لَّمْ يَزِدْهُ مَالُهُ وَوَلَدُهُ إِلَّا خَسَارًا﴾﴿وَمَكَرُواْ مَكْرًا كُبَّارًا﴾﴿وَقَالُواْ لَا تَذَرُنَّ ءَالِهَتَكُمْ وَلَا تَذَرُنَّ وَدًّا وَلَا سُوَاعًا وَلَا يَغُوثَ وَيَعُوقَ وَنَسْرًا﴾

**“Nuh dedi: “Pərvərdigara, həqiqətən, insanlar mənə itaətsizlik etdi. Elə birinə itaət etdilər ki, mal və övladları yalnız ziyanlarını artırdı; böyük hiylə işlətdilər və dedilər: “Öz məbudlarınızı atmayın, Vədd, Suva, Yəğuz, Yəuq, Nəsrdən əl çəkməyin.”**

**Nöqtələr**

◘Quranda “əsnam”, “əvsan”, “nusub”, “təmasi” sözləri büt mənasında işlədilmişdir. Müşriklərin tanınmış bütlərinin adı isə ayrıca qeyd olunur. “Nəcm” surəsində Lat, Üzza, Mənat kimi bütlərin adı qeyd olunur.

**Bildirişlər**

1. Allah adamları Allaha şikayətlənir.
2. Məzlumiyyətlərin xatırlanması başqaları üçün möhkəmlik dərsidir.
3. İlahi rəhbərə iatət etməyən kəs azğına üz tutasıdır.
4. Nuhun ah-naləsi öz mənafeinə xatir deyildi.
5. Mal və övlad nemət olmaya da bilər.
6. İqtisadi və ictimai qüdrət insanların diqqətini cəlb edir, onların itaətinə səbəb olur. Peyğəmbərlər zər-ziba, dəbdəbə sahibi olanların əks qütbündə dayanır.
8. Nuh qövmü heç bir pis əməldən əl çəkmədi. Onlar Nuha qarşı çıxıb azğınlığa tabe oldular, bütləri qorumaq üçün hiyləyə əl atdılar.

---

[1] “Təfsiri-rahnoma”

9. Şirk ayinləri dəbdəbə sahiblərinin mənafeini qoruyur.
10. Başqalarının ibrət götürməsi üçün məhv olmuş azğın başçıların adı çəkilməlidir.
11. İlahi rəhbər fəsad ocağını tanımalıdır.
12. Doğru yoldan çıxan kəs üçün bir çox azğınlıq yolu açılır.

***Ayə 24, 25:***

**﴿وَقَدْ أَضَلُّواْ كَثِيرًا وَلَا تَزِدِ ٱلظَّٰلِمِينَ إِلَّا ضَلَٰلًا﴾﴿مِّمَّا خَطِيٓـَٰٔتِهِمْ أُغْرِقُواْ فَأُدْخِلُواْ نَارًا فَلَمْ يَجِدُواْ لَهُم مِّن دُونِ ٱللَّهِ أَنصَارًا﴾**

**“Şübhəsiz, bir çoxlarını azdırdılar. Zalımların yalnız azğınlığını artır. Onlar xətalarına görə qərq oldular, vəsfə gəlməz oda daxil edildilər. Özləri üçün Allahdan başqa yardımçı görmədilər.”**

**Nöqtələr**

◘Qərq olmaq, oda daxil edilmək dedikdə cəhənnəm yox, bərzəx odu nəzərdə tutulur. Onlar qərq olduqdan sonra oda daxil edildilər.

◘Quranda azğınlıq vasitəsi olaraq fərdlər və işlər tanıtdırılır: boş söhbət, yalanın yayılması, şayiələr düzəldilməsi, müqəddəsliklərdən sui-istifadə, riyakarlıq, şeytan, tağut, azğın sənətçi, məsuliyyətsiz alim, dinini satan, həqiqəti gizləyən, dünyanı axirətdən üstün tutan, münafiq.[1]

**Bildirişlər**

1. Haqqın yerini tutan istənilən bir şey azğınlıq səbəbidir.
2. Mənfi təbliğat öz işini görür.
3. Azğınlığın dərəcələri var.
4. Allahın qəzəbini doğuran öz əməllərimizdir.
5. Şirk xətalar üçün zəmindir.
6. Nuh qövmünün qərq olması azğınlara göndərilmiş cəzaların bir növüdür.
7. Bərzəx odu su arasında da şöləl104nir.
8. Peyğəmbərə arxa çevirməyin cəzası tənhalıqdır.
9. Allahı olanın bir yox, minlərlə yardımçısı var.
10. Allahın qəzəbi qarşısında var-dövlət, bütlər, qurğular, ailə-övlad, ətraf faydasızdır.

***Ayə 26, 27:***

**﴿وَقَالَ نُوحٌ رَّبِّ لَا تَذَرْ عَلَى ٱلْأَرْضِ مِنَ ٱلْكَٰفِرِينَ دَيَّارًا﴾﴿إِنَّكَ إِن تَذَرْهُمْ يُضِلُّواْ عِبَادَكَ وَلَا يَلِدُوٓاْ إِلَّا فَاجِرًا كَفَّارًا﴾**

**“Nuh dedi: “Pərvərdigara, yer üzündə kafirlərdən birini də saxlama. Əgər onları saxlasan, bəndələrini azdırar, günahkar və kafir doğub törədərlər.”**

**Nöqtələr**

[1] “Loğman”, 6; “Ənfal”, 144; “Nisa”, 44, 60; “Munafiqun”, 6; “Ənfal”, 36; “Taha”, 79, 85; “Əhzab”, 10; “Ali-İmran”, 69; “Tövbə”, 9; “İbrahim”, 3

◘Həzrət Nuha vəhy oldu ki, sənin qövmündən iman gətirənlərdən savayı kimsə iman gətirən deyil.[1] 950 illik təcrübə insanları tanımaq üçün bəs edirdi. Bu nəsil, hətta bundan sonrakı nəsil doğru yola gələsi deyildi. Ona görə Nuh nifrinə əl atdı.

◘"Dar" sözündən olan "dəyyar" sözü evdə sakin mənasını bildirir.

◘İlahi insanlar özünü düşünmür onlar bu günki və gələcək nəslin hidayəti barədə fikirləşir. Həzrət Nuh təhqirlər eşidib, işgəncələrə məruz qalsa da, yalnız xalq yolundan azdığı üçün nifrin etdi.

**Bildirişlər**

1. Son mərhələdə nifrinə əl atmaq olar.
2. Həzrət Nuhun risaləti cahanşümul idi.
3. Xalqla onun öz dilində danışın.
4. Cəmiyyətin düşüncə sağlamlığı onun fiziki sağlamlığından mühümdür. Xalqı azdıran fərdlər həlak olsa yaxşıdır.
5. Azdırıcı fərdlər və amillərlə sərt rəftar edilməlidir.
6. Tərbiyə prosesində vərəsəliyin mühüm rolu var.
7. İnsan o qədər tənəzzül edir ki, əməldə və əqidədə onun islahına yol qalmır.

***Ayə 28:***

**﴿رَبِّ ٱغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِمَن دَخَلَ بَيْتِيَ مُؤْمِنًا وَلِلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَاتِ وَلَا تَزِدِ ٱلظَّالِمِينَ إِلَّا تَبَارًا﴾**

**"Pərvərdigara, məni və ata-anamı, evimə imanla daxil olan hər kəsi, imanlı kişi və qadınları bağışla. Zalımların yalnız həlakını artır."**

**Nöqtələr**

◘Duanın əhatə dairəsi geniş olmalıdır. Dua keçmişi və indini, insanın özünü və yaxınlarını, bütün möminləri əhatə etməlidir.

◘İmam Riza (ə) buyurur: "Həzrət Nuhun evi Kufə məscidinin yerində olmuşdur. Evə daxil olanlar dedikdə Kufə məscidinə daxil olanlar nəzərdə tutulur."

◘Kərbəlada imam Hüseyn (ə) müxaliflərdən bəzisini öldürməyib buyururdu: "Nəslində mömin gördüyüm müxalifi öldürmürəm."

**Bildirişlər**

1. Dua və nifrində mübarək "Rəbb" adından güc alaq.
2. Peyğəmbərlər nə qədər çalışsalar da öyünmürdülər.
3. Allahdan bağışlanma diləyərkən başqalarına önəm vermək yaxşıdır.

---

[1] "Hud", 36

4. Yaxın və uzaq qohumlar düşüncə baxımından münasib olduqda ilahi lütfdən faydalanır.

5. Duada möminlər üçün rəhmət və bağışlanma, zalımlara ölüm və həlakət istəyin.

# “CİNN” SURƏSİ

### *(72-Cİ SURƏ; 28 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“CİNN” SURƏSİNİN SİMASI*

“Cinn” surəsi Məkkədə nazil olmuşdur, 78 ayədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür.

Surədə Quranı dinləyən bir qrup cinin iman gətirməsindən danışılır. Surədə Allahdan başqasına pərəstiş etməməyin zəruriliyi vurğulanır. Surədə bildirilir ki, qeyb elmi Allaha məxsusdur və Allahın izni olmadan kimsə bu elmdən xəbər tuta bilməz.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿قُلْ أُوحِيَ إِلَيَّ أَنَّهُ اسْتَمَعَ نَفَرٌ مِّنَ الْجِنِّ فَقَالُوا إِنَّا سَمِعْنَا قُرْآنًا عَجَبًا﴾﴿يَهْدِي إِلَى الرُّشْدِ فَآمَنَّا بِهِ وَلَن نُّشْرِكَ بِرَبِّنَا أَحَدًا﴾**

**“De: mənə vəhy oldu ki, cinlərdən bir qrupu (mənim qiraətimi) dinləyib söylədilər: “Həqiqətən, biz heyrətamiz bir Quran eşitdik; yüksəlişə doğru sövq edir. Ona iman gətirdik və heç vaxt kimsəni Rəbbimizə şərik qoşmarıq.”**

**Nöqtələr**

◘”Nəfər” dedikdə üç, yeddi və ya on nəfərlik qrup nəzərdə tutulur.

◘İlahi dünya görüşündə varlıq aləmi təkcə gördüklərimizdən ibarət deyil və görünənlər təkcə bizim müşahidə etdiklərimiz deyil.

Milyardlarla ulduzdan ibarət kəhkəşan kəşf edən insan iddia etməməlidir ki, bütün varlıq aləmi ilə tanış olub. Biz vəhyə tabe oluruq, Quranın buyurduqlarına inanırıq. Quranda cinlərlə bağlı bir sıra ayələr var. Bu ayələrdə buyurulur: Cin insandan öncə yaradılmışdır[1]; Cinin də insan kimi məqamı var, yaranış məqsədi insanla eynidir[2]; Cinə də əmr olunur, qadağa qoyulur[3]; Cin oddan yaradılıb, şeytan da həmin maddədəndir[4]; Biz onları görməsək də onlar bizi görürlər, övliyalara xidmət edirlər.[5]

◘Bütün təəccüblü işlər və ixtiralar qısa bir müddətdən sonra adiləşir. Amma Quran hər an heyrətə gətirir və onun heyrətamizliyi əbədidir. Onun adiləşmədiyi “Nəhcül-bəlağədə” də təsdiqlənir.[6]

---

[1] “Hicr”, 27
[2] “Zariyat”, 56
[3] “Ərrəhman”, 23
[4] “Kəhf”, 50
[5] “Əraf”, 27; “Səba”, 13
[6] “Nəhcül-bəlağə”, xütbə 75

◘Əgər bütün qeyri-adi işlər bir yönümdən təəccüblüdürsə, Quranın heyrətamizliyi saya gəlmir. Peyğəmbər (s) buyurur ki, Quran söz, məzmun, yığcamlıq, fitrətə uyğunluq baxımından misilsizdir.[1]

◘Hədisdə bildirilir ki, Quranla ünsiyyətə qatılan insan kamilləşir, onun cəhaləti aradan qalxır.[2]

◘İnsan Qurana bir neçə cür münasibət göstərə bilər: eşidib iman gətirər, eşidər və imanı artar[3], eşidər və öz yolunu gedər[4], eşidib qəbul edər[5], eşidib böhtan yağdırar[6], eşidib təhqir edər[7], eşidər və başqalarının dinləməsinə mane olar[8].

Cinlər Quranın imtiyazını anlayıb heyrətə gəldilər. Amma inadkar ərəblər Quranda təəccüblü bir şey olmadığını iddia edib, özlərini də Quran kimi kitab yaratmağa qadir saydılar.[9]

◘Yüksəliş yolu haqq yoldur. Maraqlıdır ki, bunu cinlər təsdiqləyir.[10]

## Bildirişlər

1. Peyğəmbər (s) şəxsən cinləri görmədi, vəhy yolu ilə onların dinləməsindən xəbər tutdu.
2. Cin torpaqdan olmasa da insanın danışığını eşidir.
3. Quranın tilavətini dinləmək insanın vücuduna təsir göstərir.
4. Quran söz və məzmun baxımından bütün kitablardan fərqlənir.
5. Bizi inkişaf etdirən sözləri dinləyək.
6. Cinlərdə dinləmək, danışmaq, araşdırmaq gücü var.
7. Quranın hidayəti, doğru yola sövq etməsi daimidir. İnsan üçün əsil yüksəliş mənəvi yüksəlişdir.
9. Yüksəliş vasitəsinin olması bəs etmir ixtiyarında bu vasitə olan kəs addım atmalıdır.
10. İman və ixlas inkişaf nişanəsidir.
11. Qəbul üçün hazırlıq olsa insan bir neçə ayəni dinləyib həqiqəti anlayar və başqalarını da doğru yola çağırar.
12. Kamil iman heç vaxt şirkə yoldaş olmur.

***Ayə 3, 4, 5:***

﴿وَأَنَّهُ تَعَالَى جَدُّ رَبِّنَا مَا اتَّخَذَ صَاحِبَةً وَلَا وَلَدًا﴾﴿وَأَنَّهُ كَانَ يَقُولُ سَفِيهُنَا عَلَى اللَّهِ
شَطَطًا﴾﴿وَأَنَّا ظَنَنَّا أَن لَّن تَقُولَ الْإِنسُ وَالْجِنُّ عَلَى اللَّهِ كَذِبًا﴾

---

[1] "Kafi", c. 2, s. 599
[2] "Ğurərul-hikəm"
[3] "Ənfal", 2
[4] "Tövbə", 86; "Muhəmməd", 20
[5] "Bəqərə", 85
[6] "Ənam", 25; "Ənbiya", 5
[7] "Ənfal", 31
[8] "Fussilət", 26
[9] "Ənfal", 31
[10] "Əhqaf", 30

**“Həqiqətən o, böyük və cəlallı Rəbbimiz özünə nə bir zövcə, nə də övlad götürmüşdür. Bizim səfehlərimiz Allah haqqında haqsız sözlər danışırdılar. Elə güman edirdik ki, cin və insan heç vaxt Allah haqqında yalan söyləməz.”**

## Nöqtələr

◘”Cədd” sözü əzəmət mənası bildirir. Bu söz babaya işarə olduqda onun ailədə böyüklük və əzəmətini göstərir.

◘”Şətət” dedikdə haqqdan uzaq zalımcasına danışıq nəzərdə tutulur. “Səfihuna” dedikdə ya düşüncəsizlər, ya da cinlərdən olan və Allaha etiraz etmiş İblis nəzərdə tutulur.

## Bildirişlər

1. Yüksəlişdə ilk addım Allahı tanımaqdır.
2. Cinlər də bilir ki, Allahın zövcəsi və övladları yoxdur.
3. Ailə-övlad Allahın yeganəlik və ehtiyacsızlıq şənlərindən uzaqdır.
4. Haqsız söz danışmaq səfehliyi göstərir.
5. Cinlər insanların nə düşündüyündən xəbərdardır.

***Ayə 6, 7, 8:***

﴿وَأَنَّهُ كَانَ رِجَالٌ مِّنَ الْإِنسِ يَعُوذُونَ بِرِجَالٍ مِّنَ الْجِنِّ فَزَادُوهُمْ رَهَقًا﴾﴿وَأَنَّهُمْ ظَنُّوا
كَمَا ظَنَنتُمْ أَن لَّن يَبْعَثَ اللَّهُ أَحَدًا﴾﴿وَأَنَّا لَمَسْنَا السَّمَاءَ فَوَجَدْنَاهَا مُلِئَتْ حَرَسًا شَدِيدًا
وَشُهُبًا﴾

**“Həqiqətən, bəzi insanlar bəzi cinlərə pənah aparır, onların azğınlığını gücləndirir. Siz güman etdiyiniz kimi onlar da güman edirdilər ki, Allah heç vaxt bir şəxsi məbus etməyəcək. Biz səmalara yaxınlaşmaq istədik, amma orada güclü keşikçilər və qaynar daşlarla rastlaşdıq.”**

## Nöqtələr

◘”Rəhəq” dedikdə insanın qəbahətli və pis işi nəzərdə tutulur.

◘Cinlərə sığınmaq dedikdə cinlərlə əlaqədə olan insanlara müraciət edilməsi nəzərdə tutulur. Rəvayətlərə əsasən, burada şeytanın ilhamı nəzərdə tutulur. Bəziləri müşküllərinin həllini ondan istəyir.[1]

◘Quran nuru ilə işıqlanan, yüksələn kəs bütün düşüncə və əməl azğınlıqlarından qurtulur. Quran yüksəlişə hidayətdən danışdıqdan sonra bəzi azğın əqidələri açıqlayır. Bu azğın əqidələrdən biri də Allaha zövcə və övlad aid edilməsidir. Belə haqsız danışanlar Allahı qoyub cinlərə sığınır və qiyamətin baş verməyəcəyini düşünür.

## Bildirişlər

1. Cinlərə sığınmaq boş və səfeh bir işdir.
2. Cinlərin də insanlar kimi kişi və qadını var.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

3. Məqsədə çatmaq üçün cinlərlə rabitənin yanlış addım olduğu bildirilir. Belə bir addım hər iki tərəfin azğınlığını artırır.

4. Qiyaməti inkar edənlərin heç bir elmi dəlili yoxdur. Onlar zənn-gümana uyurlar.

5. Cinlər insanların əqidələrindən xəbərdardır.

6. Cinlərdən bəziləri kafirdirlər və qiyaməti inkar edirlər.

7. Cin səma ilə təmasda ola bilər.

8. Azğınlara harada gəldi yer verməyin.

*Ayə 9, 10, 11, 12:*

﴿وَأَنَّا كُنَّا نَقْعُدُ مِنْهَا مَقَاعِدَ لِلسَّمْعِ فَمَن يَسْتَمِعِ الْآنَ يَجِدْ لَهُ شِهَابًا رَّصَدًا﴾﴿وَأَنَّا لَا
نَدْرِي أَشَرٌّ أُرِيدَ بِمَن فِي الْأَرْضِ أَمْ أَرَادَ بِهِمْ رَبُّهُمْ رَشَدًا﴾﴿وَأَنَّا مِنَّا الصَّالِحُونَ وَمِنَّا دُونَ
ذَٰلِكَ كُنَّا طَرَائِقَ قِدَدًا﴾﴿وَأَنَّا ظَنَنَّا أَن لَّن نُّعْجِزَ اللَّهَ فِي الْأَرْضِ وَلَن نُّعْجِزَهُ هَرَبًا﴾

**“Biz əvvəllər dinləmək üçün səmanın mərkəzlərində əyləşərdik. Amma indi kim qulaq asmaq istəyirsə, pusqusunda qaynar bir daş (ulduz) dayandığını görür. İndi bilmirik ki, yerdə olanlar üçün şər istənilmişdir, yoxsa Rəbbləri onlar üçün xeyir müəyyənləşdirmişdir? Bəzilərimiz saleh fərdlərdir, qalanları müxtəlif yollardadır. Yaxşı bilirik ki, heç vaxt yer üzündə Allahı aciz qoya bilmərik, qaçmaqla hökmündən çıxa bilmərik.”**

**Nöqtələr**

◘”Rəsəd” dedikdə nəzarətçilər, keşikçilər mənası nəzərdə tutulur. “Qədd” sözünün cəm forması olan “qidəd” sözü kəsilmiş, “təraiqə qidəda” çeşidli məsləklər mənasını bildirir.

◘Bu ayələrdən aydın olur ki, cinlərin möminləri Quranı dinləməklə yanaşı öz zəifliklərini və Allahın əzəmətini etiraf edir, seçim üçün azad buraxıldıqlarını anlayırlar.

**Bildirişlər**

1. Quranın nazil olması səmalarda da öz təsirini göstərdi. Cinlər Quran nazil olmamışdan səma xəbərlərini dinləyirdilər. Quran nazil olandan sonra bu işə qadağa qoyuldu.

2. Cinlər bəşəriyyətin və dünyanın gələcəyindən xəbərsizdirlər.

3. Gizli dinləməyin ağır cəzası var.

4. Quranda xeyir və bərəkətin Allahın əlində olduğu bildirilir. Şər və pisliklər isə öz əməllərimizin nəticəsidir.

5. İnkişaf etdirmək Allahın rübubiyyət şənindəndir.

6. Cinlərin təbiət və fitrəti fəsad üzərində qurulmayıb. Cinlər arasında da salehləri var.

7. Qruplara bölünmək azadlığı göstərir.

8. Nə müqavimət, nə də qaçmaqla Allahı aczi qoymaq olmaz.

*Ayə 13, 14, 15:*

**﴿وَأَنَّا لَمَّا سَمِعْنَا الْهُدَى آمَنَّا بِهِ فَمَن يُؤْمِن بِرَبِّهِ فَلَا يَخَافُ بَخْسًا وَلَا رَهَقًا﴾﴿وَأَنَّا مِنَّا الْمُسْلِمُونَ وَمِنَّا الْقَاسِطُونَ فَمَنْ أَسْلَمَ فَأُوْلَئِكَ تَحَرَّوْا رَشَدًا﴾﴿وَأَمَّا الْقَاسِطُونَ فَكَانُوا لِجَهَنَّمَ حَطَبًا﴾**

**“Doğru yolu (Quranı) dinləyib ona iman gətirdik . Hər kəs Rəbbinə iman gətirsə, nə haqqının kəsilməsindən, nə də sitəmdən qorxar. Bəzilərimiz təslim olmuş, bəzilərimiz sitəmkardır. Təslim əhli olanlar yüksəliş sorağındadır. Sitəmkarlar isə cəhənnəm çırpısıdır.”**

**Nöqtələr**

◘”Bəxs” dedikdə zülmlə əskiltmə, “rəhəq” dedikdə səfehlik və azğınlıq mənası nəzərdə tutulur.[1]

◘”Qist” sözü bəhrə, qismət mənasını bildirir. Başqasının payını götürənə “qasit” deyilir. Başqasının payını verən isə “məqsut” adlanır.

◘”Təhərrəv” dedikdə istəmək mənası nəzərdə tutulur.

◘”Qasitun” sözü “muslimun” sözünün antonimi kimi işlədilmişdir. Bəli, təslim əhli ədalətli olmalıdır.

◘Surənin hazırkı ayələrində Quranı dinləyib öz nəzərini bildirən cinlərdən danışıldı. Onların danışığı təbliğatçı üçün faydalıdır. Cinlərlə bağlı bəzi səciyyələri nəzərdən keçirək: diqqətlə dinləmək, dəstəliklə iştirak, haqqa sevinib hisslərini büruzə vermək, təbliğat, əqidə və meyllərin izharı, azğınlardan uzaqlıq, batil əqidələrin rəddi, azğınların təhqiri, başqalarının azğınlığına təəssüf, xürafat və batil meyllərin inkarı, haqqın əzəmətinin bəyanı, haqqın qüdrətinin bəyanı, insanın zəifliyinin bəyanı, iman əhlinə ümid verilməsi, müsəlmanlarla sitəmkarların müqayisəsi, əməlləri ilə dəvət etmələri, yaxşılıq və yaxşıları seçmək, söhbətə əsas məsələdən başlamaq.

**Bildirişlər**

1. Quran başdan-başa doğru yola çağırışdır.
2. Xeyir işdə sürət bu işin dəyərini artırır.
3. Qurana iman aləmlərin rəbbinə imandır.
4. İman mükafatın kamilliyini təzmin edir.
5. Müsəlmanlar ədalətsevər olmalıdır.
6. Cinlər lətif varlıq olsalar da, onlara cismani əzab verilir.
7. Həm günahkar insanlar, həm də azğın cinlər cəhənnəmin çırpısı, yanacağıdır.

***Ayə 16, 17:***

**﴿وَأَلَّوِ اسْتَقَامُوا عَلَى الطَّرِيقَةِ لَأَسْقَيْنَاهُم مَّاء غَدَقًا﴾﴿لِنَفْتِنَهُمْ فِيهِ وَمَن يُعْرِضْ عَن ذِكْرِ رَبِّهِ يَسْلُكْهُ عَذَابًا صَعَدًا﴾**

**“Əgər haqq yolda sabit qədəm olsalar onları bol su ilə sirab edərik. Bununla onları imtahana çəkərik. Hər kəs Rəbbinin zikrindən yayınsa ağır əzaba düçar olar.”**

[1] “Təfsiri-rahnoma”

### Nöqtələr

◘"Ğədəq" dedikdə bol, "səəd" dedikdə ağır və müşkül mənaları anlaşılır.

◘İmam Baqir (ə) buyurur: "Sabitqədəmlik dedikdə Əhli-beyt (ə) yolunu tutmaq nəzərdə tutulur. İmam Sadiqdən (ə) nəql olunur ki, bizim vilayət yolumuzda sabitqədəm olanlar böyük elmdən faydalanar.[1]

◘Müqayisə üsulu ən yaxşı tərbiyə üsullarındandır. Bir ayədə sabitqədəmlik və yağış, digər ayədə etiraz və əzab yada salınır. Bu müqayisə ilə haqq batildən seçilir.

◘Allah zikrindən uzaqlıq həm dünya, həm də axirətdə çətinliyə səbəb olur.[2]

### Bildirişlər

1. İmandan da mühümü imanda sabitqədəmlikdir.
2. Yollar arasında yalnız biri haqdır.
3. İmanın faydalarından danışmaq ən yaxşı təbliğ üsuludur.
4. İman təkcə axirətə yox, həm də dünya həyatına təsir göstərir.
5. Doğru yolda sabitqədəmlik dəyərdir. Əyri yollarda israr inadkarlıq və **korluqdur.**
6. Ruzinin çoxluğu sınaq vasitələrindən biridir. (Həzrət Süleyman Ruzinin çoxluğunu sınaq vasitəsi bilirdi.[3]
7. Doğru yolda sabitqədəmlik təbiətə təsirlidir.
8. Rifah insanı yuxuya verir.
9. Ruzi artdıqca qürrələnməyin.
10. Hətta doğru yolda sabitqədəmlikdən sonra işinizi başa çatmış saymayın. Qarşıda başqa sınaqlar var.
11. Allahın həm məhəbbəti var, həm də qəzəbi.
12. Cəhənnəmə sürüklənmə səbəblərindən biri Allah zikrindən uzaqlıqdır.
13. Bəzən yağış sınaq vasitəsi olur. Onun şükrü yerinə yetirilmədikdə ardınca qəzəb gəlir.

***Ayə 18, 19, 20, 21:***

﴿وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا﴾﴿وَأَنَّهُ لَمَّا قَامَ عَبْدُ اللَّهِ يَدْعُوهُ كَادُوا يَكُونُونَ عَلَيْهِ لِبَدًا﴾﴿قُلْ إِنَّمَا أَدْعُو رَبِّي وَلَا أُشْرِكُ بِهِ أَحَدًا﴾﴿قُلْ إِنِّي لَا أَمْلِكُ لَكُمْ ضَرًّا وَلَا رَشَدًا﴾

**"Şübhəsiz, məscidlər Allaha məxsusdur, orada Allahla birgə kimsəni çağırmayın. Allahın bəndəsi ayaq üstə dayanıb Onu çağırdığı vaxt (cinlər) başına toplananda de ki, mən yalnız Rəbbimi çağırıram, kimsəni ona şərik qoşmuram. De ki, həqiqətən, mən sizə xeyir vermək, ya ziyan vurmaq gücünə malik deyiləm."**

### Nöqtələr

◘"Məsacid" sözü səcdə məhəlli mənasını bildirən "məscid" sözünün cəm formasıdır.

---

[1] "Təfsiri-məcmul-bəyan"
[2] "Taha", 124
[3] "Nəml", 40

◘İmam Sadiq (ə) buyurur: “Yəhudilər və məsihilər öz ibadət mərkəzlərində Allaha şərik qoşduqlarından Allah buyurur ki, İslam məscidlərində Allahdan savayı kimsəni çağırmayın və Allah lənət etsin məscidə hörmət qoymayana.”[1]

◘”Libəda” sözü toplum, izdiham mənasını bildirir.

◘18-ci ayədə dua dedikdə ibadət nəzərdə tutulur. İbadət məqsədi ilə Allahdan qeyrisini çağırmaq haramdır. Adi çağırış isə şirk deyil.

◘İbadət zamanı insanların izdihamı dedikdə ya müxaliflərin istehza məqsədi ilə bir yerə toplanması, ya da aşiqlərin zikr üçün bir araya gəlməsi nəzərdə tutulur.

◘İxlas o zaman zirvə həddinə çatır ki, insan özünü görmür, hər şeyin Allah tərəfindən olduğunu düşünür. Bu ayələrdə öncə buyuruldu ki, mən kimsəni şərik bilmirəm. Sonra qeyd edilir ki, hətta özümü bir şeyə sahib saymıram.

◘Peyğəmbərin bəndəliyi onun özünü təsirsiz saymasında, hər şeyi Allah tərəfindən bilməsində özünü göstərir.

◘Surənin başlanğıcından hazırkı ayəyədək dörd dəfə inkişaf sözü işlədilmişdir. Bununla vəhyin əsas məqsədi nəzərə çatdırılır.

◘Peyğəmbərin xeyir və ziyan vermək imkanına malik olmaması onun hər işdə Allahdan asılı olduğunu göstərir. Adi halda isə bir çox ayələrdə Peyğəmbərin mühüm fəaliyyətləri sadalanır. Onun xalq üçün bağışlanma istəməsi misal göstərilə bilər.[2]

### *Məscidlə bağlı bir neçə nöqtə*

1. Yer üzündə ilk tikili məscid olmuşdur.[3]
2. Məscidin yerinə müqəddəslik olmalıdır. Möminlər deyirdilər ki, Kəhf əshabının məzarı olan yerdə məscid tikək.[4]
3. Peyğəmbərin Mədinədə ilk işi məscid tikmək oldu.[5]
4. Quranda Məscidül-Həramın adı on dəfədən artıq çəkilir.
5. Allah-taala məscidi öz evi sayır və insanların ən üstünü olan İbrahim və İsmail peyğəmbəri bu evə xidmətçi təyin edir.[6]
6. Məsciddə iştirak üçün zinətlənmək tapşırılır.[7]
7. Əgər məscid təqva üzərində qurulmasa və təfriqə yuvasına çevrilsə, sökülməlidir.[8]
8. Məscid o qədər müqəddəsdir ki, hər adama məscid tikmək və ya məscid təmir etmək haqqı verilmir.[9] Deyilənlər təqvalı möminlərə məxsusdur.[10]
9. Yəhudilərin və məsihilərin ibadət mərkəzləri o qədər dəyərlidir ki, onları qorumaq üçün candan keçmək lazım gəlir.[11]
10. Məscidin öz qayda-qanunları var. Məsciddə ucadan və boş-boşuna danışmaq, alış-veriş söhbəti etmək olmaz.

---

[1] “Biharul-ənvar”, c. 72, s. 355
[2] “Munafiqun”, 5
[3] “Ali-İmran”, 96
[4] “Kəhf”, 21
[5] “Tövbə”, 108
[6] “Bəqərə”, 125
[7] “Əraf”, 31
[8] “Tövbə”, 107
[9] “Tövbə”, 17
[10] “Tövbə”, 18
[11] “Həcc”, 41

11. Məscidə doğru atılan hər addımın mükafatı var.

12. Namaz intizarında məsciddə oturmağın mükafatı var.

13. İçində namaz qılınmayan məscid Allaha şikayətçidir.

14. Məscid qonşularının məsciddə qılmadığı namazlar dəyərsizdir.

15. Allah məscid əhlinə xatir başqalarını da əzabdan uzaqlaşdırır.

16. Bir şəxs qəmli halda Abbasi xəlifəsi Mötəsimin yanına gəlib dedi: “Bir oğru öz oğurluğunu etiraf edir.” Xəlifə fəqihləri yığıb bu oğrunun hökmünü soruşdu. Fəqihlərdən biri dedi ki, Təəmmüm ayəsinə əsasən, oğrunun əli kəsilməlidir. Başqa bir fəqih dəstəmaz ayəsini dəlil göstərib, oğrunun əlinin dirsəkdən kəsilməsini hökm verdi. Mötəsim məclisə dəvət olunmuş imam Cavaddan (ə) bu barədə soruşduqda imam buyurdu: “Yalnız dörd barmaq kəsiləcək. Çünki Quranda səcdə yerinin Allaha məxsus olduğu bildirilir. Səcdədə yerə toxunan üzv kəsilməməlidir.” Mötəsim imamın dəlilini qəbul edib, hökmü yerinə yetirdi.[1]

### Bildirişlər

1. İbadət məkanları Allaha məxsusdur.

2. Səcdə zamanı yerə toxunan yeddi üzv Allaha məxsusdur və Allahdan qeyrisinə səcdə etmək qadağandır.

3. Məscid ünvanında tikilən və namaz qılınan yeri xüsusi hökmləri var.

4. Quran nəzərincə bəzi məkanların xüsusi müqəddəsliyi ola bilər.

5. Allahla yanaşı, Onunla bir sırada kimsəni çağırmayın.

6. Allaha bəndəlik bütün kamilliklərin müqəddiməsidir.

7. Allaha ibdətdə hərəkətə, istəyə, qərara ehtiyac var.

8. Batil düşüncələr müqabilində qətiyyətlə çıxış etmək lazımdır.

9. Səmimi, ixlasla edilmiş dua dəyərlidir.

10. Başqalarını ixlasa çağıran özü də ixlaslı olmalıdır.

11. Tövhidin elanı ilə yanaşı şirk inkar edilməlidir.

12. Əsl fayda hidayətdən asılıdır. İnkişaf yolunu qəbul etməyən zərərə düşmüşdür. Bəli, inkişafdan savayı hər şey zərərdir.

*Ayə 22, 23:*

﴿قُلْ إِنِّي لَن يُجِيرَنِي مِنَ اللَّهِ أَحَدٌ وَلَنْ أَجِدَ مِن دُونِهِ مُلْتَحَدًا﴾﴿إِلَّا بَلَاغًا مِّنَ اللَّهِ وَرِسَالَاتِهِ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَإِنَّ لَهُ نَارَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أَبَدًا﴾

**“De ki, həqiqətən, Allah qarşısında kimsə məni qorumayacaq. Ondan savayı sığınacaq tapmayacağam. Allah tərəfindən bəyan etmək və Onun əmrini çatdırmaqdan başqa vəzifəm yoxdur. Allah və Onun rəsuluna itaətsizlik edən üçün, şübhəsiz, cəhənnəm odu olacaq. Bir halda ki, daim həmin odda qalar.”**

### Nöqtələr

◘Quranda “qul” (“de”) əmri 300 dəfədən çox işlədilmişdir. Peyğəmbərə sualları cavablandırmaq, zənn-güman qarşısında mövqe tutmaq əmr olunur.

◘İxlasa dəvət yollarından biri budur ki, insan bəlalardan kimə sığınacağını bilsin.

[1] “Vəsailuş-şiə”

◘İlahi peyğəmbərlər insanları Allaha doğru dəvət edirdilər və bunu özlərinə imtiyaz saymırdılar. “Mən də sizin kimi bir bəşərəm”, “Bilmirəm başıma nə gələcək”, “Allahın xəzinəsi mənim əlimdə deyil”, “Allah qarşısında məni kimsə qoruya bilməz” kimi ifadələr uyğun həqiqəti təsdiqləyir.[1]

**Bildirişlər**

1. İlahi qanunlar qarşısında hamı bərabərdir, kimsə nöqsandan amanda qalmayıb.
2. Peyğəmbər (s) buyurur ki, nəinki sizə xeyir və ya ziyan yetirməkdə gücüm yoxdur, hətta özümdən bəlanı uzaqlaşdıra bilmərəm.
3. Peyğəmbər də xətaya yol versə qəzəbə gələr.
4. Allahın qəzəbindən yeganə qurtuluş yolu vəzifələri yerinə yetirməkdən.
5. Peyğəmbər məsumdur. Buna görə də onunla müxalifət Allahla müxalifət kimidir.

***Ayə 24, 25:***

﴿حَتَّى إِذَا رَأَوْا مَا يُوعَدُونَ فَسَيَعْلَمُونَ مَنْ أَضْعَفُ نَاصِرًا وَأَقَلُّ عَدَدًا﴾﴿قُلْ إِنْ أَدْرِي أَقَرِيبٌ مَّا تُوعَدُونَ أَمْ يَجْعَلُ لَهُ رَبِّي أَمَدًا﴾

**“(Onlar qəflət və təkəbbür içindədirlər) Hədələnərkən vəd olunan şeyi görənədək! Biləcəklər ki, kimin yardımçıları daha zəifdir, daha azsaylıdır. De ki, vəd edilənin yaxında olduğunu və ya Rəbbimin onu həyata keçirmək üçün vaxt təyin etdiyini bilmirəm.”**

**Nöqtələr**

◘Bəziləri mallarının və övladlarının çoxluğu ilə qürrələnirlər.[2] Ona görə də Quran buyurur ki, var-dövlətin və ailə-övladın faydasız olduğunu qiyamətdə anlayacaqlar.

◘Qiyamətin vaxtının bilinməməsi bir tərəfdən daimi hazırlıq üçün, digər bir tərəfdən üzüntü yaşanmaması üçün faydalıdır.

**Bildirişlər**

1. Zaman ötdükcə məsələlər aydınlaşır.
2. Sonda təkəbbür əhlinin başı daşa dəyəsidir.
3. Qiyamət günü insan zəifliyinin zühur günüdür.
4. Allahın iradəsi olmasa peyğəmbər də gələcəkdən xəbərsiz qalar.
5. Bilmirəm demək eyb deyil.

***Ayə 26, 27, 28:***

[1] “Kəhf”, 110; “Əhqaf”, 9; “Ənam”, 50
[2] “Səba”, 35

﴿عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا﴾﴿إِلَّا مَنِ ارْتَضَى مِن رَّسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا﴾﴿لِيَعْلَمَ أَن قَدْ أَبْلَغُوا رِسَالَاتِ رَبِّهِمْ وَأَحَاطَ بِمَا لَدَيْهِمْ وَأَحْصَى كُلَّ شَيْءٍ عَدَدًا﴾

**“O xeyiri bilir və kimsəni öz qeybindən xəbərdar etmir. Yalnız razı olduğu peyğəmbər istisnadır. Sonra öndən və arxadan nəzarətçilər göndərir ki, Rəbblərinin göstərişlərini çatdırıb-çatdırmadıqlarını bilsin. Allah onların yanında baş verənlərdən xəbərdardır və hər şeyi bir-bir saymışdır.”**

**Nöqtələr**

◘Müdiriyyətdə məsulları məlumatlandırmaq, qorumaq və onlara nıəzarət etmək lazımdır.

***Qeyb elmi***

Allahdan başqa qeyb elmini bilən varmı? Əgər bilən varsa nə həddə bilir? Kimlər bilir? Onlar Allahın istəyi ilə bilir, yoxsa bilavasitə? Onların biliyi daimidir, yoxsa bir anlıq? Onlar qismən bilir, yoxsa tamamilə? Onlar bu biliyi özləri qazanmışlar, yoxsa onlara əta olunmuşdur? Bəli, bu qəbil suallar çoxdur. Uyğun mövzu ilə bağlı vaxtı ilə apardığım araşdırmaların nəticəsini təqdim edirəm:

Birinci prinsip: Allahdan savayı kimsə vasitəsiz olaraq qeyb elmindən xəbərdar deyil. Çünki qeyb elminin açarı yalnız Ona məxsusdur.[1] Başqaları qeyb elmindən qismən xəbərdardır.[2]

Quranda bildirilir ki, həzrət İsa insanlara üz tutub buyurdu: “Mən sizə evlərinizdə olandan, yeyəcəklərinizdən xəbər verərəm.[3] Bəli, başqaları yalnız Allahın izni ilə qeyb elmindən xəbər tutur.[4]

İkinci prinsip: “Cin” surəsinin 26-cı surəsində buyurulur ki, Allah yalnız razı qaldığı peyğəmbər kimi şəxslərə qeyb elmindən xəbər verər. “Ali-İmran” surəsinin 174-cü ayəsində kimsənin yox, yalnız peyğəmbərlərin qeyb elmindən xəbərdarlığı vurğulanır.

Bəli, özünü qeyb elmindən xəbərdar kimi göstərən və əslində mənəviyyatla heç bir əlaqəsi olmayan kahinlərin, cadugərlərin, fala baxanların hesabı ayrıdır və onlar yalnız. Zənn-güman, ehtimallar əsasında danışırlar.

Üçüncü prinsip: Allahın övliyaları yanız Allahın izni ilə qeyb elmindən istifadə edirlər. Onlar şəxsi problemlərinin həlli üçün bu bilikləri işə salmırlar. Necə ki, İslam peyğəmbəri adi həyatda qeyb elminə müraciət edmirdi.

Əgər Allahın övliyaları şəxsi məqsədlər üçün möcüzə və qeyb elmindən istifadə etsəydilər, xalqa nümunə ola bilməzdilər. Əgər imam Hüseyn (ə) möcüzə və dua ilə susuzluq problemini həll etsəydi, bu imkana malik olmayanlara imam seçilə bilməzdi.

Dini rəhbərlərin müvəffəqiyyət səbəblərindən biri olnarın çətinliklərə dözümüdür. Onlar müxtəlif çətinliklərə, o cümlədən müharibələrə, yoxsulluğa, xəstəliyə, ayrılığa

[1] “Ənam”, 59
[2] “Hud”, 49
[3] “Ali-İmran”, 49
[4] “Bəqərə”, 255

məruz qalmışlar. Onların səbr və dözümü, zöhd və təqvası məhz belə məqamlarda özünü göstərir.

Dördüncü prinsip: Qeyb iki növdür: Yalnız Allaha məxsus olan və peyğəmbərlərə, mələklərə və məsum imamlara verilən.[1]

Qeyb elminin Allaha məxsus olduğunu vurğulayan ayədə birinci növ qeyb elmi, başqalarının da qeyb elmini bildiyini deyən ayədə isə ikinci növ qeyb elmi nəzərdə tutulur. Duada Allahı yalnız Ona məxsus olan qeyb elminə and veririk. Allah varlıq aləmindəki gedişatları dəyişə bilər. Bu səbəbdən də övliyalar gələcəkdən xəbər tutmağa acizdirlər. İmam Səccad (ə) buyurur ki, əgər Quranda bircə ayə olmasaydı sizə qiyamətədək baş verəcək bütün hadisələri xəbər verərdim. Ondan bu ayənin hansı ayə olduğunu soruşurlar. İmam buyurur: "Allah istədiyini məhv edər, istədiyini sabit saxlayar. Ümmül-kitab Allahın ixtiyarındadır."[2]

Altıncı prinsip: Kamillik bəzən qeybi bilməkdə, bəzən qeybdən xəbərsizlikdə olur. Məsələn, həzrət Əli (ə) Peyğəmbərin (s) yerində yatdığı gecə düşmənin onu öldürüb-öldürməyəcəyini bilmirdi. Əgər bilsəydi ki onu öldürməyəcəklər, onun yerində yatması fəzilət sayılmazdı. Dini rəhbərlər buyururlar ki, bəzən pərdələr çəkilir və işlərdən xəbər tuturuq, bəzən də pərdələr bağlı qalır.[3]

Bəli, qeyb elmi Allahın əlindədir. Allah Peyğəmbərə (s) buyurur ki, qiyamət haqqında soruşanlara "bilmirəm" söyləsin.[4]

### Bildirişlər

1. Varlıq aləmi təkcə gözlə görünənlərdən ibarət deyil, bir çox işlər müşahidə olunmur.
2. Falçılar, kahinlər yalançıdırlar və onların qeyb elmindən xəbərləri yoxdur.
3. Kimsə nəzarətdən ehtiyacsız deyil.
4. Allahın vəhyi mələklər vasitəsi ilə qorunur.
5. Peyğəmbər vəhyin qəbulu və bəyanında xətaya yol vermir.
6. Allah mələklər vasitəsi ilə hifz edir.
7. Allahın elmi xülasə yox, kamildir.

---

[1] "Kafi", c. 1, s. 255
[2] "Rəd", 39; "Təfsiri-əl mizan"
[3] "Kafi", c. 1, s. 256
[4] "Tövbə", 101; "Cin", 25

# “MUZƏMMİL” SURƏSİ

***(73-CÜ SURƏ; 20 AYƏ)***

***İYİRMİ DOQQUZUNCU CÜZ***

***“MUZZƏMMİL” SURƏSİNİN SİMASI***

Bu surə 20 ayədən ibarətdir, Məkkədə nazil olmuşdur. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Muzzəmmil” dedikdə “kilimə bürünmüş” mənası başa düşülür.

Surədə İslam peyğəmbəri (s) gecə ibadətinə və Quran tilavətinə çağırılır. Bu surədə məaddan, həzrət Musanın azğın Fironun sorağına göndərilməsindən danışılır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿يَا أَيُّهَا الْمُزَّمِّلُ﴾﴿قُمِ اللَّيْلَ إِلَّا قَلِيلًا﴾﴿نِصْفَهُ أَوِ انقُصْ مِنْهُ قَلِيلًا﴾﴿أَوْ زِدْ عَلَيْهِ وَرَتِّلِ الْقُرْآنَ تَرْتِيلًا﴾﴿إِنَّا سَنُلْقِي عَلَيْكَ قَوْلًا ثَقِيلًا﴾**

**“Ey libasına bürünmüş; azcası istisna olmaqla gecəni ayağa qalx; onun yarısını, ya yarısından bir qədər az; ya bir qədər çox, aram və diqqətlə Quran oxu; həqiqətən, biz sənə ağır və dəyərli bir buyuruq vəhy edəcəyik.”**

**Nöqtələr**

◘”Muzəmmil” dedikdə libasına bürünmüş şəxs nəzərdə tutulur. Bəziləri libas sözünün peyğəmbərliyə işarə olduğunu bildirir. Bəziləri isə bu müraciətin peyğəmbərliklə guşənişinliyin bir araya sığmadığını qey edir. Peyğəmbərliyin istirahətlə uyğun olmamasının nəzərə çatdırıldığını deyənlər də var.

◘Quranın aram və düzgün oxunması “tərtil” adlanır.

◘Həzrət Əli (ə) buyurur: “Quranın kəlmələrini kamil şəkildə izhar et, onu şer kimi oxuma, sözləri bir-birindən ayırma. Quran oxumaqla qəlblərinizi riqqətə gətirin, məqsədiniz surəni başa vurmaq olmasın.”[1]

◘İmam Sadiq (ə) buyurur: “Tərtil odur ki, Quran oxunuşunda behişt ayələrinə çatarkən Allahdan behişt istəyəsiniz, cəhənnəm ayələrinə çatarkən Allaha pənah aparasınız.” Həzrət digər bir rəvayətdə buyurur: “Tərtil Quranın gözəl səslə oxunmasıdır.”[2]

◘Mərhum Teyyib “Ətyəbul-bəyan” təfsirində qeyd edir ki, “qəvlən səqila” dedikdə Əli ibn Əbu-Talibin xilafətinin bəyanına işarə olunur və burada Quran nəzərdə tutulmayıb. Yəni Quran oxu, gələcəkdə sənə ağır və dəyərli bir söz deyiləcək.

---

[1] “Kafi”, c. 2, s. 614

[2] “Təfsiri-nurus-səqəleyn”

◘Quran ağır bir buyuruqdur. Əgər o dağa nazil olsaydı dağ parça-parça olardı.[1] Vəhyin qəbulu və Quranın cəmiyyətdə tətbiqi yetərincə ağır işdir.

◘Həzrət Musa 40 gün Tur dağında Allahla minacata məşğul olsa da, Allah yalnız gecələri qeyd edir.[2] Olsun ki, bunun minacat üçün gecənin daha münasib olmasıdır.

## Bildirişlər

1. İslam cəmiyyətinin rəhbəri istirahətə az vaxt sərf etməlidir.
2. İbadət üçün ən yaxşı vaxt gecədir.
3. Gecə namazı Allah tərəfindən təkidlə vurğulanır.
4. Gecə ibadəti İslam peyğəmbəri (s) üçün vacib idi.[3]
5. Ağır məsuliyyətlərin qəbulu üçün ruhi hazırlıq lazımdır.
6. Dini rəhbərlər gecələr ibadət, gündüzlər xalqı oyatmaq üçün hərəkətdə olmalıdır.[4]
7. Gecə oyaq qalmaq üçün məhdudiyyət yoxdur. Gecənin yarısını, üçdə birini, üçdə ikisini oyaq qalmaq olar. İbadət məsələlərində xalq üçün sıxıntı yaratmamalıyıq. Hər xəstənin öz dərmanı var.
8. İbadətin yorucu olmaması üçün gecənin bir hissəsini istirahət etmək lazımdır.
9. Gecələr namaz qılmaq və Quran oxumaq ruhi hazırlıq əldə etmək üçün ən üstün vasitədir.
10. Quran tilavətinin öz qaydaları var və bunlardan biri də tərtildir.
11. Quranın hər hissəinin tilavəti o biri hissəsi üçün müqəddimədir.
12. Müdiriyyətdə şəraiti fərqləndirin. Rəhbər ağır işləri öncədən müəyyənləşdirməlidir.

***Ayə 6, 7, 8. 9:***

﴿إِنَّ نَاشِئَةَ اللَّيْلِ هِيَ أَشَدُّ وَطْءًا وَأَقْوَمُ قِيلًا﴾﴿إِنَّ لَكَ فِي اَلنَّهَارِ سَبْحًا طَوِيلًا﴾﴿وَاذْكُرِ اسْمَ رَبِّكَ وَتَبَتَّلْ إِلَيْهِ تَبْتِيلًا﴾﴿رَبُّ الْمَشْرِقِ وَالْمَغْرِبِ لَا إِلَهَ إِلَّا هُوَ فَاتَّخِذْهُ وَكِيلًا﴾

**“Həqiqətən, gecə (ibadət üçün) ayağa qalxmaq daha davamlı, danışmaq daha əsaslıdır; həqiqətən, sən gündüzlər çox hərəkət edir, çalışırsan (ibadətə az vaxt qalır); Rəbbinin adını çək, yalnız ona doğru üz tut; o, şərq və qərbin Rəbbidir, Ondan savayı məbud yoxdur, Onu özünə vəkil seç!”**

## Nöqtələr

◘”Naşiətəl ləyl” dedikdə yuxudan oyanmaq nəzərdə tutulur. İmam Baqir (ə) və imam Sadiqdən nəql olunan rəvayətdə bildirilir ki, bu ifadə gecə namazı üçün oyanış mənasını ifadə edir.[5]

◘”Vətə” bir şeyi ayaq altına almaq mənasını bildirir. Hazırkı ayədə ibadət yolunda qədəm atmaq uyğun sözlə ifadə olunur. İmam Sadiq (ə) “əşəddu vətən” ifadəsi ilə bağlı buyurur: “Nəzərdə tutulan yalnız Allaha üz tutmaq məqsədi ilə yataqdan qalxmaqdır.”[6]

---

[1] “Həşr”, 21
[2] “Əraf”, 142
[3] “İsra”, 82
[4] “Muddəssir”, 2
[5] “Təfsiri-məcməül-bəyan”
[6] “Kafi”, c. 3, s. 446

◘”Təbəttəl” dedikdə nəfs istəklərindən uzaqlaşıb Allah barədə düşünmək nəzərdə tutulur. İmam Baqir (ə) buyurur: “Təbəttum” dedikdə namazda təkbir məqsədi ilə əlləri qaldırmaq nəzərdə tutulur.” İmam Sadiq (ə) isə uyğun sözün dua zamanı xüzu-xüşu halına işarə olduğunu bildirir.[1]

### *Rəvayətlərdə gecə namazı haqqında*

İslam Peyğəmbəri (s) buyurur: “Sizin ən üstünləriniz gözəl danışanlar, acları doyuranlar, hamı yuxuda olduğu vaxt gecə namazı qılanlardır.”[2]

Həzrət Peyğəmbər (s) Əli ibn Əbu-Talibə (ə) təkrar-təkrar gecə namazını tövsiyə edir.[3] İmam Sadiq (ə) buyurur: “Mömінin şərəfi gecə namazındadır.” İmam digər bir rəvayətdə buyurur: “Mömінin zinəti və iftixarı gecə namazıdır.”[4]

Bir şəxs həzrət Əliyhə (ə) dedi: “Mən gecə namazı qılmaq tövfiqindən (ilahi yardımından) məhrum olmuşam!” Həzrət buyurdu: “Günahların səni buxovlayıb.”[5]

Allah-taala həzrət Musaya xitabən buyurur: “Ey Musa, gecə vaxtı mənimlə danışmaq əvəzinə yatanlar məni sevdiyini yalan deyir.”[6]

Həzrət Peyğəmbər (s) buyurur: “Gecə yarı qılınan iki rəkət namaz mənim üçün dünya və onda olanlardan daha əzizdir.”[7] Rəvayətlərdə bildirilir ki, gecə namazı ruzini artırır, borcun ödənməsinə kömək olur, qəm-qüssəni aradan qaldırır, gözə işıq verir.[8]

Rəvayətlərdə bildirilir ki, gecə namazı gün uzunu yol verilən günahların bağışlanmasına səbəb olur.[9]

Allah-taala Quranda bəzi əməllərin mükafatını qeyd etmişdir. Amma gecə namazı haqqında buyurur ki, gecə namazı müqabilində nə veriləcəyini kimsə bilməz.[10]

### Bildirişlər

1. İbadətdə vaxt seçiminin təsiri var.
2. Bəzi feyzlər və bərəkətlər gecədən qaynaqlanır.
3. Gecənin qaranlığı ibadət üçün ən münasib vaxtdır. Həmin vaxt riyaya şərait olmur, insan daha səmimi ibadət edir.
4. Gün uzunu ibadətlərin insan ruhuna təsiri var.
5. Gecə namazı sabitqədəmlik amilidir və əqidəni gücləndirir.
6. Peyğəmbər də Allahın zikri və duaya ehtiyaclı idi.
7. Gün uzunu qazanılası müvəffəqiyyətlər gecə ibadətlərindən güc alır.
8. Allahın rübubiyyəti tələb edir ki, daim Onu yada salaq.
9. Din və dünya bir-birindən ayrı deyli. Dünya üçün çalışarkən Allahı xatırlamaq lazımdır.

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Biharul-ənvar”, c. 87, s. 142
[3] “Vəsailuş-şiə”, c. 5, s. 268
[4] “Biharul-ənvar”, c. 87, s. 140
[5] “Biharul-ənvar”, c. 80, s. 128
[6] “Elamud-dini-Deyləmi”, s. 263
[7] “İləluş-şəraye”, s. 363
[8] “Səfinətul-bihar”, c. 2, s. 46
[9] “Füre-kafi”, c. 3, s. 366
[10] “Səcdə”, 17

10. Kamillik üçün çalışarkən onun ən üstün dərəcəsini nəzərdə saxlayın.

11. Gecə ibadəti və gündüz zikr Allaha doğru hərəkətin müqəddiməsidir.

12. Allahın şərq və qərbə müdiriyyəti Onun yeganəliyinə dəlildir və Ona təvəkkülün zəruriliyini göstərir.

***Ayə 10, 11, 12, 13, 14:***

**﴿وَاصْبِرْ عَلَى مَا يَقُولُونَ وَاهْجُرْهُمْ هَجْرًا جَمِيلًا﴾﴿وَذَرْنِي وَالْمُكَذِّبِينَ أُولِي النَّعْمَةِ وَمَهِّلْهُمْ قَلِيلًا﴾﴿إِنَّ لَدَيْنَا أَنكَالًا وَجَحِيمًا﴾﴿وَطَعَامًا ذَا غُصَّةٍ وَعَذَابًا أَلِيمًا﴾﴿يَوْمَ تَرْجُفُ الْأَرْضُ وَالْجِبَالُ وَكَانَتِ الْجِبَالُ كَثِيبًا مَّهِيلًا﴾**

**“Dediklərinə səbr et və onlardan yaxşı şəkildə uzaqlaş; məni imkanlı və rifah içində yaşayan inkarçılarla tək burax, onlara azca möhlət ver; həqiqətən, buxovlar və şöləlvalən od bizim ixtiyarımızdadır; xılxalayan və ağrılı əzab; bir gün torpaq və dağlar lərzəyə gələr, dağlar rəvan qum təpələri şəklinə düşər.”**

### Nöqtələr

◘”Həcr” və “hicran” sözləri digərindən ayrılmaq və kənara çəkilmək mənasını bildirir.

◘”Nimət” Allahın insana əta etdiyi şey mənasını bildirir. “Nəmət” isə kama çatmaq, eyş-işrət mənasındadır.

◘”Nikəl” sözünün cəm forması olan “ənkal” sözü imkan mənasını ifadə edir. “Nəku” etmək isə borcu ödəməkdə, iş görməkdə acizlik mənasını bildirir. İnsanı hərəkətdən saxlayan buxov və zəncir “ənkal” adlanır. Rəvayətdə deyilir ki, diş ağrısı həzrət Əlini (ə) taqətdən salmışdı. Həzrət Allaha belə ərz etdi: “Pərvərdigara, kiçik bir sümük bu qədər ağrılıdırsa, axirət əzabı necədir?! Sonra həzrət hazırkı ayəni oxudu.[1]

◘”Kəsib” qum təpəsi, “məhil” rəvan qum mənasını bildirir.

◘Müxaliflərdən uzaqlıq məqsəddən əl çəkmək deyil. Düşmənə arxa çevirmək növbəti təbliğ mərhələləri üçün bir növ taktikadır.[2]

◘Ayədəki hədələr müşriklərin savaşda məğlubiyyəti və ya axirət əzabına işarə ola bilər.

### Bildirişlər

1. Allah zikri başqalarından əl çəkib Allaha təvəkkül etmək çətinliklər qarşısında səbr üçün zəmindir.

2. Səbr və qəlbigenişlik rəhbərin mühüm səciyyələrindəndir.

3. Rəhbər istənilən bir acı söz və itdihama hazır olmalıdır.

4. İslam rəhbəri bəzən hansısa qrupları və fərdləri baykot etməli, onlardan uzaqlaşmalıdır.

5. Öncə səbr etmək, sonra kənara çəkilmək lazımdır. Kənara çəkilməzdən öncə səbr gəlir.

6. Allahı vəkil seçənlər başqalarından rahatlıqla uzaqlaşa bilər.

7. Müxaliflərdən gözəl şəkildə, rəhbərin şəninə uyğun surətdə ayrılmaq lazımdır.

---

[1] “Təfsiri-kənzul-dəqaiq”

[2] “Nisa”, 63

8. Allahı vəkil seçən ərzə-hədyan danışanları Allaha tapşırır.

9. Allah Öz Peyğəmbərinə (s) hədyan danışan düşmənlər müqabilində təsəlli verir.

10. İnsanın səbrini artıran Allahın dərhal himayələridir.

11. Təkzibçilər adətən rifah içində yaşayanlardan olur.

12. Əgər var-dövlət sahiblərinə müqavimət göstərmək gücünüz yoxsa nigaran olmayın, Allah bu işə qadirdir.

13. Müxaliflərə möhlət vermək Allahın sünnəsidir.

14. Təkzibçilərin xoş günü uzun çəkmir, onlara dünyada az fürsət verilib.

15. Allah kafirlərə möhlət vermişsə bu onun razılığını göstərmir.

16. Kafirləri ötəri rifah qürrələndirməsin, onları buxov və zəncirlər, şölələnmiş od və xılxalayan əzab gözləyir.

17. Ləzzətli, amma haram qidaları axirətdə boğazları tıxaclayan təamlarla sonuclanır.

18. Dünya rifahının ağrılı əzaba çevrilməsi dağı Quma çevirən qüdrət üçün asandır.

19. Dağların narın qumlara dönməsi qiyamət zəlzələsinin şiddətini göstərir.

***Ayə 15, 16:***

**﴿إِنَّا أَرْسَلْنَا إِلَيْكُمْ رَسُولًا شَاهِدًا عَلَيْكُمْ كَمَا أَرْسَلْنَا إِلَى فِرْعَوْنَ رَسُولًا﴾﴿فَعَصَى فِرْعَوْنُ الرَّسُولَ فَأَخَذْنَاهُ أَخْذًا وَبِيلًا﴾**

**“Həqiqətən, biz əməllərinizə şahid olası peyğəmbəri sizə doğru göndərdik. Necə ki, Firona doğru peyğəmbər göndərmişdik. Amma Firon həmin peyğəmbərə itaətsizlik etdi, biz onu ağır əzabla yaxaladıq.”**

**Nöqtələr**

◘”Və bil” dedikdə ağrılı, ağır mənası anlaşılır.

◘Şəhadət insanın öz hiss üzvləri ilə bir şeyi eşitməsi və ya görməsini bildirir. Ayə və rəvayətlərə əsasən həzrət Peyğəmbər (s) və məsum imamlar əməllərimizə şahiddirlər.

◘Ayələrdə “rəsul” sözünün təkrarlanması göstərir ki, müxaliflər peyğəmbərlərlə yalnız onların peyğəmbərlik məqamına görə mübarizə aparmışlar. Ayələrdə “Firon” adı da təkrarlanır. Bu isə Allahın ən böyük güc sahibini də aciz qoymasını bildirir.

◘Quranın başqa iki ayəsində İslam peyğəmbəri (s) şahid adı ilə tanıtdırılır.[1]

◘Bütün peyğəmbərlər öz qövmlərinə məbus edilmişlər. Yalnız həzrət Musa belə Firona üz tutmalı olmuşdur. Bəli, zalım rejimdə tağutla, yəni azğın hakimlə mübarizə birinci pillədə dayanır.

**Bildirişlər**

1. Həzrət Peyğəmbər (s) ümmətinə şahiddir, onların bütün əməllərinə nəzarət edir.

2. Dünyada əməllərə şahid olan peyğəmbər axirətdə şəhadət verir.[2]

3. Risalət nəzarətlə müşayiət olunur. Peyğəmbər həm də nəzarətçidir.

4. Peyğəmbərlik fəlsəfəsi bütün dövrlər üçün eynidir.

5. Tarix ibrət güzgüsüdür, ondan ibrət götürün.

---

[1] “Əhzab”, 45; “Fəth”, 8

[2] “Nisa”, 41

6. Azğınlıqla mübarizədə onun qaynağına üz tutun.

7. İnsanları qorxudub, onlara müjdə verəndə nümunələr göstərin. (Allah kafirləri hədələyərkən onun aqibətini yada salır.)

8. Peyğəmbərin əmrlərinə itaətsizlik problem yaradır.

### *Ayə 17, 18, 19:*

﴿فَكَيْفَ تَتَّقُونَ إِن كَفَرْتُمْ يَوْمًا يَجْعَلُ الْوِلْدَانَ شِيبًا﴾﴿السَّمَآءُ مُنفَطِرٌ بِهِ كَانَ وَعْدُهُ
مَفْعُولًا﴾﴿إِنَّ هَذِهِ تَذْكِرَةٌ فَمَن شَاءَ اتَّخَذَ إِلَى رَبِّهِ سَبِيلًا﴾

**“Küfr etsəniz, özünüzü körpələri qocaldan gündən necə qoruyarsınız? Həmin gün səbəbindən səma parçalanar. Bəli, Allahın vədi yerinə yetəsidir. Həqiqətən, bu ayələrdə ibrət var. Hər kim istəyirsə Rəbbinə doğru yol tutsun.”**

### Nöqtələr

◘”Vildan” sözü yenicə doğulmuş uşaq mənasını bildirən “vəlid” sözünün cəm formasıdır. “Şib” sözü isə saç-saqqalı ağarmış pir mənasını bildirən “əşib” sözünün cəmidir. Beləcə, 17-ci ayə iki cür mənalandırıla bilər:

a) Qiyamət ağrısı bir həddədir ki, yeni doğulmuş uşaq qocalır;

b) Həmin gün o qədər uzundur ki, körpə yaşa dolur. Ayədəki “hazihi” (bu) əvəzliyi surənin əvvəlində qeyd olunmuş gecə nafilə namazına işarə ola bilər. Necə ki, “Dəhr” surəsinin 29-cu ayəsində səcdə və təsbih göstərişindən sonra buyurulur ki, gecə yarı ibadət Allaha doğru bir yoldur, istəyən bu yolu seçsin.

### Bildirişlər

1. Qiyamətdə kafirlər üçün cəhənnəmdən qurtuluş yolu yoxdur.

2. Dünyadakı qüdrət sahibləri elə dünyadaca Allahın əzabından qurtula bilmədilər. Beləlri axirətdə nə edəcək?!

3. Qəm-qüssə, acı hadisələr və nigarançılıqlar insanı qocaldır, onun saç-saqqalını ağardır.

4. Qiyamət hadisələri həm insana, həm də səmalara təsirlidir.

5. İnsan azad yaradılmış, ona seçim imkanı verilmişdir.

6. Qiyamət təhlükələrindən xəbərdarlıq insan üçün nəsihətdir.

7. Allahın rübubiyyəti onun yolunu seçməyimizi tələb edir.

### *Ayə 20:*

﴿إِنَّ رَبَّكَ يَعْلَمُ أَنَّكَ تَقُومُ أَدْنَى مِن ثُلُثَيِ اللَّيْلِ وَنِصْفَهُ وَثُلُثَهُ وَطَائِفَةٌ مِّنَ الَّذِينَ مَعَكَ
وَاللَّهُ يُقَدِّرُ اللَّيْلَ وَالنَّهَارَ عَلِمَ أَن لَّن تُحْصُوهُ فَتَابَ عَلَيْكُمْ فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ
عَلِمَ أَن سَيَكُونُ مِنكُم مَّرْضَى وَآخَرُونَ يَضْرِبُونَ فِي الْأَرْضِ يَبْتَغُونَ مِن فَضْلِ اللَّهِ
وَآخَرُونَ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنْهُ وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ
وَأَقْرِضُوا اللَّهَ قَرْضًا حَسَنًا وَمَا تُقَدِّمُوا لِأَنفُسِكُم مِّنْ خَيْرٍ تَجِدُوهُ عِندَ اللَّهِ هُوَ خَيْرًا وَأَعْظَمَ
أَجْرًا وَاسْتَغْفِرُوا اللَّهَ إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Həqiqətən, sənin Rəbbin bilir ki, sən və səninlə olanlardan bir dəstəsi gecənin üçdə ikisini, ya yarısını, ya da üçdə birini ibadətə durursunuz. Allah gecə və**

**gündüzü ölçüb müəyyənləşdirir. O bilir ki, siz gecəni dəqiq hesablaya bilməzsiniz. Buna görə də sizi bağışladı (gecənin dəqiq hesabını istəmədi). Bacardığınız qədər Qurandan oxuyun. Allah bilir ki, bəziləriniz xəstələnəcək, bəziləriniz Allahın fəzlindən ruzi diləmək üçün səfərə çıxacaq, bəziləriniz Allah yolunda cihada məşğul olacaq. (Buna görə də Quran tilavət edə bilməyəcək). Nə qədər bacarırsınızsa Quran oxuyun, namaz qılın, zəkat ödəyin, Allaha borc verin, gözəl bir borc! (Bilin ki) Özünüz üçün öncədən göndərdiyinizi Allahın yanında daha yaxşı, daha böyük mükafatla alacaqsınız. Allahdan bağışlanma diləyin. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## Nöqtələr

◘Ayədə buyurulur ki, gecə namazı, Quran tilavəti, məhrumlara yardım kimi xeyir işlərlə öyünməyin, yenə də tövbə qılın.

◘Bu ayə gecələr göz yaşından tutmuş gündüzlər cihadadək İslamın əhatə dairəsini göstərir. Allahla rabitədən yoxsullara yardımadək, Quran tilavətindən ticarət səfərlərinədək təlaşlar bu dairəyə daxildir.

◘Ötən ayələrdə buyuruldu ki, gecənin yarısını, ya üçdə birini, ya da üçdə ikisini ibadətə məşğul olun. Bu ayədə isə gecə ibadətləri ilə bağlı hesab aparmağın çətinliyi bildirilir və insan həmin hesabatdan azad olunur. Allah insanı bağışlayır, ondan bacardığı qədər ibadət istəyir. Xüsusi ilə xəstələr və səfərə çıxanlar üzürlü sayılır.

◘İmam Riza (ə) hazırkı ayənin təfsiri ilə bağlı peyğəmbərdən belə nəql edir: “Nə qədər ki xüşulusunuz və qəlbinizdə səfa var Quran oxuyun.”[1]

◘Bu ayədə ticarət məqsədi ilə səfər cihadla yanaşı zikr olunur. Hansı ki birinci iş dünyəvi, ikinci isə üxrəvidir. Rəvayətlərə əsasən əgər tacir öz işində Allahı yadda saxlasa, əskik və baha satmasa, möhtəkirliyə yol verməsə Allah yolunda vuruşan mücahid kimidir.[2]

◘Quran tilavəti vacib olmasa da, çox tövsiyə edilir. Belə ki, bir ayədə iki dəfə Quran tilavət etmək tapşırılır.

◘İslam hökmləri insanların hökmlərinə uyğundur. Kimsə gücündən artıq yüklənməyib. Xəstə dəstəmaz əvəzinə təyəmmüm edir, oruc tutmur. İlahi göstərişlərin uyğun səciyyələrini açıqlayan bəzi ayələri nəzərdən keçirək: Allah imkanınızın çatmayacağını bilib bunu sizə bağışladı; Bacardığınız qədər Quran oxuyun; Sizin üçün yüngülləşdirildi[3]; Gücünüz çatdığı qədər qüvvə toplayın[4]; İmkanı çatan Həccə getsin[5]; Allah kimsəni gücündən artıq yükləməmişdir[6]; Allah yalnız əta etdiyi qədər istəyir[7]; Xəstələnən və ya səfərdə olan ramazan ayında oruc tutmasın[8]; Su tapmasanız təyəmmüm edin[9]; Allah sizin üçün asanlıq istəyir[1]; Kor və xəstə cihadda iştirak etməyə borclu deyil.[2] deyil.[2]

---

[1] “Təfsiri-məcməul-bəyan”
[2] “Təfsiri-dürrül-Mənsur”
[3] “Ənfal”, 66
[4] “Ənfal”, 60
[5] “Ali-İmran”, 97
[6] “Bəqərə”, 286
[7] “Təlaq”, 7
[8] “Bəqərə”, 184
[9] “Nisa”, 43

## Bildirişlər

1. Allahın öz bəndələrinin əməllərindən xəbərdarlığı onları yaxşılığa sövq edən təsirli amildir.

2. Gecə ibadətinin ən böyük bərəkəti yalnız Allaha məlumdur.

3. Peyğəmbər Allahın əmri əsasında hərəkət edir.

4. Allah gecə ibadətinin miqdarını insanın ixtiyarında qoymuşdur ki, hər adam bu ibadətdən faydalana bilsin. Hər kəs gücü həddində gecə ibadəti edə bilər.

5. Gecə ibadəti Peyğəmbər (s) səhabələrinin səciyyələrindən olub.

6. Gecə ibadətində namaz və Quran tilavəti daha üstündür.

7. Allahın qoyduğu vəzifələr asandır, insan üçün çətinlik yaradılmayıb.

8. İnsan istənilən bir şəraitdə Quranla rabitə saxlamalı, hətta xəstə olarkən, səfər və cihadda Quran tilavət etməlidir.

9. Halal mal qazanmaq Allahın fəzlidir. İnsan təlaş göstərib maddi ehtiyaclarını ödəsə də, bütün bu nemətlər Allahın lütf və fəzlidir.

11. Cihadla yanaşı ticarət səfərlərinin yada salınması iqtisadiyyatın əhəmiyyətini göstərir.

12. İnsan gözəl şəkildə borc verməli, minnət qoymamalıdır.

13. Gecə ibadətləri, Quran tilavəti, namaz, zəkat və gözəl borc vermək xeyir iş nümunələrindəndir.

14. Ölüm qapınızı döyənədək xeyir iş azuqəsi toplayın. Bunun üçün çalışın, bu məqsədlə vəsiyyət edin.

15. Xeyir işlər axirət azuqəsidir.

16. Xeyir işlər Allahın yanında qeydə alınır, heç vaxt yaddan çıxmır.

17. Allahın mükafatları istənilən halda qat-qat artıqdır.

18. Kimsə özünü nöqsansız bilməməlidir. Bütün vəzifələri icra etsək də istiğfarı yaddan çıxarmamalıyıq.

19. Allah istiğfar, tövbə əhlini bağışlayacağını vəd edir.

20. Allah mehribanlıqla əfv edir.

---

[1] "Bəqərə", 185
[2] "Fəth", 17

# “MUDDƏSSİR” SURƏSİ

### *(74-CÜ SURƏ; 56 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“MUDDƏSSİR” SURƏSİNİN SİMASI*

Qurani-məcidin bu surəsi Məkkədə nazil olmuşdur və 56 ayədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Muddəssir” sözü “ridasına bürünmüş” mənasını bildirir.

Surədə əziz Peyğəmbər (s) aşkar dəvət və səbrə çağırılır, cəhənnəm və cəhənnəm əhlinin sifətlərindən danışılır, hər bir insanın taleyinin onun əməllərindən asılı olduğu bildirilir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7:***

**﴿يَا أَيُّهَا الْمُدَّثِّرُ﴾﴿قُمْ فَأَنذِرْ﴾﴿وَرَبَّكَ فَكَبِّرْ﴾﴿وَثِيَابَكَ فَطَهِّرْ﴾﴿وَالرُّجْزَ فَاهْجُرْ﴾﴿وَلَا تَمْنُن تَسْتَكْثِرُ﴾﴿وَلِرَبِّكَ فَاصْبِرْ﴾**

**“Ey üstünə rida çəkmiş! Ayağa qalx, xəbərdarlıq et; Rəbbini uca tut; libasını pak saxla; çirkinlikdən uzaq ol; (bağışlayanda) minnət qoyma; işlərini böyük sayma; Rəbbinə xatir səbr et.”**

### Nöqtələr

◘Qurani-kərimdə “qum” (“qalx”) sözü iki dəfə işlədilmişdir və hər dəfə bu əmr Peyğəmbərə (s) ünvanlanır. Bir dəfə gecə namazı, başqa bir dəfə cəmiyyətin tərbiyəsi üçün ayağa qalxmaq əmr olunur.

◘”Disar” sözündən olan “muddəssir” sözü o biri libasların üzərindən geyilən uzun libas mənasını bildirir. Bəzən də yatarkən belə bir libas geyirlər. (Alt libas isə “şiar” adlanır)

◘”Kəbbir” (“uca tut”) əmri azan və iqamənin təkbirlərində, təkbirətul-ehramda, təsbihati-ərbəədə nəzərə alınmalıdır.

◘İmam Sadiq (ə) buyurur: “Libası pak saxlamaq dedikdə onun qısaldılması nəzərdə tutulur. Cahiliyyət dövründə varlılar bir ucu yerlə sürünən libas geyirdilər. Onlar adam tuturdular ki, libasın arxa hissəsini əllərində gəzdirsinlər.”

◘İmam Kazim (ə) buyurur: “Siyabəkə fətəhyir” dedikdə libasın yerə toxunub bulanmasının qarşısını almaq üçün onu yuxarı qaldırmaq nəzərdə tutulur.”[1]

◘”Rucz” sözü “rics” sözünün sinonimi olub çirkinlik mənası bildirir. Günahın, şirkin, bütpərəstliyin, əzabın, pis əxlaqın çirkinliyi bu sözlə ifadə olunur.

---

[1] “Kafi”, c. 6, s. 455

◘Hədisdə oxuyuruq ki, bir şey verəndə daha artıq qaytarılacağını gözləmə. Başqa bir hədisdə Allah yolunda görülən işin böyük sayılmaması tapşırılır.[1]

◘Ötən surədə gecə ibadətləri ilə bağlı açıqlama verildi. Buy surədə gün uzunu insanlarla rabitədən danışlır.

◘"Əllahu əkbər" zikri "və rəbbəkə fəkəbbir" əmrinin aydın nümunəsidir.

◘Allahı böyük tutmaq dedikdə başqalarının kiçik sayılması nəzərdə tutulur. Təyyarə nə qədər yuxarı qalxırsa, yer o qədər kiçilir. Kim Allahı böyük sayırsa, dünya onun nəzərində kiçikdir və o heç bir zorludan qorxmur. (İmam Rahil "Əllahu əkbərə" qəlbən inandığından "Amerika heç bir qələt edə bilməz" söyləyirdi) Bu sifət "Nəhcül-bəlağənin" "həmmam" xütbəsində müttəqilərin səciyyəsi kimi qeyd olunur.

◘Allahın böyüklüyü mütləqdir. Allah bütün görünənlərdən, eşidilənlərdən, yazılanlardan, düşünülənlərdən, vəsf edilənlərdən daha böyük və daha üstündür.

◘Tərbiyə və xəbərdarlıqda bir neçə faydalı nöqtə var: zahiri paklıq, mənəvi paklıq, əməldə ixlas, səbr və təlaş.

## Bildirişlər

1. Peyğəmbərin bütün ruhiyyələri diqqətə layiqdir və Allahın xüsusi lütfüdür.
2. Xalqın qurtuluşu üçün rəhbər hərəkət etməli, rahatlığı bir kənara qoymalıdır.
3. Peyğəmbərlər xəbərdarlıqla yanaşı müjdə versələr də, qəfləti aradan qaldırmaq üçün daha çox xəbərdarlığa ehtiyac var.
4. İnsan üçün bir sıra təhlükələr var. Peyğəmbərlər bəşəriyyəti müxtəlif dünyəvi və üxrəvi təhlükələrdən xəbərdar etməlidirlər.
5. İlahi əmrləri yerinə yetirmək üçün bütün vücudunuzla çalışın.
6. Peyğəmbərlər öz istəkləri ilə yox, Allahın vəhyi əsasında qiyam qaldırır.
7. Allahı həm qəlbimizdə, həm də dilimizdə böyük tutaq.
8. Allahı böyük sayan düşmənin hiylələrini, tədbirlərini səmərəsiz bilir.
9. Böyüklük başqalarının yox, Allahın sifətidir.
10. Rəhbərin sözünün təsirli olması üçün o istənilən bir nöqsandan uzaq olmalıdır.
11. Tövhid və təkbirlə yanaşı paklıq dinin paklığa verdiyi əhəmiyyəti göstərir.
12. Təkcə bədənin yox, həm də libasın paklığı İslamın diqqət mərkəzindədir.
13. İslam cəmiyyətinin rəhbəri nümunə olsun deyə bütün çirkinliklərdən paklanmalıdır.
14. İnsan cəmiyyətin islahına başlamazdan öncə özünü islah etməlidir. Özünü paklamayan cəmiyyəti paklaya bilməz.
15. Nə ibadət və infaqlarımızla Allaha minnət qoyaq, nə əməllərimizi hesablayaq, nə də Allahın məxluqunu borclu bilək.
16. Minnət qoymaq, infaq və bəxşişlərə göz dikmək ruhun çirkinliyini göstərir.
17. Minnət qoymaqdan və görülən işləri böyük saymaqdan uzaqlıq dini rəhbər və təbliğatçıların müvəffəqiyyət şərtlərindəndir.
18. Dini rəhbər xalqdan bir şey ummamalıdır.
19. Möhkəmlik və səbr Allaha xatir olduqda dəyərlidir. İlahi məqsəd yoxsa, mövqedə möhkəm dayanmaq inadkarlıqdan başqa bir şey deyil.
20. Səbr təkamül vasitəsidir.

[1] "Təfsiri-nurus-səqleyn"

21. Günah qarşısında səbr lazımdırsa da, xalqın doğru yola hidayətində xüsusi səbrə ehtiyac var.

22. İslam cəmiyyəti rəhbərinin müqaviməti böyük olmalıdır. O böhtanlara və əziyyətlərə, təbliğ və ibadət çətinliklərinə səbr etməlidir.

23. Xalqın doğru yola dəvəti üçün böyük iradə və əzmə ehtiyac var.

***Ayə 8, 9, 10, 11, 12, 13, 14:***

**﴿فَإِذَا نُقِرَ فِي النَّاقُورِ﴾﴿فَذَلِكَ يَوْمَئِذٍ يَوْمٌ عَسِيرٌ﴾﴿عَلَى الْكَافِرِينَ غَيْرُ يَسِيرٍ﴾﴿ذَرْنِي وَمَنْ خَلَقْتُ وَحِيدًا﴾﴿وَجَعَلْتُ لَهُ مَالًا مَّمْدُودًا﴾﴿وَبَنِينَ شُهُودًا﴾﴿وَمَهَّدتُّ لَهُ تَمْهِيدًا﴾**

**“O zaman ki sur üfürülər; həmin gün ağır bir gündür; kafirlərə asan deyil; məni təklikdə yaratdığımla tənha burax; ona bol və artan mal verdim; yanında hazır dayanmış övladlar (verdim); onun üçün kam alacağı şeyləri tam hazırladım.”**

## Nöqtələr

◘”Naqur” dedikdə təbil və ya şeypur kimi səsi olan alətlər nəzərdə tutulur. Hazırkı ayədə sur üfürülməsinə işarə olunur. Quşun dimdiyi “minqar” adlanır. Quş dimdiyi ilə döyəcliyib dəlik açır. Şeypur da qulaqları döyəclədiyindən belə adlandırılmışdır.

◘Quranda iki sur üfürülməsinə işarə olunur: hamını öldürəcək sur səsi və hamını dirildəcək sur səsi.

◘Məscidül-Həramın yaxınlığında “darun nudvə” adlı bir mərkəz vardı. Müşriklər məşvərət üçün oraya toplanardılar. Vəlid ibn Müğiyrə öz fəallığı və düşüncəsi ilə seçilirdi. Bir dəfə o dedi: “Gəlin Məhəmmədlə mübarizə üçün sözü bir yerə qoyaq və Kəbə ziyarətçilərinə Məhəmməd haqqında eyni söz söyləyək.” Bir nəfər dedi: “Deyək Məhəmməd şairdir.” Başqa biri təklif etdi ki, Peyğəmbəri (s) kahin adlandırsınlar. Üçüncü bir şəxs onu divanəlikdə suçlamağı tövsiyə etdi. Vəlid üzünü turşudub dedi: “Bir çox sözlər eşitmişik. Onun sözləri şerə bənzəmir. Onda dəlilikdən də əsər-əlamət yoxdur. Sözləri kahinlərin sözündən fərqlənir.” Nəhayət qərara gəldilər ki, Peyğəmbəri (s) sehrdə suçlasınlar. Desinlər ki, o sehr edir, ailələri dağıdır, hətta ona iman gətirən ailə üzvü o birilərinə düşmən olur.

Allah-taala hazırkı ayələrdə Vəlid haqqında buyurur ki, onu mən yaratmışam, ona mən var-dövlət və övlad vermişəm və o bütün bunlardan sui-istifadə edir. Ölüm olsun ona!

◘”Xələqtu vəhila” ifadəsindəki “vəhila” sözü iki cür mənalandırıla bilər: məxluq sifəti kimi və xaliq sifəti kimi. Birinci halda tənhalıq bəndənin zəiflik mənasına ikinci halda tənhalıq Allahın yeganəliyinə işarə ola bilər.

## Bildirişlər

1. Dəhşətli və əzəmətli bir səslə bu dünya həyatına son qoyular və başqa bir həyat başlayar.

2. Qiyamət çox ağır bir hadisədir. Əgər vaxt ötdükcə başqa hadisələr adiləşirsə, qiyamət hadisəsi ağır olaraq qalır.

3. Allah “düşməni mənə tapşır” deyə Peyğəmbərinə (s) təsəlli verir.

4. Həm yaranış, həm də həyatın davamı Allahın əlindədir.

5. Əlimizdəki var-dövlət, ətrafımızdakı övladlar bizi qürrələndirməsin. Unutmayaq ki, bir gün tək-tənha gəlmişik, bir gün də tək-tənha gedəsiyik.

6. Bəşəriyyətin mal-mülkü Allahın iradəsindən asılıdır. Düşünməyək ki, bizə elm və hünərimizə görə nemət verilib.

***Ayə 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25:***

﴿ثُمَّ يَطْمَعُ أَنْ أَزِيدَ﴾﴿كَلَّا إِنَّهُ كَانَ لِآيَاتِنَا عَنِيدًا﴾﴿سَأُرْهِقُهُ صَعُودًا﴾﴿إِنَّهُ فَكَّرَ وَقَدَّرَ﴾﴿فَقُتِلَ كَيْفَ قَدَّرَ﴾﴿ثُمَّ قُتِلَ كَيْفَ قَدَّرَ﴾﴿ثُمَّ نَظَرَ﴾﴿ثُمَّ عَبَسَ وَبَسَرَ﴾﴿ثُمَّ أَدْبَرَ وَاسْتَكْبَرَ﴾﴿فَقَالَ إِنْ هَذَا إِلَّا سِحْرٌ يُؤْثَرُ﴾﴿إِنْ هَذَا إِلَّا قَوْلُ الْبَشَرِ﴾

**“Bununla belə, tamahı var ki, artırım; heç vaxt! Çünki o ayələrimizə qarşı inad göstərdi; tezliklə onu ağır əzaba düçar edərəm; həqiqətən, o, (Quranla mübarizə üçün) düşündü və ölçüb-biçdi; ölüm olsun ona, necə ölçüb biçdi! Yenə ölüm olsun ona ki, pis ölçüb biçdi; sonra baxdı; sonra üzünü turşutdu, işə tələsdi; sonra arxa çevirib təkəbbür göstərdi; sonra dedi: “Bu (Quran) nəql olunan sehrdən başqa bir şey deyil; bu yalnız bir bəşər sözüdür.”**

## Nöqtələr

◘”Ənid” sözü “inad” sözündəndir. Yəni kafirlər haqqı anlayırdılar, amma inadkarlıq səbəbindən onu qəbul etmək istəmirdilər.

◘”İrhaq” sözündən olan “urhiqu” sözü bir şəxsi çətin işə vadar etmək mənasını bildirir.

◘”Səud” dedikdə elə bir dolama nəzərdə tutulur ki, ondan ötüb-keçmək, onunla yuxarı qalxmaq çətin olsun.

◘”Qəddərə”, “təqdir” sözləri Quranın sehr, şer, kahinliklə müqayisəsinə işarədir.

◘Quran həm küfr, həm yalana münasibətdə “qutilə” sözünü işlədir.[1]

Peyğəmbər və Qurana qarşı fitnəkarlığa münasibətdə isə uyğun söz iki dəfə işlədilmişdir.

◘23-cü ayədə buyurulur ki, indi görək haqqa arxa çevirən, ona qarşı çıxanın cəzası nədir?

Quran haqqı tanıdığı halda onu inkar edənlərin çeşidli cəzalara düçar ediləcəyini bildirir: Həyatda istiqamətlərini itirərlər, şeytanın hiylələri onu yer üzündə avara qoyar[2]; Allah onun qəlbini sıxıntıya salar[3]; Dolanışığı çətinləşər[4]; Bədbəxtlik ona hakim kəsilər.[5] Həmin gün kafirlər əzab zillətini yaşayasıdır; belələri ilahi nemətlərdən düzgün faydalana bilməzlər. Quran buyurur ki, Allah onların qəlbini, qulağını, gözlərini möhürləyər, ilahi həqiqətləri dərk edə bilməzlər[6]; Əməlləri ilğım kimi puç olar[7]; Bütün əməlləri iti küləyin hədələdiyi kül kimi olar[8]; Onların zərərləri hər an artar[1]; Daim haqq yoldan uzaqlaşarlar[2]; uzaqlaşarlar[2]; Cəhənnəmdən savayı bir yolları qalmaz.[3]

---

[1] “Əbəsə”, 17; “Zariyat”, 10
[2] “Ənam”, 71
[3] “Ənam”, 125
[4] “Taha”, 123
[5] “Nəhl”, 27
[6] “Bəqərə”, 7
[7] “Nur”, 39
[8] “İbrahim”, 18

◘Əmirəl-möminin Əli (ə) “Nəhcül-bəlağədə” müsəlmanları məzəmmət edir ki, nə üçün düşmənlər sizə plan cızdığı bir vaxt yatırsınız?![4]

◘İnadkar insanlar adətən qaba davranır, mötədillikdən uzaq olur. “Əbəsə” və “bəsərə” sözləri demək olar ki,eyni mənanı bildirir. Hər iki söz amansızlığa işarədir.

**Bildirişlər**

1. Allahdan uzaq düşmüş insan tamahkar və acgözdür.
2. Düşmən bir çox arzularına çatmaz.
3. Yersiz istəklərə sərt cavab verin.
4. İnsana inadkarlıq ruhu hakim olduqda o ilahi ayələri təkzib edir.
5. İnadkarlıq ilahi nemətləri puça çıxarır.
6. İnadkarlıq üzücü əzaba səbəb olur.
7. Dünyada məsdedici rifah və ləzzət qiyamətdə ağır əzabla sonuclanır. Bəli, hər enişin bir yoxuşu var.
8. Düşmən düşüncəli və proqramlı hərəkət edir.
9. Düşmənin proqramı Quran, ilahi ayələrlə mübarizə üzərində qurulub.
10. Puç düşüncələr və azğın mütəfəkkirlər var.
11. Fitnəkarlar bilsinlər ki, gələcək nəsillər onları lənətləyəcək.
12. Düşməni lənətləmək nəinki caizdir, hətta zəruridir.
13. İşi-gücü insanların əqidəsini zəhərləmək olan fərdlər, azğın rəhbərlər daim lənətlənməlidir.
14. Pis düşüncə təhlükə işlər üçün müqəddimədir.
15. Bir anlıq düşüncə uzun illər davam edəcək xeyir və şər iş üçün müqəddimə ola bilər.
16. Düşmən nəzarət və araşdırmalar yolu ilə dinə qarşı tədbirlərini gücləndirir.
17. Düşməndən təbəssüm gözləməyək.
18. Düşmən müvəffəqiyyətə çatmaq üçün xeyli vaxt sərf edir.
19. Kafirlər də Quranı cazibədar, sirli kəlam sayır.

***Ayə 26, 27, 28, 29, 30:***

﴿سَأُصْلِيهِ سَقَرَ﴾﴿وَمَا أَدْرَاكَ مَا سَقَرُ﴾﴿لَا تُبْقِي وَلَا تَذَرُ﴾﴿لَوَّاحَةٌ لِّلْبَشَرِ﴾﴿عَلَيْهَا تِسْعَةَ عَشَرَ﴾

**“Onu səqərə (cəhənnəm təbəqələrindən birinə) gətirməyimizə az qalıb; sən bilmirsən səqər nədir; o nə saxlayar, nə də boşlayar; dərini tamam məhv edər; ona (cəhənnəmə) 19 nəfər əzab mələyi nəzarətçi qoyulmuşdur.”**

**Nöqtələr**

◘Cəhənnimin adlarından biri də səqərdir. Bu söz əslində günəşin hərarəti qarşısında ərimə mənasını bildirir.[5]

---

[1] “Fatir”, 39
[2] “Nisa”, 167
[3] “Nisa”, 169
[4] “Nəhcül-bəlağə”, xütbə 34
[5] “Mufrədate-Rağib”

◘”Ləvvah” və “təlvih” sözləri bir rəngin qara və ya qırmızıya dönməsini bildirir.

◘”Buşrə” sözünün cəm forması olan “bəşər” sözü dərinin zahirinə işarədir.

◘Tarixi mənbələrdə bildirilir ki, Əbu-Cəhl cəhənnəmin 19 məmuru olduğunu biləndə ətrafındakılara dedi: “Sizin onunuz onlardan birini məğlub edər.” Qüreyş döyüşçülərindən biri söylədi: “Mən onların 17-sini öhdəmə götürürəm, siz 2-sini məğlub edin.”[1]

◘Bəzilərinin nəzərincə, “nə saxlayar, nə də buraxar” dedikdə nəzərdə tutulur ki, cəhənnəm odu nə öldürər, nə də sağ buraxar. Bu ayə “Əla” surəsinin 13-cü, “Nisa” surəsinin 59-cu ayəsinin oxşarıdır.

## Bildirişlər

1. Cəhənnəm həqiqətləri yalnız vəhy yolu ilə dərk olunur.
2. Cəhənnəm odu əhatəlidir və heç vəchlə söndürülə bilməz.
3. Məad cismanidir.
4. İlahi vəhyi sehr kimi tanıtdıranların cəzası cəhənnəm odunda yanmaqdır.
5. Əgər bir mələk bütün insanların canını ala bilirsə, 2 mələk Lutun şəhərini tamam dağıdırsa, 19 mələk günahkarları yetərincə cəzalandırasıdır.

### *Ayə 31:*

﴿وَمَا جَعَلْنَا أَصْحَابَ النَّارِ إِلَّا مَلَائِكَةً وَمَا جَعَلْنَا عِدَّتَهُمْ إِلَّا فِتْنَةً لِّلَّذِينَ كَفَرُوا لِيَسْتَيْقِنَ الَّذِينَ أُوتُوا الْكِتَابَ وَيَزْدَادَ الَّذِينَ آمَنُوا إِيمَانًا وَلَا يَرْتَابَ الَّذِينَ أُوتُوا الْكِتَابَ وَالْمُؤْمِنُونَ وَلِيَقُولَ الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ وَالْكَافِرُونَ مَاذَا أَرَادَ اللَّهُ بِهَذَا مَثَلًا كَذَلِكَ يُضِلُّ اللَّهُ مَن يَشَآءُ وَيَهْدِي مَن يَشَاء وَمَا يَعْلَمُ جُنُودَ رَبِّكَ إِلَّا هُوَ وَمَا هِيَ إِلَّا ذِكْرَى لِلْبَشَرِ﴾

**“Biz od nəzarətçilərini yalnız mələklərdən seçdik. Onların sayını kafirlərin sınağa çəkilməsi, kitab əhlinin əmin olması, iman gətirənlərinin imanın artması, kitab əhli və möminlərin şəkk-şübhədən qurtulması üçün vasitə qərar verdik. Qoy kafirlər və qəlbi xəstə olanlar bilsinlər ki, Allah bu misalla nə demək istəyir? Allah beləcə istədiyini azdırır, istədiyini hidayət edir. Sənin Rəbbinin qoşununun sayını Özündən başqası bilmir və bu bəşəriyyət üçün yalnız bir xəbərdarlıqdır.”**

## Nöqtələr

◘Fəxr Razi “Təfsiri-kəbirdə” deyir: “19 rəqəmi cəhənnəm məmurlarının sayını bildirir. Bu məlumat bir neçə baxımdan kitab əhli və müsəlmanlarda yəqinlik yaradır:

a) 19 rəqəmi Tövrat və İncil kimi səmavi kitablarda qeyd olunmuşdur. Kitab əhli təəccüblənir ki, məktəb görməmiş bir şəxs bundan necə xəbər tutmuşdur? Demək, ona vəhy nazil olmuşdur.

b) Kitab əhlinin Qurana inamı müsəlmanların etiqadını gücləndirir.

[1] “Təfsiri-məcməul-bəyan”

v) Cəhənnəm məmurlarının sayının 19 olması bəzilərinin təəccübünə səbəb olur. Onlar bu məsələni məsxərəyə qoyurlar. Əslində isə insan ətrafdakıları güldürəcək bir söz danışmır. Əgər Quran cəhənnəm məmurlarının sayını qeyd edirsə, məlum olur ki, bu Allah kəlamıdır.

◘Quranın bəzi ayələrində bildirilir ki, bəzilərini Allah azdırır. Necə ki, bu ayənin sonunda "Allah istədiyini azdırır" buyurulur. Əslində isə "izlal" dedikdə insanın özbaşına buraxılması nəzərdə tutulur. Yəni Allah ləyaqətsiz insanları özbaşına buraxır. Necə ki əkinçi çürümüş toxumu saf toxumdan ayırıb kənara atır.

◘Tövrat və İncilin mütaliəsi, onların Quranla müqayisəsi möminlərin imanını artıran yollardandır. Bu istiqamətdə addım atan insan həmin kitabların təhrif olduğuna inanır, eləcə də Quranın ilahiliyini təsdiqləyən müştərək nöqtələr tapır.

◘Dini məsələlərə hörmətlə yanaşaq. Heç vaxt bizi təəccübləndirəcək mövzuları məsxərəyə qoymayaq. Cəhənnəm məmurlarının 19 nəfər olması sadəcə bir sınaq vasitəsidir. Kimlər buna inancaq, kimlər bunu inkar edəcək?

◘Varlıq aləmində işlər çox dəqiq və hesablanmış şəkildə idarə olunur. Varlıq aləmindəki məmurlar nə bir nəfər artıqdır, nə də bir nəfər əskik.

İlahi elmə əsasən cəhənnəm və cəhənnəmdəkilərin idarə olunması üçün 19 mələk bəs edir. Bu rəqəm işçi götürərkən hədd gözləməyən müdirlər üçün yaxşı bir dərsdir.

### Bildirişlər

1. Cəhənnəmin məmurları mələklərdir.
2. Allahın qanun və göstərişlərini yalnız pak varlıqlar yerinə yetirə bilər. Məmur qoyacağı qadağaya öncə özü əməl etməlidir.
3. Cəhənnəm gözətçilərinin sayının zikr olunması kafirlərin sınağı üçündür.
4. Kitab əhli arasında da Quranın ilahiliyini görüb iman gətirən insaflı şəxslər var.
5. Quran gələcəkdə səhnəyə çıxacaq qəlbi xəstə fərdlərin sözlərini yada salır.
6. Allah insanı səbəbsiz yerə azdırmır, belə bir azğınlıq kafirlərin cəzasıdır. Məsələn, ev sahibi oğru evə girdikdən sonra qapını bağlayır və onu həbs edir. Onun qapını bağlaması bir növ cəzadır.
7. Kafirlər və münafiqlər İslam və müsəlmanlarla düşmənçilikdə əl-ələ vermişlər.
8. Bəzən sadə bir məsələ kimlərisə hidayət edir, kimlərisə azdırır.

***Ayə 32, 33, 34, 35, 36, 37:***

﴿كَلَّا وَالْقَمَرِ﴾﴿وَاللَّيْلِ إِذْ أَدْبَرَ﴾﴿وَالصُّبْحِ إِذَا أَسْفَرَ﴾﴿إِنَّهَا لَإِحْدَى الْكُبَرِ﴾﴿نَذِيرًا لِّلْبَشَرِ﴾﴿لِمَن شَاءَ مِنكُمْ أَن يَتَقَدَّمَ أَوْ يَتَأَخَّرَ﴾

**"Belə deyil, and olsun aya; and olsun gecəyə döndüyü vaxt; and olsun sübhə aşkarlandığı vaxt; bu (cəhənnəm) ən böyük hadisələrdəndir; xəbərdarlıqdır bəşərə; sizdən önə keçmək və ya dala qalmaq istəyən hər kəs üçün!"**

### Nöqtələr

◘"Səfər" sözündən olan "əsfər" sözü pərdəni qaldırıb üzə çıxarmaq mənasını bildirir. Hicabsız, örtüksüz qadınlar "safrat" adlanır.

◘”Kubra” sözünün cəm forması olan “kubər” sözü daha böyüklər mənasını bildirir. Yəni ötən ayələrdə haqqında danışılan əzab böyük ilahi əzablardan yalnız biridir. Başqa böyük əzablar da var.

◘Yer ətrafında hərəkət edən, gecəni işıqlandıran, təbii təqvim olan, qabarma-çəkilmələr yaradan ay ilahi ayələrdəndir və ona and içmək olar.

◘Allah-taala Quranda bütün dövrlərə and içir, amma səhər vaxtını üç vaxtla fərqləndirir.[1]

◘İmam Kazim (ə) buyurur: “Bizim vilayətimizin qəbulunda önə keçənlər cəhənnəmdən amandadır, bu işdə geri qalanlar cəhənnəm yolunda öndədir.”[2]

## Bildirişlər

1. Allahın təbiətdə yaratdıqları müəyyən əhəmiyyətlərə malikdirlər və onlara and içilə bilər.
2. İslam Peyğəmbərinin xəbərdarlıqları bütün bəşəriyyətə ünvanlanmışdır.
3. Bəşəriyyətin hidayəti üçün xəbərdarlıq zəruridir.
4. İnsan ixtiyar və iradə sahibidir.
5. Dindar insan başqalarından öndədir, dinsiz insan geri qalmışdır.

***Ayə 38, 39, 40, 41, 42, 43, 44, 45, 46, 47:***

**﴿كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ﴾﴿إِلَّا أَصْحَابَ الْيَمِينِ﴾﴿فِي جَنَّاتٍ يَتَسَاءلُونَ﴾﴿عَنِ الْمُجْرِمِينَ﴾﴿مَا سَلَكَكُمْ فِي سَقَرَ﴾﴿قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ﴾﴿وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ﴾﴿وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ﴾﴿وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ﴾﴿حَتَّى أَتَانَا الْيَقِينُ﴾**

**“Hər kəs qazandığının girovudur; yalnız sağ tərəf əshabı istisnadır; onlar behişt bağlarında ikən günahkarlardan soruşarlar: sizi cəhənnəmə salan nə oldu? Deyərlər: Biz namazqılanlardan deyildik; miskinlərə təam vermirdik; batil əhli ilə batil söhbətlərə qatılmışdıq; daim cəza gününü təkzib edirdik; nəhayət ölüm sorağımıza gəldi.”**

## Nöqtələr

◘Sağ tərəf əshabı dedikdə “Vaqeə” surəsinin 27-ci ayəsində adı çəkilən qrup nəzərdə tutulur. Qiyamət günü onların əməlnaməsi onların sağ əllərinə verilər.

◘Acı və şirin danışıqlar, salam və ya nifrinlər, sual və məzəmmətlər, günahı başqasının boynuna yıxmaq, insanların bir-birlərini lənətləməsi, möminlərin söhbəti, günahkarların günahkarlarla danışığı, günahkarların möminlərlə söhbəti, mələklərin möminlər və günahkarlarla danışığı çox olar.

◘Miskinlərə təam verilməsi dedikdə ya vacib zəkatın tərk olunması, ya da zəkat ödəndikdən sonra doyurdulması vacib olan aclara diqqətsizlik göstərilməsi nəzərdə tutulur. Bu qəbil diqqətsizlik insanı cəhənnəmə aparır.

◘Miskinlərə təam verilməsi dedikdə onların geyim, məskən kimi bütün ehtiyaclarının ödənməsi nəzərdə tutula bilər.

---

[1] “Muddəssir”, 33; “Fəcr”, 4; “Təkvir”, 17

[2] “Təfsiri-nurus-səqəleyn”

◘Həm qiyamətin təkzibi günah üçün müqəddimə olur[1], həm günah insanı küfr və təkzibə sürükləyir.[2] Bu səbəbdən də qiyamətin təkzibi həm günahkarların ötən ayədə sadalanmış əməllərinin səbəbi, həm də günahların nəticəsi ola bilər.

◘Ayədə "yəqin" deyilərkən ölüm nəzərdə tutulmuşdur. Olsun ki, ölüm ən labüd işdir, kimsə ona şəkk etmir. Həm də ölüm vaxtı bütün həqiqətlər aşkarlanır, insan əminlik dərəcəsinə çatır.

◘Ardıcıl və yerində qılınmayan namaz insanın namazqılanlardan sayılması üçün bəs etmir. "Biz namazqılanlardan deyildik" deyilərkən namazların davamlı olmaması nəzərdə tutulur. "Maun" surəsinin 5, 6-cı ayələrində də namaza yüngül yanaşılmasına işarə olunur. Bu qəbil namazlar insanı şəfaətdən məhrum edir.[3] İmam Sadiq (ə) şəhadət astanasında yaxınlarını çağırıb onlara namaza ciddi yanaşmalarını tapşırır və bildirir ki, namaza yüngül yanaşanlar şəfaətdən bəhrələnməyəcəklər.[4]

◘İnsanlar ya "faiz", ya da "haizdir". Yəni onlar ya yüksəlib qurtuluşa çatır, ya da tənəzzül edib süquta uğrayır.

◘Qurtubi sünnə əhlinin tanınmış təfsirçilərindəndir. O imam Baqirdən (ə) belə nəql edir: "Biz və bizim şiələrimiz yəmin əshabıyıq. Kimin qəlbində biz Əhli-beytə (ə) kin-küdurət, düşmənçilik olsa, həmin şəxs girovdadır."[5]

### Bildirişlər

1. İnsanın rəftarları onun şəxsiyyətini formalaşdırır.
2. İnsanın qiyamətdə qurtuluşu, ilahi əzabdan xilas olması onun ilahi ədalət məhkəməsində verilən suallara cavablarından asılıdır.
3. Qiyamətdə günahkarların ardıcıl şəkildə sorğu-suala çəkilməsi özü bir növ ruhi əzabdır.
4. İnsan bir dəfə günah etməklə cəhənnəmə getmir. Günahın davamı və ardıcıl fəsad insanı cəhənnəmə sürükləyən səbəbdir.
5. Namaz və infaqın tərki ən böyük günahlardandır.
6. Miskin müsəlman deyilsə də, ona təam verməк zəruridir.
7. Ömrü tənbəllik içində, bekarçılıqla keçirmək bağışlanmayan günahdır.
8. Cəhənnəmə aparan amillərdən biri günahkar cəmiyyətlə həmrənglik, yoldaşlıqdır.
9. Pis dost və yoldaş cəhənnəm əhli olmaq üçün zəmin yaradır.
10. Ölüm fəna yox, maddi dünya əsarətindən qurtuluş, ilahi həqiqətlərin müşahidəsidir.

***Ayə 48, 49, 50, 51, 52, 53, 54, 55:***

**﴿فَمَا تَنفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ﴾﴿فَمَا لَهُمْ عَنِ التَّذْكِرَةِ مُعْرِضِينَ﴾﴿كَأَنَّهُمْ حُمُرٌ مُّسْتَنفِرَةٌ﴾﴿فَرَّتْ مِن قَسْوَرَةٍ﴾﴿بَلْ يُرِيدُ كُلُّ امْرِئٍ مِّنْهُمْ أَن يُؤْتَى صُحُفًا مُّنَشَّرَةً﴾﴿كَلَّا بَل لَا يَخَافُونَ الْآخِرَةَ﴾﴿كَلَّا إِنَّهُ تَذْكِرَةٌ﴾﴿فَمَن شَاء ذَكَرَهُ﴾**

[1] "Maun", 2, 3
[2] "Rum", 10
[3] "Muddəssir", 43-48
[4] "Kafi", c. 3, s. 270
[5] "Təfsiri-Qurtubi"

**“Şəfaətçilərin şəfaəti onlara fayda verməz; onlara nə oldu ki, xəbərdarlıqdan (Qurandan) üz çevirmişlər? Onlar sanki ulaqdırlar, şirdən qaçırlar; bəlkə də hər biri umur ki, ona (Allah tərəfindən) səhifə verilsin; belə deyil, əslində onlar axirətdən qorxmurlar; belə deyil, həqiqətən, bu (Quran) dəyərli bir nəsihətdir; istəyən kəs ondan öyüd alar.”**

## Nöqtələr

◘”Humur” sözü vəhşi ulaq mənasını bildirən “himar” sözünün cəm formasıdır. Bu ulağa səhrə ulağı da deyirlər.

◘Kafirlərin Qurandan qaçması ulağın şirdən qaçmasına bənzədilir: ulağ şirdən düşüncəsiz şəkildə qaçır; o qorxu içində qaçır; ulağ şirdən qaçarkən haraya üz tutmur; qaçanın nəfəs dərməyə imkanı olmur, sonda əsir düşür.

◘”Qəsvərə” sözü “qəsr” sözündən olub qəzəb, qələbə mənasını bildirir. Bəzən şir də bu adla adlandırılır. “Qəsvərə” dedikdə bəzən ovçu mənası anlaşılır. Olsun ki ayədə vəhşi ulağın şir və ya ovçudan qaçması nəzərdə tutulmuşdur.

◘Bəzi rəvayətlərdə nəql olunur ki, Əbu Cəhl və Qüreyşdən bir dəstə şəxs Peyğəmbərə (s) belə dedilər: “Sənə yalnız o vaxt iman gətirərik ki, səmadan gətirdiyin namədə belə yazılmış olsun: “Aləmlərin Rəbbindən filankəs oğlu filankəsə.” Əgər həmin namədə bizə rəsmən əmr olunsa, sənə iman gətirərik.”[1]

◘Qurani-kərimin müxtəlif ayələrində kafirlərin yersiz istəkləri yada salınır. “İsra” surəsinin 93-cü ayəsində kafirlər deyirlər: “Bizə oxuyacağımız bir kitab nazil olmasa heç vaxt sənə iman gətirmərik.” “Ənam” surəsinin 52-ci ayəsində deyirlər: “Peyğəmbərə gələndən bizə gəlməyincə iman gətirmərik.” Allah onların yersiz istəklərini belə cavablandırır: “Allah daha yaxşı bilir ki, Öz risalətini harada qərar versin.”[2]

### ***Qiyamətdə şəfaət verənlər***

Ayə və rəvayətlərdə oxuyuruq ki, Allah-taala qiyamətdə bəzilərinə şəfaət icazəsi verər. Həzrət Peyğəmbər (s) buyurur: “Şəfaət verəcək ilk kəs mənəm.”[3] Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) buyurur: “Qiyamət günü Quran da şəfaət verənlərdəndir.”[4] Rəvayətlərdə bildirilir ki, qiyamət günü peyğəmbərlər də şəfaətçidirlər.[5] Rəvayətlərdə məsum imamlar və həqiqi şiələrin də şəfaətindən danışılır: “Qiyamətdə şəfaət bizə və bizim şiələrimizə məxsusdur.”[6] Qiyamət günü mələklərə və şəhidlərə də şəfaət icazəsi verilər.[7] Qiyamət günü şəfaət səbəblərindən biri bəndələrin ibadətidir.[8]

◘Kimlərə şəfaət verilər?

Ayə və rəvayətlərdə şəfaətə nail olmaq şərtləri bildirilir:

a) İman, namaz, Allah yolunda infaq, səmərəli həyat;

b) Şəfaət üçün Allahın icazəsi[9];

---

[1] “Təfsiri-Məraği”
[2] “Ənam”, 125
[3] “Səhihi-Müslim”, c. 2, s. 130
[4] “Nəhcül-bəlağə”, xütbə 176
[5] “Məsnədi-Əhməd”, c. 3, s. 12
[6] “Xilas”, c. 624
[7] “Məsnədi-Əhməd”, c. 5, s. 43
[8] “Məsnədi-Əhməd”, c. 2, s. 174
[9] “Bəqərə”, 255

c) Dünyadan imanla getmək;

ç) Şəfaət edənlə şəfaət olunan arasında rabitə; şəfaətçi ilə əqidə bağlılığı olmayan şəfaətə nail olmaz.

**Bildirişlər**

1. Namazda süstlük, yoxsullara infaq və təam verməkdən uzaqlıq, ömrün hədərə verilməsi, insanı qiyamət günü şəfaətdən məhrum edən səbəblərdir.

2. Allah-taala qiyamət günü bəzi insanlara şəfaət icazəsi verər. Amma bir çoxları şəfaətə nail ola bilməz.

3. Qiyamətdə çoxları şəfaət verə bilər: peyğəmbərlər, onların canişinləri, şəhidlər, Quran ...

4. İlahi ayələri qəbul etməyən İslam müxaliflərinin heç bir dəlili yoxdur.

5. Haqdan üz çevirənlər ağıl və düşüncədən məhrumdur.

6. İnsanın Allahdan lazımsız şeylər istəməsi onun axmaqlığını göstərir.

7. Kafirlər təkəbbürlüdürlər və Allahdan xüsusi dəvətnamə gözləyirlər.

8. Yersiz istəklərə qəti cavab verin. (Allah möcüzələr və dəlillər göndərməklə xəbərdarlığı başa çatdırıb, xüsusi naməyə ehtiyac yoxdur.)

9. Kafirlərin yersiz istəkləri bəhanədən başqa bir şey deyil.

10. Qiyamətə biganəlik peyğəmbərliyin inkarına səbəb olur.

11. İnsan əqidə seçimində azad buraxılıb.

12. İnsanların hidayəti üçün Quran münasib vasitədir. Amma bu ilahi nemətdən bəhrələnmək üçün insan özü addım atmalıdır.

***Ayə 56:***

**﴿وَمَا يَذْكُرُونَ إِلَّا أَن يَشَاءَ اللَّهُ هُوَ أَهْلُ التَّقْوَى وَأَهْلُ الْمَغْفِرَةِ﴾**

**“Yalnız Allah istəsə öyüd alarlar. Budur təqvaya layiq, bağışlamağa layiq!”**

**Bildirişlər**

1. İnsan ixtiyar sahibi olsa da bu ixtiyar addım atmaq üçün bəs etmir. Allah istəməyincə bir iş baş verməz.

2. Yalnız Allahın tövfiqi ilə insan öyüd alır.

3. İnadkar kafirlər heç vəchlə iman gətirmir. Yalnız Allah məcbur etsə iman gətirərlər. Amma Allah belə bir iş görməz.

4. Yalnız Allahdan qorxmaq olar. Günaha yol verdikdə yalnız o bizi bağışlaya bilər.

# “QİYAMƏT” SURƏSİ

### *(75-Cİ SURƏ; 40 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“QİYAMƏT” SURƏSİNİN SİMASI*

40 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur.

Onun adı 1-ci ayəsindən götürülmüşdür. “Qiyamət” dedikdə oyanış, qalxma mənaları nəzərdə tutulur. Adından göründüyü kimi surənin əsas mövzusu məad, qiyamət günüdür. Öncə dünyanın sonu ilə bağlı ağır hadisələrdən danışlır, sonra xeyir əməl sahibləri və günahkarların siması təsvir olunur.

Surənin davamında insanın canvermə, ölüm zamanı halı yada salınır. Qeyd olunur ki, insanın bir damla dəyərsiz sudan yaradılması onun ikinci dəfə dirçəlişinin mümkünlüyünə dəlildir.

Surənin ortalarındakı dörd ayədə Quran, onun nazil olması və qiraəti mövzularına toxunulur.

Rəvayətdə bildirilir ki, bu surəni ardıcıl şəkildə oxuyub ona əməl edənlər sirat körpüsündən salamatlıqla keçib qiyamət səhnəsində xoşhal olacaqlar.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6:***

**﴿لَا أُقْسِمُ بِيَوْمِ الْقِيَامَةِ﴾﴿وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ﴾﴿أَيَحْسَبُ الْإِنسَانُ أَلَّن نَجْمَعَ عِظَامَهُ﴾﴿بَلَى قَادِرِينَ عَلَى أَن نُّسَوِّيَ بَنَانَهُ﴾﴿بَلْ يُرِيدُ الْإِنسَانُ لِيَفْجُرَ أَمَامَهُ﴾﴿يَسْأَلُ أَيَّانَ يَوْمُ الْقِيَامَةِ﴾**

**“And işirəm qiyamət gününə; and içirəm özünü danlayan nəfsə (ki siz ölümdən sonra diriləcəksiniz); yoxsa insan düşünür ki, onun sümüklərini (öldükdən sonra) bir yerə yığmarıq? Hətta onun barmaqlarını (növbəti dəfə) düzəltməyə qadirik; amma insan özünə günah yolu açmaq istəyir; (ona görə də tərəddüdlə) soruşur ki, qiyamət nə vaxtdır?”**

**Nöqtələr**

◘Hazırkı surə və “Bələd” surəsi “la uqsimu” cümləsi ilə başlayır. Bir çox təfsirçilərin nəzərincə, “la” hissəsi (“la uqsimu”) inkar yox, təkid bildirir. Amma bəziləri həmin hissənin inkar mənasında işlədildiyini qeyd edirlər. Yəni mövzu o qədər aşkardır ki, hətta and içmirəm.

◘Başlanğıc ayələrdə həm qiyamətə, həm də “ləvvamə”, özünü danlayan nəfsə and içilir. Olsun ki, bunun səbəbi insanın kiçik vücud dünyasında ləvvamə nəfs adlı

məhkəmənin varlığıdır. Bəli, insan daxilində ləvvamə nəfs, varlıq aləmində qiyamət adlı məhkəmə mövcuddur.[1]

◘Həzrət Peyğəmbər (s) ibn Məsuda buyurur: "Çalış yaxşı işlərin çox olsun. Qiyamətdə yaxşı iş görənlər də, günahkarlar da peşman olacaq. Yaxşı iş görənlər peşman olacaqlar ki, nə üçün gördükləri yaxşı işlər daha çox olmayıb. Günahkarlar öz səhlənkarlıqları və təqsirlərinə görə peşman olacaqlar." Sonra həzrət hazırkı ayəni oxuyur.[2]

### *Quranda nəfs mövzusu*

◘Ayə və rəvayətlərdə, eləcə də dualarda insan nəfsi bir neçə şəkildə təsvir olunur:

a) Əmmarə nəfs: bu nəfs insanı daim oisliyə çağırır. Əgər o ağıl və imanla cilovlanmasa insanı süquta uğradar. Qurani-kərimdə buyurulur ki, həqiqətən, Rəbbim rəhm etməsə, nəfs çirkin işlər görməyə əmr edər."[3]

Əmmarə nəfs insanı əsarət altına alanadək öz istəklərini təkrarlayır. Həzrət Əli (ə) buyurur: "Əmmarə nəfs münafiq fərd kimi insana yaltaqlanır, özünü dost göstərməyə çalışır. Bu yolla insana hakim olmaq və onu növbəti mərhələlərə sürükləmək istəyir."[4]

Qurani-kərim "Yusuf" surəsində buyurur: "Yusufun qardaşları Benyamini Misirdə qoyub atalarının yanına qayıtdılar. Bildirdilər ki, Benyamin oğurluq itdihamı ilə həbs edilib. Həzrət Yaqub buyurdu: "Olsun ki nəfs bu çirkin işi sizə gözəl göstərmiş, sizi ona doğru çəkmişdir."[5]

Digər bir hədisdə oxuyuruq: "Namazdan sonra Allahdan belə istəyin: "Pərvərdigara, məni bir göz qırpımı da nəfsimin ümidinə buraxma."[6]

İmam Zeynəl-abidin "şaqtin" minacatında Allaha belə ərz edir: "Mən sənə pisliyə çağıran nəfsdən şikayətlənirəm. O xətalara doğru gedir, günaha tələsir. Bir şərlə rastlaşdıqda fəryad qoparır. Birini xeyir verməli olduqda paxıllıq göstərir. Mənasız işlərə çox meyllidir. Qəflət, xətaya qərq olmuşdur. Məni günaha tələsdirir. Tövbəmə mane olur."

b) Ləvvamə nəfs: bu surədə işarə olunan mövzulardan biri də ləvvamə nəfs mövzusudur. Olsun ki, ləvvamə nəfs dedikdə əxlaqi vicdan nəzərdə tutulmuşdur. Bəli, insan pis işlərinə və ya xeyir işlərinin azlığına görə dünya və axirətdə özünü danlayır. Belə bir peşimançılıq həm tövbə üçün müqəddimə ola bilər, həm də insanı ümidsizləşdirə bilər.

c) Mütməinnə nəfs: insan davamlı ibadət və Allah zikri sayəsində mütməinnə nəfs sahibi olur. Bu halda onun ruhiyyəsinə ilahi bir arxayınlıq hakim kəsilir. Qurani-kərim buyurur: "Namazı bərpa et ki, mənim fikrimə çatasan."[7] Başqa bir ayədə oxuyuruq: "Agah olun ki, qəlblər yalnız Allah zikri ilə aramlıq tapar."[8]

Mütməinnə, yəni arxayın nəfs sahibi ölümdən qorxmur, şəhadət eşqi ilə yaşayır. Belə bir insan dünyanın aldadıcı zinətlərinə biganədir, Allahın müqəddəratından razıdır.

---

[1] "Təfsiri-nümunə"
[2] "Bihar", c. 74, s. 104
[3] "Yusuf", 53
[4] "Ğurərul-hikəm"
[5] "Yusuf", 83
[6] "Kafi", c. 3, s. 346
[7] "Taha", 14
[8] "Rəd", 28

◘Məadı inkar edənlər bəzən qiyamətlə bağlı suallar verirlər. Məsələn soruşurlar ki, bu çürümüş sümükləri kimi dirildəcək?[1] Bəzən də açıq-aşkar qiyaməti inkar edir və deyirlər: "Dünya həyatından başqa həyat yoxdur."[2]

◘Müxaliflərin məada şəkki əslində Allahın qüdrətinə şəkdir. Quran Allahın yenidən yaratmağa qadir olduğunu vurğulayaraq nümunələr göstərir: Allah onlar kimisini yenidən yaratmağa qadirdir[3]; Allah ölüləri diriltməyə qadirdir[4]; Allah onu geri qaytarmağa qadirdir.

Bu ayədə isə buyurulur ki, Allah nəinki insanı yenidən dirildə bilər, hətta onun barmaq xətlərini bərpa edər. Bəli, bu iş Allah üçün çətin deyil.

◘Hər bir insanın barmaqlarında yalnız ona məxsus xətlər var. İki şəxsin barmaq xətləri eyni cür ola bilməz. Bu səbəbdən də şəxsiyyətin müəyyənləşməsi üçün onun barmaq izlərindən istifadə olunur. Bəli, Allahın elm və qüdrəti hər bir fərdin vücudundakı zərrələrə də hakimdir.

## Bildirişlər

1. Allah-taala qiyaməti labüd bir hadisə sayır və bu səbəbdən də ona and içir.
2. İnsani xüsusiyyətlərdən biri vicdani əxlaq, yaxşılıq və pislikləri fitrətən tanımaqdır. Pis işlərə görə özünü və başqalarını məzəmmət etməsi insan üçün səciyyəvidir.
3. Əmmarə, mütməinnə və ləvvamə nəfslər arasında qiyamət gününün danlaqlarını və peşimançılıqlarını yada salan ləvvamə nəfsdir.
4. Məada etiqad insanı günahdan çəkindirir. Bu səbəbdən də günah yol tutanlar öncə məadı sual altına alır.
5. Məadı inkar edənlər yalnız zənn-gümana əsaslanırlar və onların heç bir dəlili yoxdur.
6. Çürümüş bədən üzvləri, sümüklər qiyamət günü bir yerə toplanasıdır.
7. Məad cismanidir, qiyamət günü insan öz sümüklərindən yığılar.
8. Batil düşüncələri nəzərə çatdırıb rədd etmək caiz işdir.
9. Allah dünyada da, axirətdə də nizam əsasında yaradır.[5]
10. Qiyamətdəki insan elə dünyadakı insandır.
11. Allah insana seçim qüdrəti, azadlıq və iradə əta etmişdir. İnsanın öz ağıl və fitrətinin ziddinə addım atması mümkündür.
12. Bir çoxlarının qiyaməti inkar etməsinin səbəbi nadanlıq deyil. Onların bu hərəkəti psixoloji baxımdan izah oluna bilər. Belə ki, bəziləri qiyaməti inkar etməklə özlərinə günah yolu açırlar.

### *Ayə 7, 8, 9, 10, 11, 12, 13, 14, 15:*

---
[1] "Yasin", 78
[2] "Muminun", 37
[3] "İsra", 99
[4] "Əhqaf", 33
[5] "Əla", 2

﴿فَإِذَا بَرِقَ الْبَصَرُ﴾﴿وَخَسَفَ الْقَمَرُ﴾﴿وَجُمِعَ الشَّمْسُ وَالْقَمَرُ﴾﴿يَقُولُ الْإِنسَانُ يَوْمَئِذٍ أَيْنَ الْمَفَرُّ﴾﴿كَلَّا لَا وَزَرَ﴾﴿إِلَى رَبِّكَ يَوْمَئِذٍ الْمُسْتَقَرُّ﴾﴿يُنَبَّأُ الْإِنسَانُ يَوْمَئِذٍ بِمَا قَدَّمَ وَأَخَّرَ﴾﴿بَلِ الْإِنسَانُ عَلَى نَفْسِهِ بَصِيرَةٌ﴾﴿وَلَوْ أَلْقَى مَعَاذِيرَهُ﴾

**“Gözlərin bərələcəyi; ayın tutulacağı; günəşlə ayın birləşəcəyi zaman; həmin gün insan deyəcək: “Hara qaçmaq olar? Əsla sığınacaq yoxdur! O gün dayanacaq yalnız Allahın hüzurundadır; həmin gün insana öncədən göndərdikləri və özündən sonraya saxladığı əməlləri xəbər verilər; buna baxmayaraq ki, insan öz nəfsini görür nə qədər bəhanə gətirir gətirsin!”**

## Nöqtələr

◘”Fəiza bəriqəl-bəsər” dedikdə insanın gözlərində müşahidə olunan qorxu və dəhşət nəzərdə tutulur.

◘”Vəzər” dedikdə dağ və qala kimi sığınacaqlar nəzərdə tutulur. İnsan qiyamət günü ya Allahdan həya etdiyi, ya sorğu-sualdan qaçmaq üçün sığınacaq axtarır.

◘”Məazirət” “mənzərət” sözünün cəm formasıdır. Bu söz günahın nəticələrini yuyacaq bir şey tapmaq mənasını bildirir. Bu həm yerli, həm də yersiz üzürxahlıq ola bilər.

◘İnsan adətən öz büdrəmələrinə don geyindirmək üçün bəhanələr gətirir. Məsələn: bəzən deyir ki, xəbərsiz olmuşam[1]; bəzən də deyirlər ki, başçılarımız bizi azdırdı[2]; bəzən isə “şeytan bizi azdırdı” söyləyirlər. Amma şeytan “məni məzəmmət etməyin, özünüz müqəssirsiniz” deyə cavab verir.[3]

◘İmam Baqir (ə) “bima qəddəmə və əxərə” ayəsinin təfsirində buyurur: “Əgər insan özündən sonra üçün yaxşı yol qoyarsa, insanlar ona əməl etdikdə mükafat alar. Əgər özündən sonra üçün pis yol qoyarsa, insanlar həmin yolda günaha batdıqca cəzalandırılar.”[4]

## Bildirişlər

1. Varlıq aləmindəki nizam qiyamət günü pozular.
2. Qiyamət hadisəsinin dəhşəti insanın bütün vücudunu bürüyər. Gözlər bərələr qəlblər lərzəyə gələr, ağıllar çaşar, insanlar məst halda görünər.
3. Qiyamət günü insanlara onların günahları anladılar.
4. İnsan həm öz əməllərinə həm də özündən sonraya qoyduğu yolu gedənlərin əməllərinə görə cavab verər.
5. Qiyamət məhkəməsində insanın əleyhinə şəhadət verən ən əsas şahid onun vicdanıdır.
6. Həmin gün insan üzürxahlıq üçün göstərdiyi səbəblərə özü də inanmaz.

***Ayə 16, 17, 18, 19:***

---

[1] “Əraf”, 172
[2] “Əraf”, 38
[3] “İbrahim”, 22
[4] “Təfsiri-kənzul-dəqaiq”

﴿لَا تُحَرِّكْ بِهِ لِسَانَكَ لِتَعْجَلَ بِهِ﴾﴿إِنَّ عَلَيْنَا جَمْعَهُ وَقُرْآنَهُ﴾﴿فَإِذَا قَرَأْنَاهُ فَاتَّبِعْ قُرْءَانَهُ﴾﴿ثُمَّ إِنَّ عَلَيْنَا بَيَانَهُ﴾

**“(Ey Peyğəmbər! Vəhy nazil olanda) Onun tilavətinə tələsib dilini hərəkətə gətirmə; həqiqətən, onu toplamaq və oxutmaq bizim öhdəmizədir; elə ki onu oxuduq qiraətini izlə; sonra onun bəyanı bizim öhdəmizədir.”**

### Nöqtələr

◘”Taha” surəsinin 114-cü ayəsində hazırkı ayənin oxşarı ilə rastlaşırıq. Həmin ayədə buyurulur ki, vəhy başa çatmamış onun tilavətinə tələsəmə.

Qurani-kərim qədr gecəsində Peyğəmbərə (s) bir dəfəyə nazil oldu. Sonra 23 il müddətində müxtəlif münasibətlərlə tədricən göndərildi. “La tuhərrik bihi lissanəkə” ayəsindən aydın olur ki, həzrət Peyğəmbər Quran ayələrini öncədən bilirmiş. Buna görə də ona ayələri tələsik tilavət etməmək əmr olunur.

◘Quran ayələrinin bir hissəsində vəhyin necə nazil olduğu və onun insanlara tilavəti mövzusu açıqlanır. Bu ayələrdə də Allah-taala öz Peyğəmbərinə (s) buyurur ki, ayə nazil olanda başa çatmamış onu oxuma; Allah kəlamında tələsmə, nigaran olma ki, onları unudarsan; çünki onları hifz etdirmək bizim öhdəmizədir; gözlə vəhy tamamlansın, qiraət et.

### Bildirişlər

1. Dinləməyin də öz qaydaları var. Hətta danışanın sözlərini təkrarlamaq yaxşı sayılmır.
2. Quran istənilən bir təhrif və dəyişiklikdən hifz olunmuşdur.
3. Quranın söz və ifadələri Allah tərəfindəndir.
4. Vəhyi peyğəmbərə aydınlaşdırmaq Allahın öhdəsinədir.

### *Ayə 20, 21, 22, 23, 24, 25:*

﴿كَلَّا بَلْ تُحِبُّونَ الْعَاجِلَةَ﴾﴿وَتَذَرُونَ الْآخِرَةَ﴾﴿وُجُوهٌ يَوْمَئِذٍ نَّاضِرَةٌ﴾﴿إِلَى رَبِّهَا نَاظِرَةٌ﴾﴿وَوُجُوهٌ يَوْمَئِذٍ بَاسِرَةٌ﴾﴿تَظُنُّ أَن يُفْعَلَ بِهَا فَاقِرَةٌ﴾

**“Belə deyil, bu ötəri dünyaya bağlanmısınız; axirəti boşlamısınız; həmin gün bəzi çöhrələr şad, şux olar; onlar Rəbblərinə (Onun lütf və mükafatına) göz dikmişlər; bəzi çöhrələr həmin gün tutqun olar; çünki sarsıdıcı əzaba düçar olacaqlarını bilirlər.”**

### Nöqtələr

◘”Nazirə” dedikdə bol nemətdən yaranan şadlıq mənası anlaşılır. Başqa ayələr də bu ayəni təsdiqləyir.[1]

◘Olsun ki, “nazirə” dedikdə nemət intizarı nəzərdə tutulur. İmam Rizadan (ə) nəql olunmuş rəvayətdə oxuyuruq: “Onlar Rəbblərinin mükafatı intizarındadırlar.”[1]

[1] “Mutəffifin”, 24

◘Ayədə insanların öz Rəbbinə doğru baxdığı buyurulsa da, "Ənam" surəsinin 103-cü ayəsinə əsasən Allahı fiziki gözlə görmək mümkün deyil və qiyamətdə Onun lütfləri müşahidə olunur.

◘"Basirə" dedikdə çöhrənin tutulması mənası anlaşılır.

◘"Faqirə" sözü "fəqar" sözündən olub fəqərə sütunları mənasını bildirir. Fəqir sözü də həmin kökdəndir. Yoxsul insanın sanki fəqərə sütunları qırılmışdır. "Faqirə" dedikdə belqırıcı, sarsıdıcı mənası anlaşılır.

## Bildirişlər

1. Sorğu-sualın psixoloji kökləri var. Qiyamətin sual altına alınması dünyaya bağlılıqdan qaynaqlanır.
2. Dünyaya bağlılıq həddi aşdıqda, qiyaməti unutdurduqda məzəmmət olunur.[2]
3. Dünyaya bağlılıq məadın inkarı üçün zəmindir.
4. Dünya ötəridir. Dünya sona tələsirmiş kimi sürətlə ötür.
5. İki eşq bir qəlbə sığmaz.
6. İnsan tələskən yaradılıb.[3] Özümüzü düşüncə və vəhylə cilovlamasaq yalnız dünyaya doğru tələsəsiyik.
7. Tərbiyə üsullarından biri mükafat və cazanı müqayisə etməkdir.
8. Psixoloji mövzular insanın çöhrəsində iz buraxır. Çöhrənin rəngi insanın içindən danışır.
9. Dünyada yalnız Allaha ibadət edənlər[4], yalnız Ona sığınanlar[5], yalnız Ona əyilənlər və Ondan başqasından qorxmayanlar[6] qiyamət günü yalnız Onu seyr edirlər.
10. Dünyaya bağlılıq, axirətin unudulması qiyamətdə qəm-qüssəyə, şöhrələrin tutqunluğuna səbəb olur.

***Ayə 26, 27, 28, 29, 30, 31, 32, 33, 34, 35:***

﴿كَلَّا إِذَا بَلَغَتْ التَّرَاقِيَ﴾﴿وَقِيلَ مَنْ رَاقٍ﴾﴿وَظَنَّ أَنَّهُ الْفِرَاقُ﴾﴿وَالْتَفَّتِ السَّاقُ بِالسَّاقِ﴾﴿إِلَى رَبِّكَ يَوْمَئِذٍ الْمَسَاقُ﴾﴿فَلَا صَدَّقَ وَلَا صَلَّى﴾﴿وَلَكِن كَذَّبَ وَتَوَلَّى﴾﴿ثُمَّ ذَهَبَ إِلَى أَهْلِهِ يَتَمَطَّى﴾﴿أَوْلَى لَكَ فَأَوْلَى﴾﴿ثُمَّ أَوْلَى لَكَ فَأَوْلَى﴾

**"Belə deyil, can boğaza yığılacağı; "kim şəfaət verə bilər" soruşulacağı; ayrılıq anının çatdığının bilinəcəyi; ayaq ayağa yapışacağı gün Rəbbinə doğru aparılar; o nə haqqı təsdiqlədi, nə namaz qıldı; hətta təkzib edib üz döndərdi; sonra təkəbbürlə əhlinə doğru getdi; sənin üçün (ilahi əzab) daha yaxşıdır, daha yaxşı; daha yaxşıdır, daha yaxşı!"**

---

[1] "Təfsiri-nurus-səqəleyn"
[2] "Adiyat", 8
[3] "Ənbiya", 37
[4] "Ğafir", 14
[5] "Mulk", 29
[6] "Əhzab", 39

## Nöqtələr

◘”Təraqi” dedikdə boğaz boyu düzülmüş sümüklər nəzərdə tutulur.

◘Xəstənin şəfa tapmasına səbəb olan vird və zikrlər “Ruqyə” adlanır. “Raq” dedikdə xəstənin ölümdən qurtarmasına səbəb olan istənilən bir şey nəzərdə tutulur.

◘”Zənn” sözü bəzən elm mənasında işlənir. Uyğun söz 29-cu ayədə də həmin mənada işlədilmişdir. Ayədə buyurulur ki, insan can verdiyi vaxt ayrılığa əmin olur.

◘Rəvayətdə bildirilir ki, ölüm zamanı var-dövlət, övladlar və əməllər insanın gözünə görünür. Var-dövlət “mən sənin əlindən çıxdım”, övladlar “biz səninlə qəbrə qədərik”, əməllər isə “həmişə səninləyəm” söyləyir.[1]

◘İnsan bəzən rəhmət mələkləri vasitəsi ilə behiştə, bəzən də əzab mələkləri vasitəsi ilə cəhənnəmə aparılır.

◘Hədisdə bildirilir ki, namazı düşüncəli şəkildə tərk edən insan kafirdir. Quran da namazdan uzaqlığı küfr nəticəsi sayır.

◘Təfsirçilər bildirirlər ki, 31-ci ayədən başlayaraq Əbu Cəhlin təkəbbür və qürurundan danışılır. Belə bir təfsir doğru olarsa da, ümumi məzmuna xələl gəlmir.

◘”Yətəmətta” sözü “mətt” sözündən olduqda ayaqları uzatmaq, “məta” sözündən olduqda arxa çevirmək mənasını bildirir. Hər iki hərəkət təkəbbür nişanəsidir.

◘Hazırkı ayələrdə azğınların canvermə səhnəsi təsvir olunur. İmam Sadiqin (ə) buyuruğuna əsasən möminlər üçün ölüm ən gözəl ətirləri qoxulamaq kimidir.[2]

◘Hədisdə bildirilir ki, ölümü xatırlayan insanın şəhvəti sönükür, qəfləti aradan qalxır, diqqəti güclənir. Ölümün yada salınması qəlbi yumşaldır, hərisliyi aradanq aldırır, dünyanı insanın gözündə kiçildir. Həzrət Peyğmbər (s) bir saat düşüncəni uzun müddət ibadətdən xeyirli sayır.[3]

◘Həzrət Əli (ə) insan ömrünün son anlarını, ölüm saatlarını belə təsvir edir: “Ölüm zamanı geriyə qaytarılması mümkün olmayan və ömür boyu göprünməmiş bir səhnə yaranır. Həmin vaxt əmin olduqları dünya ilə ayrılıq sorağlarına gəlir, həmişə nəzərlərinə çatdırılan axirətə üz tuturlar. Yaşadıqları həmin anlar vəsfəgəlməzdir. Canvermənin ağırlığı, dünyadan ayrılıq qəmi onlara hücum edir. Bədənlər süstləşir, rənglər dəyişir. Ölüm aram-aram onların vücudunu bürüyür. Dilləri işdən düşür, ailə arasında yıxılıb qalırlar. Gözləri, qulaqları və düşüncələri hələ ki işdədir. İnsan düşünür ki, ömrünü hansı yolda sərf edib? Ömür boyu topladığı var-dövləti xatırlayır. Bu malı yığarkən gözlərini yummuş, halal-harama baxmamış, şübhəli addımlar atmışdır. İndi onların günahı çiyninə yüklənib. Bu maldan ayrılmaq lazımdır. Onları varisləri üçün qoyub gedir. Bu malın ləzzəti başqalarına, ağrısı ona çatdı. Özünü onlara girov etdi. Peşimançılıqdan əlini dişləyir... Ruhu aram-aram qulaqlarından, sonra gözlərindən çıxır. Ruh bədənini tərk edir. Yaxınları arasında leş tək yıxılıb qalır. Hamı ondan qorxub çəkinir. Fəryadlara, nalələrə cavab vermir.

Sonra onu qəbirə, mənzilinə doğru aparır, dəfn edirlər onu əməllərinə tapşırıb gedirlər.”[4]

---

[1] “Təfsiri-ətyəbul-bəyan”
[2] “Biharul-ənvar”, c. 6, s. 152
[3] “Təfsiri-nümunə”; “Biharul-ənvar”, c. 6, s. 133
[4] “Nəhcül-bəlağə”, xütbə 109

◘Bəzən insan şübhədə olduğundan qarşısına çıxan mövzunu nə qəbul, nə də rədd edir. Həzrət Salehə dedilər ki, biz sənin çağırışlarına şübhə içindəyik.[1] Bəzən isə insan inadkarlıq göstərib deyilənləri inkar edir. Hazırkı surənin 32 ayəsi deyilənlərə misal ola bilər.

◘"Əvlaləkə" ifadəsi "vəylun ləkə" ifadəsi kimi məzəmmət xarakteri daşıyır. İmam Riza (ə) həmin ayəni belə təfsir edir: "Dünya xeyri sənin, axirət xeyrindən uzaq ol."[2]

◘Ayələrdə təkəbbür əhli üçün nəzərdə tutulmuş cəza qeyd olunmur. Belə ki, onlar istənilən bir bədbəxtliyə düçar ola bilər.

**Bildirişlər**

1. Canvermə anlarının təsviri dünyaya əsarət zəncirlərini qırmaq üçün ən yaxşı vasitədir.
2. Canvermənin ən ağır məqamı ruhun boğaza yığıldığı andır.
3. Ölümə çarə yoxdur. Elə bir dövr gələr ki, hamı Allahın qüdrətinin qarşısında aciz qalar, öz çarəsizliyini dilə gətirər.
4. İnsanın dünyaya bağlılığı o qədər güclüdür ki, hətta ölüm məqamında öz gedişinə əmin olmaz.
5. Dünyanı sevib axirəti yaddan çıxaranlar bilsinlər ki, bir gün öz əzizlərindən ayrılasıdırlar.
6. Ölüm anı övladlardan, var-dövlətdən, vəzifədən, imkanlardan ayrılıq anıdır.
7. Ölümdən sonra ruh fəallığında qalır. (Ayələrdə puçluq yox, ayrılıqdan danışılır.)
8. Ölüm anları çox ağır anlardır.
9. Allaha doğru hərəkət və qayıdışdan başqa yol yoxdur.
10. Əqidələr əməllər üçün müqəddimədir. Haqqı təsdiqləməyən insan, şübhəsiz ki, namaz qılmayacaq.
11. Bütün dini həqiqətlərin təsdiqi zəruridir. Dini zərurətləri təsdiqləməyən insan əslində dini təsdiqləməmiş olur.
12. İmanın ilkin nişanəsi, dinin təsdiqi namazdır.
13. Din və dini vəzifələrdən uzaqlıq qürur və məstlik amilidir. Başqa bir ayədə bildirilir ki, günahkarlar öz əhlləri arasında məst halda gülərlər.[3]
14. Ardıcıl inkarlara ardıcıl hədələrlə cavab verilməlidir.
15. Təkəbbür əhli alçaldılmalıdır.

***Ayə 36, 37, 38, 39, 40:***

**﴿أَيَحْسَبُ الْإِنسَانُ أَن يُتْرَكَ سُدًى﴾﴿أَلَمْ يَكُ نُطْفَةً مِّن مَّنِيٍّ يُمْنَى﴾﴿ثُمَّ كَانَ عَلَقَةً فَخَلَقَ فَسَوَّى﴾﴿فَجَعَلَ مِنْهُ الزَّوْجَيْنِ الذَّكَرَ وَالْأُنثَى﴾﴿أَلَيْسَ ذَلِكَ بِقَادِرٍ عَلَى أَن يُحْيِيَ الْمَوْتَى﴾**

**"Yoxsa insan özbaşına buraxılacağını zənn edir? Məgər o (ana bətninə) axıdılan nütfə deyildimi? Sonra laxta qan oldu; Allah onu xəlq edib möhkəmlətdi; ondan qadın və kişi olmaqla iki cins yaratdı; həmin Allah ölüləri diriltməyə qadir deyilmi?!"**

---

[1] "Hud", 62
[2] Təfsiri-nurus-səqələyn"
[3] "Mutəffifin", 31

## Nöqtələr

◘Açılıb buraxılmış dəvə “suda” adlanır.

◘Hazırkı surə qiyamətə andla başlayıb, Allahın qiyamətdə ölüləri diriltməyə qadir olduğunu vurğulamaqla başa çatır.

◘Məadı inkar edənlər Allahı düzgün tanımamışlar. Əgər insan öldükdə onun əməl naməsi məhv olub gedərdisə, Allahın hikməti şübhə doğurardı. Hazırkı ayədə buyurulur ki, insan başına buraxılacağınımı zənn edir? Başqa bir ayədə belə buyurulur: “Yoxsa sizi boş yerə yaratdığımızı düşünürsünüz və bizə doğru qaytarılmayacaqsınız?”

◘Hazırkı ayələrdə öncə qiyamətin bərpa fəlsəfəsi açıqlanır. Sonra bildirilir ki, Allah yenidən yaratmağa qadirdir. Əlbəttə ki, Allah-taala yenidən yaratmaqla bağlı qüdrətini peyğəmbərlərin simasında nümayiş etdirmişdir. Həzrət İsa üfürməklə gildən düzəldilmiş iki quşu cana gətirmişdir. Həzrət İbrahim əti tikə-tikə doğranıb səpələnmiş quşları çağırdıqda onlar yenidən cana gəlmişdir. Həzrət Musa Tur dağına 70 nəfərin müşayiəti ilə gəldi. Allah dağa təcalla edəndə həmin 70 nəfərin canı çıxdı. Amma Allah-taala onları yenidən diriltdi.

## Bildirişlər

1. İnsanın məqsədsiz yaradıldığını və heç bir məsuliyyət daşımadığını düşünənlər ardıcıl şəkildə alçaldılmağa layiqdir.
2. Allah hikmət sahibidir və insan məqsədli yaradılmışdır. Onun məsuliyyət və vəzifələri var. Demək, qarşıda sorğu-sual olasıdır.
3. İnsanın bir çox hesabatları və ehtimalları batildir. Bəli, insan xəyalpərəstdir və peyğəmbərlərin göstərişi olmasa yolunu azar.
4. İlkin yaranış növbəti yaranış imkanına dəlildir.
5. Təkəbbürlülər bilməlidirlər ki, onlar zəif və puçdurlar.
6. Allah-taala insanı kamil surətdə yaratmış, bu işdə heç bir nöqsana yol verməmişdir.
7. İnsanın yaranış mərhələlərinin mütaliəsi məadla tanışlıq yollarındandır.
8. Kişi və qadın cinsi arasındakı tarazlıq Allahın qüdrət və hikmətini göstərir.
9. Əgər qiyamət olmasaydı, insanın yaranışı mənasız sayılmalı idi. Allah isə hikmət sahibdir və mənasız iş görmür!

## “İNSAN” SURƏSİ

### *(76-CI SURƏ; 31 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“İNSAN” SURƏSİNİN SİMASI*

Rəvayətdə nəql olunur ki, bir gün imam Həsən (ə) və imam Hüseyn (ə) xəstələnmişdilər. Peyğəmbər (s) müsəlmanlarla birlikdə onları yoxlamağa gəldi. Həzrət Əliyə (ə) təklif etdi ki, uşaqların sağalması üçün oruc nəzir etsin. Həmin nəzirdən sonra körpələr sağaldılar. Həzrət Əli (ə) və xanım Fatimə (s.ə.) üç gün oruc tutdular. Amma həmin üç gündə iftar üçün evdə yemək olmadı.

Həzrət Əli (ə) yəhudi Şəmundan bir miqdar arpa borc aldı. Onlar şörək bişirdilər. Şam vaxtı namazlarını qıldılar. İftar etmək istəyəndə bir miskin, bir yetim və bir sail qapını döydü. Onlar yeməyə bir şey istəyirdilər. Peyğəmbər (s) Əhli-beyti (ə) Allahın razılığına xatir öz süfrəsində olanları həmin şəxslərə verib su ilə iftar etdilər. Allah-taala Əhli-beytin (ə) bu isarı ilə bağlı hazırkı surəni nazil etdi.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2:***

**﴿هَلْ أَتَى عَلَى الْإِنسَانِ حِينٌ مِّنَ الدَّهْرِ لَمْ يَكُن شَيْئًا مَّذْكُورًا﴾﴿إِنَّا خَلَقْنَا الْإِنسَانَ مِن نُّطْفَةٍ أَمْشَاجٍ نَّبْتَلِيهِ فَجَعَلْنَاهُ سَمِيعًا بَصِيرًا﴾**

**“İnsan üçün elə bir dövr olub keçmişdirmi ki, yada salınası olmaya? Həqiqətən, biz insanı qatışıq nütfədən yaratdıq ki, onu sınağa çəkək. Onun eşidən və görən qərar verdik.”**

#### Nöqtələr

◘”Dəhr” dedikdə dövr, “ənşac” dedikdə qatışıq mənaları nəzərdə tutulur. “Əmşac” sözü “məşic” sözünün cəm formasıdır.

◘İmam Baqir (ə) bir rəvayətdə buyurur: “İnsan öncə xatırlanası deyildi, sonradan ona belə bir qabiliyyət verildi.”[1]

◘İmam Sadiq (ə) buyurur: “İnsanın varlığı Allah tərəfindən müəyyənləşdirilmişdi, amma hələ ki mövcud deyildi.”[2]

◘İmam Baqir (ə) buyurur: “Nutfətin ənşac” dedikdə cütlərin nütfəsinin qatışması nəzərdə tutulur.”[3]

◘Yatmış vicdanı oyatmaq üçün bəzən məsələ sual şəklində ortaya qoyulur. Məsələn, ana öz övladından soruşur: “Məgər sənə süd verən mən deyiləmmi?” Bu ayədə də məsələ

---

[1] “Təfsiri-Bürhan”
[2] “Təfsiri-kənzul-dəqaiq”
[3] “Təfsiri-nurus-səqəleyn”

sual şəklində ortaya qoyulur. Yəni həqiqətən, hər bir insanın yada salınmayası bir dövrü olub.

◘İnsanın dəyərsizliyi əslində təbii bir işdir. Amma insan öz əməlləri ilə özünü dəyərdən salır. Quranda buyurulur: “Ey kitab əhli! Əgər səmavi kitabı bərpa etməsəniz bir heçsiniz.”[1]

◘Quran insanın nütfədən yaranışını 16 dəfə qeyd edir. Bu təkrarlar həm Allahın qüdrətini bəyan edir, həm də insanı təkəbbürdən çəkindirir.

**Bildirişlər**

1. İnsan ilkin yaranışı haqqında düşünməlidir.
2. İnsan yaranışda yeni bir hadisədir.
3. İnsan tarix boyu təkamül yolu keçmiş, kamilləşmişdir. İnsanın vücuda malik olmadığı bir dövr olmuşdur.[2]
4. İnsanın öz zəiflikləri barədə düşünməsi onu təkəbbürdən çəkindirir, Allah qarşısında təslimçiliyə sövq edir.
5. İnsanın dəyərsiz nütfədən yaranışı Allahın əzəmət göstəricisidir.
6. Allah suyu formalaşdırmaqla qüdrətini nümayiş etdirir.
7. İnsan hikmət əsasında, məqsədli yaradılmışdır.
8. İnsan məsuliyyətli və vəzifəli varlıqdır.
9. Tarix boyu bütün insanlar ilahi sınaqdan keçmişdir.
10. Eşitmə və görmə kimi xüsusiyyətlər nümunə olaraq qeyd edilir. Əslində bütün bədən üzvləri sınağa çəkiləsidir.

***Ayə 3, 4:***

﴿إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا﴾﴿إِنَّا أَعْتَدْنَا لِلْكَافِرِينَ سَلَاسِلَا وَأَغْلَالًا وَسَعِيرًا﴾

**“Həqiqətən, biz ona (doğru) yol göstərdik, istər şükr etsin, istər nankorluq göstərsin; həqiqətən, biz kafirlər üçün zəncirlər, buxovlar və şölələnən od hazırlamışıq.”**

**Nöqtələr**

◘Hidayət bir neçə nöpv olur. Bəzən insan fitri şəkildə doğru yola yönəldilir. Qurani-kərimdə buyurulur ki, Allah bəşərin nəfsinə xeyir və şəri ilham etdi.[3] İnsan təhsil, düşüncə, məsləhət, təcrübə və mütaliə yolu ilə də hidayət ola bilər. Hidayətin başqa bir növü peyğəmbər və övliyaların təbliği ilə həyata keçir.

◘Təşəkkür bəzən qəlbdə özünü göstərir. İnsan bütün nemətlərin Allah tərəfindən verildiyinə inanır. Bəzən də əməli olaraq təşəkkür edilir. İnsan Allahın nemətlərini yalnız haqq yolda sərf edir. Təşəkkür dilə də aid ola bilər. İnsan dildə “Əlhəmdulillahi Rəbbil-aləmin” deməklə təşəkkür edir.

---

[1] “Maidə”, 68
[2] “Məryəm”, 67
[3] “Şəms”, 8

◘”Səlasil” sözü zəncir mənasını bildirən “silsilə” sözünün cəm formasıdır. “Əğlal” sözü “ğull” sözünün cəm formasıdır. O ”ğull” dedikdə boyundan asılan buxov nəzərdə tutulur. “Səir” sözü isə şöləlænən alov mənasında işlənir.
◘İmam Sadiq (ə) “əmimma şakirən və imma kəfura” ayəsi ilə bağlı buyurur: “Biz doğru yolu göstərdik, bu yolla getsələr də, getməsələr də.”[1]
◘”Səlasila və əvlala”, yəni maraqlarda zəncir, boyunda buxov.
◘İnsan bəndəlik və təşəkkül yolunda zəif və orta bir mərhələ adlayır. Azğınlıq və inkarda isə yüksək bir mərhələ keçir. Yəni onun şükrü adi, küfrü isə güclüdür. Bəzi nümunələri nəzərdən keçirək: insan çox məyusdur[2]; həqiqətən, insan çox zalımdır[3]; insan tələskən varlıqdır[4]; insan darbaxışlıdır[5]; insan çox həris və dözümsüzdür[6]; İnsana bir şər toxunduqda fəryad qoparır[7]; insan öz Rəbbinə qarşı çox nankor və paxıldır.”[8]

## Bildirişlər

1. İnsan agahlıq və azadlıqla sınağa çəkilir. O göz, qulaq, düşüncə, fitrət və təbliğlə agah olur. Azadlıq isə bütün insanlara verilmişdir.
2. Allah insana xəbərdarlığı başa çatdırır, höccəti tamamlayır.
3. Doğru yol birdir, azğın yol çox!
4. Hidayət şükr müqabilində bir nemətdir. Din yolunu getmək şükr, bu yoldan çıxmaq nankorluqdur.
5. Peyğəmbərlərin hidayətini, doğru yola çağırışını qəbul etməyənlər küfrün ən yüksək mərtəbəsindədirlər. (“Kəfur” küfrün zirvəsidir.)
6. Şükr etməyən kəs “kəfur”dır. Şükr və küfr arasında 3-cü yol yoxdur.
7. İnsanın tərbiyəsində xəbərdarlıq müjdədən çox rol oynayır. (Buna görə də Quran öncə xəbərdarlıq edir, sonra müjdələyir.)
8. İlahi cəzaların ölçüsü, meyarı var.
9. Hər seçimin öz sonluğu var. Küfrün sonu cəhənnəm, şükrün sonu behiştdir.

***Ayə 5, 6:***

**﴿إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِن كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا﴾﴿عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًا﴾**

**“Həqiqətən, xeyir əməl sahibləri kafur (ətirli ot) qatılmış qədəhdən içəcəklər; elə bir çeşmə ki, Allahın bəndələri ondan içər, onu istədikləri kimi axıdar.”**

---
[1] “Təfsiri-kənzul-dəqaiq”
[2] “Hud”, 9
[3] “İbrahim”, 34
[4] “İsra”, 11
[5] “İsra”, 100
[6] “Məaric”, 19
[7] “Məaric”, 20
[8] “Adiyat”, 6

### Nöqtələr

◘"Əbrar" sözü ya "bərr", ya da "barr" sözünün cəm formasıdır. Hər halda "bərr" dedikdə genişlik mənası anlaşılır. Çöl, səhra, biyaban geniş olduğundan "bərr" adlandırılır. Xeyir əməl sahibi olan insanın ruhu böyükdür. Bu qəbil insanlar bir iş gördükdə var-dövlət qazanmaq yox, ilahi məqsəd izləyirlər. Onların ehtiyaclılar üçün ətəyi geniş olduğu kimi mükafatları da böyükdür.

◘"Kafur" dedikdə sərinlik və bəyazlıqda zərbül-məsəl olmuş ətirli ot nəzərdə tutulur.

◘"Təfcir" sözü yırtmaq, yarmaq mənasını bildirir. Günahla həya pərdəsini yırtan insana "facir" deyilir. Amma "fəcr" dedikdə gecənin qaranlığını yaran nur nəzərdə tutulur.

◘Rəvayətlərə əsasən, hazırkı ayələrdə "əbrar" dedikdə Peyğəmbər (s) Əhli-beyti (ə) nəzərdə tutulmuşdur. Ayələrdə onların oruc nəzr etdiyi, öz iftirlarını yetim, miskin və əsirə verdiyi bəyan olunur.

Bəziləri bu surənin Mədinədə nazil olduğunu iddia etsələr də, onun Məkkədə nazil olduğunu bildirənlər də var. Onların nəzərincə Həsən və Hüseyn Mədinədə dünyaya göz açmışdır və bu əsasla ayələrin Əhli-beyt (ə) haqqında nazil olmadığı nəzərə gəlir. Çünki onların xəstəliyi, Peyğəmbərin (s) onları yoxlaması və valideynlərinin oruc tutması Mədinədə baş vermişdir.

Cavab olaraq deməliyik ki, bir çox Məkkə surələri arasında Mədinə ayələri var. Bu növ duanı həmin ayələrdəki "əsir" sözü də təsdiqləyir. Çünki Məkkədə əsir yox idi və yalnız Mədinəyə hicrətdən sonra müharibələrdə əsir götürülmüşdür.

### Bildirişlər

1. Ehsan və yaxşılıq Allaha şükr göstəricilərindəndir.
2. Behişt içkilərinə ətirli maddələr qatılmışdır.
3. Behişt nemətlərindən yalnız özünü bəndəlik mərhələsinə çatdıranlar fayadalanar.
4. Allah bəndələrinin dünyadakı məhrumiyyətləri qiyamətdə ödənər.
5. Peyğəmbər (s) Əhli-beyti (ə) məhrumlara yardıma görə "əbrar", Allaha itaətinə görə "ibadullah" adlandırılmışdır.
6. Allahın bəndələri xeyir əməllərə tələsir, xeyir əməl sahibləri Allaha bəndə olur.
7. Behişt əhlinin istəkləri həyata keçir.

***Ayə 7, 8, 9, 10:***

﴿يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا﴾﴿وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا﴾﴿إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا﴾﴿إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا﴾

**"Onlar nəzrlərini yerinə yetirər, şəri hər yeri bürüyəcək gündən qorxarlar; sevdikləri təamı yoxsul, yetim və əsirə verərlər; (deyərlər) biz Allahın razılığı üçün sizə təam verir, sizdən əvəz və təşəkkür istəmirik; həqiqətən, biz Rəbbimizdən sərt və ağır günə görə qorxuruq."**

### Nöqtələr

◘”Musəytir” sözü hakim olmaq mənasını bildirən “səytərə” sözündəndir. Bu söz əhatə mənasını ifadə edən “təyr” kökündəndir.

◘”Qəmtərir” dedikdə ağır bir şər nəzərdə tutulur.

◘Rəvayətlərə əsasən miskin, yetim və əsirə təam verilməsi bi gecədə baş vermiş hadisələrdir. Bəzi rəvayətlərdə isə bu hadisələrin üç gecədə baş verdiyi bildirilir.

◘”Yutimunəl-təamə əla hubbihi” dedikdə nəzərdə tutulur ki, Əhli-beyt (ə) həmin təamı sevdiyi halda başqalarına verdi. Bu nöqtə Quranda da vurğulanır. Bildirilir ki, sevdiyiniz şeylərdən infaq etməyincə yaxşılığa müvəffəq olmazsınız.”[1]

“Əl mizan” təfsirinin müəllifi buyurur: “Ayədə Allahın razılığına görə təam verildiyi bildirilir. Bu nöqtə Əhli-beytin (ə) Allaha məhəbbətindən danışır. Onların sevdikləri şeydən verməsi isə ixlasdan əlavə isardan söz açır.

◘Əgər ad-san və şöhrət sorağında olmasanız, Allah sizin adınızı əbədiləşdirər. Əhli-beytin (ə) gördüyü xeyir iş maddi baxımdan bir o qədər də əhəmiyyətli deyil. Amma bu iş xalis niyyətlə, səmimi şəkildə görüldüyü üçün Allah onu yaddaşlara yazdı.

◘Hazırkı ayədə miskin, yetim və əsir sözləri qeyri-müəyyən şəkildə işlədilir. Yəni təam verərkən seçim aparmadan hər kəsə infaq etmək lazımdır.

◘Pərvin Etisami infaqda ixlas haqqında deyir:

*Bir şəxs yolda dirhəm verib miskinə,*
*Söylədi ki dua edərsən mənə.*
*Hal əhli görüb çağırdı: ey ağa,*
*Verdiyin pul dəfn olundu torpağa.*

*İtaətdə çıxar özünü yaddan*
*Qəlb kor olur riya görünən zaman.*
*Allah üçün yaxşılıq et miskinə,*
*O yaxşılıq özü duaçı sənə.*

*Pərvin, yadda saxla bir şey verəm an*
*Qəlbində olmalı ancaq yaradan.*

◘Allah qorxusu dedikdə Allahın məqamı, əzəməti qarşısında qorxu nəzərdə tutulur.[2]

**Bildirişlər**

1. Əsil kamillik odur ki, yaxşılıq insanda xarakterə çevrilsin, davamlı şəkil alsın.
2. Verilən təamın və infaqın dəyərli olması üçün bu işdə insanın ehtiyaclarını nəzərə almaq lazımdır.
3. İslam yoxsulların, yetimlərin və əsirlərin hamisidir.
4. Kimi təamı, kimi təam verməyi sevir.
5. İnsanın özünün öz əli ilə verdiyi təam daha dəyərlidir.
6. Xalis niyyətlə verilən minnətsiz və umacaqsız yardımlar dəyərlidir.
7. Əmələ dəyər verən ondakı xalis niyyət və səmimiyyətdir.
8. Xeyir əməl sahibləri nəinki təşəkkür istəmir, hətta bu barədə düşünmürlər də.

---

[1] “Təfsiri-Bürhan”; “Məhasini-bərqi”, c. 2, s. 397
[2] “Ər Rəhman”, 46

9. Xeyirxah insanlar təşəkkür və əvəz gözləməsələr də, insanlar onların işlərinə biganə qalmamalıdır. “Qəsəs” surəsinin 25-ci ayəsində ouyuruq: “Həzrət Şüeyb qızını göndərdi ki, həzrət Musanın suya köməyinin əvəzini versin.”

10. İxlaslı olmaq üçün təkcə mükafat ummamaq bəs etmir. İnsan öz əməlinə görə təşəkkür də gözləməməlidir.

11. Nəzri yerinə yetirmək vacibdir. Onu yerinə yetirməyənlər Allahın qəzəbindən qorxsun.

12. Əgər yalnız Allaha xatir iş görsək xalqdan yox, təkcə Allahın qəzəbindən qorxarıq.

13. İlahi niyyət savab istəyi və ya cəza qorxusuna zidd deyil. Çünki savab və cəza da Allah tərəfindəndir.

14. Qiyamət günü təkcə insanlar yox, gün özü də qaraqabaqdır.

15. Həmin qaraqabaq gündən qurtuluş üçün bu gün miskin, yetim və əsirə münasibətdə qaraqabaq olmayaq.

***Ayə 11, 12, 13, 14, 15, 16, 17, 18:***

**﴿فَوَقَاهُمُ اللَّهُ شَرَّ ذَلِكَ الْيَوْمِ وَلَقَّاهُمْ نَضْرَةً وَسُرُورًا﴾﴿وَجَزَاهُم بِمَا صَبَرُوا جَنَّةً**
**وَحَرِيرًا﴾﴿مُتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ لَا يَرَوْنَ فِيهَا شَمْسًا وَلَا زَمْهَرِيرًا﴾﴿وَدَانِيَةً عَلَيْهِمْ**
**ظِلَالُهَا وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلًا﴾﴿وَيُطَافُ عَلَيْهِم بِآنِيَةٍ مِّن فِضَّةٍ وَأَكْوَابٍ كَانَتْ**
**قَوَارِيرَا﴾﴿قَوَارِيرَ مِن فِضَّةٍ قَدَّرُوهَا تَقْدِيرًا﴾﴿وَيُسْقَوْنَ فِيهَا كَأْسًا كَانَ مِزَاجُهَا**
**زَنجَبِيلًا﴾﴿عَيْنًا فِيهَا تُسَمَّى سَلْسَبِيلًا﴾**

**“Allah onları həmin günün şərindən qoruyar, onları böyük şadlıq və sevinclə rastlaşdırar; səbrlərinə görə onları böyük behişt, ipək örtüklə mükafatlandırar; orada taxtlara söykənərlər; nə günəş istisi, nə soyuq görərələr; ağacların kölgəsi başları üzərində dayanar, meyvə salxımları əlləri altında olar; ətraflarında gümüş qablar, büllur qədəhlər dolandırılar; müxtəlif hədlərlə ölçülənmiş gümüş büllurlar! Həmin behiştdə onlara zəncəvil qatılmış camlar içirilər; orada səlsəbil adlanan çeşmə var.”**

## Nöqtələr

◘”Nəzrə” dedikdə gözəllik və təravət nəzərdə tutulur. Digər bir ayədə də uyğun nöqtə qeyd edilir.[1]

◘”Zəmhərir” dedikdə sərt soyuq, “qutuf” dedikdə içmək, dərmək mənaları anlaşılır.

◘”Təzlil” sözü ram etmək, ixtiyarda qoymaq mənalarını bildirir.

◘”Əkvab” dedikdə “kasalar”, “qəvarir” dedikdə şüşələr mənası nəzərdə tutulur. “Səlsəbil” behişt çeşmələrindən birinin adıdır.

◘İmam Baqir (ə) “cəzaun bima səbəru” ayəsi ilə bağlı buyurur: “Xeyir əməl sahiblərinə dünya çətinlikləri müqabilində göstərdikləri səbr və dözümə xatir mükafat verilər.”[2] Həzrət Əli (ə) buyurur: “Gözümdə tikan, boğazımda bıçaq qalmış halda səbr

[1] “Qiyamət”, 22
[2] “Biharul-ənvar”, c. 75, s. 186

etdim."[1] İmam Hüseyn (ə) haqqında oxuyuruq: "Həqiqətən, sənin səbrin səmada mələkləri heyrətə gətirdi."[2]

◘Xeyir əməl sahibləri iki məqsədlə təam verir: Allahın razılığı və ondan qorxuya görə. Onlar hər iki məqsədlərinə çatırlar.

◘Səbr əhli nəinki qiyamətdə mükafatlandırılır. Hətta dünyada Allahın salam və salavatına nail olur.[3]

◘Behişt nemətləri yaxşılığın ən əla dərəcəsindədir. "Nəzrətən", "sururən", "cənnətən", "həririn" sözlərinin sonundakı tənvin ("ən") əzəmət göstəricisidir.

## Bildirişlər

1. Allah xalis niyyətli insanları öz məqsədinə çatdırır.
2. Allah qorxusunun səmərəsi bu qəzəbdən qurtuluşdur.
3. İnsan əməlinə münasib şəkildə mükafatlandırılmalı və ya cəzalandırılmalıdır. (İnsan məhrum təbəqələri qorumaqla qiyamat günü qorunmuş olur.)
4. Bu günkü qorxu sabahkı əmin-amanlıqdır. Bu gün kimisə sevindirmək səhəri gün insanın özünə sevinc gətirir.
5. Allah səbrə xatir mükafatlandırır.
6. Behişt əhli asayiş və arxayınçılıq içindədir.
7. Behiştin havası çox xoşdur.
8. Behiştdə bütün nemətlər xeyir əməl sahiblərinin ixtiyarındadır.
9. Behiştdə xidmətçilər pərvanə tək insanların başına fırlanır.
10. Behişt qabları behişt əhlinin zövqünə uyğun forma və ölçülərdə hazırlanmışdır.

***Ayə 19, 20, 21, 22:***

﴿وَيَطُوفُ عَلَيْهِمْ وِلْدَانٌ مُّخَلَّدُونَ إِذَا رَأَيْتَهُمْ حَسِبْتَهُمْ لُؤْلُؤًا مَّنثُورًا﴾﴿وَإِذَا رَأَيْتَ ثَمَّ رَأَيْتَ نَعِيمًا وَمُلْكًا كَبِيرًا﴾﴿عَالِيَهُمْ ثِيَابُ سُندُسٍ خُضْرٌ وَإِسْتَبْرَقٌ وَحُلُّوا أَسَاوِرَ مِن فِضَّةٍ وَسَقَاهُمْ رَبُّهُمْ شَرَابًا طَهُورًا﴾﴿إِنَّ هَذَا كَانَ لَكُمْ جَزَاء وَكَانَ سَعْيُكُم مَّشْكُورًا﴾

**"Onların ətrafında həmişə cavan oğlanlar dolanar; onları gördükdə səpələnmiş mirvari olduqlarını düşünərsən; oraya baxdıqda bol nemət və səltənət müşahidə edərsən; əyinlərində nazik və qalın atlasdan yaşıl libaslar olar; onlar gümüş qolbaqlarla zinətlənmişlər; rəbbləri onlara pak şərab içirər; həqiqətən, bu sizin üçün mükafatdır, səyləriniz təşəkkürə layiqdir."**

## Nöqtələr

◘İmam Kaizmdən (ə) soruşurlar ki, nə üçün bu surədə mükafat olaraq hurilərin adı çəkilmir? İmam buyurur: "Xanım Fatimənin (s.ə.) məqamına görə."[4]

◘İmam Sadiq (ə) həzrət Peyğəmbərdən (s) belə nəql edir: "Behişt əhli behiştə daxil olan vaxt əhatəli kölgəsi olan ağacla rastlaşarlar. Həmin ağacın altından iki çeşmə axar.

[1] "Nəhcül-bəlağə", xütbə 3
[2] "Biharul-ənvar", c. 98, s. 239
[3] "Rəd", 24; "Bəqərə", 155; "Muminun", 111
[4] "Mənaqib", c. 3, s. 328

Onlar bir çeşmədə yuyunar, o birindən içərlər. Ondan sonra bədənlərində heç bir narahatçılıq qalmaz. “Səqahum Rəbbuhum şərabən təhura” ayəsinin mənası budur."[1]

## *Behişt nemətləri*

◘Behişt nemətləri ilə dünya nemətləri arasında bir çox fərqlər var. Həmin fərqlərdən bəzilərini nəzərdən keçirək:

-Behişt nemətləri boldur[2];
-Behişt nemətləri mövsümi, müvəqqəti deyil[3];
-Behişt nemətlərindən bəhrələnən zaman heç bir maneə olmur[4];
-Behişt əhli oranın nemətlərindən istifadə edərkən seçim aparırlar[5];
-Hər növ istəyə uyğun nemət var[6];
-Behişt nemətlərindən istifadənin heç bir bəla və zərəri yoxdur[7];
-Behişt əhli oranın nemətlərindən heç bir zəhmətsiz bəhrələnir[8];
-Behişt xidmətçiləri insanların istədiyini onlar üçün hazırlayır;
-Behişt xidmətçiləri həm gözəldirlər, həm də qocalmırlar;
-İnsanlar tam rahatlıq içində ləzzət alırlar[9];
-Behiştdə paxıllıq və rəqabətə yer yoxdur[10];
-Nemətlər Allahın razılığı və salamı ilə müşayiət olunur[11];
-Möminlərin züryəti də onlara qoşulub kama çatar[12];
-Behişt əhli Allahın övliyaları ilə qonşu olar[13];
-Behişt nemətləri çeşidlidir.[14]

## Bildirişlər

1. Behiştdə istiqbalın səciyyəvi xüsusiyyətləri var: behiştdə insanların istiqbalına çıxanlar daim onların ətrafındadır və hansısa istəyə ehtiyac yoxdur; behiştdəki məsullar behişt əhlini hər tərəfdən görür; behişt əhlinin istiqbalına çıxanlar cavanlardır[15]; onların qiyafələri mərcan kimi işıq saçır; behişt əhlinin hökuməti əhatəlidir, istiqbala çıxanların libasları yaşıl rəngdə nazik və qalın ipəkdəndir; behişt əhlinə Allah-taala özü pak şərab içirər (İmam Sadiq (ə) buyurur: “Bu şərab behişt əhlinin qəlbini Allahdan qeyrilərindən paklayar”[16]).

---

[1] “Bihar”, c. 8, s. 212
[2] “Vaqeə”, 32
[3] “Vaqeə”, 33
[4] “Vaqeə”, 33
[5] “Vaqeə”, 20
[6] “Vaqeə”, 21
[7] “Vaqeə”, 19
[8] “İnsan, 14
[9] “Yasin”, 56
[10] “Vaqeə”, 16
[11] “Tövbə”, 71; “Yasin”, 58
[12] “Tur”, 21
[13] “Duayi-nudbə”
[14] “Muhəmməd”, 15
[15] “Tur”, 24
[16] “Təfsiri-məcməul-bəyan”

2. Behişt ilahi bir fəzl və lütf olsa da, Allah-taala onu xeyir əməl sahibləri üçün muzd sayır ki, onlar bununla fəxr etsinlər.

3. Allah işin kəmiyyət və miqdarına görə yox, insanın niyyəti və işin keyfiyyətinə görə mükafatlandırır. (Bəli, ixlas və isar səbəbindən bir tikə arpa çörəyi müqabilində böyük mükafat verilir)

4. İnsanlardan mükafat və təşəkkür gözləməyən kəsi Allah özü mükafatlandırır, ona təşəkkür edir.

5. Başqalarının təlaşları müqabilində təşəkkür ilahi sifətlərdəndir.

6. Dəyərsiz nütfədən yaranmış insan iman, saleh əməl, ixlas və isar sayəsində elə bir məqama yüksəlir ki, varlıq aləminin yaradıcısı ona təşəkkür edir.

### *Ayə 23, 24, 25:*

﴿إِنَّا نَحْنُ نَزَّلْنَا عَلَيْكَ الْقُرْآنَ تَنزِيلًا﴾﴿فَاصْبِرْ لِحُكْمِ رَبِّكَ وَلَا تُطِعْ مِنْهُمْ آثِمًا أَوْ كَفُورًا﴾﴿وَاذْكُرِ اسْمَ رَبِّكَ بُكْرَةً وَأَصِيلًا﴾

**“Həqiqətən, biz özümüz Quranı sənə nazil etdik; Rəbbinin hökmü qarşısında səbirli ol, heç bir günahkar ya nankora itaət etmə; sübh və axşam Rəbbinin adını zikr et.”**

### Nöqtələr

◘”Bukrə” dedikdə sübh fəcr tülusu ilə günəşin doğuşu arasındakı fasilə nəzərdə tutulur. “Əsil” isə günortadan sonra ilə (əsrlə) qürub və günün sonu arasındakı fasilədir. Olsun ki bu iki təbir günün əvvəli və sonunda Allahın zikrinə, namaza işarədir.

### Bildirişlər

1. Qurana qarşı böhtanlara, onun sehr və kahinlik adlandırılmasına cavab verin.
2. Quran tədricən nazil olmuşdur.
3. Quranın əmrlərini işə salmaq üçün səbr və müqavimətə ehtiyac var.
4. Səbr və möhkəmlik şəxsi səliqələrin qəbul etdirilməsində yox, ilahi əmrlərin yerinə yetirilməsində dəyərlidir.
5. İlahi əmrlər insanın inkişafı üçündür.
6. Peyğəmbərlər ilahi moziələrə ehtiyaclıdır.
7. Günahkarlar çalışırlar ki, müsəlmanların rəhbərliyinə nüfuz etsinlər.
8. Allah zikri insanın səbr və müqavimətini artırır.
9. Günün başlanğıcı və sonu Allah zikri üçün münasib vaxtlardandır.

### *Ayə 26:*

﴿وَمِنَ اللَّيْلِ فَاسْجُدْ لَهُ وَسَبِّحْهُ لَيْلًا طَوِيلًا﴾

**“Gecənin bir hissəsini onun üçün səcdə et; və gecənin uzun bir hissəsini ona təsbihlə məşğul ol; həqiqətən, qullar ötəri həyatı sevir, ağır günə (qiyamətə) arxa çevirirlər.”**

### Nöqtələr

◘İbadət əmri və kiçik bir ayədə “ləyl” sözünün təkrarı gecələr ibadətin əhəmiyyətindən danışır.

◘İmam Sadiq (ə) və imam Rizadan (ə) gecənin uzun bir hissəsi ibadət haqqında soruşulduqda buyururlar: “Nəzərdə gecə namazı tutulur.”[1]

**Bildirişlər**

1. Dünyaya məhəbbət və bağlılıq günah və küfr qaynağı, günahkarlıq nişanəsidir.
2. Dünya ötəri və davamsızdır.
3. Dünyapərəstlik və axirətə arxa çevrilməsi günahkarlıq üçün zəmindir.
4. Qiyamət çox ağır bir gündür.
5. Dünyanın ötəriliyinin və qiyamət gününün ağırlığının nəzərə alınması insanı dünya əsarətindən qurtaran amillərdəndir.

***Ayə 28, 29, 30, 31:***

﴿إِنَّ هَؤُلَاء يُحِبُّونَ الْعَاجِلَةَ وَيَذَرُونَ وَرَاءهُمْ يَوْمًا ثَقِيلًا﴾﴿نَحْنُ خَلَقْنَاهُمْ وَشَدَدْنَا أَسْرَهُمْ وَإِذَا شِئْنَا بَدَّلْنَا أَمْثَالَهُمْ تَبْدِيلًا﴾﴿إِنَّ هَذِهِ تَذْكِرَةٌ فَمَن شَاء اتَّخَذَ إِلَى رَبِّهِ سَبِيلًا﴾﴿وَمَا تَشَاؤُونَ إِلَّا أَن يَشَاء اللَّهُ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا﴾﴿يُدْخِلُ مَن يَشَاء فِي رَحْمَتِهِ وَالظَّالِمِينَ أَعَدَّ لَهُمْ عَذَابًا أَلِيمًا﴾

**“Bizik onları yaradan, oynaqlarını möhkəmlədən. Nə vaxt istəsək onların yerinə özləri kimisini gətirərik; doğrudan da bu ayələr xəbərdarlıq vasitəsidir; hər kəs istəsə, Rəbbinə doğru yol tutar; yalnız Allah istəsə siz də bir şey istəyə bilərsiniz; həqiqətən, Allah bilən və hikmət sahibidir; o istədiyinə mərhəmət qılır; zalımlar üçün ağrılı əzab hazırlanmışdır.”**

**Nöqtələr**

◘”Əsr” dedikdə bəndlərlə bağlamaq nəzərdə tutulur. Bəndə salınmış, bağlanmış insan əsir adlanır. “Şədədna əsrəhum” yəni insanın bəndlə oynaqlarını möhkəmlətdik.

**Bildirişlər**

1. Küfr və tüğyan insanın məhvi üçün zəmindir.
2. Allahın insanı yaratmaq gücü onun insanı məhv etmək gücündən danışır.
3. Allah xəbərdarlığı başa çatdırmış, höccəti tamamlamışdır.
4. Quran xəbərdarlıq vasitəsidir.
5. Allahın yolu məcburi deyil. İstəyən səadətə çatır. İnsan özü yol seçib, bu yolu keçməlidir.
6. İnsanın istəyi Allahın istəyindən önəmli deyil və ona bağlıdır. Yalnız Allah istədiyi təqdirdə insanın istəyi həyata keçir.
7. Allahın təqdiri elm və hikmətə əsaslanır.
8. Allahın hikmətli tədbirləri əsasında mərhəmət istəyənlər mərhəmətə çatır.
9. İlahi mərhəmətdən uzaq qalanlar özləri zülm yolunu seçmişlər.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

## “MURSƏLAT” SURƏSİ

### *(77-Cİ SURƏ; 50 AYƏ)*

### *İYİRMİ DOQQUZUNCU CÜZ*

### *“MURSƏLAT” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 50 ayədən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Mursəlat” dedikdə Allah tərəfindən müxtəlif məqsədlərlə göndərilmiş mələklər nəzərdə tutulur.

Bu surə “Ənbiya”, “Qəmər”, “Həcc”, “Vaqeə”, “Haqqə”, “Qiyamət”, “Nəbə”, “Təkvir”, “İnfitar”, “İnşiqaq”, “Ğaşiə”, “Qariə”, “Zilzal” surələri kimi məada aid ayələrlə başlayır.

Bu surədə də “Fatir”, “Zariyat”, “Naziat” surələrində olduğu kimi mələklərə andla sözə başlanılır.

Surədə “vəylun” yəvməizn lil mukəzzibin” ayəsi 10 dəfə təkrarlanmışdır. Təkrar baxımından surə “Ər Rəhman” və “Qəmər” surələrinə bənzəyir.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7:***

﴿وَالْمُرْسَلَاتِ عُرْفًا﴾﴿فَالْعَاصِفَاتِ عَصْفًا﴾﴿وَالنَّاشِرَاتِ نَشْرًا﴾﴿فَالْفَارِقَاتِ
فَرْقًا﴾﴿فَالْمُلْقِيَاتِ ذِكْرًا﴾﴿عُذْرًا أَوْ نُذْرًا﴾﴿إِنَّمَا تُوعَدُونَ لَوَاقِعٌ﴾

**“And olsun ardıcıl göndərilənlərə; şiddətli tufanlara (and olsun); (haqqı) nəşr edib yayanlara and olsun; o kəslərə ki (haqqı batildən) kamil şəkildə fərqləndirərlər; (peyğəmbərlərə vəhyi) zikri təlqin edənlərə and olsun; üzr, ya xəbərdarlıq üçün (vəhyi çatdıranlara); həqiqətən, sizə vəd olunan şey gerçəkləşəsidir.”**

#### Nöqtələr

◘”Urf” dedikdə işin ardıcıllığı nəzərdə tutulur. Atın düzümlü yalına da urf deyirlər. Bu söz yaxşı, bəyənilmiş mənalarını da ifadə edir. “Məruf” sözü bu sözdəndir.

◘Surənin başlanğıcındakı beş and üç şəkildə təfsir olunur:

a) Bəzi təfsirçilərin nəzərincə ayələrdə külək və tufanlar nəzərdə tutulur[1];

b) Bəzilərinin əqidəsincə, ayələrdə müxtəlif mələklər nəzərdə tutulmuşdur[2];

c) Bəziləri isə elə düşünürlər ki, 1-ci və 2-ci ayədə külək və tufan, 3-cü, 4-cü və 5-ci ayələrdə mələklər nəzərdə tutulur. 3-cü ayənin əvvəlindəki “vav” (“və”) bağlaıcısı uyğun ölçüyə səbəb sayılır. Çünki “vav” ayrılma, “fa” birləşmə göstəricisidir.

---

[1] “Təfsiri-kəbiri Fəxr Razi”

[2] “Təfsirul-mizan”

◘"Əl asifat" sözü şiddətli külək mənasını bildirən "asəf", sözünün cəm formasıdır. "Yunus" surəsinin 12-ci ayəsində uyğun söz şiddətli külək mənasında işlədilmişdir. Başqa surələrdə də həmin təbirlə rastlaşırıq.[1]

◘Əgər "asifat" sözünü mələklər mənasında tərcümə etsək ayə belə anlaşılar ki, mələklər Allahın əmrlərini ciddi və sürətlə yerinə yetirilər. Oxşar məzmunlu başqa ayələr də var.[2]

◘Küləklər və mələklərə yanaşı şəkildə and içilməsinin səbəbi onlar arasındakı oxşarlıq ola bilər. Həm mələklər, həm də küləklər lətif və sürətlidir, yaranış və müdiriyyətdə müəyyən rol oynayırlar.

◘"Mulqiyat" sözü cəm formada işlədilmişdir. Bunun səbəbi vəhy mələyi Cəbraillə yanaşı mələklərin nazil edilməsi ola bilər. Başqa bir səbəb də göstərmək mümkündür. İnsana xəbərdarlıq və təlqin həm mələklər, həm fərdlər, həm də hadisələrlə həyata keçə bilər.

◘Allah-taala insanlara xəbərdarlığı başa çatdırır, höccəti tamamlayır. Bununla da heç bir bəhanə və üzürxahlığa yer qalmır. "Taha" surəsinin 134-cü ayəsində oxuyuruq: "Əgər peyğəmbərlərin gəlişindən qabaq insanları həlak etsəydik üzr istəyib deyərdilər: nə üçün bundan öncə peyğəmbər göndərmədin ki, ona tabe olub əzaba düşməyək?!"

◘"Naşirat", "fariqat", "mulqiyat" sifətlərində tabii bir ardıcıllıq var. Yəni öncə mələklər maarifi yaymalı, sonra yayılmış maarif sayəsində haqq batildən seçilməli, nəhayət, zikr təlqin edilməlidir.[3]

**Bildirişlər**

1. Allah tərəfindən göndərilən şeylər müqəddəsdirvə onlara and içmək olar.
2. Allahın lütfü daimi, ardıcıldır. (Bu məna o zaman ödənir ki, "urf" sözü ardıcıl mənasında qəbul edilsin)
3. Allah tərəfindən nazil olan hər nə xeyirdir. (Bu məna o zaman ödənir ki, "urf" sözü xeyir mənasında qəbul olunsun)
4. Varlıq nizamında külək də əbəs yerə əsmir.
5. Mühüm tapşırıqlar sürətlə yerinə yetirilməlidir.
6. İlahi dünya görüşündə mülayimliyin öz yeri, sərtliyin öz yeri var.
7. Nəşr edib yaymaq hansısa çərçivələri aşmaq demək deyil.
8. Varlıq nizamında iş bölgüsü var, hərəyə bi iş tapşırılmışdır. Bu bölgü müvəffəqiyyətli müdiriyyət göstəricisidir.
9. İlahi nizamda həm təbiət, həm də şəriət işləkdir.
10. Təlim-tərbiyə işlərində mövzu qarşı tərəfə açıqlanmalıdır.
11. İstənilən bir zikr, ilham, elm və təlqin Allah tərəfindəndir.
12. Allah haqq və batil arasında fərq qoymaqla həm xəbərdarlığı başa çatdırmış, həm də xəbərdarlıq etmişdir.
13. Tərbiyəvi tədbirlərdə bəhana yolları kəsilməlidir.
14. Qiyamətin bərpası kimi mühüm işlər üçün müxtəlif andlar faydalı və təsirlidir.
15. İnsan qiyamətlə bağlı xatırlatmalara daim möhtacdır.

---

[1] "Fil", 5; "Ər Rəhman", 12
[2] "Nəhl", 50; "Ənbiya", 27
[3] "Təfsiriul mizan"

### *Ayə 8, 9, 10, 11, 12, 13, 14:*

﴿فَإِذَا النُّجُومُ طُمِسَتْ﴾﴿وَإِذَا السَّمَاءُ فُرِجَتْ﴾﴿وَإِذَا الْجِبَالُ نُسِفَتْ﴾﴿وَإِذَا الرُّسُلُ أُقِّتَتْ﴾﴿لِأَيِّ يَوْمٍ أُجِّلَتْ﴾﴿لِيَوْمِ الْفَصْلِ﴾﴿وَمَا أَدْرَاكَ مَا يَوْمُ الْفَصْلِ﴾

**“O zaman ki ulduzlar məhv olar; o zaman ki, səma parçalanar; o zaman ki, dağlar kökündən qoparılar; o zaman ki, peyğəmbərlər üçün (şəhadət versinlər deyə) vaxt təyin olunar; (soruşular) hansı gün üçün əcəl təyin olunub? Mühakimə günü üçün; sən nə bilirsən ki mühakimə günü nədir?”**

### Nöqtələr

◘”Təms” dedikdə məhv olmaq, aradan götürülmə mənaları anlaşılır. Olsun ki, günəşin nurunun aradan getməsi nəzərdə tutulmuşdur.

◘”Fərc” dedikdə yarıq mənası anlaşılır. Ayədə səmanın yaraılması, parçalanması nəzərdə tutulur.

◘”Uqqitət” sözü “vəqt” sözündən olub qiyamətdə peyğəmbərlər üçün vaxt təyin edilməsinə işarədir. Başqa ayələrdə də uyğun məzmunla rastlaşırıq.[1]

◘Qiyamətin adlarından biri də “yəvmul-fəsl”, yəni ayrılıq günüdür. “Həcc” surəsinin 17-ci ayəsində buyurulur ki, Allah-taala qiyamət günü onların arasında ayrılıq salar.

◘Bu ayələrdə qiyamətin əzəməti üç təbirlə yada salınır: “Li əyyi yəvmin uccilət, liyəvmil-fəsl, və ma ədrakə ma yəvmul-fəsl.” “Yəvm”, “gün” sözünün təkrarı əzəmət göstəricisidir.

◘Qurani-kərimin digər ayələrində də oxşar ayə ilə rastlaşırıq.[2]

### Bildirişlər

1. Varlıqdakı nizam qiyamət günü pozular. Ulduzlar məhv olar, səma parçalanar. Bu barədə Quranda dəfələrlə xəbərdarlıq olunur.
2. Qiyamətin mahiyyətini yalnız vəhy yolu ilə öyrənmək mümkündür.
3. Bir mövzudan ki, peyğəmbər lazımınca xəbərdar deyil, başqaları necə xəbərdar olsun?!
4. Qiyamət günü peyğəmbərlərin ümmətlərə şəhadəti üçün müəyyən vaxt təyin olunmuşdur.

### *Ayə 15, 16, 17, 18, 19:*

﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿أَلَمْ نُهْلِكِ الْأَوَّلِينَ﴾﴿ثُمَّ نُتْبِعُهُمُ الْآخِرِينَ﴾﴿كَذَٰلِكَ نَفْعَلُ بِالْمُجْرِمِينَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾

**“Həmin gün vay halına təkzib edənlərin; məgər öncəkiləri həlak etmədik? Sonra başqalarını da onların ardınca gətirərik; biz günahkarlarla belə rəftar edirik; vay olsun həmin gün təkzib edənlərin halına.”**

---

[1] “Maidə”, 109

[2] “Təkvir”, 2; “İnşiqaq”, 1; “Taha”, 105; “Maidə”, 109

## Nöqtələr

◘Bu surədə “Vay olsun təkzib edənlərin halına” cümləsi dəfələrlə təkrar olunur. Bir neçə ayədən sonra həmin ayə ilə rastlaşırıq. “Vəyl” (vay olsun) ifadəsi əzabla qorxudulan zaman işlədilir. Rəvayətlərə əsasən cəhənnəmdə xüsusi bir vadi və ya cəhənnəm qapılarından biri belə adlanır.

## Bildirişlər

1. Dini təkzib edənlər məhv olmaq təhlükəsi ilə üzbəüzdürlər. Allahın onlara qəzəbi ilahi bir sünnə, qanundur.
2. Keçmişdəkilərin tarixini bəyan etməklə hazırkı insanların yatmış vicdanını oyadın.
3. Dinin təkzibi ilə tarix boyu rastlaşmaq olar.
4. Din çərçivəsini aşmış mədəniyyətlər süquta uğrayır, başqa mədəniyyətlə əvəz olunur.
5. Cəmiyyətdə günah və fəsadın kökü din və dini dəyərlərin təkzibidir.
6. Allahın qəzəbi qanunauyğundur və yalnız günahkarları yaxalayır.
7. İlahi əzablar intiqam üçün deyil, insanların öz qazancıdır.

***Ayə 20, 21, 22, 23, 24:***

﴿أَلَمْ نَخْلُقكُّم مِّن مَّاء مَّهِينٍ﴾﴿فَجَعَلْنَاهُ فِي قَرَارٍ مَّكِينٍ﴾﴿إِلَى قَدَرٍ مَّعْلُومٍ﴾﴿فَقَدَرْنَا فَنِعْمَ الْقَادِرُونَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾

**“Biz sizi dəyərsiz bir sudan yaratmadıq? Onu möhkəm bir yerdə qərar verdik; müəyyən bir müddətədək; sonra ölçü apardıq və biz necə də yaxşı ölçü aparırıq; vay olsun həmin gün təkzib edənlərə.”**

## Nöqtələr

◘”Məhin” dedikdə həqir, alçaq, zəif, az mənası nəzərdə tutulur. “Məkin” sözü möhkəm mənasını bildirir.

◘Bir məhsulun istehsalı üçün müəyyən vasitələr və şəraitə ehtiyac var. Məqsədin təyini, maddələrlə təminat, layihə və proqram, zaman bölgüsü, istehsaldan sonrakı xidmətlər, təmir və islah zəruri mərhələlərdir. İnsanın yaranışında bütün bu mərhələlər nəzərə alınmış və icra edilmişdir: məqsəd insanın azad şəkildə təkamülüdür[1]; insanın ilkin maddəsi torpaq və nütfədir; istehsal məhəlli möhkəm bir qərargahdır; insan proqramla yaradılır; onun yaranışında zaman bölgüsü var; xarici nəzarətlə yanaşı batini proqram icra edilir[2]; yaranışdan sonra da ona xidmət göstərilir[3]; tövbə və bağışlanma ilə islahat gedir.[4]

◘Yaranışda ən böyük məharət budur ki, Allah insan kimi mürəkkəb bir varlığı bir damla sudan xəlq edir. Hansı sənətkarda belə bir qüvvə var?!

---

1 “Zariyat”, 56
2 “Şəms”, 8; “İnsan”, 3; “Ləyl”, 12
3 “Zuxruf”, 32
4 “Tövbə”, 104; “Ənam”, 54

◘Allah insanın yaranışı ilə bağlı özünə əhsən söyləyir[1], hazırkı ayədə bu işin ölçü ilə aparıldığını nəzərə çatdırır. Bəli, Allah-taala ən üstün yaradan və ölçü aparandır.

◘”Nimǝl qadirun” ifadəsi iki şəkildə mənalandırıla bilər.

a) Özündən əvvəlki sözə əsasən burada işin ölçü ilə aparıldığı nəzərdə tutulur.

b) İnsanın yaranışında böyük bir qüdrətə ehtiyac olduğundan bu söz qüdrət kimi də mənalandırıla bilər. Allah-taala insanın yaranışında misilsiz qüdrət göstərmişdir.

◘Allah bütün işlərdə üstündür: O ən üstün yardımçı, ən üstün qəyyum[2], ən üstün sığınacaq[3], ən üstün qayğı göstərən[4], istəkləri ən üstün şəkildə yerinə yetirən[5], ən üstün mükafatlandıran[6], ən üstün qüdrət və təqdir sahibidir.

**Bildirişlər**

1. İnsanın dəyərsiz sudan yaranışı ilahi əzəmət və qüdrət göstəricisi, məad və yenidən dirçəlişə dəlildir.
2. Keçmiş zəifliklərin və çarəsizliklərin yada salınması insanın təkəbbürünü aradan qaldırır.
3. Dəvət və təbliğdə hiss olunan məsələləri açıqlayın.
4. İş və istehsalda Allahdan öyrənək, möhkəmlik və davamlılıq şərtlərinə əməl edək.
5. Ölçü və zaman bölgüsü ilahi yaranış prinsiplərindəndir.
6. Körpə bətndə dəqiq ilahi ölçülər əsasında inkişaf edir.

***Ayə 25, 26, 27, 28, 29, 30, 31, 32, 33, 34:***

**﴿أَلَمْ نَجْعَلِ الْأَرْضَ كِفَاتًا﴾﴿أَحْيَاء وَأَمْوَاتًا﴾﴿وَجَعَلْنَا فِيهَا رَوَاسِيَ شَامِخَاتٍ وَأَسْقَيْنَاكُم مَّاء فُرَاتًا﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿انطَلِقُوا إِلَى مَا كُنتُم بِهِ تُكَذِّبُونَ﴾﴿انطَلِقُوا إِلَى ظِلٍّ ذِي ثَلَاثِ شُعَبٍ﴾﴿لَا ظَلِيلٍ وَلَا يُغْنِي مِنَ اللَّهَبِ﴾﴿إِنَّهَا تَرْمِي بِشَرَرٍ كَالْقَصْرِ﴾﴿كَأَنَّهُ جِمَالَتٌ صُفْرٌ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾**

**“Məgər yeri dirilər və ölülər ictima məhəlli qərar vermədik? Orada möhkəm və uca dağlar yaratdıq, sizə şirin su içirdik; həmin gün vay olsun təkzib edənlərə! (Günahkarlara deyilər) Gedin təkzib etdiklərinizə doğru; gedin üç şaxəli kölgəyə doğru; o nə soyuqdur, nə də od şölələrindən amandadır; həqiqətən, cəhənnəm qəsr boyda qığılcımlar saçar; onlar sarı tüklü dəvələr kimidir; həmin gün vay olsun təkzib edənlərə!”**

**Nöqtələr**

---
[1] “Muminun”, 14
[2] “Ənfal”, 40
[3] “Ali-İmran”, 173
[4] “Zariyat”, 48
[5] “Saffat”, 75
[6] “Ali-İmran”, 136

◘”Kifat” dedikdə bir şey qoyulmuş və ya nələrinsə toplandığı məhəl nəzərdə tutulur. Rəvayətdə bildirilir ki, imam Sadiq (ə) qəbristanlığa baxıb buyurdu: “Bura ölülərin kifatıdır.” Sonra evlərə baxaraq buyurdu: “Bunlar isə dirilərin kifatıdır.”[1]

◘”Zilli zi səlasi şüəb” dedikdə cəhənnəm odunun böyük tüstüsündən yaranan kölgə nəzərdə tutulur. Təbii ki, belə bir kölgə rahatlıq yox, əzab-əziyyətə səbəb olur, hətta yandırıcıdır. Bu tüstü o qədər əzəmətlidir ki, budaqlara bölünür, bir şaxəsi baş üzərinə, bir şaxəsi sağ tərəfə, bir şəxəsi sola yüksəlir. O cəhənnəm əhlini bürüyüb kamına alır. Cəhənnəm odundan qalxan şölələr dünyadakı uca qəsrlər kimidir. Onlar sarı rəngli dəvələrə bənzəyir. Quran sanki sarayda yaşayanları, qızıl-gümüş toplayanları qəsr kimi uca qığılcımlarla hədələyir.

◘”Şamixat” sözü uca dağlar, “furat” sözü şirin su mənasını bildirir.

◘”Zullin zəlil” dedikdə daimi kölgə, “zullin la zəlil” dedikdə faydasız və sərinliyi olmayan kölgə nəzərdə tutulur.

◘”Cimalət” sözü dəvə mənası bildirən “cəməl” sözünün cəm formasıdır. “Sufr” sözü sarı mənasını bildirən əsfər sözünün cəmidir.

◘Allah-taala yer üzünü genişləndirməklə, onun hərəkətini nizamlamaqla, dağlar vasitəsi ilə onu aramlaşdırmaqla, insanların ehtiyac duyduğu şirin su təminatı ilə, müxtəlif bitkilər və heyvanlar yaratmaqla yaşayış üçün ən münasib formaya salmışdır. Yer üzü sanki mikrobları öldürən bir mexanizimdir. Torpaq bulaşıq suyu alıb saf su verir. Saflaşdırma prosesi təbii, pulsuz, daimi, ümumi, xətasız həyata keçir. Doğrudan da, torpaq olmasaydı, üfunət yer üzünü bürüyərdi.

◘Allahın əzabı günahkarları hər tərəfdən əhatəyə alır. Bəli, günahkarın qaçmaq üçün yolu yoxdur. Yeganə yol cəhənnəmə doğrudur. Digər ayələrdə də uyğun məfhum təsdiqlənir.[2]

## Bildirişlər

1. Yer üzü canlılar üçün ən münasib məhəldir. Onun köksü isə ölülər üçün daha münasibdir.
2. Dağlar su təminatı üçün münasib mənbələrdir.
3. Qiyamət səhnəsi o qədər ağrılıdır ki, həmin səhnədən cəhənnəmə yola düşənlər sanki rahatlığa çıxır.
4. Cəhənnəmi qatı toz bürümüşdür. Onun kölgəsində heç bir rahatçılıq yoxdur.
5. Dünyada haram yolla əldə edilən saraylar və sərmayələr qiyamətdə cəhənnəm qığılcımlarına çevrilər.
6. Cəhənnəm alovunun şölələri qəsr kimi ucalıb, dəvə kimi qalxdığı vaxt həmin odun öz dəhşətinə bax!
7. Bütün günahların kökü puç əqidələrdir. Etiqadı olmayan və haqqı təkzib edən kəs istənilən bir günaha batır.

### *Ayə 35, 36, 37, 38, 39, 40:*

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Həcc”, 22; “Kəhf”, 29

﴿هَذَا يَوْمُ لَا يَنطِقُونَ﴾﴿وَلَا يُؤْذَنُ لَهُمْ فَيَعْتَذِرُونَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿هَذَا يَوْمُ الْفَصْلِ جَمَعْنَاكُمْ وَالْأَوَّلِينَ﴾﴿فَإِن كَانَ لَكُمْ كَيْدٌ فَكِيدُونِ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾

**“Günahkarların həmin gün danışmağa sözü yoxdur; onlara üzr istəmək üçün icazə verilməz; həmin gün vay olsun təkzib edənlərə bu gün sizinlə keçmişdəkiləri bir yerə topladığımız ayrılığ günüdür; əgər çarəniz varsa bir iş görün, həmin gün vay olsun təkzib edənlərə!”**

**Nöqtələr**

◘Qiyamətin müxtəlif dayanacaqları var. Dayanacaqlardan birində dodaqlara möhür vurular, insanın danışmaq imkanı olmaz.[1] Digər bir dayanacaqda günahkarlar öz aralarında danışıb nalə çəkər.

◘İmam Sadiq (ə) buyurur: “Allah ədalətlidir və üzürlü bəndənin sözünü kəsməz. Amma üzrü olmayan bəndəyə ilahi məhkəmədə danışmaq icazəsi verilməz.[2]

◘İnsan dünyada özünü və başqalarını aldada bilir. Qızıl-gümüş, dünya bəzəyi, yalan vədlər, rüşvət, oğurluq əlaqələri vasitəsi ilə vəziyyətdən çıxmaq olur. Amma qiyamətdə bütün bu yollar bağlanır.

**Bildirişlər**

1. Qiyamətdə günahkarlar ya qorxudan, ya faydasız olduğu üçün, ya ağızları möhürləndiyindən, ya da məsələlər aydın olduğundan danışmazlar.
2. Təbliğdə təkrar təbliğatçı və tərbiyəçini yormamalıdır. Bu surədə bir ayə on dəfə təkrarlanır.
3. Qiyamət həm toplanış, həm də ayrılıq günüdür. (Bir tərəfdən hamı bir yerə toplanır, digər bir tərəfdən yaxşılar pislərdən ayrılır)[3]
4. Qiyamət üzürxahlıq yox, mühakimə günüdür.
5. Qiyamətdə nə qaçmağa yol var, nə aldatmaq mümkündür, nə fidyə (günahın əvəzi) qəbul olunur.
6. Qiyamətdə günahkarlar çarəsizdir və çıxış yolu tapa bilmirlər.

***Ayə 41, 42, 43, 44, 45:***

﴿إِنَّ الْمُتَّقِينَ فِي ظِلَالٍ وَعُيُونٍ﴾﴿وَفَوَاكِهَ مِمَّا يَشْتَهُونَ﴾﴿كُلُوا وَاشْرَبُوا هَنِيئًا بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾﴿إِنَّا كَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾

**“Həqiqətən, təqvalılar kölgəliklərdə və çeşmə başında olarlar; istədikləri meyvədən var; əməlləriniz müqabilində yeyin və için, nuş olsun! Həqiqətən, biz xeyir əməl sahiblərini bu sayağı mükafatlandırarıq; həmin gün vay olsun təkzib edənlərə!”**

**Nöqtələr**

---

[1] “Yasin”, 65
[2] “Kafi”, c. 8, s. 178
[3] “Kəhf”, 47

◘Ötən ayələrdə Allah-taala cəhənnəmin xüsusiyyətlərini, üç şöləli tüstü və odu yada saldı. Bu ayədə təqva əhli üçün nəzərdə tutulmuş üç nemətdən danışılır.

◘"Həniən" sözü o zaman işlənir ki, nemət kamil şəkildə dadlı olsun və hansısa acılıqla müşayiət edilməsin.

◘Quranın tərbiyə üsullarından biri də müqayisə aparmaqdır. Hazırkı ayələrdə müttəqiləri gözləyən mükafatdan, eyni zamanda günahkarları soraqlayan cəzadan danışılır.

Sual: Nə üçün behiştlə bağlı ayədən sonra da təkzibçilərin ağır günü yada salınır?

Cavab: Olsun ki, günahkarlar üçün ən ağır cəzalardan biri də behişt nemətlərindən məhrumluğu dadmaqdır.

## Bildirişlər

1. Behişt və cəhənnəmin fərqli kölgəlikləri var.
2. İnsan çeşidlilik sorağındadır. Behiştdə çeşidli bağlar, bulaqlar, meyvələr, qidalar, arxlar var.
3. Su və ağacın yanaşı şəkildə mövcudluğu kamil ləzzət göstəricisidir.
4. Möminlərin dünyadakı məhrumiyyəti qiyamətdə ləzzətlə aradan qaldırılar.
5. Məad cismanidir, onun nemətləri cismin ehtiyaclarına uyğundur.
6. Meyvə ən üstün qidalardandır. Quranda behişt əhlinin meyvələrdən dadması bir neçə dəfə yada salınır.
7. Nemətlərdən bəhrələnmək üçün əməl lazımdır.
8. Behişt qidalarının hansısa zərəri və ya ağrısı yoxdur.
9. Behişti bəhanəyə yox, bahasına verirlər.
10. Müvəqqəti yox, daimi və davamlı əməl dəyərlidir.
11. Təlaş və ehsan təqva şərtidir.
12. İnsanların mükafatlandırılması və cəzalandırılması ilahi sünnə əsasında baş verir.
13. Xəbərdarlıqların təkrarı ilahi lütf nişanəsidir. Olsun ki, bu yolla təkəbbür əhli ağıla gəlib öz təkzibindən əl çəkə.

***Ayə 46, 47, 48, 49, 50:***

**﴿كُلُوا وَتَمَتَّعُوا قَلِيلًا إِنَّكُم مُّجْرِمُونَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿وَإِذَا قِيلَ لَهُمُ ارْكَعُوا لَا يَرْكَعُونَ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿فَبِأَيِّ حَدِيثٍ بَعْدَهُ يُؤْمِنُونَ﴾**

**"Yeyin və azca bəhrələnin. Həqiqətən, siz günahkarsınız; həmin gün vay olsun təkzib edənlərə! Onlara rüku edin deyilsə, rüku edərlər; həmin gün vay olsun təkzib edənlərə; bundan (Qurandan) sonra hansı sözə iman gətirərlər?!"**

## Nöqtələr

◘Həkim xəstəyə istənilən bir qidadan yeməyə o zaman icazə verir ki, ya tamamilə sağalsın, ya da əlacsız xəstəliyə düçar olsun. Quranda "yeyin" əmri bəzən mərhəmət, bəzən isə qəzəb göstəricisidir. Bəzən Allah günahkarlara buyurur ki, nə istəyirsinizsə edin.[1]

[1] "Fussilət", 40

◘Həzrət Peyğəmbər (s) səqif qəbiləsinə namaz qılmaq göstərişi verdi. Onlar dedilər: “Biz kimsənin qabağında əyilmərik.” Həzrət (s) buyurdu: “Rüku və səcdəsi olmayan dində fayda yoxdur.”[1]

◘Məkkənin fəthindən sonra həzrət Peyğəmbər (s) Müaviyənin anası, Əbu Süfyanın arvadından soruşdu: “İslamı necə görürsən?” Həmin qadın dedi: “Üç şey olmasaydı İslam yaxşı idi: hicab, Bilalın azanı, rüku və səcdələr.” Peyğəmbər (s) buyurdu: “Amma hicab ən üstün örtükdür, rüku və səcdəsiz namaz namaz deyil, Bilal da ən üstün bəndədir!”[2]

◘”Hədis” dedikdə yeni söz, əvvəllər oxşarı görünməmiş kəlam nəzərdə tutulur.

◘Həzrət İbrahim Kəbə binasını yeniləşdirdikdən sonra Allahdan istədi ki, yalnız iman əhlinə ruzi versin. Allah buyurdu: “Mən dünyada kafirlərə də ruzi verərəm. Amma qiyamət dünyadan ayrıdır.”[3]

◘Rüku namazın rüknlərindən (əsaslarından), onun xüsusi əlamətlərindəndir. İnsan namazdan əlavə vaxtlarda da səcdə edə bilər. Məsələn, səcdə şükrü üçün səcdəyə gedə bilər. Amma rüku yalnız namazda həyata keçir. Bu səbəbdən də namazla bağlı “rəkət” sözü işlədilir.

## Bildirişlər

1. Dünya ləzzətləri axirət ləzzətləri ilə müqayisədə əhəmiyyətsizdir.
2. Dünya nemətlərindən faydalanma Allahın sevimlisi olmaq deyil.
3. Günahkarlar yalnız maddi nemətlərdən bəhrələnə bilər.
4. Dünya həyatı nə qədər uzun olsa da, axirətlə müqayisədə bir göz qırpımıdır.
5. Namazın tərki dinin əməldə təkzibini göstərir.
6. Dinin inkarı və günah daimi yoldaşdır.
7. Quran insanlar üçün ən fəsahətli, ən təravətli, ən gözəl bildirişdir.
8. Quran buyuruqları heç vaxt aktuallığını itirmir, hər vaxt təravətlidir.
9. Qurana inanmayan kəs hansı sözə inanacaq?!

---

[1] “Bihar”, c. 17, s. 52
[2] “Təfsiri-Kaşif”
[3] “Bəqərə”, 126

## “NƏBƏ” SURƏSİ

### *(78-Cİ SURƏ; 40 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“NƏBƏ” SURƏSİNİN SİMASI*

40 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur.

Surənin adı onun 2-ci ayəsindən götürülmüşdür. Həmin ayədə qiyamət hadisəsi “Nəbə”, yəni (böyük) xəbər kimi yada salınır.

Surədə təbiətə hakim nizama əsaslanaraq bildirilir ki, mükafat və cəza məqsədi ilə qiyamətin bərpası ilahi hikmətin zərurətlərindəndir. İnsan həyatına məna verən, onu bihudəlikdən qurtaran qiyamət sorğu-sualıdır.

Surənin davamında azğınlara veriləcək əzabdan, behişt əhlinə əta ediləcək nemətlərdən danışılır. Surə kafirlərə ciddi xəbərdarlıqla başa çatır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

*"Rəhman və Rəhim Allahın adı ilə"*

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿عَمَّ يَتَسَاءلُونَ﴾﴿عَنِ النَّبَإِ الْعَظِيمِ﴾﴿الَّذِي هُمْ فِيهِ مُخْتَلِفُونَ﴾﴿كَلَّا سَيَعْلَمُونَ﴾﴿ثُمَّ كَلَّا سَيَعْلَمُونَ﴾**

**“Onlar bir-birlərindən nə haqqında soruşurlar? Böyük xəbər haqqında. Həmin xəbər ki, onunla bağlı ixtilafdadırlar; yox, belə deyil; tezliklə bilərlər; bəli, belə deyil; tezliklə bilərlər.”**

### Nöqtələr

◘”Nəbə” dedikdə mühüm və qəti bir xəbər nəzərdə tutulur. Surənin sonrakı ayələrindən məlum olur ki, burada qiyamət hadisəsindən danışılır.

◘Rəvayətlərdə həzrət Əli (ə) “nəbən əzim”, yəni böyük xəbər nümunəsi sayılır.[1]

◘Məada münasibətdə kafirlər bir neçə zümrəyə bölünür. Bəziləri qiyamət hadisəsini mümkünsüz, bəziləri şübhəli sayır. Bu mövzuya münasibətdə tərəddüddə qalanlar və inadkarlıq göstərənlər var.

◘İnsanlar bəzən bir mövzunu anlamaq üçün, bəzən də başqalarında şübhə yaratmaq məqsədi ilə sual verirlər.[2] Xüsusilə qiyamət kimi labüd bir hadisə ilə bağlı şübhə yaradan suallar bu ayələrdə məzəmmət olunur.

### Bildirişlər

1. Söhbətə sualla başlamaq sözü daha təsirli edir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Nəhl”, 43

2. Qiyamətə münasibətdə şübhə yaratmaq kafirlərin işidir.

3. Əgər sual səmimidirsə onu cavablandırmaq lazımdır. Əgər sual verən başqalarında şübhə yaratmaq fikrindədirsə, onunla lazımı kimi rəftar etmək zəruridir.

4. Müqəddəsliklərə və dini inanclara münasibətdə tənələrə qəti şəkildə cavab verilməlidir.

5. Şübhələr qarşısında haqq sözü təkrarlamaq lazımdır.

6. Qiyamət hadisəsinə çox qalmayıb. (“Səyəlmun” sözündəki “sin” yaxınlıq bildirir)

7. Qiyamət həqiqətlərin üzə çıxacağı gündür.

***Ayə 6, 7, 8, 9, 10, 11:***

﴿أَلَمْ نَجْعَلِ الْأَرْضَ مِهَادًا﴾﴿وَالْجِبَالَ أَوْتَادًا﴾﴿وَخَلَقْنَاكُمْ أَزْوَاجًا﴾﴿وَجَعَلْنَا نَوْمَكُمْ
سُبَاتًا﴾﴿وَجَعَلْنَا اللَّيْلَ لِبَاسًا﴾﴿وَجَعَلْنَا النَّهَارَ مَعَاشًا﴾

**“Yeri yatacaq qərar vermədikmi? Dağları mıxlar (kimi etmədikmi)? Sizi cüt yaratdıq; yuxunu sizin üçün aramlıq səbəbi etdik; gecəni örtük qərar verdik; gündüzü təlaş və dolanışıq üçün müəyyənləşdirdik.”**

## Nöqtələr

◘”Əvtad” dedikdə “mıxlar” mənası nəzərdə tutulur. Ayədə dağlar mıxa bənzədilir. Bu Qurnın elmi möcüzələrindəndir. Dağların kökü yerin dərinliyinə gedir. Dağlar yer laylarının hərəkətinin və zəlzələlərin qarşısını alır. Dağın eynən mıx kimi böyük hissəsi yerin altındadır. Dağlar yay üçün qar saxlayır, sərt küləklərin qarşısını alır, yol göstərir, onlardan qiymətli daşlar çıxarılır. Dağlar həm də zəruri həyat ehtiyaclarından olan dərələrin yaranmasına səbəb olur.

◘”Subat” dedikdə istirahət üçün işi saxlamaq, tətil mənası nəzərdə tutulur.

## Bildirişlər

1. Ovuc da miqdar ölçüsüdür. Varlıq aləminin mütaliəsi Allahı və məadı tanımaq üçün ən üqstün yoldur.

2. İnsan öz düşüncə və vicdanında allahpərəstdir. Vicdandan ilahi qüdrət haqqında soruşmaq olar.

3. Allahın yer və göy aləmindəki, təbiət hadisələrindəki qüdrəti qiyamətin bərpası üçün dəlil ola bilər.

4. Batil düşüncələri rədd etdikdən sonra haqq əqidələri sübuta yetirin.

5. İnadkarlıq ruhiyyəsi olmasa, insan yerdən, zamandan, yuxudan, qidalardan ibrət götürə bilər.

6. Allahın varlıq aləmindəki qüdrət və hikmətindən aydın olur ki, iş ölümlə başa çatası deyil.

***Ayə 12, 13, 14, 15, 16:***

﴿وَبَنَيْنَا فَوْقَكُمْ سَبْعًا شِدَادًا﴾﴿وَجَعَلْنَا سِرَاجًا وَهَّاجًا﴾﴿وَأَنزَلْنَا مِنَ الْمُعْصِرَاتِ مَاء
ثَجَّاجًا﴾﴿لِنُخْرِجَ بِهِ حَبًّا وَنَبَاتًا﴾﴿وَجَنَّاتٍ أَلْفَافًا﴾

**“Üzərinizdə yeddi möhkəm (səma) qurduq; (günəşi) parlaq çıraq qərar verdik; sıx buludlardan bol su endirdik; belə ki, bu yolla bitkilər və ağacı çox bağlar cücərdək.”**

**Nöqtələr**

◘”Musirat” sözü çıxmaq mənasını bildirən “əsr” sözündəndir. Bu söz ya sanki özünü sıxıb yağış yağdıran buludlara, ya da yağış üçün çıxılmış buludlar hazırlayan küləklərə aiddir.[1]

**Bildirişlər**

1. Allah varlıq aləminə müdiriyyəti müəyyən nizam əsasında həyata keçirir. Bu işdə səbəbiyyət, səbəb-nəticə kimi qanunlar gözlənilir. Günəşin işığı və istisi buludlar və yağışla birlikdə təbiət aləmini cana gətirir.
2. Quran şer deyil. Amma onda xüsusi bir ahəng var.
3. Təbii vasitələr bizi Allahdan qəflətdə saxlamamalıdır.
4. Ölü torpağı yağışla dirildib ona təravət verən Allah ölüləri diriltməyə aciz deyil.

***Ayə 17, 18, 19, 20:***

**﴿إِنَّ يَوْمَ الْفَصْلِ كَانَ مِيقَاتًا﴾﴿يَوْمَ يُنفَخُ فِي الصُّورِ فَتَأْتُونَ أَفْوَاجًا﴾﴿وَفُتِحَتِ السَّمَاء فَكَانَتْ أَبْوَابًا﴾﴿وَسُيِّرَتِ الْجِبَالُ فَكَانَتْ سَرَابًا﴾**

**“Həqiqətən, ayrılıq günü (bizim sizinlə) görüş üçün müəyyənləşmiş vəd vaxtıdır; elə bir gün ki, sur üfürülər, (insanlar) dəstə-dəstə gələrlər; səma genişlənər, açıq qapılar halına gələr; dağlar hərəkətə gəlib ilğım kimi olar.”**

**Nöqtələr**

◘Qiyamət günü bütün insanlar bir yerə toplanacağı üçün həmin gün toplanış günü adlandırılır. Amma həmin gün həm də ayrılıq günüdür. Çünki yaxşılar pislərdən, haqq batildən seçiləcək.

◘Rəvayətlərdə bildirilir ki, qiyamət günü insanlar müxtəlif qruplara bölünər. Söz gəzdirənlər meymun, haram yeyənlər donuz şəklində, sələmçilər alt-üst olmuş, zalım hakimlər kor, xüdpəsəndlər kar və lal, əməlsiz alim dilini çeynəyən vəziyyətdə səhnəyə gətirilər. Qonşunu incidən insan əlsiz-ayaqsız, libası ilə öyünənlər cəhənnəm libasında məhşur olar.[2]

◘Dağların hərəkəti onların parçalanması, toza çevrilməsi, sonda ilğıma dönməsi üçün bir müqəddimədir.

**Bildirişlər**

1. Dünya özü qiyamət üçün bir müqəddimədir. Dünyadakı nemətlər boş yerə yaradılmayıb, sonda sorğu var.

---

[1] “Təfsirul-mizan”

[2] “Təfsiri-nurus-səqəleyn”

2. Qiyamətin vaxtı öncədən Allaha məlumdur.

3. Qiyamətin də nizamı var.

4. Qiyamətdə göylərin və yerin nizamı pozular.

5. İnsanın həyatı ölümlə başa çatmır.

6. Dünya bağlılıqları və rabitələr sizi sevindirməsin. Bu rabitələr bir gün tamamilə qırılasıdır.

7. Yer və göy, onlar arasındakı rabitələr qiyamət günü öz halını dəyişər.

***Ayə 21, 22, 23, 24, 25, 26, 27, 29, 30:***

**﴿إِنَّ جَهَنَّمَ كَانَتْ مِرْصَادًا﴾﴿لِلْطَّاغِينَ مَآبًا﴾﴿لَابِثِينَ فِيهَا أَحْقَابًا﴾﴿لَّا يَذُوقُونَ فِيهَا بَرْدًا وَلَا شَرَابًا﴾﴿إِلَّا حَمِيمًا وَغَسَّاقًا﴾﴿جَزَاء وِفَاقًا﴾﴿إِنَّهُمْ كَانُوا لَا يَرْجُونَ حِسَابًا﴾﴿وَكَذَّبُوا بِآيَاتِنَا كِذَّابًا﴾﴿وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ كِتَابًا﴾﴿فَذُوقُوا فَلَن نَّزِيدَكُمْ إِلَّا عَذَابًا﴾**

**“Həqiqətən, cəhənnəm bir pusqudur; o azğınlar üçün qayıdış yeridir; uzun müddət orada qalarlar; cəhənnəmdə nə sərinlik görər, nə də içməyə bir şey taparlar; tapdıqları yalnız qaynar su, çirkab olar; bu onların günahı müqabilində münasib cəzadır; hesab gününə ümid və inamı olmayan onlar idi; bizim ayələrimizi qətiyyətlə təkzib edirdilər; kitabımızda hər şeyin hesabı vardı; indi dadın, sizin üçün əzabdan başqa bir şey artırmarıq.”**

### Nöqtələr

◘”Mirsad” dedikdə pusqu, “tağin” dedikdə günahda həddi aşmaq mənaları nəzərdə tutulur.

◘”Məad” sözü dönüş yeri mənasını bildirir. İnsan bu yeri öz əməlləri ilə qazandığından o “məad” adlanır.

◘”Huqb” sözündən olan “əhqab” sözü uzun zaman mənasını bildirir.

◘Rəvayətlərdə bildirilir ki, əhqab huqbın cəmidir. Hər huqb isə 60 ildir. Bəziləri bir huqbun 80 il olduğunu bildirir. Bu ilin hər günü dünyadakı min il kimidir.[1]

◘”Həmim” dedikdə qaynaq su, “ğəssaq” dedikdə yaradan axan çirkli su mənaları nəzərdə tutulur.

◘Olsun ki ayədə cəhənnəmin hamı üçün pusqu olduğu nəzərdə tutulmuşdur. Amma təqvalılar həmin pusqudan ötüb keçər, günahkarlar ilişib qalar.

◘İlahi ədalətə əsasən cəzalar insanın əqidəsi müqabilində təyin olunur. Əgər əzab çoxdursa, bunun səbəbi həddi aşmış küfrdür. Peyğəmbərlərin hər dəvəti kafirlərin müxalifətini artırır. Allah da onların əzabını ağırlaşdırır.

◘Cəhənnəmdə sərinlik əvəzinə dözülməz isti, gözəl şərbətlər əvəzinə irinlə çirkab var.

### Bildirişlər

1. Cəhənnəm günahkarların sorağındadır.

2. Günahkarların pusquda ilişib qalması qəti bir işdir.

3. Həddi aşmaq cəhhənəm əhlinin nişanəsidir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

4. Cəhənnəm əhli iki qrupdur. Bəziləri orada əbədi qalar, bəziləri bir müddətdən sonra oranı tərk edər.

5. Allah ədalətlə cəzalandırır.

6. Qiyamətdə sorğu-sual ehtimalı insanın özünə nəzarəti üçün bəs edər.

7. Qiyamətə etiqadsızlıq azğınlıq göstərcisidir.

8. Qiyamətin inkarı bütün həqiqətlərin inkarı üçün zəmindir.

9. Həm böyük, həm də kiçik işlərin hesab-kitabı var. Allah hər şeydən xəbərdardır və onun xəbərdarlığı davamlıdır.

***Ayə 31, 32, 33, 34, 35, 36:***

**﴿إِنَّ لِلْمُتَّقِينَ مَفَازًا﴾﴿حَدَائِقَ وَأَعْنَابًا﴾﴿وَكَوَاعِبَ أَتْرَابًا﴾﴿وَكَأْسًا دِهَاقًا﴾﴿لَّا يَسْمَعُونَ فِيهَا لَغْوًا وَلَا كِذَّابًا﴾﴿جَزَاء مِّن رَّبِّكَ عَطَاء حِسَابًا﴾**

**“Həqiqətən, təqva əhli üçün qurtuluş və böyük feyz var; növbə növ bağlar və üzümlər; gözəl və dilrüba zövcələr; oxşar və yaşıd; dolu camlar; orada nə boş söz, nə təkzib eşidərlər; Rəbbləri tərəfindən mükafat, hesablı bir bəxşiş.”**

## Nöqtələr

◘”Məfaz” deikdə ya feyz yeri, ya da feyz özü nəzərdə tutulur. “Hədiqə” sözünün cəm forması olan “hədaiq” sözü hasarlı bağlar bağlar mənasını bildirir. “Kəvaib” sözü sinəsi yenicə qalxmış qız mənasını bildirən “kaib” sözünün cəm formasıdır. “Ətrab” sözü “tərb” sözünün cəmidir. Bu söz yaşıd, oxşar mənalarını bildirir. Belə anlaşıla bilər ki, behişt hurilərin gözəllik baxımından bir-birlərindən üstün deyillər. “Kəs” dedikdə büllur cam, “dihaq” dedikdə dolu mənası nəzərdə tutulur. Bəziləri “dihaq” sözünün “dəhəq” kökündən olduğunu qeyd edirlər. “Dəhəq” dedikdə ardıcıl düyünləmək başa düşülür. Yəni camlar ardıcıl təklif olunar.

◘Üzümün meyvələr arasında xüsusi yeri var. Ona görə də onun adı ayrıca çəkilir.

## Bildirişlər

1. Ümid və qorxu yanaşı olmalıdır. Bu surədə təqvalılar üçün mükafat zalımlar üçün cəza ilə yanaşı zikr olunur.

2. Ləzzət və qurtuluş maddi və mənəvi nemətlər sayəsində mümkün olur.

3. Behişt nemətləri insanı qürrələndirmir, onda qürur, qəflət, pis danışıq, məstliyə səbəb olmur.

4. Boş danışıq və yalandan uzaq məclislər behişt məclisidir.

5. Axirətdə həm cəzalar ədalətlidir, həm də mükafatlar hesab-kitabla verilir.

6. Behiştdə insanlar bir-birlərini təkzib etmirlər, onlar arasında qarşılıqlı etimad var.

7. İlahi mükafatlar behişt əhlinin mükafatı yox, ilahi fəzldir.

8. Cəzalandırma və mükafatlandırma nizamı müdiriyyət şərtidir.

9. Allahın müttəqilərə mükafatının hesabı var. Təqvası daha çox olanın mükafatı daha böyükdür.

***Ayə 37:***

**﴿رَبِّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا الرحْمَنِ لَا يَمْلِكُونَ مِنْهُ خِطَابًا﴾**

**“(Sənin Rəbbin) Göylərin, yerin və onlar arasında olanların Rəbbidir. O rəhmət şeşməsidir. Kimsədə Ona xitab gücü yoxdur.”**

**Bildirişlər**

1. Varlıq aləmindəki işlərə müdiriyyət Allah üçün eyni dərəcədə asandır. Allah üçün göy, yer və onlar arasında olanların fərqi yoxdur.

2. Əziz Peyğəmbərin (s) yetərincə uca məqamı var. Tərəzinin bir gözünə onu, o biri gözünə bütün varlıq aləmini qoymaq olar.

3. Allahın rübubiyyəti onun rəhmətinə əsaslanır.

4. Qiyamətdə özbaşına danışıq haqqı verilmir.

***Ayə 38, 39:***

**﴿يَوْمَ يَقُومُ الرُّوحُ وَالْمَلَائِكَةُ صَفًّا لَّا يَتَكَلَّمُونَ إِلَّا مَنْ أَذِنَ لَهُ الرحْمَنُ وَقَالَ صَوَابًا﴾﴿ذَلِكَ الْيَوْمُ الْحَقُّ فَمَن شَاء اتَّخَذَ إِلَى رَبِّهِ مَآبًا﴾**

**“Ruhun (Cəbrailin) və mələklərin səf-səf duracağı gün Rəhmanın izin verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!**

**Bu, haqq olan gündür. Kim dilərsə, (iman gətirib ibadət və itaət etməklə) Rəbbinə tərəf qayıdan bir yol tutar!”**

**Nöqtələr**

◘”Ruh” sözü Quranda bəzən mütləq şəkildə[1], bəzən şərtlə bəyan olunur. Ruhul-qüds, Ruhul-əmin misal göstərilə bilər.

◘Rəvayətlərdən məlum olur ki, ruh ya mələkdən üstün məxluqdur, ya da ən üstün mələklərdəndəndir. İmam Sadiq (ə) buyurur: “Ruh Cəbrail və Mikaildən üstün bir mələkdir.”[2]

◘Rəvayətdə bildirilir ki, ayədə “yalnız icazə verilmiş kəs” dedikdə məsum imamlar nəzərdə tutulur. Həmin gün yalnız onların savab və haqq söz demək haqqı var.[3]

**Bildirişlər**

1. Qiyamət səhnəsinə təkcə insanlar və cinlər yox, həm də mələklər gətirilər.

2. Nizam-intizama riayət, göstərişlərə hazırlıq ilahi mələklərin səciyyələridir.

3. Qiyamətdə şəfaət Allahın izninə bağlıdır.

4. İnsan yol seçimində azaddır.

5. Qiyamət elə bir gündür ki, onun baş verəcəyi labüddür və həmin gün haqq əsasında hərəkət edilər.

6. Elə bir yol seçək ki, haqq olan qiyamətə aparsın.

---

[1] “Qədr”, 4

[2] “Təfsiri-nümunə”,

[3] “Təfsiri-nurus-səqəleyn”

***Ayə 40:***

**﴿إِنَّا أَنذَرْنَاكُمْ عَذَابًا قَرِيبًا يَوْمَ يَنظُرُ الْمَرْءُ مَا قَدَّمَتْ يَدَاهُ وَيَقُولُ الْكَافِرُ يَا لَيْتَنِي كُنتُ تُرَابًا﴾**

**“Həqiqətən, biz sizi yaxın əzabla qorxutduq; elə bir gün ki, insan öncədən göndərdiklərinə baxar və kafir şəxs deyər: Ey kaş torpaq olaydım.”**

**Bildirişlər**

1. Qafil insanlar üçün xəbərdarlıq müjdədən təsirlidir.
2. Qiyamətin çox uzaq sayılması qəflət səbəblərindəndir.
3. Peşimançılıq insanın azadlığını göstərir.
4. İnsan qiyamətdə öz əməlləri ilə üzbəüzdür.
5. Hər bir insanın axirət taleyi onun öz əlindədir.
6. Torpaq bir dən götürür, bir buta verir. Amma kafirlər yüzlərlə dəlil eşitdikləri halda inadkarlıq göstərirlər. Deməк, torpaq kafirlərdən üstündür.

# “NAZİAT” SURƏSİ

## *(79-CU SURƏ; 46 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“NAZİAT” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 46 ayədən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Naziat” dedikdə can alan mələklər nəzərdə tutulur.

Digər Məkkə surələri və “Nəbə” surəsi kimi bu surədə də qiyamət və məad mövzuları əsas mövzudur.

Möminlərin və kafirlərin canının çıxarılması, bəndələrinin bütün işlərinin idarə edilməsi mələklərin öhdəsində olduğundan surə həmin mələklərə andla başlayır. Surədə Musa və Fironun əhvalatları yada salınır, Fironun azğınlıqları müqabilində onun dünyada ağır cəzaya düçar olması bildirilir. Bu bildirişlər insanı cəhənnəmə sürükləyən azğınlıq və dünyapərəstliyin bəyanı üçün bir müqəddimədir. Əksinə, azğın nəfs istəkləri ilə mübarizə, Allah qorxusu insanı əbədi behişt səadətinə qovuşdurur.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

﴿وَالنَّازِعَاتِ غَرْقًا﴾﴿وَالنَّاشِطَاتِ نَشْطًا﴾﴿وَالسَّابِحَاتِ سَبْحًا﴾﴿فَالسَّابِقَاتِ سَبْقًا﴾﴿فَالْمُدَبِّرَاتِ أَمْرًا﴾

**“And olsun çətinliklə can çıxaran mələklərə; and olsun asanlıqla can alan mələklərə; and olsun (Allahın əmrini yerinə yetirmək, möminlərin canını asanlıqla, kafirlərin canını çətinlikə almaq üçün) sürətlə üzən, bir-birini ötüb keçən mələklərə; and olsun işləri idarə edən mələklərə.”**

#### Nöqtələr

◘”Nəz” dedikdə ayırmaq, qoparmaq, çəkib çıxarmaq mənaları nəzərdə tutulur. “Ğərq” və “əğraq” sözləri şiddət, çətinlik, zor mənalarını bildirir. “Nəşt” dedikdə düyün açmaq mənası başa düşülür. “Nişat”, yəni ruhi dolaşıqlıqların açılması. Mələklər namazını süstlük və ikrahla qılan bəzi insanlardan fərqli olaraq öz işlərini həvəslə yerinə yetirirlər. “Naşit” dedikdə işi rəğbətlə görən kəs nəzərdə tutulur. Vedrə ilə quyudan su çəkən insana da “naşit” deyirlər. Nəzərdə tutulur ki, mələklər möminlərin canını ağrı-acısız, asanlıqla alar. [1]

◘”Naziat” və “naşitat” sözləri əslində mələklərin vəsfi üçün işlədilmişdir. Çünki həmin iki söz “taifə” sözü kimi qadın cinsinə aiddir.

---

[1] “Təfsiri-rahnoma”

◘”Sabihat” sözü suda və havada iti hərəkət mənasını bildirir. İşarə olunur ki, mələklər ilahi əmrləri dərhal və sürətlə yerinə yetirərlər.

◘Həzrət Əli (ə) buyurur ki, mələklər möminlərin canını yüngül şəkildə, dostcasına çıxarar.[1]

◘Allahın mələklərə andı onların varlıq aləmindəki əhəmiyyət və yerini gösətirir. Onların gördüyü işlər də əhəmiyyətlidir.

◘Ayələrdə qeyd olunmuş beş sifət beş qrup mələyə aid ola bilər. Bu da mümkündür ki, bir qrup mələkdə bu sifətlər olsun. Bu mələklər Allahdan əmr gələn kimi həvəslə yerindən qalxır, sürətlə hərəkətə başlayır. Onlar Allah əmrinin icrası üçün bir-birlərini ötüb keçirlər.[2]

**Bildirişlər**

1. Dünya malına daha çox bağlanan insan həmin məhəbbəti qəlbindən daha çətinliklə çıxarar.
2. Ölüm anı mükafat və ya cəza üçün başlanğıcdır.
3. Mələklərin hər qrupunun öz işi var.
4. Tapşırığı həvəslə yerinə yetirmək də bir dəyərdir.
5. Bütün varlıq aləmi mələklər üçün iş meydanıdır.
6. Mələklər ilahi əmri yerinə yetirərkən bir-birlərini ötüb keçirlər.
7. Mələklər öz işini ən gözəl şəkildə yerinə yetirir.
8. Varlıq aləminə müdiriyyət Allaha məxsussa da[3], Allah bu işdə mələklərə də icazə vermişdir.
9. Mələklər idarəçilikdə məharət sahibidirlər.
10. Müdiriyyətdə istək, sürət, çəldliyə ehtiyac var.
11. Varlıq aləmindəki hadisələr təsadüfi deyil, idarə olunur.
12. Müdiriyyət o qədər dəyərlidir ki, ona and içmək olar.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12, 13, 14:***

**﴿يَوْمَ تَرْجُفُ الرَّاجِفَةُ﴾﴿تَتْبَعُهَا الرَّادِفَةُ﴾﴿قُلُوبٌ يَوْمَئِذٍ وَاجِفَةٌ﴾﴿أَبْصَارُهَا خَاشِعَةٌ﴾﴿يَقُولُونَ أَئِنَّا لَمَرْدُودُونَ فِي الْحَافِرَةِ﴾﴿أَئِذَا كُنَّا عِظَامًا نَّخِرَةً﴾﴿قَالُوا تِلْكَ إِذًا كَرَّةٌ خَاسِرَةٌ﴾﴿فَإِنَّمَا هِيَ زَجْرَةٌ وَاحِدَةٌ﴾﴿فَإِذَا هُم بِالسَّاهِرَةِ﴾**

**“Bir gün ki dəhşətli zəlzələ hər şeyi silkələyər; onun ardınca başqa bir titrəyiş olar; həmin gün qəlblər qorxmuş və titrək haldadır; gözlər (qorxudan) yerə dikilmişdir; (dünyada) deyirlər: “(Öləndən sonra) Əvvəlki həyata qaytarılarıq? Bir halda ki, sümüklər çürüyüb?” (Öz-özlərinə) Deyərlər: “Beləsə, bu qayıdış ziyanadır.” Bu qayıdış yalnız böyük bir səslə baş verər; dərhal hamı məhşər səhrasında hazır olar.”**

**Nöqtələr**

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Təfsirul-mizan”
[3] “Yunus”, 30

◘”Racifə” dedikdə iztirab, möhkəm titrəyiş nəzərdə tutulur. Fitnə yaradan, ağrı gətirən sözlər “əracif” adlanır.

◘”Racifə” sözü “rədif” sözündəndir. Bu söz düzülüş mənasını bildirir. Ardıcıl titrəyişlər “radifə” adlanır. Olsun ki, yerin 1-ci titrəyişinin səbəbi ilk surdur. Bu surdan sonra hamı ölər. “Radifə” isə hamını dirildəcək 2-ci sura işarə ola bilər. “Zumər” surəsinin 68-ci ayəsində hər iki nöqtəyə işarə olunmuşdur.

◘İti hərəkət və ya şiddətli iztirab “vacifə” adlandırılır. “Xaşiə” dedikdə başını aşağı salmış insan nəzərdə tutulur.

◘İstənilən bir şeyin başlanğıcı “hafirə” adlandırılır. İlkin həyata qayıdış kafirləri təəccübləndirirdi. Amma “hafirə” sözü yerdə qazılan qəbir mənasını da ifadə edə bilər. Bu halda ayə belə mənalandırılar: öləndən sonra qəbirlərimizdən qalxıb diriləcəyik?[1]

◘”Nəxirə” dedikdə toxunmaqla ovulub tökülən çürümüş sümük mənası nəzərdə tutulur.

◘Dünyada Allah qorxusundan əsən qəlblər axirətdə amandadır.[2] Dünyada rahatlıq içində olan qəlblər axirətdə iztirabdadır.[3]

◘”Zəcr” dedikdə səs küylə, fəryadla qovmaq mənası nəzərdə tutulur. “Zəcrə” dedikdə ikinci sur nəzərdə tutula bilər. Bu sur ölülərin dirilməsi üçün bir müqəddimədir. “Sahirə” dedikdə qiyamətin hamar yeri nəzərdə tutulur. Orada gözlərə yuxu getməz.

## Bildirişlər

1. Təbiətin məhvi qiyamətin müqəddimələrindəndir.
2. Qiyamət zəlzələləri ardıcıl şəkildə baş verər.
3. Qiyamətdə iztirab keçirməyən qəlblər də var.
4. Ruhla cisim arasında dərin bir rabitə var.
5. Bəziləri qiyamətlə bağlı sualları təkrarlamaqla şübhə yaradırlar.

***Ayə 15, 16, 17, 18, 19:***

**﴿هَلْ أتَاكَ حَدِيثُ مُوسَى﴾﴿إِذْ نَادَاهُ رَبُّهُ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى﴾﴿اذْهَبْ إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى﴾﴿فَقُلْ هَل لَّكَ إِلَى أَن تَزَكَّى﴾﴿وَأَهْدِيَكَ إِلَى رَبِّكَ فَتَخْشَى﴾**

**“Musanın əhvalatı sənə çatdımı? Bir vaxt Rəbbi ona müqəddəs Tuva vadisində belə nida etdi: “Firona doğru ged, o azğınlıq edib. Ona de ki, paklanmaq istəyirsənmi? Səni Rəbbinə doğru hidayət edimmi ki, qorxasan (azğınlıq etməyəsən).”**

## Nöqtələr

◘”Vad” sözü vadi sözündəndir və iki dağ, iki təpə arasındakı ərazini bildirir. Tur dağının aşağısındakı vadi “tuba” adlanır.

◘”Xəşyət” Allahın əzəməti qarşısında imandan yaranan qorxu mənasını bildirir.

◘”Zəkat” sözündən olan “təzəkka” sözü həm inkişaf, həm inkişaf, həm də paklıq mənalarını ifadə edə bilər.

---

[1] “Təfsirul-mizan”
[2] “Ənfal”, 2
[3] “Yunus”, 62

◘Allahla söhbət yeri pak və müqəddəs olmalıdır.[1]

### Bildirişlər

1. Söhbətə sualla başlamaq dinləyicinin marağını gücləndirir.
2. Keçmiş peyğəmbərlərin əhvalatlarının nəqli sonrakı peyğəmbərlərin ruhiyyəsini gücləndirir.
3. İlahi rəhbərlər azğın rəhbərlərlə mübarizədən öncə Allahla rabitələeini möhkəmləndirirlər.
4. Yer üzündə bəzi ərazilərin xüsusi hörməti və müqəddəsliyi var.
5. Peyğəmbərlər zalım hakimlərlə mübarizənin rəhbərləridirlər.
6. Nəhy əz munkər zamanı pisliklərin kökünü axtarın.
7. Hətta Fironun da hidayətindən ümidinizi üzməyin. Haqqı bəyan edib xəbərdarlığı başa çatdırın.
8. Nəhu əz munkərdə, insanları pis işlərdən çəkindirərkən hətta zalım hakimlərlə aram danışın.
9. Suallar ünvanlamaqla fitrətləri oyadın.
10. Təbliğdə mülayim danışmağın zəruriliyini unutmayın.
11. Peyğəmbərlərin dəvətində əsas məqsəd insanların paklanmasıdır.
12. İnsanların dəvət və təbliğində hamının bəyənib qəbul edəcəyi sözlərdən istifadə edin.
13. İnsanların paklanmağa meyli olmasa peyğəmbərlərin təlaşları əbəsdir.
14. Peyğəmbərlər zalım hakimlərlə mübarizədə öncə öyüd-nəsihətə yer verir.
15. Allah qorxusu hidayətin qəbulu nişanəsidir.
16. Peyğəmbərlər insanları özlərinə tərəf yox, Allaha doğru çağırmışlar.
17. Azğın yolda Allah qorxusu və paklıq yoxdur.
18. İnsanın əxlaqi baxımdan pak olmaması azğınlığın köküdür.
19. Fərdlərin islahı onların istək və iradələrindən asılıdır.

***Ayə 20, 21, 22, 23, 24, 25, 26:***

﴿فَأَرَاهُ الْآيَةَ الْكُبْرَى﴾﴿فَكَذَّبَ وَعَصَى﴾﴿ثُمَّ أَدْبَرَ يَسْعَى﴾﴿فَحَشَرَ فَنَادَى﴾﴿فَقَالَ أَنَا رَبُّكُمُ الْأَعْلَى﴾﴿فَأَخَذَهُ اللَّهُ نَكَالَ الْآخِرَةِ وَالْأُولَى﴾﴿إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لِّمَن يَخْشَى﴾

**“Ona böyük bir möcüzə göstərdi; amma o təkzib etdi, boyun əymədi; sonra arxa çevirdi; bir halda ki, (bu dəvətin qarşısını almağa) çalışırdı; sonra (sehrbazları) bir yerə yığdı və nida etdi; dedi: “Mən sizin üstün Rəbbinizəm.” Allah onu dünya və axirət cəzasına düçar etdi; həqiqətən, bu əhvalatda (pis aqibətdən) qorxanlar üçün ibrət dərsi var.”**

### Nöqtələr

◘Fironun “mən sizin rəbbinizəm” sözlərinə həzrət Musa belə cavab verir: “Səni Rəbbinə doğru yönəldim.”

[1] “Həcc”, 26; “Tövbə”, 17; “Ənfal”, 34; “Əraf”, 31

¤"Nəkal" elə bir cəzadır ki, onu görən uzaq qalmaq istəyir. Axirət cəzası barədə eşidən şəxs insanı bu cəzaya düçar edən günahlardan çəkinməyə çalışır. Bu səbəbdən də axirət əzabı "nəkal" adlandırılmışdır.[1]

## Bildirişlər

1. Firon kimiləri üçün ən böyük möcüzələr göstərilməlidir.
2. Zalım hakimlər öz hakimiyyətlərini qorumaq üçün azğın insanlardan faydalanırlar.
3. Peyğəmbərlik iddiası və ətrafdakıların təslimçiliyi üçün möcüzəyə ehtiyac var.
4. Təkəbbürlü insanlara ən böyük möcüzələr də təsir etmir.
5. Peyğəmbərlərin möcüzələri bir-birindən fərqlənir.
6. Peyğəmbərlərin təkzibində məqsəd insanın günaha marağı, qeyd-şərtlərdən azad olmaq istəməsidir.
7. Bir başa söhbət gücü olmayan, dəlillər göstərməkdə aciz olan şəxslər pərdə arxasında çalışır.
8. Görüntü yaratmaq, boş şuarlar və hay küyçülük Fironçuların alətidir.
9. İnsanlarda allahpərəstlik fitrəti var. Zalım hakimlər bu fitrəti özlərinə doğru yönəltməyə çalışır.
10. Təkəbbürlü hakimlər bir gün diz çökəsidir.
11. Tarix əyləncə yox, ibrət vasitəsidir.
12. Tarixin ibrətamiz dönəmlərini nəql edin.
13. İbrət götürüləsi hadisə çoxdur. İbrət üçün ruhi hazırlığa ehtiyac var.

***Ayə 27, 28, 29, 30, 31, 32, 33:***

﴿ءَأَنتُمْ أَشَدُّ خَلْقًا أَمِ السَّمَاء بَنَاهَا﴾﴿رَفَعَ سَمْكَهَا فَسَوَّاهَا﴾﴿وَأَغْطَشَ لَيْلَهَا وَأَخْرَجَ ضُحَاهَا﴾﴿وَالْأَرْضَ بَعْدَ ذَلِكَ دَحَاهَا﴾﴿أَخْرَجَ مِنْهَا مَاءهَا وَمَرْعَاهَا﴾﴿وَالْجِبَالَ أَرْسَاهَا﴾﴿مَتَاعًا لَّكُمْ وَلِأَنْعَامِكُمْ﴾

**"Sizin yaranışınız çətindir, yoxsa Onun yaratdığı səmanın? Tavanını ucaltdı, onu möhkəmləndirdi; gecəsini qaranlıq, gündüzünü işıqlı etdi; sonra yeri genişləndirdi; ondan su və otlaq çıxardı; dağları möhkəm qərar verdi; belə ki, sizin üçün və heyvanlarınız üçün bəhrələnmə vasitəsi olsun."**

## Bildirişlər

1. Təbliğdə sual üslubu faydalıdır.
2. Ən üstün allahşünaslıq yolu Allahın nemətlərinə diqqətdir. Hiss üzvlərindən məfhumları anlamaq üçün istifadə etmək lazımdır.
3. Dünya bizim üçündür. Biz dünya üçün deyilik.
4. Maddi nemətlərdən həm insanlar, həm də heyvanlar faydalanır. (İnsanın imtiyazı mənəvi kamilliklərdir)
5. Nemətlər insnaların bəhrələnməsi üçündür. Yersiz qadağalar və pəhrizlər mənasızdır.
6. Səmalar yaradıldıqdan sonra yer genişləndirilmiş və hərəkətə gətirilmişdir.

[1] "Təfsirul-mizan"

*Ayə 34, 35, 36, 37, 38, 39, 40, 41:*

**﴿فَإِذَا جَاءتِ الطَّامَّةُ الْكُبْرَى﴾﴿يَوْمَ يَتَذَكَّرُ الْإِنسَانُ مَا سَعَى﴾﴿وَبُرِّزَتِ الْجَحِيمُ لِمَن يَرَى﴾﴿فَأَمَّا مَن طَغَى﴾﴿وَآثَرَ الْحَيَاةَ الدُّنْيَا﴾﴿فَإِنَّ الْجَحِيمَ هِيَ الْمَأْوَى﴾﴿وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَى﴾﴿فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَى﴾**

**“Bir vaxt ki, həmin böyük hadisə yetişər; həmin gün insan öz təlaşlarını yada salar; cəhənnəm hər görən şəxs üçün aşkar olar; həddi aşıb, dəyərsiz dünya həyatını üstün tutanın yeri, şübhəsiz, cəhənnəmdir; amma Rəbbinin məqamından qorxub nəfsini saxlayanın yeri, şübhəsiz, behiştdir.”**

**Bildirişlər**

1. Qiyamət bütün başqa hadisələri öz təsiri altına alan böyük və əhatəli bir hadisədir.
2. İnsan qiyamətdə daim dünyadakı işlərini yada salar.
3. Azğınlığın kökü dünyapərəstlikdir.
4. Allah üçün qorxu yoxdur və Onun məqamı insanlar üçün qorxu səbəbidir. Günahkar insan, adətən, hakimdən qorxur.
5. Nəfslə mübarizənin əsası Allah qorxusudur.
6. İnsan nəfsi fitnəkardır, onu cilovlamaq lazımdır.
7. İlahi qanunlar hamıya tətbiq olunur.
8. Dünya yox, dünyanın axirətdən üstün tutulması pisdir.

*Ayə 42, 43, 44, 45, 46:*

**﴿يَسْأَلُونَكَ عَنِ السَّاعَةِ أَيَّانَ مُرْسَاهَا﴾﴿فِيمَ أَنتَ مِن ذِكْرَاهَا﴾﴿إِلَى رَبِّكَ مُنتَهَاهَا﴾﴿إِنَّمَا أَنتَ مُنذِرُ مَن يَخْشَاهَا﴾﴿كَأَنَّهُمْ يَوْمَ يَرَوْنَهَا لَمْ يَلْبَثُوا إِلَّا عَشِيَّةً أَوْ ضُحَاهَا﴾**

**“Səndən qiyamətin nə vaxt baş verəcəyi barədə soruşurlar; sən bu barədə nə deyə bilərsən?! Bu işin başlanğıcı və sonu yalnız sənin Allahına məlumdur; sənin vəzifən qorxan kəsə xəbərdarlıq etməkdir; qiyaməti gördükləri gün (dünya və bərzəxdə) bir gecə və ya bir gün qaldıqlarını düşünərlər.”**

**Nöqtələr**

◘Quranda qiyamətlə bağlı suallar mövzusuna dəfələrlə toxunulur. Amma bus sual cavablandırılmır. Çünki ölüm və qiyamət vaxtının məxfi qalması ilahi lütflərdəndir. Əgər insan öz ölümünün və qiyamətin vaxtını bilsəydi rahatlığı pozulardı.

◘Əsas məsələ qiyamətin vaxtını bilmək yox, bu hadisənin gerçəkliyinə inanmaqdır.

◘Qafil insanlar üçün xəbərdarlıq müjdədən təsirlidir.

**Bildirişlər**

1. Qiyamətlə bağlı bəzi suallar yersizdir və onlara cavab verməmək olar.
2. Bəşəriyyətə aid olmayan mövzularda danışmaq mənasızdır.
3. Bəşəriyyətin elmi məhduddur, onlar ilahi elmin sonuna çata bilməzlər.
4. Peyğəmbərin vəzifəsi insanları məcbur etmək yox, onlara öyüd-nəsihətdir.

5. Peyğəmbərlərin dəvətinin qəbulu üçün insanların ruhi hazırlığı və günahdan qorxması şərtdir.

6. Axirət o qədər əzəmətlidir ki, bütün dünya və bərzəx ömrü onunla müqayisədə bir gecə və ya bir gündüzü xatırladır.

# “ƏBƏSƏ” SURƏSİ

### *(80-CI SURƏ; 42 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ƏBƏSƏ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 42 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Əbəsə” dedikdə “qaşqabağını tökdü” mənası nəzərdə tutulur.

Surənin başlanğıc ayələri kor bir şəxslə rəftar münasibəti ilə nazil olmuşdur. Amma başqa Məkkə surələri kimi bu surənin də əsas mövzusu məad, qiyamət hadisələri, möminlərin və kafirlərin həmin günkü aqibətidir.

Surənin bəzi ayələrində ilahi nemətlər insanın bu nemətlər müqabilində nankorluğu bəyan olunur.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10:***

**﴿عَبَسَ وَتَوَلَّى﴾﴿أَن جَاءهُ الْأَعْمَى﴾﴿وَمَا يُدْرِيكَ لَعَلَّهُ يَزَّكَّى﴾﴿أَوْ يَذَّكَّرُ فَتَنفَعَهُ الذِّكْرَى﴾﴿أَمَّا مَنِ اسْتَغْنَى﴾﴿فَأَنتَ لَهُ تَصَدَّى﴾﴿وَمَا عَلَيْكَ أَلَّا يَزَّكَّى﴾﴿وَأَمَّا مَن جَاءكَ يَسْعَى﴾﴿وَهُوَ يَخْشَى﴾﴿فَأَنتَ عَنْهُ تَلَهَّى﴾**

**“Qaşqabağını töküb üz çevirdi; görüşünə bir korun gəlməsi səbəbindən; nə bilirsən, bəlkə o paklanıb təmizlənəcək! Öyüd götürəcək və bu öyüd ona xeyirli olacaq; amma özünü ehtiyacsız sayan da var; sən onunla məşğul olursan; hansı ki paklanmasa sənlik bir iş yoxdur; amma tələsik sənin yanına gələn kəs Allahdan qorxduğu halda ona arxa çevirərsən.”**

### Nöqtələr

◘Sünnə əhlindən nəql olunmuş rəvayətlərə əsasən Abdullah ibn Ümm Məktum adlı kor bir şəxs Peyğəmbərin (s) məclisinə daxil oldu. Həmin vaxt Peyğəmbər (s) Qüreyş başçıları ilə, Əbu Cəhl və Ütbə kimi şəxslərlə danışıb onları İslama dəvət edirdi. Məclisə daxil olan kor şəxs oradakıları görmədiyindən ardıcıl şəkildə Peyğəmbərdən (s) Quran oxumasını istəyirdi. O bu yolla Quranı əzbərləmək fikrində idi. Həmin vaxt Peyğəmbərin (s) çöhrəsində narahatlıq göründü. Bu məqamda “Əbəsə” surəsinin ilk ayələri nazil oldu və Peyğəmbər (s) bu münasibətinə görə qınandı.

Haqqında danışılan ayələrdə Peyğəmbərə müraciət olunmasının aydın dəlilləri yoxdur. İmam Sadiqdən (ə) nəql olunmuş rəvayətdə bildirilir ki, koru görüb qaşqabağını tökən şəxs Bəni-Üməyyədən olmuşdur.[1]

---

[1] “Təfsirul-mizan”

◘Mərhum Seyid Mürtəza “Mütəşabehul Quran” kitabında sünnə əhlinin hazırkı rəvayətini rədd edir və bu müddəasında Quranın digər ayələrini dəlil göstərir. Bildirir ki, Allah-taala Peyğəmbərin gözəl əxlaq sahibi olduğunu vurğulayır.[1] Ayədə Peyğəmbərə (s) gözəl əxlaq sahibi olduğu, möminlər qarşısında təvazö göstərdiyi bəyan olunur.[2] Digər bir tərəfdən, Peyğəmbərdə (s) belə bir xasiyyət olsaydı, İslamın təbliğində müvəffəqiyyət əldə edə bilməzdi. Allah öz Peyğəmbərinə (s) buyurur ki, əgər sən tünd xasiyyətli olsaydın, insanlar ətrafından dağılardı.[3]

◘Surənin 10 ayəsində kora göstərilən münasibətin pislənilməsindən məlum olur ki, İslam dini məhrum təbəqə ilə rəftara həssas yanaşır.

◘”Mən istəğna” dedikdə ya insanın özünü üstün tutması ilə nəticələnən maddi ehtiyacsızlıq, ya da nəsihətdən ehtiyacsızlıq nəzərdə tutulur. Hər iki mənanın da nəzərdə tutulması mümkündür. Yəni bir şəxs varlı olduğundan qürrələnir və başqalarının haqq sözünü dinləmir.

## Bildirişlər

1. Fiziki qüsur şəxsiyyət qüsuru sayılmamalıdır. (Korlara, əlillərə, fiziki cəhətdən qüsurlu insanlara hörmət göstərilməlidir.)
2. Əxlaq xarakterdən qaynaqlandıqda dəyərlidir. Başqalarının xoşuna gəlmək üçün əxlaq nümayiş etdirmək əbəsdir. (Kor şəxs kimin üzünü turşutduğunu görmür və bu onu narahat etmir.)
3. İslam təkəbbür və lovğalıq ruhiyyəsi ilə müxalifdir.
4. İnsanların zahiri görüntüsü əsasında mühakimə yürütmək olmaz. (Bəzən kor bir şəxs gözləri sağlam şəxsdən münasib ola bilər.)
5. Cəmiyyətdə insanların diqqət ölçüsü fərqlidir. Bəziləri peyğəmbərin dəvəti ilə paklanır, bəziləri öyüd-nəsihəti yalnız dinləyir.
6. Öyüd-nəsihət faydasız deyil və müəyyən təsir göstərir.
7. Əsas məsələ insanların var-dövləti yox, onların imanıdır.
8. Peyğəmbər insanları haqq yola zorla gətirməyə vəzifəli deyil. Onun işi yalnız təbliğdir.
9. Ehtiyacsızlıq hissi məhkum olunur. Özünü ehtiyacsız sayan şəxs məzəmmət edilir.
10. Özünü ehtiyacsız və kamil sayan şəxs paklana bilmir.
11. Məhrum təbəqə İslama daha tez üz tutur.
12. Qəlbdəki qorxu zahiri təlaşlarla müşayiət olunmalıdır.
13. Peyğəmbərin hüzurunda olmaq və ya rəbbani ustaddan istifadə özünütərbiyənin ən səmərəli yoludur.
14. Təbliğdə fəqiri varlıdan ayırmaq olmaz.

***Ayə 11, 12, 13, 14, 15, 16:***

**﴿كَلَّا إِنَّهَا تَذْكِرَةٌ﴾﴿فَمَن شَاء ذَكَرَهُ﴾﴿فِي صُحُفٍ مُّكَرَّمَةٍ﴾﴿مَّرْفُوعَةٍ مُّطَهَّرَةٍ﴾﴿بِأَيْدِي سَفَرَةٍ﴾﴿كِرَامٍ بَرَرَةٍ﴾**

[1] “Qələm”, 4
[2] “Hicr”, 88; “Şuəra”, 215
[3] “Ali-İmran”, 159

**“Belə deyil! Həqiqətən, bunlar öyüd-nəsihətdir; istəyən onu öyrənsin, ondan öyüd götürsün; o dəyərli, uca mərtəbəli, pak səhifələrdədir; səfirlərin əlində; böyük və xeyirxah səfirlərin!”**

### Nöqtələr

◘”Suhuf” sözü yazılmış kağız, məktub mənası bildirən “səhifə” sözünün cəm formasıdır. “Səfərə” dedikdə katiblər mənası anlaşılır. “Əsfar” kitab mənası bildirən “Sifr” sözünün cəm forması olduğu kimi, “səfərə” də “safir” sözünün cəmidir. “Bərərə” dedikdə xeyir əməl sahibləri mənası nəzərdə tutulur.[1]

◘”Səfərə” dedikdə vəhy gətirən səfirlər, elçilər nəzərdə tutulur. Hazırda vəhyi peyğəmbərlərə çatdıran mələklərə işarə olunur. Bu mələklər Cəbrailin köməkçiləridir və ona tabedirlər.[2]

### Bildirişlər

1. Quran ayələri öyüd-nəsihət, bəşər fitrətinin oyanış amilidir.
2. Quranın məqam və mərtəbəsi azğınlar, təhrifçilər üçün əl çatmazdır.
3. Quranı hündür yerdə saxlamaq lazımdır.
4. Quran istənilən bir bulaşıqlıqdan hifz edilməlidir.
5.Quranın dəvətində ikrah və məcburiyyət yoxdur. İnsan öz istəyi ilə onu qəbul edə bilər.
6. Allahın uca tutduğunu biz də uca tutmalıyıq.
7. Qurani-kərimi uca məqamlı mələklər Peyğəmbərə (s) çatdırır. (Həm Quranı göndərən Allah, həm Quran özü, həm onu gətirənlər, həm də onun nazil edildiyi kəs ucadır.)

***Ayə 17, 18, 19, 20, 21, 22, 23:***

﴿قُتِلَ الْإِنسَانُ مَا أَكْفَرَهُ﴾﴿مِنْ أَيِّ شَيْءٍ خَلَقَهُ﴾﴿مِن نُّطْفَةٍ خَلَقَهُ فَقَدَّرَهُ﴾﴿ثُمَّ السَّبِيلَ
يَسَّرَهُ﴾﴿ثُمَّ أَمَاتَهُ فَأَقْبَرَهُ﴾﴿ثُمَّ إِذَا شَاءَ أَنشَرَهُ﴾﴿كَلَّا لَمَّا يَقْضِ مَا أَمَرَهُ﴾

**“Ölüm olsun (azğın) insana, necə də nankordur! Allah onu nədən yaratdı? Dəyərsiz nütfədən yaradıb qaydaya saldı; sonra (səadətə aparan) yolu onun üçün asanlaşdırdı, hazırladı; sonra öldürüb qəbirə qoydu; istədiyi vaxt onu ayağa qaldırar; xeyir, insan hələ ki Allahın ona buyurduğunu yerinə yetirməmişdir.”**

### Nöqtələr

◘Ölülərin dəfnini insana Allah öyrətmişdir. “Maidə” surəsinin 31-ci ayəsində buyurulur ki, Qabil qardaşı Habilin cəsədi üçün bir yer tapmadıqda Allah bir qarğa göndərdi, Qabil qarğaya baxıb cəsədi dəfn etməyi öyrəndi.

### Bildirişlər

[1] “Təfsri-məcməul-bəyan”
[2] “Təkvir”, 19-21

1. Kafir və nankor insan Allah tərəfindən lənətlənir.
2. Təbliğdə kimlərləsə sərt danışmaq lazım gəlir.
3. Küfr və lovğalıqdan əl çəkmək üçün nütfədən yarandığınızı yada salın.
4. İnsan təsadüfən yaranmayıb, onun yaranışı hesab-kitablı, ölçü-biçilidir.
5. Varlıq aləminin yaranışı Allahın qüdrət, nizam və hikmət sahibi olduğunu göstərir.
6. Haqq yol asan olduğu halda nə üçün bəziləri bu yoldan çıxır?
7. Allah təkamül yolunu asanlaşdırmaqla xəbərdarlığı başa çatdırmış, höccəti tamamlamışdır.
8. İnsanın bir çox istedadları haqq yolu getməklə kamilləşir.
9. Ölüm və qəbiri görən insan nə üçüsn inadkarlıq göstərir?
10. Bütün işlər Allahın ixtiyarındadır.
11. Məad cismanidir. Yəni qəbrə qoyulan cəsəd ayağa qaldırılar.
12. Yol açıq, hərəkət asan olsa da, bəziləri yoldan çıxır.
13. Tövhid, nübüvvət və məad mövzuları yanaşı şəkildə bəyan olunur.
14. Qiyamət vaxtı yalnız Allaha məlumdur.
15. İnsan əvvəldən axıradək Allahın tədbirlərinə tabedir, onun əlindədir.

***Ayə 24, 25, 26, 27, 28, 29, 30, 31, 32:***

**﴿فَلْيَنظُرِ الْإِنسَانُ إِلَى طَعَامِهِ﴾﴿أَنَّا صَبَبْنَا الْمَاء صَبًّا﴾﴿ثُمَّ شَقَقْنَا الْأَرْضَ شَقًّا﴾﴿فَأَنبَتْنَا فِيهَا حَبًّا﴾﴿وَعِنَبًا وَقَضْبًا﴾﴿وَزَيْتُونًا وَنَخْلًا﴾﴿وَحَدَائِقَ غُلْبًا﴾﴿وَفَاكِهَةً وَأَبًّا﴾﴿مَّتَاعًا لَّكُمْ وَلِأَنْعَامِكُمْ﴾**

**“İnsan öz qidasına baxsın; suyu lazım olduğu kimi (səmadan) endirdik; sonra yeri yaxşıca parçaladıq; onda toxum cücərtdik; həm də üzüm, göyərti; zeytun, xurma; sıx ağaclı bağlar, meyvə və otlar; onlar sizin və heyvanlarınızın bəhrələnməsi üçündür.”**

**Nöqtələr**

◘”Səbb” dedikdə suyu yuxarıdan aşağıya axıtmaq mənası nəzərdə tutulur. Bu söz yağışın səmadan, suyun şəlalələrdən tökülməsinə işarədir.

◘”Qəzb” sözü yenicə yığılmış və xırdalanmış göy mənasını ifadə edir. Heyvanlar üçün yığılan ot və yonca da bu qəbildəndir.

◘”Şəqəqnəl-ərz” dedikdə torpağın yenicə cücərmiş toxumun gövdəsi ilə parçalanması nəzərdə tutulur. Bəli, toxun inkişaf edib torpağı yarır və öz təkamülünü davam etdirir.

◘”Həbbən” sözü buğda, arpa, noxud, mərci kimi dənli bitkilər mənasını ifadə edir.

◘”Hədaiq” sözü bağ-bağça mənası bildirən “hədiqə” sözünün cəm formasıdır. Bu qəbil bağların ətrafına hasar çəkilir. Böyük və canlı ağac “ğəlba” adlanır. “Ğulb” sözü “ğəlba” sözünün cəm formasıdır.

◘İnsan öz qidalarına diqqətli olmalı, onların halal-haramlığına baxmalı, başqalarının imkanlarını nəzərə almalı, qidalardan aldığı enerjini düzgün sərf etməlidir. İnsan bu qidaların necə hazır olduğu barədə düşünməlidir. İmam Baqir (ə) 24-cü ayədəki “təam”

sözünün mənəvi təama aid olduğunu əsas götürərək buyurur: “İnsan kimdən elm öyrəndiyinə diqqətli olmalıdır.”[1]

### Bildirişlər

1. İnsana ilahi nemətlərdən biri olan qida haqqında düşünmək əmr edilir. Düşüncəsizlik heyvana xas xüsusiyyətdir.
2. Əgər dəyərləndirmədə mənəvi meyarlar əsas götürülməsə, maddi nemətlərdən faydalanan insanla heyvan eyni cərgədə dayanmalıdır.
3. Nemətlərin ərsəyə gəlməsinə diqqət küfrü aradan qaldıran amillərdəndir.
4. Varlıq aləmi allahşünaslıq məktəbidir. İnsanın daxilində də, xaricində də təkamül prosesi gedir.
5. Yağışın yağması, müxtəlif bitki və ağacların cücərməsi məqsədlidir. İnsanlar və heyvanlar üçün qida nəzərdə tutulması ilahi hikmətlərdəndir.
6. Üzüm, zeytun və xurma Quranın tövsiyə etdiyi meyvələrdəndir.

***Ayə 33, 34, 35, 36, 37:***

**﴿فَإِذَا جَاءتِ الصَّاخَّةُ﴾﴿يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ﴾﴿وَأُمِّهِ وَأَبِيهِ﴾﴿وَصَاحِبَتِهِ وَبَنِيهِ﴾﴿لِكُلِّ امْرِئٍ مِّنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ﴾**

**“Bir zaman ki, o dəhşətli səs yüksələr; bir gün ki insan öz qardaşından qaçar; həm də anasından, atasından, zövcəsindən və övladlarından; həmin gün onların hər biri üçün belə bir iş və müşkül var ki, onları (başqalarına köməkdən) saxlayar.”**

### Nöqtələr

◘”Saxxə” dedikdə az qala qulağı kar edəcək dəhşətli səs nəzərdə tutulur. Burada ya qiyamət nidasına, ya da qiyamət səhnəsindəki insanların ah-naləsinə işarə olunur.

◘Ötən ayələrdə maaşdan, bu ayələrdə isə məaddan danışılır.

◘İnsanın öz qardaşı, ata-anası, zövcəsi və övladlarından qaçmağının müəyyən səbəbləri var. Bu səbəblərdən biri də onların zərərinə şərik olmamaqdır. İnsan qaçır ki, kimsə ondan nə isə istəməsin. İnsan qaçır ki, onun rüsvayçılğından xəbər tutan olmasın. İnsan qaçır ki, öz taleyini tez bir zamanda müəyyənləşdirsin.

### Bildirişlər

1. Qiyamət hamının bir-birindən qaçdığı gündür. Həmin gün qardaş qardaşdan, övlad ata-anadan, ər zövcədən, ata oğuldan qaçar.
2. Qiyamət günü qohumluq əlaqələri qırılar.
3. Qiyamət günü hərə özünü xilas etmək barədə düşünər.
4. Qiyamət günü başqalarına kömək əli uzatmaq imkanı yoxdur.

***Ayə 38, 39, 40, 41, 42:***

---

[1] “Kafi”, c. 1, s. 50

**﴿وُجُوهٌ يَوْمَئِذٍ مُّسْفِرَةٌ﴾﴿ضَاحِكَةٌ مُّسْتَبْشِرَةٌ﴾﴿وَوُجُوهٌ يَوْمَئِذٍ عَلَيْهَا غَبَرَةٌ﴾﴿تَرْهَقُهَا قَتَرَةٌ﴾﴿أُوْلَئِكَ هُمُ الْكَفَرَةُ الْفَجَرَةُ﴾**

**“Həmin gün bəzi çöhrələr işıqlı, təbəssümlü və şaddır; həmin gün bəzi çöhrələrə toz-torpaq qonmuşdur; onların üzünü zülmət bürümüşdür; onlar həmin günahkar kafirlərdir.”**

## Nöqtələr

◘”Mustəbşirə” dedikdə insana sevinc gətirən bir işdən xəbər tutmaq başa düşülür. “Ğəbərə” və “ğubar” dedikdə bir şeyin üzərinə qonmuş toz-torpaq mənası anlaşılır. “Qətərə” sözü yuxarı qalxan qara tüstü mənasını ifadə edir. “Rəhq” sözü isə bürümək, örtmək mənasında işlədilir.

◘Hazırkı ayələrdə qiyamət səhnəsindəki insanlar iki qismə bölünür. Xoşbəxtlər və bədbəxtlər. Onlar simalarından tanınırlar. Çünki insanın çöhrəsi onun xarakterini göstərir. İnsanın içindəki qəm-qüssə, şadlıq onun çöhrəsində hiss olunur.

◘Surənin əvvəlində dünyada qaş-qabaq tökməkdən danışıldı, onun sonunda qiyamətdə çöhrələrin toz-torpağa bələnməsi yada salındı.

◘”Kəfərə” sözü “kafir” sözünün, “fəcərə” sözü “facir” sözünün cəm formasıdır. Birinci söz əqidə, ikinci söz əməl baxımından azğınlıqdır.

## Bildirişlər

1. Məad cismanidir.
2. Açıq və gülər üz bir dəyərdir.
3. Qiyamətdəki təbəssümlərin səbəbi gələcəklə bağlı müjdələrdir.
4. Dünyada günaha bulaşmaq axirətdə çöhrələrin bulaşıqlığına səbəb olar.
5. Küfr günah və fəsad səbəbidir.
6. İman və təqva əhli şad və gülərüzdür.
7. Ən üstün təbliğ üsullarından biri müqayisə aparmaqdır.
8. İnsanın pak çöhrəsi günah səbəbindən çirkin və qara niqabla örtülür.

# “TƏKVİR” SURƏSİ

### *(81-Cİ SURƏ; 29 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“TƏKVİR” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 29 ayədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Təkvir” dedikdə bir-birinə sarınma, qaralma mənaları nəzərdə tutulur.

Surənin məzmunundan aydın olur ki, o besət illərində nazil olmuşdur. Çünki Peyğəmbər (s) besətin ilk illərində divanəlikdə itdiham edilirdi. Bu surə də “Qələm” surəsi kimi besətin əvvələrində nazil olmuşdur və Peyğəmbərə (s) yönəlmiş itdihamlara cavab verir.[1]

Surənin əvvəllərində qiyamət üçün müqəddimə olan hadisələrdən danışılır. Növbəti ayələrdə Quranın uca məqamı, onun insan ruhuna müstəsna təsiri bəyan olunur.

Rəvayətlərdə bildirilir ki, bu surəni tilavət etməyin bir çox fəzilətləri var, o cümlədən, onun tilavəti insanı qəflət yuxusundan oyadır.[2]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿إِذَا الشَّمْسُ كُوِّرَتْ﴾﴿وَإِذَا النُّجُومُ انكَدَرَتْ﴾﴿وَإِذَا الْجِبَالُ سُيِّرَتْ﴾﴿وَإِذَا الْعِشَارُ عُطِّلَتْ﴾﴿وَإِذَا الْوُحُوشُ حُشِرَتْ﴾**

**“Bir zaman ki, günəş dolaşıb qaralar; bir zaman ki ulduzlar sönükər; bir zaman ki, dağlar hərəkətə gələr; bir zaman ki boğaz dəvələr başlı-başına buraxılar; bir zaman ki vəhşi heyvanlar qaldırılıb bir yerə toplanar.”**

**Nöqtələr**

◘”Təkvir” sözü sarınmaq, dolaşmaq mənasını bildirir. Hazırda bu söz günəş şüalarının toplanıb sönməsini bildirir.

◘Qiyamət astanasında dağların hərəkəti zəlzələlərlə bağlıdır. Bu zəlzələlər nəticəsində dağlar parçalanar. Digər rəvayətlərdə bildirilir ki, həmin vaxt dağlar səhra qumları kimi ovular.

◘”İşar” sözü qarnında 9 aylıq balası olan dəvələr mənasını bildirir. Bu söz əşra “əşra” sözünün cəm formasıdır. Belə bir dəvə ərəblər arasında ən dəyərli mülk sayılır. Amma qiyamət zamanı bu sayağı dəyərli dəvələr başlı-başına buraxılır.

◘”Vuhuş” sözü “vəhş” sözünün cəm formasıdır. Bu söz insanla ünsiyyətdən uzaq qalmış heyvan mənasını bildirir. Yırtıcı heyvanlar nəzərdə tutulan heyvanlardandır.

---

[1] “Təfsirul-mizan”

[2] “Təfsiri-nurus-səqələyn”

Bəziləri “Ənam” surəsinin 38-ci ayəsinə istinadən bildirirlər ki, hazırkı ayədə vəhşi heyvanların qiyamətdə dirildilməsi nəzərdə tutulur. Amma başqa bir qrup təfsirçi bu qənaətdədir ki, ayədə qiyamətdən öncəki zəlzələlərdə heyvanların öz yuvasını tərk edib bir yerə toplaşması nəzərdə tutulur.[1]

### Bildirişlər

1. Günəşin, ulduzların, dağların, dənizlərin, torpağın nizamı qiyamət günü pozulasıdır.
2. Varlıq aləmi Allahın iradəsinə tabedir. Allah istəsə varlıq nizamını pozar.
3. Olsun ki, qiyamətdə vəhşi heyvanlar da vəhşi heyvanlar da ayağa qaldırılacaq.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12, 13, 14:***

﴿وَإِذَا الْبِحَارُ سُجِّرَتْ﴾﴿وَإِذَا النُّفُوسُ زُوِّجَتْ﴾﴿وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ﴾﴿بِأَيِّ ذَنبٍ قُتِلَتْ﴾﴿وَإِذَا الصُّحُفُ نُشِرَتْ﴾﴿وَإِذَا السَّمَاءُ كُشِطَتْ﴾﴿وَإِذَا الْجَحِيمُ سُعِّرَتْ﴾﴿وَإِذَا الْجَنَّةُ أُزْلِفَتْ﴾﴿عَلِمَتْ نَفْسٌ مَّا أَحْضَرَتْ﴾

**“O zaman ki, dənizlər cuşa gələr; o zaman ki, ruhlar yaxınlaşıb qovuşar; o zaman ki, diri-diri torpağa bastırılmış qızdan “hansı günahına görə öldürüldün” deyə soruşular; o zaman ki, əməl namələri açılar; o zaman ki, səma yerindən qopar; o zaman ki, cəhənnəm şölələnər; o zaman ki behişt (öz əhlinə) yaxınlaşdırılar; hamı nə hazırladığını bilsin.”**

### Nöqtələr

◘”Succirət” sözü bir neçə şəkildə mənalandırıla bilər: cuşa gəlmək, bir-birinə qatılmaq, dolub-daşmaq. Bütün bu hallar dəniz üçün təbiidir. Bir tərəfdən dağlar yerindən qopar və dənizlər bir-birinə qatılar, digər tərəfdən yer titrəyər, köksündəkiləri bayıra çıxarar, sular qaynayıb buxara dönər.

◘Qiyamətdə behişt huriləri behişt əhli ilə izdivac edər. Başqa ayələrdə cəhənnəm əhlinin şeytansifət yaxınları ilə izdivac edəcəyi bildirilir.[2] İmam Baqir (ə) 7-ci ayə ilə bağlı buyurur: “İman əhli behişt zövcələri, cəhənnəm əhli şeytanlara yaxınlaşar.”[3]

◘Diri-diri torpağa badırılmış qız “məvudə” adlanır. Cahiliyyət dövrünün ən vəhşi adətlərindən biri yoxsulluq və həqarət hissi səbəbindən qızların diri-diri basdırılması idi.

◘Valideyn övlad üzərində tam hakimiyyətə malik deyil. Onlar övladdan yaşamaq haqqı kimi təbii bir haqqı ala bilməzlər. Ata deyə bilməz ki, övlad mənimdir, istədiyimi edərəm. Eləcə də, ana bətnindəki övladın həyatına qəsd edə bilməz.

### Bildirişlər

1. Məzlum əqidəsindən asılı olmayaraq müdafiə olunur. Torpağa basdırılan qızlar müsəlman olmasalar da Quran onların haqlarını müdafiə edir.

---

[1] “Təfsirul-mizan”
[2] “Duxan”, 54; “Zuxruf”, 36
[3] “Təfsirul-mizan”

2. Cinsindən, yaşından, sayından, əqidəsindən asılı olmayaraq məzlumlar müdafiə olunmalıdır.

3. Suallar ünvanlamaqla yatmış vicdanları oyadın.

4. Atanın övlad üzərindəki haqqı ona öz övladını öldürmək icazəsi vermir.

5. Ümid və qorxu yanaşı olduqda faydalıdır.

6. Qiyamətdə behişt və cəhənnəm öz əhlinə yaxınlaşar.

7. İnsanın əməlləri dünya həyatında qeydə alınır, qiyamətdə açıqlanır.

***Ayə 15, 16, 17, 18, 19, 20, 21:***

**﴿فَلَا أُقْسِمُ بِالْخُنَّسِ﴾﴿الْجَوَارِ الْكُنَّسِ﴾﴿وَاللَّيْلِ إِذَا عَسْعَسَ﴾﴿والصُّبْحِ إِذَا تَنَفَّسَ﴾﴿إِنَّهُ لَقَوْلُ رَسُولٍ كَرِيمٍ﴾﴿ذِي قُوَّةٍ عِندَ ذِي الْعَرْشِ مَكِينٍ﴾﴿مُطَاعٍ ثَمَّ أَمِينٍ﴾**

**“And olsun geri qayıdan ulduzlara; onlar hərəkətdədir, gizlənirlər; gecəyə ötüb getdiyi vaxt and olsun; sübhə ağardığı vaxt and olsun; həqiqətən, Quran əziz elçinin gətirdiyi kəlamdır; o, ərş sahibi Allahın yanında qüdrət və uca məqam sahibidir; (elə bir mələk ki) ona tabe olar, onu etibarlı sayarlar.”**

**Nöqtələr**

◘”Xunnəs” sözü “xanis” sözünün cəm formasıdır. Bu söz geri dönən mənasını bildirir. “Cəvar” sözü “cariyə” sözünün cəmidir. “Cariyə” sözü cərəyanda olan mənasını bildirir. “Kunnəs” sözü “kanəs” sözünün cəmidir və gizlənmək, xəlvətə çəkilmək mənasını bildirir. Təfsirçilər gecənin yetişməsi, sübhün açılmasından danışan ayələrə əsasən növbəti ayəni ulduzlara aid saymışlar. Bu ulduzlar gecələr görünür, günəş doğduğu vaxt gizlənir. Onlar gözə görünmədikləri halda hərəkətdədirlər. Bu səbəbdən də növbəti gecə yenidən öz yerlərində görünürlər.

◘”Əsəs” deikdə kövrək qaranlıq mənası anlaşılır. Həzrət Əli (ə) buyurur ki, bu hal gecənin sonunda müşahidə olunur.[1] Bu əsasla hazırkı ayə “Muddəssir” surəsinin 33-cü ayəsinə oxşar sayıla bilər.

◘”Tənəffəs” sözü sübh vaxtı nəfəs çəkmək mənasını bildirir. Sanki insan gecə həbsindən azad olub azad havada nəfəs dərir.

◘Allahın sübhə, ulduzların xəlvətə çəkilməsinə, səma cisimlərinin hərəkətinə andı İslamın təbiət və onunla bağlı düşüncələrə əhəmiyyət verdiyini göstərir.

**Bildirişlər**

1. Qiyamət günü şəhadət və əməllərin təcəssüm günüdür.

2. Qiyamət günü insan öz əməllərinin xırdalıqlarından xəbər tutur.

3. Vəhy mələyi böyük, etibarlı, güclü, əmrinə itaət olunan mələkdir.

4. Kəramət, böyüklük, güc, imkan, əmanətdarlıq ilahi vəhyin çatdırılması üçün zəruri sayılan şərtlərdəndir.

5. Cəbrailin ixtiyarında itaət edən məmurlar var.

***Ayə 22, 23, 24, 25:***

---

[1] “Təfsiri-məcməul-bəyan”

﴿وَمَا صَاحِبُكُم بِمَجْنُونٍ﴾﴿وَلَقَدْ رَآهُ بِالْأُفُقِ الْمُبِينِ﴾﴿وَمَا هُوَ عَلَى الْغَيْبِ بِضَنِينٍ﴾﴿وَمَا هُوَ بِقَوْلِ شَيْطَانٍ رَجِيمٍ﴾

**“Həqiqətən, sizin müsahibiniz (Peyğəmbər (s)) divanə deyil; doğrudan da, o (vəhy mələyini) aydın üfüqdə gördü; o qeyblə bağlı paxıl deyil (qeybdən öyrəndiyini gizlətmir); Quran qovulmuş şeytanın təlqinləri deyil.”**

**Nöqtələr**

◘”Zənin” sözü “zənn” sözündən olub paxıllıq mənasını bildirir. Bu söz Quranda cəmi bir dəfə işlədilmişdir.

◘Peyğəmbərlərin müxalifləri onu divanə adlandırırdılar. Onlar Peyğəbərin (s) cinlərlə əlaqədə olduğunu düşünürdülər. İddia edirdilər ki, Quran cinlərin Peyğəmbərə (s) təlqinləridir. Bu səbəbdən də hazırkı ayələrdə uyğun itdihamlara cavab verilir. Peyğəmbərin (s) vəhy mələyini aydın gördüyü, Quranı ondan təhvil aldığı təsdiqlənir.

Qeyd olunur ki, Peyğəmbərin (s) bəyanatları şeytanın təlqinləri deyil.

**Bildirişlər**

1. Bəzən böhtanlara cavab vermək zəruridir.
2. Peyğəmbər (s) xalq arasında, onlarla yanaşı yaşayırdı.
3. Peyğəmbər (s) Cəbraili görmüşdü.[1]
4. Yersiz təhqir olunmuş insanları yüksəltmək lazımdır.
5. Elmin şükrü onu başqalarına çatdırmaqdır. Elmdə paxıllıq bəyənilmir.
6. İslam peyğəmbəri (s) qeyb elmini zəruri həddə bilirdi.
7. Allahın Rəsulu (s) nə divanə idi, nə də şeytanların təsiri altına düşmüşdü.
8. Quran heç bir təhrifsiz nazil olmuşdur. Cəbrailin Quranın mətnlərinə heç bir müdaxiləsi olmayıb. O Quranı qəbul edəndə də olduğu kimi qəbul edib.
9. Quran şeytanların yox, vəhy mələyinin gətirdiyi kəlamlardır.
10. Peyğəmbərin (s) əqli baxımdan sağlamlığının ən mühüm dəlili onun xalq arasında yaşaması, onlarla ünsiyyətidir. Kimsə ondan şübhə yaradacaq hərəkət görməmişdi.
11. Peyğəmbərin (s) Cəbraillə görüşü şəkk-şübhədən uzaq, aydın bir şəraitdə baş vermişdir.

***Ayə 26, 27, 28, 29:***

﴿فَأَيْنَ تَذْهَبُونَ﴾﴿إِنْ هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ﴾﴿لِمَن شَاء مِنكُمْ أَن يَسْتَقِيمَ﴾﴿وَمَا تَشَآءُونَ إِلَّآ أَن يَشَآءَ ٱللَّهُ رَبُّ ٱلْعَالَمِينَ﴾

**“Bəs haraya gedirsiniz? O (Quran) aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyil; sizlərdən hər kəs istəsə doğru-düzgün yolu tutsun; aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəyə bilməzsiniz.”**

**Bildirişlər**

[1] “Nəcm”, 13

1. Məqsədsiz, məktəbsiz insan yoxdur. Hətta kafirlər və müşriklərin də öz yolu var. Əsas məsələ düzgün yol seçməkdir.

2. Öyüd-nəsihət üçün Quran ən üstün vasitədir.

3. Quran bütün aləmlər üçün nəzərdə tutulub. Onun üçün zaman, məkan, milliyyət məhdudiyyəti yoxdur.

4. Təbliğdə öyüd-nəsihət zəruridir. Amma bu işdə məcburiyyətə yer yoxdur.

5. Doğru yola yönəlmə və bu yolda sabitqədəmlik insanın öz istək və iradəsindən asılıdır.

6. Quranın yolu doğru-düzgün yoldur. Bu yol istənilən bir ifrat və təfritdən uzaqdır.

7. İstəklərimiz Allahın istəkləri çərçivəsindədir. Əgər Allah məcbur etsəydi, istəkdən danışmağa dəyməzdi.

8. İnsan həm iradə sahibidir. Həm də özbaşına deyil.

9. Allahın istəkləri onun rübubiyyətinə əsaslanır.

10. Allah aləmlərin Rəbbi, tərbiyəçisidir. O bütün işlərə hakimdir. Deməli, insanın istəklərinin həyata keçməsi Allahın istəklərindən asılıdır.

# “İNFİTAR” SURƏSİ

### *(82-Cİ SURƏ; 19 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“İNFİTAR” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 19 aydən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “İnfitar” dedikdə səmanın parçalanması nəzərdə tutulur.

Digər Məkkə surələri kimi bu surənin də əsas mövzusu qiyamət, insanların qiyamətdəki ağır halıdır. Surədə dünyanın sonunda, qiyamət astanasında baş verəcək əzəmətli hadisələrdən danışılır, insanların əməl naməsini yazan mələklərə işarə edilir, yaxşı və pis insanların aqibəti yada salınır, qiyamət gününün müxtəlif problemləri qeyd edilir.

Vacib və müstəhəb namazlarda bu surəni oxumağın bir sıra fəzilətləri var. Məlum olur ki, insan qiyaməti yada salmağa daim ehtiyaclıdır. Qiyamətlə bağlı düşüncələr insanı dünya əsarətindən qurtarır.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

***Ayə 1, 2, 3, 4, 5:***

﴿إِذَا السَّمَاء انفَطَرَتْ﴾﴿وَإِذَا الْكَوَاكِبُ انتَثَرَتْ﴾﴿وَإِذَا الْبِحَارُ فُجِّرَتْ﴾﴿وَإِذَا الْقُبُورُ بُعْثِرَتْ﴾﴿عَلِمَتْ نَفْسٌ مَّا قَدَّمَتْ وَأَخَّرَتْ﴾

**“O zaman ki, səma parçalanar; o zaman ki, ulduzlar pərən-pərən düşər; o zaman ki, dənizlər daşıb bir-birinə qatılar; o zaman ki qəbirlər alt-üst olar; hər kəs öncədən göndərdiyini və özündən sonraya qoyduğunu bilər.”**

**Nöqtələr**

◘”İnfitar” sözü parçalanmaq mənasını bildirir. “Fətər” və “iftar” sözləri də eyni mənanı daşıyır. Çünki oruc nə isə yeməklə, iftarla pozulur. “İnfitar” və “inşiqaq” sözləri eyni mənanı bildirir. Amma “infitar” sözü ilə olunan parçalanma nəyəsə yetişir. Məsələn, ərəblər quyu qazarkən “fətərət” sözündən istifadə edirlər. Çünki yeri qazan insan gedib suya çatır.

◘”İntisar” dedikdə pərakəndəlik mənası nəzərdə tutulur. Gəlinin başına səpilən şeyə “nəsar” deyirlər.

◘”Fəcr” yarıq əmələ gəlməsi, yol açılması mənalarını bildirir. “Təfcir” sözü dağların yarılmasının əzəmətinə işarədir.

◘”Busir” sözündə həm “bəs” (ayağa qalxmaq), həm də “sur” (dağılma) mənaları var. Rağib “Mufrədat” kitabında bildirir ki, burada hər iki məna nəzərdə tutula bilər. Yəni torpaqların alt-üst olması və ölülərin ayağa qalxması.

◘Göy, yer, dənizlər və quru arasında elə bir bağlılıq var ki, onlardan birinin nizamı pozulduqda bütün nizam pozulur.

**Bildirişlər**

1. Göy və yerə hakim nizam Allahın əlindədir. Allah istədiyi vaxt bu nizamı dəyişə bilər.
2. Məad cismanidir, ölülər qəbirlərdən qalxacaq.
3. Varlıq nizamının pozulması, qiyamət, insanların hesab-kitabı üçün bir müqəddimədir.
4. Qiyamətdə insanın tutumu artar, bütün keçmiş əməllərini yada salar.
5. İnsan Həm keçmişini düşünüb pis işlərinə görə tövbə etməlidir, həm də ölümdən sonranı düşünüb özündən sonraya yaxşı əməllər qoymalıdır.
6. Qiyamətdə insan həm öz əməllərindən xəbər tutur, həm də həmin əməllərin nəticələrindən agah olur.
7. İnsan qiyamətdə anlayar ki, gücü çatdığı halda hansı işləri görməyib.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12:***

**﴿يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ﴾﴿الَّذِي خَلَقَكَ فَسَوَّاكَ فَعَدَلَكَ﴾﴿فِي أَيِّ صُورَةٍ مَّا شَاء رَكَّبَكَ﴾﴿كَلَّا بَلْ تُكَذِّبُونَ بِالدِّينِ﴾﴿وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ﴾﴿كِرَامًا كَاتِبِينَ﴾﴿يَعْلَمُونَ مَا تَفْعَلُونَ﴾**

**“Ey insan! Səni Rəbbin qarşısında qürrələndirən nədir? O kəs ki səni yaratdı, möhkəmləndirdi, ölçüyə saldı! Səni istədiyi şəklə saldı; bununla belə siz cəza gününü yalan sayırsınız; hansı ki sizlərə nəzarətçi qoyulmuşdur; gödüyünüz işlərdən xəbərdar olan, yazıya alan böyük mələklər.”**

**Nöqtələr**

◘”Səvvak” möhkəmlik, sabitlik, tərəddüdən uzaqlıq mənasını bildirir. “Ədələk” sözü isə bədən üzvləri arasındakı tarazlığı ifadə edir.

◘Allahın kəràminə öz əməllərinizə arxalanın. Peyğəmbərlər Allahın kərəmindən xəbərdar olsalar da, əmələ çalışırdılar.

◘Bəli, Allah kərimdir! Onun mələkləri də, kitabı da, mükafatı da kərimdir![1]

◘Allah kərimdir! O həm günahları bağışlayır, həm eybləri örtür, həm də mükafatı artırır.

**Bildirişlər**

1. İnsan qafil və lovğa bir mövcuddur. O işlərinin sonu barədə düşünmür. Özünü Allahın qəzəbindən amanda bilir.
2. Zəif və möhtac insan nə üçün qürrələnir?
3. Ən pis təkəbbür və qürur kərim və yaradan Rəbbin qarşısında təkəbbür və qürurdur.

---

[1] “Haqqə”, 40; “Vaqeə”, 77; “Yasin”, 11

4. İnsanın təkəbbür və qəfləti Allahın lütf və kəramindən, sirləri örtməsindən sui-istifadədir.

5. Allah təkcə möminlərə lütf göstərmir. Onun lütfündən bütün insanlar bəhrələnir.

6. İnsanın təkəbbürü onun ilahi nemətlər və Allahın əzəmətindən xəbərsizliyini göstərir.

7. Təkəbbürün dərmanı Allahın böyük lütflərinə diqqətdir.

8. Yaranış qüdrətdən, sorğu-sual hikmətdən, tarazlıq bütün bəşəri ehtiyaclardan xəbərdarlıqdan danışır.

9. İnsanın yaranışı və onun bədən üzvləri arasındakı tarazlıq Allahın kəramini göstərir.

10. İnsanların qiyafə baxımdan fərqliliyi ilahi hikmətə əsaslanır.

11. Təkəbbürü sındırmaq üçün ilahi nemətləri birbəbir sadalamaq lazımdır.

12. İnsanı dünyada yaradan kəs onu axirətdə də dirildə bilər. Təkzib edənlər nəyə əsaslanır?

13. Dünya ilə qürrələnən insan axirəti inkar edər.

14. Siz qiyaməti inkar etsəniz də, mələklər öz işini görür.

15. Çoxsaylı mələklər insanları qorumağa məsuldur.

16. Mələklər insanların əməllərini qeyd almağa məsuldur.

17. Yaxın mələklər əməlləri qeydə alarkən böyüklüklə rəftar edirlər.

18. Mələklər həm çoxsaylı, həm itigöz, həm də xırdalığı seçəndirlər.

19. Məsum mələklər tərəfindən əməllərin qeydə alınması insanları həya və təqvaya sövq edir.

***Ayə 13, 14, 15, 16, 17, 18, 19:***

**﴿إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ﴾﴿وَإِنَّ الْفُجَّارَ لَفِي جَحِيمٍ﴾﴿يَصْلَوْنَهَا يَوْمَ الدِّينِ﴾﴿وَمَا هُمْ عَنْهَا بِغَائِبِينَ﴾﴿وَمَا أَدْرَاكَ مَا يَوْمُ الدِّينِ﴾﴿ثُمَّ مَا أَدْرَاكَ مَا يَوْمُ الدِّينِ﴾﴿يَوْمَ لَا تَمْلِكُ نَفْسٌ لِّنَفْسٍ شَيْئًا وَالْأَمْرُ يَوْمَئِذٍ لِلَّهِ﴾**

**“Şübhəsiz, xeyir əməl sahibləri behiştdə naz-nemət içindədirlər; şübhəsiz, günahkarlar şölələnən oddadırlar; cəza günü ona daxil olub yanarlar; bir an olsun ondan ayrılmazlar; sən nə bilirsən cəza günü necə gündür? Axı sən nə bilirsən ki cəza günü necə gündür? Elə bir gün ki, kimsə kimsə üzərində ixtiyar sahibi deyil; həmin gün hökm yalnız Allaha məxsusdur.”**

**Nöqtələr**

◘”Əbrar” sözü “barr” sözünün cəm formasıdır. Bu söz xeyirxah mənasını bildirir. “Nəim” sözü bol nemətli mənasını ifadə edir.

◘”Fuccar” sözü “facir” sözünün cəm formasıdır. Həya pərdələrini yırtan insan facir adlanır.

◘”Səla” dedikdə ilahi qəzəb və ya əzaba daxil olmaq mənası anlaşılır. “Səlv” sözü isə ilahi mərhəmət və lütfə qatılmaq mənasını ifadə edir.[1]

◘Qiyamətdə bütün işlər Allahın əlindədir. Bu o demək deyil ki, həmin gün şəfaətə yer yoxdur. Əslində şəfaət özü də Allahın izni ilə baş tutur.[2]

---

[1] “Əhzab”, 43

[2] “Təfsiri-məcməul-bəyan”

## Bildirişlər

1. Tərbiyə və təbliğdə yaxşılarla pislərin taleyini müqayisə edin.
2. Hətta Peyğəmbər (s) qiyamətin bir çox hadisələrindən xəbərsiz idi.
3. Qiyamət hadisələrini adi ağılla dərk etmək mümkünsüzdür. Bu hadisələr yalnız vəhy yolu ilə aydınlaşa bilər.
4. Mühüm məsələləri təkrarlamaq zəruridir.
5. Qiyamət hadisəsi insanların dünya əməllərinin cavablandırılması üçündür.
6. Günahkarlar daim cəhənnəmdə qalar.
7. Qiyamət bütün insanların mülkiyyət və ixtiyardan məhrum olduğu gündür.
8. Qiyamət Allahın mütləq hakimiyyətinin zühur günüdür.

# “MUTƏFFİFİN” SURƏSİ

*(83-CÜ SURƏ; 36 AYƏ)*

*OTUZUNCU CÜZ*

## *“MUTƏFFİFİN” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 36 ayədən ibarətdir. Amma bəzi rəvayətlərə əsasən surənin ilk ayələri Mədinədə nazil olmuşdur.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Mutəffifin” dedikdə əskik satanlar mənası nəzərdə tutulur.

Bu surə əskik satanlara xəbərdarlıqla başlayır. Bildirilir ki bu əməlin səbəbi qiyamət gününə etiqadsızlıqdır.

Günahkar və azğın insanların taleyi, onların ilahi ayələrə münasibəti bu surənin növbəti mövzularındandır.

Əbədi nemətlərin, behişt əhlinin şadlığının yada salınması möminlərin qəlbini işıqlandırır, onların sıxıntılar qarşısında müqavimətini gücləndirir. Nəticədə, onlar kafirlərin və günahkarların təhqirlərindən üzülmürlər. Rəvayətlərə əsasən bu surənin namazda oxunması insanı qiyamət günü əzabdan qoruyur. Bu surəni düşünərək oxuyub ona əməl edənə pak behişt içkiləri içirilir.[1]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6:***

﴿وَيْلٌ لِّلْمُطَفِّفِينَ﴾﴿الَّذِينَ إِذَا اكْتَالُواْ عَلَى النَّاسِ يَسْتَوْفُونَ﴾﴿وَإِذَا كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ﴾﴿أَلَا يَظُنُّ أُولَئِكَ أَنَّهُم مَّبْعُوثُونَ﴾﴿لِيَوْمٍ عَظِيمٍ﴾﴿يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ﴾

**“Vay olsun əskik satanlara; o kəslərə ki, xalqdan alarkən ölçdükdə tam alar, xalqa (satarkən) ölçdükdə əskik qoyarlar; onlar bir gün qaldırılacaqlarını düşünmürlərmi? Böyük bir gün üçün! Elə bir gün ki insanlar aləmlər Rəbbinin hüzurunda dayanacaqlar!”**

### Nöqtələr

◘”Vəyl” sözü həlak olmaq, əzaba qatılaşmaq mənasını bildirir. Rəvayətlərə əsasən cəhənnəm dərələrindən və ya cəhənnəm qapılarından biri “vəyl” adlanır.

◘”Təfif” və “qəlil” sözləri eyni bir (“az”) mənanı ifadə edir. “Tətfif” dedikdə əskiltmək mənası anlaşılır. Bu söz kənar mənasını bildirən “təff” sözündəndir. Satdığı maldan kəsən satıcı “mutəffif” adlanır. İbn Məsud nəql edir ki, namazından kəsən insan da bu ayənin hədəfindədir.[2]

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Təfsiri-nümunə”

◘Əskik satmaq maddəsi bütün siniflərə tətbiq edilə bilər. Müəllim, fəhlə, yazıçı, satıcı, mühəndis, həkim və digər peşə sahibləri bu günahdan amanda deyil. Onların istənilən birinin öz vəzifəsinə səhlənkar yanaşması əskik satmaq sayılır.

◘Əskik satan şəxs özünü böyük sayır, insanları sevmir, ruzinin Allahın əlində olduğuna inanmır, cəmiyyətə maddi baxımdan sitəm qılır.

◘Əskik satmaq kəbirə günahlardandır. Çünki bu günah müqabilində əzab vəd edilmişdir. Əskik ölçü imkanları əskik çəkmək imkanlarından daha böyükdür. Ayələrdən birində ölçü, ikincisində isə əvvəlcə ölçü, sonra çəki məsələsinə toxunulur.

◘Rəvayətdə oxuyuruq ki, insanlar əskik satmaq günahına düçar olduqda yer öz məhsulunu geri götürər, insanlar qıtlıqla üzləşər.[1]

◘İnzibatilik və maddi məsuliyyət peyğəmbərlərin islahatlarında ilkin müddəalardandır. Həzrət Şüeyb öz qövmünə buyurur ki, ölçünü tam verin, əskik satanlardan olmayın, tərəzini düz çəkin insanların malını kəsməyin, yer üzündə fəsadla dolanmayın.[2]

## Bildirişlər

1. Təhlükəni xəbərdarlıqlarla elan edin.
2. Əskik satmaq yolu ilə əldə olunan haram mal insanı süquta uğradır.
3. Alışla satış arasında fərq qoymaq əskik satmaqdır. İnsan özünə qıymadığını başqasına qıymamalıdır.
4. Hətta qeyri-müsəlmanlara əskik satmaq olmaz.
5. Günahdan da pisi günahla ünsiyyətdə olmaqdır. Belə ki, əskik satmaq insanın peşəsinə çevrilir.
6. İqtisadi fəsadların qarşısını almaq üçün qəlblərdə məad düşüncəsini oyatmaq lazımdır.
7. Hətta ehtimal səviyyəsində məad etiqadı insanı günahdan çəkindirir.
8. Qiyamət hadisələri əzəmətli və dəhşətlidir.
9. İnsan əskik satdığına və xalqın haqqını qəsb etdiyinə görə cavab verəcək.
10. Günahkarların cəzalandırılması Allahın rübubiyyət şənindəndir.

### *Ayə 7, 8, 9, 10, 11, 12, 13:*

﴿كَلَّا إِنَّ كِتَابَ الفُجَّارِ لَفِي سِجِّينٍ﴾﴿وَمَا أَدْرَاكَ مَا سِجِّينٌ﴾﴿كِتَابٌ مَّرْقُومٌ﴾﴿وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ﴾﴿الَّذِينَ يُكَذِّبُونَ بِيَوْمِ الدِّينِ﴾﴿وَمَا يُكَذِّبُ بِهِ إِلَّا كُلُّ مُعْتَدٍ أَثِيمٍ﴾﴿إِذَا تُتْلَى عَلَيْهِ آيَاتُنَا قَالَ أَسَاطِيرُ الْأَوَّلِينَ﴾

**“Xeyir (onlar düşündüyü kimi deyil)! Həqiqətən, günahkarların naməsi siccindədir; sən nə bilirsən ki siccin nədir? Bu müəyyənləşmiş bir taledir; vay olsun həmin gün təkzib edənlərə! O kəslər ki cəza gününü inkar edirlər; günahkar azğından başqası onu təkzib etməz; ayələrimiz ona oxunduğu zaman deyər: keçmişlərin əfsanəsidir.”**

## Nöqtələr

[1] “Təfsirul-mizan”
[2] “Şüəra”, 181-183

◘”Siccin” “sicn” sözündəndir. Bu söz əbədi və ağrılı zindan mənasını bildirir.

◘”Mərqum” sözü “rəqəm” sözündəndir. Bu söz düzgün, müəyyən xətt mənasını ifadə edir. Belə bir yazı başqalarından seçilir. Yəni günahkarların taleyi tam aydın və müəyyəndir. Onlar əbədi zindana məhkumdurlar.

◘Qiyamətlə bağlı ayələrdə “din” sözü cəza mənasını bildirir. “Həmd” surəsində “maliki yəvmid din” ifadəsi “cəza gününün maliki” mənasında işlədilmişdir.

◘”Əsim” sözü “ism” (“sa” hərifi ilə) sözündən olub günahda həddi aşmış insan mənasında işlədilir.

◘”Təkzib edənlərə vay olsun” cümləsi iki cür şərh oluna bilər:

a) Vay olsun əskik satana, onun taleyi qiyamətin təkzibi ilə sonuclanar;

b) Vay olsun qiyamətdə əskik satanların əzabına inanmayanlara.

◘Olsun ki “mukəzzibin” dedikdə qəlb və dil yox, əməldə təkzib nəzərdə tutulmuşdur. Yəni əskik satmaq, xalqın haqqına riayət etməmək qiyaməti əməl təkzib etməkdir. Necə ki vəs-vəsəyə düçar olmuş insan şəriətin pak bildiyini əməldə murdar sayır. Bu qəbil insanlar qəlb və ya dildə təkzibə yol vermirlər.

◘”Əsatir” “əsturə” sözünün cəm formasıdır. Bu söz əfsanə mənasını bildirir. Əfsanədə mövzular gözəl və qəlbə yatımlı şəkildə bəyan olunur. Amma həmin əhvalatlar həqiqət yox, təxəyyül məhsulu olur. Kafirlər və müşriklər iddia edirdilər ki, Peyğəmbər (s) keçmişlərin əfsanəsini təkrarlayır.

◘”Tarixi-aşura” kitabında oxuyuruq ki, imam Hüseyn (ə) bir neçə dəfə Yezid qoşununa öyüd-nəsihət verdi. İmam qoşuna məzəmmətlə buyururdu: “Məgər mən Peyğəmbər (s) qızı Fatimənin (s.ə.) övladı deyiləm? Yoxsa halalı haram, haramı halal etmişəm? Məgər siz minlərlə məktub yazıb məni dəvət etməmisinizmi?” İmam sonda buyurur: “Sizin qarınlarınız haramla dolub, artıq haqq söz ruhunuza təsir etmir.” Bu gün dünyanın heç bir elmi mərkəzində haram tikənin insan tərbiyəsinə və ruhuna mənfi təsirindən danışılmır. Bütün şərq və qərb dünyası qidalanmanın tərbiyə-təsirindən qəflətdədir.

## Bildirişlər

1. Əskik satan insan günahkardır, din pərdəsini yırtır.
2. Günahkarların aqibəti aydın və qətidir.
3. Günah insanı həqiqətlərin inkarına sövq edir.
4. Quran ayələrini əfsanə adlandıranlar günah və azğınlıq girdabına qərq olanlardır.
5. Vəhyin əfsanə sayılması insanı küfrdə saxlayan amillərdəndir.
6. Haram tikə insanı küfr həddinədək aparır. (Surənin əvvəlində əskik satmaqdan danışıldı və bildirildi ki, bu əməl insanı haram tikəyə düçar edir. Növbəti ayədə günahdan və sonda təkzibdən söz açıldı.)
7. İnsanın rəftarları onun əqidə və inanclarına təsir göstərir. Ardıcıl təcavüz və günah insanı təkzibə vadar edir.
8. İnsan ilahi ayələrin bir neçə dəfə zikri ilə kifayətlənməməli, ardıcıl zikr və tilavətə məşğul olmalıdır.
9. Quran hətta müxaliflər üçün cazibəlidir.

### *Ayə 14, 15, 16, 17:*

﴿كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ﴾﴿كَلَّا إِنَّهُمْ عَن رَّبِّهِمْ يَوْمَئِذٍ لَّمَحْجُوبُونَ﴾﴿ثُمَّ إِنَّهُمْ لَصَالُوا الْجَحِيمِ﴾﴿ثُمَّ يُقَالُ هَذَا الَّذِي كُنتُم بِهِ تُكَذِّبُونَ﴾

**"Elə deyil! Bəlkə onların qazandığı qəlblərini paslatmışdır; onlar həmin gün Rəbblərinin lütfündən uzaq və məhrumdurlar; həmin vaxt cəhənnəmə daxil olcaqlar; sonra onlara deyiləcək: "Bu həmin yalan saydığınız hadisədir."**

### Nöqtələr

◘"Zəyn" sözü pas mənasını bildirir. İmam Baqir (ə) buyurur: "Əgər günah insana hakim kəsilsə onun qurtuluşuna ümid qalmaz." İmam bildirir ki, qəlblərin pas atması dedikdə onların ümidsiz vəziyyətə düşməsi nəzərdə tutulmuşdur.[1]

◘İmam Baqir (ə) buyurur: "Bütün bəndələrin qəlbində ağ bir nöqtə var. İnsan hər dəfə günaha yol verəndə həmin ağ nöqtədə qara bir nöqtə görünür. Əgər tövbə etsə, bu qara nöqtə məhv olur. Əgər günahı davam etdirsə, qara nöqtə genişlənir və bütün qəlbi bürüyür. Bu halda insan xeyir yola qayıda bilmir."[2]

◘İmam Riza (ə) buyurur: "Qiyamət günü günahkarların Rəbblərindən məhrumluğu dedikdə onların ilahi mükafatdan məhrumluğu nəzərdə tutulur."[3]

### Bildirişlər

1. Quranın əfsanə sayılması qəlbin bulaşıqlığından qaynaqlanır.
2. Günah insan ruhunu bulaşdırır, bu halda insan həqiqətləri dərk edə bilmir.
3. İnsan fitrəti sağlamdır. Bu fitrəti örtən günahdır.
4. Quran leksikonunda qəlb və ruh dedikdə həqiqətlərin dərki mərkəzi nəzərdə tutulur.
5. Günahın davamı qəlbi pasladır.
6. İnsanın sərmayəsi əməldir. İnsan əməl vasitəsi ilə yaxşılıq və ya pislik qazanır.
7. Günah pası dünyada həqiqətlərin dərkinə mane olur, axirətdə insanı ilahi letflərdən məhrum edir.
8. Cəhənnəm məmurları cəhənnəm əhlini məzəmmət edir.

***Ayə 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28:***

﴿كَلَّا إِنَّ كِتَابَ الْأَبْرَارِ لَفِي عِلِّيِّينَ﴾﴿وَمَا أَدْرَاكَ مَا عِلِّيُّونَ﴾﴿كِتَابٌ مَّرْقُومٌ﴾﴿يَشْهَدُهُ الْمُقَرَّبُونَ﴾﴿إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ﴾﴿عَلَى الْأَرَائِكِ يَنظُرُونَ﴾﴿تَعْرِفُ فِي وُجُوهِهِمْ نَضْرَةَ النَّعِيمِ﴾﴿يُسْقَوْنَ مِن رَّحِيقٍ مَّخْتُومٍ﴾﴿خِتَامُهُ مِسْكٌ وَفِي ذَلِكَ فَلْيَتَنَافَسِ الْمُتَنَافِسُونَ﴾﴿وَمِزَاجُهُ مِن تَسْنِيمٍ﴾﴿عَيْنًا يَشْرَبُ بِهَا الْمُقَرَّبُونَ﴾

**"Belə deyil! Həqiqətən, xeyir əməl sahiblərinin naməsi uca bir yerdədir; sən nə bilirsən illiyyin nədir? Bu yazılmış bir taledir; Allaha yaxınlar ona şahiddir; həqiqətən, xeyir əməl sahibləri behiştin naz-nemətləri içindədirlər; onlar taxtlara (söykənib) baxırlar; onların çöhrəsində nemət şadlığı, təravət görərsən; onlara xalis, möhürlənmiş və mumlanmış şərabdan içirilər; onun möhürü müşkdəndir; yarışmaq**

---

[1] "Təfsiri-məcməul-bəyan"
[2] "Təfsiri-nurus-səqəleyn"
[3] "Tövhidi-Səduq", s. 162

**istəyən bu yolda rəqabət aparsa yaxşıdır; ona təsnim qatılmışdır; yaxınların içdiyi bir çeşmədən.”**

## Nöqtələr

◘”İlliyyin” sözü “illy” sözündəndir. Bu söz uca və sonsuz mərtəbələr mənasını bildirir.

◘Xeyir əməl sahiblərinin kitabı dedikdə onların qiyamətdəki telyi nəzərdə tutulur. “Mərqum” sözü müəyyən, başqa yazılarla səhv salınmayan nişanlı yazı mənasını bildirir.

◘”Əraik” sözü “ərikə” sözünün cəmidir. Bu söz zinətlənmiş taxt mənasını bildirir.

◘”Nəzrə” sözü gözəllik, şadlıq mənasını bildirir. “Nəim” dedikdə bol nemət nəzərdə tutulur. “Rəhiq” sözü məst etməyən, pak, xalis şərab mənasını ifadə edir.

◘”Tənafis” sözü ya “nəfis” sözündən olub iki nəfərin nəfis bir şeydən ötrü çalışmasını, ya “nəfs” sözündən olub iki nəfərin bir şeyi əldə etmək üçün son nəfəsədək vuruşmasını bildirir.[1]

◘Behiştdə istiqbalın mərtəbələri var: bəziləri vasitə ilə, bəziləri vasitəsiz lütfə çatır.[2]

◘Bəzilərinin nəzərincə “misk” sözü möhürlənmiş şərab qabı mənasını bildirir.

◘Allaha yaxın insanlar təsnimdən içərlər. Xeyir əməl sahibləri isə təsnim qatılmış içkilərdən bəhrələnərlər.

◘Behişt içkilərinin növləri var: axar çaylar[3], möhürlənmiş qablar, behiştin yuxarı təbəqələrindən axan təsnim[4].

◘İmam Baqir (ə) buyurur: “Təsnim behiştin ən gözəl içkisidir. Bu içki Peyğəmbər (s) və Əhli-beytə (ə) məxsusdur. O behiştin yuxarı mərtəbəsindən axar, o biri mərtəbələrindən keçər.[5]

## Bildirişlər

1. Allahın xeyir əməl müqabilində mükafatı qətidir.
2. Başqalarının qarşısında nemətə çatmaq ləzzəti bir neçə qat artırır.
3. Gözəl mənzərələrin seyr olunduğu uca yerlər behişt nemətlərindəndir.
4. İnsanın ruhi durumu onun cisminə təsir edir.
5. Behişt nemətlərinin ilk dəfə istifadəyə verilməsi də bir dəyərdir.
6. Behişt ləzzətlərində hansısa ziyanlar yoxdur.
7. İslam maarifində dünya müsabiqə və rəqabət meydanıdır. Bu rəqabətdə axirət nemətləri üçün çalışmaq lazımdır.
8. Behişt əhlinin dərəcələri, mərtəbələri var.

***Ayə 29, 30, 31, 32, 33, 34, 35, 36:***

**﴿إِنَّ الَّذِينَ أَجْرَمُوا كَانُواْ مِنَ الَّذِينَ آمَنُوا يَضْحَكُونَ﴾﴿وَإِذَا مَرُّواْ بِهِمْ يَتَغَامَزُونَ﴾﴿وَإِذَا انقَلَبُواْ إِلَى أَهْلِهِمُ انقَلَبُواْ فَكِهِينَ﴾﴿وَإِذَا رَأَوْهُمْ قَالُوا إِنَّ هَؤُلَاء لَضَالُّونَ﴾﴿وَمَا أُرْسِلُوا**

[1] “Təfsiri-rahnoma”
[2] “İnsan”, 21
[3] “Muhəmməd”, 15
[4] “Təfsiri-nümunə”
[5] “Təfsiri-Bürhan”

﴿عَلَيْهِمْ حَافِظِينَ﴾﴿فَالْيَوْمَ الَّذِينَ آمَنُواْ مِنَ الْكُفَّارِ يَضْحَكُونَ﴾﴿عَلَى الْأَرَائِكِ يَنظُرُونَ﴾﴿هَلْ ثُوِّبَ الْكُفَّارُ مَا كَانُوا يَفْعَلُونَ﴾

**"Həqiqətən, günahkarlar iman əhlinə daim gülərlər; onların yanından ötdükdə (məsxərə ilə) bir-birlərinə göz qaş edərlər; öz əhllərinin yanına qayıtdıqda məsxərə edə-edə qayıdarlar; iman əhlini gördükdə deyərlər: "Şəkk yox ki, onlar azğındırlar." Hansı ki, onlara möminlərə nəzarət etmək tapşırılmayıb; bəli, bu gün iman əhli kafirlərə gülər; bir halda ki, behişt taxtlarına baxırlar; görən kafirlər əməllərinin cəzasına çatdımı?"**

## Nöqtələr

◘Başqalarının eybinə işarə ilə göz-qaş etmək "ğəmz" adlanır.

## Bildirişlər

1. Möminlər günahkarların və azğınların təhqiramiz rəftarlarına hazır olmalıdırdır.
2. Biganələrin gülüşü, acı sözləri sizi sıxmasın. Çünki onlar günahkardırlar.
3. Məsxərə, təhqir, istehza qədimdən günahkarların qaydasıdır.
4. Günahkar öz günahı ilə kifayətlənmir, pakları alçaldır, onlara ruhi zərbə vurur.
5. Möminlərə istehza ilə lətifələr qoşmaq günahkarların qaydasıdır.
6. Davamlı günah insanın mühakimə qabiliyyətini əlindən alır.
7. Günah yolu tutanlar möminləri mühakimə etmək haqqına malik deyillər.
8. Möminlər kafirlərdən xoş münasibət, razılıq gözləməməlidirlər.
9. Günahkarlar özlərini möminlərə nəzarətçi bilir, onların hər addımını izləyirlər. Allah belələrini rədd edir.
10. Qiyamətdə isə möminlə günahkarlara ruhi əzab verər. Çünki qiyamətdə növbə möminlərindən.
11. Qiyamət cəzası dünyadakı günahlara müvafiqdir.
12. Qiyamət cəzaları insanın əməllərinin nəticəsidir.

# “İNŞİQAQ” SURƏSİ

### *(84-CÜ SURƏ; 25 AYƏ)*

### *OTUZUNCU CÜZ*

## *“İNŞİQAQ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 25 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “İnşiqaq” dedikdə yarılma mənası başa düşülür. Digər Məkkə surələrində olduğu kimi bu surədə də əsas mövzu məad və qiyamətdir.

Surədə varlıq aləmindəki nizamın pozulmasından, yer və göyün bir-birinə qatışmasından, qiyamətin bərpasından, axirət nizamının qurulmasında danışılır.

İnsan qiyamət günü öz təlaşlarının səmərəsinə çatar. Pak və çirkin əməl sahiblərinin namələri onların əlinə verilər. Bu namələr əsasında insanlar mükafatlandırılar və ya cəzalandırılar. Bu ilahi sünnə tarix boyu işlək olmuşdur. Bütün insanlar bu sayağı hesaba çəkilər.

Rəvayətdə bildirilir ki, bu ayələrin mənasını düşünərək oxumaq insanın əməl naməsini sağ əlinə verilməsi ilə, başqa sözlə, qurtuluşu ilə sonuclanar.[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿إِذَا السَّمَاء انشَقَّتْ﴾﴿وَأَذِنَتْ لِرَبِّهَا وَحُقَّتْ﴾﴿وَإِذَا الْأَرْضُ مُدَّتْ﴾﴿وَأَلْقَتْ مَا فِيهَا وَتَخَلَّتْ﴾﴿وَأَذِنَتْ لِرَبِّهَا وَحُقَّتْ﴾**

**“O zaman ki, səma yarılar; Rəbbinin əmrinə tabe olar ki, belə daha yaxşıdır; o zaman ki yer hamarlanar; köksündə olanları çölə atıb boşalar; Rəbbinin əmrinə tabe olar ki, belə daha yaxşıdır.”**

### Nöqtələr

◘”İnşiqaq” dedikdə yarılma mənası anlaşılır. Həzrət Əli (ə) buyurur: “Səma kəhkəşan yolu parçalanar.”[2]

◘”Əzinət” sözü “uzun” sözündəndir. Bu söz eşidiləcək söz mənasını bildirir.” “Huqqət” dedikdə layiq, münasib, haqqı olan mənaları nəzərdə tutulur.

◘Qiyamətdə yerin köksündə olanlar, ölülər, xəzinələr bayıra çıxarılar. “Zilzal” surəsində də bu məsələyə toxunulur.

### Bildirişlər

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Təfsiri-dürrül-Mənsur”

1. Qiyamət astanasında möhkəm səmalar yarılar.

2. Varlıq aləmi Allahın əmrinə təslim olar.

3. Təbiətin də bir növ şüuru var və o Allaha tabe olur.

4. Allaha təslimçilik yeganə layiq təslimçilikdir.

5. Qiyamət astanasında yer elə dağılar ki, onun üzərində olanlar tamamilə hamarlanar.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15:***

**﴿يَا أَيُّهَا الْإِنسَانُ إِنَّكَ كَادِحٌ إِلَى رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ﴾﴿فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ﴾﴿فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا﴾﴿وَيَنقَلِبُ إِلَى أَهْلِهِ مَسْرُورًا﴾﴿وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ وَرَاء ظَهْرِهِ﴾﴿فَسَوْفَ يَدْعُو ثُبُورًا﴾﴿وَيَصْلَى سَعِيرًا﴾﴿إِنَّهُ كَانَ فِي أَهْلِهِ مَسْرُورًا﴾﴿إِنَّهُ ظَنَّ أَن لَّن يَحُورَ﴾﴿بَلَى إِنَّ رَبَّهُ كَانَ بِهِ بَصِيرًا﴾**

**“Ey insan! Sən Rəbbinə doğru çox can atırsan; sonda onun görüşünə yetişərsən; əməl naməsi sağ əlinə verilən kəsin tezliklə və asanlıqla hesabına baxılar; o şad halda ailəsinin (həmfikirlərinin) yanına dönər; hər kəsə əməl naməsi arxadan (sol əlinə) verilsə tezliklə onun fəryadı ucalar; o cəhənnəmə daxil olar; həqiqətən, o (dünyada) ailəsi içində şad idi; güman edirdi ki, heç vaxt geri dönməz; xeyr! Rəbbi onu görür.”**

### Nöqtələr

◘”Kədh” sözü həm təlaş, həm də zərbə vurmaq mənasını bildirir. İnsan Rəbbinə doğru irəliləyər. Amma bu gediş əziyyətli bir gediş olar. Sanki insan bu iş ilə özünü incidir.

◘Hədisdə bildirilir ki, üç xasiyyətə malik insanla Allah yüngül hesab aparar. Onu öz mərhəmətinə, behiştə daxil edər. Həmin üç xüsusiyyət: səni məhrum qoyana əta edəsən, səninlə əlaqəni kəsəni yoxlayasan, sənə zülm edəni bağışlayasan.[1]

◘9-cu və 13-cü ayələrdə ailə daxilində şadlıqdan danışıldı. Bunlardan biri müsbət, digəri mənfi sayılır. Dünyada qəflət içində şadlığın sonu cəhənnəm, iman və təqva ilə yaşayışın sonu qiyamətdə yaxınlar arasında şadlıqdır.

◘Həzrət Əlidən (ə) hazırkı ayə ilə bağlı soruşulduqda buyurur: “Behiştlik insanın ailəsi mömin olarsa, axirətdə də ona ailə seçilir.”

### Bildirişlər

1. İnsan Allaha doğru hərəkətdədir.[2]

2. İnsan Allaha doğru hərəkətdə saysız problemlərlə üzləşir.

3. Allah tarix boyu cəmiyyətlərdə sabit qanunlar müəyyənləşdirib. Bu qanunlara hamı tabedir. Onları nə dayandırmaq, nə də təxirə salmaq mümkündür.

4. İnsanın təlaşlarının sonu Allaha qovuşmaqdır.

5. İnsanın dünyadakı əməlləri qeydə alınır və qiyamətdə yazılı şəkildə təqdim edilir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Bəqərə”, 156

6. Qiyamətdə insanlarla müxtəlif şəkillərlə sorğu aparılır. Xeyir əməl sahiblərinin hesabı yüngüldür.[1]

7. Dünyadakı şadlıqlar sizi qürrələndirməsin. Axirətin daimi şadlığı barədə düşünün. (Əgər bu gün ilahi əmrlərə xatir bəzi ləzzətlərdən imtina etsək, cihad və təhsilə görə ailədən uzaqlaşsaq, axirətdə bunun əvəzini alasıyıq.)

8. Qiyamətin əvvəlində insanlar bir-birindən qaçsalar da[2], yüngül hesab və behiştə girişdən sonra öz ailələrinə doğru hərəkət edərlər.

***Ayə 16, 17, 18, 19, 20, 21:***

**﴿فَلَا أُقْسِمُ بِالشَّفَقِ﴾﴿وَاللَّيْلِ وَمَا وَسَقَ﴾﴿وَالْقَمَرِ إِذَا اتَّسَقَ﴾﴿لَتَرْكَبُنَّ طَبَقًا عَن طَبَقٍ﴾﴿فَمَا لَهُمْ لَا يُؤْمِنُونَ﴾﴿وَإِذَا قُرِئَ عَلَيْهِمُ الْقُرْآنُ لَا يَسْجُدُونَ﴾**

**“An içirəm şəfəqə; and içirəm gecəyə və onun ağuşa aldıqlarına; and içirəm bədrlənən aya; siz daim haldan hala düşürsünüz; onlara nə olub ki iman gətirmirlər? Quran onlara oxunan zaman səcdə qılmırlar.”**

## Nöqtələr

◘“Yəhur” sözü “hur” sözündəndir. Bu söz qayıdış mənasını bildirir. Nəzərdə tutulan qiyamət günü axirət həyatına qayıdışdır.

◘“Təbəq” sözü tətbiq mənasını ifadə edir. İki şey, iki halın üst-üstə düşməsi bu sözlə ifadə edilir. Çünki insan ruhu həmin hala uyğunlaşır. Yəni insanlar bir miniyə süvar olmuş tək müəyyən hala düşüb məqsədə doğru hərəkət edər.[3]

◘Qürub astanasında qızartı görünür. Sonra gecənin qaranlığı onu bürüyür. Daha sonra ayın işığı bu qaranlığı yarır. Bu vəziyyətlər bir-birini əvəz edir. İnsanlar da ardıcıl olaraq təkamül yolunda haldan-hala düşür.

◘“Lətərkəbunnə təbəqən ən təbəq” ayəsində həyatın müxtəlif mərhələlərinə işarə olunur. İnsan Allaha doğru hərəkətində bu mərhələləri adlayır. Bu dünya, bərzəx və axirət həyatıdır.[4]

Olsun ki, həmin ayədə hazırkı talelərin keçmiş qövmlərin talelərinə uyğunluğuna işarə edilmişdir. Yəni onlar kimi inkar etsəniz, həlak olarsınız, onlar kimi iman gətirsəniz qurtularsınız. Bu məna hədislərdə də təsdiqlənir.

◘21-ci ayədə səcdə məsələsinə toxunularkən insanların təvazö, təsdiq və imanı nəzərdə tutulmuşdur. Əks təqdirdə hər ayə oxunanda səcdə etmək lazım gələrdi.

## Bildirişlər

1. İnsanın bədbəxtçiliklərinin kökü onun məaddan xəbərsizliyi və ya bu həqiqəti inkar etməsidir.

2. Məadı inkar edənlərin elmi əsası yoxdur, onlar yalnız zənn-gümana qapılırlar.

3. Məst halda sevincin kökü axirətdən xəbərsizlikdir.

---

[1] “Təlaq”, 8
[2] “Əbəsə”, 34-36
[3] “Təfsiri-rahnoma”
[4] “Təfsirul-mizan”

4. Ağıl və ehtiyat hökm edir ki, qiyamətə yəqinlik yoxsa, bu barədə ehtimallara diqqət yetirilməlidir.[1] Qiyamətin olmaması barədə gümanlar isə insanı məhv edir.

5. Quran qiraəti insanı bəndəliyə, təslimçiliyə sövq etməlidir.

### *Ayə 22, 23, 24, 25*

﴿بَلِ الَّذِينَ كَفَرُواْ يُكَذِّبُونَ﴾﴿وَاللَّهُ أَعْلَمُ بِمَا يُوعُونَ﴾﴿فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ﴾﴿إِلَّا الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ﴾

**“Amma kafirlər (ilahi ayələri) təkzib edirlər; Allah isə onların qəlbində olanı daha yaxşı bilir; onları ağrılı əzabla müjdələ; yalnız iman gətirib saleh işlər görənlər istisnadır; onlar üçün əbədi və davamlı mükafat var.”**

### Nöqtələr

◘”Yuunə” sözü “via” sözündəndir və qab mənasını bildirir. Hazırkı ayədə bu söz qəlb və qəlbdə olanlar mənasını bildirir. “Bəşşir” sözü müjdə mənasını bildirir və müjdə dedikdə insanın çöhrəsində özünü göstərən xoş xəbərlər nəzərdə tutulur. Bu söz bəzən təhqir mənasında da işlədilir. Deyilir ki, “filankəs üçün ölüm müjdə olsun.”

### Bildirişlər

1. Kafirlər nəinki ilahi ayələrə təslim olmur, hətta onları təkzib etməyə çalışırlar.
2. Küfr yolunu tutan insan qarşılaşdığı istənilən bir məsələni inkar edir.
3. Allah insanın iç sirlərindən tam xəbərdardır.
4. Bəzən insan öz inkar və təkzibi ilə başqa bir məqsəd izləyir. Amma Allah onun bütün məqsədlərindən xəbərdardır.
5. Bəzən insan qəlbən bəyəndiyi bir şeyi mənafelərinə xatir zahirdə təkzib edir.
6. Küfr və mükafat əməl əsasında təyin edilsə də, insanın məqsədi mühümdür və Allah bu məqsəddən xəbərdardır.
7. Saleh iş iman şərtidir. İbadət saleh əməl nümunələrindəndir.
8. İman əməldən ayrı deyil. Onlar bir-birləri üçün şərtdir.
9. İlahi mükafat minnətsizdir və heç vaxt kəsilməz.

[1] “Bəqərə”, 46

# “BÜRUC” SURƏSİ

### *(85-Cİ SURƏ; 22 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“BÜRUC” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 22 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Büruc” dedikdə yüksəklikdəki bürc kimi işıq saçan parlaq ulduzlar mənası nəzərdə tutulur.

Surənin başlanğıc ayələrində dərin bir xəndək qazıb orada böyük od qalayan və möminləri odda yandırmaqla hədələyən azğınların cinayətlərinə işarə olunur. Onlar öz imanından əl çəkməyənləri bu atırdılar.

Allah da belələrini cəhənnəm odu ilə müjdələyir. Bu od dünya odu ilə müqayisəyə gəlməz. Beləcə, möminlərə təsəlli verilir, onlar zalımlara qarşı mübarizəyə çağırılır.

Surənin davamında Firon və Səmud qövmünün əhvalatları yada salınır. Onlar böyük qüdrətə sahib olsalar da, Allahın iradəsi qarşısında məğlub olub əzildilər.

Surənin son ayələrində Quranın əzəmətindən, ilahi vəhyin uca məqamından danışılır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9:***

**﴿وَالسَّمَاء ذَاتِ الْبُرُوجِ﴾﴿وَالْيَوْمِ الْمَوْعُودِ﴾﴿وَشَاهِدٍ وَمَشْهُودٍ﴾﴿قُتِلَ أَصْحَابُ الْأُخْدُودِ﴾﴿النَّارِ ذَاتِ الْوَقُودِ﴾﴿إِذْ هُمْ عَلَيْهَا قُعُودٌ﴾﴿وَهُمْ عَلَى مَا يَفْعَلُونَ بِالْمُؤْمِنِينَ شُهُودٌ﴾﴿وَمَا نَقَمُوا مِنْهُمْ إِلَّا أَن يُؤْمِنُوا بِاللَّهِ الْعَزِيزِ الْحَمِيدِ﴾﴿الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ﴾**

**“And olsun çoxlu bürc sahibi olan səmaya; vəd olunmuş günə and olsun; and olsun şahid və şəhadət verilənə; ölün (odla dolu) xəndək sahiblərinə; həmin çırpı dolu alov; bir zaman onun kənarında oturmuşdular; möminlərə rəva qıldıqları işgəncəyə tamaşa edirdilər; onların möminlərə heç bir iradı yox idi; yalnız bu ki onlar əziz və həmd olmuş Allaha iman gətirmişdilər; o Allah ki göylərin və yerin hökmü onun əlindədir; Allah hər şeydən agahdır.”**

### Nöqtələr

◘”Büruc” sözü “bürc” sözünün cəm formasıdır. Bu söz zahir, aşkar mənasını bildirir. “Təbərrüc” dedikdə zinəti aşkarlamaq mənası anlaşılır. Uca tikililərə bürc deyilməsinin səbəbi onların digər binalar arasından aşkar görünməsidir. Hazırkı ayədə “büruc” dedikdə uzaqdan görünən və parlayan ulduzlar nəzərdə tutulur. Digər ayələrdə də oxşar məzmunla rastlaşırıq.[1]

---

[1] “Hicr”, 16

◘”Və şahidin və məşhud” ayəsi ilə bağlı 30-dək nümunə göstərilmişdir. Məsələn Allah və yaranmışlar. Yəni and olsun xaliqə və bütün varlıq aləminə.

İmam Hüseyn (ə) buyurur: “Şahid dedikdə peyğəmbər nəzərdə tutulur. “Əhzab” surəsinin 45-ci ayəsi buna dəlildir. Məşhud dedikdə isə qiyamətə işarə olunur. “Hud” surəsinin 103-cü ayəsi bu mənanı təsdiqləyir.”[1]

◘”Vuqud” sözü alovlu, yandırıcı mənasını bildirir.

◘”Uxdud” dedikdə dərin xəndək, çala nəzərdə tutulur. “Əshabul-uxdud” ifadəsi elə böyük xəndək qazıb onu odla dolduran və möminləri həmin oda atan azğınlara işarə olunur. Həzrət İbrahimə münasibətdə də belə bir addım atılmışdı. Ayədə nəzərdə tutulan zalımlar və möminlərlə bağlı müxtəlif rəvayətlər var. Quranda həmin şəxslərlə bağlı konkret açıqlama verilmir.

## Bildirişlər

1. Allah üçün bütün varlıq aləmi dəyərlidir. Onların hər birinə and içilə bilər. Səma və ulduzları and üçün nümunə göstərmək olar.
2. Qiyamətdən qəflətdə qalmayın, qiyamət hamıya vəd olunmuş yerdir.
3. Sizin bütün işləriniz nəzarət altındadır. İnsana Allah nəzarət edir.
4. Zalımlara arxa çevirmək, nifrət bildirmək zəruridir.
5. Tarixin nəqlində xırdalıqlar yox, ibrətamiz hadisələri yada salmaq mühümdür. Hazırkı ayələrdə hadisə haqqında məlumat verilsə də ad çəkilmir.
6. Hətta arada zalım olmasa da, zülmə nifrət bu barədə düşüncə dəyərlidir. (Bu gün uxdud əshabı olmasa da onlara nifrət ruhiyyəsi yaşamalıdır.
7. Ən ağır əzab yandırmaqdır. Saysız qətllər arasında Allah möminlərin oda atılmasını qeyd edir.
8. Zülüm və məzlumiyyətlərin nəqli, müsibitlərin zikri və rövzəxanlığın Quranda qeyd olunmuş keçmişi var.
9. Günaha batmaq bir məsələdir, günahla razılaşmaq və qəlbidaşlıq başqa bir məsələ.
10. Möminlərə verilən işgəncələrə tamaşa edən zalımlar bilsinlər ki, Allah onlara və onların gördüyü işlərə şahiddir.
11. Sabit iman güc gətirir. Kafirləri narahat edən möminlərin davamlı imanı idi. Əgər möminlər imanlarından əl çəksəydilər onlara işgəncə verilməzdi.
12. Kafirlərin məntiqi hədə-qorxu və intiqamdan ibarətdir.
13. Kafirlər arasında ən böyük günah iman gətirməkdir. Onları yalnız insanların imanlarından əl çəkməsi razı salır.
14. Kafirlər bilsinlər ki, Allah möminlərin hamisidir və o intiqam almağa qadirdir.
15. Qadir Allaha bağlılıq cazibəsi şəhadət yolundakı çətinlikləri aradan qaldırır.
16. Həqiqi hakimiyyət yalnız Allaha məxsusdur.
17. Allahın hakimiyyəti Onun elm və iştirakı ilə müşayiət olunur.

***Ayə 10, 11:***

**﴿إِنَّ الَّذِينَ فَتَنُوا الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ ثُمَّ لَمْ يَتُوبُوا فَلَهُمْ عَذَابُ جَهَنَّمَ وَلَهُمْ عَذَابُ الْحَرِيقِ﴾﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ ذَلِكَ الْفَوْزُ الْكَبِيرُ﴾**

[1] “Təfsiri-nurus-səqəleyn”

**“Həqiqətən, imanlı kişiləri və qadınları incidib tövbə etməyənlər üçün cəhənnəm əzabı, yandırıcı əzab kimi əzab var. Həqiqətən, iman və saleh əməl sahibi olanlar üçün altından çaylar axan behişt bağları var. Budur böyük qurtuluş!”**

### Nöqtələr

◘”Fitnə” dedikdə qızılı oda daxil etmək mənası anlaşılır. Adi danışıqda bu söz əzab, işgəncə, ağır sınaq mənalarında işlədilir. Hazırkı ayədə isə bu söz əzab-əziyyət mənasında işlədilmişdir.[1] Başqa ayələrdə də oxşar məzmunla rastlaşırıq.[2]

◘Tarixin acı və ağır hadisələrində mömin qadınlar və kişilər çiyin-çiyinə olmuşlar. İnqilabi hərəkatlarda qadınların rolu yaddan çıxarılası deyil. Bu səbəbdən də cinayətkar zalımlar kişilərlə yanaşı qadınlara işgəncə vermişlər.

### Bildirişlər

1. Uxdud əshabı və tarixin bütün zalımları Allahın qəzəbinə gələsidir.
2. İmanlı qadınlar kişilərlə yanaşı Allah yolunda işgəncələrə məruz qalmışlar.
3. Məzlumların müdafiəsində kişi və qadın arasında fərq qoyulmamalıdır.
4. Tövbə yolu həmişə açıqdır, bu yolda kimsə üçün çıxılmaz vəziyyət yoxdur. Bu səbəbdən də Allahın mərhəmətindən ümidsizlik qadağan edilir. Bəli, Allah hətta möminləri oda çəkən zalımları tövbəyə dəvət edir.
5. Allah uzun çəksə belə tövbələri qəbul edir.
6. Yandırmağın cəzası yandırılmaqdır.
7. Müjdə və xəbərdarlıq yanaşı olmalıdır.
8. Ən üstün ləzzətlərdən biri təbiətin seyridir.
9. İşgəncə verən kafirlər üçün iki əzab nəzərdə tutulur: küfr əzabı və işgəncələrin əzabı.
10. Dünya ötəridir. Həm zalımların eyş-işrəti ötəridir, həm də möminlərin məruz qaldığı əziyyətlər. Axirət barədə düşünün. Cəhənnəm əhlinin əzabı, behişt əhlinin mükafatı daimidir.

***Ayə 12, 13, 14, 15, 16:***

﴿إِنَّ بَطْشَ رَبِّكَ لَشَدِيدٌ﴾﴿إِنَّهُ هُوَ يُبْدِئُ وَيُعِيدُ﴾﴿وَهُوَ الْغَفُورُ الْوَدُودُ﴾﴿ذُو الْعَرْشِ الْمَجِيدُ﴾﴿فَعَّالٌ لِّمَا يُرِيدُ﴾

**“Həqiqətən, Rəbbinin qəzəb və cəzası şiddətlidir; şübhəsiz, Odur (yaranışa) başlayan və onu geri döndərən; Odur bağışlayan və (möminləri) sevən; uca ərşin sahibi Odur; O istədiyini hökmən edər.”**

### Nöqtələr

◘”Bətş” dedikdə qəzəb və hökmlə geri almaq mənası nəzərdə tutulur.

[1] “Təfsiri-nümunə”
[2] “Zariyat”, 13, 14

◘"Ərş" sözü Allahın hakimiyyət taxtı, ilahi tədbirləri mərkəzi mənasını bildirir. Ərş dedikdə bütün varlıq aləmini əhatə edən məkan da nəzərdə tutulur. "Zül-ərş" ifadəsi bütün varlıq aləminin sahibi mənasında işlədilir.

**Bildirişlər**

1. Allahın qəzəb və hökmü kimsə tərəfindən qarşısı alınmayacaq gücdədir.
2. Qəhr-qəzəb və cəza risalət məqsədlərinin həyata keçməsi və Peyğəmbərə (s) təsəlli üçündür, eləcə də Allahın rübubiyyət şənlərindəndir.
3. Yaratmaq və geri qaytarmaq Allahın həmişəlik işidir.
4. Allah həm yaratmağa, həm də geri qaytarmağa qadirdir.
5. Allahın həm qəhr-qəzəbi, həm də mərhəməti var.
6. Allah yaratmaqla yanaşı bütün yaratdıqlarını idarə edir, hökmü altında saxlayır.
7. Allahın nə qəzəbinə, nə də mərhəmətinə mane olacaq bir şey yoxdur.
8. Allahın işləri üçün məhdudiyyət yoxdur. (Allahın bütün işləri hikmətə əsaslanır, onun hikmətsiz əmri yoxdur)

***Ayə 17, 18, 19, 20, 21, 22:***

﴿هَلْ أَتَاكَ حَدِيثُ الْجُنُودِ﴾﴿فِرْعَوْنَ وَثَمُودَ﴾﴿بَلِ الَّذِينَ كَفَرُوا فِي تَكْذِيبٍ﴾﴿وَاللَّهُ مِن وَرَائِهِم مُّحِيطٌ﴾﴿بَلْ هُوَ قُرْآنٌ مَّجِيدٌ﴾﴿فِي لَوْحٍ مَّحْفُوظٍ﴾

**"Həmin qoşunun xəbəri sənə çatdımı? Firon və Səmud qoşunlarının; bəli, kafirlər təkzib etməkdədirlər; Allah onları hər tərəfdən əhatəyə almışdır; bəli, o məcid Qurandır; o lövhi-məhfuzda yazılmışdır."**

**Nöqtələr**

◘Firon və Səmud qövmü qüdrət və mədəniyyət baxımından ən üstün qövmlər idilər. Quranın digər ayələrində onların güc-qüdrətinə işarə olunur. Burada da onların adı çəkilir.

◘Allahın dünya azğınları qarşısındakı qüdrətinin bəyanı möminlər üçün təsəllidir.

◘"Quran" sözü "əlif, lam" artikli ilə işlədilərsə, Qurani-kərim mənasını bildirər. Əgər əlif-lamsız işlədilərsə, oxunmuş mənasını ifadə edər. Hazırkı ayədə Quran sözü Peyğəmbərə (s) oxunmuş vəhy kəlmələri mənasını bildirir.

**Bildirişlər**

1. Öncə qarşı tərəfdə maraq yaradaq, sonra sözümüzü deyək.
2. Keçmişdəkilərin tarixini öyrənmək və Allahın onlarla rəftarından ibrət götürmək lazımdır.
3. Dünyanın hərbi baxımdan ən üstün şəkildə təchiz olunmuş qoşunları Allahın qəhri qarşısında puçdur.
4. Kafirlər Quran və onun vədlərini təkzib etməkdə israrlıdırlar.
5. Zalımlar ilahi qüdrət dairəsindən kənarda deyil. Onlar üçün qurtuluş yolu yoxdur, amma anlamırlar.
6. Həm Allah həm də onun kitabı əzəmətlidir.
7. Quranın yazıldığı lövhə Allahın hüzurunda qorunmuşsa da, bizə məlum deyil.

8. Quran istənilən bir təhlükə və təhrifdən sığortalanmışdır.

# “TARİQ” SURƏSİ

### *(86-CI SURƏ; 17 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“TARİQ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 17 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Tariq” dedikdə döyəcləmək mənası anlaşılır.

Surədə əsasən məaddan və böyük nemət olan Quranın məqamından danışılır.

İnsanın diqqətinin onun dəyərsiz bir sudan yaranışına yönəldilməsi, Allahın insanı yenidən yaratmağa qadir olması, ilahi qüdrətin qiyamət səhnəsində təzahürü səmavi vəhyin əsas bildirişləridir. Müxaliflər bütün bunları zarafat sayır. Hansı ki, bu vədlər qətidir və kafirlərin fitnələri özlərinə zərər verəsidir.

Rəvayətlərdə tövsiyə olunur ki, vacib namazlarda bu surə oxunsun. Bu surəni oxumağın böyük fəzilətləri var. Bu fəzilətlərdən biri də böyük ilahi peyğəmbərlərlə yaxınlıqdır.[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10:***

**﴿وَالسَّمَاء وَالطَّارِقِ﴾﴿وَمَا أَدْرَاكَ مَا الطَّارِقُ﴾﴿النَّجْمُ الثَّاقِبُ﴾﴿إِن كُلُّ نَفْسٍ لَّمَّا عَلَيْهَا حَافِظٌ﴾﴿فَلْيَنظُرِ الْإِنسَانُ مِمَّ خُلِقَ﴾﴿خُلِقَ مِن مَّاء دَافِقٍ﴾﴿يَخْرُجُ مِن بَيْنِ الصُّلْبِ وَالتَّرَائِبِ﴾﴿إِنَّهُ عَلَى رَجْعِهِ لَقَادِرٌ﴾﴿يَوْمَ تُبْلَى السَّرَائِرُ﴾﴿فَمَا لَهُ مِن قُوَّةٍ وَلَا نَاصِرٍ﴾**

**“And olsun səmaya və tariq ulduzuna; bilirsənmi tariq nədir? O parlaq bir ulduzdur. Üzərində nəzarətçi olmayan bir kəs yoxdur; insan nədən yarandığına baxsın; o atıcı sudan yaranmışdır; bu su bel və sinə arasından çıxır; həqiqətən, o (Allah) yenidən diriltməyə qadirdir; elə bir gün ki sirlər aşkarlanır; həmin gün insanın nə bir qüdrəti, nə də yardımçısı var.”**

#### Nöqtələr

◘”Tariq” sözü gecə daxil olub qapını döyən kəs mənasını bildirir. “Tərq” dedikdə döyəcləmək, “mitrəqə” dedikdə döyəcləmə vasitəsi nəzərdə tutulur. “Təriq” sözü yol mənasını ifadə edir. Çünki yol ayaq altda döyəclənir.

◘”Saqib” sözü dəlmək mənasını bildirir. Sanki həmin ulduz öz işığı ilə gecənin qaranlığını dəlir. “Sulb” dedikdə möhkəm mənası anlaşılır. Hazırda bu söz bel sütunu mənasında işlədilmişdir. “Təraib” sözü isə sinə sümükləri mənasını ifadə edir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

◘”Tubla” sözü “bəlva” sözündəndir. Bu söz həqiqətləri aşkarlayan sınaq mənasını ifadə edir.

◘İmam Sadiqdən (ə) nəql olunmuş rəvayətə əsasən “tariq” dedikdə Əmirəl-möminin (ə) və onun məsum canişinlərinin ulduzu nəzərdə tutulur.”[1]

◘Əşəs ibn Qeys münafiqlərdən idi. O bir gecə həzrət Əlinin (ə) qapısını döyüb ona halva təqdim etdi, səhəri gün günah iş gördü. Həzrət Əli (ə) gecə onun qapısını döyənin adını tariq qoydu.[2]

◘Dördüncü ayənin oxşarı ilə “infitar” surəsində rastlaşırıq. Həmin surədə bildirilir ki, sizi əməllərinizi böyüklüklə, kin-küdurətsiz qeydə alan nəzarətçilər qoyulub.

## Bildirişlər

1. İnsan və onun bütün işləri ilahi mələklərin nəzarəti altındadır.
2. Övladın nütfə halından ana bətnindən çıxanadək keçdiyi yol diqqətlə mütaliə olunmalıdır. Belə bir mütaliə həm Allah, həm də məadı tanımağa kömək edir.
3. İnsan ağıl, elm və istedad sahibi olduğundan öz yaranışı barədə düşünməlidir.
4. İnsanın öz yaranışına diqqəti onun məada imanı üçün zəminədir.
5. Məad cismanidir insanın cismi qiyamətdə yenidən dirilər.

***Ayə 11, 12, 13, 14, 15, 16, 17:***

**﴿وَالسَّمَاء ذَاتِ الرَّجْعِ﴾﴿وَالْأَرْضِ ذَاتِ الصَّدْعِ﴾﴿إِنَّهُ لَقَوْلٌ فَصْلٌ﴾﴿وَمَا هُوَ بِالْهَزْلِ﴾﴿إِنَّهُمْ يَكِيدُونَ كَيْدًا﴾﴿وَأَكِيدُ كَيْدًا﴾﴿فَمَهِّلِ الْكَافِرِينَ أَمْهِلْهُمْ رُوَيْدًا﴾**

**“And olsun yağışlı səmaya; and olsun yarılan yerə; həqiqətən, Quran ayırd edən bir kəlamdır. O əyləncə, zarafat deyil; həqiqətən, kafirlər daim hiylə qururlar; mən də tədbir tökürəm; kafirlərə möhlət ver, onları qısa bir vaxt azad burax.”**

## Nöqtələr

◘”Rəc” dedikdə yağış mənası anlaşılır. Yağışın “rəc” adlandırılmasının səbəbi onun buxar şəklində qalxıb yerə yağış şəklində düşməsi ola bilər. “Səd” dedikdə birkiərin cücərməsi üçün yerin yarılması mənası anlaşılır. “Həzl” sözü mənasız danışıq mənasını bildirir. “Kəyd” dedikdə məxfi, qəfil plan nəzərdə tutulur.

◘”Məhhil” və “əmhil” sözləri eyni bir mənanı ifadə edir. Bu sözlər nəzərdə tutulan mənanı vurğulamaq üçün təkrarlanır. Hər iki söz möhlət vermək mənasını ifadə edir. “Ruvəyda” dedikdə bir işin yerinə yetirilməsi üçün danlaqlı çalışma nəzərdə tutulur.

◘Səma və yer bitkinin ərsəyə gəlməsində ata və ana rolunu oynayır.

◘Yağışın yağması və torpağın hazırlığı bitkilərin inkişafı üçün bir zəmindir. Quranın nazil olması və insanın hazırlığı onun təkamülü üçün şərait yaradır. Quran sözü yağış sözü ilə yanaşı işlədilir.

◘Şəkki aradan qaldırmaq üçün həm məntiqi, həm də qətiyyətli danışmaq lazımdır. Allahın ardıcıl andları müxaliflərin şəkkini aradan qaldırmaq, möminlərin imanını gücləndirmək üçündür.

---

[1] “Təfsiri-Bürhan”

[2] “Nəhcül-bəlağə”, xütbə 224

◘”Ləqəvlun fəsl” dedikdə Quranın ardıcıl şəkildə haqqı batildən ayırması nəzərdə tutulur. Necə ki “filankəs şəkərdir” dedikdə onun tam bir şəkər parçası olması nəzərdə tutulur.

◘Həzrət Peyğəmbər (s) buyurur: “Tezliklə aranızda fitnə görünər.” Peyğəmbərdən qurtuluş yolu barədə soruşurlar. Həzrət buyurur: “Qurtuluş yolu keçmişdəkilər və gələcəkdəkilərdən danışan, sizin üçün hakim olan Qurandır. O haqqı batildən ayıran kəlamdır.” Həzrət sözünün davamında buyurur: “Qurandan başqa yerdə hidayət, doğru yol axtaranı Allah azdırar.”[1]

## Bildirişlər

1. Qiyamət insanların düşüncə və əməllərinin üzə çıxdığı gündür.
2. İnsanın məqsədləri və ruhiyyələri onun qiyamət günündəki halına təsirlidir.
3. Qiyamət sirlərin açıldığı, insanın peşiman olduğu gündür. Həmin gün insan çıxış yolu tapa bilməz.
4. İnsanın qiyamətə gəlişi su buxarının səmadan yerə enişi kimidir.
5. Hər bir mövcudun dəyəri onun bərəkətindədir.
6. Quran haqqı batildən ayıran kitabdır. Ona roman, bədii əsər kimi yanaşmaq olmaz.
7. Kafirlərin hiyləsi daimi, çətin və qətidir. Onların hiylələrindən qəflətdə qalmayın.
8. Allahın insanla rəftarı onun əməllərinə münasibdir. İnsan xeyir yolda addım atırsa, Allah onu hidayət edir.[2] İnsan hiylə qurmaq fikrindədirsə, özü hiyləyə düçar olur.
9. Quran haqqı batildən ayıran mizandır.
10. Kafirlər əslində Allaha qarşı çıxmışlar. Allahın isə tədbirləri sərtdir.
11. Kafirlər müsəlmanları aldadır. Biz də onları qəfil yaxalayaq.
12. Düşmənlə rəftarda nə özünüz tələsin, nə də Allahdan tələsik qərar gözləyin.
13. Düşməndən heç vaxt qəflətdə qalmaq olmaz. Amma möhlət verməyin eybi yoxdur.
14. Qəlbigenişlik rəhbərlik üçün zəruri şərtlərdəndir.
15. Düşmənə o qədər möhlət vermək olmaz ki, bu fürsətdən möminlərə qarşı istifadə etsin.

---

[1] “Təfsiri-nümunə”

[2] “Ənkəbut” 69

# “ƏLA” SURƏSİ

### *(87-Cİ SURƏ; 19 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ƏLA” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 19 ayədən ibarətdir.

Allaha təsbih söyləmək əmri ilə başlayan surələr “usəbbihat” adlanır. “Əla” surəsi “musəbbihat” surələrinin sonuncusudur.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. Həmin ayədə Allah “əla” sifəti ilə vəsf olunur. Surədəki mövzular iki qismə bölünür: birinci qismə əziz peyğəmbərə müraciət, ikinci qismə möminlər, kafirlər, səadət və bədbəxtlik amilləri barədə söhbətlər daxildir. Rəvayətlərdə tövsiyə olunur ki, fitr və qurban bayramları namazlarında birinci rəkətdə “Əla” surəsi oxunsun.[1]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1, 2, 3, 4, 5:*

﴿سَبِّحِ اسْمَ رَبِّكَ الْأَعْلَى﴾﴿الَّذِي خَلَقَ فَسَوَّى﴾﴿وَالَّذِي قَدَّرَ فَهَدَى﴾﴿وَالَّذِي أَخْرَجَ الْمَرْعَى﴾﴿فَجَعَلَهُ غُثَاء أَحْوَى﴾

**1. “Uca mərtəbəli Rəbbinin adını pak bilərək yad et”; 2. “Həmin Rəbb ki, yaratdı və qaydaya saldı”; 3. “Həmin Rəbb ki ölçü qoydu və hidayət etdi”; 4. “Həmin Rəbb ki otlaq cücərtdi”; 5. “Sonda onu qurudub qaraltdı.”**

### Nöqtələr

◘Allahın adına təsbih dedikdə təkcə onun zatına yox, həm də adına şərik qoşmamaq nəzərdə tutulur. Başqa adları Allahın adı ilə bir cərgəyə qoymaq olmaz. Bəzən çaşqın insanlar öz çıxışına belə başlayır: “Allahın və qəhrəman xalqımızın adı ilə.”

Quran və hədislərdən aydın şəkildə müşahidə olunur ki, İslam dini müqəddəs adlara ehtiramla yanaşır. Bu surədə buyurulur ki, Allahın zatına təsbihlə yanaşı onun adını da pak bil. Digər bir ayədə buyurulur ki, Peyğəmbərin (s) adını öz adlarınız kimi adi çəkməyin.[2] Başqa bir ayədə mələklərin qadın adlandırılmasına etiraz olunur.[3] İslam peyğəmbəri (s) öz ətrafındakıların qeyri-münasib adını dəyişirdi.

◘Yaranış və hidayət mövzusu “Taha” surəsinin 50-ci ayəsində də qeyd edilir. Firon Musadan onun Rəbbi haqqında soruşduqda Musa deyir ki, mənim Rəbbim hər şeyi yaradıb hidayət edən kəsdir. Aydın məsələdir ki, burada hidayət dedikdə bütün

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Nur”, 63
[3] “Nəcm”, 27

mövcudların batinindəki təkvini, fitri hidayət nəzərdə tutulur. Məsələn, bədən quruluşu ananı süd istehsalına sövq edir. Körpə isə ananın sinəsindən süd əmməyə sövq olunur.

Zaman ötdükcə təkvini hidayət, (fitri yönəlmə) mövzusu daha çox dərk edilir. Bu gün minlərlə alim öz yuvasından yüzlərlə kilometr uzaqlaşmış quşların geriyə necə döndüyünü araşdırır. Bəli, ilahi hidayət hər bir varlığı təkamülə yönəldən nemətdir. Torpaq zərrələri meyvə olur, meyvə nütfəyə çevrilir, nütfədən insan yaranır, insan cismi yenidən torpağa çevrilir.

◘"Səvva" dedikdə nizama salmaq mənası başa düşülür. Kəhkəşanlardan tutmuş kiçik həşəratlaradək hər bir varlıq nizama salınır. "Ğusa" dedikdə quru ot, "əhva" dedikdə getdikcə qaralan yaşıl ot nəzərdə tutulur.

◘Hətta kiçik bir yarpaq və ya ot diqqətdən kənarda deyil. Gözümüz qabağında saralan ot Allahın hidayət nizamında izlənilir. Həmin qurumuş otlar və yarpaqlar başqa bir maddəyə çevrilir və torpağa qüvvə verir. Qurumuş ağaclar müəyyən şəraitlərdə daş kömürə çevrilir.

## Bildirişlər

1. Allahın adı müqəddəsdir. İlahi adlara münasibətdə istənilən bir hörmətsizlikdən çəkinək.

2. Layiq olmayan vəsfləri Allahın adlarıyla bir sıraya qoymayaq.

3. Başqalarını Allaha məxsus adlarla çağırmayaq.

4. Allaha deyilən təsbih sizin öz təkamülünüz üçün faydalıdır.

5. Şirki aradan qaldırmaq hamıdan öncə səmavi rəhbərlərin öhdəsinədir. Bu məsuliyyət onlardan sonra möminlərin üzərinə düşür.

6. Allahın zatını və sifətlərini pak saymaq (təsbih) sayəsində kamil tövhidə çatmaq olar.

7. Allah dildə, yazıda və təsəvvürdə olan hər nədən üstündür. O kamilliklərdə ucadadır.

8. Allah təkcə yaradan deyil, həm də varlıq aləmini nizama salandır.

9. Mövcudların tutumu və hidayəti onların məqsədli yaranışının dəlilidir.

10. Allahın əmrləri hikmətli və əsaslıdır. Allahın adını pak sayaraq təsbih söylə. Çünki o "əla"dır, yaradıb nizama salmış, hidayət etmişdir.

11. Yaranmışların təkvini, fitri hidayəti müxtəlif çöhrələrdə özünü göstərir. Həmin yaşıl, həm də quru ot Allahın göstərdiyi yoldadır.

***Ayə 6, 7:***

﴿سَنُقْرِؤُكَ فَلَا تَنسَى﴾﴿إِلَّا مَا شَاء اللَّهُ إِنَّهُ يَعْلَمُ الْجَهْرَ وَمَا يَخْفَى﴾

**6. "Biz səni düzgün qiraətə sövq edərik, sən də unutmazsan"; 7. "Yalnız Allahın istədiyi istisnadır. Şübhəsiz, o aşkarı və gizlini bilir."**

## Nöqtələr

◘ "Sənuqriukə" sözü "qər" kökündən, "ifal" babındandır. "İqrə" sözünün lüğət mənası qarinin oxuması və ustadın dinləyib onun səhvlərini düzəltməsidir. İslam

peyğəmbərinə (s) müraciətdə işlədilən "iqrə" sözü ona düzgün oxumaq qüdrətinin verilməsini və nazil edilənləri unutmamasını ifadə edir.[1]

◘"İlla maşaəllahu" cümləsi sitisna bildirir. Peyğəmbərin (s) nəzərinə çatdırılır ki, Allah ona Quranla bağlı qüdrət verdikdən sonra da onu unutqanlığa düçar edə bilər. Behişt əhli haqqında danışılarkən bildirilir ki, behişt onlar üçün əbədidir. Amma yenə də Allahın istəyi şərt qoyulur.[2]

## Bildirişlər

1. Varlıq aləminin yaranışı və onun təkvini hidayəti insanların şəriət yolu ilə hidayəti üçün bir müqəddimədir. (Bitkini torpaq qatından cücərdən Allah insanın mənəvi istedadlarını hökmən büruzə verəsidir.)
2. Peyğəmbərin (s) nəyi vardısa vəhydin idi. Həzrət ona nazil edilənləri unudacağından qorxurdu. Allah bu nigarançılığı aradan qaldırmaq üçün Peyğəmbərə (s) vəd verir.
3. Allahın Rəsulu (s) istənilən bir unutqanlıqdan uzaqdır.
4. Peyğəmbər (s) bütün Quranı əzbər bilirdi. (İslam peyğəmbərinin (s) möcüzələrindən biri bu olub ki, dinlədiyi ən uzun ayəni birdəfəyə yadda saxlayıb.)
5. Allah hər şeyə qadirdir. O verdiklərini geri də ala bilər.
6. Allah vədinə xilaf çıxmasa da, vədini yerinə yetirməyə məcbur deyil.[3]
7. Allahın iradəsi hikmət və elmə əsaslanır.
8. Bəzi işlərin gizli qalması zərurətdir. (İndiki zamanda işlədilmiş "yəxfa" sözündən aydın olur ki, bəzi işlərin məxfiliyi onların karakterindən doğur.)

***Ayə 8, 9, 10, 11, 12, 13:***

**﴿وَنُيَسِّرُكَ لِلْيُسْرَى﴾﴿فَذَكِّرْ إِن نَّفَعَتِ الذِّكْرَى﴾﴿سَيَذَّكَّرُ مَن يَخْشَى﴾﴿وَيَتَجَنَّبُهَا الْأَشْقَى﴾﴿الَّذِي يَصْلَى النَّارَ الْكُبْرَى﴾﴿ثُمَّ لَا يَمُوتُ فِيهَا وَلَا يَحْيَى﴾**

**8. "Biz səni ən asan (dəvət yolu) üçün hazırlayırıq"; 9. "Əgər faydalı olsa, öyüd-nəsihət ver"; 10. "Hər kəsdə Allah qorxusu olsa tez bir zamanda öyüd götürər"; 11. Ən bədbəxt insanlar ondan uzaq qalar"; 12. "Həmin şəxs ki, ən böyük oda düşər"; 13. Orada nə ölər, nə də yaşayar."**

## Nöqtələr

◘Həzrət Musa təbliğdə müvəffəqiyyət üçün Allahdan iki şey istədi: geniş qəlb və risalət vəzifəsinin yüngüllüyü.[4] Allah-taala bu iki neməti İslam peyğəmbəri (s) istəmədən ona əta etdi.[5]

◘"Nuyəssirukə" sözü ilə Peyğəmbərin (s) nəzərinə çatdırılır ki, o gözəl xasiyyətli, geniş qəlbli, səfa-səmimiyyətli yaradılıb və onun üçün risalət vəzifəsinin icrası

---

[1] "Təfsirul-mizan"
[2] "Hud", 108
[3] "Həcc", 47
[4] "Taha", 25, 26
[5] "Şərh", 1; "Əla", 8

asanlaşdırılıb. Bildirilir ki, fitrət yolu olan asan yolun peyğəmbərin öz tərəfindən seçimi üçün iş görülər.[1]

### *Öyüd-nəsihət və moizə şərtləri*

a) Vaizin (moizə edənin) hazırlığı moizə üçün şərtdir;
b) Öyüd-nəsihət və moizə Qurana əsaslanmalıdır;
c) Vaiz özü qafil şəxs olmamalıdır;
ç) Yalnız ilahi yardımlara ümid edən vaiz müvəffəqiyyətə çatır.

### Bildirişlər

1. Dinin təbliği və insanların Allaha doğru çağırışında xeyli problem var. Allah vəd edir ki, din təbliğatçısına yardım göstərəcək, çətinlikləri onun üçün asanlaşdıracaq.
2. İş tapşırdığınız adamın problemlərini aradan qaldırın.
3. Bizim təsbihimiz Allahın yardımları üçün müqəddimədir.
4. Vəhy insanlara xəbərdarlıq üçün nazil olur.
5. İnsanın öyüd-nəsihəti qəbul etməsi onun agahlığı üçün şərtdir. Peyğəmbərin öyüd-nəsihət qəbul etməyən insanlar qarşısında vəzifəsi yoxdur.
6. Yalnız Allahdan qorxanlar öyüd-nəsihəti qəbul edir.
7. Allahdan qorxan insanlara öyüd vermək daha asandır.
8. Təbliğatçıya ümid verilməlidir ki, onun işi əbəs deyil.
9. Təbliğatçı qısa müddətdə işindən bəhrə gözləməməlidir.
10. Kafirlərin problemi onların Quran və Peyğəmbərdən (s) uzaqlığıdır. Əslində nə Quran, nə də Peyğəmbərdə (s) nöqsan var.
11. Quran bir meyardır. Öyüd götürən "yəxşa" öyüd götürməyən isə "əşqa" adı ilə təltif olunur.
12. Quranın öyüd-nəsihətindən zuaqlıq bədbəxtlik səbəbidir.
13. Öyüd-nəsihət qəbul etməmək qarabəxtlərin daimi qaydasıdır.
14. Qəlbində Allah qorxusu olmayanlar ən bədbəxt insanlardır.
15. Bütün insanların islah olacağını gözləməyin.
16. İnsanın öyüd-nəsihəti qəbul edib-etməməsinin kökü onun özündədir.
17. İnsan öz xəbisliyi həddində cəzalandırılır.
18. Bəziləri üçün cəhənnəm əbədidir.
19. Cəhənnəm əhli cəhənnəmdə qalmaqla oda vərdiş vermir. Onlar daim əzabdadır.

### *Ayə 14, 15:*

**﴿قَدْ أَفْلَحَ مَن تَزَكَّى﴾﴿وَذَكَرَ اسْمَ رَبِّهِ فَصَلَّى﴾**

**14. "Həqiqətən, özünü paklayan nicat tapdı"; 15. "Rəbbinin adını zikr edib namaz qıldı."**

### Nöqtələr

[1] "Təfsirul-mizan"

◘“Təzkiyə” dedikdə insanın düşüncəsinin puç əqidələrdən, nəfsinin çirkin əxlaqdan, cisminin alçaq rəftarlardan paklanması nəzərdə tutulur. Zəkat dedikdə ruhu çirkin xasiyyətlərdən, malı məhrumların haqqından paklamaq nəzərdə tutulur.

◘Peyğəmbər məktəbində paklar, azğın məktəblərdə zorlular qurtuluş əhli sayılır. Firon deyirdi ki, qalib gələn nicat tapmışdır.[1]

◘Quranda həm möminlərin, həm də özünü paklayanların qurtuluş əhli olduğu bildirilir.[2] Deməк həqiqi mömin özünü paklayan şəxsdir.

**Bildirişlər**

1. Quran bəzi ayələrin sonunda “ümid var ki, nicat tapasınız” buyurur. Çünki özünü paklamamış insanların xeyir işləri riyakarlıq və ya təkəbbür səbəbindən puça çıxır. Yalnız özünü paklayanlar qurtuluş əhli sayılır.
2. Təzkiyə öz-özünə hasil olmur, bu yolda çalışmaq lazımdır.
3. Namaz və ibadətsiz təzkiyə düzgün deyil.

***Ayə 16, 17, 18, 19:***

**﴿بَلْ تُؤْثِرُونَ الْحَيَاةَ الدُّنْيَا﴾﴿وَالْآخِرَةُ خَيْرٌ وَأَبْقَى﴾﴿إِنَّ هَذَا لَفِي الصُّحُفِ الْأُولَى﴾﴿صُحُفِ إِبْرَاهِيمَ وَمُوسَى﴾**

**16. “Amma siz dünya həyatını üstün tutursunuz”; 17. “Hansı ki axirət üstün və əbədidir”; 18. “Bu sözlər öncəkilərin səmavi kitabında da yazılmışdır”; 19. “İbrahim və Musanın kitablarında.”**

**Nöqtələr**

◘Rəvayətlərdə dünyaya bağlılıq bütün xətaların kökü sayılır.[3] Dünya dayanacaq yox, körpüdür. Bu körpünü adlayıb daimi mənzilə çatmaq lazımdır.[4]

◘Quranda adətən namazdan sonra zəkat qeyd edilir.[5] Amma imam Sadiq (ə) buyurur: “Fitr bayramında zəkat ödəmək bayram namazı qılmaqdan öndə gəlir.” Sonra imam hazırkı ayəni oxuyur.[6]

◘İmam Riza (ə) bir şəxsdən bu ayə barəsində soruşdu. Həmin şəxs bildirdi ki, Allahın adı çəkiləndə namaz qılmaq lazımdır. İmam buyurdu: “Belə bir vəzifə ağır olardı. Gün uzunu Allahın adı çəkiləndə namaz qılmaq insan üçün çətindir. Amma Allahın adı çəkiləndə Məhəmməd (s) və ali Məhəmmədə salavat göndərmək yaxşıdır.”[7]

◘Axirət dünyadan üstündür. Çünki axirətdə müəyyən xüsusiyyətlər var. Axirət zaman baxımından əbədidir[8], məkan baxımından genişdir[9], axirətdəki qidalar çeşidlidir[1],

---

[1] “Taha”, 65
[2] “Muminun”, 1
[3] “Kafi”, c. 2, s. 130
[4] “Nəhcül-bəlağə”, xütbə 203
[5] “Maidə”, 55
[6] “Təhzibul-əhkam”, c. 4, s. 108
[7] “Təfsiri-nurus-səqəleyn”
[8] “Ali-İmran”, 15
[9] “Hədid”, 21

axirətdə qorxu, qəm-qüssə yoxdur[2], axirətdə vəfalı dostlar var[3], axirətdə gözəl zövcələr var.[4]

◘Əbuzər həzrət Peyğəmbərdən (s) nəql edir ki, Allah-taala 124 min peyğəmbər göndərmişdir, onların 313-ü rəsul, qalanı nəbidir; cəmi 104 kitab olmuşdur.[5]

**Bildirişlər**

1. Dünyaya bağlılıq insanı özünü paklamasına mane olur.
2. Dünya yox, dünyanın axirətdən üstün tutulması məzəmmət olunur.
3. Bir şeyi tənqid edəndə çıxış yolu göstərib, əvəz olaraq yaxşı bir nümunə təqdim edin.
4. Allahın daimi zikri qəlb və düşüncənin paklanma yoludur.
5. Varlıq aləminə müdiriyyətə diqqət Allahı yada salır.
6. Namaz adət üzrə yox, zikr və diqqətlə qılınmalıdır.
7. Namaz qılan şəxs yalnız özünü paklayıb zikr əhli olduqda nicat tapır.
8. Səmavi kitablar bir-birinə uyğundur.
9. Səmavi kitablar arasında həzrət İbrahim və həzrət Musanın kitablarının xüsusi imtiyazı var.

---

1 "Muhəmməd", 15; "Zuxruf", 73
2 "Hicr", 46
3 "Hicr", 47
4 "Vaqeə", 23
5 "Təfsirul-mizan"

# “ĞAŞİƏ” SURƏSİ

## *(88-Cİ SURƏ; 26 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ĞAŞİƏ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 26 ayədən ibarətdir.

Qiyamətin bir adı da “Ğaşiə”dir. Bu söz hazırkı surənin 1-ci ayəsində işlədilmişdir.

Digər Məkkə surələrində olduğu kimi bu surədə də behişt və cəhənnəm əhlinin qiyamətdəki durumundan, müşriklərə xəbərdarlıq və möminlərə müjdədən danışılır.

Yerin və göyün eləcə də bəzi mövcudların yaranışındakı ilahi qüdrət nişanələrindən danışılır. Bu nişanələr həm yaradanın yeganəliyinə, həm də Onun ikinci dəfə diriltməyə qadir olduğuna dəlildir. Surənin sonunda Peyğəmbərə (s) əmr olunur ki, daim insanlara xəbərdarlıq etsin, onları tərbiyələndirsin. Əlbəttə ki, hamı iman gətirəsi deyil. Allah insanların azad şəkildə yol seçməsini istəmişdir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7:***

**﴿هَلْ أَتَاكَ حَدِيثُ الْغَاشِيَةِ﴾﴿وُجُوهٌ يَوْمَئِذٍ خَاشِعَةٌ﴾﴿عَامِلَةٌ نَّاصِبَةٌ﴾﴿تَصْلَى نَارًا حَامِيَةً﴾﴿تُسْقَى مِنْ عَيْنٍ آنِيَةٍ﴾﴿لَّيْسَ لَهُمْ طَعَامٌ إِلَّا مِن ضَرِيعٍ﴾﴿لَا يُسْمِنُ وَلَا يُغْنِي مِن جُوعٍ﴾**

**1. “Həmin əhatəli hadisənin xəbəri sənə çatdımı?”; 2. Həmin gün çöhrələr zəlil vəziyyətdədir”; 3. Təlaş göstərmiş, əziyyət çəkmişlər”; 4. “Yandırıcı oda girərlər”; 5. “Onlara qaynar çeşmələrdən içirilər”; 6. “Quru və acı tikandan başqa yeməkləri olmaz”; 7. Həmin qida nə artırar, nə də aclığı aradan qaldırar.”**

**Nöqtələr**

◘”Ğaşiə” dedikdə örtən mənası anlaşılır. Bu söz qiyamət hadisəsinə işarədir. Qiyamət günü hamını ağuşuna alar. “Amilə” dedikdə çalışqan mənası nəzərdə tutulur. “Nasibə” sözü insanı yoran məşəqqətli iş mənasını bildirir. “Hamiyə” dedikdə çox qaynar, “aniyə” dedikdə çox yandırıcı mənaları nəzərdə tutulur.

◘Olsun ki, “vucuh” sözü tanınmış simalar mənasını ifadə edir. Yəni həm pislərin, həm də yaxşıların tanınmışları.

◘Həzrət Peyğəmbərin (s) buyuruğuna əsasən, “zəri” cəhənnəmdəki tikana bənzər bitkinin adıdır. “Zəri” leşdən üfunətli, oddan isti və çox acıdır.[1] Bu tikanı yeyənlər fəryad çəkib zarıdığından onun adının “zəri” qoyulması mümkündür.

---

[1] “Təfsiri-məcməul-bəyan”

◘Ağır zəhmətlər sayəsində başa gəlmiş bir çox işlərdə ixlas olmadığından, bu işlər ilahi göstərişlərə uyğun gəlmədiyindən, minnət və günahla müşayiət olunduğundan puça çıxır və qiyamətdə bəhrə vermir.

◘İlahi dünya görüşündə işin qəbulu üçün məqsəd, rəhbərlik, müqəddəslik kimi şərtlər var.

**Bildirişlər**

1. Qiyamət hadisəsi o qədər əhatəlidir ki, bu barədə hamı düşünməlidir.
2. Dünyadakı təlaşların bir hissəsi qiyamətdə fayda verməz.
3. Yalnız xalis insanlar öz zəhmətlərindən bəhrələnər.
4. Məad cismanidir. Çünki artımla bağlı köklük və arıqlıq kimi mövzular cismə aiddir.

***Ayə 8, 9, 10, 11:***

**﴿وُجُوهٌ يَوْمَئِذٍ نَّاعِمَةٌ﴾﴿لِسَعْيِهَا رَاضِيَةٌ﴾﴿فِي جَنَّةٍ عَالِيَةٍ﴾﴿لَّا تَسْمَعُ فِيهَا لَاغِيَةً﴾**

**8. "Belə bir gündə şad çöhrələr var"; 9. Öz təlaşlarından razıdırlar"; 10. "Uca behiştdə (yerləri var)"; 11. Orada boş söz eşitməzlər."**

**Nöqtələr**

◘"Naimə" sözü naz-nemət içində olmaq, "lağiyə" sözü boş danışıq mənasını bildirir.

**Bildirişlər**

1. Həqiqi şadlıq insanın çöhrəsindən bilinir. Çöhrənin rəngi batindəki sirlərdən danışır.
2. Behişt nemətləri və ilahi lütflər insanın təlaşlarının səmərəsidir.
3. Dünya işlərinin çətinliyi ötəridir. Amma bu çətinliklər əbədi axirət sevinci ilə nəticələnir.
4. Behişt maddi və mənəvi baxımdan zirvə nöqtəsidir.
5. Dünyada boş işlərdən çəkinənlər axirətdə mənalı bir həyat yaşayır.
6. Behiştdə nəinki mənasız işlər yoxdur, hətta boşluğa səbəb olacaq söz də deyilmir.

***Ayə 12, 13, 14, 15, 16:***

**﴿فِيهَا عَيْنٌ جَارِيَةٌ﴾﴿فِيهَا سُرُرٌ مَّرْفُوعَةٌ﴾﴿وَأَكْوَابٌ مَّوْضُوعَةٌ﴾﴿وَنَمَارِقُ مَصْفُوفَةٌ﴾﴿وَزَرَابِيُّ مَبْثُوثَةٌ﴾**

**12. "Orada çeşmələr axır"; 13. Orada yüksəlmiş taxtlar var"; 14. "Piyalələr düzülmüşdür"; 15. Balınclar sıralanmışdır"; 16. "Xalılar sərilmişdir."**

**Nöqtələr**

◘”Əyn” sözü çeşmə mənasını bildirir. Bu çeşmə bir və ya bir neçə ola bilər. “Zariyat” surəsinin 15-ci ayəsinə əsasən behişt çeşmələri çoxsaylıdır.

◘Şadlıq üçün nəzərdə tutulmuş taxt “sərir” adlanır. “Mərfuə” sözü behişt taxtları üçün uca yer mənasını ifadə edir. Onların qoyulduğu yerdən behişt seyr olunur.

◘“Əkvab” sözü “kub” sözünün cəm formasıdır. Bu söz dəstəsiz qədəh mənasını bildirir. “Vaqeə” surəsinin 17 və 18-ci ayələrində həmin qablardan danışılır.

◘“Nəmariq” sözü “nəmrəqə” sözünün cəm formasıdır. Bu söz balınc, kiçik mütəkkə mənasını bildirir. “Zərabiyy” dedikdə dəyərli xalı mənası nəzərdə tutulur.

**Bildirişlər**

1. Behişt çeşmələrinin əzəmətini dərk etmək olmaz.
2. Behişt əhlinin yeri ucadadır və onlar yerdə oturmazlar.

***Ayə 17, 18, 19, 20:***

**﴿أَفَلَا يَنظُرُونَ إِلَى الْإِبِلِ كَيْفَ خُلِقَتْ﴾﴿وَإِلَى السَّمَاءِ كَيْفَ رُفِعَتْ﴾﴿وَإِلَى الْجِبَالِ كَيْفَ نُصِبَتْ﴾﴿وَإِلَى الْأَرْضِ كَيْفَ سُطِحَتْ﴾**

**17. “Dəvəni görmürlərmi ki, necə yaradılıb?” 18. “Səma necə ucaldılıb?” 19. Dağ necə dayandırılıb?” 20. Yer necə genişləndirilib?”**

**Nöqtələr**

◘Əgər insanda təfəkkür ruhiyyəsi olsa bütün varlıq aləmi bir dərs otağıdır. Səhradakı çoban sanki dünyanın ən böyük kitabxanasındadır. Yer onun ayağının altında, səma başının üzərindədir. Ətrafında dağlar, çaylar, müxtəlif canlılar, misal çəkilən dəvələr var. Əgər ətrafdakıları diqqətlə seyr etsə, bir çox sirləri anlayar. Məsələn, dəvə atdan iti qaçır, ulaqdan çox yük götürür, onun ətindən və südündən istifadə olunur. Heyvanların hərəsinin istifadə yönümü var. Amma dəvə bütün baxımlardan istifadəyə yararlıdır. Onun göz qapaqları səhra küləklərinə və tozuna davamlıdır. Öz təpəciklərində topladığı yağla uzun müddət qidalanır. Bədənində su ehtiyatı saxlayır. Yolu tanıyır. Dəvə elə ram olur ki, yüz dəvəni bir karvan apara bilir. Onun bədən quruluşu səhra üçün çox münasibdir. Ərəblərin dilincə desək, dəvə səhra gəmisidir. O çox güclü, az xərcli, faydalı, aram və dözümlü heyvandır.

◘Səmaların, dağların və yerin yaranışı təsadüfi deyil. Bütün bunlar hikmət əsasında yaradılmışdır.

◘Hər nemətin üstün bir cəhəti var. Göy uca, yer geniş, dağlar möhkəmdir.

◘Göy qatları, səma cisimləri, planetlərin orbitləri, onların nizamlı hərəkəti düşündürücüdür. Bəşəriyyət varlıq aləmi ilə bağlı gündə bir sirr kəşf edir.

Dağların kökü yerin təkindədir. Onlar yerə mıx kimi salınmışlar. Dağlar yeri müxtəlif titrəyişlərdə qoruyur. Onlarda ehtiyat qar toplanır və tədricən suya çevrilir. Dağlar küləklərin qarşısını alır, havanı təmizləyir. Dağlardan bir sıra dəyərli yataqlar tapılır. Dağlardan əqiq və mərmər kimi qiymətli daşlar çıxarılır. Bir sözlə, hazırkı ayələrdə dünya insana tanıtdırılır, əkinçilik və heyvandarlıqdan, kosmosdan danışılır.

**Bildirişlər**

1. Varlıq aləminin sirlərini öyrənməyə cəhd etməyənlər məzəmmət olunur.

2. Hiss etdiklərinizi ötüb keçin ki, dərk ediləsi məfhumlara çatasınız.

3. Məada, behişt əhli üçün nəzərdə tutulmuş nemətlərə şəkk etməyin. Məgər Allahın yaratdıqlarını görmürsünüz?!

4. Yaranmışlar Allahın varlığına dəlil olduğu kimi, yaranmışların nəfisliyi və mürəkkəbliyi də Onun qüdrət, elm və hikmətinə dəlildir.

***Ayə 21, 22, 23, 24, 25, 26:***

**﴿فَذَكِّرْ إِنَّمَا أَنتَ مُذَكِّرٌ﴾﴿لَّسْتَ عَلَيْهِم بِمُصَيْطِرٍ﴾﴿إِلَّا مَن تَوَلَّى وَكَفَرَ﴾﴿فَيُعَذِّبُهُ اللَّهُ الْعَذَابَ الْأَكْبَرَ﴾﴿إِنَّ إِلَيْنَا إِيَابَهُمْ﴾﴿ثُمَّ إِنَّ عَلَيْنَا حِسَابَهُمْ﴾**

**21. “Nəsihət ver, həqiqətən, sən nəsihət verənsən”; 22. “Sən onlara hakim deyilsən (ki iman gətirməyə məcbur edəsən)”; 23. “Amma üz çevirib küfrə uğrayanı”; 24. “Allah ən böyük əzabla cəzalandırar”; 25. “Həqiqətən, onların qayıdışı bizə doğrudur”; 26. “Onlarla hesab çəkmək bizim öhdəmizədir.”**

## Nöqtələr

◘Öyüd-nəsihət verməkdə məqsəd xəbərdarlığı başa çatdırmaq, höccəti tamamlamaqdır. Belə ki, kafirlər qiyamət günü “nə üçün bizə xəbərdarlıq göndərmədin” deyə bilməsinlər. Əlbəttə yalnız düşüncə sahibləri bu nəsihətlərdən öyüd götürür.[1]

◘Ötən surədə Allah-taala öz Peyğəmbərinə (s) xatırlatdı ki, qəlbində qorxu olanlar sənin nəsihətlərini eşidəcək, qəlbidaşlar bu öyüdlərə arxa çevirəcək. Bəyan olundu ki, ilahi xəbərdarlığa arxa çevirənlər ağır əzaba düçar ediləcək.

Hazırkı surədə bildirilir ki, verilən öyüdlərdən üz çevirənlər olacaq. Belələrini böyük əzab gözləyir. İstər öncəki surədəki böyük od, istər “Əla” surəsindəki böyük əzab vədi xəbərdarlıqlardan nəticə çıxarmayanlara aiddir.

◘”Musəytir” sözü “sətir” və “seytərə” sözündəndir. Bu söz tabeçiliyində olanı bəndə çəkən şəxs mənasını bildirir. Onlar öz tabeçiliyindəkiləri istədikləri yola sövq edirlər.

◘İmam Sadiq (ə) buyurur: “Hər bir ümmətin hesabı həmin dövrün imamının öhdəsinədir. İmamlar öz dostlarını və düşmənlərini simalarından tanıyar.” Sonra imam “Əraf” surəsinin 46-cı ayəsini yada salır.[2]

◘”Cameə” ziyarətində məsumlara xitabən oxuyuruq: “Haqq sizə üz tutub, onların hesab sizin öhdənizədir. Uyğun məna imam Kazim (ə) və imam Baqir (ə) və imam Hadidən (ə) də nəql olunmuşdur.[3]

◘23-cü ayə 21-ci ayədəki bildiriş üçün istisnadır. Yəni Peyğəmbərin (s) xəbərdarlıqlarının kafirlərə təsiri yoxdur.

◘İmam Baqir (ə) buyurur: “Böyük əzab dedikdə şiddətli və əbədi əzab nəzərdə tutulur.”[4]

## Bildirişlər

[1] “Taha”, 134; “Rəd”, 19

[2] “Bihar”, c. 8, s. 339

[3] “Təfsirul-mizan”

[4] “Təfsiri-nurus-səqəleyn”

1. Peyğəmbər nəticəyə yox, vəzifəsini yerinə yetirməyə məsuldur.
2. Peyğəmbərlərin vəzifəsi əqidəni məcbur qəbul etdirmək yox, öyüd-nəsihətdir.
3. Xalqın etinasızlığı vəzifəni öhdədən götürmür.
4. İnadkarlıq, haqqdan uzaqlıq küfr səbəbidir.
5. Allahın qəhr-qəzəbinin dərəcələri var.
6. Kimsə Allahın qəhr-qəzəbindən qaça bilməz.
7. İnsanlarla hesab aparılması Allahın özünə vacib etdiyi sünnələrdəndir.

## “FƏCR” SURƏSİ

### *(89-CU SURƏ; 30 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“FƏCR” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə otuz ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Fəcr” dedikdə “sübh ağartısı” mənası nəzərdə tutulur.

Digər Məkkə surələri kimi bu surənin də ayələri qısa və atəşlidir. Surə ciddi xəbərdarlıqlarla müşayiət olunur.

Surənin müxtəlif ayələrində axşam və səhər çağlarına and içilir, azğın qövmlərin taleyi yada salınır. Allahın insanların sınağa çəkilməsi ilə bağlı sünnəsi, insanların bu yönümdə fərqli reaksiyaları, qiyamət səhnəsi, bu səhnədə günahkarların peşimançılığı, xeyir əməl sahiblərindən razılıq hazırkı surənin əsas mövzularındandır.

Rəvayətlərdə tövsiyə olunur ki, “Fəcr” surəsi vacib və müstəhəb namazlarda oxunsun. Çünki bu surə “Hüseyn” surəsi adlanır.[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿وَالْفَجْرِ﴾﴿وَلَيَالٍ عَشْرٍ﴾ وَالشَّفْعِ وَالْوَتْرِ﴾﴿وَاللَّيْلِ إِذَا يَسْرِ﴾﴿هَلْ فِي ذَلِكَ قَسَمٌ لِّذِي حِجْرٍ﴾**

**1. “And olsun sübh ağartısına”; 2. “And olsun 10 gecəyə”; 3. “And olsun cütə və təkə”; 4. “And olsun ötüb keçən gecəyə”; 5. “Düşüncə sahibləri üçün (bu andlarda) mühüm bir and yoxmu?”**

#### Nöqtələr

◘”Fəcr” sözü əslində parçalanma mənasını bildirir. Bu söz ayədə gecə qaranlığının sübh ağartısı vasitəsi ilə parçalanması mənasını ifadə edir. Həmin anlar çox müqəddəs və dəyərli anlardır. Həmin vaxt canlılar hərəkətə gəlir və yeni gün başlayır.

Bəzi rəvayətlərə əsasən “fəcr” sözü imam Mehdiyə (ə) işarədir. Yəni zülm və fəsad qaranlığı həzrətin qiyam sübhü ilə parçalanar.[2]

◘”Hicr” qadağan mənasını bildirir. Hazırkı ayədə bu söz əql mənasında işlədilmişdir. Yəni ağıl insanı pis işdən çəkindirir. Necə ki “məhcur” sözü işlədilməsi qadağan olan mənasını bildirir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”; “Təfsiri-Safi”

[2] “Təfsiri-Bürhan”

◘Rəvayətlərdə “şəf” sözünün cüt “vətr” sözünün tək mənasını ifadə etdiyi bildirilir. Bununla bağlı bir çox nümunələr göstərilir. Məsələn, bildirilir ki, vətr ərəfə gününə, şəf qurban gününə işarədir. Bəzən şəf sözünün Səfa və Mərvə dağlarına, vətr sözünün Kəbəyə işarə olduğu bildirilir. Bəzilərinin nəzərincə, vətr yeganə Allah, şəf yaranmışlar mənasını ifadə edir. Bu iki sözün şəf və vətr kimi müstəhəb namazlara işarə olduğunu bildirənlər də var. Bəziləri də qeyd edirlər ki, şəf dedikdə zil hiccənin 9 və 10-cu günləri, vətr dedikdə məşər gecəsi nəzərdə tutulur.[1]

◘Zaman xeyli dəyərli, bəlkə də müqəddəsdir. Onu boş yerə sərf etməyək. Allah sübhə, günorta çağına, gündüzə, axşamçağına and içir.”[2]

Maraqlıdır ki, səhərə üç yerdə and içilir.[3]

◘”Vələyalin əşr” ayəsində ya ramazan ayının son 10 gecəsi, ya da zil hiccə ayının başlanğıc 10 gecəsi nəzərdə tutulur. Ramazanın birinci 10 günlüyünə qədr gecələri, zil-hiccənin birinci 10 günlüyünə ərəfə günü və qurban bayramı günü daxildir.

### Bildirişlər

1. Zaman müqəddəsdir və ona and içmək olar.
2. Bəzi günlərin xüsusi müqəddəsliyi var.
3. İlahi eşq yolçularının mənəvi seyrə çıxdığı anlar, yəni gecənin son saatları xüsusi müqəddəsliyə malikdir.
4. Quran düşüncə sahiblərinə müraciət edir.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12, 13, 14:***

﴿أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِعَادٍ﴾﴿إِرَمَ ذَاتِ الْعِمَادِ﴾﴿الَّتِي لَمْ يُخْلَقْ مِثْلُهَا فِي الْبِلَادِ﴾﴿وَثَمُودَ الَّذِينَ جَابُوا الصَّخْرَ بِالْوَادِ﴾﴿وَفِرْعَوْنَ ذِي الْأَوْتَادِ﴾﴿الَّذِينَ طَغَوْا فِي الْبِلَادِ﴾﴿فَأَكْثَرُوا فِيهَا الْفَسَادَ﴾﴿فَصَبَّ عَلَيْهِمْ رَبُّكَ سَوْطَ عَذَابٍ﴾﴿إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ﴾

**6. “Rəbbinin Ad qövmü ilə rəftarını görmədinmi?” 7. Sütunlu binalar sahibi İrəm qövmünə”; 8. “Onların başqa şəhərlərdə misli tikilməmişdi”; 9. Öz məskənlərində (ev tikmək üçün) daş layları aparan Səmud qövmü ilə (rəftarı gördünmü)”; 10. “Fironla, böyük qüdrət və qoşun sahibi ilə (rəftarı gördünmü)”; 11. “O kəslər ki şəhərlərdə tüğyan qopardılar”; 12. “Orada fitnə-fəsad törətdilər”; 13. Rəbbin onların başına əzab qamçısını endirdi”; 14. “Həqiqətən, Rəbbin izləyir.”**

### Nöqtələr

◘Ad qövmü iki qrupdan ibarət idi: qədim Ad və yeni Ad. Onlardan biri həzrət Nuhdan sonra Əhqaf məntəqəsində yaşayırdı. Bu uca qamətli və güclü insanların abad şəhərləri vardı.

◘”İrəm” ya Ad qövmünün ikinci adı, ya bu qövmün bir qolunun adı, ya da onların yaşadığı məntəqənin adıdır.. Bu məntəqədən böyük və uca sütunlu tikililərə malik Ad qövmü yaşayırdı. Bəziləri Şəddadın, bəziləri isə İsgəndərin tikdiyi binaların “irəm”

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Muddəssir”, 34; “Zuha”, 1; “Şəms”, 3; “Əsr”, 1

[3] “Fəcr”, 4; “Təkvir”, 17; Muddəssir”, 33

adlandırıldığını qeyd edir. “Səxrə” dedikdə böyük və ağır daşlar mənası nəzərdə tutulur. İki dağ və ya təpə arasındakı ərazi “vad” adlandırılır.

◘”İmad” sözü uca sütun və ya tikili mənasını ifadə edir. Qədim ərəblər, həzrət Salehin peyğəmbər göndərildiyi qövm “Səmud” adlandırılır. Onlar qədim vaxtlar Ərəbistanın şimalında yaşamışlar.

◘”Cabu” dedikdə daşın kəsilməsi nəzərdə tutulur. “Cəvab” sözü bu kökdəndir. “Cəvab” dedikdə suala son qoyan düzgün açıqlama nəzərdə tutulur.

◘Belə görünür ki, Səmud qövmü Ad qövmündən sonra yaşamışdır. Çünki onların adı ikinci zikr edilir.

◘Ad və Səmud qövmünün cəzalandırılması Allahın zalımları daim izlədiyini göstərir. Allah daim nəzarət edir. Günahkarlar üçün qurtuluş yolu yoxdur. Onların əzaba düçar olması labüddür. Möhkəm binalar və qalalar ilahi qəzəbin qarşısını ala bilməz. Möhkəm bir binada özünü ilahi qəzəbdən amanda bilmək düzgün deyil.

◘”Zil əvtar” ifadəsi ya Firon hökumətinin möhkəmliyini, ya onun öz müxaliflərini çarmıxa çəkməsini, ya da Firon qoşununun gücünü bildirir.

◘”Səbb” dedikdə tökmək, axıtmaq mənası anlaşılır. “Əzab yağması” təbiri əzabın ardıcıllığına işarə ola bilər.[1]

◘Əlbəttə ki, bizə boyun damarımızdan yaxın olan Allah hər bir addımımızı izləyir.[2]

**Bildirişlər**

1. Azğınların tarix boyu məhv edildiyini unutmayın.
2. Azğınların məhvi Allahın rübubiyyət cilvələrindəndir. Sədi deyir:

*İtidiş pələngə rəhm edən insan*
*Zəiflərə sitəm qılır hər zaman.*

3. İnsanın tarixdən ibrət götürməsi onun düşüncəli olduğunu göstərir.
4. İslam peyğəmbəri (s) Ad və Səmud qövmü, Firon haqqında məlumatları vəhy vasitəsi ilə əldə edirdi.
5. Memarlıqda daş sütunlardan istifadə Ad qövmünün adı ilə bağlıdır.
6. Daşdan istifadə ilə memarlıq Ad qövmünün ixtirasıdır.
7. Aradakı baxış fərqlərinə görə insanların istedad və ixtiralarını pərdələməyək.
8. Mənəviyatsız güc əmin-amanlığı pozan amillərdəndir.
9. Azğın kəs və azğınlıq sərhəd tanımır.
10. Fitnə-fəsadın kökü azğın hakimlərdədir.
11. Təqva və düzgünlükdən uzaq mədəniyyət cəmiyyəti süquta uğradır.
12. Tərbiyədə bəzən qamçıya ehtiyac yaranır.
13. Azğınlıq və fəsad yalnız cəza ilə aradan qalxır.
14. Verilmiş möhlət insanı qürrələndirməməlidir. Allah daim onu izləyir.
15. Dünya əzabı axirət əzabı ilə müqayisədə müvəqqəti ağrısı olan qamçını xatırladır.

***Ayə 15, 16, 17, 18, 19, 20:***

[1] “Təfsiri-rahnoma”
[2] “Qaf”, 16

﴿فَأَمَّا الْإِنسَانُ إِذَا مَا ابْتَلَاهُ رَبُّهُ فَأَكْرَمَهُ وَنَعَّمَهُ فَيَقُولُ رَبِّي أَكْرَمَنِ﴾﴿وَأَمَّا إِذَا مَا ابْتَلَاهُ فَقَدَرَ عَلَيْهِ رِزْقَهُ فَيَقُولُ رَبِّي أَهَانَنِ﴾﴿كَلَّا بَل لَّا تُكْرِمُونَ الْيَتِيمَ﴾﴿وَلَا تَحَاضُّونَ عَلَى طَعَامِ الْمِسْكِينِ﴾﴿وَتَأْكُلُونَ التُّرَاثَ أَكْلًا لَّمًّا﴾﴿وَتُحِبُّونَ الْمَالَ حُبًّا جَمًّا﴾

**15. "Rəbbi insanı sınağa çəkib əziz tutanda və nemət verəndə, (o qürrələnib) deyir: "Rəbbim məni əziz etdi."; 16. "Amma onu sınağa çəkib ruzisini azaltdıqda deyər: "Rəbbim məni xar etdi."; 17. "Belə deyil! Əslində siz yetimi əziz tutmursunuz"; 18. "Bir-birinizi yoxsullara təam verməyə rəğbətləndirmirsiniz"; 19. "Mirası (haqlı-haqsız) bütöv yeyirsiniz"; 20. Var-dövləti çox sevirsiniz."**

## Nöqtələr

◘Əzizliyi Allahın lütfü saymaq yaxşıdır. Amma insan hörmət-izzəti öz ləyaqəti bilərsə bu pisdir. Bu ayədə "ikram" sözü iki dəfə işlədilmişdir: birinci dəfə insan öz izzətini Allahdan bilir, ikinci dəfə onu öz ləyaqəti sayır. Quranda insanın izzəti Allaha, onun alçalması özünə aid edilir.

◘"Əklən ləmm" dedikdə bir şeyi halal-haramlığına baxmadan yemək mənası anlaşılır. Bəzən insan yediyində başqasının payı olub-olmadığını düşünmür.

◘Allahın Rəsulu (s) buyurur: "Mən və yetimi himayəyə götürən kəs behiştdə bir yerdəyik."[1]

◘Allahın qəti sünnə və proqramlarından biri Onun insanları sınağa çəkməsidir. Əlbəttə ki, Allah insanı tanıyır və sınaqlar tanışlıq üçün deyil. Sadəcə insanların xislətləri üzə çıxarılır ki, o dəlillər əsasında mükafatlandırılsın və ya cəzalandırılsın. Allah müxtəlif yollarla sınağa çəkir. İnsan bəzən var-dövlət, bəzən yoxsulluqla sınanır. Tələskən insan sınağın sonunu gözləməyib yersiz mühakimələr yürüdür, Allahdan gileylənir.

## Bildirişlər

1. İlahi sınaqlar Allahın insanı daim izlədiyini göstərir.
2. Sınaq tərbiyə və təkamül vasitəsidir.
3. İnsanın qazancları onun haqqı yox, Allahın lütfüdür. Belə ki, əldə etdiyimiz nemətlər bizi qürrələndirməsin.
4. Yoxsulluq həqarət, var-dövlət kəramət nişanəsi deyil. Həm yoxsulluq, həm də var-dövlət bir sınaqdır.
5. Yetimin cismindən də mühümü onun ruhudur. Yetimi əzizləmək lazımdır.
6. Mənəvi ehtiyacları ehtiram və məhəbbətlə ödəyin. (Yetimlərin ilk ehtiyacı onların şəxsiyyətinə ehtiram göstərilməsidir.)
7. Allahın işləri ilə bağlı tələsik mühakimə yürütməyək. Ruzi çətinliyini Allahın etinasızlığı saymayaq. Bu çətinliklər insanın öz əməllərinin nəticəsidir.
8. İnsanın ətrafdakılara ehsanı mühüm əhəmiyyətə malikdir.
9. Yoxsullar ac qalmamalıdır. İnsan ya özü onlara infaq etməli, ya da imkanlıları həvəsləndirməlidir.
10. Əlinizə gələnlərə diqqətli olun. Bəzən halala haram qatılır.
11. Var-dövlətə bağlılıq təbii bir bağlılıqdır. Məzəmmət olunan isə var-dövlətə əsir olub axirəti unutmaqdır.

---
[1] "Təfsiri-nurus-səqəleyn"

12. Allahın sizə ehtiramı sizin yetimlərə ehtiramınıza səbəb olmalıdır.

***Ayə 21, 22, 23, 24, 25, 26:***

**﴿كَلَّا إِذَا دُكَّتِ الْأَرْضُ دَكًّا دَكًّا﴾﴿وَجَاء رَبُّكَ وَالْمَلَكُ صَفًّا صَفًّا﴾﴿وَجِيءَ يَوْمَئِذٍ بِجَهَنَّمَ يَوْمَئِذٍ يَتَذَكَّرُ الْإِنسَانُ وَأَنَّى لَهُ الذِّكْرَى﴾﴿يَقُولُ يَا لَيْتَنِي قَدَّمْتُ لِحَيَاتِي﴾﴿فَيَوْمَئِذٍ لَّا يُعَذِّبُ عَذَابَهُ أَحَدٌ﴾﴿وَلَا يُوثِقُ وَثَاقَهُ أَحَدٌ﴾**

**21. “Belə deyil! Yer şiddətlə uçulanda”; 22. “Rəbbinin əmri cərgə-cərgə mələklərlə gələndə”; 23. ”Elə həmin gün cəhənnəm hazırlananda insan (günahlarını) yadına salar; amma bunun nə faydası?!” 24. “(Həmin gün) Deyər: “Ey kaş (bu günki) həyat üçün öncədən bir şey göndərəydim”; 25. “Həmin gün kimsə onun kimi əzab verməz”; 26. “Kimsə onun kimi bəndə sala bilməz.”**

### Nöqtələr

◘”Dəkk” dedikdə döyəcləyib hamarlamaq mənası anlaşılır. “Dəkkə”, “dükan” dedikdə bir şey satmaq üçün hamarlanıb hazırlanmış yer nəzərdə tutulur.

◘İmam Riza (ə) buyurur: “Vəcaə rəbbukə” dedikdə ilahi əmrin verilməsi nəzərdə tutulur.[1] Necə ki, “Nəhl” surəsinin 33-cü ayəsində buyurulur: “Rəbbinin əmri gələr.”

◘Cəhənnəmin hazırlanması dedikdə onun üzərindən pərdənin götürülməsi nəzərdə tutulur.[2] Başqa bir ayə də bu mənanı təsdiqləyir.[3]

◘Cəhənnəmin hazırlanması ilə bağlı ayə nazil olduqda Peyğəmbərin (s) halı elə dəyişdi ki, kimsə onunla danışmağa cürət etmədi. [4]

### Bildirişlər

1. Allah insanı var-dövlətə əsarətdən, başqalarının malına göz dikməkdən çəkindirir.
2. Tamahkarlıq və var-dövlətə əsarətin dərmanı qiyaməti yadda saxlamaqdır.
3. Qiyamət Allah əmrlərinin mütləq hakim olduğu gündür.
4. Nizamlı və mərhələli hərəkət mələklərin qiyamət günündəki qüdrətini göstərir.
5. Qiyamətdə peşimançılığın faydası yoxdur.
6. Qiyamət günü oyanış və xatırlama günüdür.
7. Qiyamət günü cəhənnəm zahir olar.

***Ayə 27, 28, 29, 30:***

**﴿يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ﴾﴿ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً﴾﴿فَادْخُلِي فِي عِبَادِي﴾﴿وَادْخُلِي جَنَّتِي﴾**

**27. “Ey aramlaşmış ruh!” 28. “Rəbbinə doğru dön, sən Ondan, O da səndən razı halda”; 29. “Bəndələrim zümrəsinə qatıl”; 30. “Mənim behiştimə daxil ol!”**

### Nöqtələr

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Təfsiri-əl mizan”
[3] “Naziat”, 36
[4] “Bihar”, c. 105, s. 103

◘Aram qəlb, arxayın nəfs Allah zikri ilə əldə olunur.[1] Ən üstün zikr namazdır.[2] Razı qalmaq və razı salmaq arxayın nəfs nişanəsidir. Arxayın nəfs sahibi Allahdan, Allah da ondan razıdır.

◘İmam Sadiqdən (ə) soruşulur ki, mömin can verdiyi haldan razıdır, yoxsa yox? İmam buyurur: "Öncə razı olmur. Amma ruh çıxaran mələk ona bildirir ki, mən sənə atadan da mehribanam, gözünü aç. Mömin gözünü açır, Peyğəmbər (s), Əli (ə), Fatimə (s.ə.), Həsən (ə), Hüseyn (ə) və digər imamları görür. Mələk deyir: "Onlar sənin dostlarındır." Mömin gördüyü səhnədən razı qalır və "ey arxayın nəfs" xitabını eşidir."[3]

**Bildirişlər**

1. Qiyamət peşimançılıq günüdür.
2. Arzudan bir şey çıxmaz təlaş lazımdır.
3. Əsl və əbədi həyat axirət həyatıdır.
4. Mərhəmətli Allah bəzən qəhr-qəzəbini nazil edir.
5. Qiyamətdə əzabdan qurtuluş yolu yoxdur.
6. İnsan həm ruh, həm də cisimdən ibarətdir. Allah ruha müraciət edir.
7. Dost-yoldaşsız behişt behişt deyil.
8. Behiştin dərəcələri var.
9. Dünya əzabının oxşarı tapıla bilər. Amma axirət əzabının misli yoxdur.

---

[1] "Rəd", 28
[2] "Taha", 14
[3] "Təfsiri-nümunə"

# “BƏLƏD” SURƏSİ

### *(90-CI SURƏ; 20 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“BƏLƏD” SURƏSİNİN SİMASI*

Bu surə Məkkədə nazil olmuşdur. O 20 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Bələd” dedikdə Məkkə şəhəri nəzərdə tutulur. Alla Məkkəyə and içir.

Surə andla başlayır. Ayələrin davamında insanın yaranışından, ağrı-acılı dünya həyatından danışılır.

Qafil və lovğa insanlar məzəmmət edilir. Ayələrdə Allahın insana əta etdiyi nemətlər yada salınır, nemətlər müqabilində şükr yolu öyrədilir. Bildirilir ki, şükr olaraq yoxsullara əl tutmaq, yetimlərə xidmət göstərmək lazımdır.

Əlbəttə ki, nemətlərə münasibətdə insanlar iki qrupa bölünür: xoş aqibətli şükr edənlər və bəd aqibətli nankorlar.

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

***Ayə 1, 2, 3, 4, 5, 6, 7:***

﴿لَا أُقْسِمُ بِهَذَا الْبَلَدِ﴾﴿وَأَنتَ حِلٌّ بِهَذَا الْبَلَدِ﴾﴿وَوَالِدٍ وَمَا وَلَدَ﴾﴿لَقَدْ خَلَقْنَا الْإِنسَانَ فِي كَبَدٍ﴾﴿أَيَحْسَبُ أَن لَّن يَقْدِرَ عَلَيْهِ أَحَدٌ﴾﴿يَقُولُ أَهْلَكْتُ مَالًا لُّبَدًا﴾﴿أَيَحْسَبُ أَن لَّمْ يَرَهُ أَحَدٌ﴾

**1. “And olsun bu şəhərə”; 2. “Bir halda ki, sən bu şəhərdə sakinsən”; 3. “And olsun ataya və dünyaya gətirdiyi övlada”; 4. “Həqiqətən, biz insanı əzab-əziyyətdə yaratdıq”; 5. “Yoxsa güman edir ki, kimsə ondan qüdrətli deyil?” 6. “Deyir: “Xeyli mal-dövlət xərclədim”; 7. “Yoxsa güman edir ki, kimsə onu görməyib?”**

#### Nöqtələr

◘Quranda “La uqsimu” ifadəsi səkkiz dəfə işlədilmişdir. Təfsirçilər bu ifadəni iki cür mənalandırırlar. Bəziləri “la” şəkilçisini and mənasında qəbul edirlər. Bir başqaları “la uqsimu” ifadəsini “and içmirəm” kimi tərcümə etmişlər. Yəni məsələ o qədər aydındır ki, and ehtiyac yoxdur.

◘”Bələd” dedikdə Məkkə şəhəri nəzərdə tutulur. Bu şəhər İslamdan öncə də möhtərəm sayılmışdır. Məkkə əmin-aman ilahi məkan, insan üçün müəyyənləşmiş ilkin ev.

◘”Və əntə hillun” cümləsi bir neçə cür mənalandırılır. Həmin mənalardan biri ayənin tərcüməsində verilmişdir. İkinci mənaya əsasən, Məkkə əhli orada səni alçatmağı halal sayır. Belə ki, sənin alçaldıldığın şəhərə and içilmir.[1] Üçüncü yanaşmaya əsasən, bu

---

[1] “Bihar”, c. 24, s. 384

cümlə Peyğəmbərin (s) Məkkə şəhərində qüdrət sahibi olduğunu bildirir. Yəni o burada müxaliflərlə istədiyi kimi rəftar edə bilər.

◘”Kəbəd” sözü çətinlik, “ləbəd” sözü sıx tük mənasını bildirir. Bəziləri “kəbəd” sözünü düz qamət, orta hədd kimi mənalandırırlar.[1]

◘Dünya həyatındakı ləzzətlər əzab-əziyyətsiz başa gəlmir. Bu səbəbdən insanın əzab-əziyyətdə yaradıldığı bildirilir. Həzrət Əli (ə) buyurur: “Dünya çətinliklərlə suvanmış bir evdir.”[2]

◘Bəzi təfsirçilər “və vələdin və ma vələd” ayəsinin həzrət İbrahim və onun oğlu İsmailə aid olduğunu bildirirlər. Amma “Məcməul-bəyan” təfsirinə əsasən burada həzrət Adəm və onun nəslindən olan övliyalar nəzərdə tutulmuşdur.

◘Hədisdə bildirilir ki, “xeyli mal-dövlət xərclədim” sözlərini Əmr ibn Əbdəvəd Xəndək savaşında demişdir. O İslamla mübarizədə xeyli sərmayə xərclədiyini və bir nəticəyə çatmadığını bəyan etmişdir.[3]

### Bildirişlər

1. Müəyyən məkanların müqəddəsliyi ola bilər. Məkkə şəhəri qədim dövrdən and yeri olmuşdur.
2. Bəzən əzəmət və diqqət təkrarla bildirilir.
3. Yerlərin dəyəri onların sakinlərinin dəyəri ilə ölçülür. Məkkəyə buna görə and içilir ki, orada peyğəmbər sakindir.
4. Övladlıq məqamı baxımından oğlanla qız arasında fərq yoxdur.
5. Bəşəriyyətin həyatı əzab-əziyyətlər içində ötüşür.
6. Haqq yolda xərclənməyən sərmayə peşimançılıq gətirər.
7. İnsan ilahi elm və qüdrətin hökmü altındadır.
8. Allahın nəzərə alınmadığı istənilən bir hesabat puç və zərərədir.
9. Allah qarşısında hansı böyüklükdən danışmaq olar?!
10. İnfaq yolunu düzgün getməyənlər, infaqı yerinə xərcləməyənlər, bu işdə riyakarlıq və yalana yol verənlər gələcəkdə peşiman olasıdır.

***Ayə 8, 9, 10, 11, 12, 13, 14, 15, 16:***

﴿أَلَمْ نَجْعَل لَّهُ عَيْنَيْنِ﴾﴿وَلِسَانًا وَشَفَتَيْنِ﴾﴿وَهَدَيْنَاهُ النَّجْدَيْنِ﴾﴿فَلَا اقْتَحَمَ الْعَقَبَةَ﴾﴿وَمَا أَدْرَاكَ مَا الْعَقَبَةُ﴾﴿فَكُّ رَقَبَةٍ﴾﴿أَوْ إِطْعَامٌ فِي يَوْمٍ ذِي مَسْغَبَةٍ﴾﴿يَتِيمًا ذَا مَقْرَبَةٍ﴾﴿أَوْ مِسْكِينًا ذَا مَتْرَبَةٍ﴾

**8. “Onun üçün iki göz yaratmadıqmı?” 9. “Bir dil və iki dodaq?” 10. “Ona iki yol (xeyir və şər yolu) göstərmədikmi?” 11. “Amma o çətin dolamada addım atmadı”; 12. “Sən nə bilirsən ki dolama (“əqəbə”) nədir?” 13. “Bir qul azad etməkdir”; 14. “Aclıq günü təam verməkdir”; 15. “Qohum olan yetimə”; 16. “Ya da yerə çökmüş çarəsizə (təam verməkdir).”**

### Nöqtələr

[1] “Lisanul-ərəb”
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Təfsiri-nurus-səqəleyn”

◘”Nəcd” dedikdə hündür yer, “təhamə” dedikdə dərə nəzərdə tutulur. İmam Sadiq (ə) buyurur ki, xeyir və şər yola birlikdə “nəcdəyn” deyilir.[1]

Xeyir və şər yolun yüksələn yola bənzədilməsinin müəyyən səbəbləri ola bilər. Məsələn, xeyir yol nəfslə mübarizə, şər yol onun adı nəticələri səbəbindən yüksələn yol kimi çətin ola bilər. Digər bir tərəfdən, xeyir və şər məsələsi düşüncəli insan üçün hündür yer kimi aydındır.

◘”Əqəbə” sözü dolama, dar keçid mənasını bildirir. “İqtəham” dedikdə insanın özünü çətinliyə salması nəzərdə tutulur. “Məsğəbə” sözü aclıq, “məqrəbə” sözü qohum, “mətrəbə” sözü torpağa oturmuş mənasını ifadə edir.

◘Hədisdə nəql olunur ki, imam Riza (ə) süfrəyə əyləşərkən yanına böyük bir sini qoyarmış. O süfrədə olanların ən yaxşılarından həmin siniyə yığar və fəqirlərə göndərərmiş. Həmin vaxt imamın “bələd” surəsinin 14-cü surəsini oxuduğu bildirilir. İmam uyğun ayəni oxuduqdan sonra buyurarmış: “Allah bilir ki, hamıda qul azad etmək gücü yoxdur. Buna görə də behiştə aparacaq başqa yollar qoyub.”[2]

◘Ötən ayədə bildirildi ki, insan kimsənin onu görmədiyinimi düşünür? Hazırkı ayədə insan nəzarətdə olmadığı üçün qınanır.

◘Allah-taala insanın gözü üçün bir neçə qoruyucu vasitə qərar vermişdir. Göz kəllə sümüyündəki çökəkliklərdə yerləşir. Piydən olan gözün zaman ötdükcə xarab olmaması üçün o duzlu göz yaşı ilə təmasda olur. Kipriklər gözün qapıçısı, göz qapaqları onun örtüyüdür. Qaşlar gözə kölgə salır, alındakı xətlər təri çörənin iki tərəfinə yönəldir.

Göz gün uzunu on minlərlə əks qeydə alır. O xüsusi bir tənzimləməyə ehtiyac duymur. Piydən yaranmış, on illər boyu əks qeydə alan bu qurğu Allahın qüdrətindən danışmırmı?!

Göz məhəbbət və qəzəbin, təəccüb və təsdiqin, gözəllik və eşqin aynasıdır. İnsan göz vasitəsi ilə rabitəyə qatılır, dil vasitəsi ilə ünsiyyət yaradır. Bu üzvlər ətraf aləmlə ən üstün, ən ucuz, ən sadə, ən ümumi rabitə vasitəsidir, onlar vasitəsi ilə insan öz biliyini artırır. İnsan bir gözü ilə məsafəni təyin edib incəliklərə vara bilmir. Olsun ki, bu səbəbdən Quranda hər iki göz qeyd olunur.

Göz insana xüsusi gözəllik verir, onun informasiya əldə etməsinə yardımçı olur. Ağzı və qulağı örtülü insanı tanımaq olur. Amma gözləri bağlı insanı tanımaq mümkün deyil. Göz qəlb və eşq pəncərəsidir. Şair deyir:

*Aman göz əlindən könül əlindən,*
*Göz görəni qəlbdə tapasısan sən.*
*Bir xəncər düzəldim tiyəsi polad,*
*Sancım gözə könül qoy olsun azad.*

◘Göz ətrafa nüfuz yoludur. Müəllimin gözünə baxan şagirdlə lent yazısında müəllimi dinləyən şagird arasında çox fərq var.

◘Dil və dodaqlar birlikdə səs yaradır. Onların həmkarlığı yoxsa, danışmaq da mümkün deyil.

Dinlərin müxtəlifliyi,çeşidli ləhcələr Allahın qüdrətindən danışır. İnsan üçün danışıqda heç bir məhdudiyyət yoxdur. Dil həm də dadma qabiliyyətinə malikdir və tamları müəyyənləşdirir. Maraqlıdır ki, dilin hər hissəsi bir dadı hiss edir. İlahi qüdrət

[1] “Kafi”, c. 1, s. 163
[2] “Təfsiri-nurus-səqəleyn”

sayəsində ağızda ehtiyac duyulan rütubət yaranır. Dil qidaları dişlərin altında həll edir. Hansı ki bu  prosesde ozu zədələnmir. Ağıza qoyulan tikəni dil yoxlayır, bir maneə olmadıqda üyüdülməyə verir. Qidalanmanın sonunda ağıza süpürgə çəkən də dildir. Zahirən sadə quruluşlu dodaqlar qidalanma, xüsusi ilə uşaqların süd əmməsi, üfürmə, çeynəmə, dadma, danışıq üçün əvəzolunmaz vasitədir.

Göz, dil və dodaqlar insana həm xeyir, həm də şər gətirə bilər. Allah bu iki yol barədə xəbərdarlıq edir.

◘Başqalarını yoxsulluq və əsarətdən qurtarmaq lazımdır. Hətta kafirlərə də bu yönümdə əl uzatmaq zəruridir. Bu səbəbdən də qulun azad edilməsi, fəqirin doyurulması əmr olunarkən iman şərt qoyulmur.

◘Zaman və məkan göstəriciləri, fərdlərin  xüsusiyyətləri işin dəyərinə təsir göstərir. Təam vermək hər vaxt yaxşı sayılsa da, qıtlıq dövründə təam verməyin xüsusi imtiyazları var. Yetimə nəvaziş göstərmək yaxşıdır. Amma qohumlardan olan yetimə nəvaziş göstərilməsi daha mühümdür. Yoxsullara əl tutmaq yaxşıdır. Amma yoxsulluqdan yerə çökənlərə əl tutmağın daha böyük əhəmiyyəti var.

◘Yoxsulların xeyri üçün maldan keçmək çətin dolamanı adlamaq kimdir. Behişt yolu bu dolamalardan ötür.

◘Olsun ki, bu ayələrlə bağlı nümunələr göstərmək çətin olmaya. Qul azad etmək dedikdə insanların cəhənnəm odundan xilası, təam vermək dedikdə insanların mənəvi aclığına diqqət, yetimlərə sevgi dedikdə peyğəmbər övladlarına sevgi, miskinlərə kömək dedikdə insanların doğru yola hidayəti nəzərdə tutula bilər. Sadaladığımız nümunələri təsdiqləyən hədislər var. Məsələn, insanın öyrətdiyi elm mənəvi bir təamdır.[1]

◘Həzrət Peyğəmbər (s) buyurur: "Ətqə ərəqəbə" dedikdə insanın təkbaşına qul azad etməsi, "fəkku rəqəbə" dedikdə insanın qulun azad edilməsinə yardım göstərməsi nəzərdə tutulur."[2]

## Bildirişlər

1. Ən üstün allahşünaslıq yolu Allahın hikmətlə yaratdığı varlıqları nəzərdən keçirməkdir.
2. Münasib suallar ünvanlamaqla yatmış vicdanları oyadın.
3. Bütün insanlar ağıl, fitrət, peyğəmbərlərin göstərişi, alimlərin açıqlamaları vasitəsi ilə xeyir və şəri tanıyırlar.
4. Vəzifəni yerinə yetirmək dolamadan ötüb keçmək kimidir.
5. Rifah içində yaşayan rahatlıqsevər insanlar Məsuliyyətdən qaçdığı üçün Quran tərəfindən məzəmmət olunur.
6. İnsan mənəvi mövzuları ilahi xəbərdarlıqsız dərk edə bilmir.
7. Qul və əsirlərin azadlığa çıxarılması ən önəmli xeyir işlərdəndir.
8. Ümumi şəkildə danışmaq bəzən faydasız olur. Arabir nümunələrlə danışmaq zəruridir.
9. İnsanların hisslərini oyatmaq, onları hərəkətə gətirmək üçün dərdlərdən danışın.
10. İnsanları xeyir işə təşviq etmək üçün ilahi lütfləri yada salın.
11. İslam məhrum təbəqənin maddi ehtiyaclarını diqqət mərkəzində saxlayır, onların problemlərinin həllini zəruri sayır.

[1] "Təfsiri-ətyəbul bəyan"
[2] "Təfsiri-məcməul-bəyan"

12. Əsas məsələ sərmayənin xərclənməsi yox, haraya xərclənməsidir.

***Ayə 17, 18, 19, 20:***

**﴿ثُمَّ كَانَ مِنَ الَّذِينَ آمَنُوا وَتَوَاصَوْا بِالصَّبْرِ وَتَوَاصَوْا بِالْمَرْحَمَةِ﴾﴿أُوْلَئِكَ أَصْحَابُ الْمَيْمَنَةِ﴾﴿وَالَّذِينَ كَفَرُوا بِآيَاتِنَا هُمْ أَصْحَابُ الْمَشْأَمَةِ﴾﴿عَلَيْهِمْ نَارٌ مُّؤْصَدَةٌ﴾**

**17. "Sonra isə iman gətirib bir birlərini səbr və mehribançılığa çağıranlardan olsun"; 18. "Onlar yəmin əshabıdırlar"; 19. "Ayələrimizi inkar edənlər əməl naməsi sol əlinə verilmiş bədbəxt əshabdır"; 20. "Onlar üçün örtülü və əhatəli od var."**

**Nöqtələr**

◘"Summə kanə minəlləzinə amənu" fadəsi iki şəkildə mənalandırılır:

a) Qul azad etmək və acı doyurmaq kimi xeyirli işlər imana gəliş və başqalarının xeyirə dəvəti üçün zəmindir.

b) İmanın məqamı və dəyəri acı doyurmaq və qulu azad etməkdən ucadır.[1]

◘"Məymənə" sözü "yəmin" sözündəndir və bərəkət mənası bildirir. "Əshabul-məymənə" dedikdə daimi bərəkətə çatanlar nəzərdə tutulur. Onların əməl namələri sağ əllərinə verilmişdir.

◘"Məşəmə" sözü mübarək olmayan mənası bildirir. "Musədəh" sözü "isad" sözündən olub qapını bağlayıb möhkəmlətmək mənasını ifadə edir.

◘Qurani-kərimdə "təvasəv" sözü dörd dəfə işlədilmişdir. Bunlardan biri haqqa, ikisi səbrə, biri mərhəmətə çağırışda istifadə olunmuşdur.

◘"Təvasəv" sözünün bir ayədə təkrarı ya israr üçündür, ya da səbr və mərhəmətin ayrı-ayrı vəzifə olduğunu bildirir. Onlardan birini tərk etdikdə o biri üçün zəmin aradan qalxır.[2]

◘Kimsə tapşırıq və təşviqdən ehtiyacsız deyil. "Təfaül" babında işlənmiş "təvasəv" əmrindən aydın olur ki, yaxşılığa çağırış qarşılıqlı olmalıdır.

◘Ötən ayədə tövsiyə olundu ki, yetimlərə və miskinlərə diqqət göstərilsin. Bu ayədə isə başqalarını da bu işə dəvət etmək tapşırılır.

◘Adətən imana çağırışdan sonra saleh əmələ çağırış bəyan olunur. Amma hazırkı ayədə saleh əməl əvəzinə səbr və mərhəmətə çağırışla rastlaşırıq. Zahirən belə görünür ki, bu iki tövsiyə saleh əmələ çağırışa bərabərdir.

◘İslam xeyir işlə yanaşı insanların əqidələrinə də diqqət ayırır. İnsan qullara və yetimlərə diqqət göstərməklə yanaşı iman əhli olmalıdır. Elələri də var ki, xeyirxahlıq göstərir, amma haqq yolu qəbul etmir. Belələri də geri qalmışlardan, dolamaları adlaya bilməyənlərdən sayılır. Quranda bildirilir ki, həmin dolamalardan keçid üçün ehtiyaclılara yardım göstərməklə yanaşı imanlı olmaq lazımdır.

◘Cəhənnəmin örtülü olması dedikdə oddan örtüklər nəzərdə tutula bilər.[3]

**Bildirişlər**

1. Xeyir işlərin qəbulu üçün iman şərtdir.

---

[1] "Təfsiri-nümunə"
[2] "Təfsiri-rahnoma"
[3] "Əraf", 41

2. Bütün müsəlmanlar bir-birlərini səbr və mərhəmətə dəvət etməlidirlər.

3. Bilmək bəs etmir, demək və dinləmək də təsirlidir.

4. Tövsiyə ediləsi ən üstün dəyərlər səbr və mərhəmətdir.

5. İnsan özünü tərbiyələndirdikdən sonra başqalarını da xeyirə çağırmalıdır.

6. Göz nemətinin şükrü ilahi ayələrə baxmaq, dil nemətinin şükrü başqalarını haqqa çağırmaqdır.

7. İman, səbr və məhəbbət bərəkət səbəbidir.

8. Küfr və paxıllıqla haqq və mərhəmətə pərdə çəkənlər cəhənnəmdə oddan örtüklərə bürünər.

9. Acları doyuran və qulları azad edən möminlər həm cəmiyyət üçün xeyir-bərəkətdir, həm də axirəti abad etmişlər. Bundan böyük səadət, bərəkətmi olar?!

10. Bütün işlər səbr və dözümlə bəhrə verir. Bu səbəbdən də hər işdən öncə səbr lazımdır.

11. İstənilən bir azğınlıq və çirkinliyin kökü küfr və haqsızlığa qayıdır.

# “ŞƏMS” SURƏSİ

### *(91-Cİ SURƏ; 15 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ŞƏMS” SURƏSİNİN SİMASI*

Şəms surəsi Məkkədə nazil olmuşdur. Bu surə 15 ayədən ibarətdir.

Onun adı surənin ilk ayəsindən götürülmüşdür. Surə günəşə (“şəms”) andla başlayır.

Qurandakı bir çox andlar bu surədə ardıcıl şəkildə bəyan olunur. Bir-birinin ardınca 11 dəfə günəş və aya, gündüz və gecəyə, səma və yerə, nəfsi yaradana və ona paklanma yolunu öyrədənə and içilir.

Surədə bildirilir ki, insan ilahi bir ilhamla yaxşı işi pis işdən seçə bilər. Nicat tapmaq istəyən şəxs öz batinini paklamalıdır. İnsan xeyir işlərlə öz ruhunu inkişaf etdirməlidir. Əks təqdirdə əbədi səadətdən məhrum olasıdır.[1]

Surənin davamında Səmud qövmünün əhvalatı deyilənlərə sübut göstərilir. Onlar öz peyğəmbərləri Salehi təkzib edib, onun dəvəsini öldürməklə ağır əzaba düçar oldular. Həmin dəvə Allahın möcüzəsi idi.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمٰنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8:***

﴿وَالشَّمْسِ وَضُحَاهَا﴾﴿وَالْقَمَرِ إِذَا تَلَاهَا﴾﴿وَالنَّهَارِ إِذَا جَلَّاهَا﴾﴿وَاللَّيْلِ إِذَا
يَغْشَاهَا﴾﴿وَالسَّمَاء وَمَا بَنَاهَا﴾﴿وَالْأَرْضِ وَمَا طَحَاهَا﴾﴿وَنَفْسٍ وَمَا سَوَّاهَا﴾﴿فَأَلْهَمَهَا
فُجُورَهَا وَتَقْوَاهَا﴾

**1. “And olsun günəşə və onun nuruna”; 2. “And olsun günəşin ardınca görünən aya”; 3. “And olsun yeri işıqlandıran gündüzü”; 4. “And olsun yeri örtən gecəyə”; 5. “And olsun səmaya və onu yaradana”; 6. “And olsun yerə və onu döşəyənə”; 7. “And olsun nəfsə və onu qaydaya salana”; 8. “Ona çirkinlikləri və paklıqları ilham etdi.”**

#### Nöqtələr

◘Günəş və aya, gecə və gündüzə and içilməsinin səbəbi bu ola bilər ki, nəfsi paklamağın günəş və ay qədər əzəmətli olduğu açıqlansın.

◘Günəş və ayın, gecə və gündüzün dəyəri hamıya məlumdur. Canlıların, buludların yaranması və yağış yağması, bitki və ağacların cücərməsi, canlıların qidalanması günəşin işıq və istliyindən asılıdır.

[1] “Təfsiri-əl mizan”

◘Quranda bəzən əzəmətli günəşə və bəzən kiçik əncir və zeytuna and içilir. Olsun ki, bu misallar Allahın qüdrəti qarşısında bütün işlərin asanlığını nəzərə çatdırır. İnsan gözü üçün dağa və ya saman çöpünə baxmağın fərqi yoxdur. Dağa baxmaq gözə ağırlıq salmır. Allah üçün də dağı yaratmaqla, ənciri yaratmaq arasında fərq yoxdur. Əlbəttə ki, ən böyük and Allahın zatına anddır. Bu and da insanların ilahi rəhbərə təslim olması ilə bağlı içilərsə fərqlənir.[1]

◘Ən çox and içilən surə "şəms" surəsidir. Əlbəttə ki, bu andların sayı mövzunun mühümlüyündən danışır. Bu mövzu isə nəfsin çirkinliklərdən təmizlənməsidir. Bildirilir ki, insan yalnız nəfsini paklamaqla nicat tapa bilər. İnsanın nəzərinə çatdırılır ki, onun təkamülü üçün bütün müqəddimələr hazırlanmışdır. Günəş və ayın nuru yer üzünü işıqlandırır, gecə və gündüzün yerdəyişməsi ilə iş və istirahət üçün zəmin yaranır. Ayaqlar altına yer döşənir, baş üzərində səma qərar verilir. İnsanın çirkinlikləri və yaxşılıqları dərki üçün ona ilham olunur. Beləcə insan azad şəkildə nəfsi paklama yolunu seçməlidir.

*Buludlar, küləklər, günəş, həm də ay*
*Səni ehtiyacdan qurtarmaq üçün.*
*Varlıq sənin xidmətində dururkən,*
*İnsafmı Rəbbini çəkəsən çiyin?!*

◘"Fucurəha" sözü "fəcr" sözündən olub parçalama mənasını bildirir.

◘Səmaların yüksəldilməsi və yerin döşənməsi ya bilavasitə Allahın iradəsi ilə, ya da Allahın müəyyənləşdirdiyi təbii vasitələrlə həyata keçir. "Vəssəmai və ma bənana" ayəsindəki "ma" hissəsi bu işin Allahdan qeyrilərinə də aid olduğunu göstərir. Yəni səmanın ucaldılmasında Allahın müəyyənləşdirdiyi təbii qüvvələr, cazibələr və dəf etmələr rol oynayır. "Ma" hissəsi Allaha da işarə ola bilər. Bu halda həmin hissə ilahi əzəmətə işarə kimi işlədilmişdir.

◘Varlıq aləmi ilk əvvəldən yığcam bir kütlə halında olmuşdur. Sonradan onun bir hissəsi ayrılıb səma kimi yüksəlmiş, digər bir hissəsi yer kimi döşənmişdir. "Ənbiya" suəsinin 30-cu ayəsində, səma və yer bağlı idi, biz onu açdıq.

◘Bəziləri "təhaha" sözünün yerin hərəkətinə işarə olduğunu bildirir. Çünki bu sözün bir mənası da qovmaq, hərəkətə gətirməkdir.

◘İslam insanın düşüncəsini qarın və şəhvətdən, zor və şərabdan ayıraraq göy qatlarına, yer qatlarına, səma cisimlərinin hərəkətinə, gecə-gündüzün yaranışına yönəldir.

◘Qeyd edilir ki, vəhy və ilham arasındakı əsas fərq bundan ibarətdir ki, vəhyin qaynağı tanınır, ilhamın qaynağı dərk edilmir.[2]

### Bildirişlər

1. Varlıq aləmindəki bir çox mövcudlar cazibəli, düşündürücü, müqəddəs və dəyərli hadisələrdir. Onlara and da içmək olar.
2. Ay günəşin ardınca görünür və ona tabedir.
3. Ayrı-ayrı səma cisimləri bir-birləri ilə rabitədədir.
4. Günəşi, ayı və ulduzları məbud saymayın. Onların hər biri qüdrət nişanəsidir.

---

[1] "Nisa", 65
[2] "Təfsiri-nümunə"

5. İnsanın istəkləri və meylləri hikmətlə tarazlanmışdır.

6. Günah bir növ iffət və din pərdəsini yırtmaqdır.

7. Yaxşılıqların və pisliklərin fitri yolla dərki bir istedad olaraq insanların ruhunda qərar verilmişdir.

8. Öncə çirkin işləri tanımaq, sonra xilas yolu axtarmaq lazımdır.

***Ayə 9, 10, 11, 12, 13, 14, 15:***

**﴿قَدْ أَفْلَحَ مَن زَكَّاهَا﴾﴿وَقَدْ خَابَ مَن دَسَّاهَا﴾﴿كَذَّبَتْ ثَمُودُ بِطَغْوَاهَا﴾﴿إِذِ انبَعَثَ أَشْقَاهَا﴾﴿فَقَالَ لَهُمْ رَسُولُ اللَّهِ نَاقَةَ اللَّهِ وَسُقْيَاهَا﴾﴿فَكَذَّبُوهُ فَعَقَرُوهَا فَدَمْدَمَ عَلَيْهِمْ رَبُّهُم بِذَنبِهِمْ فَسَوَّاهَا﴾﴿وَلَا يَخَافُ عُقْبَاهَا﴾**

**9. “Həqiqətən, nəfsini paklayan nicat tapdı”; 10. “Şübhəsiz ki, onu (nəfsini) bulaşdıran məhrum olub ümidini itirdi”; 11. “Səmud qövmü azğınlıq səbəbindən (öz peyğəmbərini) təkzib etdi”; 12. “Onların ən qəddarı (dəvəni öldürmək üçün) ayağa qalxanda”; 13. “Allahın peyğəmbəri onlara dedi: “Allahın bu dəvəsinə (hörmət göstərin) və su içməsinə mane olmayın”; 14. “Onu təkzib etdilər və dəvəni öldürdülər. Rəbbləri bu günaha görə onları bir-birinə qatıb torpaqla bir etdi;” 15. “Allah öz işinin aqibətindən qorxmaz.”**

### Nöqtələr

◘İmam Baqir (ə) və imam Sadiq (ə) 9-cu ayənin təfsiri ilə bağlı buyururlar: “Nəfsini paklayan kəs dedikdə Peyğəmbər və məsum imamlar nəzərdə tutulur. Onlar Allaha itaət edib nicat tapdılar.”[1]

◘Allahın nəzərində yalnız özünü paklayanlar nicat əhlidir. Fironçular isə zorluları, zahirdə qalib gələnləri nicat tapmış sayır.

◘Xeyir işlərdə qurtuluş ümidi var.[2] Amma nəfsin paklanması və özünütərbiyə insanı qəti şəkildə xilas edir.

Amma nəfsin paklanması və özünütərbiyə insanı qəti şəkildə xilas edir.

◘Nəfsin paklanması dedikdə batil əqidə, əxlaq və rəftarlardan uzaqlıq, bəyənilmiş səciyyələrə yiyələnmək nəzərdə tutulur.

◘Ayələrdə buyurulur ki, su bir gün xalqın, bir gün isə dəvənin payıdır. Hərə öz günündə sudan istifadə etməlidir. Bildirilir ki, dəvəyə mane olan böyük əzaba düçar olacaq.[3]

◘Quranda “fəlah” kökü 40 dəfə işlədilmişdir. Bu sözü araşdırdıqda məlum olur ki, kimlər nicat tapasıdır, kimlər məhrum qalasıdır. Məsələn, günahkarların nicat tapmayacağı bildirilir.[4]

◘Quranda bəzi mövzular bir andla bəyan olunur. Bəzən iki, üç, dörd, beş and içilir. Amma bu surədə 11 dəfə and içildikdən sonra nəfsin paklamağın əhəmiyyəti qeyd edilir.

◘”Xab” sözü məqsədə çatmaq mənasını bildirən “xəybə” məsdərindəndir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Həcc”, 77

[3] “Şuəra”, 155; “Qəmər”, 28

[4] “Yunis”, 17

◘”Dəss” sözü izləmək mənasını bildirir. Qızların diri-diri gora gömülməsindən danışılarkən bu sözdən istifadə olunur. Bəli, Günahkar insan öz eyblərini gizləməyə çalışır. “Dəsisə” sözü gizlədilən çirkin iş mənasını bildirir.

◘”Dəmdəm” dedikdə sarsıdıcı və əhatəli əzab nəzərdə tutulur. Bu əzab insanı parçalayıb dağıdır.

◘”Səvvaha” sözü ya tikililərin, ya da insanların torpaqla bir edilməsini bildirir.

◘Nəfsini paklamış tənha bir insan cəmiyyətdə hərəkat yarada bilər. Belə bir şəxs təkamül, şücaət, şəxsiyyət, mərifət və vəhdət üçün hərəkət verici ola bilər. Necə ki, azğın bir şəxs öz istəyinə çatmaq üçün bütöv ümməti fəsada sürükləyir.

◘Quranda insanların qurtuluşu üçün iki amil göstərilir: iman və paklanma (təzkiyə).

Mahiyyət baxımından iman və təzkiyə eynidir. Özünü tərbiyələndirmək istəyən şəxs həqiqi mömin olmalıdır. Həqiqi mömin isə özünü paklayan insandır. Belə bir insan imanlıdır, dini vəzifələrini diqqətlə yerinə yetirir. Belələri “Muminun” surəsinin başlanğıcında yada salınır.

◘“Ətyəbul-bəyan” təfsirində oxuyuruq ki, tarix boyu böyük cinayətkarlar olmuşdur. Amma Salehin dəvəsini öldürən və həzrət Əlini (ə) şəhadətə yetirən şəxsin cinayəti çox böyükdür. Bu iki cinayətin yeganə səbəbi amansızlıq olmuşdur.

◘Həzrət Əli (ə) Kufədə minbərdən buyurdu: “Salehin dəvəsini bir nəfər öldürdü. Amma Allah bu işə razı olanların hamısını cəzalandırdı.” Sonra həzrət hazırkı ayəni tilavət etdi.[1]

◘Şiə və sünnülərdən nəql olunmuş çoxsaylı rəvayətlərdə, o cümlədən Əhməd Hənbəl, Təbəri və Qurtubidən nəql olunmuş rəvayətlərdə bildirilir ki, ilk qəddar Salehin dəvəsini öldürən, son qəddar həzrət Əlini (ə) şəhadətə yetirən şəxsdir.[2]

## Bildirişlər

1. İnsanın ruhuna anddan aydın olur ki, onun səadəti maddi yox, mənəvi təkamülündən asılıdır.
2. Nəfsimizi başına buraxsaq o bizi süquta uğradar. Bəli, nəfsə nəzarət lazımdır.
3. Paklanma və özünü tərbiyə nələrdənsə məhrum olmaq yox, əsil təkamüldür.
4. Nəfsini yersiz adət-ənənələrə əsir edib azğın istəklər ardınca gedən insan böyük ziyana düçar olacaq.
5. Azğınlıq və günah küfr və təkzibin müqəddiməsidir.
6. Təbliğdə ümumi prinsipləri bəyan etdikdən sonra nümunələr göstərin.
7. Müqəddəsliklərin hörmətdən salınması qəddarlıqdır. Böyük müqəddəsliyə hörmətsizlik üçün daha artıq amansızlıq lazımdır.
8. Nəfsini paklamaq fikrində olmayan insan öncə azğın istəklərini məxsfi təmin edir, sonra açıq-aşkar bu işin ardınca gedir.
9. Daha qəddar insan pis işlərə daha tez yönəlir.
10. Allaha aid olan hər şey müqəddəsdir. Bu müqəddəsliklərə ehtiram göstərmək lazımdır. Müqəddəsliklərə hörmətsizliyin sonu ilahi əzabdır.
11. Alağı təmizləmək bəs etmir, bəhrə üçün çalışmaq lazımdır.
12. Nəfsin tələb etdiyi ötəri ləzzətlərlə qürrələnməyin. Bu işin sonu məhrumiyyətdir.

---

[1] “Nəhcül-bəlağə”, xütbə 20
[2] “Təfsiri-nümunə”

13. Başqalarının günahı ilə razılaşanlar həmin günaha şərikdirlər. Dəvəni bir nəfər öldürdüsə də, bu iş bütün ətrafdakıların ayağına yazıldı.

14. Allah hər şeyə hakimdir və sitəmkarları məhv etməkdən çəkinmir.

15. Günahla razılaşmaq, günaha sövq etmək də günahdır.

16. Allahın cəzaları onun rübubiyyət cilvələrindəndir. Tərbiyəçi tərbiyəyə mane olan səbəbləri aradan qaldırmalıdır.

17. Allahın dünyada nazil olan qəhr qəzəbi də ağırdır.

# “LƏYL” SURƏSİ

## *(92-Cİ SURƏ; 21 AYƏ)*

## *OTUZUNCU CÜZ*

## *“LƏYL” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 21 ayədən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. Həmin ayədə “ləylə” yəni başlamaqda olan gecəyə and içilir.

Surə insanların fərqli təlaşlarının bəyanı ilə başlayıb mükafatlandırma qanunlarının bəyanı ilə başa çatır. Bu qanunlara əsasən, ehsan insanın işlərini yüngülləşdirir, xəsislik və məqampərəstlik ona problemlər yaradır.

Surədə Allahın ümumi hidayət sünnəsinə işarə olunur. İlahi xəbərdarlıqlara diqqətsizlik göstərənlər cəhənnəm odu, təqva əhli azadlıqla müjdələnir. Zəkat əhli olan təqvalılar öz işlərində yalnız Allahın razılığını izləyirlər. Allah da onların razılığı üçün zəmin yaradır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4:***

**﴿وَاللَّيْلِ إِذَا يَغْشَى﴾﴿وَالنَّهَارِ إِذَا تَجَلَّى﴾﴿وَمَا خَلَقَ الذَّكَرَ وَالْأُنثَى﴾﴿إِنَّ سَعْيَكُمْ لَشَتَّى﴾**

**1. “And olsun (yeri öz qara pərdəsi ilə) bürüməkdə olan gecəyə”; 2. “And olsun işıqlanmaqda olan gündüzə”; 3. “And olsun erkək və dişini yaradana”; 4. “Həqiqətən, sizin təlaşlarınız fərqlidir.”**

### Nöqtələr

◘Hədisdə bildirilir ki, Allah öz yaratdıqlarından istənilən birinə and içə bilər. Amma insanların yalnız Allaha and içməsi mümkün sayılır.[1]

◘”Şətta” sözü pərakəndə mənasını bildirən “şətit” sözünün cəm formasıdır. Ayədə yalnız təlaşların fərqliliyi nəzərdə tutulmur. Bu fərqlər təlaşların son nəticəsinə də aiddir.

◘Gecənin qaranlığı (kölgəsi) böyük bir nemətdir. Bu qaranlıqda temperaturlar tarazlaşır, insanın cismi və ruhunda aramlıq yaranır, səmimi dualar oxunur.

### Bildirişlər

1. Zaman müqəddəs və and içiləsi bir həqiqətdir.
2. Həm təbiətdəki, həm də vücudunuzdakı nişanələrə diqqət yetirin.
3. Canlıların erkək və dişi olmaqla cütlüyü Allahın qüdrət və hikmət nişanəsidir.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

4. Allahın mərhəmət və qəzəbi arasındakı fərqlər hikmət və ədalətə əsaslanır. Bu fərqin səbəbi insanların təlaşlarındakı fərqdir.

***Ayə 5, 6, 7, 8, 9, 10, 11:***

**﴿فَأَمَّا مَن أَعْطَى وَاتَّقَى﴾﴿وَصَدَّقَ بِالْحُسْنَى﴾﴿فَسَنُيَسِّرُهُ لِلْيُسْرَى﴾﴿وَأَمَّا مَن بَخِلَ وَاسْتَغْنَى﴾﴿وَكَذَّبَ بِالْحُسْنَى﴾﴿فَسَنُيَسِّرُهُ لِلْعُسْرَى﴾﴿وَمَا يُغْنِي عَنْهُ مَالُهُ إِذَا تَرَدَّى﴾**

**5. “Amma o kəs ki infaq etdi və qorxdu”; 6. “Gözəl mükafatı təsdiq etdi”; 7. “Tezliklə onu ən üstün yol üçün hazırlaycağıq”; 8. “Amma o kəs ki, xəsislik göstərdi və özünü ehtiyacsız saydı”; 9. “Gözəl mükafatı təkzib etdi”; 10. “Onu ən ağır yola çəkəcəyik”; 11. “Həlak olduğu vaxt var-dövləti ona xeyir verməyəcək.”**

## Nöqtələr

◘Təqva ilə yanaşı əta dedikdə xalis niyyətlə, minnətsiz, halaldan, Allah yolunda əta nəzərdə tutula bilər. Bütün bu səciyyələr təqva sözündə xülasələşmişdir.

◘Allah yalnız insanların fərqli təlaşlarına görə onların bəzisi üçün xeyir, bəzisi üçün şər yol açır.

◘Nəql olunur ki, varlı bir şəxsin meyvə ağacından düşən meyvələri qonşunun uşaqları yeyərdi. Ağac sahibi meyvəni uşaqların ağzından çıxarardı. Həmin uşaqların atası məsələni Peyğəmbərə (s) danışdı. Həzrət Peyğəmbər (s) ağac sahibinin yanına gedib behişt ağacı müqabilində həmin ağacı Peyğəmbərə (s) satmasını təklif etdi. Ağac sahibi bu təklifi rədd edib dedi: “Nağd dünyanı nisyə axirətə satmıram.” Peyğəmbər (s) həmin yeri tərk etdi. Peyğəmbərin (s) yaxınlarından biri soruşdu: “Ya Rəsuləllah (s), həmin ağacı məndən də həmin qiymətə alarsınızmı?” Həzrət (s) buyurdu: “Bəli.” Həmin şəxs ağac sahibinin yanına gedib küllü miqdarda pul verərək Peyğəmbərin (s) ixtiyarına verdi. Peyğəmbər (s) yoxsulun evinə gəlib ağacı onlara bağışladı. Həmin vaxt hazırkı ayələr nazil oldu.[1]

◘Hər kəs iman və təqva əsasında səxavət yolunda ilk addım atsa, Allah həmin şəxsin tutumunu və ruhi durumunu bir çox işlər üçün hazırlayar, onu xeyir işlərə müvəffəq edər. Bu şəxsin təcrübəsi, düşüncəsi, bacarığı güclənər. Allah ona ilham, istedad verər. Həmin şəxsin ictimai nüfuzu artar, qarşısında xeyir işlər üçün yol açılar. Bütün bunlar hazırkı ayələrin nümunəsidir.

◘İncə nöqtələrdən biri budur ki, Quran buyurur: “Biz onu ən asan yol üçün hazırlayırıq.” Buyurulmur ki, onun işini asanlaşdırarıq. Bu iki təbir arasında fərq var. Yolun asanlaşması ilə işin asanlaşması fərqli məfhumlardır. İnsan təvəkkül, dua, ilahi qüdrətə bağlanmaqla qəlbini o qədər genişləndirib aramlaşdıra bilər ki, bütün işlər ona asan gələr, xeyir işdən çəkinməz.

◘Kərbəla tarixçəsində oxuyuruq ki, xanım Zeynəb (s.ə.) imam Hüseynin (ə) tikə-tikə doğranmış cisminə görüb dedi: “Pərvərdigara, bu şəhid Sənin əzəmətin qarşısında kiçikdir. Onu qəbul et!” Bəli, iman və təqva insanı bütün hadisələrə hazırlayır, onu dözümlü edir. İmam Hüseyn (ə) qılınc ağrılarını hiss etmirdi.

◘”Yusra” və “usra” sözləri asan və çətin işlərə, yollara işarədir.

Əsas məsələ bağışlamaqdır. Nədən bağışlamaq, nə qədər bağışlamaq mühüm deyil.

---

[1] “Təfsiri-nümunə”

◘”Husna” sözü ya “ruca” sözü kimi məsdərdir, ya da “əhsən” sözünün müənnəs (qadın cinsi) formasıdır.

◘İmam Baqir (ə) hazırkı ayələrlə bağlı buyurur: “İnsan hansı işə üz tutarsa Allah həmin işi onun üçün asanlaşdırar.”[1] Növbəti ayələrin təfsirində buyurulur: “İnsan şər bir iş görmək qərarına gələndə Allah həmin işin yerinə yetirilməsini asanlaşdırır.”[2]

## Bildirişlər

1. Düzgün təbliğ üsulu budur ki, ümumi prinsiplər bəyan olunduqdan sonra nümunələr göstərilsin.
2. Əta və bəxşişlər təqva ilə yanaşı olduqda səmərə verir.
3. İnsan bir şey bağışlayarkən riyaya, qürura, minnətə yol verməməlidir.
4. Nə bağışlamağımız yox, necə bağışlamağımız mühümdür.
5. Bəxşişin qəbul olunması üçün təqva şərtdir. Haram maldan, riyakarlıqla bağışlamağın savabı yoxdur.[3]
6. Axirət dünya həyatından üstündür.
7. Yalnız məada inanan insan öz bəxşişlərinə ilahi rəng verib təqva əhli ola bilər. Quran qiyamət vədlərini gözəl vəd adlandırır.[4]
8. Əməlin qəbul olunması üçün məada etiqad şərtdir.
9. Xəsislik və var-dövlətlə lovğalanmaq təqvasızlıq göstəricisidir.
10. İşlərin düyünə düşməsi və ya düyünlərin açılması insanın xəsislik və ya səxavətinin nəticəsidir.
11. Yaxşılıq yaxşılıq gətirir, pislik pislik.
12. Allahın mükafat və cəzası insanların rəftarları ilə müəyyənləşir. Əgər təqvalı olsaq işimizdəki düyün açılar. Əgər yoxsullara əl tutmasaq Allahın yardımından məhrum olarıq.
13. Xəsislər bilsinlər ki, var-dövlət insanı xilas edə bilməz.
14. Xəsisliyin sonu süqutdur. Xəsis insan öz insanlığından, kamillikdən, xalqın gözündən süqut edib cəhənnəmə yuvarlanır.
15. Bəzən insan sabahkı yoxsulluqdan qorxduğu üçün bu gün xəsislik göstərir. “Bəqərə” surəsində buyurulur ki, şeytan sizi yoxsulluqla qorxudur.
16. Bəzən insan var-dövləti ilə qürrələndiyindən özünü ilahi mərhəmətdən ehtiyacsız sayır və xəsislik göstərir.

***Ayə 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21:***

﴿إِنَّ عَلَيْنَا لَلْهُدَى﴾﴿وَإِنَّ لَنَا لَلْآخِرَةَ وَالْأُولَى﴾﴿فَأَنذَرْتُكُمْ نَارًا تَلَظَّى﴾﴿لَا يَصْلَاهَا إِلَّا الْأَشْقَى﴾﴿الَّذِي كَذَّبَ وَتَوَلَّى﴾﴿وَسَيُجَنَّبُهَا الْأَتْقَى﴾﴿الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّى﴾﴿وَمَا لِأَحَدٍ عِندَهُ مِن نِّعْمَةٍ تُجْزَى﴾﴿إِلَّا ابْتِغَاء وَجْهِ رَبِّهِ الْأَعْلَى﴾﴿وَلَسَوْفَ يَرْضَى﴾

**12. “Həqiqətən, xalqın hidayəti (doğru yola yönəldilməsi) bizim öhdəmizədir”; 13. “Şübhəsiz, axirət və dünya bizə məxsusdur”; 14. “Sizi şölələnən bir odla qorxutdum”; 15. “Yalnız insanların ən bədbəxti ona daxil olar”; 16. “Elə təkzib etdi**

[1] “Kafi”, c. 4, s. 46
[2] “Kafi”, c. 4, s. 47
[3] “Maidə”, 27
[4] “Nisa”, 95

**və üz çevirdi"; 17. "Amma insanların ən təqvalılarını həmin oddan uzaq saxlayacağıq"; 18. "O kəs ki, paklanmaq üçün malından bağışlayır"; 19. "Bir halda ki onun boynunda əvəzi veriləsi bir nemət və minnət yoxdur;" 20. "O yalnız uca mərtəbəli Rəbbinin razılığını soraqlayır"; 21. "O tezliklə razı qalacaq."**

## Nöqtələr

◘Allah-taala istisnasız olaraq insanları doğru yola yönəldir. Amma insanlar arasında bu hidayəti qəbul etməyənlər var.[1]

◘"Təlezza" dedikdə odun tüstüsüz şöləsi nəzərdə tutulur. Belə bir odun yandırıcılığı daha çoxdur.

◘Yalnız qəddar insanlar cəhənnəmdə əbədi qalır. Olsun ki, odun xüsusi növü olan "narən təlezza" qəddar insanlara aiddir. Başqa günahkarların digər odla cəzalandırılması mümkündür.

◘"Vələsəvfə yərza" ayəsi iki cür mənalandırıla bilər: insan məqsədə çatmaqla Allahdan razı qalır; Allah insandan razı qalır. Quranda hər iki razılıq yanaşı şəkildə də qeyd olunur.[2]

## Bildirişlər

1. Allahın özünə vacib saydığı sünnələrdən biri də insanların ağıl, fitrət və peyğəmbərlər vasitəsi ilə doğru yola hidayətdir.
2. Hidayətin qəbulu insanların özü üçün faydalıdır. Allah insanın doğri yolda olmasına möhtac deyil.
3. Xəbərdarlıq və hədələmə hidayət vasitəsidir. İlahi xəbərdarlıqlara diqqətli olaq. Bu xəbərdarlıqlar dünya və axirətdə hökm sahibi olan Allah tərəfindəndir.
4. Axirət odu əzəmətli və insan üçün qeyri-müəyyən bir həqiqətdir.
5. Bədbəxtliyin də təqva kimi mərhələləri var. Bütün hidayət nişanələrinə kor olan insan ən bədbəxt insandır.
6. Mərhumlara yardımla müşayiət olunan təqva cəhənnəm odu qarşısında sipərdir.
7. Məhrumlara yardım təqva əhlinin daimi qaydasıdır.
8. Şəxsi maldan bağışlamaq dəyərlidir.
9. Səmimi maddi yardımlar təqva göstəricisidir.
10. Yoxsullara yardım paklanma və özünütərbiyə üçün bir yoldur.
11. Başqalarının yaxşılıqlarına cavab üçün göstərilən köməkliklər təkamül səbəbi deyil. Kimsəyə borclu olmayan və kimsədən nə isə ummayan insanın infaqı dəyərlidir.
12. Təqvalı insan yalnız Allahın razılığını soraqlayır.
13. Allaha yaxınlıq məqsədi zəruri şərtdir.
14. İnsan Allah bəyənən yollarda infaq etməlidir.
15. Allah "Əla"dır. Yalnız Onun razılığını soraqlayın ki, əla mükafata çatasınız.
16. Xalis, səmimi insan razılıq məqamına yüksəlir və daim Allahdan razıdır.

---

[1] "Fussilət" 17
[2] "Bəyyinə", 8; "Fəcr", 28

# “ZUHA” SURƏSİ

***(93-CÜ SURƏ; 11 AYƏ)***

***OTUZUNCU CÜZ***

## *“ZUHA” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 11 ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür. Həmin ayədə günün yüksəlişinə and içilir.

Bir zaman vəhyin nazil olmasında 15 gün fasilə yarandı. Müxaliflər Peyğəmbərə (s) tikanlı sözlər ünvanladılar. Hazırkı surə Peyğəmbərə (s) təsəlli olaraq nazil edildi. Surədə Peyğəmbərə (s) yetimlik dövründən peyğəmbərlik dövrünədək himayə göstərildiyi bildirilir.

Belə bir münasibət, yəni yetimlərə və məhrumlara qayğı həzrət Peyğəmbərdən də (s) tələb olunur. Ondan istənilir ki, dildə və əməldə ilahi nemətləri aşkarlasın, onlara görə şükr etsin.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿وَالضُّحَى﴾﴿وَاللَّيْلِ إِذَا سَجَى﴾﴿مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَى﴾﴿وَلَلْآخِرَةُ خَيْرٌ لَّكَ مِنَ الْأُولَى﴾﴿وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى﴾**

**1. “And olsun günün başlanğıc nuruna”; 2. “And olsun aramlıq gətirən gecəyə”; 3. “Rəbbin səni tərk etməmiş, sənə qəzəblənməmişdir”; 4. “Həqiqətən, sənin üçün axirət dünyadan üstündür”; 5. “Tezliklə Rəbbin sənə əta edər, razı qalarsan.”**

### Nöqtələr

◘“Zuha” sözü günün əvvəlini, işıqlanan vaxtı bildirir. “Səca” dedikdə örtmək və aramlıq mənaları nəzərdə tutulur.

◘“Vəddəəkə” sözü tərk etmək mənasını bildirən “tudi” sözündəndir. “Qəla” dedikdə ədavətin, qəzəbin şiddəti nəzərdə tutulur.

◘Bir zaman Peyğəmbərə (s) nazil olan vəhyin arası kəsildi. Müxaliflər “Allah səni tərk edib” deyə Peyğəmbəri (s) məzəmmət etdilər. Hazırkı ayələr nazil oldu və Peyğəmbərə (s) təsəlli verildi. Vəhyin kəsilməsində məqsəd bu ola bilərdi ki, insanlar hər şeyin Allah tərəfindən olduğunu dərk etsinlər. Bəli, vəhyin sözləri nazil olma vaxtı, qədəri Allahın ixtiyarındadır.

◘Kiçik bir surədə 13 dəfə Peyğəmbərə (s) şəxsən müraciət edilməsi onun Allah tərəfindən tərk olunmadığını göstərir.

## Bildirişlər

1. Gündüzün nuru, gecənin qaranlığı Allahın iki böyük nemətidir. Allah bu iki nemətə and içir.
2. Qətiyyət göstərib bədxahların sözünü kəsin, pak insanların qəlbini ələ alın.
3. Yersiz mühakimələri, təhlilləri dərhal cavablandırın.
4. Tərbiyəçi tərbiyə etdiyi şəxsi tərk etməməlidir.
5. Lütfün bir ara kəsilməsini Allahın qəzəbi kimi dəyərləndirməyin.

***Ayə 6, 7, 8, 9, 10, 11:***

**﴿أَلَمْ يَجِدْكَ يَتِيمًا فَآوَى﴾﴿وَوَجَدَكَ ضَالًّا فَهَدَى﴾﴿وَوَجَدَكَ عَائِلًا فَأَغْنَى﴾﴿فَأَمَّا الْيَتِيمَ فَلَا تَقْهَرْ﴾﴿وَأَمَّا السَّائِلَ فَلَا تَنْهَرْ﴾﴿وَأَمَّا بِنِعْمَةِ رَبِّكَ فَحَدِّثْ﴾**

**6. “Səni yetim halda tapıb sığınacaq vermədimi?!” 7. “Səni çaşqın vəziyyətdə tapıb hidayət etmədimi?!” 8. Səni yoxsul halda tapıb ehtiyacını ödəmədimi?!” 9. “Beləsə, yetimə qarşı sərtlik göstərmə”; 10. “Dilənçini özündən uzaqlaşdırma”; 11. “Rəbbinin nemətini yada sal.”**

## Nöqtələr

◘4-cü ayədə axirət deyərkən ya qiyamət günü, ya da Peyğəmbərin (s) dünyadakı işlərinin sonu nəzərdə tutulur.

◘Hələ Peyğəmbər (s) dünaya gəlməmiş atası Abdullah dünyasını dəyişdi. Uşaq yaşında ikən həzrət (s) öz anasını itirdi. Babası Əbdül-Mütəllib dünyasını dəyişəndə Peyğəmbərin (s) səkkiz yaşı vardı. Beləcə, həzrət yetimlərlə həmdərd idi.

◘“Nəcm” surəsinin 2-ci ayəsində Peyğəmbərin (s) daim doğru yolda olduğu bildirilir. Demək, 7-ci ayədə Peyğəmbərin (s) nəzərinə çatdırılır ki, əgər Allahın hidayəti olmasaydı sən müvəffəq ola bilməzdin. Necə ki, “Şura” surəsinin 52-ci ayəsində Peyğəmbərin (s) ilahi lütf sayəsində səmavi kitab və imana çatdığı bildirilir. “Yusuf” surəsinin 3-cü ayəsində buyurulur ki, Peyğəmbər (s) Quran nazil olanadək xəbərsizlərdən idi. “Zall” sözü həm azğın, həm də itmiş mənasını bildirir. Necə ki, hikmət möminin itkisi sayılır.[1]

◘Bəli, Peyğəmbər (s) vəhydən öncə qeyri-müəyyən vəziyyətdə idi. O vəhy nuru sayəsində ilahi vəzifələri ilə tanış oldu.

◘”Ail” dedikdə yoxsul şəxs, “qəhr” dedikdə alçaltma ilə müşayiət olunan qələbə nəzərdə tutulur. “Nəhr” dedikdə qəzəblə qovmaq mənası anlaşılır. Çayda su sürətlə axdığından ona həm də nəhr deyilir.

◘Yetimin ehtiyacları ödənməsə əxlaqi və ictimai fəsadlar artar. Yetimə diqqətsizlik onu amansızlaşdıra bilər.

◘Hədisdə bildirilir ki, Quranın ən ümidverici ayəsi hazırkı surənin 5-ci ayəsidir.[2]

◘Bu ayədə şəfaət nəzərdə tutulur.

◘Allah Peyğəmbərin (s) dünya və axirətdəki razılığına diqqətlə yanaşır. Dünya həyatında məhz Peyğəmbərin (s) razılığına xatir qiblə dəyişdirildi. Yəhudilərin qibləyə

[1] “Nəhcül-bəlağə”, hikmət 80
[2] “Şəvahidut-tənzil”, c. 2, s. 446

görə Peyğəmbərə (s) minnət qoyması onu narahat edirdi. Axirətdə də şəfaət məqamı Peyğəmbərin (s) razılığına xatir müəyyənləşdirilmişdir.

◘İmam Baqir (ə) iki dəfə ardıcıl şəkildə and içir ki, Peyğəmbərə (s) xüsusi əta dedikdə şəfaət nəzərdə tutulmuşdur.[1] İmam Sadiq (ə) buyurur: "Cədimin razılığı təkallahlı insanın odda qalmamasındadır."[2]

◘İmam Sadiq (ə) hazırkı surənin 11-ci ayəsi ilə bağlı buyurur: "Burada Allahın ətalarını, üstünlüklərini, ruzilərini, ehsanlarını və hidayətlərini yada salmaq tapşırılır."[3]

◘İslam peyğəmbəri (s) buyurur: "Həyatında ilahi nemətlərin əsərləri görünməyən kəs Allahın düşməni, onun nemətlərinin müxalifidir."[4]

## Bildirişlər

1. Allah öz Peyğəmbərini (s) dünya və axirətdə istənilən bir qəhr-qəzəbdən sığortalamışdır.
2. Axirət nemətlərində dünya nemətlərindəki nöqsanlar yoxdur.
3. Vəhyin qısa bir müddət kəsilməsi müqabilində Allah Peyğəmbərə (s) diqqəti cəlb edən vəd verir.
4. İlahi insanları bütün dünyaya sahiblik də razı salmaz. Demək Allahın vədi axirətdə gerçəkləşəcək.
5. Allah Peyğəmbəri (s) razı salmaq istəyir.
6. Rəhbər başqalarının dərdini dərk etmək üçün özü dərdlə tanış olmalıdır.
7. Yetimlik insanın kamala çatmasına mane olmur.
8. İnsanın insana minnət qoyması pisdir. Amma Allahın insana qoyduğu minnət bir dəyərdir.
9. İlahi nemətlərin yada salınması insanda Allaha təşəkkür, başqalarına xidmət ruhiyyəsini dirçəldir.
10. Qüdrətə çatdığınız vaxt zəif vaxtlarınızı yaddan çıxarmayın.
11. Allah öz lütfünü vasitələrlə çatdırır. Allah Peyğəmbəri (s) həzrət Əbu-Talib və həzrət Xədicə vasitəsi ilə imkanlı etdi.
12. Yetimə sığınacaq vermək, yoxsula əl tutmaq ilahi işdir.
13. Öz acı keçmişinizi yada salsanız məhrumları unutmazsınız.
14. Yaşına və ruhi durumuna görə yetimə yardım əhəmiyyətli sayılır.
15. Nemətləri Allah tərəfindən bilin və bu nemətlər sizi qürrələndirməsin.
16. Nemətləri dilə gətirmək bir növ şükürdür.
17. Allahın keçmişdəki lütfləri gələcəyə ümid verir. (Keçmişdə yetim və yoxsul olduğun vaxt sənə diqqət göstərən Allah gələcəkdə də səni tənha buraxmaz.)
18. Allah çox bağışlayır, amma az istəyir. O yoxsulu var-dövlətə çatdırır. Amma bizdən yoxsula var-dövlət verməyimizi yox, sadəcə onu rədd etməməyimizi tələb edir. Yetimə böyük diqqət göstərən Allah bizdən istəyir ki, onunla sərt davranmayaq.
19. Allah bəndələri istəməmiş onlara əta edir. Gəlin, heç olmaya istəyənlərə əl tutaq.
20. Nemətləri öz elm və bacarığımızın məhsulu saymayaq. Bütün nemətlər Allahın lütfüdür.

---

[1] "Bihar", c. 8, s. 57
[2] "Təfsiri-Safi"
[3] "Təfsiri-məcməul-bəyan"; "Təfsiri-nümunə"
[4] "Vəsail", c. 8, s. 40

21. Nemətləri yada salmaq insanları ümidsizlikdən və lovğalıqdan xilas edir. İlahi nemətləri xatırlayan insanın müqaviməti artır.

22. Yetimlər üçün yemək və geyimdən də üstünü məhəbbətdir.

23. İnsana xəstəlik və ya yoxsulluq üz tutduqda başqa nemətləri xatırlamaq ona təsəllidir.

24. İlahi nemətlər insnaı qəflətə uğratmamalı, onun təkamül və tərbiyəsi üçün faydalı olmalıdır.

# “ŞƏRH” SURƏSİ

### *(94-CÜ SURƏ; 8 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ŞƏRH” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 8 ayədən ibarətdir. “Zuha” surəsindən sonra nazil olmuş bu surədə də Peyğəmbərə (s) əta olunmuş nemətlərdən danışır. Əsasən üç mənəvi nemət yada salınır: həzrətə geniş qəlbin əta olunması, gələcəkdə risalətlə bağlı müşküllərin həll olunması ilə bağlı müjdə, yeganə Allaha diqqət.

Olsun ki, hər iki surədə Peyğəmbərə (s) əta olunmuş nemətlərdən danışıldığından bu iki surə bir surə kimi qəbul olunur. Namazda “ixlas” surəsinin əvəzinə “Zuha” və “Şərh” surələri birlikdə oxuna bilər.

“Şərh” surəsini oxumağın bir sıra fəzilətləri var. Həzrət Peyğəmbər (s) buyurur: “Bu surəni oxuyan şəxs Peyğəmbəri (s) qəmgin görüb onun qəmini dağıdan şəxsin savabına malikdir.[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8:***

**﴿أَلَمْ نَشْرَحْ لَكَ صَدْرَكَ﴾﴿وَوَضَعْنَا عَنكَ وِزْرَكَ﴾﴿الَّذِي أَنقَضَ ظَهْرَكَ﴾﴿وَرَفَعْنَا لَكَ ذِكْرَكَ﴾﴿فَإِنَّ مَعَ الْعُسْرِ يُسْرًا﴾﴿إِنَّ مَعَ الْعُسْرِ يُسْرًا﴾﴿فَإِذَا فَرَغْتَ فَانصَبْ﴾﴿وَإِلَى رَبِّكَ فَارْغَبْ﴾**

**“(Ey peyğəmbər) Sənin qəlbini genişləndirmədikmi?! Üzərindən ağır yükü götürmədikmi?! Elə bir yük ki sənin belini qırırdı; sənin adını ucaltdıq; şübhəsiz, hər çətinlikdən sonra bir yüngüllük var; bəli, hər çətinlikdən sonra yügünlük; elə ki vaxt tapdın təlaş göstər; rəğbət və iştiyaqla Rəbbinə üz tut.”**

### Nöqtələr

◘Ötən surədə buyuruldu ki, Allah Peyğəmbəri (s) tərk etməmişdir. Hazırkı surədə isə buna dəlil olaraq Peyğəmbərə (s) geniş qəlb əta edilməsi vurğulanır.

◘“Şərhi-sədr” dedikdə köksün, qəlbin genişlənməsi, insanın tutumunun artması nəzərdə tutulur. Belə bir insan çətinliklərə sinə gəlir, problemlər qarşısında səbirli olur.

◘Allah həzrət Musanı Peyğəmbərliyə (s) seçdiyi vaxt Musanın ilkin istəyi geniş qəlb oldu.[2] Amma İslam peyğəmbəri (s) belə bir istəklə müraciət edənədək ona geniş qəlb əta olundu.

---

[1] “Məcməul-bəyan”

[2] “Taha”, 25

◘Surədə Peyğəmbərin (s) üzərindəki ağır yükün götürüldüyü bildirilir. Bu yük peyğəmbərlik məsuliyyəti, insanların tövhidə dəvəti, fəsad və şirklə mübarizə idi. Allah-taala Peyğəmbərə (s) geniş köks verməklə onu bu yükdən azad etdi.

◘İnsanın qəm-qüssəsini azaltmaq mümkün deyil. Bu qəm-qüssə yükünü yüngülləşdirmək üçün yalnız onun tutumunun artması zəruridir. Tutumlu insan problemləri asanlıqla ötürür. Geniş köks Allahın xüsusi lütfüdür. Allah doğru yola çəkmək istədiyi şəxsin ruhunu İslam üçün genişləndirir.[1]

◘Psixoloji baxımdan insan öz düşüncəsini problemlərə əsir etməməlidir. Allah vəd edir ki, çətinlikdən sonra asanlıq gəlir. Bu barədə düşünüb rahatlaşmaq lazımdır.

◘Çətinlik yüngüllük üçün bir səbəbdir. Ayədəki "məə" sözü səbəb mənasında işlənə bilər. Yəni hər çətinliyin batinində insan üçün təcrübələr var.

◘İkinci cümlədə "fa" şəkilçisinin işlədilməməsi göstərir ki, bu qayda təkcə Peyğəmbər (s) üçün deyil. Hər bir insan üçün çətinlikdən sonra yüngüllük var.

◘İlahi rəhbərlərin müxtəlif problemlər, o cümlədən müxaliflərin hücumları, işgəncələri, böhtanları və inadkarlıqları qarşısında hər nədən artıq geniş qəlbə ehtiyacları var.

◘Rəvayətlərə əsasən "Zuha" və "Şərh" surələri bir surə sayılır. "Fil" və "Qüreyş" surələri də belədir. Vacib namazlarda Həmddən sonra bu surələr birlikdə oxuna bilər. Bu müddəa risalələrdə də təsdiqlənir. Uyğun müddəanın dəlillərindən biri 1-ci surənin son ayəsinin 2-ci surənin ilk ayəsinə uyğun olmasıdır.

◘Peyğəmbər (s) ona əta olunmuş "şərhi sədr" səbəbindən öz qövmünün əzab-əziyyətləri qarşısında onlara nifrin etmədi. Həzrət onu hər addımda incidənlərə dua edirdi.[2] Peyğəmbər (s) Məkkənin fəthindən sonra ümumi əfv elan etdi. Həzrət Yusif qardaşlarını bağışladığı kimi, həzrət bütün ümməti əfv etdi.

◘Bəli, Peyğəmbərin (s) üzərindən ağır yükün götürülməsi sayəsində insanlar axın-axın İslama üz tuturdular.[3] Müsəlmanlar Bədr, Xəndək və Hüneyn savaşlarında qalib gəldilər. Bəzi münafiqlər və qorxaqlar İslam cəbhəsini tərk etsələr də bu din günbə gün güclənirdi. Əksər hallarda Peyğəmbərin (s) yükü həzrət Əlinin (ə) vasitəsi ilə yüngülləşdirilirdi. Həzrət Əli (ə) Bədr, Xeybər və Ühüd savaşlarında böyük şücaətlər göstərdi. Əlbəttə ki, bəzən bu yük qeybi yardımlar, mələklər, düşmənlərin qəlbinə qorxu salınması vasitəsi ilə yüngülləşirdi.[4]

◘Allah peyğəmbərinin adını ucaldır, onu izzətləndirirdi. Quranda Peyğəmbərə (s) salam-salavat göstərişi verilir.[5] Allah Peyğəmbərin (s) adını öz adı ilə yanaşı çəkir.[6] Allah azanda Peyğəmbərə (s) şəhadəti öz yeganəliyinə şəhadətlə yanaşı qərar vermişdir. Hər namazın təşəhhüdündə həmin şəhadətlər təkrarlanır.

◘Bir qadın həzrət Əliyə (ə) şikayətləndi ki, əri onun ehtiyaclarını ödəmir. Həzrət onun ərini cəzalandırmayıb buyurdu ki, hər çətinlikdən sonra asanlıq var.[7]

### Bildirişlər

[1] "Ənam", 125
[2] "Bihar", c. 11, s. 298
[3] "Nəsr", 2
[4] "Ali-İmran", 151; "Həşr", 2
[5] "Əhzab", 56
[6] "Muhəmməd", 33
[7] "Təfsiri-nurus-səqəleyn"

1. Geniş köks (sileyi-sədr) ağır peyğəmbərlik vəzifələrinin icrası üçün zəmin yaradır.
2. Əqidə məktəbinin gələcəyi üçün nigaran olmayın.
3. Xürafat, cahil adət-ənənələrlə mübarizə aparmaq çox çətindir.
4. Peyğəmbərin (s) işi işi üzücü həddə ağır idi.
5. Cəmiyyətə rəhbərlik üçün yaxşı ad, şəxsiyyətə ehtiyac var.
6. Hər çətinlikdən sonra asanlıq gəlməsi Allahın sünnəsi, qanunudur.

*Səbrlə qələbə qədimdən yaxın,*
*Səbr qaldırası zəfər bayrağın.*

7. İnsan işlərini başa çatdırdıqdan sonra digər məsuliyyətlərin qəbuluna hazır olmalıdır.
8. Təlaşlar ilahi rəngdə olmalıdır.
9. İnsan ixlasla çalışmalı, səy göstərməlidir.
10. Allaha diqqət üçün var qüvvə ilə çalışmaq lazımdır.
11. İlahi yol eşq və rəğbətlə adlanmalıdır.
12. Rəğbət və meyl yalnız Allaha layiqdir.

# “TİN” SURƏSİ

### *(95-Cİ SURƏ; 8 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“TİN” SURƏSİNİN SİMASI*

Bu surə Məkkədə nazil olmuşdur, səkkiz ayədən ibarətdir.

Surənin adı onun ilk ayəsindən götürülmüşdür və “əncir” mənasını bildirir.

Surənin əsas mövzusunu qiyamətdə insanlar üçün nəzərdə tutulmuş mükafat və cəzadır. Surədə insanların gözəl şəkildə yaradıldığı bəyan olunur. Bildirilir ki, onlar pak fitrət və ya bu fitrətdən uzaqlıq səbəbindən iki qismə bölünürlər. Fitrətinə arxa çevirənlər süquta uğrayır. Uyğun fərqlər bir qismin mükafatlandırılması, bir qismin cəzalandırılması ilə başa çatır. İki fərqli qrupa eyni gözlə baxılmaması məntiqi bir işdir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8:***

**﴿وَالتِّينِ وَالزَّيْتُونِ﴾﴿وَطُورِ سِينِينَ﴾﴿وَهَذَا الْبَلَدِ الْأَمِينِ﴾﴿لَقَدْ خَلَقْنَا الْإِنسَانَ فِي أَحْسَنِ تَقْوِيمٍ﴾﴿ثُمَّ رَدَدْنَاهُ أَسْفَلَ سَافِلِينَ﴾﴿إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فَلَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ﴾﴿فَمَا يُكَذِّبُكَ بَعْدُ بِالدِّينِ﴾﴿أَلَيْسَ اللَّهُ بِأَحْكَمِ الْحَاكِمِينَ﴾**

**“And olsun əncir və zeytuna; and olsun Sina dağına; and olsun bu əmin-aman şəhərə; həqiqətən, biz insanı ən üstün biçimdə yaratdıq; sonra onu ən aşağı mərtəbəyə endirdik; yalnız iman gətirib saleh işlər görən kəslər istisnadır, onlar üçün tükənməz və həmişəlik mükafat var; bu halda hansı səbəbdən qiyaməti təkzib edirsən? Allah hökm edənlərin ən üstünü deyilmi?!”**

### Nöqtələr

◘“Turi-sinin” dedikdə Misir və Fələstin arasındakı Sina vadisi nəzərdə tutulur.

◘Bəzi rəvayətlərdə bildirilir ki, əncir və zeytuna and içilərkən bu meyvələrin bitdiyi yer, yəni Mədinə və Beytül-Müqəddəs nəzərdə tutulur.[1]

◘Qidalar və meyvələr arasında insan orqanizminin daha çox ehtiyac duyduğu şəkərli və yağlı meyvələr var.

◘Əmin-aman bir yerə sahiblik İslamın imtiyazlarındandır.

◘Quranda əncir sözü bir, zeytun sözü altı dəfə işlədilmişdir. Hər iki meyvədə müalicəvi təsirlər var. Əncir öz şəkərinə görə bütün yaşlarda olan insanlar üçün faydalıdır. İdmançıları, zəifliyə düçar olanlara, qocalara əncir yemək tövsiyə olunur. Rəvayətlərə əsasən əncir behişt meyvəsidir. Qədim tibdə əncir və bal məcunu mədə yarası üçün, quru əncir düşüncənin güclənməsi üçün faydalı sayılmışdır.

---

[1] “Təfsiri-nurus-səqəleyn”

İmam Riza (ə) buyurur: “Əncir ağız qoxusunu aparır, damaqları və sümükləri möhkəmlədir, saçı artırır, ağrını aradan qaldırır. O dərman kimi təsirlidir. Zeytun bəlğəmi azaldır, çöhrəyə təravət verir, əsəbləri gücləndirir, ağrını və zəifliyi aradan qaldırır, qəzəbi soyudur.”[1]

◘İsanın rəzil bir mərhələyə endirilməsi ilə bağlı təfsirçilərin iki baxışı var. Bu baxışlardan birinə əsasən nəzərdə tutulan qocalıq zəifliyidir.[2] Başqa bir baxışa əsasən uyğun ayədə bəzi insanların pak fitrətdən uzaq düşməsi nəzərdə tutulur. Pak fitrətə arxa çevirəni Allah ən alçaq mərtəbəyə endirər, əzaba düçar edər.

**Bildirişlər**

1. Dünya nemətlərində, hətta qidalarda bir müqəddəslik var. Allah bu nemətlərə and içir.
2. Sağlamlıq qidalanma vasitəsi ilə əldə olunur. Əmin-amanlıq bəşəriyyətin ən mühüm maddi ehtiyacıdır.
3. Vəhyin müqəddəsliyi yerlərə də sirayət edir.
4. Məkkə şəhərinin əmin-amanlığı həzrət İbrahimin duası sayəsindədir.[3]
5. İnsan yaranış baxımından bütün mövcudlardan üstündür.
6. Allah insanın əvvəlinə də, sonuna da hakimdir.
7. İnsan fitrətən pakdır. O həyatın növbəti mərhələlərində süquta uğrayır.
8. Ən üstün yaranmış olan insanın süqutu da ən ağır süqutdur.
9. İman və saleh əməldən uzaqlıq insanı süquta uğradır. İman insanı bütün çirkinliklərdən uzaqlaşdırır.
10. İnsanı yaratmış və onun üzərində hər cür haqqı olan Allah yalnız ədalət əsasında hökm çıxarır. Allah ən üstün hakimdir.

[1] “Bihar”, c. 66, s. 183
[2] “Yasin”, 68
[3] “Bəqərə”, 126

# “ƏLƏQ” SURƏSİ

***(96-CI CÜZ; 19 AYƏ)***

***OTUZUNCU CÜZ***

***“ƏLƏQ” SURƏSİNİN SİMASI***

“Ələq” surəsi 19 ayədən ibarətdir. Bu surə Məkkədə nazil olmuşdur.

Surənin adı onun 2-ci ayəsindən götürülmüşdür. Həmin ayədə insanın ələqdən, yəni laxta qandan yaradıldığı bildirilir.

“Ələq” surəsi Peyğəmbərə (s) ilkin nazil olmuş surələrdəndir. Onun ayələri o qədər həmahəngdir ki, surənin bir dəfəyə nazil olduğu düşünülür.[1]

Bu surə də “Səcdə”, “Fusillət”, “Nəcm” surələri kimi vacib səcdəyə malikdir. Şiələrin əqidəsinə əsasən namazda bu surəni oxumaq olmaz. Heyz və ya cənabət halında bu surəni oxumaq qadağandır.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ﴾﴿خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ﴾﴿اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ﴾﴿الَّذِي عَلَّمَ بِالْقَلَمِ﴾﴿عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ﴾**

**“Oxu yaradan Rəbbinin adı ilə; insanı laxta qandan yaratdı; oxu ki, sənin Rəbbin hamıdan əzizdir; o kəs ki, qələmlə öyrətdi; insana bilmədiyini təlim verdi.”**

**Nöqtələr**

◘Həzrət Peyğəmbər (s) buyurur: “Cəbrail ilk dəfə nazil olanda buyurdu: “Oxu!” Dedim ki, bacarmıram. Məni üç dəfə sıxandan sonra oxuya bildim.”[2]

◘Təfsirdə bildirilir ki, insanın yaranışından söz gedəndə Allah özünü kərim, əziz adlandırır.[3] Amma oxumaqdan və qələmdən danışılanda Allah özünü “əkrəm”, yəni daha kərim kimi təqdim edir.

◘İşə qiraət, elm və qələmlə başlaması İslamın iftixarlarındandır. Allahın öz Peyğəmbərinə (s) ilk əmri elmi bir əmr idi. İlk dəfə Peyğəmbərin (s) qarşısında nizamlı və yazılı bir lövhə açıldı.

◘“İqrə” (“oxu”) əmrində Peyğəmbərə (s) nazil edilənin həm öyrənilməsi, həm də oxunulması vurğulanır.

◘“Ələq sözü bir neçə cür mənalandırılır:

a) Yapışqan; burada həzrət Adəmin yapışqan gildən yaradıldığı və ya iki nütfənin bir-birinə yapışdığı nəzərdə tutulur.

---

[1] “Təfsiri-əl mizan”

[2] “Təfsiri-nümunə”

[3] “İnfitar”, 6, 7

b) “Ələq” sözü “əlaqə” sözündəndir və insanın ictimai ruhiyyədə olmasına işarədir.

c) “Ələq” dedikdə qatı, laxta qan mənası nəzərdə tutulur. Adətən bu məna əsas götürülür.

◘Allah laxta qandan insan yaradır, məktəb görməmiş şəxsə “oxu” əmri verir.

◘Hər bir surəni oxumaq üçün öncə “Bismillah” demək lazımdır.[1]

◘Təhsilə Allahın adı ilə başlamaq lazımdır. Təhsilini başa vuranlar da bu yolda addım atmalıdır.

## Bildirişlər

1. Quran qiraətinə Allahın adı ilə başlamaq lazımdır.
2. İslamın ilk əmri elmi bir əmr idi.
3. İnsan ilahi məqsədlə oxumalıdır.
4. Quran oxumaq təkamül vasitəsidir.
5. Allahın tərbiyəsi həm maddi, həm də mənəvidir.
6. Rəbb elə yaradan varlığın özüdür. Müşriklər isə Allahın yaradan olduğunu qəbul edir, bütləri özlərinə Rəbb sayırdılar.
7. İnsanın laxta qandan yaradılması həm elmi baxımdan yenilikdir, həm də insan üçün tərbiyə vasitəsidir. Laxta qandan yaradıldığını düşünən qürrələnməməlidir.
8. Varlıq aləminin yaranışında insanın yaranışı ayrıca qeyd edilir.
9. İnsanın əsil müəllimi Allahdır.
10. Qələm elmin ötürülməsi ən üstün vasitədir.
11. İlahi vəhy bəşəri elmlərin mənbəsidir.
12. Allahın yaradan, Rəbb, kərim və müəllim olması Quran qiraətini zəruriləşdirir.
13. Allah öz işlərini vasitələrlə yerinə yetirir.
14. Qələmdən istifadə ilə cəhalətdən qurtuluş Allahın kərəm və rübubiyyət cilvələrindəndir. Yazıçılıq bəyənilmiş, İslamda rəğbətlə qarşılanan bir peşədir.
15. Allah insanın həm cismini, həm də ruhunu inkişaf etdirir.

***Ayə 6, 7, 8, 9, 10, 11, 12, 13, 14:***

**﴿كَلَّا إِنَّ الْإِنسَانَ لَيَطْغَى﴾﴿أَن رَّآهُ اسْتَغْنَى﴾﴿إِنَّ إِلَى رَبِّكَ الرُّجْعَى﴾﴿أَرَأَيْتَ الَّذِي يَنْهَى﴾﴿عَبْدًا إِذَا صَلَّى﴾﴿أَرَأَيْتَ إِن كَانَ عَلَى الْهُدَى﴾﴿أَوْ أَمَرَ بِالتَّقْوَى﴾﴿أَرَأَيْتَ إِن كَذَّبَ وَتَوَلَّى﴾﴿أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى﴾**

**“Belə deyil! Şübhəsiz, insan tüğyan qoparır; çünki özünü ehtiyacsız görər; həqiqətən, hamının qayıdışı sənin Rəbbinə doğrudur; qadağa qoyanı gördünmü? O bəndəyə ki, namaz qılırdı; düşündünmü ki, əgər o bəndə doğru yoldadırsa, ya təqvaya çağırırsa (ona qadağa qoyanın cəzası oddur); düşündünmü ki, təkzib edib üz döndərsə (yalnız özünü həlak edir); o bilmirmi ki, Allah görür?!”**

## Nöqtələr

◘”Kəlla” sözü ya keçmişlə bağlı inkarı bildirir, ya da təkid mənasında işlədilmişdir.[1] Birinci mənaya əsasən, insan keçmişi yada salmaqla bəndəlik etmək əvəzinə tüğyan qoparır, başqalarının bəndəliyinə mane olur.

---

[1] “Təfsiri-kəbiri-Fəxr Razi”

◘Əgər insanın tutumu olmasa ya Qarun kimi sərvətinə görə qürrələnər, ya Firon kimi qüdrəti ilə öyünər, ya da Bələm Baura kimi elmi ilə lovğalanar.[2] Tutumu olan insan isə var-dövlət, qüdrət və elminin çoxluğuna baxmayaraq həzrət Yusif və Süleyman kimi hər şeyini Allahdan bilər.[3] Təhlükə ondadır ki, insan Allahı yox, özünü diqqət mərkəzində saxlasın.

◘Azğın insan nə Allaha bəndəlik edir, nə ilahi göstərişləri rəsmi olaraq tanıyır, nə dəlilləri qəbul edir, nə vicdanının, nə də məzlumların səsini dinləyir.

◘Ayələrdə namaz qılan bəndə dedikdə həzrət Peyğəmbər (s) nəzərdə tutulur. Çünki son ayələrdə Peyğəmbərə (s) qadağan edilir ki, həmin şəxsə tabe olsun. Hazırkı ayələr Peyğəmbərə (s) nazil olmuş ilk ayələr olduğundan məlum olur ki, Peyğəmbər (s) risalət məqamına çatmazdan öncə namaz qılırmış.[4]

◘Hədislərdə bildirilir ki, Əbu Cəhl öz tərəfdarlarından soruşdu: "Peyğəmbər (s) sizin aranızda da səcdə edirmi?" Dedilər: "Bəli." Əbu Cəhl dedi: "And içirəm ki, əgər onu bu halda görsəm ayağımla boynunu əzəcəyəm." O Peyğəmbəri (s) namaz halında görüb öz niyətini həyata keçirmək istədi. Peyğəmbərə (s) yaxınlaşdığı vaxt qəfildən itələnirmiş kimi geri çəkildi. Bunu müşriklərə belə izah etdi: "Ona yaxınlaşdığım vaxt öz qarşımda od dolu bir xəndək gördüm."[5]

◘"Əbdən" sözü Peyğəmbərə (s) aid olsa da, həzrətin əzəmətinə xatir qeyri-müəyyən halda işlədilmişdir.

**Bildirişlər**

1. İnsan nankordur. Allah onu yaradıb elm öyrətsə də, azğınlıq edir.
2. İnsan özünü ehtiyacsız bildiyindən həddini aşır.
3. Namaza mane olmaq çirkin əməlin ən aydın nümunəsidir.
4. Peyğəmbəri (s) hətta haqsız sayıb onunla belə rəftar etmək olmaz.
5. İnsan tutumsuzdur. Hətta ehtiyacsızlıq düşüncəsi onu məst edir.
6. Elm təklikdə bəs etmir. Təqvasız elm insanı azdırır.
7. Var-dövlət yaxşıdır. Amma özünü varlı saymaq insanı azdırır.
8. Məada etiqad azğınlığın qarşısını alır.
9. İnsan olanını dünyada qoyub gedir. O özünü ehtiyacsız saymamalıdır.
10. İnsan və varlıq aləmi məqsədli yaradılmışdır, Allaha doğru hərəkətdədir.
11. Azğın başçılar namaza müxalifdir. Pis əməllər davamlı şəkil aldıqda məzəmmət olunur.
12. Namaz bəndəlik nişanəsidir.
13. Zalım hakimlər insanların Allaha bəndəliyindən narahatdır.
14. İnsanın ad və ünvanı yox, əməlləri mühümdür. (Ayədə nə qadağa qoyanın, nə də namaz qılanın adı çəkilir)
15. Yaxşı olar ki, təqvaya çağıran insan özü doğru yolda olsun.
16. Tüğyanın iki kökü var: özünü ehtiyacsız bilmək və Allahı nəzərdən qaçırmaq.

---

[1] "Təfsiri-nümunə"
[2] "Qəsəs", 78; "Zuxruf", 51
[3] "Nəml", 40; "Yusuf", 101; "Təfsiri-novin"
[4] "Təfsiri-əl mizan"
[5] "Təfsiri-məcməul-bəyan"; "Təfsiri-nümunə"

*Ayə 15, 16, 17, 18, 19:*

﴿نَاصِيَةٍ كَاذِبَةٍ خَاطِئَةٍ﴾﴿فَلْيَدْعُ نَادِيَه﴾﴿سَنَدْعُ الزَّبَانِيَةَ﴾﴿كَلَّا لَا تُطِعْهُ وَاسْجُدْ وَاقْتَرِبْ﴾

**“Belə deyil! Əgər pis əməlindən əl çəkməsə, onun kəkilindən yapışarıq; xətakar yalançının kəkilindən! Qoy öz dəstəsini köməyə çağırsın; biz də tezliklə cəhənnəm məmurlarını çağırarıq; əsla ona tabe olma! Səcdə qıl və Ona yaxınlaş!”**

### Nöqtələr

◘“Nəsfəən” sözü feldir. Bu sözün sonunda “nun” hərifi tənvin kimi yazılmışdır. Bu söz “nəsf” kökündən olub tutmaq, sürümək və üzə sillə vurmaq mənasını bildirir. “Nasiyə” dedikdə başın qabaq hissəsindəki tük, kəkil nəzərdə tutulur. İnsanın kəkilindən tutub sürümək onu alçaltmaq mənasındadır.

◘“Ər Rəhman” surəsi nazil olanda Peyğəmbər (s) bu surəni Qüreyşə kimin oxuyacağını soruşdu. Qüreyşin sərtliyinə xatir kimsə dinmədi. Amma zəif bədənli Abdullah ibn Məsud bu təklifi qəbul etdi. O Qüreyş başçılarını Kəbənin yaxınlığında görüb ayələri oxumağa başladı. Əbu Cəhl ona bir sillə vurdu ki, qulağından qan gəldi. Abdullah ağır bir vəziyyətdə Peyğəmbərin (s) yanına döndü. Bu hadisə Peyğəmbəri qəmləndirdi. Bədr savaşında Abdullah ibn Məsud öldürülmüş müşriklərin arasında Əbu Cəhli gördü. Onun sinəsinə çökdü. Əbu Cəhl dedi: “Bilirsənmi harada oturmusan? Peyğəmbərə (s) de ki, hətta bu vəziyyətdə mənim üçün ən qəzəbə gəlmiş adam o özüdür.” Həzrət buyurdu: “Musanın Fironu ömrünün son anlarında iman gətirdi. Amma mənim fironum (Əbu Cəhl) hətta son anda islah olmadı.” İbn Məsud Əbu Cəhlin başını bədənindən ayırıb saçından yapışdı və Peyğəmbərin (s) yanına gətirdi. “Lənəsfəən bin naziyə” ayəsi Əbu Cəhl üçün dünyada kerçəkləşdi.[1]

◘“Nadi” sözü ya ümumi, ya da əyləncə üçün nəzərdə tutulmuş məclis mənasını bildirir.

◘“Zəbinə” sözünün cəm forması olan “zəbaniyə” sözü məmurlar mənasını bildirir.

◘Həzrət Əli (ə) buyurur: “Elmin bəhrəsi Allaha bəndəlikdir.” Hazırkı surənin başlanğıcında oxumaq əmri verildi, sonunda səcdə qılmaq əmr olundu. Bəli, insanı Allaha yaxınlaşdıran elm faydalıdır. İnsanın Allaha yaxınlaşması ilə nəticələnən bütün işlər faydalıdır. Amma yaxınlıq üçün ən üstün əməl səcdədir.

◘Bu kiçik surədə “kəlla” sözü üç dəfə təkrarlanmışdır. Yersiz düşüncələrdən çəkinmək dəfələrlə vurğulanır.

◘İmam Riza (ə) hazırkı surənin son ayəsinə sitinad edərək buyurur: “İnsanın Allaha ən yaxın vəziyyəti səcdə vəziyyətidir.”[2]

### Bildirişlər

1. Tövbə yolu hamının üzünə açıqdır. Tövbə edib əyri yoldan çəkinməyənlər cəzalanasıdır.
2. Sitəmkarları hədələmək zəruridir.
3. Yalan başqa xətalara yol açır.
4. Məxfi məclislər müxaliflərin əməldə hərəkəti üçün dayaqdır.
5. Peyğəmbərlərin (s) müxalifləri mütəşəkkil olsalar da, əllərindən bir iş gəlmirdi.

---

[1] “Təfsiri-nümunə”

[2] “Təfsiri-nurus-səqəleyn”

6. Torpaq atanın cəzası daşdır.
7. Allahın qüdrəti azğınların bütün qurğularını puça çıxarar.
8. Başqalarının qadağaları qarşısında ibadətləri israrla davam etdirin.
9. Öncə zülmə etiraz, sonra ibadət.
10. Allaha yaxınlaşmaq üçün ən üstün vasitə səcdədir.

# “QƏDR” SURƏSİ

### *(97-Cİ SURƏ; 5 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“QƏDR” SURƏSİNİN SİMASI*

Qədr surəsi Məkkədə nazil olmuşdur. Digər Məkkə surələri kimi bu surənin də ayələri qısa və ahəngdardır.

Surənin başlanğıcında Quranın qədr gecəsində nazil olduğu bildirilir. Ayələr qədr gecəsinin əhəmiyyətini və min aydan üstün olduğunu yada salmaqla davam edir və həmin gecə Allahın salamına işarə ilə başa çatır.

Rəvayətlərdə bildirilir ki, surəni oxumağın bir sıra fəzilətləri var. Namazda “Həmd” surəsindən sonra məhz bu surənin məqamçı vurğulanır. Vacib namazda “Qədr” surəsini oxuyana xitab edilər: “Allah sənin keçmişini bağışladı, hər şeyə yenidən başla.”[1]

İmam Riza (ə) buyurur: “Möminlərin qəbir ziyarətində “Qədr” surəsi 7 dəfə oxunarsa, Allah həmin ölüləri və “Qədr” surəsini tilavət edən şəxsi bağışlayar.”[2]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

**﴿إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ﴾**

**“Həqiqətən, biz Quranı qədr gecəsində nazil etdik.”**

**Nöqtələr**

◘Allah-taala varlıq aləmindəki işləri mələklər vasitəsi ilə həyata keçirir. Bu səbəbdən də Quranın bir sıra ayələrində Allaha aid işlər cəmə aid edilir. Necə ki, hazırkı surənin başlanğıcında buyurulur ki, Quranı biz nazil etdik.

◘Təfsirçilərin nəzərincə[3] Quran iki dəfə nazil olmuşdur. Birinci dəfə qədr gecəsi tam şəkildə, ikinci dəfə 23 il müddətində tədricən. Bu səmavi kitabın nazil olması haqqında Quranın da təbirləri iki qisimdir. Bəzi ayələrdə “ənzəlna”, bəzi ayələrdə “nəzzəlna” sözü işlədilmişdir. Birinci halda Quranın bir dəfəyə, ikinci halda tədricən nazil olduğu vurğulanır.

◘Hazırkı surənin 1-ci ayəsini “Bəqərə” surəsinin 185-ci ayəsi ilə yanaşı nəzərdən keçirdikdə məlum olur ki, qədr gecəsi ramazan ayına təsadüf edir. Amma ramzan ayının məhz hansı gecəsinin qədr gecəsi olduğu açıq şəkildə bildirilmir. Rəvayətlərdə də üç gecədən birinin qədr gecəsi olduğu ehtimal edilir. İmam Sadiq (ə) qədr gecəsi ilə bağlı

---

[1] “Vəsailuş-şiə”, c. 6, s. 79

[2] “Təfsiri-Nurus-səqəleyn”

[3] “Təfsiri-əl mizan”

suala belə cavab verir: “Qədr” gecəsini ramazan ayının 19-cu, 21-ci, 23-cü gecələri arasında axtarın.”[1] Sünnə əhli elə düşünür ki, ramazan ayının 27-ci gecəsi qədr gecəsidir.

**Bildirişlər**

1. Qədr gecəsi Allaha təşəkkür gecəsidir. Çünki həmin gecə Allahın ən böyük neməti, Quran nazil olmuşdur.

2. Qab və ona süzülən içki bir-birinə münasib olmalıdır. Ən üstün kitab ən üstün gecədə ən üstün şəxsə nazil olur.

***Ayə 2, 3:***

**﴿وَمَا أَدْرَاكَ مَا لَيْلَةُ الْقَدْرِ﴾﴿لَيْلَةُ الْقَدْرِ خَيْرٌ مِّنْ أَلْفِ شَهْرٍ﴾**

**“Sən nə bilirsən ki, qədr gecəsi nədir? Qədr gecəsi min aydan üstündür.”**

**Nöqtələr**

◘“Qədr” sözü Quranda bir neçə mənada işlədilmişdir:

a) Məqam; Quranda buyurulur ki, Allahın məqamı lazımınca tanınmadı.[2]

b) Müqəddərat, tale; Quranda buyurulur ki, ey Musa, sən təqdir əsasında gəlmisən.[3]

c) Çətinlik və sıxıntı; Ayələrdə buyurulur ki, elə bir şəxs ki ruzisi sıxıntı və çətinlikdədir...[4]

Qədir gecəsi ilə bağlı “qədr” sözü həm məqam, həm də tale mənasında tərcümə edilə bilər.

◘Varlığın hesab-kitabı, qədəri, ölçüsü var.[5] Bəli, nə varsa onun xəzinəsi Allahın yanındadır. Allah yalnız miqdarı təyin edib göndərir. Hətta buludlardan yağan yağışın da hesabı var.[6] Təkcə yağış yox, hər şey ölçü iləd ir.[7] Hətta günəş və ayın həcmi, çəkisi, hərəkət orbiti dəqiq müəyyənləşmişdir.[8]

◘Allah-taala qədr gecəsində növbəti bir ildəki işləri müəyyənləşdirir. Digər bir ayədə buyurulur: “Həmin gecə hər bir mühüm iş müəyyənləşir.[9] Demək, qədr gecəsi təkcə Quranın nazil olduğu gecə deyil. Bu gecəni təkcə Peyğəmbər (s) dövrünə aid etmək olmaz. Hər ramazan ayında qədr gecəsi var. Növbəti ildəki işlər müəyyənləşir, dəqiqləşdirilir.

◘Qədr gecəsini oyaq qalmaq, dua və namaza, Quran tilavətinə məşğul olmaq Peyğəmbər (s) və Əhli-beyt (ə) tərəfindən tövsiyə olunur. Qeyd olunmuş üç gecə arasında 23-cü gecənin qədr gecəsi olma ehtimalı daha çoxdur. Bir şəxs Peyğəmbərə belə ərz edir: “Mənim mənzilim Mədinədən uzaqdadır. Mənə bir gecə de ki həmin gecə şəhərə gələ bilim.” Həzrət (s) buyurur: “23-cü gecə Mədinəyə daxil ol.”[10]

---

[1] “Vəsailuş-şiə”, c. 10, s. 360
[2] “Ənam”, 91
[3] “Taha”, 40
[4] “Təlaq”, 7
[5] “Hicr”, 21
[6] “Muminun”, 18
[7] “Rəd”, 8
[8] “Ər Rəhman”, 5
[9] “Duxan”, 4
[10] “Vəsailuş-şiə”, c. 3, s. 307

İmam Sadiq (ə) xəstələnmişdi. Onun ramazan ayının 23-cü gecəsi məscidə aparmaq istədilər.[1] Xanım Fatimə (s.ə.) həmin gecə uşaqların üzünə su çiləyərdi ki, yatmasınlar.[2]

Rəvayətdə bildirilir ki, həzrət Peyğəmbər (s) ramazan ayının son 10 gününü yatağını yığar və oyaq qalardı.[3]

◘Həzrət Peyğəmbərdən (s) nəql olunmuş müfəssəl bir hədisdə bildirilir ki, həzrət Musa Allaha belə ərz etdi: "Pərvərdigara, Sənə yaxın məqam istəyirəm." Cavab gəldi ki, "Mənə yaxınlıq qədr gecəsini oyaq qalmaqdadır." Musa ərz etdi ki, Səndən mərhəmət istəyirəm. Cavab gəldi ki, "Mənim rəhmətim qədr gecəsi miskinlərə əlı tutmaqdadır. Musa dedi ki, Pərvərdigara, sirat körpüsündən keçmək üçün rüsxət istəyirəm. Cavab gəldi ki, "Qədr gecəsində sədəqə vermək siratdan ötüb keçmək rəmzidir. Musa ərz etdi ki, Səndən behişt və behişt nemətləri istəyirəm. Cavab gəldi ki, "Behişt nemətləri qədr gecəsi təsbih söyləməkdən asılıdır." Musa dedi ki, cəhənnəm odundan qurtulmaq istəyirəm. Cavab gəldi ki, "Cəhənnəm odundan qurtuluş rəmzi qədr gecəsi istğfar etməkdir." Sonda Musa ərz etdi: "Pərvərdigara, Sənin razılığın sorağındayam." Cavab gəldi ki, "Qədr gecəsi namaz qılanlar mənim razılığıma çatar."[4]

◘Maraqlı tarixi hadisələrdən biri həzrət Əlinin (ə) məhz qədr gecəsi ibadət mehrabında namaz halında vurulmasıdır. Bəli, Allahın şərəfli məxluqu şərəfli yerdə, şərəfli zamanda, şərəfli bir halda şəhid oldu.

◘Mənəvi məsələlərdə gecənin bir sıra mənəvi səciyyələri var: Allah həzrət Musaya Tövratı vermək üçün onu gecə vaxtı minacata çağırdı[5]; Quran istiğfar üçün sübh vaxtını daha münasib bilir[6]; Peyğəmbər (s) gecə vaxtı səmaya merac etdi[7]; Peyğəmbərə (s) gecə vaxtı minacat və ibadət tapşırılmışdı[8]; Allah abidlərdən gecə vaxtı sitayiş istəyir[9]; gecə vaxtı təsbih söyləmək sifariş olunur.[10]

Allah-taala Qurani-kərimdə gün doğan vaxta, günortadan sonrakı əsr vaxtına bir dəfə and içdiyi halda, gecənin sonu olan səhər çağına üç dəfə and içir.[11]

◘Qədr gecəsi yer kürəsinin kamil bir gecəsi olaraq 24 saat davam edir. Qədr gecəsi bir məkana aid deyil ki, günün yarı hissəsi qədər uzansın. Məsələn, fitr bayramı günü dedikdə 24 saatdan ibarət yer kürəsini əhatə edən kamil bir gün nəzərdə tutulur. Qədr gecəsi dedikdə məsələn, 8 saatlıq bir gecə nəzərdə tutulsaydı yer kürəsinin bir çox nöqtələrindəki insanlar bu gecənin fəzilətindən məhrum olardılar. Amma bu gecə 24 saat davam edir və hamı ondan bəhrələnmə imkanına malikdir.

◘Bəşər taleyinin müəyyənləşdiyi gecənin Quranın nazil olduğu gecəyə uyğunluğu bu taleyin Qurana bağlılığına işarə ola bilər. İnsan Qurana yaxın olarsa səadətə çatar, Qurandan uzaq düşərsə bədbəxt olar.

◘Əbuzər deyir: "Peyğəmbərə (s) ərz etdim ki, qədr gecəsi peyğəmbərlərin öhdəsinə idimi? Həmin gecə əmr onlaramı nazil olurdu? Onlar dünyadan gedəndən sonra qədr

---

[1] "Bihar", c. 95, s. 169
[2] "Bihar", c. 94, s. 10
[3] "Təfsiri-məcməul-bəyan"
[4] "Vəsailuş-şiə", c. 8, s. 20
[5] "Bəqərə", 51
[6] "Zariyat", 18
[7] "İsra", 1
[8] "Muzəmmil", 2
[9] "Ali-İmran", 113
[10] "İnsan", 26
[11] "Təkvir", 17; "Muddəssir", 33; "Fəcr", 4

gecəsi nazil olanlar kəsildimi? Həzrət mənə belə cavab verdi: “Qədr gecəsi qiyamətədək davam edər.”[1]

◘Qədr gecəsinin müəyyən həddə gizli qalmasının səbəbi bu pıa bilər ki, insanlar müxtəlif gecələrdə ibadətə məşğul olsunlar. Bu halda bir gecə oyaq qalan lovğalana bilmir, bir gecəni ötürən üçün o biri gecələr oyaq qalmaq imkanı yaranır.

◘Rəvayətdə bildirilir ki, qədr gecəsi görülən xeyir iş min il davam edən xeyir işdən üstündür.[2]

### Bildirişlər

1. Müqəddəs işlər üçün müqəddəs vaxtlar seçin.
2. Zamanlar bir-birindən fərqlənir. Onların biri o birindən üstün ola bilər.

*Ayə 4:*

﴿تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ﴾

**“Həmin gecə mələklər və ruh Rəbblərinin izni ilə əmrləri yerinə yetirmək üçün enərlət.”**

### Nöqtələr

◘İmam Sadiqdən (ə) ayədəki “ruh” haqqında soruşuldu. İmam buyurdu: “Cəbrail mələklərdəndir, ruh isə mələklərdən üstündür.” Sonra həzrət hazırkı ayəni tilavət etdi.

◘Mələklərin Peyğəmbərin (s) və məsum imamların qəlbinə nazil olması ilə yerlə göy, mülklə mələkut, təbiətlə qeyb arasında əlaqə yaranar.

◘Ruh meyl və şəhvətlərin mənbəsidir. Güc və hərəkət qaynağı olan ruh həmin insanlara, həm də heyvanlara aiddir. İxtiyar və düşüncə mənbəsi olan ruh insana aiddir. Mütləq əqildən ibarət ruh mələklərin vücud cövhərini təşkil edir. Mələklərdən üstün olan ruh qədr gecəsi onlarla birlikdə yerə nazil olur.

◘Rəvayətlərdə bildirilir ki, imamət məqamını inkar edənlərə qədr surəsini dəlil göstərin.[3] Bu surəyə əsasən mələklər hər il qədr gecəsi yerə nazil olar. Onlar Peyğəmbərin (s) həyatı dövründə onun vücuduna enərdilər. Bəs Peyğəmbərdən (s) sonra kimə nazil oldular? Aydın məsələdir ki, ilahi mələkləri hamı qəbul edə bilməz. Mələyi qəbul edən şəxs Peyğəmbər (s) kimi məsum olmalı və şəriət qarşısında məsuliyyət daşımalıdır. Belə bir şəxs yalnız məsum imam ola bilər. Bizim dövrümüzdə bu şəxs həzrət Mehdidir (ə.c.). Qədr gecəsi mələklər onun hüzuruna enir.

### *Quranda mələklər mövzusu*[4]

Mələklər varlıq aləminin işçiləri, ilahi göstərişləri yerinə yetirən məmurlardır. Quranda mələklərin müxtəlif vəzifələr daşıdığı bildirilir.[5] Bəzi mələklərə hifz etmək vəzifəsi tapşırılmışdır.[1]

---

[1] “Təfsiri-Bürhan”
[2] “Mən la yəhzər”, c. 2, s. 158
[3] “Təfsiri-nurus-səqələyn”
[4] “Nəhcül-bəlağdə” 1-ci və 91-ci xütbələr
[5] ““Naziat”, 1; “Saffat”, 1; “Saffat”, 2; “Mursəlat”, 3; “Mursəlat”, 4; “Naziat”, 5

Bəzi mələklər Allahın övliyaları ilə danışır. Onlar Zəkəriyya ilə ünsiyyətdə olub onu Yəhyə adlı övladla müjdələdilər.[2] Həmin mələklər həzrət Məryəmlə söhbətə qatıldılar.[3]

Bəzən mələklərin mücahidlərə yardımından danışılır. Belə ki, Bədr savaşında Allah müsəlmanlara 3 min mələk göndərməklə yardım etdi.[4]

Bəzi mələklərə əmr olunmuşdur ki, insanların canını alsınlar.[5] Bəzi mələklər ərşdəki işlərə məsuldur.[6]

Daimi ibadət mələklərin imtiyazlarındandır.[7] Mələklərin digər bir vəzifəsi möminlərə dua etmək, bağışlanma diləməkdir.[8] Bəzi mələklər Peyğəmbərə (s) salam-salavat göndərir.[9]

Mələklərin dərəcələri var. Onlar eyni məqamda deyillər.[10] Peyğəmbərlər kimi mələklərin də bəziləri üstün tutulur.[11]

Mələklər eyni gücdə və eyni tutumda deyillər.[12] Onların bəziləri əmr edir, bəziləri əmri yerinə yetirir. Amma hər biri məsum və əmindir.[13]

Mələklərə inanmaq zəruridir.[14] Mələklərin inkarı Allahın inkarı sayılır.[15]

Mələklər Allahın döyüşçüləridir və onların sayını yalnız Allah özü bilir.[16] Bəzən mələklərin sayının göstərilməsi, məsələn cəhənnəm məmurlarının 19 nəfər olması onların güc baxımından zəifliyini göstərmir.[17]

Mələklər mütləq şəkildə Allaha itaətdədir. Onlar verilən əmri yerinə yetirir, heç vaxt itaətsizlik göstərmirlər.[18]

Mələklər yalnız Allahın əmrini yerinə yetirir, Ondan qabağa keçmirlər.[19]

Mələklər agahcasına, təqva ilə itaət edirlər. Onlar seçim aparmır, verilən əmri icra edirlər.[20]

◘İslam peyğəmbəri (s) buyurur: “Bütün mələklər nurdan yaranmışdır.”[21] Allah mələklər sayda heç bir varlıq yaratmamışdır.[22]

◘İmam Sadiq (ə) buyurur: “Mələklər yemək-içməkdən, cinsi yaxınlıqdan uzaqdır.[23]

---

[1] “İnfitar”, 10
[2] “Ali-İmran”, 39
[3] “Ali-İmran”, 42
[4] “Ali-İmran”, 124
[5] “Səcdə”, 11
[6] “Haqqə”, 17
[7] “Səcdə”, 15; “Ənbiya”, 20
[8] “Şura”, 5
[9] “Əhzab”, 56
[10] “Saffat”, 164
[11] “Həcc”, 75
[12] “Fatir”, 2
[13] “Təkvir”, 21
[14] “Bəqərə”, 285
[15] “Nisa”, 136
[16] “Muddəssir”, 31
[17] “Muddəsir”, 30
[18] “Təhrim”, 6
[19] “Ənbiya”, 27
[20] “Nəhl”, 50
[21] “İxtisas”, s. 109
[22] “Təfsiri-Qumi”, c. 2, s. 260
[23] “Bihar”, c. 56, s. 174

**Bildirişlər**

1. Mələklər Allahın izini olmadan bir iş görmürlər.
2. Qədr gecəsi işlər mələklərin nazil olması və iştirakı ilə müəyyənləşir.
3. Qədr gecəsində işlərin müəyyənləşməsi Allahın rübubiyyətindəndir.

***Ayə 5:***

**﴿سَلَامٌ هِيَ حَتَّى مَطْلَعِ الْفَجْرِ﴾**

**"(Həmin gecə) Fəcr tülusunadək (sübh ağartısınadək) salamatlıqdır."**

**Nöqtələr**

◘"Salam" Allahın Quranda bəyan olunmuş adlarındandır.[1]

Hazırkı ayədəki "Salam" sözü Allahın qədr gecəsində öz bəndələrinə xüsusi lütfündən danışır. Bu salam bədbəxtçilik və əzab qapılarını bağlayır. Çünki həmin gecə şeytanın vəsvəsələri təsirsizdir.[2]

◘Qədr gecəsi mələklər yerə nazil olar, ibadət halındakı btün kişi və qadınları salamlayar.[3] Onlar qiyamət günü də salam söyləməklə behişt əhlini qarşılayar.[4]

**Bildirişlər**

1. Qədr gecəsi insanın düşüncə və ruhu üçün salamatlıq gecəsidir.
2. Qədr gecəsi rəhmət gecəsidir və həmin gecə tövbə vasitəsi ilə Allahın lütfünə çatmaq olar.
3. Allah işləri bəşəriyyətin səadəti yönümündə müəyyənləşdirir. Amma insan özü də bunu arzulamalıdır.

---

[1] "Həşr", 23
[2] "Təfsiri-əl mizan"
[3] "Təfsiri-məcməül-bəyan"
[4] "Zumər", 73

# “BƏYYİNƏ” SURƏSİ

### *(98-Cİ SURƏ; 8 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“BƏYYİNƏ” SURƏSİNİN SİMASI*

Bu surə Mədinədə nazil olmuşdur, 8 ayədən ibarətdir.

Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Bəyyinə” dedikdə aydın dəlil mənası nəzərdə tutulur.

Surədə kitab əhli ilə mübahisələrdən danışılır. Namaz və zəkat haqqında bəyanatlar da surənin əsas mövzularındandır. Bu mövzular Məkkədə açıqlansa da Mədinədə rəsmiləşmişdir.

“Bəyyinə” surəsində Peyğəmbərin (s) risalətinin bütün yer üzünə aid olduğu bildirilir. Bu yönümdə aydın dəlillər, bəzilərinin maddi mənafelərə xatir bu həqiqətə arxa çevirdiyi bildirilir.

Həzrət Peyğəmbər (s) buyurur: “İnsanlar bu surədə hansı bərəkətlərin olduğunu bilsəydilər, ailə-övladlarını, var-dövlətlərini qoyub onu öyrənməyə çalışardılar.” Həzrət buyurur ki, yaxın mələklər səmalar və yer yaranan gündən bu surənin tilavətini dayandırmamışlar. Həzrət qeyd edir ki, gecələr bu surəni oxuyan insana mələk ayrılar və həmin mələk insanın dinini və dünyasını hifz edər.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4:***

**﴿لَمْ يَكُنِ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ وَالْمُشْرِكِينَ مُنفَكِّينَ حَتَّى تَأْتِيَهُمُ الْبَيِّنَةُ﴾﴿رَسُولٌ مِّنَ اللَّهِ يَتْلُو صُحُفًا مُّطَهَّرَةً﴾﴿فِيهَا كُتُبٌ قَيِّمَةٌ﴾﴿وَمَا تَفَرَّقَ الَّذِينَ أُوتُوا الْكِتَابَ إِلَّا مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَةُ﴾**

**“Kitab əhlindən və müşriklərdən olan kafirlər onlara aşkar dəlil gələnədək (öz azğın yollarından) əl çəkməzlər; Allah tərəfindən göndərilmiş Peyğəmbərlər onlara kitab oxuyar; onda möhkəm və dəyərli yazılar var; kitab verilmiş kəslər onlara aşkar dəlil gəldikdən sonra parçalandılar.”**

**Nöqtələr**

◘”Bəyyinə” dedikdə aydın dəlil nəzərdə tutulur. Bu dəlil vasitəsi ilə haqq batildən seçilir.

“Qəyyimə” sözü bir başa, möhkəm və dəyərli mənasını bildirir. Başqalarının işinə can yandırıb onların müdafiəsinə qalxan şəxs “qəyyim” adlanır. “Qəyyimə” sözünün sonundakı “ta” hərfi mübaliğə üçündür.

¤İlk ayə iki cür təfsir edilir: birinci təfsirə əsasən, ayədə kitab əhli və müşriklərin vəfasızlığından danışılır. İkinci təfsirə əsasən, ayədə xəbərdarlıq başa çatdırılır, höccət tamamlanır.

Kafirlər iddia edirdilər ki, onlara aydın dəlil gələnədək mövqelərini dəyişməyəcəklər. Amma aydın dəlil gəldikdən sonra da inadkarlıqlarından əl çəkmədilər. Oxşar məzmunla "Bəqərə" surəsinin 89-cu ayəsində rastlaşırıq. Çoxları İslamın zühurundan öncə yeni peyğəmbərin gəlişini gözləyirdilər. Amma Peyğəmbər (s) gəldikdən sonra üz çevirdilər.

¤"Suhuf" sözü "səhifə" sözünün cəm formasıdır. Belə görünür ki, səmavi kitabın hər bir hissəsi ayrıca səhifədir. Tövrat kitab olsa da Quran onu səhifə adlandırır.[1]

### Bildirişlər

1. Aydın dəlil göstərənədək xalqın yola gələcəyini gözləməyək.
2. Xəbərdarlığın başa çatdırılmasında kafirlər müşriklərdən fərqləndirilmir. Allah aşkar dəlillər göndərməklə höccəti tamamlayır.
3. Kitab əhlindən umacaq böyükdür. İlk ayədə kitab əhli və müşriklərdən danışılsa da, növbəti ayələrdə yalnız kitab əhli məzəmmət olunur.
4. Allah peyğəmbər və səmavi kitab vasitəsi ilə höccəti tamamlayır.
5. Quran istənilən növ nöqsan və xətadan uzaqdır.
6. Quranda möhkəmlik gətirən göstərişlər var.
7. Quran həm özü mötədildir, həm cəmiyyətdə mötədillik və möhkəmlik yaradır.
8. Azğın nəfs istəkləri meydan sulayan yerdə elm və bilik faydasızdır. Kitab əhli haqqı anlasa da, nəfs istəkləri səbəbindən yola gəlmirdilər.

### *Ayə 5:*

﴿وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَاء وَيُقِيمُوا الصَّلَاةَ وَيُؤْتُوا الزَّكَاةَ وَذَلِكَ دِينُ الْقَيِّمَةِ﴾

**"Kitab əhlinə yalnız bu əmr olunub ki, dinlərini xalis etdikləri halda Allaha pərəstiş etsinlər, haqqa üz tutsunlar, namazı bərpa etsinlər, zəkat ödəsinlər. Budur möhkəm din."**

### Nöqtələr

¤"Hunəfa" sözü " hənif" sözünün cəm formasıdır. Bu söz haqqa meyl mənasını bildirir. "Cənif" dedikdə isə batilə meyl nəzərdə tutulur.

¤Əgər "zalikə dinul-qəyyimə" cümləsini "Rum" surəsinin 30-cu ayəsi ilə yanaşı qoysaq aydın olar ki, xalis ibadət, Allahla rabitə, imkansızlara yardım insanın fitri tələblərindəndir.

### Bildirişlər

1. Dindən uzaq insanların arzu-istəkləri və üslubları dəyişkəndir. Möhkəm və sabit din xalisliklə Allaha sığınmaqdır.
2. Namaz və zəkatsız iman möhkəm deyil.

---

[1] "Əla", 19

3. Qədim vaxtlardakı inadkarlıqların və təfriqələrin yada salınması Peyğəmbər (s) və onun yaxınları üçün təsəlli səbəbidir.

4. Tövhid və Allaha xalisliklə pərəstiş vəhdət amilidir.

5. Peyğəmbərlər insanları özlərinə yox, Allaha doğru çağırmışlar.

6. Xalislik və bəzək-düzəkdən uzaqlıq əbədiyyət rəmzidir.

7. Tövhid, namaz və zəkat göstərişləri bütün dinlərdə olmuşdur.

***Ayə 6, 7:***

**﴿إِنَّ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ وَالْمُشْرِكِينَ فِي نَارِ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أُوْلَئِكَ هُمْ شَرُّ الْبَرِيَّةِ﴾﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُوْلَئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ﴾**

**“Həqiqətən, kitab əhli və müşriklərdən küfrə uğrayanlar cəhənnəm odundadır. Onlar orada əbədidirlər. Onlardır ən pis məxluq. Şübhəsiz, iman gətirib saleh işlər görənlər ən üstün məxluqdur.”**

**Nöqtələr**

◘”Bəriyyə” sözü ya “bəra” sözündən olub torpaq, ya da “bərəə” sözündən olub yaranmış mənasını bildirir. Birinci mənada bütün torpaqdan yaranmışlar, o cümlədən insan nəzərdə tutulur.

◘Şiə və sünnü rəvayətlərində nəql olunur ki, həzrət Peyğəmbər (s) Əli ibn Əbu Talibə (ə) buyurdu: “Sən və sənin yardımçıların “xəyrül-bəriyyə”siniz.”[1]

◘Digər ayələrdə də oxşar məzmunla rastlaşırıq.[2]

◘İnsanın üstünlük dəlili budur ki, ona peyğəmbər və kitab göndərilir. İnsan həqiqəti anlasa da təkəbbür səbəbindən inadkarlıq göstərir.

**Bildirişlər**

1. İslamı qəbul etməyən şəxs müşrik və ya kitab əhli olmasına baxmayaraq kafirdir.

2. Kitab əhli və müşriklərin aqibəti eynidir.

3. Varlıq aləminin əşrəfi olan insan aşkar dəlilləri ayaq altına almaqla ən rəzil məqama süqut edir.

4. İnsan öz seçimi ilə məqamını müəyyənləşdirir. O ya “şərrul-bəriyyə” ya da “xəyrul-bəriyyə” olur.

5. Küfrlə iman arasında, eləcə də, işlərin sonu ilə bağlı müqayisələr ən yaxşı aydınlaşdırma üsuludur.

6. Başqa varlıqların inkişaf və süqutu məhduddur. Amma insanın inkişafı və süqutu nəhayətsizdir. İnsan xalis iman və saleh əməl sayəsində mələkdən üstün məqam qazana bilər.

7. Üstünlük imandan asılıdır. Ən pis insanlar isə küfrə uğrayanlardır.

8. İman yalnız saleh əməllə müşayiət olunduqda səmərə verir.

***Ayə 8:***

---

[1] “Təfsiri-nümunə”

[2] “Ənfal”, 22

﴿جَزَاؤُهُمْ عِندَ رَبِّهِمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ذَٰلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ﴾

**"Həmin dəstənin öz Rəbbi yanında mükafatı altından çaylar axan əbədi bağlardır. Onlar behiştdə həmişəlikdirlər. Allah onlardan razıdır, onlar da Allahdan. Bu məqam Rəbbindən qorxan kəsə məxsus məqamdır."**

**Nöqtələr**

◘Ötən ayələrdə cəhənnəm əhlinin orada əbədi qalacağı bildirilirdi. Bu ayədə isə behişt əhlinin behiştdə əbədi qalacağı qeyd edilir. Belə bir bəyanat Allahın mərhəmət nişanəsidir.

◘"Xəşiyət" dedikdə əzəmət qarşısında yaşanan qorxu nəzərdə tutulur.

◘Ayədə buyurulur ki, behişt qorxan insanlara məxsusdur. Digər ayədə qeyd olunur ki, yalnız alimlər qorxar.[1] Deməк, behişt alimlərə məxsusdur. Bunu da bilirik ki, behişt əhli olmayan alimlər var. Çünki həqiqəti bildikdən sonra doğru yoldan çıxanlar cəhənnəmdə çoxluq təşkil edir. Eləcə də, cəhənnəm əhli təkcə savadsızlardan təşkil olunmamışdır. Demək, elm dedikdə insanın əldə etdiyi elmi məlumatlar yox, onun qəlbini nurlandıran təbii və ilahi düşüncə nəzərdə tutulur.

**Bildirişlər**

1. Cisim üçün altından çaylar axan bağlar, ruh üçün Allahın razılığı behiştdir.
2. Allah qorxusu ilahi göstərişlərə əməl üçün mühüm amildir.
3. Möminlərin behiştdə əbədi qalacağı şübhəsizdir.

[1] "Fatir", 28

## “ZƏLZƏLƏ” SURƏSİ

***(99-CU SURƏ; 8 AYƏ)***

***OTUZUNCU CÜZ***

### *“ZƏLZƏLƏ” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 8 ayədən ibarətdir. Bəzi təfsirçilər bu surənin Məkkədə nazil olduğunu düşünürlər. Surədəki məad, qiyamət mövzuları onun Məkkə surəsi olması qənaətini yaratsa da, surə nazil olan vaxt Əbu Səid Xidrinin Peyğəmbərə (s) bu surə ilə bağlı sual verməsi onun Mədinə surəsi olduğunu göstərir. Çünki Əbu Səid müsəlmanlara Mədinədə qoşulmuşdur.

Qiyamət surələrinin bəyanı surənin əsas məzmununu təşkil edir. Həzrət Peyğəmbər (s) buyurur: “Bu surəni oxuyan kəs “Bəqərə” surəsini oxumuş kimidir. Həmin şəxs Quranın dörddə birini oxumuş şəxsin savabını qazanır.”[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8:***

**﴿إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا﴾﴿وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا﴾﴿وَقَالَ الْإِنسَانُ مَا لَهَا﴾﴿يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا﴾﴿بِأَنَّ رَبَّكَ أَوْحَى لَهَا﴾﴿يَوْمَئِذٍ يَصْدُرُ النَّاسُ أَشْتَاتًا لِّيُرَوْا أَعْمَالَهُمْ﴾﴿فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ﴾﴿وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ﴾**

**“Yer öz şiddətli titrəyişi ilə lərzəyə gəldiyi zaman; yer öz ağır yüklərini bayıra atacağı zaman; insan deyər: “Yerə nə olub? Həmin gün yer öz xəbərlərini danışar; çünki Rəbbi ona vəhy etmişdir; həmin gün insanlar pərakəndə halda (qəbirlərdən) çıxarlar ki, əməlləri onlara göstərilsin; zərrəcə xeyir iş görən onun xeyrinə çatar; zərrəcə pis iş görən onun zərərinə çatar.”**

### Nöqtələr

◘“Əsqaləha” dedikdə qiyamət günü torpağın bayıra atdığı ölülər nəzərdə tutulur. Digər ayələr də bu mənanı təsdiqləyir.[2]

◘İnsanlar qiyamətdə pərakəndə vəziyyətdə olar.[3] İnsanların pərakəndəliyinin səbəbi ya hərənin öz rəhbərinin yanında olması, ya da yaxşıların pislərdən seçilməsidir.

◘Qiyamət günü Allahın irdəsi ilə cansız cisimlər də dilə gələr. İnsanın bədən üzvləri onun ziddinə şəhadət verər.[4]

---

[1] “Məcməül-bəyan”
[2] “İnşiqaq”, 4
[3] “Qəmər”, 7; “Qariə”, 4
[4] “Fussilət”, 21

◘Rəvayətlərdə bildirilir ki, ayrı-ayrı yerlərdə namaz qılın. Çünki namaz qılınan yer qiyamətdə insan üçün şahiddir.[1]

Rəvayətlərdə tövsiyə olunur ki, müxtəlif yerlərdə azan söyləyin. Çünki azan səsini eşidən hər daş və torpaq qiyamətdə şahiddir.

◘Həzrət Əli (ə) beytul-malı böldükdən sonra iki rəkət namaz qılar və yerə üz tutub deyərdi: ey yer şahid ol ki, mən səni haqq əsasında beytul malla doldurub, haqq əsasında boşaltdım.

◘Rəvayətlərdə bildirilir ki, yer bu şəkildə xəbər verər: "Filankəs filan yerdə filan vaxt mənim üzərimdə filan işi gördü."[2]

◘"Misqal" sözü "səqil" sözündən olub ağır mizan mənasını bildirir. "Zərrə" dedikdə ya ən kiçik qarışqa, ya havaya səpilmiş zərrələr nəzərdə tutulur. Bəli, bu gün atoma da zərrə deyilir. Hər halda ayədə ən kiçik şey nəzərdə tutulmuşdur.

◘Rəvayətdə bildirilir ki, bir ərəb məscidə daxil olub Peyğəmbərə (s) söylədi: "Allahın sənə öyrətdiyindən mənə öyrət!" Həzrət bir şəxsə tapşırdı ki, həmin ərəbə Quran öyrətsin. Müəllim onun üçün "Zəlzələ" surəsini oxudu. Elə ki son ayələrə çatdı, ərəb dedi: "Mənə bəs etdi." Kişi məclisi tərk etdikdən sonra Peyğəmbər (s) onun agah şəxs olduğunu vurğuladı.[3]

◘"Loğman" surəsində həzrət Loğman öz övladına buyurur: "Əgər xardal ağırlıqda xeyir və ya pis iş görsən, bu iş daşın köksündə, səma qatında və ya yerdə olsa da Allah onu qiyamətdə hesaba gətirər."[4]

◘Yerin qiyamətdəki şəhadəti onun insanın əməllərini dərk etdiyini göstərir. Yer həmin gün Allahın əmri ilə dilə gəlir.

◘Cənab ağa Həssan öz divanında "Zilzal" surəsini belə nəzmə çəkmişdir:

*Həmin bu yer bəla dolu bir zaman*
*Silkələnib coşar sanki bir kaman.*
*Çıxarar bayıra içində nə var,*
*İnsan təəccübdən yerində donar.*

*Ölülər qalxarlar bir nəfər kimi,*
*Hər kəs baxıb görər öz əməlini.*
*Zərrə xeyiri olan çatar xeyirə,*
*Zərrə şəri olan yetişər şərə.*

Yerin özünə məxsus titrəyişlə lərzəyə gəlməsi həm zəlzələnin əzəmətini, həm də onun əhatəsini göstərir. "Həcc" surəsinin ilk ayəsində də həmin zəlzələnin əzəmətindən danışılırdı. "Nəhcül bəlağənin" 157-ci xütbəsində deyilir: "Ey Allahın bəndələri! Qorxan bütün əməllərinizin araşdırılacağı, zəlzələlərin artacağı, uşaqların (üzüntü və dəhşətdən) qocalacağı gündən."

**Bildirişlər**

[1] "Təfsiri-məcməul-bəyan"
[2] "Təfsiri-nurus-səqleyn"
[3] "Təfsiri-nümunə"; "Təfsiri-nurus-səqəleyn"
[4] "Loğman", 16

1. Qiyamət astanasında böyük zəlzələlərin baş verəcəyi labüd bir gerçəklikdir.

2. Məad cismanidir. (Qiyamətdə insanların əvvəllər torpağa dəfn olunmuş cismi bayıra çıxarılır)

3. Qiyamət heyrət günüdür.

4. Varlıq aləminin şüuru var.

5. Yer qiyamət şahidlərindəndir.

6. Qiyamətdə istənilən bir inkar üçün yol bağlıdır.

7. İlahi ədalət məhkəməsində bütün insanlar bərabərdir.

8. İnsan əməlləri əsasında mükafatlandırılır və ya cəzalandırılır.

9. Əməl nə qədər kiçik olsa da, hesaba alınır. Bu səbəbdən də nə günahlarınızı, nə də ibadətlərinizi kiçik sayın.

10. Həmin gün əməlləri müşahidə etmək özü bir əzab və ya ləzzətdir.

# “ADİYAT” SURƏSİ

### *(100-CÜ SURƏ; 11 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“ADİYAT” SURƏSİNİN SİMASI*

“Adiyat” surəsinin də “Zilzal” surəsi kimi Məkkədə və ya Mədinədə nazil olduğu mübahisəlidir. Bir çox təfsirçilər onu Məkkə surəsi hesab edirlər. Onların dəlili surələrin kiçikliyi və əsasən məad mövzusunda danışılmasıdır. Amma bəzi rəvayətlərdə bu surənin “Zatus Səlasil” savaşından sonra nazil olduğu bildirilir. Bu isə Mədinəyə təsadüf edir.

“Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Adiyat” dedikdə qaçan atlar mənası anlaşılır. Surədə cihad meydanından, insanın Rəbbinə qarşı nankorluğundan, qiyamət hadisələrindən danışılır.

Həzrət Peyğəmbər (s) buyurur: “Bu surəni oxuyan kəsə müzdəlifədəki hacıların hər biri müqabilində on savab verilər.”

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11:***

**﴿وَالْعَادِيَاتِ ضَبْحًا﴾﴿فَالْمُورِيَاتِ قَدْحًا﴾﴿فَالْمُغِيرَاتِ صُبْحًا﴾﴿فَأَثَرْنَ بِهِ نَقْعًا﴾﴿فَوَسَطْنَ بِهِ جَمْعًا﴾﴿إِنَّ الْإِنسَانَ لِرَبِّهِ لَكَنُودٌ﴾﴿وَإِنَّهُ عَلَى ذَلِكَ لَشَهِيدٌ﴾﴿وَإِنَّهُ لِحُبِّ الْخَيْرِ لَشَدِيدٌ﴾﴿أَفَلَا يَعْلَمُ إِذَا بُعْثِرَ مَا فِي الْقُبُورِ﴾﴿وَحُصِّلَ مَا فِي الصُّدُورِ﴾﴿إِنَّ رَبَّهُم بِهِمْ يَوْمَئِذٍ لَّخَبِيرٌ﴾**

**1. “And olsun nəfəsi sayılan qaçan atlara”; 2. “And olsun (nalları daşlardan) qığılcım qoparan atlara”; 3. “And olsun sübh vaxtı düşmənə hücum edən atlara”; 4. “Toz-duman qaldıran atlara”; 5. “Mərəkə vaxtı düşmənləri yaran atlara”; 6. “Həqiqətən, insan öz Rəbbinə qarşı çox nankordur;” 7. “Şübhəsiz, buna (öz nankorluğuna) şahiddir”; 8. “Həqiqətən, o mal-dövlətə çox bağlıdır”; 9. “İnsan bilmirmi ki, qəbirdə olanlar çıxarılar?” 10. “Sinələrdəki faş olar?” 11. “Həqiqətən, Allah həmin gün onların işindən agahdır.”**

#### Nöqtələr

◘“Ədv” sözü təcavüz mənasını bildirir. Qaçmaq adi hərəkət həddini keçdiyindən qaçış “ədv” adlanır. “Zəbh” dedikdə atın nəfəs səsi mənası anlaşılır. “Qədh” sözü çaxmaq daşından qığılcım çıxması mənasını bildirir. “İğarə” sözündən olan “Əl muğirat” sözü sürətli hücum mənasında işlədilir. “Subha” sözü düşməni yuxuya vermək mənasına işarədir. “İsarə” sözündən olan “əsərnə” sözü yaymaq mənasını bildirir. “Nəq” dedikdə poz, “kənud” dedikdə nankor mənaları nəzərdə tutulur. “Busir” sözü bayıra çıxarmaq, alt-üst etmək mənasında işlədilmişdir. “Hussil” dedikdə içi qabıqdan çıxarmaq, yaxşını pisdən ayırmaq mənaları nəzərdə tutulur.

◘Quran bəzi ayələrdə insanları müəyyən sifətlərinə görə məzəmmət edir. İnsan sitəmkar, həris, ümidsiz, nankor, səbrsiz, xəsis adlandırılır.[1] Digər tərəfdən insan əziz, üstün, gözəl qiyafəli, ilahi ruh sahibi kimi yada salınır.[2] Bəli, insanda iki hərəkət amili var: əql və nəfs istəyi. İlahi yol tutmuş insan bir məqsədə çatır, azğın nəfs yolunu tutmuş insan başqa bir məqsədə.

◘Quranda bildirilir ki, var-dövlətə hərislik axirəti insana unutdurur.

◘Quran dünya malından danışarkən “xəyr” təbirini işlədir. Bununla insana anladılır ki, dünya malı xeyir yolda istifadə olunmalıdır. Xeyir yolda, xeyir niyyətlə, xeyir bir şəkildə!

**Bildirişlər**

1. Cihad və müdafiə dəyərlidir ki, Allah mücahidlərin süvar olduğu atların nəfəsini and içir.
2. Müqəddəs cihad bu yoldakı hər şeyi müqəddəsləşdirir. Hətta atın nəfəsinə and içilir.
3. Müsəlmanlar süvari, cəld olmalıdırlar. (Atın nəfəsinə andda süvariliyə təşviq var.)
4. Atlar Allah yolunda çapır, insan isə itaətsizlik göstərir.
5. Düşmən ilə cihadda cəldlik bir dəyərdir.
6. Düşmənin qəflətindən hücum üçün istifadə edin.
7. Düşməni elə yuxuya verin ki, ayağa qalxmağa fürsət tapmasınlar.
8. Nankorluq və dünya malına məhəbbət insanı düşmən cəbhəsinə keçirər.
9. Şəhidləri, ilahi yardımları unutmayın.
10. Qələbə və əmin-amanlıq insanı qürrələndirir. Ona xəbərdarlıq lazımdır.
11. İnsanın vicdanı agahdır. İnsan bəhanə gətirdiyi vaxtda pis iş gördüyünü anlayır.
12. İslamda sərvət, var-dövlət xeyir adlandırılır.
13. Var-dövlətə bağlılıq fitri bir meyldir. Məzəmmət olunan isə insana halal-haramı ilahi əmrləri unutduran ifrat bağlılıqdır.
14. Qəbirdən danışılması məadın cismani olduğunu göstərir.
15. Qiyamətin yada salınması nankorların və dünyapərəstlərin oyanışı üçün səbəbdir.
16. Qiyamət günü iç sirləri açılar və hesaba çəkilər.
17. Allah bizim düşüncə və əməllərimizdən tam xəbərdardır.
18. Allah insanın dünyadakı işlərindən də agahdır. Amma Onun xəbərdarlığı qiyamət günü üzə çıxır.
19. Allah hər şeydən xəbərdar olduğu üçün dəqiq hesab aparır.
20. İnsan Allahı inkar etdiyi kimi başqalarını inkar edə bilmir. O Allaha qarşı daha çox nankordur.

[1] “Əhzab”, 72; “Məaric”, 19; “İsra”, 83; “İsra”, 67; “Məaric”, 20; “Məaric”, 21
[2] “İsra”, 70; “İsra”, 70; “Tin”, 4; “Hicr”, 29

# “QARİƏ” SURƏSİ

### *(101-Cİ SURƏ; 11 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“QARİƏ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 11 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. Qariə dedikdə qiyamət hadisəsi nəzərdə tutulur. Qiyamət hadisələri, insanların qiyamət səhnəsindəki vəziyyəti, cəhənnəm əzabı surənin əsas mövzularındandır. Surənin fəziləti ilə bağlı imam Baqir (ə) buyurur: “Qariə” surəsini oxuyan kəsi Allah Dəccalın fitnəsindən hifz edər, həmin şəxs Dəccala iman gətirməz. Bu surəni tilavət edən insan qiyamətdə cəhənnəm çirkabından uzaq olar.”[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11:***

**﴿الْقَارِعَةُ﴾﴿مَا الْقَارِعَةُ﴾﴿وَمَا أَدْرَاكَ مَا الْقَارِعَةُ﴾﴿يَوْمَ يَكُونُ النَّاسُ كَالْفَرَاشِ الْمَبْثُوثِ﴾﴿وَتَكُونُ الْجِبَالُ كَالْعِهْنِ الْمَنفُوشِ﴾﴿فَأَمَّا مَن ثَقُلَتْ مَوَازِينُهُ﴾﴿فَهُوَ فِي عِيشَةٍ رَّاضِيَةٍ﴾﴿وَأَمَّا مَنْ خَفَّتْ مَوَازِينُهُ﴾﴿فَأُمُّهُ هَاوِيَةٌ﴾﴿وَمَا أَدْرَاكَ مَا هِيَهْ﴾﴿نَارٌ حَامِيَةٌ﴾**

**1. “Sarsıdıcı hadisə”; 2. “Nədir o sarsıdıcı hadisə?” 3. “Sən nə bilirsən ki, sarsıdıcı hadisə nədir?” 4. “Elə bir gün ki, insanlar kəpənək tək pərən-pərən düşər”; 5. “Dağlar yun kimi didilər”; 6. “Tərəzisi ağır gələn kəs”; 7. “Xoş bir güzaranda olar”; 8. “Tərəzisi yüngül gələn kəs”; 9. “Od ağuşundadır”; 10. “Sən nə bilirsən o nədir?” 11. “Yandırıcı oddur.”**

### Nöqtələr

◘“Qariə” sözü “qərr” sözündən olub, bir şeyin o birinə vurulması mənasını bildirir. Qiyamətin adlarından biri də “Qariə”dir. Çünki qiyamət səhnəsində sarsıdıcı hadisələr baş verir.

◘Rəvayətdə bildirilir ki, həzrət Əli (ə) və onun məsum ovladları qiyamət günü əməllərin ölçü mizanıdır.[2]

◘“Məvazin” (tərəzilər) sözünün cəm formada işlənməsindən belə güman etmək olar ki, insanın ayrı-ayrı əməlləri müxtəlif vasitələrlə ölçülər. Hər işin öz ölçüsü olar.

◘“Məvazin” sözü “mizan” sözünün cəm formasıdır. Mizan ölçü vasitəsi mənasını bildirir. Məlum məsələdir ki, əməl maddi deyil. Ona görə də nəzərdə tutulan tərəzilər adi tərəzi sayılmamalıdır.

◘Bütün insanlar üçün ana ümid yeridir. Amma həmin gün heç bir sığınacaq yoxdur.

---

[1] “Məcməul-bəyan”

[2] “Bihar”, c. 7, s. 252

◘”Haviyə” sözü süqut mənası bildirən “həva” sözündəndir. Cəhənnəm bir çoxları üçün süqut məhəllidir.

◘“Hamiyə” sözü şiddətli hərarət mənası bildirən “həma” sözündəndir.

◘Dağlar hadisələrin şiddətindən parçalanıb yun kimi didilər.

◘Yüngül-ağırlıq təkcə maddi şeylərə aid deyil. Məsələn, mənasız danışığa yüngül danışıq deyirlər. Olsun ki, ayələrdə əməllərin həm keyfiyyət, həm də kəmiyyəti nəzərdə tutulur.

◘Həzrət Əli (ə) buyurur: “Əməlin yüngüllüyü dedikdə onun azlığı, ağırlığı dedikdə çoxluğu nəzərdə tutulur.”[1]

◘Bir şəxs Salmanı “Axı sən kimsən” deyə təhqir etdi. Salman belə cavab verdi: “Mənim və sənin əvvəlimiz nütfə olub, sonumuz leşdir. Bu dünyada belədir. Amma qiyamətdə mizanı ağır gələn əziz tutular, mizanı yüngül gələn alçaldılar.”[2]

◘Bütün insanların həm xeyir, həm də pis işi var. Bütün əməlləri yaxşı və ya pis olan insan tapmaq mümkün deyil. Əsas məsələ odur ki, insanın xeyir işləri daha çox olsun. Yəni Quran təbirincə, tərəzinin yaxşılıq gözü ağır gəlsin. Amma yaxşılıq gözü yüngül gələrsə, son mənzil cəhənnəmdir.

## Bildirişlər

1. Qiyamət təkəbbür ruhiyyəsini sındırır.
2. Qiyamət bizim düşündüyümzdən çox-çox mürəkkəbdir. Hətta peyğəmbərlər də yalnız ilahi vəhydən məlumat alır.
3. Qiyamət günü insanların heyrət və dəhşət günüdür.
4. Behişti bəhanəyə yox, bahasına verirlər.
5. Başdan başa xoşbəxt həyat yalnız qiyamətdə mümkündür. Çünki dünya həyatında ləzzətlərlə yanaşı xəstəlik, yoxsulluq kimi bir çox problemlər var.
6. Həyatdan razılıq behişt cəmiyyətinin xüsusiyyətlərindədir.
7. Mükafat və cəzanın əsas amili əməldir. Əməllər ədalət tərəzisində çəkilər.

[1] “Ehticace-Təbərsi”, c. 1, s. 363
[2] “Təfsiri-nurus-səqəleyn”

# “TƏKASUR” SURƏSİ

### *(102-Cİ SURƏ; 8 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“TƏKASUR” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 8 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Təkasur” dedikdə çoxluq istəyi, çoxluqla öyünmə mənaları anlaşılır. Çoxluqla öyünmə səciyyəsi Qüreyş qəbilələrinə xas idi. Bu səbəbdən də surə Məkkə surəsi sayılır.

Surədə çoxluqla öyünənlər məzəmmət edilir. Belələrinə qiyamət günü xatırladılır. Bildirilir ki, onları qarşıda ağır sorğu günü gözləyir.

Həzrət Peyğəmbər (s) buyurur: “Allah bu surəni oxuyan şəxsi dünyada ona verdiyi nemətlərə görə sorğuya çəkməz. Ona elə bir mükafat verər ki, sanki Qurandan min ayə oxumuşdur.”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8:***

**﴿أَلْهَاكُمُ التَّكَاثُرُ﴾﴿حَتَّى زُرْتُمُ الْمَقَابِرَ﴾﴿كَلَّا سَوْفَ تَعْلَمُونَ﴾﴿ثُمَّ كَلَّا سَوْفَ تَعْلَمُونَ﴾﴿كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ﴾﴿لَتَرَوُنَّ الْجَحِيمَ﴾﴿ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ﴾﴿ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ﴾**

**1. “(Var-dövlət, övladlara görə) Çoxluqla öyünmək sizin başınızı qatdı”; 2. “O vaxta qədər ki, qəbirləri ziyarət etdiniz”; 3. “Belə deyil! Tezliklə başa düşəcəksiniz”; 4. “Yox, belə deyil! Gələcəkdə biləcəksiniz”; 5. “Belə deyil! Əgər (axirətlə bağlı) yəqin bir elminiz olsaydı”; 6. “Hökmən, cəhənnəmi görərdiniz”; 7. “Sonra onu öz gözünüzlə görərdiniz”; 8. “Həmin gün nemətlər haqqında sorğuya çəkilərsiniz.”**

### Nöqtələr

◘“Təkasur” sözü “kəsrət” sözündən olub çoxluq istəyi, çoxluqla öyünmə mənasını bildirir.

### *Çoxluqla lovğalanmaq nümunələri*

- Şirk və çoxallahlılıqda təkasur.[1] Həzrət Yusif zindandakı müşrik yoldaşlarına dedi: “Deyin görüm çoxsaylı ağalar yaxşıdır, yoxsa yeganə qəhr-qəzəb sahibi olan Allah?”

- Qidada təkasur; Bəni-İsrail bir növ qida ilə kifayətlənməyib soğan, sarımsaq, mərcimək və xiyar istəyirdi.[1]

---

[1] “Yusuf”, 29

- Ömürə münasibətdə təkasur; Bəziləri min il yaşamaq arzusundadır.[2]

- Var-dövlətdə təkasur; Quranda buyurulur ki, bəziləri var-dövlət toplayıb onu saymaqla məşğuldur.[3]

- Məskəndə təkasur; Quran bəzilərini məzəmmət edərək buyurur ki, hər dağın ətəyində bir qəsr tikirsiniz.[4]

- Şöhrətdə təkasur; İslam cinsi ehtiyacın ödənməsi üçün evlənmək yolunu müəyyənləşdirmişdir.[5] Başqa yolla şəhvani istəkləri ödəmək azğınlıq sayılır.[6]

◘"Əlhakum" sözü "ləhv" sözündən olub, mənasız işlərlə məşğulluq mənasını bildirir. Bu qəbil işlər insanı uca məqsədlərdən yayındırır.

◘"Zurtum" sözü ziyarət, "məqabir" sözü məqbərələr mənasındadır.

◘İki qəbilə arasında çoxluqla bağlı mübahisə düşdü. Onlar qərara gəldilər ki, öz saylarını müəyyənləşdirsinlər. Onlar diriləri saydıqdan qəbiristanlığa gedib ölüləri saymaq qərarına gəldilər.

◘Həzrət Əli "Nəhcül-bəlağənin" 221-ci xütbəsində hazırkı surəni oxuduqdan sonra müəyyən həqiqətləri açıqlayır. İbn Əbdül Hədid həmin xütbənin şərhində deyir: "50 il müddətində bu xütbəni min dəfədən çox oxudum bu xütbə o qədər dəyərlidir ki, bütün ərəb natiqləri bi yerə yığışıb onu dinləsələr səcdəyə düşərlər. Necə ki Quranın bəzi ayələrində səcdə edilir.[7] Biz həmin xütbədən qısa bir parçasını nəzərinizə çatdırırıq: Atalarının qəbirləri iləmi öyünürlər? Yoxsa öz davamçılarının sayı ilə fəxr edirlər? Ata-babaları cəsəd idilər, çürüyüb getdilər, hərəkətdə idilər donub qaldılar. Həmin cəsədlərdən ibrət götürək yaxşıdır. Yoxsa onlarla öyünmək?!

◘Həzrət Əli (ə) bir hədisdə buyurur ki, 1-ci "sonra biləcəksiniz" qəbr əzabına, 2-ci "sonra biləcəksiniz" axirət əzabına aiddir.[8]

◘Yəqin dedikdə bilməkdən daha dərin mahiyyətə malik qəlb inamı nəzərdə tutulur. Məsələn, hamı bilir ki, ölünün kimsə ilə işi yoxdur. Amma heç kim ölünün yanında yatmaq istəmir. Ölüyuyan isə ölünün kənarında çox rahat dayanır. Çünki o ölünün çarəsizliyinə əmindir. Ölü yuyan şəxs təkrar sayəsində yəqinə çatdığı kimi, insan ilahi göstərişlərə münasibətdə yəqinlik əldə etməlidir.

◘Rəvayətlərə əsasən Allaha təvəkkül, onun qarşısında təslimçilik, ilahi müqəddəratdan razılıq, işləri ona tapşırmaq yəqinlik nişanəsidir.[9]

◘Yəqinin dərəcələri var. Bu surədə yəqinin iki dərəcəsi bəyan olunmuşdur. Onun sonrakı məhrhələləri "Vaqeə" surəsinin 95-ci ayəsində bəyan olunur. Yəqinin aşağıdakı mərhələləri var: elmul-yəqin, həqqul-yəqin və eynul-yəqin. İnsan bəzən uzaqdan tüstünü görüb bilir ki, od var. Belə bir yəqinlik elmul-yəqindir. Bəzən odunu özünü görməklə yəqinlik yaranır. Bu eynul-yəqindir. Bəzən də insan bədəni odda yanmaqla odun varlığını dərk edir. Bu həqqul-yəqindir.

◘Ayələrdə odu görmək dedikdə ya onu qiyamətdə müşahidə etmək, ya da elə bu dünyada bərzəx gözü ilə, ruhani bir halla onu nəzərdən keçirmək nəzərdə tutulur.

---

[1] "Bəqərə", 61
[2] "Bəqərə", 96
[3] "Huməzə", 2
[4] "Şuəra", 128
[5] "Muminun", 6
[6] "Muminun", 7
[7] "Şərhi-ibn Əbül Hədid", c. 11, s. 153
[8] "Təfsiri-kəbiri Fəxr Razi"
[9] "Biharul-ənvar", c. 70, s. 138

◘Hədislərə əsasən qiyamətdə su və çörək nemətləri haqqında soruşulmaz. Bu barədə sorğu Allahın şənində deyil. Nəzərdə tutulan vilayət, məsumların rəhbərlik nemətidir.[1] İmam Riza (ə) buyurur: “İnsanlardan su və çörək haqqında soruşmaq nəinki Allah, hətta insanlar üçün qəbahətdir. Qiyamətdə məsum rəhbərlik neməti haqqında soruşular.”[2]

◘İnsan təkcə cəmiyyətin çoxluğu ilə yox, var-dövlət və övladlarının çoxluğu ilə də öyünür.[3] Bu səbəbdən də Quranda tövsiyə edilir ki, var-dövlət və övladlar başınızı qatmasın.[4]

◘Həzrət Peyğəmbər (s) bu surəni tilavət etdikdən sonra buyurmuşdur: “Qeyri-şəri yolla mal toplamaq, onların vacib ödəncini verməmək, onları sandıqlarda saxlamaq təkasurdur.”[5]

Həzrət Əliyə (ə) məxsus bir şerdə dünyaya ifrat məşğulluq, uzun-uzadı arzulara uymaq, mal-dövləti xəzinədə saxlamaq pislənilir.

## Bildirişlər

1. Çoxluq istəyi və çoxluğa görə öyünmək insanı əbəs işlərə sövq edir.
2. Çoxluqla öyünmək qiyamət hesabına diqqətsizlik amilidir.
3. Çoxluqla öyünmə xasiyyəti hətta ölülərin sayılmasına aparıb çıxarır.
4. Qiyamətdəki durumdan xəbərsizlik insanı azğınlığa sürükləyir.
5. Azğın düşüncə və rəftarlar müqabilində xəbərdarlıqları təkrarlamaq lazımdır.
6. İman və yəqinlik yolu ilə gələcəyi görmək mümkündür.
7. Cəhalət dövründə kəmiyyət o qədər mühüm sayılırdı ki, hətta ölülər hesaba alınırdı.
8. Var-dövlətlə öyünməyin cəzası ağırdır.
9. İşin sonunu düşünmək insanı lovğalıqdan çəkindirir.
10. Yəqinliyə çatmaq, həqiqətləri tanımaq üçün çalışmaq lazımdır. Yalnız bu yolla qiyamət təhlükəsindən amanda qalmaq olar.
11. Dünyaya başı qatışanlar heç vaxt yəqinliyə çatmır.
12. İman və yəqinliyin dərəcələri var.
13. Qiyamətdə hər kəs ona verilən imkanlar əsasında sorğuya çəkilər.

---

[1] “Təfsiri-nurus-səqəleyn”
[2] “Üyunul-əxbar”, c. 2, s. 129
[3] “Hədid”, 20
[4] “Munafiqun”, 9
[5] “Təfsiri-nurus-səqəleyn”

## “ƏSR” SURƏSİ

***(103-CÜ SURƏ; 3 AYƏ)***

***OTUZUNCU CÜZ***

***“ƏSR” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 3 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Əsr” dedikdə öncə “sıxmaq”, sonra günün (günortadan sonrakı) əsr vaxtı, daha sonra zaman kəsiyi nəzərdə tutulur.

Surənin qısa mətnində əsrə and içildikdən sonra insanın daim ziyanda olduğu bildirilir. İnsanlara iman, saleh əməl, bir-birlərini haqqa çağırmaq tövsiyə olunur.

İmam Sadiq (ə) buyurur: “Nafilə namazlarında əsr surəsini oxuyan kəsi Allah qiyamət günü çöhrəsi nurlu, təbəssümlü ... halda ayağa qaldırar.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3:***

**﴿وَالْعَصْرِ﴾﴿إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ﴾﴿إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ﴾**

**“And olsun əsrə; həqiqətən, insan zərərdədir; yalnız iman gətirib saleh işlər görən, bir-birlərini haqqa və səbrə çağıranlar istisnadır.”**

**Nöqtələr**

◘İlkin İslam dövründə müsəlmanlar bir-birləri ilə xudahafizləşərkən bu surəni oxuyardılar.[1]

◘Allah Quranda bütün zaman kəsiklərinə and içir. Fəcr, sübh, gündüz, gecə, nahar, səhər, əsrə and Allahın andlarındandır.[2]

◘İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə bildirilir ki, əsr dedikdə imam Mehdinin (ə. c.) zühur dövrü nəzərdə tutulur.[3]

◘Bəziləri əsr sözünün İslamın zühur əsrini işarə olduğunu bildirir. Bəziləri isə bu sözün lüğət mənasını əsas götürürlər (“sıxmaq”). Çünki sıxıntı insanı qəflət yuxusundan oyadan səbəbdir. Bəziləri də varlıq aləminin cövhərinə, yəni kamil insana bu sözlə işarə edildiyini bildirirlər. Əsr sözünün əsr namazına aid olduğunu deyənlər də var.[4]

◘Maddi zərəri aradan qaldırmaq çətin deyil. Ən böyük zərər mənəvi zərərdir.[5]

---

1 “Təfsiri-nümunə”; “Təfsiri-Dürrül-Mənsur”
2 “Fəcr”, 1; “Təkvir”, 18; “Ləyl”, 2; “Ləyl”, 1; “Zuha”, 1; “Muddəssir”, 33
3 “Təfsiri-nurus-səqəleyn”
4 “Təfsiri-nümunə”
5 “Zumər”, 15

◘Başqalarını haqqa çağıran insan çətinliklərlə üzləşə bilər. O səbrli və dözümlü olmalıdır.

◘Fəxr Razi deyir: "İnsan bu dünyada buz satana bənzəyir. Onun sərmayəsi hər an əlindən çıxa bilər. O əlində olanı satmağa çalışmalıdır. Yoxsa peşiman olasıdır."[1]

◘Haqq və səbrə çağırış saleh əməl sayılsa da, bu iş ayrıca qeyd edilir. Əslində səbr və sabitqədəmlik haqq nümunəsidir. Amma səbrin əhəmiyyətinə xatir bu mövzu ayrıca qeyd edilir.

◘Quran digər bir ayədə Allahın fəzl və rəhmətini insanın zərərdən qorunması üçün növbəti amil sayır.[2] İnsan Allahın lütfü olmadan nə iman, nə də saleh əməl sahibi ola bilər.

### *Dünya bazarı*

Quran ayələrinə xülasə bir baxış belə bir təsəvvür yaradır ki, dünya bazara bənzəyir. Bu bazarda insanlar öz ömürlərini, qüvvələrini, istedadlarını satışa çıxarmışlar. Bu bazarda olanını satmaq məcburidir. Həzrət Əli (ə) buyurur: "İnsanın çəkdiyi nəfəs ölümə doğru bir addımdır."[3] Demək, insan məcburi şəkildə hər an ömür sərmayəsini əldən çıxarır. İnsan bu zərərin qarşısını almaqda acizdir. İstəsək də, istəməsək də gücümüz və vaxtımız azalır. Bu bazarda ən mühümü sərfəli müştəri tapmaqdır. Bir qrup insan müamilə üçün Allahı özünə tərəf seçir. Bütün olanlarını ona təqdim edir. Öz dünyasını behiştə, Allahın razılığına satır. Beləlrəi sonda razı qalır. Çünki onların müştəri varlıq aləminin sahibi olan Allahdır. Digər bir tərəfdən Allah dəyərsiz şeyləri də alır.[4] Allah hər şeyi baha, behişt qiymətinə alır.[5] Allah xeyir iş görmək istəyən, amma bu işi başa vura bilməyənlərin də mükafatını verir.[6] Allah qiyməti bir neçə qat artıq ödəyir.[7] Quranın buyuruğuna əsasən insana 700 qat artığadək ödənir. Bir buğda dəni infaqdan 7 şaxə qalxır, hər şaxədə 100 dən olur.

Amma dünya bazarında ömrünü nəfs istəklərinə və başqalarına satanlar ağır zərərə düşürlər. Quran belələrini müxtəlif təbirlərlə yad edir. Onlar pis ticarətə qatılmışlar[8]; ticarətlərinin faydası yoxdur[9]; onlar zərər etmişlər[10]; onların zərəri aşkardır[11]; onlar zərərə qərq olmuşlar[12].

Nəfs istəyi ilə mümailə yolunu seçənlərin nəzərincə, halal-harama baxmadan özünə rifahlı həyat qurmağı bacaran adamlar zirəkdir. Beləlri şan-şöhrətdən uzaq, vəzifəsiz, yoxsul insanı bədbəxt sayırlar. İslamda isə nəfsi ilə hesab çəkənlər zirək sayılır. Beləlri əbədi bir həyat üçün çalışır. Sabahları bu günlərindən üstündür. Onlar ölümdən qəflətdə deyillər. Hərislik və zülm əvəzinə təqva, qənaət və ədalət sorağınca gedirlər.

---

[1] "Təfsiri-kəbir"
[2] "Bəqərə, 64
[3] "Nəhcül-bəlağə", hikmət 74
[4] "Zilzal", 7
[5] "Ali-İmran", 15
[6] "Nəcm", 39
[7] "Ali-İmran", 130
[8] "Bəqərə", 90
[9] "Bəqərə", 16
[10] "Əraf", 53
[11] "Nisa", 119
[12] "Əsr", 2

◘İmam Hadi (ə) buyurur: “Dünya kimlərinsə xeyir, kimlərinsə zərər gördüyü bazardır.”[1]

## Bildirişlər

1. Bəşər tarixi dəyərə malikdir və Allah bu dövrə and içir. Ondan ibrət götürək.
2. İnsan bütün cəhətlərdən zərərdədir.
3. Peyğəmbərlərin tərbiyəsi altında olmayanlar zərərdədir.
4. Onların zərərdən qorunmaq üçün yeganə yolu iman və saleh əməldir.
5. Təkcə özün haqqında düşünmək bəs etmir. Mömin təkamülü, haqqa doğru hərəkətə çalışmalıdır.
6. Haqqa çağırış qədər səbrə çağırışa ehtiyac var.
7. İman əməldən önəmlidir. Bu səbəbdən insanın özünü islah etməsi cəmiyyəti islah etməsindən öndə gəlir.
8. İman və əməldən, başqalarını haqqa və səbrə çağırışdan uzaq insan böyük ziyandadır.
9. Haqqın bərpasında sabitqədəmliyə ehtiyac var.
10. Bütün insanlar yaxşılığa çağırış və pisliyə qadağa vəzifəsinə əməl etdikdə cəmiyyət islah olur. İnsan həm nəsihət verilməli, həm də nəsihəti qəbul etməlidir.
11. İnsan o zaman zərərdən qurtulur ki, sona çatdıra bilməsə də xeyir işlər sorağınca olsun.
12. İman bir tərəfli yox, əhatəli olmalıdır. Bəzi ayələrə yox, bütün Qurana, bütün dini hökmlərə inanmaq zəruridir.

[1] “Tohəful-uqul”

## “HUMƏZƏ” SURƏSİ

### *(104-CÜ SURƏ; 9 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“HUMƏZƏ” SURƏSİNİN SİMASI*

9 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Huməzə” dedikdə “eyb axtaran” mənası nəzərdə tutulur.

Surədə var-dövləti ilə öyünən, başqalarına istehza edənlər məzəmmət olunur, onlar od əzabı ilə hədələnir.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7, 8, 9:***

**﴿وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ﴾﴿الَّذِي جَمَعَ مَالًا وَعَدَّدَهُ﴾﴿يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَهُ﴾﴿كَلَّا لَيُنبَذَنَّ**
**فِي الْحُطَمَةِ﴾﴿وَمَا أَدْرَاكَ مَا الْحُطَمَةُ﴾﴿نَارُ اللَّهِ الْمُوقَدَةُ﴾﴿الَّتِي تَطَّلِعُ عَلَى الْأَفْئِدَةِ﴾﴿إِنَّهَا**
**عَلَيْهِم مُّؤْصَدَةٌ﴾﴿فِي عَمَدٍ مُّمَدَّدَةٍ﴾**

**1. “Vay halına eyb axtarıb tənə vuranın”; 2. “O kəs ki, mal yığıb daim onu sayar”; 3. “O elə güman edir ki, var-dövləti onu əbədiləşdirib”; 4. “Belə deyil! O hutəməyə atılar”; 5. “Sən nə bilirsən ki, hutəmə nədir?” 6. “O, Allahın şölələnmiş odudur”; 7. “Bir od ki, qəlblərə yol tapar”; 8. “Həmin od onları qapamışdır (qaçmağa yolları yoxdur)”; 9. “Onlar uca sütunlara bağlanmışlar.”**

### Nöqtələr

◘”Huməzə” sözü “həmz” sözündən olub göz, qaş və işarələrlə eyb axtarmaq mənasını bildirir. “Luməzə” sözü dillə eyb axtarılmasına işarədir. Bu sözlərin sonundakı “ta” hərfi mübaliğə üçündür.

◘”Hutəmə” dedikdə əzmək, tam ovmaq mənası anlaşılır. “Musədə” dedikdə isə dağda düzəldilən və qapısı möhkəm bağlanan yarıq nəzərdə tutulur.

◘”Əmədin muməddədə” dedikdə ya əzab əhli üçün nəzərdə tutulmuş uzun mıxlara, ya da uca sütunlar tək yüksələn od şölələrinə işarə olunur.

◘İslamda Allaha diqqətdən sonra var-dövlət soraqlamaq müsbət qəbul olunur.[1] Amma Allahı yada salmaq əvəzinə var-dövlət ardınca qaçmaq tənqid edilir.[2]

◘Eyb axtarmaq və tənə vurmaq istənilən bir şəkildə qadağan və haramdır. Bu işin aşkarda və ya gizlində, dillə və ya işarə ilə, zarafata və ya ciddi, kiçik və ya böyük, sənət və ya təbiətlə bağlı olmasının fərqi yoxdur.

---

[1] “Cumuə”, 10
[2] “Cumuə”, 11

◘Bəziləri malını saymaqdan və bunu gözə soxmaqdan ləzzət alırlar. Onlar düşünürlər ki, bu sərvət həmişə qalacaq. Quran bu baxışı məzəmmət edərək buyurur ki, bu fikirlər insanı cəhənnəmə aparır. Əslində isə var-dövlət və ondan faydalanmaq məzəmmət edilmir.

### Bildirişlər

1. Var-dövlətin bəlalarından biri başqalarının alçaldılmasıdır.
2. Əxlaq da dindəndir. Mömin insan dilini, baxışını cilovlamalıdır.
3. Çalışaq dünyaya aldanmayaq. Dünya malı bizi qürrələndirməsin.
4. İnfaq əvəzinə xəzinə toplamaq fikrində olanlar əzici qiyamət əzabını gözləsinlər.
5. Dil yarası, tənə böyük günahlardandır. Çünki bu günahlar müqabilində əzab vəd edilir.
6. Allahın qaladığı od təkcə cisimləri yox, qəlbləri də əhatə edir.
7. Bəşəriyyət behişt və cəhənnəm həqiqətlərini dərk etməkdə acizdir.
8. Uca alov sütunlar cəhənnəm əhlinə qurtuluş yolu saxlamır.

# “FİL” SURƏSİ

### *(105-Cİ SURƏ; 5 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“FİL” SURƏSİNİN SİMASI*

“Fil” surəsi Məkkədə nazil olmuşdur, 5 ayədən ibarətdir.

Surənin adı onun əsas məzmunundan götürülmüşdür. Surədə zalım Əbrəhənin Məkkəyə qoşun çəkməsindən danışlır. Onların acı aqibəti kafir və müşriklərə ibrət göstərilir.

İmam Sadiq (ə) buyurur: “Vacib namazlarda “Fil” surəsini oxuyan kəs üçün qiyamətdə dağlar, yer və dərələr şəhadət verər və bildirərlər ki, bu şəxs namazqılanlardandır ...”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِأَصْحَابِ الْفِيلِ﴾﴿أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ فِي تَضْلِيلٍ﴾﴿وَأَرْسَلَ عَلَيْهِمْ طَيْرًا أَبَابِيلَ﴾﴿تَرْمِيهِم بِحِجَارَةٍ مِّن سِجِّيلٍ﴾﴿فَجَعَلَهُمْ كَعَصْفٍ مَّأْكُولٍ﴾**

**“Görmədinmi ki, sənin Rəbbin fil səhabələrinə nə etdi? Onların hiyləsini boşa çıxarmadımı? Allah onların üzərinə dəstə-dəstə quşlar göndərdi; bu quşlar onların başına möhkəm gildən daş yağdırdılar; Allah onları xırdalanmış saman halına saldı.”**

### Nöqtələr

◘Xalq arasında “əbabil” dedikdə hansısa quş nəzərdə tutulur. Əslində bu söz dəstə-dəstə mənasını bildirir. “Təyrən əbabil” dedikdə dəstə-dəstə quşların pərakəndə şəkildə axışması nəzərdə tutulur. “Təyrən” sözü quş yox, quş növünü bildirir.

◘Surənin nazil olması ilə bağlı bunları demək olar: Əbrəhə adlı bir padşah Yəməndə mərmərdən məbəd tikmişdi. O xalqa əmr etmişdi ki, bu məbədi ziyarət etsinlər. Bir ərəb bu məbədi təhqir etdi. Əbrəhə intiqam almaq üçün Məkkəyə üz tutub Kəbəni dağıtmaq qərarına gəldi.

Allah-taala dimdiyində daşlar tutmuş quşları Əbrəhə qoşununun üzərinə göndərdi. Quşlar qoşunun başına daş yağıdırdılar. Əbrəhənin qoşunu saman çöpü kimi xırdalanıb məhv oldu. Bu hadisənin baş verdiyi il “Amul-fil” adlanır. İslam Peyğəmbəri həmin il dünyaya göz açmışdır. (Bu hadisə şəmsi 1358-ci ildə İslam Respublikasına hücum etmiş Amerika aviasiyasının Təbəs çölündə tufana düşməsini xatırladır.)

◘Fil əshabı həm alçaldıldı, həm də məhv oldu. Onların heyvan yemi olan samana oxşadılması böyük təhqirdir.

**Bildirişlər**

1. Günahkarlara xəbərdarlıq üçün müşahidə ediləsi nümunələr göstərin. (Fil əshabı o qədər məşhur idi ki, bu mövzuda dəlil göstərməyə ehtiyac yox idi.)

2. Tarixi unutmayın.

3. Kəbə İslamdan öncə də müqəddəs olmuşdur. Müqəddəsliklərin təhqiri müqabilində cəza nəzərdə tutulur.

4. Allahın günahkarlara qəzəbi Onun rübubiyyət cilvələrindəndir.

5. Quşlar Allahın məmurlarıdır, onların şüuru var.

6. Düşmənin planlarından xəbər tutmaq, bu planları pozmaq zəruridir.

7. Düşmən öz hücumunda ən üstün hərbi vasitələrdən istifadə edir. Amma Allah kiçik quşlarla onları məğlubiyyətə uğradır.

8. Allahın düşmənləri nə qədər silahlansalar da acizdirlər.

9. Müqəddəsliklərin təhqiri müqabilində ən ağır cəzalar nəzərdə tutulur. (Öncəki azğın qövmlərin heç biri saman kimi ovulmamışdı.)

10. Möcüzənin həyata keçməsi üçün peyğəmbər və imamın olması zəruri deyil. Allah peyğəmbər və imamsız da möcüzə göstərir.

# “QÜREYŞ” SURƏSİ

### *(106-CI SURƏ; 4 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“QÜREYŞ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 4 ayədən ibarətdir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Qüreyş” surəsində Allahın Qüreyşə verdiyi nemətlər sadalanır, onlar ibadətə çağırılır. “Fil” və “Qüreyş” surələri məzmunca o qədər yaxındır ki, onların ikisini vahid bir surə saymaq olar. Bu səbəbdən də vacib namazlarda bu surələrdən birini oxumaq qərarına gələn şəxs onların hər ikisini oxumalıdır.

Həzrət Peyğəmbər (s) buyurur: “Hər kəs bu surəni oxusa ona Kəbəni təvaf edib, orada eikaf saxlayanların sayından on qat artıq savab verilər.”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4:***

**﴿لِإِيلَافِ قُرَيْشٍ﴾﴿إِيلَافِهِمْ رِحْلَةَ الشِّتَاء وَالصَّيْفِ﴾﴿فَلْيَعْبُدُوا رَبَّ هَذَا الْبَيْتِ﴾﴿الَّذِي أَطْعَمَهُم مِّن جُوعٍ وَآمَنَهُم مِّنْ خَوْفٍ﴾**

**“Qüreyşin dostluğu xatirinə (bu məmləkətdə Fil qoşununu məhv etdik ki, İslamın zühuru üçün müqəddimə olsun); onların qış və yay səfərlərində dostluğu üçün; (bu nemətə şükr olaraq) bu evin Rəbbinə pərəstiş etməlidirlər; o kəs ki, onları ac ikən doyurdu, qorxudan xilas etdi.”**

### Nöqtələr

◘Bəzi təfsirçilər bu surəni əvvəlki surənin davamı sayırlar. Rəvayətlərə istinadən bildirilir ki, bu iki surəni namazda bir-birindən ayırmaq olmaz. Əgər Əbrəhə qalib gəlsəydi, Qüreyş məhv olardı. Qüreyşin həyatı xatirinə Allah Fil əshabını məhv etdi.

◘“Rihlə” dedikdə miniklə yolu ötüb keçmək nəzərdə tutulur. Qüreyş ildə iki dəfə ticarət səfərinə gedirdi. Onlar qışda Yəmənə, yayda Şama səfər edirdilər.

◘Cahiliyyət ənənələrinə əsasən qan tökmək və savaş bir dəyər sayılırdı. Dostluq kəlməsinin təkrarı Allahın Qüreyşə lütf və mərhəmətini göstərir.

◘Ticarət səfərləri idxal və ixraca rövnəq verir, həyatı təravətləndirir, mədəniyyətlər arasında tarazlıq yaradır.

◘Fil əshabı məhv edildikdən sonra insanlar Kəbəyə xüsusi hörmətlə yanaşmağa başladılar.

### Bildirişlər

1. Düşmənlərin məğlubiyyəti sizin üçün birlik amilidir.

2. Cəmiyyətdə təbəqələr arasında dostluq ilahi nemətlərdəndir.

3. Nə qədər ki, cəmiyyətin iqtisadi problemləri, asayişlə bağlı çətinlikləri həll olmayıb onları ibadətə dəvət etmək çətindir.

4. İbadətin fəlsəfələrindən biri də nemət sahibinə şükr etməkdir.

5. Allah Məkkə və Kəbənin işlərini nizamlayır.

6. Cəmiyyətin ehtiyacları və əmin-amanlığı Allaha bəndəlik və ibadət əsasında təmin edilməlidir.

7. Bəşəriyyətin mühüm ehtiyaclarından biri də qidalanmaya olan ehtiyacdır. Allahın bu ehtiyacları təmin etməsi onun lütf və mərhəmətini göstərir.

8. Əmin-amanlığın bərpası və qorxu amillərinin aradan qaldırılması Allahın işdir.

9. Qazanc üçün səfərə çıxmaq İslamda bəyənilir.

# “MAUN” SURƏSİ

### *(107-Cİ SURƏ; 7 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“MAUN” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 7 ayədən ibarətdir.

Surənin adı onun son ayəsindən götürülmüşdür. “Maun” dedikdə zəkat mənası nəzərdə tutulur.

Surədə dini yalan sayan, yetimə diqqətsizlik göstərən şəxs məzəmmət olunur. Namazda qəlbin iştirakı surənin əsas bildirişlərindəndir. Surədə riyakarlıq edənlər qınanır.

İmam Baqir (ə) buyurur: “Vacib və nafilə namazlarında bu surəni oxuyan kəsin namaz və orucu qəbul olar, həmin şəxsin dünuada yol verdiyi nöqsanlar bağışlanılar.”[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6, 7:***

**﴿أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ﴾﴿فَذَلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ﴾﴿وَلَا يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ﴾﴿فَوَيْلٌ لِّلْمُصَلِّينَ﴾﴿الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ﴾﴿الَّذِينَ هُمْ يُرَاؤُونَ﴾﴿وَيَمْنَعُونَ الْمَاعُونَ﴾**

**1. “Qiyaməti inkar edən kəsi gördünmü?” 2. “O həmin şəxsdir ki, yetimi qəzəblə qovar”; 3. “Başqalarını miskinə təam verməyə təşviq etməz”; 4. “Vay olsun o namazqılanlara ki”; 5. “Qıldıqları namazdan qəflətdədirlər”; 6. “O kəslər ki, daim riyakarlıq edərlər”; 7. “İnsanları zəkat verməkdən çəkindirərlər.”**

### Nöqtələr

◘Hazırkı surədə mənfi tiplərin siması tanıtdırılır. Onlar dinə mənfi münasibətdədirlər, yetimə və miskinə biganəlik göstərib onları rədd edirlər, ibadətdə süstdürlər və ixlasları yoxdur, insanlara xidmətdən çəkinirlər.

◘Hazırkı surədə “din” dedikdə qiyamət günü nəzərdə tutulmuşdur.

◘“Dəə” sözü qəzəblə qovmaq, “həzz” sözü başqalarını təviq etmək mənasını bildirir.

◘Surədə din və məadın təkzibi dedikdə dildə yox, qəlbən təkzib nəzərdə tutulur. Çünki surədə namazqılanlra müraciət edilmişdir. Onlar namazlarında riyakardırlar, özlərini göstərirlər, qəflət içindədirlər.

◘“Maun” sözü “mən” sözündəndir və qonşunların bir-birinə itifadə üçün verdiyi şeylərə işarədir. Məsələn xörək qabları.

◘Din bir-birinə bağlı göstərişlər məcmusudur. Namaz yoxsula diqqətdən ayrı deyil.

---

[1] “Məcməul-bəyan”

◘Rəvayətlərdə "sahun" sözünün namazda süstlük, namazın tərki mənasını bildirdiyi qeyd olunur.[1]

◘İlahi şüarların hifzi xatirinə cəmiyyət namazında iştirak etmək riya sayılmır.

◘Hədisdə bildirilir ki, qonşuya hər hansı vasitəni verməkdən çəkinən şəxs qiyamətdə onun lütfündən məhrum olar.[2] Digər bir hədisdə nəql olunur ki, həzrət Peyğəmbərdən (s) aldığı əşyaları sındıran şəxs barədə soruşuldu. Sual olundu ki, belələrinə hər hansı əşyanı verməmək günahdırmı? Həzrət buyurdu: "Bu halda verməmək olar."[3]

◘Hədisdə bildirilir: namaz vaxtına diqqətsizlik göstərən, namazı ilkin vaxtında qılmayan şəxsə vay olsun.[4]

◘İmam Sadiq (ə) buyurur: "Maun" dedikdə qərzül-həsənə (təmənnasız gözəl borc), başqalarına münasibətdə istənilən xeyir iş, ev vasitələrini istifadə üçün qonşuya vermək, o cümlədən zəkat nəzərdə tutulur.[5]

◘İnsanın qəlbi o qədər daşlaşa bilər ki, miskinə, aca nə özü kömək edər, nə də başqalarını bu işə həvəsləndirər.

### *Riyakarlığa bir baxış*

Riyakarlıq və gördüyü işi başqalarına eşitdirmək möminləri hədələyən iki böyük təhlükədir. Bu iki xüsusiyyət nifaq göstəricisidir. Quran münafiqlər haqqında buyurur ki, onlar namazı süstlük və riyakarlıqla qılar, başqalarına həvəssiz əl tutarlar.[6]

Rəvayətlərə əsasən riyakar zahirən gözəl, batində xəstədir. O zahirdə təvazökardır, daxilən günahdan çəkinmir. Münafiq zahirdə qoyun, batində canavardır. O dünyadan axirət üçün bir şey qazanmaq əvəzinə axirətin müqabilində dünyanı əldə edir. Münafiq insan Allahın sirləri örtməsindən sui-istifadə edib günaha yol verir. Həzrət Peyğəmbər (s) buyurur: "Ən ağır əzab o şəxs üçündür ki, insanlar onda xeyir görür, əslində isə onda xeyir yoxdur." Mələklər bəzilərinin əməllərini ərşə qaldıran vaxt xitab olunar ki, onların məqsədi Allah olmayıb, geri qaytarın.

İslamda riya bir şirk növü sayılır. İmam Sadiq (ə) xalq eşitsin və tərifləsin deyə yaxşı iş görənlər haqqında buyurur: "O müşrikdir." Sonra imam "Kəhf" surəsinin 110-cu ayəsini oxuyur.

Riyakarın əlamətlərindən biri budur ki, təriflədikdə həvəslə çalışır, təriflənmədikdə işdən əl çəkir. Qeyd etmək lazımdır ki, bütün bu məzəmmətlər Allahdan qeyriləri üçün çalışana aiddir. Amma Allaha xatir görülən işdən insanlar xəbər tutarsa bunun eybi yoxdur: "Elə bir insan yoxdur ki yaxşı əməllərindən xalqın xəbər tutmasını istəməsin. Amma işə xalqa xatir başlamaq olmaz."[7]

### *İxlas*

[1] "Təfsiri-nurus-səqəleyn"
[2] "Təfsiri-kənzul-dəqaiq"
[3] "Təfsiri-nurus-səqəleyn"
[4] "Təfsiri-nurus-səqəleyn"
[5] "Kafi", c. 3, s. 499
[6] "Nisa", 143; "Tövbə", 54
[7] "Kafi", c. 2, s. 297

Riya və yaxşı işi xalqa eşitdirmə xüsusiyyətlərini ziddi ixlasdır. Allah yalnız xalis insanlardan qəbul edər.[1] Bir insan 40 gün ixlaslı (Allaha xatir səmimi) olarsa hikmət çeşmələri qəlbindən dilinə axar.[2] İnsanın yalnız Allaha xatir sevməsi və nifrət etməsi, bağışlaması və ya bağışlamaması kamil iman nişanəsidir. Xanım Fatimə buyurur: "Hər kəs Allah dərgahına xalis ibadət göndərsə, Allah ona ən xeyirli işi nazil edər.[3]

**Bildirişlər**

1. İman əhlinin əməldə qiyaməti təkzib etməsi sual doğurur.
2. Yetimə biganəlik insanı Allahdan uzaqlaşdırır.
3. Yetimə nəvaziş, aclara və məhrumlara diqqət iman nişanəsidir. Məhrum təbəqəyə diqqətsiz insanın dini yoxdur.
4. Əqidə və əməl arasında sıx rabitə var.
5. Mənəvi ehtiyaclar fiziki ehtiyaclardan önəmlidir. (Yetimə öncə məhəbbət göstərmək, sonra onun qarnını doyurmaq lazımdır.)
6. Hər namaz dəyərli deyil, hər namaz qılan behiştə getməz.
7. Etinasızlıqdan yaranan xəta məzəmmət olunasıdır.
8. Namazda səhvi bağışlamaq olar. Amma namazda səhv onu tərk etmək deyil.
9. Pis iş xarakterə çevrildikdə təhlükəlidir.
10. İxlas namaz və ibadətlərin qəbul şərtidir.
11. Fəqirləri doyurmaq təkcə varlıların işi deyil. Yoxsul təbəqəyə diqqət və başqalarını da bu diqqətə həvəsləndirmək hamının vəzifəsidir.
12. Əgər namaza bəzən diqqətsizlik göstərən haqqında ona vay olsun deyilirsə, namazı tərk edənlərin halı necə olacaq?!
13. İnsanların zəruri ehtiyaclarına diqqətsizliyin cəzası var.
14. Xalqa xidmət namazla yanaşıdır.
15. Namazdan qafillik insanlardan qafillikdir.
16. Aclara etinasızlıq qiyamətə etinasızlıq nişanəsidir.[4]
17. Rəkətlərin sayındakı səhv yox, namaza bir vəzifə kimi diqqətsizlik məzəmmətə layiqdir.
18. Allahdan üz çevirənlər başqalarına riyakarlıqla üz tutur.
19. Xəsislik məadı inkar edənlərin xüsusiyyətidir. Onlar hətta ev əşyalarını qonşuya verməyə qıymırlar.

[1] "Zumər", 3
[2] "Cameular əxbar", s. 94
[3] "Bihar", c. 67, s. 239
[4] "Haqqə, 34

# “KƏVSƏR” SURƏSİ

### *(108-Cİ SURƏ; 3 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“KƏVSƏR” SURƏSİNİN SİMASI*

“Kəvsər” surəsi Məkkədə nazil olmuşdur, 3 ayədən ibarətdir. Bu surə Qurani-kərimin ən kiçik surəsidir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. “Kəvsər” dedikdə çoxlu xeyir mənası nəzərdə tutulur.

Çoxsaylı şiə və sünni rəvayətlərinə əsasən As ibn Vail, Əmr Asın atası Məkkə müşriklərinin böyüklərindən idi. Peyğəmbərin (s) oğlan övladları dünyasını dəyişdikdən sonra həmin şəxs Peyğəmbərə (s) tənə edib, onu “əbtər”, yəni sonsuz adlandırdı.

Allah-taala öz Peyğəmbərinə (s) təsəlli və yersiz itdihamlara cavab üçün “kəvsər” surəsini nazil etdi. Bu surədə Peyğəmbərin (s) nəslinin və düşüncəsinin davamı haqqında xəbər verildi.

Rəvayətlərdə bildirilir ki, vacib və müstəhəb namazlarda bu surəni oxuyan kəs qiyamətdə kövsər hovuzundan sirab edilər.[1]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

*"Rəhman və Rəhim Allahın adı ilə"*

*Ayə 1, 2, 3:*

﴿إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ﴾﴿فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ﴾﴿إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ﴾

**“Həqiqətən, biz sənə bol xeyir əta etdik; Rəbbin üçün namaz qıl, (dəvə) qurban kəs; həqiqətən, sənin düşmənin əbtər, sonsuzdur.”**

**Nöqtələr**

◘Allah tövhidə dəvət edərkən tək şəxs tərəfindən danışır. Məsələn, “Ənbiya” surəsinin 92-ci ayəsində bildirir ki, sizin Rəbbiniz mənəm, mənə itaət edin. “Muminun” surəsinin 52-ci ayəsindən buyurulur ki, sizin Rəbbiniz mənəm, məndən qorxun. “Taha” surəsinin 14-cü ayəsində oxuyuruq: “Həqiqətən, mən yeganə Allaham.” Allah bir işi vasitəsiz həyata keçirdikdə tək şəxs tərəfindən danışır.[2]

Bəzi ayələrdə isə Allahın əzəmətindən, ucalığından danışılır. Bu halda Allah “inna”, yəni “biz” əvəzliyindən istifadə edir. Hazırkı surə də belədir. Allahın ən üstün məxluqa kövsər kimi bir hədiyyə əta etməsi onun əzəmətini göstərir.

Allah bir işi vasitə ilə gördükdə (məsələn yağışın yağması) cəm adından danışır. Məsələn “Muminun” surəsinin 18-ci ayəsində buyurulur: “Biz səmadan su nazil etdik.”

◘Quranın 114-surəsi arasında 4 surə “inna” sözü ilə başlayır: “Fəth”, “Nuh”, “Qədr”, “Kəvsər”. Bu dörd surədən birinin başlanğıcında ilk ülul-əzm peyğəmbər olan Nuhdan,

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Hicr”, 49; “Bəqərə”, 182

həzrət Adəmdən sonra bəşəriyyətin atası sayılan şəxsdən danışılır. Digər üç surənin başlanğıcında Quranın nazil olması, aşkar qələbə, kövsər kimi nemətlər yada salınır. Olsun ki, bu dörd surə arasında müəyyən rabitələr var. İlk peyğəmbərin risaləti, son kitabın nazil olması, İslam məktəbinin qələbəsi və peyğəmbərlik xəttinin davamı əlaqəli mövzulardır.

◘"Kəvsər" sözü "kəsrət" sözündəndir. "Kəvsər" dedikdə bol xeyir mənası nəzərdə tutulur. Əlbəttə ki, bu məna vəhy, risalət, Quran, şəfaət, geniş elm, gözəl əxlaq üçün bir nümunə ola bilər. Amma surənin son ayəsindən aydın olur ki, kövsər dedikdə həzrət Peyğəmbərin (s) mübarək nəsli nəzərdə tutulmuşdur. Çünki kinli düşmən Peyğəmbərə (s) hörmətsizlik göstərərək onu sonsuz adlandırmışdı. Allah bu məqamda Öz Peyğəmbərinin (s) müdafiəsinə qalxır və düşmənin özünü sonsuz adlandırır. Əgər kövsər dedikdə nəsil nəzərdə tutulmasaydı surənin 1-ci və 3-cü ayələrini məntiqi şəkildə əlaqələndirə bilməzdik.

◘"Əbtər" sözü əslində quyruğu kəsik heyvan mənasını bildirir. Amma danışıqda sonsuz insanlar belə adlandırılır. Peyğəmbərin (s) oğlan övladları uşaq yaşında dünyasını dəyişmişdi. Düşmənlər deyirdilər ki, əgər onun oğul övladı yoxdursa sonsuzdur. Ümumiyyətlə, cahiliyyət dövründə qız övlad atanın adını yaşatmağa layiq sayılmırdı. Son ayədən aydın olur ki, kövsər sözü həzrət Peyğəmbərin xanım Fatimə vasitəsi ilə davam edən bərəkətli nəslinə aiddir.

◘Bu nəsil xanım Xədicə vasitəsi ilə Peyğəmbərə (s) nəsib oldu. Bəli, Xədicə böyük var-dövlətini verib kövsər qazandı. Biz də çox şeylərdən keçməsək kövsərə çatmarıq.

◘Fəxr Razi öz təfsirində deyir: "Xanım Fatimənin (s. ə.) nəslindən bərəkətli nəsil varmı?! Baqir (ə), Sadiq (ə), Riza (ə) bu nəsildəndir. Onların çoxu Bəni-Üməyyə və Bəni-Abbas dövründə şəhadətə çatdı. Amma bu gün də onların övladları əksər İslam məmləkətlərində yaşayır.

◘"Kəvsər" surəsi elə bir dövrdə nazil oldu ki, atalar qız övladını bədbəxtlik sayır, onu diri-diri torpağa bastırmaq barədə düşünürdülər. Məhz belə bir dövrdə Quran qız övlada "kəvsər" adı verməklə cahil mədəniyyəti ilahi mədəniyyətlə əvəz edir.

◘Rəvayətlərə əsasən, behişt arxlarından və çeşmələrindən biri kövsər adlanır. Möminlər bu çeşmədən sirab olar. Mütəvatir (mötəbər) "səqəleyn" rəvayətində Peyğəmbər (s) buyurur: "Kitab və itrət (pak nəsil) bir-birindən ayrılmaz. Nəhayət, onlar qiyamətdə hövuz kənarında mənə qovuşar."

◘İlahi kövsər üçün cinsiyyət yoxdur. Fatimə (s. ə.) qız idi. Amma kövsər adlandırıldı. Bu adı almaq üçün çoxluğa ehtiyac yoxdur. Xanım Fatimə (s. ə.) bir nəfər idi. Bəli, Allah azı kövsər qərar verib, çoxu məhv edə bilər.

◘Allah Öz övliyalarının müdafiəsinə qalxır. Peyğəmbəri (s) sonsuz adlandıranlara sözdə və əməldə cavab verilir. Fatimənin (s. ə.) varlığı əməli cavabdırsa, "huvəl əbtər" cümləsi sözdə cavabdır. Allah nəinki övliyalarını, hətta bütün möminləri müdafiə edir.[1]

◘Hədiyyə verən Allah hədiyyəni alan Peyğəmbər (s), hədiyyə isə Fatimədir (s.ə.).

◘Din və müqəddəsliklərə hücum gücləndikcə müdafiə də güclənməlidir. Peyğəmbəri (s) çox təhqir etdilər. Onu sehrbaz, kahin, şair, divanə adlandırdılar. Bütün bu itdihamlara Quranda müəyyən şəkildə cavab verilir. Peyğəmbəri (s) cinvurmuş adlandırdılar. Allah ilahi lütflə onun məcnun olmadığını buyurdu.[2] Peyğəmbəri (s) yalanda itdiham etdilər.

---

[1] "Həcc", 38

[2] "Hicr", 6; "Qələm", 2

Allah onun aşkar peyğəmbər olduğunu vurğuladı.[1] Peyğəmbəri (s) şair adlandırdılar Allah ona şer öyrədilmədiyini buyurdu.[2] Dedilər ki, peyğəmbər çörək yeyib bazara getməz. Allah ondan əvvəlki peyğəmbərlərin də çörək yeyib, bazara getdiyini söylədi.[3]

Həzrəti sonsuz adlandırdılar, Allah onların özünü sonsuz buyurdu.

Bəli, yaranmışların şərəflisini sonsuz sayanların cavabı Peyğəmbərə (s) kövsər əta edilməsidir. Bu kövsər hamını heyrətə gətirir, düşüncələri dondurur.

◘Allah-taala ayədə kövsər nümunəsini qeyd etmir. Olsun ki, bu mübhəmlik kövsərin misilsiz bərəkətinə işarədir. Bu məsələ Peyğəmbərin (s) özünə də müəyyən həddə qaranlıq idi.

◘Surədə iki qeybi xəbər var. Bunlardan biri Peyğəmbərə (s) kövsər əta edilməsi, digəri düşmənlərin sonsuzluğudur.

◘Tarix Peyğəmbərə (s) verilən hədiyyənin kövsər olmasına canlı şahiddir. Bəşər tarixində heç bir nəsil xanım Fatimənin (s. ə.) nəsli kimi inkişaf etməmişdir. Əgər anası seyid olanları da seyid saysaq, seyidlərin sayı dünyada qeyri-adi bir həddə çatar.

Əgər anası seyid olanları da seyid saysaq, seyidlərin sayı dünyada qeyri-adi bir həddə çatar.

◘Peyğəmbərə (s) kövsər əta olunması o zaman məna kəsb edir ki, əta edən kəs elm və hikmət, qüdrət və rəhmət qaynağı olsun. Bəli, kövsər əta edilməsi ilahi sifət və kamilliklərin nişanəsidir.

◘Üç cümlədən ibarət olan bu surədə Peyğəmbərə (s) beş dəfə xitab olunur. Quranda Peyğəmbərə (s) 240 dəfədən çox xitab edilmişdir. Allah bütün bəşəriyyətin, aləmlərin Rəbbi olsa da Peyğəmbərə (s) müraciət edərkən "Sənin Rəbbin" təbirini işlədir. Bu onun Öz Peyğəmbərinə (s) xüsusi lütfünü göstərir.

Bu ilahi lütf Quran boyu müşahidə olunur. Peyğəmbərə (s) "sənin gözlərin", "sənin çöhrən", "sənin dilin", "sənin boynun", "sənin əllərin", "sənin köksün", "sənin qəddin" deyə müraciət olunur.[4]

◘Allah bəzən Peyğəmbərə (s) onun istəyi əsasında lütf edir.[5] Amma kövsər Allahın Peyğəmbərə (s) heç bir istəksiz əta etdiyi nemətdir.

### *Kövsər nədir?*

Surənin son ayəsindən aydın olur ki, kövsər sonsuzluğa zidd bir təbirdir. Ərəblər sonsuz, oğlan övladı olmayanları "əbtər" adlandırırdılar. Həzrət Peyğəmbərin (s) xanım Fatimədən (s. ə.) olan məsum nəsli kövsər üçün üstün bir numunədir. Əlbəttə ki, "kəvsər" sözü ümumi mənaya malikdir. Hər bir böyük xeyir kövsər sayılır.

◘Peyğəmbər (s) Allahdan elm diləmişdi. O böyük əxlaq sahibi idi. Həzrət o qədər ibadət edirdi ki, Quran onu bu məşəqqətdən çəkindirdi.[6] Yer üzündə ən böyük nəsil Peyğəmbərin (s) nəslidir. Allahın vədinə əsasən İslam bütün dünyanı hökmü altına alasıdır.[7] Allah Peyğəmbərin (s) istədiyi həddə onun ümmətini bağışlayasıdır.[1] Bəli, Peyğəmbər (s) bütün baxımlardan kövsər sahibi idi.

---

[1] "Rəd", 43; "Yasin", 3
[2] "Saffat", 36; "Yasin", 69
[3] "Fürqan", 7; "Fürqan", 20
[4] "Bəqərə", 144; "Qiyamət", 16; "Hicr", 88; "İsra", 29; "İsra" 29; "Əraf", 2; "Zuha", 3
[5] "Taha", 114
[6] "Taha", 2
[7] "Tövbə", 33

◘Kövsər dünyaya aid bir şey deyil. O qidadan, ad-sandan məqamdan, dünyəvi cilvələrdən üstündür. Çünki Quran dünyanı kiçik, davamsız adlandırır.[2]

◘Hər çox şey kövsər sayılmaz. Quran var-dövlət və övlad çoxluğunu bəzən əzab vasitəsi kimi təqdim edir.[3]

◘Quranda "Kəvsər" və "Təkasur" adlı surələr var. Kövsər mənasında bol nemət müsbət, təkasur mənasında xəzinə mənfi sayılır. Çünki birinci nemət zikrlə müşayiət olunur, ikinci isə qəflətlə sonuclanan mənfi rəqabətdir.

Kövsər bizi məscidə ibadət üçün aparır. Təkasur bizi qəbristanlığa aparıb ölüləri saydırır. Kövsər əta olunmasında bir müjdə var. Təkasur isə ciddi xəbərdarlıqlarla müşayiət olunur. Kövsər Allahla rabitə amilidir. Təkasur insanın başını ətrafdakılarla qatır.

◘Kövsər Quranın ən kiçik surəsində qeyd olunmuş ən böyük ilahi hədiyyədir.

◘Yeganə məbudun yaranmışların şərəflisinə hədiyyəsi yalnız kövsər ola bilər.

◘Məkkənin fəthi zamanı müşriklər dəstə-dəstə İslama qatılırdılar. Həmin vaxt Allah təsbih göstərişi verir. Amma kövsər müqabilində namaz qılmaq əmr olunur. Belə görünür ki, kövsər müşriklərin İslama gəlişindən daha əhəmiyyətlidir.

◘İstisna sözlərlə istisna bir surədə istisna ətadan danışılır. Bu əta kövsər kimi misilsizdir. Bu surə misilsiz bir surədir. Onun sözləri də misilsizdir. Ondakı bir çox sözlər Quranın başqa surələrindəki sözlərə bənzəmir.

◘Hər dil yarasının öz çəkisi var. Peyğəmbəri (s) divana, şair, kahin, sehrbaz adlandırdılar. Amma heç bir məsələ ilə bağlı müstəqil surə nazil olmadı. Yalnız Peyğəmbər (s) əbtər adlandırıldığı üçün "Kəvsər" surəsi nazil edildi. Peyğəmbərin (s) özünün və ətrafındakıların təhqiri ötürüləsi idi. Amma İslam yolu və məktəbinin təhqiri, bu yolun əbtər sayılması dözüləsi deyildi.

◘Bəzən boş danışıqlar təhqirə aparır. Belə məqamlarda böyüklükə ötüb keçmək lazımdır. Bəzən pis mühit, qeyri-münasib dostlara xatir təhqirə yol verilir. Belələrindən uzaqlaşmaq zəruridir.[4] Bəzən də əqidə məktəbi və rəhbər təhqir edilir. Bu qəbil təhqirlərə qətiyyətlə cavab verilməlidir. Münafiqlər təkəbbürlə Peyğəmbərə iman gətirənləri alçaldırdılar. Bu qəbil təhqirlərin cavabı qarşı tərəfi düşüncəsiz saymaqdır.[5]

◘Quranda həm tövhid mövzusunda, həm qiyamətin müqəddimələri haqqında, həm Həcc hökmləri barədə, həm Qurbanlıqdan danışarkən, həm cəmiyyətə yardımlar qeyd edilərkən dəvənin adı çəkilir.[6] Rəvayətlərə əsasən "vənhər" dedikdə namazda təkbir söylənilməsi, əllərin boğaz bərabərində qaldırılması nəzərdə tutulur. Qeyd edilir ki, bu hal namazın zinətidir. Təkbirdə əllər boğazın kəsim yeri müqabilində qaldırılır.[7]

◘Rəvayətlərə əsasən, Peyğəmbəri (s) təhiqləri müqabilində "əbtər" adlandırılan şəxs Əmr Asın atası olmuşdur.

◘Allah həm səbəb salır, həm səbəbi aradan qaldırır. O təkcə Fatimədən (s. ə.) kövsər yaratmağa qadirdir. Pəhləvan cüssəli oğlanları olan kəsi unutdurmaq Allah üçün çətin

---

[1] "Zuha", 5
[2] "Ali-İmran", 197; "Ənfal", 67
[3] "Tövbə", 55
[4] "Ənam", 68
[5] "Bəqərə", 13
[6] "Ğaşiyə", 17; "Təkvir", 4; "Həcc", 36
[7] "Təfsiri-məcməul-bəyan"

deyil. Allah Musanın əsası ilə dənizi yarmağa, həmin əsa ilə daşdan 12 çeşmə çıxarmağa qadirdir.[1]

## Bildirişlər

1. Allah Öz vədlərinə əməl edir. “Zuha” surəsində Peyğəmbərə (s) bəxşiş vəd olunur.[2] Bu surədə isə həmin vədə əməl edildiyi bildirilir.

2. Övlad və nəsil Allahın hədiyyəsidir.

3. Tabeçilikdə olanlara diqqət və mərhəmət müdiriyyət və rəhbərlik şərtidir.

4. Nemətlər hətta Peyğəmbər (s) üçün məsuliyyət yaradır.

5. Quranda namaz, şükür səcdəsi tövsiyə edilir.

6. Nemət müqabilində dərhal təşəkkür etmək lazımdır.

7. Necə təşəkkür etməyi Allahdan öyrənək.

8. Nemətlər nazil olduqda, şadlıq vaxtı Allahı yaddan çıxarmayaq.

9. Kövsər müqabilində yalnız namaz təşəkkür sayıla bilər. Namaz ibadətlərin ən kamilidir. Bu ibadətdə həm qəlb, həm dil, həm də əzalar iştirak edir. Başa və ayaqlara çəkilən məsh insanın başdan ayağadək bəndə işarə olmasına işarədir. Namazda insan vücudunun ən yuxarı nöqtəsi olan alın gün uzunu 34 dəfə yerə qoyulur. Bu səcdələr təkəbbürün qarşısını almaq üçündür. Xanım Fatimə (s. ə.) öz məşhur xütbəsində buyurur: “Namazın fəlsəfə və dəlili ruhun təkəbbürdən paklanmasıdır.”

10. Dini göstərişlər ağıl və fitrətə uyğundur. Nemətlər müqabilində təşəkkür ağılın əmridir. Din də belə bir əmr verir.

11. Nemətləri Allah əta etdiyindən onun qarşısında təşəkkür edilməlidir.

12. Qurban kəsmək ilahi nemətlər müqabilində təşəkkür növüdür. (Qurbanlıqda məhrumlar da bəhrələnir)

13. Damı böyük olanın qarı da çoxdur. Kövsəri olan üçün qurbanlıq qoyun bəs etmir, ən böyük əhilləşmiş heyvan olan dəvə kəsilməlidir.

14. Allahla rabitə insanlarla rabitədən öndə gəlir.

15. Yalnız iman və ibadətlə müşayiət olunan infaq dəyərlidir.

16. Allahın nemətləri qarşısında şükür üçün insanlara əta etmək lazımdır.

17. Yalnız xalisanə, Allah üçün qılınan namaz dəyərlidir. Səxavətlə edilmiş infaqlar yüksək dəyərə malikdir.

18. Peyğəmbərin (s) düşmənləri və onların məktəbi uğursuzluğa məhkumdur.

19. Müqəddəsliklərin təhqirinin ağır cəzası var.

20. Hədə-qorxulardan və təhqirlərdən çəkinməyək. Allah öz tərəfdarlarını hifz edir.

21. Tələsik qərar çıxarmayaq. Təkcə rəqəmlərə və hesablara istinad etməyək Hər şey Allahın iradəsində asılıdır. Peyğəmbərin (s) oğlu dünyasını dəyişəndə cüssəli oğlanları olan düşmənlər onu sonsuz saydılar. Amma hər şey əksinə oldu.

---

[1] “Şüəra”, 63; “Bəqərə”, 60

[2] “Zuha”, 5

# “KAFİRUN” SURƏSİ

### *(109-CU SURƏ; 6 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“KAFİRUN” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 6 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. Surədə kafirlərə müraciət edilir. Surə nazil olan vaxt kafirlər əksəriyyət təşkil edirdilər. Peyğəmbər (s) onlar tərəfindən şiddətli sıxıntılara məruz qalırdı. Kafirlər hər vəchlə Peyğəmbəri (s) sazişə gətirmək istəyirdilər. Amma ayələr bunun əksini buyurdu.

Rəvayətlərə əsasən, “Kafirun” surəsini oxuyan kəs Quranın dörddə birini oxumuş kimidir. Azğın şeytanlar ondan uzaqlaşar, həmin şəxs şirkdən paklanar.

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6:***

**﴿قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ﴾﴿لَا أَعْبُدُ مَا تَعْبُدُونَ﴾﴿وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ﴾﴿وَلَا أَنَا عَابِدٌ مَّا عَبَدتُّمْ﴾﴿وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ﴾﴿لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ﴾**

**“De ki, ey kafirlər! Mən sizin pərəstiş etdiklərinizə pərəstiş etmərəm; siz də mənim pərəstiş etdiyimə pərəstiş etməzsiniz; nə mən sizin ibadət etdiklərinizə ibadət edənəm; nə də siz mənim ibadət etdiyimə ibadət edənsiniz; sizin ayininiz özünüz üçün, mənim ayinim özüm üçün.”**

### Nöqtələr

◘Surənin nazil olma şəni ilə bağlı bildirilir ki, Qüreyş başçılarından bəziləri Peyğəmbərə (s) dedilər: “Ey Məhəmməd (s), sən bir il bizim ayinlərə tabe ol, biz də növbəti il sənin ayinlərinə tabe olaq. Sonra hansı yaxşıdır onu seçək.” Amma Peyğəmbər (s) bu təklifi qəbul etmədi. Onlar dedilər: “Heç olmaya bizim məbudlarımıza toxun, onlardan bərəkət istə. Biz də sənin Allahına pərəstiş edək.” Həmin vaxt hazırkı surə nazil oldu.

◘“Qul” əmri kafirlərin Peyğəmbərə (s) münasibətdə kinini bir qədər azaldır. Bu söz onlara anladır ki, qarşılarında Peyğəmbər (s) yox Allah dayanıb.

◘Bəzən müxalifləri özbaşına buraxmaq lazımdır. “Qəsəs” surəsinin 55-ci ayəsində də uyğun məna təsdiqlənir. Əslində belə bir müraciət qarşı tərəflə razılaşmaq yox, onlar üçün xəbərdarlıqdır.

◘Bəzən Quranda təkrarlar təkid mənasını daşıyır.[1] Bu surədə də təkrarlarda məqsəd təkid ola bilər. Belə ki, uyğun təkrarlar nəticəsində müşriklər müsəlmanların təslim

[1] “Təkasur”, 3, 4; “Muddəssir”, 19, 20

olacaqlarından ümidlərini üzsünlər. Uyğun təkrarlar müsəlmanlara təlqin də ola bilər. Onlar bu sözlərdən sonra öz mövqelərini möhkəmlətməlidirlər.

◘Kafirlərdən bir qisminin iman gətirməməsi Quranda dəfələrlə vurğulanır. “Bəqərə” surəsinin 6-cı, “Yasin” surəsinin 7-ci ayəsi də bu qəbildəndir.

**Bildirişlər**

1. Həzrət Peyğəmbər (s) vəhy əmanətçisi idi. O yalnız nazil edilənləri dilə gətirirdi.
2. Müsəlmanlar qeyri-məntiqi təkliflərə qətiyyətlə cavab verməli, düşmənlərin ümidini üzməlidirlər.
3. Vəhdət adı altında dini prinsiplərdən geri çəkilmək olmaz.
4. Küfr dünyası müsəlmanların təslim olacağına ümid etməməlidir.
5. Kafirlərin rədd edilməsi ardıcıl və aşkar olmalıdır.
6. Dinlə müamilə etməyin. Düşmənlə sazişə girməyin. Onların yersiz təkrarlanan təkliflərinə qəttiyətlə cavab verin.
7. Başqalarını cəzb etmək xatirinə hansı işə gəldi əl atmayın.
8. Quran qeybdən xəbər verir. Həmin təklifi verənlərdən biri də İslamı qəbul etməyə razı olmadı.
9. Möhkəmlik və qətiyyət rəhbərlik şərtidir.
10. Allaha ibadət və bəndəlik mömini kafirdən fərqləndirən meyardır. İmanlı olduğunu iddia edib namaz qılmayanların sözləri şübhəlidir.
11. İnsan din seçimində azaddır.
12. Sıralar bir-birindən ayrılmalıdır. Haqq batildən, kefr imandan seçilməlidir.
13. Hər bir şəxsin məbudu onun dinindən danışır.

## “NƏSR” SURƏSİ

### *(110-CU SURƏ; 3 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“NƏSR” SURƏSİNİN SİMASI*

Bu surə Mədinədə nazil olmuşdur, 3 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. “Nəsr” sözü ”kömək” mənasını bildirir.

Surədə böyük qələbə müjdəsi verilir. Bu qələbənin şükrü olaraq Peyğəmbər (s) təsbih, həmd, istiğfara dəvət edilir.

Həzrət Peyğəmbər (s) buyurur: “Bu surəni oxuyan kəs Allahın Rəsulu (s) ilə Məkkənin fəthində iştirak etmiş kimidir.”

İmam Sadiq (ə) buyurur: “Vacib və ya nafilə namazlarında bu surəni oxuyan şəxsi Allah bütün düşmənlərinə qalib edər.”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3:***

**﴿إِذَا جَاء نَصْرُ اللَّهِ وَالْفَتْحُ﴾﴿وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا﴾﴿فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا﴾**

**“Allahın yardımı və qələbə vaxtı; insanları dəstə-dəstə Allahın dininə daxil olan görərsən; Rəbbinə şükür olaraq Ona təsbih və həmd deməli, istiğfar etməlisən. O tövbələri qəbul edəndir.”**

### Nöqtələr

◘Bütün təfsirçilər bu surənin Məkkənin fəthi zamanı, hicrətin 8-ci ili nazil olduğunu bildirirlər. Həmin vaxt insanların çoxu İslamı qəbul etdilər. Bəziləri qorxudan İslama qatılırdılar. Həzrət Əli (ə) Əbu Süfyan haqqında buyurur: “Onlar zahirdə müsəlmanlar oldular, qəlblərində isə kafir qaldılar.”[1] Quranda iki cür daxil olmadan danışılır. İnsanların dinə daxil olması və imamının qəlblərə daxil olması. “Hucurat” surəsinin 14-cü ayəsində buyurulur: “Hələ ki din qəlblərinizə daxil olmayıb.”

◘Hədisdə oxuyuruq: İmam Mehdi (ə. c.) zühur edəcəyi vaxt dünya əhli dəstə-dəstə ona iman gətirər.[2]

◘Quran Allahın təsbihini təkbirdən daha çox tapşırır. Təsbih sözü Quranda təkbir və təmcid sözündən çox işlədilmişdir.

◘Hədisdə oxuyuruq: Məkkənin fəthi zamanı həzrət Peyğəmbər (s) öncə Məscidül-Hərama daxil olub namaz qıldı.[3]

---

[1] “Biharul-ənvar”, c. 32, s. 325
[2] “Təfsiri-nurus-səqəleyn”
[3] “Təfsiri-kənzul-dəqaiq”

◘Allahın yardımı insanların dinə yardımı ilə müşayiət olunur.[1]

◘“Təvvab” sözü Quranda 11 dəfə işlədilmişdir. Bunlardan 9-u rəhmət sözü ilə, 1-i hikmət sözü ilə yanaşıdır.[2] Bu surədə isə uyğun söz bir dəfə mütləq şəkildə işlədilmişdir.

◘Həzrət Peyğəmbər (s) Məkkənin fəthindən sonra ümumi əfv elan etdi. Məkkə qan tökülmədən fəth olundu. Hətta Peyğəmbər (s) Səd ibn İbadənin intiqam şüarı dediyini görüb bayrağı ondan aldı və həzrət Əliyə (ə) verdi. Sonra belə tapşırdı: “Şüarı dəyiş. De ki, bu gün intiqam yox mərhəmət günüdür.”

◘Həqiqi qələbə və yardım Allah tərəfindəndir. Bəşəri vasitələrə və qüvvələrə arxalanmayın. Bütün dünyəvi imkanlar olduğu halda məğlubiyyətə uğramaq mümkündür.[3]

◘Məkkənin fəthində bütpərəstlərin ümidi ümidsizliyə, şirk mərkəzi tövhid mərkəzinə çevrildi. Möminlərin qarşısındakı maneələr aradan qaldırıldı, İslam təsdiqləndi. Artıq onun digər ölkələrə yayılması üçün şərait yarandı.

◘İstiğfar, tövbə əmri ya daha çox qəlbin nuraniyyəti, ya qələbə qürurunu aradan aparmaq ya da Peyğəmbərin (s) Allaha yüksək mərifəti üçün idi.

### *Məkkənin fəthi hadisəsinə bir baxış*

Hüdəybiyyə sülhündən sonra müşriklər sülh müqaviləsini pozduqlarından Peyğəmbər (s) qüvvə toplayıb Məkkəni fəth etdi. Müsəlmanlar Məkkənin bir neçə kilometrliyində düşərgə saldılar. Əbu Süfyan vəziyyəti öyrənmək üçün şəhərdən çıxdı. O Peyğəmbərin (s) əmisi ilə görüşdü. Peyğəmbərin (s) əmisi Abbas dedi: “Peyğəmbər 10 min döyüşçü ilə sizin sorağınıza gəlib.” Əbu Süfyan qorxdu və Abbasdan kömək istədi. Peyğəmbər (s) Abbasın xahişini qəbul etdi. O buyurdu: “Hər kəs məscidül-hərama sığınsa, Əbu Süfyanın evinə və ya öz evinə daxil olsa amandadır.”

Həzrət Peyğəmbər (s) əmisi Abbasa buyurdu: “Əbu Süfyanı Məkkə yoluna çıxar, Allah qoşununa tamaşa etsin. Əbu-Süfyan müsəlmanların hərbi təlimlərini görüb dəhşətə gəldi. O Abbasa dedi: “Qardaşın oğlunun səltənəti çox əzəmətlidir.” Abbas dedi: “Bu səltənət deyil, peyğəmbərlikdir. Sonra Abbas dedi: “Get Məkkə camaatının yanına, onları İslam qoşununun qarşısına çıxmaqdan çəkindir.”

Əbu Süfyan məscidül-hərama daxil oldu və camaata üz tutub dedi: “Məhəmməd (s) böyük bir cəmiyyətlə Məkkəyə daxil olur. Sizdə onunla qarşılaşmaq gücü yoxdur. Ya Məscidül-Hərama, ya da evinizə pənah aparın. İslamı qəbul edin ki, salamat qalasınız.”

Həzrət Peyğəmbər (s) Məkkəyə daxil oldu. Məkkədən məxviyanə çıxdığı günü xatırlayıb Allaha şükr olaraq səcdə etdi. Sonra “Fəth” surəsini oxuyub, Məscidül-Hərama daxil oldu. Müsəlmanlar onunla birlikdə təkbir deyirdilər. Peyğəmbər Kəbəyə yaxınlaşdı və bütləri sındırdı. Onun əli Kəbə üzərindəki böyük bütlərə çatmadığından Əliyə (ə) göstəriş verdi ki, ayağını Peyğəmbərin (s) çiyninə qoyub yuxarıdakı bütləri aşırsın. Sonra Kəbə halqasından tutdu və Məkkə əhlindən soruşdu: “Bu gün məndən nə gözləyirsiniz?” Hamı bir ağızdan “əfv” söylədi. Həzrətin (s) gözündə yaş göründü. Ətrafdakılar ağlamağa başladılar. Həzrət Peyğəmbər (s) Yusifin qardaşlarına buyuruğunu xatırladı.[4] Həzrət buyurdu: “Hamı azaddır.” Sonra “La ilahə illəllah ...” deyərək əlavə etdi: “Kimsə

---

[1] “Muhəmməd”, 7
[2] “Nisa”, 17
[3] “Ali-İmran”, 126
[4] “Yusuf”, 92

keçmişdə axıdılmış qanlardan, qarət olunmuş mallardan danışmasın. Keçmişdə baş verənlər keçmişdə qaldı. Hamı əfv edildi. Gedin yeni həyata başlayın!”

## Bildirişlər

1. Yalnız Allahın yardımları sayəsində qələbə qazanılır.
2. Küfr və şirk başçılarının məhvi xalqın tövhid və təkallahlılığa gəlişi üçün zəmin yaratdı.
3. Müsəlmanlar başqalarının da İslama qatılması üçün çalışmalıdırlar.
4. Əgər maneələr aradan qalxsa, insanlar dəstə-dəstə iman gətirər.
5. Məkkənin fəthinədək insanlar tək-tək İslamı qəbul edirdisə, fəthdən sonra dəstə-dəstə axın başladı.
6. Qələbə sizi qürrələndirməsin. Nə var Allahdandır.
7. Allahı bütün eyblərdən pak bilmək onun nemətlərinə şükür, ona təşəkkürlə yanaşı olmalıdır.
8. Allaha təşəkkür, sitayiş və təsbih istiğfar və bağışlanma tələbi üçün müqəddimədir.
9. Qüdrətə çatan saleh insanlar qürrələnmir, ruhunu və canını Allah zikri ilə ətirləndirir.
10. Allah Onun dininə yardım edənləri tənha qoymaz.
11. İstənilən bir şəxs, hətta peyğəmbər təsbih və təmcid söyləsə də, sonda istiğfar etsin.
12. Tövbələri qəbul etmək Allahın sünnəsidir.

# “MƏSƏD” SURƏSİ

## *(111-Cİ SURƏ; 5 AYƏ)*

## *OTUZUNCU CÜZ*

## *“MƏSƏD” SURƏSİNİN SİMASI*

Bu surə Məkkədə nazil olmuşdur, 5 ayədən ibarətdir. Surənin adı onun son ayəsindən götürülmüşdür. Amma bu surə daha çox “Təbbət” surəsi kimi tanınır. Bu surə yeganə surədir ki, orada İslam düşmənlərindən birinin adı çəkilir. Həmin şəxs Quranın lənətlədiyi Əbu Ləhəbdir.

Həzrət Peyğəmbər (s) buyurur: “Hər kəs bu surəni oxusa, ümid edirəm ki, Allah onu Əbu Ləhəblə bir evə gətirməz.”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿تَبَّتْ يَدَا أَبِي لَهَبٍ وَتَبَّ﴾﴿مَا أَغْنَى عَنْهُ مَالُهُ وَمَا كَسَبَ﴾﴿سَيَصْلَى نَارًا ذَاتَ لَهَبٍ﴾﴿وَامْرَأَتُهُ حَمَّالَةَ الْحَطَبِ﴾﴿فِي جِيدِهَا حَبْلٌ مِّن مَّسَدٍ﴾**

**“Kəsilsin Əbu Ləhəbin əlləri, məhv olsun; nə var-dövləti, nə də əldə etdikləri onun halına fayda vermədi; tezliklə şölələnən oda girər; (atəş üçün) odun daşıyan arvadı da; boynundan xurma lifindən ip olar.”**

### Nöqtələr

◘Surə “Təbbət” və “Məsəd” adları ilə tanınır. İmam Sadiq (ə) buyurur: “Bu surəni oxudunuz vaxt Əbu Ləhəbə lənət oxuyun.”[1]

◘“Şuəra” surəsinin 214-cü ayəsi nazil olduğu vaxt həzrət Peyğəmbər (s) yaxınlarını və qohumlarını dəvət edib onlara ilahi vəhyi çatdırdı. Peyğəmbərin (s) əmisi Əbu Ləhəb dedi: “Səni həlak olasan!” Bu surə nazil oldu və dediyi sözlər ona qaytarıldı.”

◘Bu lənət gerçəkləşdiyi vaxt Əbu Ləhəb və arvadı kafir halda dünyadan getdilər. Məlum olur ki, surədə Əbu Ləhəblə bağlı öncə görmə mövcuddur.

◘“Təbbət” sözü “təbb” kökündəndir, ziyan, həlak olmaq mənasını bildirir. “Yəd” dedikdə ayədə fizi əl yox, qüdrət əli nəzərdə tutulmuşdur. Bu səbəbdən ayə belə mənalandırılır ki, Əbu Ləhəbin təlaşları puça çıxdı, o zərərə düşdü.[2]

◘Tarixi mənbələrdə bildirilir ki, həzrət Peyğəmbər (s) insanları “la ilahə illəllah” şuarına doğru dəvət edirdi. Əbu Ləhəb arxadan onu təkzib edib daş atdı. Məkkə ziyarətçiləri bəzən Əbu-Ləhəbin yanına gəlir və ondan Peyğəmbər (s) haqqında soruşurdular. O deyirdi: “Məhəmməd divanədir, biz onun müalicəsi ilə məşğuluq.”[3]

---

[1] “Təfsiri-kənzul-dəqaiq”
[2] “Təfsiri-əl mizan”
[3] “Təfsiri-nümunə”

Əbu Ləhəb heç vaxt Peyğəmbərə (s) qarşı müxalifətdən və Peyğəmbərin (s) müxalifləri ilə həmkarlıqdan əl çəkmədi. Onun arvadı Peyğəmbəri (s) təhqir edirdi. Olsun ki, bu səbəbdən Quranda hər ikisi haqqında danışılır.

◘Surənin ahəngi o qədər təsirli idi ki, hamı onu əzbərləyirdi. Bu iş Əbu Ləhəbi sarsıtdı və xanənişin oldu.

◘Ailə bağlılıqları insanın imanını sarsıtmamalıdır.

◘Əbu Ləhəb və onun arvadı çürüyüb torpağa qarışsa da bu ayələr hələ də oxunur. Onların lənətlənməsi başqaları üçün də ibrətdir. İnsan ölsə də lənətlər onun əzabını artırır.

◘Əbu Ləhəbin Həmzə, Əbu Talib kimi yaxşı qardaşları, Əbdül Mütəllib kimi yaxşı bir atası vardı. Əlbəttə ki, hər kəsin öz hesabı var.

◘Qədimdə çırpı topladıqda onu iplə bağlayırdılar. Onu çiyinlərinə atırdılar. Əbu Ləhəbin arvadı həmin çır-çırpını Peyğəmbərin (s) yoluna tökürdü ki, ona əziyyət versin. Bu səbəbdən Quranda buyurulur ki, o özü qiyamətdə cəhənnəm çırpısı olar və həmin iplər boynuna sarılar.[1]

◘Əbu Ləhəbin Ləhəb adlı oğlu yox idi. Olsun ki, çöhrəsinin qırmızılığına görə Əbu Ləhəb adlandırılmışdır.

◘Əbu Ləhəbin arvadı Ümmü Cəhlin şerləri vardı. Bu qadın Əbu Süfyanın bacısı, Müaviyənin bibisi idi. O qədimdən Peyğəmbərə (s) qarşı kin saxlayırdı. Peyğəmbərin yoluna tikan səpir, təhqiramiz şerlər yazırdı.

◘Qiyamət günü var-dövlət insanın karına gəlmir. İnsana var-dövlətdən, hakimiyyətdən, yaxınlarından, övladlarından heç bir fayda yoxdur.[2]

◘Quranda dörd növ ər və arvad haqqında danışılır: Xeyir işdə həm fikir olan ərlə arvad (həzrət Əli (ə) və xanım Fatimə (s. ə.)), pis işdə həmkar olan ərlə arvad; doğru yolda olan ər və batil yolda olan arvad (Nuh və onun arvadı), doğru yolda olan arvad və batil yolda olan kişi (Firon və onun arvadı).

◘Əbu Ləhəbin arvadının qiymətli bir boyunbağısı vardı. And içmişdi ki, onu Peyğəmbərə (s) müxalifət yolunda sərf edəcək.

◘Həzrət Əli (ə) bir məktubda Müaviyəyə yazır: "Ən üstün qadınlar bizdəndir, odun daşıyan qadınlar sizdən."[3]

◘Salman Farsi Peyğəmbər (s) Əhli-beytindən (ə) sayılır, Peyğəmbərin (s) əmisi Əbu Ləhəb lənətlənir.

◘Əbu Ləhəbin arvadı Peyğəmbərin (s) yoluna tikan səpdiyindən ayədə onun cəhənnəmə çiynində çırpı daxil olmasına işarə edilə bilər.

◘Əl-qol təlaş üçündür. Amma insan doğru yolda təlaş göstərməlidir. Əbu Ləhəb İslama müxaliflik edir, haqq yola qarşı çıxırdı. Onun əl-qolunun təlaşları hədərə getdi.

## Bildirişlər

1. Azğınlardan uzaqlıq dindəndir.
2. Müqəddəsliklərin təhqiri müqabilində cəza əbədi lənətdir.
3. Küfrün tam məhvi üçün dua etmək lazımdır.
4. Müxaliflərə onların özü kimi cavab verin. Onlar Peyğəmbərə (s) nə dedilərsə, Allah onlara həmin sözü qaytardı.

---

[1] "Təfsiri-əl mizan"
[2] "Haqqə", 29; "Əraf", 48; "Ali-İmran", 10
[3] "Nəhcül-bəlağə"

5. İslamda ləyaqət qohumluq bağlılığından müqəddəmdir.

6. Var-dövlət Peyğəmbər müxaliflərinin alətlərindəndir. (Əbu Ləhəb öz sərvətini İslamın məhvi yolunda xərclədi.)

7. Fəsaddan da pisi fəsadın təkrarıdır.

8. Allahın qəhr-qəzəbi qarşısında sərvətin faydası yoxdur.

9. Allahın sitəmkarlara yönəlmiş qəzəbi uzaqda deyil.

10. Dünyada kübarlıq axirətdə təhqirlə sonuclanır.

# “İXLAS” SURƏSİ

### *(112-Cİ SURƏ; 4 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“İXLAS” SURƏSİNİN SİMASI*

Kitab əhli və müşriklərdən bir qismi Peyğəmbərdən (s) istədilər ki, Allahı onlara tanıtdırsın. “İxlas” (“Tövhid”) surəsi Allahın təqdimatıdır. Həmin vaxt bu surə nazil oldu. Bildirildi ki, Allah oxşarsızdır, Onun şəriki yoxdur, O pak-pakizədir.

Surə tövhid əqidəsini ən xalis şəkildə bəyan etdiyindən “Tövhid” surəsi kimi də tanınır.

Surənin fəziləti ilə bağlı bir çox rəvayətlər nəql olunmuşdur:[1]

-Hər gün ən azı bir dəfə bu surəni namazlarınızda oxuyun, sonra deyin: “Kəzalikəllahu Rəbbi” yəni “Mənim Rəbbim belədir”.

-Bu surə əhəmiyyət baxımından Quranın üçdə birinə bərabərdir. Onu bir dəfə oxumaq Quranın üçdə birini oxumaq kimidir. Bu surəni üç dəfə oxuyan sanki bütün Quranı oxumuşdur.

-Həzrət Peyğəmbər (s) buyurur: “Tövhid” surəsi Əli ibn Əbu Talib (ə) kimidir. Hər kəs onu qəlbən sevsə imanın üçdə birini əldə etmişdir. Hər kəs onu qəlbən və dildə sevsə, imanın üçdə ikisini əldə etmişdir. Hər kəs onu qəlbdə, dildə və əməldə sevsə kamil imana sahib olmuşdur.”

-Bu surə namazın təqibatı kimi də tanınır. Rəvayətlərdə bildirilir ki, hər kəs namazdan sonra bu surənin tilavətini tərk etməsə Allah onu dünya və axirət xeyrinə çatdırar, onu, valideynlərini, övladlarını bağışlayar.

-İmam Səcad buyurur: “Allah bilirdi ki, axır dövrlərdə dəqiq və dərin düşünənlər gələcək. Bu səbəbdən də “Tövhid” surəsini və “Hədid surəsinin ilk 6 ayəsini nazil etdi.”

Bu surəni 6 tərəfə oxumaq insanı təhlükələrdən qoruyur.[2]

بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1:***

﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ﴾

**“De ki, O yeganə Allahdır.”**

### Nöqtələr

◘“Əllah” sözü “Vəlihə” sözündəndir. Bu söz heyrət mənasını bildirir. Yəni yaranmışlar ilahi həqiqəti dərk etməkdə acizdirlər, onun zatını tanıya bilməzlər. Həzrət

---

[1] “Təfsiri-nurus-səqəleyn”

[2] “Misbahi-kəfəmi”, s. 246

Əli (ə) buyurur: "Allah sözünün mənası budur ki, o yaranmışları heyrətə salan məbuddur. Çünki gözlərdən gizlidir, düşüncələrdən pərdələnmişdir."[1]

◘"Vahid" və "Əhəd" sözləri arasında fərq var. "Vahid" sözü o zaman işlədilir ki, onun ardınca iki və üç də olsun. "Əhəd" sözü isə yeganə mənasını bildirir. Əgər deyilsə ki, insanın qarşısına bir nəfər çıxa bilməz, bu o deməkdir ki, iki nəfər çıxa bilər. Amma əgər deyilsə ki, bir nəfərin qarşısına kimsə çıxa bilməz, bu o deməkdir ki, onun qarşısına çıxacaq qüvvə yoxdur. "Əhəd" sözü "bir" yox, "yeganə" mənasını bildirir.

◘Tövhid imanla küfr arasında sərhəddir. Tövhidi qəbul etmədən iman qalasına daxil olmaq mümkün deyil. Peyğəmbərin (s) ilk sözü "La ilahə illəllah", tövhid kəlmələri olmuşdur. Tövhid kəlmələri cəmi üç hərifdən təşkil olunmuşdur. (Əlif, lam, ha) Bu kəlmələi zikr edərkən hətta dodaq tərpənmir. Amma tövhidə əməl məsum rəhbərlərə itaətdən başlayıb onların canişinlərinə itaətədək davam edir. Çünki məsum imama inam və itaət tövhid şərtidir.

İmam Riza (ə) Məmunun məcburiyyəti ilə Mədinədən Mərvə hicrət etdi. Nişapura çatdığı vaxt insanlar onun ətrafına toplaşdılar, ondan hədiyyə və göstəriş istədilər. İmam buyurdu: "Atam atasından, o da babasından, o da Peyğəmbərdən (s) belə nəql edir ki, Allah buyurur: "Tövhid mənim qalamdır, hər kəs bu qalaya daxil olsa, mənim qəhr-qəzəbimdən amandadır." İmam sonra buyurur: "Əlbəttə ki, tövhidin şərtləri var. Mən onun şərtiyəm. Yəni vilayətsiz tövhid qəbul deyil." İmam Mehdinin (ə. c.) qeybi dövründə də onun öz göstərişi ilə ədalətli fəqihlərə itaət olunmalıdır. Deməm, kamil tövhid Allahın birliyinə inam, istənilən bir şirk düşüncə və əməldən uzaqlıq, məsum rəhbərə itaət, qeyb dövründə ədalətli fəqihlərə tabeçilikdir.

◘Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) məktubunda yazır: "Əgər Rəbbinin şəriki olsaydı, o da peyğəmbərlər göndərərdi. Beləcə insanlar onu tanıyar, bəndəlik edərdilər."[2]

◘Allahın birliyinin dəlili onun yaratdıqları arasındakı həmahənglikdir. İmam Sadiq (ə) varlıq aləmindəki həmahəngliyi Allahın yeganəlik nişanəsi sayır.[3] Günəş, ay, yer, su, külək, torpaq, başqa yaranmışlar arasında mövcud olan nizam yaradanın yeganəliyindən danışır. İnsan oksigen alıb karbon xaric edir. Amma bitkilər tərsinə, karbon alıb oksigen xaric edirlər. Körpənin ehtiyacları valideyn məhəbbəti ilə ödənir. Piydən yaradılmış göz şor su ilə qorunur. Mədəyə yol olan ağız həzm üçün şirin su istehsal edir, rütubət yaradır.

◘Cəməl savaşında bir bədəvi ərəb həzrət Əlidən (ə) tövhid haqqında soruşdu. Döyüşçülər onun bu sualından narahat oldular. Həzrət buyurdu: "Bizim savaşımız tövhid üçündür." Sonra tövhidin həqiqi mənasını bəyan etdi.[4]

◘Allah təkcə zatı baxımından yox, həm də sifətləri baxımından yeganədir. O biz insanlar kimi deyil ki, sifətləri zatından ayrı olsun. Bizim bu gün elm və gücümüz var. Amma uşaq vaxtı bu sifətlərə malik deyildik. Qocaldığımız vaxt isə həmin sifətləri əldən veririk. Allahın elm və qüdrəti var və O bu sifətləri sonradan qazanmayıb. Elm və qüdrət Allahın zatındadır. Məxluqluq, acizlik, yoxsulluq heç vaxt bizdən ayrı olmayıb və olmayacaq!

**Bildirişlər**

[1] "Bihar", c. 3, s. 222
[2] "Nəhcül-bəlağə", namə 31
[3] "Təfsri-nurus-səqəleyn", c. 3, s. 418
[4] "Təfsiri-nurus-səqəleyn"

1. Peyğəmbərlər vəhy əmanətçisidir. Allah Peyğəmbərə (s) buyurur, o da insanlara bəyan edir.

2. Allah-taala gözlərdən qeybdədir, müşahidə olunmur. (Tövhid əhli inanır ki, gözlər Onu dərk etmir, amma gözlər Onun hüzurundadır)

3. Etiqadi suallara cavab verilməlidir.

4. Həqiqi etiqadları elan etmək lazımdır.

5. Allah istənilən bir baxımdan yeganədir. Onun zatı, sifətləri, elmi, qüdrəti, hikməti yeganədir.

### *Ayə 2:*

**﴿اللَّهُ الصَّمَدُ﴾**

**"Bir Allah ki, hamının məqsədidir."**

### Nöqtələr

◘"Səməd" sözü məqsəd mənasını bildirir. Allah səməddir, yəni bütün mövcudların öz işində məqsədi odur. İmam Cavad (ə) "səməd" sözü haqqında buyurur: "Allah böyükdür, mövcudlar Ona üz tutur, Ona möhtacdır."[1]

◘İmam Hüseyn (ə) Bəsrə əhlinin "səməd" sözü haqqında sualına belə cavab verir: "Səmədin mənası ondan sonrakı cümlələrdir, yəni "ləm yəlid və ləm yuləd".[2]

◘Həzrət Əli (ə) uyğun sözlə bağlı buyurur: "Səməd Allah bir kəsdir ki, nədənsə yaradılmayıb, nəyəsə qatılmayıb, nədəsə qərar tutmayıb. Əşyaların yaradanıdır. Hər şeyi qüdrəti ilə yaratmışdır. Fəna üçün yaradılanlar Onun iradəsi ilə məhv olar. Əbədiyət üçün yaratdığı elmi ilə əbədi qalar."

◘İmam Sadiq (ə) buyurur: "Əgər anlayan kəs tapsaydım həmin "səməd" sözündən tövhid, İslam, imanı anladardım."[3]

### Bildirişlər

1. Bütün mövcudlar istər-istəməz Ona doğru hərəkətdədir.
2. Yalnız O varlıdır, hamı Ona möhtacdır.
3. Üz tutulası yalnız Odur.
4. Mövcudlar bütün işlərində Ona möhtacdırlar.

### *Ayə 3:*

**﴿لَمْ يَلِدْ وَلَمْ يُولَدْ﴾**

**"Övladı olmayıb, kimsənin övladı deyil."**

### Nöqtələr

◘Allahın mövcudlarla rabitəsi doğub-törətmə rabitəsi yox, yaranış rabitəsidir. O mövcudları yaratmış, yəni yoxluqdan varlığa gətirmişdir. Valideyndən olan övlad əslində

---

[1] "Nəcm", 42

[2] "Təfsiri-nurus-səqəleyn"

[3] "Təfsiri-nurus-səqleyn"

onun bir hissəsidir. Amma Allahın növündən heç nə yoxdur və ya Onun hissəsi mövcud deyil.

◘Bir çox müşriklər və kitab əhli Allahın övladı olduğunu düşünürdülər. Bu səbəbdən də öncə övladın olmaması, sonra kimsənin övladının olmaması məsələsi vurğulanır.[1]

◘Mövcudlar nəinki Ondan doğulmayıb, hətta Ondan xaric olmayıb. Meyvə güldən, su buluddan, od ağacdan, söz ağızdan, yazı qələmdən, dad qidadan, düşüncə ağıldan, istilik oddan, soyuq buzdan, düşüncə zehndən, qəm və sevinc qəlbdən xaric olduğu halda yaranmışlar Allahdan xaric olmamışdır.

◘Bu ayə həm məsihilərin İsanın Allahın övladı olması ilə bağlı əqidəsini, həm də yəhudilərin Üzeyrin Allahın övladı olması ilə bağlı əqidələrini rədd edir. Hazırkı ayə müşriklərin mələkləri Allahın qızları saymasına da cavabdır.

**Bildirişlər**

1. Allahın səməd olması, ehtiyacsızlığı Onun övlad və valideynə ehtiyac duymadığına dəlildir.
2. Allahın illətsizdir, nədənsə vücuda gəlməyib.
3. Övlad illətdən yaranmışdır. Onun Allah olması mümkün deyil.

***Ayə 4:***

**﴿وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ﴾**

**"Onun heç bir oxşarı yoxdur."**

**Nöqtələr**

◘"Kufv" sözü oxşar mənasını bildirir.[2] İzdivac bəhsində tövsiyə olunur ki, özünüzə "kufv" olan yoldaş seçin. Yəni seçdiyiniz yoldaş dində, əxlaqda sizə münasib olsun.

◘Allah səməddir yəni O başqalarından ehtiyacsızdır. Belə bir varlığın oxşarı ola bilməz. Çünki Onun oxşarı da ehtiyacsız olmalıdır.

◘Ötən ayə Allahın övlad olmasını, övlada malik olmasını rədd etdi. Bu ayədə isə Onun heç bir zövcəyə malik olmadığı bildirilir. Başqa bir ayədə buyurulur ki, Allah nə zövcə götürmüşdür, nə də övlad![3]

**Bildirişlər**

1. Allaha Onun zatı, sifətləri, felləri baxımından heç bir oxşar yoxdur.
2. Allah oxşarsızdır. Beləcə, varlıq aləmində kimsə ona şərik qoşula bilməz.

---

[1] "Təfsiri-novin"
[2] "Nəhayəte İbn Əsir"
[3] "Cinn", 3

# “FƏLƏQ” SURƏSİ

***(113-CÜ SURƏ; 5 AYƏ)***

***OTUZUNCU CÜZ***

***“FƏLƏQ” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 5 ayədən ibarətdir. Surənin adı onun 1-ci surəsindən götürülmüşdür. “Fələq” dedikdə yarılma mənası nəzərdə tutulur.

Bütün şərlərdən Allahın pak zatına pənah aparılması surənin əsas məzmununu təşkil edir.

Həzrət Peyğəmbər (s) buyurur: “Mənə bu vaxtadək nazil olmamış ayələr nazil olmuşdur. Onlar “Fələq” və “Nas” surələridir.”

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5:***

**﴿قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾﴿مِن شَرِّ مَا خَلَقَ﴾﴿وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ﴾﴿وَمِن شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ﴾﴿وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ﴾**

**“De ki, pənah aparıram sübh ağartısının Rəbbinə; yaratdıqlarının şərindən; hər yeri bürüməkdə olan gecənin qaranlığı şərindən; düyünlərə üfürən ovsunçuların şərindən; həsəd apardıqları vaxt həsədçilərin şərindən.”**

**Nöqtələr**

◘“Fələq” sözü də “fəcr” sözü kimi yarılma mənasını bildirir. Bu söz gecə qaranlığının yarılması və sübh ağartısının görünməsinə işarədir.[1]

◘“Ğasiq” dedikdə gecənin başlanğıcı nəzərdə tutulur.[2] Olsun ki, “ğasiq” dedikdə qaranlıq gətirən bütün mövcudlar nəzərdə tutulur. Mənəvi zülmətə səbəb olanlar da bu qəbildəndir.

◘Şər insanlar öz planlarını həyata keçirmək üçün gecənin qaranlığından istifadə edir. Bu səbəbdən də gecənin şərindən Allaha pənah aparılır.

◘“Nəffasat” sözü “nəfs” sözündəndir. Bu söz üfürmək mənasını bildirir. “Uqəd” sözü düyün mənasını bildirən “əqd” sözünün cəm formasıdır.

◘Bütün şeylərdə şər ehtimalı var. Hətta elm və ehsan, şücaət və ibadət kimi müsbət şeylərdən bəla gözlənilir. Elmin bəlası təkəbbür, ehsanın bəlası minnət, ibadətin bəlası riya, şücaətin bəlası zülm-sitəmdir.

---

[1] “Ənam”, 96

[2] “İsra”, 78

◘Gözlənilən zərərlə bağlı üç nöqtə qeyd etmək olar: hücum hazırlığı, hücum üçün münasib fürsət, zəif nöqtələr. Bəli, düşmən hücuma hazırlaşır, qaranlıqdan və zəif nöqtələrdən istifadə edir.

◘Mənfi təbliğat, şayiələr, qarşı tərəfi səbatdan salmaq üçündür. Necə ki, bəziləri vəsvəsələr və şəkk-şübhə yaratmaqla ərlə arvad arasına fitnə salır.[1]

◘Allah hər şeyi xeyirli yaratsa da, düzgün yolda istifadə edilməyən şey şər gətirir. Dəmir xeyirdir. Amma bıçaq bıçaqdan sui-istifadə edildikdə şər törəyir.

◘"Min şərri ma xələq" dedikdə yaranmışlar tərəfindən şərr nəzərdə tutulur.

◘Təhlükələrdən Allaha sığınmaq təkcə sözlə hasil olmur. Bu istiqamətdə addım atmaq lazımdır. Peyğəmbər (s) əhli-beyti miskini, yetimi və əsiri doyurarkən deyirdilər: "Biz qiyamət günündən qorxuruq."[2] Quran buyurur: "Allah da onları həmin günün şərindən xilas etdi."[3]

◘Bir şəxs öz zahiri çirkinliyindən Peyğəmbərə (s) şikayətləndi. Cəbrail nazil oldu və həmin şəxsə Allahın salamını çatdırıb dedi: "Allah buyurur ki, qiyamət günü Cəbrail kimi gözəl olmaq istəyirsənmi?" Həmin şəxs sevindi və qərara gəldi ki, bütün vacib və müstəhəb ibadətləri yerinə yetirsin."[4]

◘Mütləq bir şər yoxdur. Allah belə bir şər yaratmayıb. Şər gətirən istənilən bir işin xeyir tərəfi var. Necə ki, Mövlanə deyir:

*İlan zəhərində tapılır xeyir,*
*Amma bəzən insandan zərər gəlir.*
*Demək, nisbi olur dünyada pislik,*
*Nəyəsə pis söyləmə birdəfəlik.*

◘Bəzi çətinlikləri şər saymaq olmaz. Bu çətinliklər təkamül səbəbidir. Mövləvi deyir:

*Torpağa sancdılar buğda dənini,*
*Bircə dəndən götürdülər minini.*
*Sonra dəyirmanda çəkdilər onu,*
*Bişirdilər, dəyişdilər adını.*

*Yenidən əzdilər dişləri ilə,*
*Bir güc gəldi həm bədənə, həm əqlə.*
*O can böyük eşqə qurban gedən dəm*
*Yenə oldu hər şey torpağa həmdəm.*

◘Quranda tövsiyə olunur ki, insan öz zövcəsi ilə yaxşı rəftar etsin. Xoşlamadığınız kəsdə də lütflər ola bilər. Bəzən qadın gözəl olmasa da böyük övladlar tərbiyə edir.

◘Bir çox çətinliklər insanların istedadlarını çiçəkləndirir. Çətinlik insanda səbr və müqavimət yaradır, onun qəlbini yumşaldır.[5]

---

[1] "Bəqərə", 102
[2] "İnsan", 10
[3] "İnsan", 11
[4] "Bihar", c. 22, s. 140
[5] "Əraf", 94

◘Gecə ilahi insanlar üçün ibadət məqamıdır. Namərdlər isə gecədən fitnə-fəsad üçün istifadə edir.

◘Dostluq rabitələrini qıran sözlərdən Allaha pənah aparmaq lazımdır.

◘İnsanın Allaha pənah aparması Allahın ona sığınacaq verməsindən asılıdır. Əks təqdirdə pənah aparmaq faydasızdır.

◘Bütün şərlər arasından üç şərin adı bu surədə qeyd olunur: gizlində və qaranlıqda şər; çirkin dillərin şəri; həsəd və rəqabət şəri.

◘Bəzi qadınlar öz gözəllikləri və şirin dilləri ilə kişiləri öz qərarından daşındıra bilər. Bu halda onlar "nəffasat" nümunəsi olur.

◘"Nəffasat" nümunələrindən biri də sehr-cadudur. Bu işi öyrənmək və əməl etmək haramdır.

◘"Min şərri ma xələq" dedikdə bütün şərlər nəzərdə tutulur. Amma xüsusi əhəmiyyət daşıdığından üç şər ayrıca qeyd edilir.

◘Bütün hallarda Allaha sığınmaq zəruridir. Hətta Quran oxuyanda Allahın şərindən Allaha sığın!

◘"Fələq" surəsində ilahi bir sifətə işarə olunur. Bu Allahın "Rəbb" sifətidir. "Nas" surəsində isə əksinədir. Bir təhlükə müqabilində Allahın üç sifətinə pənah aparılır. Bu sifətlər Allahın Rəbb, Məlik və İləh sifətləridir.

### *Həsəd haqqında*

Kamilliyə çatmaq üçün çalışmaq qibtədir və dəyər sayılır. Amma başqalarının kamilliklərini məhv etmək üçün göstərilən təlaşlar həsəddir. Həsəd insanın tutumsuzluğunu, darbaxışlılığını göstərir. Yer üzündə məhz həsəd səbəbindən ilk qətl törəndi və Adəmin övladları arasında dava-dalaş yarandı. Səmada baş verən ilk günahın səbəbi də həsəddir. Həmin vaxt İblis insana həsəd apardı. Hədisdə bildirilir ki, od çırpını məhv etdiyi kimi, həsəd imanı məhv edir.[1]

Peyğəmbər (s) əhli-beyti məhz həsəd ucbatından işdən kənarlaşdırıldı. "Nisa" surəsinin 54-cü ayəsində buyurulur ki, nə üçün Allahın layiqli insanlara lütfünə görə həsəd aparırlar?! Həmin ayədə İbrahim ailəsinə kitab, hikmət və mülk verildiyi bildirilir.

Bütün şərlər arasında ən pisi həsəddir. Çünki həsədçi insan plan cızır, hiylə qurur, müxtəlif şər yollarla məqsədə çatmaq istəyir.

Həzrət Əli (ə) buyurur: "Həsəd təhlükəli xəstəlikdir. Bu xəstəlik yalnız həsəd edənin ölümü və məhvi ilə aradan qalxar."[2] Həsədçi insan əslində Allaha etiraz edir. Belələri başqalarına həsəd aparmaqla Allahın istək və iradəsinə qarşı çıxır. Həsəd aparan insan heç vaxt xeyirxahlıq göstərmir, nəsihət vermir. O başqalarına xeyirdən çəkinir.

◘Quran bir çox günahların kökü kimi həsədi qeyd edir. İmam Sadiq (ə) buyurur: "Küfrün kökü həsəddir."[3] Bəziləri peyğəmbərlərə qarşı çıxır. Özləri kimi birinin peyğəmbər olmasına etiraz edirdilər.[4] Həsəd aparan insanda təvazö və təşəkkür görünməz. Belələri heç vaxt başqalarının kamilliyini etiraf etməz, haqqı gizlədərlər.

[1] "Kafi", c. 2, s. 306
[2] "Nəhcül-bəlağə", hikmət 493
[3] "Kafi", c. 8, s. 7
[4] "Təğabun", 6

Həsəd aparan insan adətən münafiq olur. Həzrət Əli (ə) buyurur: "Onlar zahirdə məhəbbət göstərir, batində kin-küdurət saxlayır."[1]

### *Həsədin kökü nədir?*

Bəzən insanlar arasındakı ayrıseçkilik onlardakı həsəd alovunu qızışdırır. Bəzən insanlar başqalarına imtiyaz verildiyini görüb həsəd aparırlar. Hansı ki, aradakı fərqlər bilinsə sakitləşərlər. Peyğəmbər ailəsində də həsəd özünü göstərmişdir. Həzrət Yaqubun evində övladların həsədi onların öz qardaşlarını quyuya atması ilə nəticələndi. Həsəd təkcə maddi nemətlərlə bağlı olmur. Bəzən insanlar imanlı fərdə həsəd aparıb onu küfrə qaytarmaq istəyirlər.[2]

Məlum məsələdir ki, həsəd sayəsində insan başqalarına məhrumluq arzulayır. Allahdan nemət istəmək həsəd deyil. Həzrət Süleyman Allahdan misilsiz hökumət istədi. Həzrət Əli (ə) "Kumeyl" duasında Allahdan daha çox yaxınlıq diləyir.

◘Həsəd xəstəliyinə əlac etmək üçün düşünmək lazımdır ki, dünya müvəqqətidir, dünyadan ötrü qəmlənməyə dəyməz; bizdə də elə nemətlər var ki, başqalarında yoxdur; nemətlər hikmət əsasında bölünür; neməti çox olan məsuliyyəti də ağırdır.

◘Bilməliyik ki, həsəddən xeyrimiz yoxdur. Allah Onun nemətini görməyən bəndədən lütfünü kəsir. Biz həsəd aparmaqla özümüzə əziyyət veririk.

### Bildirişlər

1. Allaha sığınarkən bunu dilə gətirmək lazımdır.
2. Təhlükələrin çoxluğundan peyğəmbərlər də Allaha sığınmışlar.
3. İnsanın özünü və cəmiyyəti islah etməsi Allaha sığınmadan mümkün deyil.
4. Ətrafdakı şər insanın qəlbini və düşüncəsini buxovladığından bu qıfılları qıracaq bir gücə sığınmaq lazımdır.
5. Duada bütün şərlər müqabilində kömək diləmək lazımdır.
6. Şərlər arasında həsəd, təfriqə, xəyanət, gizli fitnəkarlıq daha ağırdır.
7. Düşmən təbliğatları təsir göstərənədək çalışır.
8. Vəsvəsələr əqidəni süstləşdirir və insan təsir altına düşür.
9. Həsədin Allaha sığınmaqdan başqa çarəsi yoxdur.
10. Zəminələr o zaman təhlükə doğurur ki, fəaliyyət göstərilsin.
11. Bütün insanlarda az ya çox həsəd var. Əsas məsələ həsədin təsiri ilə əməldə addım atmamaqdır. Həsədin əmələ çevrilməsi günahdır.

---

[1] "Ğurərul-hikəm"

[2] "Bəqərə", 109

# “NAS” SURƏSİ

### *(114-CÜ SURƏ; 6 AYƏ)*

### *OTUZUNCU CÜZ*

### *“NAS” SURƏSİNİN SİMASI*

“Nas” surəsi Məkkədə nazil olmuşdur, 6 ayədən ibarətdir. Surənin adı onun 1-ci ayəsindən götürülmüşdür. Surədə Peyğəmbərə (s) göstəriş verilir ki, vəsvəsə edənlərin şərindən Allaha sığınsın. Nu surə “Fələq” surəsinin oxşarıdır. Hər iki surədə Allaha pənah aparılır. Bəzi təfsirçilər onun Mədinədə nazil olduğunu düşünürlər. Amma surədəki ahəng Məkkə surələrini xatırladır.

İmam Baqir (ə) buyurur: “Hər kəs vətr namazında “Fələq” və “Nas” surələrini, eləcə də “İxlas” surəsini oxusa ona deyilər: “Ey Allahın bəndəsi, sənə müjdə olsun, Allah sənin vətr namazını qəbul etdi.”[1]

**بِسْمِ ٱللهِ الرَّحْمنِ ٱلرَّحِيمِ**

***"Rəhman və Rəhim Allahın adı ilə"***

***Ayə 1, 2, 3, 4, 5, 6:***

**﴿قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ﴾﴿مَلِكِ النَّاسِ﴾﴿إِلَهِ النَّاسِ﴾﴿مِن شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ﴾﴿الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ﴾﴿مِنَ الْجِنَّةِ وَ النَّاسِ﴾**

**“(Ey peyğəmbər) De ki, pənah aparıram insanların Rəbbinə, insanların malikinə; insanların məbuduna; şeytanın şər və vəsvəsəsindən; o kəs ki insanların qəlbinə pis fikir salır; istər cinlərdən olsun, istər insanlardan.”**

### Nöqtələr

◘Quranda “qul” (“de”) sözü 300 dəfədən artıq işlədilmişdir. Bu sözlərin əksəri Allahın Peyğəmbərə (s) əmridir. Peyğəmbərə (s) əmr olunur ki, Allahın buyuruqlarını müxaliflərə və münafiqlərə desin.

◘“Vəsvas” sözü həm vəsvəsəçi, həm də vəsvəsə, pis düşüncə mənasını bildirir. Hazırda isə bu söz vəsvəsəçi mənasında işlədilmişdir.

◘Təhlükələrdən qurtarmaq üçün “əuzu” (“pənah aparıram”) söyləmək bəs etmir. Əməldə də təhlükə amillərindən uzaq dayanmaq lazımdır. Bir insan selin qabağında ev tikib onun üzərində “əuzu illahi minəs sil” (“pənah aparıram Allaha seldən”) yazsa, bu iş məsğərə kimi görünər. Allaha sığınan insan əməldə fəsaddan çəkinməlidir.

◘İnsanın ilk ehtiyacı təkamül və tərbiyə, növbəti ehtoyacı siyasət və hökumətdir. Təkamül edən insan ibadət və pərəstişə üz tutur.

◘İnsan sirlərdən, vəsvəsələrdən xəbərdar birinə sığınmalıdır.[1] Allah gözlərdəki xəyanətlərdən, sinələrdəki düşmənçiliklərdən agahdır.

---

[1] “Nurus-səqəleyn”

◘Həzrət Peyğəmbər (s) buyurur: “Şeytan insanın qəlbində rahatlanmışdır. Allah zikri zamanı gizlənir, insan qəflətdə olanda ona vəsvəsə edir.[2]

◘Başqalarını şübhəyə salıb vəsvəsə yaradanlar şeytan işi görürlər. Həzrət Salehin müxalifləri xalqa dedilər: “Siz Salehin Peyğəmbər (s) olduğuna əminsinizmi?” Onlar bu sözləri ilə xalqda şübhə yaratdılar.[3]

◘Quranın başlanğıcında “Bismillah” deməklə Allahdan yardım dilədik. Quranın sonunda da Allaha pənah aparaq.

◘“Xənnas” sözü “xənus” sözündəndir. Bu söz gizlənmək, geri çəkilmək mənası bildirir. Şeytan həm özü məxvidir, həm də onun işləri. Əlbəttə ki, şeytan açıq-aşkar görünsəydi, insanlara hakim ola bilməzdi. Amma o gözəl libasda qəlblərə daxil olub uğur qazanır. Həzrət Əli (ə) buyurur: “Şeytan zahirən bəzənməklə haqqı batilə qatır, bu yolla öz tərəfdarlarına qalib gəlir.”[4]

◘Xənnas olan şeytan müvəffəqiyyətə çatanadək əl çəkmir. Biz də Allah zikrini artırmalıyıq.

◘Quranda dəfələrlə bildirilir ki, insan çətinliyə düşdüyü vaxt dua edir, təhlükə sovuşan kimi Allahı unudur.[5]

◘Vəsvəsələr insanın qəlbinə, ruhuna nüfuz edib onun imanı, əqli və düşüncəsi ilə oynayır. Bu səbəbdən hazırkı surədə üç dəfə Allahın adı çəkilir. “Fələq” surəsində sinələrdən xaricdəki şərdən danışıldı. Bu səbəbdən Allahın adı bir dəfə çəkildi. Bəli, insanın daxilindəki şər, onun xaricindəki şərdən daha təhlükəlidir. İdeoloji düşmənlər hərbi və iqtisadi düşmənlərdən daha təhlükəlidir.

◘Rəvayətdə bildirilir ki, şeytan insan üçün tövbə qapısının açılmasından narahat oldu. Öz yaxınlarını yığıb onlardan kömək istədi. Hərə bir təklif verdi. Nəhayət biri dedi: “Mən insanı vəsvəsə edərəm. Tövbəni ona unutduraram.” İblis bu planı bəyəndi.[6]

◘Allah insanların Rəbbi olduğu halda başqalarının tərbiyəsini qəbul etməyək. Allah insanların maliki olduğu halda özümüzü başqalarına qul etməyək. Allah insanların məbudu olduğu halda başqalarına könül verib əsarətə düşməyək. Belə bir təfəkkür vəsvəsələrdən qurtuluş üçün ən gözəl yoldur.

◘İnsanın qəlbində və ruhunda vəsvəsə yaradan həm cin ola bilər, həm də insan. Bəli, vəd verib onu bu gün-sabaha salmaq özü də bir vəsvəsədir.

◘Şeytanın həzrət Adəm və başqa Allah övliyalarına münasibətdə vəsvəsələri təlqin həddindədir.[7] Amma uyğun vəsvəsələr başqalarının qəlbinə və canına nüfuz edir. Bu o demək deyil ki, çıxış yolu qalmır. Quranda buyurulur ki, şeytan təqvalı insanlara üz tutanda onlar şeytanın nüfuzuna yol vermirlər.[8]

◘“Nas” sözünün təkrarından məlum olur ki, Allahın Rəbliyi, malikliyi, ilahiliyi xüsusi bir fərdə və ya qövmə aid deyil.

◘“Rəbb” sifəti o biri sifətlərdən öncə qeyd olunur. Olsun ki, bunun səbəbi tərbiyəçiyə sığınmanın insan fitrətinə daha yaxın olmasıdır. Uşaqlar bir təhlükə hiss edən

---

1 “Ğafir”, 19
2 “Biharul-ənvar”, c. 67, s. 49
3 “Əraf”, 75
4 “Nəhcül-bəlağə”, xütbə 50
5 “Yunus”, 11
6 “Təfsiri-nurus-səqəleyn”
7 “Taha”, 120; “Həcc”, 52
8 “Əraf” 201

kimi analarına üz tuturlar. Daha sonra güclüdən və növbəti mərhələdə mərhəmət sahibindən kömək istəyirlər.

◘Allah insanın ehtiyaclarından, onu hədələyən təhlükələrdən xəbərdardır. Amma insanın öz ehtiyacını dilə gətirib təvazö göstərməsi onun özü üçün faydalıdır.

◘Həzrət Peyğəmbərin (s) buyuruğuna əsasən, insanın özündən asılı olmayaraq yaranan və həyata keçməyən vəsvəsələr onun üçün qorxulu deyil.[1]

**Bildirişlər**

1. Peyğəmbər vəhy əmanətçisidir və özündən bir söz demir.
2. Təhlükələr o qədər ciddidir ki, Allah öz Peyğəmbərinə Ona sığınmaq göstərişi verir.
3. Allahdan yardım istəmədən şərlə mübarizə aparmaq olmaz.
4. Günahkarlar ümidlərini üzməməlidirlər. Çünki Allah təkcə möminlərin yox, bütün insanların Rəbbidir.
5. Peyğəmbər Allaha sığınan bir vaxtda biz necə rahat oturaq?!
6. İnsan Allahı özünə Rəbb, hakim, məbud seçməlidir.
7. İmansız insan, gücə, çoxluğa, var-dövlətə sığınır. İmanlı insanlar isə varlıq aləminin Rəbbinə, padşahına, məbuduna üz tuturlar.
8. Ən böyük təhlükə batini vəsvəsələrdən ibarət olan ən gizli təhlükələrdir.

[1] "Biharul-ənvar", c. 17, s. 54

# Son söz

Rəvayətdə nəql olunur ki, həzrət Əli (ə) Quranı oxuyub bitirdiyi vaxt belə dua edərmiş:

**Əlhəmdulillahi Rəbbil-aləmin.**